ƏFSANƏSİZ İLLƏR

BİRİNCİ HİSSƏ

BİRİNCİ FƏSİL

Boy-buxun onun, həzin, kədər dolu səs onun. İnsan insana necə də oxşarmış, ilahi! O qəribə, əsrarəngiz axşam, dar, alaqaranlıq küçədə Elməddinə tərəf uzanan o titrək əl, «Ağa, acam» — deyən mükəddər səs bircə anın içində nə vaxtdan öz itkin düşmüş taleyini, öz əlilə isti yuvasından didərgin saldığı sevgilisini səksəkə ilə nigaran baxışlarla gah ümidlə,gah inamsız-inamsız fikrində də, yuxusunda da axtaran oğlanın bütün düşüncəsini, ürəyini alt-üst eləmiş, varlığını elə titrətmişdi ki, gözləri qaralmış, yer-göy başına fırlanmış, alnına soyuq tər gəlmişdi. Yoxa çıxdığı gün yazdığı ilk və son məktubunda özünü «dünyaya bədbəxt gəlmiş» adlandıran Əfsanənin solğun, hüznlü çöhrəsi, göz yaşları ilə yoğrulub süslənmiş faciəli həyatı ani olaraq sehrli bir ecazkarlıqla gəlib onun gözləri qabağında cilvələnmiş və Elməddin hələ özünə gəlməmiş, harasa uçub getmiş, şəhərin tündlüyündə qeyb olmuşdu.

«Ağa, acam!» — deyən çadralı qadının səsi həqiqətən Əfsanənin səsinə oxşayırdı, adı doğrudan da Əfsanə imiş. Ancaq sən demə, bu da taleyin bir oyunu imiş, sən demə, Əfsanə deyilmiş, aman allah, Əfsanə deyilmiş! Kaş bu acı, ürəkoynadan gözyaşardan təsadüf olmayaydı, kaş olmayaydı...

Qadın naməlum kişinin çaşqın halda «Əfsanə» deməsindən dəhşətli bir səs eşidibmiş kimi, səksənmiş, iki-üç addım geri çəkilmiş, ürəyiidə «bu kişi məni hardan tanıyır?» — deyə düşünüb uçunmuşdu. Öz Əfsanəsi olduğuna ürəyində əsla şübhəsi qalmayan Elməddin dil-dodağı əsə-əsə:

— Mənəm, Əfsanə, məni tanımadın?—demişdi. Hürkmüş qadın çadrasının bir tərəfini titrək əlilə azca yan eləyib ona qorxu ilə, maraq dolu nəzərlə diqqətlə baxmış, lakin nitqi batmış təki susub dinməmişdi, eləcə tanımadığı, ancaq adını haradansa öyrənmiş bu qəribə yad kişiyə mat-mat tamaşa eləmişdi. Bu gərgin vəziyyətin nə qədər davam etdiyini Elməddin xatırlamırdı, bircə bu yadında qalmışdı ki, titrəyə-titrəyə qadından təzədən soruşmuşdu:

— Sən Əfsanə deyilsən, xanım?

Qadının zəif, taqətsiz səsi güclə eşidilmişdi:

— Bəli, ağa, Əfsanəyəm. Elməddin hədsiz sevinc içində:

— Ədnan qəryəsindən, eləmi, xanım? Dükandar Həzrətgülün bacısı qızı, eləmi, xanım? — deyə tələsə-tələsə soruşmuşdu. Qəribə idi; sanki o qadın da gözləyirmiş ki, onu da kimsə axtarmalıdı, kimsə kəndbəkənd, şəhərbəşəhər sorağına düşüb bir qarın çörək üçün gəlib-gedənə əl açmalı olan bu qadına havadar olmalı, arxa durmalıdı. Kim bilir, bəlkə də onun üçün belə bir adam yox imiş, özü ürəyində belə bir ümid yaşadırmış? Ancaq Elməddin sövq-təbii hiss eləmişdi ki, Əfsanəyə oxşayan bu qadının geniş açılmış gözlərində nə isə bir ümid qığılcımı parladı da, söndü də; o, məyus halda çadrasını üzünə çəkmiş və astadan:

— Yox, ağa, siz səhv eləyirsiz, ağa. Mən... Mən Ədnandan deyiləm, buradanam, ağa! — demişdi.

Bu sözləri eşidəndə Elməddinin əl-qolu yanına düşmüş, sanki ayağı altından yer qaçmış, dörd tərəfi ucalı-alçaqlı dağlarla əhatə olunmuş bu boyda minarəli məscidləri, dam-daşı ilə bərabər bəlalı başına dolanmış, dərdli sinəsindən yandırıb-yaxıcı bir ah qopmuşdu; elə bil içərisinə isti qan axıb tökülmüşdü. Bədəni isinmiş, az sonra isə bütün vücudunda giziltili bir soyuq gəzib-dolaşmışdı. Özünə gələndə əl atıb cibindən pul çıxararaq o bədbəxtə vermək istəmiş, ancaq pul əlində qalmışdı, çünki o, artıq Elməddini küçənin ortasında tək-tənha qoyub uzaqlaşmışdı.

...Elməddin əlini üzünə çəkdi, sanki bu ağır və üzücü fikirləri başından qovmaq istəyirdi. Cibindən siqaret çıxarıb yandırdı, xiyabanyuxarı addımlamağa başladı. Hara getdiyini heç özü də bilmirdi, məst kimiydi. Yuxu görmüşdü elə bil. Eşitdiklərinin, gördüklərinin həqiqət, yaxud xəyal olduğunu ayırd edəsi halda deyildi. Bir vaxt başını qaldıranda «Sinema-Pamir»in[1] qənşərinə çatdığını gördü. Kinoteatrın qabağında qələbəlik idi; xatırladı ki, şəhərdə təzə amerikan filmi nümayiş etdirilir. Casusların həyatından bəhs etsə də, son dərəcə maraqlı olsa da, hövsələsizliyi üzündən oturub axıra qədər baxa bilməyəcəyini hiss edib sovuşdu.

Hava sərin idi. Yüngül meh əsir, Elməddinin açıq yaxasından içəri dolub canını sərinlədirdi. İkimərtəbəli kinoteatrın kəlləsinə bərkidilmiş reproduktordan hind musiqisi axıb ətrafa yayılır, yəqin ki, çox gözəl və yəqin ki, alnında xalı olan hind qızı hansı bir mahnınısa yanıqlı bir səslə oxuyurdu. Hind mahnısı elə gözəl, elə şirin idi ki,

[1] Kinoteatr adıdır.

ürəyini tel-tel elədi. Elməddinin qəlbi xatirələr içində kövrəldi — Əfsanənin səsi, sözü, gözləri xəyalında təzədən, kim bilir, neçənci dəfə cilvələndi, qalın, qara buludlar arasından sivrilib arabir çıxan ay kimi gözə görünüb yox oldu. Sonu görünməyən, əzabı yaraya basılmış duz kimi yandırıb-yaxan bu ayrılıq indi Elməddinin nəzərində ən müdhiş ağrıdan belə dəhşətli və dözülməz idi. Unudurdu yavaş-yavaş müruri-zamanla o dözülməz, cavan ürəyini öz rəhmsiz əllərilə didim-didim parçalayan o dərd unudulurdu deyəsən: Zərrintac xanım — ağayi Nəcməddinin qəşəng, sevimli qızı Zərrintac xanım son vaxtlar onu məşğul etməyə, maraqlandırmağa başlamışdı. Aralarında nə isə şirin əyləncəli bir münasibət yaranmışdı axır zamanlar. Bax, indi də o, Zərrintacın dəvətilə onun yanına, görüşə gedirdi. Gedirdi, ancaq taleyin işinə bax ki, yolunun üstünə eynən Əfsanəsinə oxşar, Əfsanə adlı bir qız çıxdı: bu təsadüf idimi, ya taleyin hökmü idimi, Elməddini bu yoldan qaytarmaq üçün qurğumu qurmuşdu: məhz bu məqamda o, əsl bədbəxt Əfsanə, o naməlum qadının şəxsində qarşısında zühur etmişdi və sanki demək istəmişdi: «Getmə, Elməddin. Qayıt bu yoldan, daşın bu fikirdən. Yorulma məni axtarmaqdan, mən ölməmişəm, mən qüruruma sığışdırmayıb evdən çıxıb getmişəm, getdiyimə də peşmanam, indi geri qayıda bilmirəm. Axtar məni, gec-tez tapacaqsan, Elmi... Məni nə tez unutdun, Elmi? Mən elə bilirdim sən məni torpağa qoyulan günəcən, hətta torpağın altında da unutmazsan, əzizim, sənin vəfan bu imiş, ay mənim arzusu gözündə qalanım, arzumu gözümdə qoyanım?»

Elməddin məst adam kimi addımlayırdı və sanki bayaq Əfsanəyə oxşatdığı o qadın, kölgə təki onun ardınca sürünür, eynilə əsl Əfsanənin səsinə oxşar səsilə bu sözləri onun qulağına pıçıldayır və hələ deyəsən bir zaman — Ədnanda bir damın altında yaşarkən Əfsanə üçün sızıldaya-sızıldaya yazdığı şeri də həzin-həzin Elməddinin özünə deyirdi:

Gözümün nurusan, qəlbimin odu,
Yamacda çiçəksən, zirvədə qarsan.
Sənsiz bu dünyada yaşamaq çətin:
Bu qəmli dünyada nə yaxşı varsan!

O, küçədə tək addımlayırdı. Bu sözləri Elməddinin ürəyində qərar tutmuş, gözəgörünməz, əlçatmaz, ancaq arabir unudulmaq dərəcəsinə gəldiyini görəndə, hiss eləyəndə korun-korun alışıb-yanaraq

şölə saçan məhəbbəti həsrəti deyirdi. Bəli, Elməddinin ürəyi danışırdı Əfsanənin adı ilə, Əfsanənin səsi ilə. Sanki o itməmişdi, ölməmişdi, onun daxilində sakin olmuşdu — indi isə dilə gəlmişdi, dözməmişdi, sevdiyinin Zərrintac xanımın yanına getmək istədiyini biləndə susa bilməmişdi.

Bu qatmaqarışıq, çarpaşıq hisslər əlində çırpına-çırpına on-on beş addım getmişdi ki, böyründə, xiyabanın sağ tərəfində qara rəngli bir «Şevorele» markalı maşın dayandı və sükan arxasında oturan adam başını açıq pəncərədən çıxarıb onu səslədi:

— Ağayi Elməddin, gəlin əyləşin.

Başı dumandan ayazımamış, sarsıntısı hələ sovuşub keçməmiş Elməddin heç nəyin fərqinə varmadan: «evə gedəcəyəm, heç özümdə deyiləm, ayaq üstə küclə dayanıram!» — deyə fikirləşərək, ləngərli addımlarla maşına doğru irəlilədi, arxa oturacağın qapısının məxsusi onun üçün açıldığını görüb mindi və adəti üzrə salam verdi. Salamının cavabını almamış maşın sürətlə yerindən tərpəndi. Elə tərpəndi ki, təgərlərdən tükürpəşdirici bir uğultu çıxdı və bu səs onu silkələykb ayıltdı; yalnız indi başa düşdü ki, mindiyi, maşın nə qəryədar Qulamın qardaşı oğlu Ətiqullanın, nə öz sürücüsünün, nə də başqa bir tanışınındır — sükan arxasında oturan kişi, enlikürək, cod qarasaçlı kişi də, arxada, yanında əyləşmiş caydaq, nazikbığlı cavan oğlan da Elməddinin birinci dəfə gördüyü adamlar idi. Üşürkələmdi, nə isə pis bir hiss ürəyinə axıb doldu, ancaq qəti bir fikrə gələ bilmədiyindən sadəlövhcəsinə soruşdu:

— Bağışlayın, sizi tanımadım, siz... — o, sözünü tamamlamamış sürücü sürəti daha da artırıb başını azca yana əyərək yoğun, xırıltılı səslə cavab verdi:

— Biz isə sizi çox yaxşı tanıyırıq, ağayi Elməddin. Onun yanında oturan oğlan arxayın-arxayın əlavə etdi:

— Siz Ədnan qəryəsindən gəlmisiniz, itkin düşmüş sevgilinizi axtara-axtara gəlib paytaxta çıxmısınız, rəssamsınız, əhli-qələmsiniz, özünüzü də yağlı bir yerə — ağayi Nəcməddinin idarəsinə vermisiniz, orada işləyirsiniz... — Ani sükutdan sonra xəbər aldı: — Bunlar hələlik kifayətdi, ya yenə sayım?

Elməddin heyrət içində donub qalmışdı, Əfsanəyə oxşatdığı o naməlum qadınla başkicəlləndirən görüşü yadından çıxmışdı. İndi düşdüyü bu vəziyyətin nə demək olduğunu aydınlaşdırmaq istəyirdi, ancaq axırını heç yerə yoza bilmirdi. Bu adamlar kim idilər, onu har-

dan tanıyırdılar və nə istəyirdilər? «Bu axşam nə uğursuz axşamdı, ilahi, Allah axırını xeyir eləsin!» — deyə düşündü və yavaşca:

— Yox, kifayətdi, ağa! — dedi, lakin yenə marağını saxlaya bilmədi: —Amma mən sizi tanıya bilmədim, ağa. Siz kimsiniz axı, məndən nə istəyirsiniz?

— Biz... Səbir eləyin, ağayi Elməddin, tanış olacağıq! — deyə sürücü aramla dilləndi. — Xəstə tələsər, amma armud vaxtında yetişər, ağa!..

Elməddin anladı bu nə deməkdi: «Artıq danışmağın mənası yoxdu!» Əl-ayağı soyumuş, bu qəfil görüşdən yaxşı heç nə gözləməyən Elməddin dolanbac yolları burula-burula dağlara doğru qalxmış maşının açıq pəncərəsindən boylandı və başa düşdü ki, şəhər artıq arxada qalıb, evlərin, küçələrin işıqları duman içində parıldayan ulduzlar kimi getdikcə kiçilir...

Ancaq bu zaman o əməlli-başlı qorxuya düşdü, başında nə isə bir qəzavü-qədər olduğunu anlayıb titrədi və özünə də qəribə görünən kəskin bir hərəkətlə əlini qapının dəstəyinə atıb qışqırdı:

— Saxla maşını, saxla sənə deyirəm!

Cavan oğlan şəhadət barmağını uzadıb qapının düyməsini basaraq gülümsünə-gülümsünə söylədi:

— Belə hövsələsiz olsanız sizinlə söhbətimiz tutmaz, ağa. Səbirli olun, dəlilik eləməyin, bunun sizə ancaq ziyanı dəyə bilər.

— Axı siz məni hara aparırsınız, məndən nə istəyirsiniz? — deyə Elməddin çılğınlıqla yanındakı cavana sarı dönəndə onun əlində parıldayan tapançanı gördü və özünü lan itirdi. Gah oğlanın qaranlıqda güclə seçilən sifətinə, gah da tapançaya baxaraq tərpənməyin, əlqol ataraq müqavimət göstərməyin mənasız olduğunu dərk edib susdu. Neçə dəqiqə heç kəs dinib-danışmadı. Az sonra hündür qayanın dibində maşın dayandı, sürücü açarı burub motoru söndürərək geri qanrıldı və sınayıcı bir nəzərlə ona baxıb qımışdı. Elməddnnə siqaret uzatdı, o lal-dinməz sitareti alıb damağına qoydu. Kök kişi alışqanla onun siqaretini yandıranda zəif işıqda Elməddinin ağarmış, soyuq tər gəlmiş sifətinə diqqətlə fikir verib dedi:

— Ağciyər adama oxşayırsınız, cənab, nədən qorxursunuz?

— Heç nədən qorxmuram.

— Hətta ölümdən də?

— Bəli, hətta ölümdən də! — «Ölüm» sözünü xüsusi vurğu ilə söylədi və onların qabağında belə danışa bilməyindən özünün də xoşu gəldi. — Ancaq kişi gərək faydalı bir iş üstündə ölsün, heçin-

puçun üstündə yox. İnsan həyatı bax sənin bu dostunun əlindəki tapançanın gülləsinə bənzər; o güllə ömründə bircə kərə atılar, onu ikinci dəfə ata bilməzsən, ağa. Əgər o, hədəfə dəyirsə, demək onun güllə həyatı hədər getmir, boşa çıxırsa, demək ömrü də puç olur. İnsan da belədi, ağa. O da bu güllə kimi bir dəfə yaşayır, bir dəfə ölür. İnsanın yaşamağını demirəm — bu, hamıya məlumdur — onun gərək ölümü də mənalı olsun, gözəl olsun. Yersiz, məqsədsiz ölümlər, boş yerə atılmış güllələrə bənzəyir, ağa.

Elməddin əvvəllər belə məsələlər barəsində heç düşünməmişdi, ömrün mənası, şirinliyi, kərəkliyi haqqında da bu ana qədər ürəyinə heç nə gətirməmişdi. Yusifin başına gələn müsibət, doğrudur, onu qəlbən qocaltmışdı, filosof eləmişdi, bir az kövrəltmişdi. Ancaq indi, söhbət onun öz həyatı üstündə getdiyi anlarda, hələ axırı nə ilə qurtaracağı məlum olmayan bu müdhiş dəqiqələrdə Elməddin sanki birdən-birə müdrikləşmişdi: gözünü açandan ona ancaq əzab-əziyyət, göz yaşı, qəm-qüssə bəxş etmiş bu dünya bircə anda elə şirinləşmişdi ki, o şirinliyi, o ləzizliyi heç nəylə əvəz etmək olmazdı. Görəsən, onda bu hissləri doğuran qaranlıq maşının içində soyuq lüləsi par-par parıldayan buzürəkli tapança idimi ki, buzürəkli bir adamın əlində ölüm saçan tək gözünü bərəldib ona baxırdı? O, həyatında nə görmüşdü, nə yaşamışdı ki? O hələ bundan sonra yaşamalı, işləməli, yaratmalı idi. Heyf! Axı nə üstündə, hansı günahına görə onu öldürmək istəyirdilər? Suala cavab tapa bilmədi və sinəsini acı bir təəssüf hissi yandırıb-yaxdı. Kök kişi ilə cavan oğlan Elməddinin bayaq dediyi sözləri eşidəndə mənalı-mənalı baxışdılar; kök kişi siqaretniə son qullabı vurub kötüyünü çırtma ilə pəncərədən çölə atdı, iri əlilə az qala ağzının üstünü örtmüş qara bığına tumar çəkərək:

— Başınız yaxşı işləyir, əliniz də belə yaxşı işləsə, onda bizim etimadımızı doğrulda bilərsiniz!—deyib gülümsündü.

— Anlamadım sizi, ağa?—deyə Elməddin bu atmacalı söhbətlərdən bezdiyini bildirən bir ahənglə səsini ucaltdı. — Siz açıq danışmırsınız, məndən nə istədiyinizi, məqsədinizi deməkdən çəkinirsiniz.

Kök kişi yenə gülümsündü:

— Səbrinizi də yoxlayırıq, ağayi Elməddin. Bu imtahandan da pis çıxmadınız. İndi sizinlə ətraflı danışmaq olar;

— Buyurun...

— Əvvəla, onu deyim ki, sizinlə elədiyimiz bu söhbət elə burda da qalmalıdı. Başqa bir kimsə bilməməlidir. Əgər ağzıbütöv olma-

sanız, onda özünüzdən küsün, başınızla cavab verəcəksiniz... Aydındır?

—…

— Deyirəm aydındır?

— Bəli.

— İkincisi, bilməlisiniz ki, biz çox mötəbər bir təşkilatın üzvüyük. Bizim üçün həyatımızdan da əziz olan bu xalqın, çörəyini yediyimiz bu doğma vətənin əmri ilə hərəkət edirik: xainlər, satqınlar ömründə bir xoş gün görməmiş, var-yoxunu yadların talayıb apardığı bu xalqın halal çörəyini yeməməlidir, bu torpağın can dərmanı olan havasını udmamalıdır, ağayi Elməddin. Belə adamlara qarşı biz amansız olmuşuq, gələcəkdə də amansız olacağıq: elələrinin ölüm hökmünü də özümüz veririk, özümüz də icra eləyirik. Bunu da bilməlisiniz ki, bizim kəsdiyimiz başın sorğu-sualı yoxdur.

Elməddin bir az toxtadı; anladı ki, bunların nə isə başqa məqsədləri var, onu heç də öldürmək niyyətində deyillər, hansı bir təşkilatın isə, özləri demiş, çox mötəbər bir təşkilatın üzvləridirlər; əgər, onların dedikləri həqiqətdirsə, bu təşkilat çox gərəkli və nəcib bir təşkilatdır. Amma bəs bu tapança və ölüb-öldürmək məsələsi nədir? — Elməddin bunu heç cür anlaya bilmirdi. Dedi;

— Bütün bunların mənə nə dəxli var, ağa?

— Sizə dəxli yoxdur, ancaq sizin ən yaxın dostunuza aidiyyəti var.

— Kimdir o? — deyə Elməddin tələsik xəbər aldı. — Kimdi mənim yaxın dostum?

Sakit, soyuqqanlı bir cavab eşitdi:

— Məhəmməd Şəfi Rəhgüzər!

Elməddinin başına elə bil çəkiclə vurdular, gözlərinin qabağında qığılcımlar oynadı, dili tutuldu, nə isə demək istədi, etiraz eləmək istədi, ancaq səsi boğazında ilişib qaldı, qorxmuş adam kimi kəkələdi.

— Eşitdiniz, ya bir də təkrar eləyim? — deyə kök kişi eyni soyuqqanlılıqla soruşdu və cavab közləməmiş Elməddinin çox istədiyi əziz adamın adını təzədən dilinə gətirdi. — Bəli, Məhəmməd Şəfi Rəhgüzər.

Araya ürəksıxıcı sükut çökdü. Haradasa ildırım çaxdı, ətəyində dayandıqları qayalarda qəribə bir şaqqıltı eşidildi, uzaqdakı dağın başı ildırım işığında ani olaraq görünüb itdi. Elməddin siqaret yandırdı, sümürüb təmkinlə söylədi:

— Yox, ağa, siz yanılırsınız. Görürsünüz, sizin nahaq sözünüzə göylər də etiraz edir. Nəyə desəniz and içə bilərəm ki, səhv eləyirsiniz. Bu torpağın şair oğlu Məhəmməd Şəfi satqın, xain deyil, ola da bilməz. Kaş bu millətin onun kimi çox demirəm, yüzcə nəfər oğlu olaydı, ağa. Onda bu xalq beş-on nəfər zalımın əlində xar-zəlil olmazdı. Yox, o, satqın deyil, xain deyil.

— Sizdən yaxşı vəkil də olar, ağayi Elməddin. Ancaq təəssüf ki, Məhəmməd Şəfi haqqında ölüm hökmü çıxaranda sizi vəkil kimi məhkəməyə dəvət etməyi unutmuşuq. Kecdir, artıq hökm çıxarılmışdır və onu siz, bəli, siz yerinə yetirməlisiniz. Təəccüblənirsiniz? Təəccüblənməyin, quşu quşla tutarlar, ağa.

Kök kişi danışırdı, lakin Elməddin onun nə dediyini daha eşitmirdi. Xəyalı ustadının yanına qanadlanmışdı, onun isti, hərarət dolu ocağının başında qanad çalırdı. Mehriban ailəsini — Məleykə xanımı, bir-birindən məsum uşaqlarını görür, odlu-alovlu, dərdli-ələmli şerlərini eşidir, şairin bitib-tükənməyən arzularının işığından gözləri qamaşırdı. Və bu işığın içində Məhəmməd Şəfinin yanar ürəyini görürdü — bu xalq üçün, bu torpaq üçün yanan ürəyini, indi sən işə bax ki, onu bu hərzə-hərzə danışan, kimliyi, nəçiliyi məlum olmayan adam satqınlıqda təqsirləndirirdi. Artıq hökm də çıxarılıb. Sən bir ədalətsizliyə bax! Özü də bu hökmü Elməddin yerinə yetirməlidir — dost qatili, ustad qatili olmalıdır. Bu, heç ağlabatan iş idimi?!

Elməddin yerindən tərpəndi, digəldi:

— Yox, yox! — deyə qışqırdı. — Ola bilməz. Mümkün deyil. Mən namərd deyiləm, alçaq deyiləm, belə nakişilikmi olar? Əvvəl məni öldürün, bildiniz... Mən onu öldürməyəcəyəm. Siz məni öldürün, eşidirsiniz? — Sonra saiki ürəyi boşaldı, sakit və toxtaq halda, çarəsiz adamlar kimi xeyli susub:—Mən hazıram, sizin o gözəgörünməz, adıbilinməz təşkilatın əmrini yerinə yetirmədiyim üçün məni elə buradaca güllələyə bilərsiniz, — dedi. — Özü də qorxmayın, mənim heç kəsim yoxdur, itirib-axtaranım da olmayacaq, tək oğlanam.

— Bu, sizin qəti fikrinizdi?

— Sən yaşamaqdan belə bezmisən?

— Yox, bezməmişəm. Ancaq mən dost qatili kimi yaşamaqdansa, günahsız qurban olmağı daha üstün tuturam. — Bunu deyib maşından düşdü, ulduzlu göylərə baxdı, sonra yaxasını açaraq xırıltılı bir səslə:

— Öldürün! — dedi. — Öldürün!

Kök kişi tələsmədən, arxayın bir hərəkətlə maşından düşüb Elməddinə sarı gəldi, qaranlıqda o, kişinin əlinə baxdı. Əlində heç nə yox idi — nə tapança, nə bıçaq. Heç nə demədən qoluna girdi, qaytarıb maşında əyləşdirdi. O, taqətsiz idi, qıçlarında güc qalmamışdı. Başını qabaq oturacağa söykəyib:

— Alçaqlar! — deyə ağlamaqdan özünü zorla saxlayaraq pıçıldadı.

İKİNCİ FƏSİL

İldırım nahaq çaxmırmış, bir azdan Elməddin maşından düşüb Rəhgüzərgilin qapısı ağzına çatanda çisələmə yağış başladı və getdikcə gücləndi. Küçə fənərinin işığında iri yağış damcıları aydın görünürdü.

Qapını Məleykə xanım açdı. Elməddin az qala salam verməyi də yaddan çıxarıb tələsik özünü həyətə saldı. Qadın ona «xoş gəldin» eləyəndən sonra ayılan kimi oldu, salam verdi. Məleykə çaşqınlığından, ağappaq ağarmış sifətindən o dəqiqə anladı ki, Elməddinə nə isə olub. Hərəkətlərində bir ürkəklik vardı, pencəyinin yaxası, başı açıq idi. Darvazadan içəri girərkən də, həyətdən keçib artırmaya çıxarkən də elə bir gözü arxada idi; elə bil, daldan kimsə onu qovurdu, indicə çatıb tutacaqdı. Məleykə xanımı şübhələndirən həm də bu idi ki, indiyəcən Elməddin bircə dəfə də olsa gecənin belə vədəsində onlara gəlməmişdi.

Artırmada, gur işıq altında Məleykə səbrini basa bilməyib təzədən soruşdu:

— Axı sənə nə olub, Elməddin qardaş? Elməddin sol əlini islanmış saçlarında gəzdirib süni surətdə gülümsəməyə çalışdı:

— Heç nə, vallah...

— Belə, birtəhərsən ey. Elə bil səni qovurlar, dalınca düşüblər.

Bu sözü eşidəndə o, təkrarən qeyri-iradi olaraq dönüb darvazaya sarı baxdı və mümkün qədər özünü tox tutmağa çalışaraq:

— E, yox! Kim qovacaq məni? — dedi. — Ustadla vacib bir işim var. Təkdi?

— Xeyr, yanında adam var.

Məleykə nigaran baxışlarla Elməddini süzdü. Onun körkəmi nədənsə qadının canına səbəbini hələ özü də anlamadığı bir üşütmə saldı. «Yox, nə isə var!» Ərinin başına nə isə bir iş gələcəyinin daimi qorxusu içində yaşayan Məleykə belə hallarda, özü demişkən, ölüb-

dirilirdi, gedib o dünyanı görüb qayıdırdı. O, ana sövq-təbiisi ilə uğursuz günlərin birində qapılarının beləcə döyüləcəyini, ərinin ya ölüm, ya tutulması xəbərinin gətiriləcəyini həqiqətdə olmuş hadisə kimi aydın görürdü və elə hey, hətta kişi evdə, gözünün qabağında olanda da səksəkə, qorxu və nikarançılıq hissi ilə ömür sürürdü.

Onda mən içəri girməyim, zəhmət olmasa, ustadı bir dəqiqəliyə bura çağırın, Məleykə bacı. — deyə Elməddin nə edəcəyini bilməyən adam təki ora-bura vurnuxa-vurnuxa aralıq otaqda gəzişdi: — Çox xahiş edirəm, onu çağırın...

— Keç içəri də, elə burda dayanmayacaqsan ki...

— Yox, bura yaxşıdı, tələsirəm.

Məleykə xanım sual dolu nəzərlərlə Elməddinin üzünə baxıb mütərəddid addımlarla yaşıl rəngli qapının arxasında itdi və az sonra geri qayıtdı.

— Deyir ki, gəlsin içəri, özgə adam deyil.

Elməddnn əvvəlcə döyükdü, amma ayrı çarə görməyib otağa girdi. İri, işıqlı iş otağında, yazı mizinin arxasında ustaddan başqa, arxası qapıya tərəf, enlikürəkli, cod saçlarına çal düşmüş bir kişi oturmuşdu, iki əlini də stolun ustünə qoyub nə isə oxuyurdu. Etinasız idi, heç tərpənmədi, çevrilib gələnə baxmadı da. Ustad Elməddini görən kimi kreslodan qalxdı, irəli yeridi, dostunun sifətinə diqqətlə baxıb gülümsünə-gülümsünə əlini sıxdı;

— Xoş gəlmisən, qardaş!

— Sağ olun, ustad. Necəsiniz?

— Yaxşıyam, keç əyləş.

— Yox, oturmayacağam, sizinlə təcili işim vardı. Şəfi özünə xas mehribanlıqla əlini cavan dostunun çiyninə qoyub yenə mənalı-mənalı gülümsünürdü;

— Keç otur, çaydan-zaddan iç, bu gün heç bir təcili iş ola bilməz. Həm də — o, azca yana çevrilib başı ilə qonağına işarə elədi: — həm də bizim möhtərəm yoldaşımızla tanış olarsan.

Elməddin bayaqdan yerindən qımıldanmayan kişiyə tərəf boylanıb təkcə ustadının eşidə biləcəyi bir səslə:

— Yox, ustad, vallah, çox vacib söhbətim var sizinlə! — dedi. — Siz bilsəniz ki, necə mühüm işdir, belə sakit dura bilməzsiniz.

Elə bu zaman bayaqdan onun gəlişinə məhəl qoymayan enlikürək kişi çevrildi və mehriban bir tərzdə:

— Gəl otur, ağayi Elməddin — dedi. Fikri-zikri ustadda olan Elməddinin bu səsi eşidəndə tükləri ürpəşdi, qulaqları guruldadı, bütün

vucudunu üşütmə bürüdü. Bu, bayaq onunla maşında zəhmlə danışan kişi deyildimi? O, qeyri-iradi olaraq qabağa keçdi, onun qənşərində dayandı, gözlərini geniş açaraq o kişiyə — Şəfinin «möhtərəm yoldaşımız» adlandırdığı adama diqqətlə baxdı, baxdı. Alışqan işığında, maşında siqaret yandıranda üzünə fikir vermişdi, ağ yanağındakı xalı yadında saxlamışdı. Ancaq bəs bığı? Axı o, bığlı idi. İri, qara, üst dodağını tamamilə örtən bığı vardı onun. Amma bu ağa, bu «möhtərəm yoldaş» bığsız idi! Baxışları rastlaşdı ani olaraq kişi eynən maşındakı kimi gülümsünəndə ətli yanağı azca qabardı və Elməddində daha heç bir şübhə yeri qalmadı ki, bu, həmin adamdır; çaşdı, bilmədi onun üstunə atılıb yaxasından yapışsın, ya söysün. Bəlkə, o, öz qara niyyətini həyata keçirmək üçün buraya gəlib — ustadı məhv etmək istəyir? Bəs onda Şəfinin «möhtərəm yoldaşımız» sözlərini necə başa düşməli?! Bu, nə müəmmadır? O, qəti bir qərara gəlməmiş, kişi ayağa qalxdı və irəli gəlib iri, kobud əlini ona uzatdı:

— Gəlin tanış olaq, qoçaq oğlan! — dedi və Rəhgüzərə baxıb göz vurdu. — Bayaq maşında adımı sizə deməmişdim. Mən Ziyaülhəqqəm, ağayi Elməddin.

Elməddin gah kişiyə, gah ustadına ötəri nəzər salıb tərəddüd içində ona əl verdi. Ziyaülhəqq can-dildən gələn bir səmimiyyətlə, hərarətlə Elməddinin xırda, zərif əlini möhkəm-möhkəm sıxdı, elə sıxdı ki, o, ufuldamaqdan özünü güclə saxladı, sonra böyük qardaş, yaxud ata ədasıyla onu özünə tərəf çəkib alnından öpdü, qoluna girərək divanda, yanında oturtdu:

— Sağ ol, Elməddin. Dəyanətindən, mərdliyindən və ustadına olan məhəbbətindən xoşum gəldi, halal olsun ananın südü sənə. Mən heç təsəvvür eləyə bilməzdim ki, sən ustad Məhəmməd Şəfini belə böyük məhəbbətlə sevə bilərsənmiş. Bu məhəbbətlə ancaq fəxr etmək olar.

Elməddin sehrlənmiş kimi olmuşdu. Anlar keçdikcə fikri aynıyır, iki-üç saat bundan qabaq başına gətirilən o «oyunun» mənasını yavaş-yavaş anlayır, özünü qorxaq, ağciyər yox, ləyaqətlə aparmağından yana ürəyinə axıb dolan nəhayətsiz sevinc, bayaq çəkdiyi əzabların, əsəbiliklərin, qəlbində o naməlum adamlara qarşı coşub-qaynayan nifrətin, kinin-küdurətin üstünə su çiləyib öləzidir, onu fərəhləndirirdi. «Demək, bunlar məni sınayırmışlar, yoxlayırmışlar. Heç ağlıma gəlməzdi. Bəlkə də haqlıdırlar, bəlkə də elə-belə lazımdı. İndi elə zamandı ki, hər kəsə, hər «dostam» deyənə inanmaq, etibar eləmək olmaz. Bunların nə isə böyük bir məramı var». Ziyaül-

həqqin maşında öz gizli təşkilatlarının məram və məqsədi haqqında dediyi sözlər, Elməddinin qulaqlarında yenidən səsləndi: «Biz çox mötəbər bir təşkilatın üzvüyük. Bizim üçün həyatımızdan da əziz olan bu xalqın, çörəyini yediyimiz doğma vətənin əmri ilə hərəkət edirik; xainlər, satqınlar ömründə bir xoş gün körməmiş, var-yoxunu yadların talayıb apardığı bu xalqın halal çörəyini yeməməlidir, bu torpağın can dərmanı olan havasını udmamalıdır, ağayi Elməddin. Belə adamlara qarşı biz amansız olmuşuq, gələcəkdə də amansız olacağıq, elələrinin ölüm hökmünü də biz özümüz veririk, özümüz də icra eləyirik...»

Elməddin o sözləri xatırlayıb: «Əgər həqiqətdirsə, nə gözəl məramdır?! Əgər həqiqətdirsə və ustadım bu yolun yolçusudursa, mən də onunlayam. Ömrümün axırına qədər onunlayam» — deyə düşünür, bu gün qəribə bir şəraitdə tanış olduğu və özünü Ziyaülhəqq adlandıran adama diqqət yetirir, onun zabitəli, çılğın bir kişi olduğunu güman edirdi.

Məhəmməd Şəfi isə lal-dinməz oturmuşdu, işıqlı, qəşəng gözləri bəxtiyarlıqla, minnətdarlıq hissilə parıldayırdı, Bu heç nəylə alınıb-satılmayan sevinc, xoşbəxtlik onu sanki cavanlaşdırmışdı, lap qayğısız, dərdsiz, qəmsiz bir uşağa döndərmişdi. Heç nə demədən, yerdən göyə qədər razılıq hissilə gözlərini qıyıb elə hey gülümsünürdü.

Aradakı sükut mənalı idi. Hər kəs öz aləmində götür-qoy edir, düşünüb-daşınırdı, hərəkətini ölçüb-biçirdi. Ziyaülhəqq də məmnun idi, çox məmnun idi. O, belə sınaqlardan yaxşı çıxan adam görəndə fərəhindən yerə-göyə sığışmaz, ləyaqətli, mərd bir yoldaş, silahdaş tapdığına yamanca sevinərdi. Əksinə, qorxağa, canını, həyatını əqidəsindən, millətindən, torpağından çox istəyənə rast gələndə, məyus olurdu, sıxılıb-balacalaşırdı və belələrinin dünyada yaşadığına təəssüflənərdi. «Kişisənsə, ömrünü kişi kimi yaşa, başa vur, ölüm onsuz da haqdır, hələ heç kəs ondan yaxasını qurtara bilməyib...» — Onun fəlsəfəsi belə idi və əlliillik həyatının çox hissəsini, ağlı kəsəndən bəri belə yaşamışdı.

Ziyaülhəqq Elməddini birinci dəfə bu gün görsə də, əslində onu çoxdan tanıyırdı. Şəfinin söhbətlərindən onun ömür yolunu, başına gələn qəzavü-qədəri müfəssəl öyrənmişdi və bu sınağa gedərkən hökmən mərd çıxacağına nə isə onda əvvəlcədən bir yəqinlik hasil olmuşdu.

— Məndən, ümid edirəm ki, inciməzsən, elə deyilmi? — deyə nəhayət Ziyaülhəqq Elməddinə müraciət edəndə o, yerində qurcalanıb:

— Əsla, ağayi Ziyaülhəqq, incimək nədir? Əksinə, mən çox şadam. Şadam ki, siz məni sınamaq fikrinə düşmüsünüz. Mən bilən, siz hər adamı sınamırsız... — dedi.

— Tamamilə doğrudur... Ən ləyaqətlilərini, bəyəndiklərimizi, ümid bəslədiklərimizi sınayırıq... Onların da arasından ən yaxşılarını seçirik, ağayi Elməddin...

Elməddin siqaret yandırmaq üçün qurdalandı, ancaq nə isə fikrini dəyişdi. Ziyaülhəqq onu başa düşdü, ona papiros təklif etdi. Elməddin təşəkkür edib siqareti yandırdı. Ziyaülhəqq üzünü bayaqdan bir kəlmə də kəsməyən Şəfiyə tutdu:

— Şəfican, nə susmusan? Ağzına su almısan nədir? Məhəmməd Şəfi güldü:

— Sən elə bir iş görmüsən ki, daha danışmağa söz də tapmıram, Ziya. Uşağı qorxuzmusan yamanca.

— Uşaq niyə olur? Maşallah, yekə kişidir. Özü də sənə deyim ki, çox ağıllı kişidir. Sən gərək, o, güllə qabağında filosofluq eləyəndə özün orada olaydın, görəydin, eşidəydin bu «uşaq» necə ağıllı kəlamlar söyləyirdi.

— Mən sizə demişdim ki, o, etibarlı adamdır, ona inanmaq olar. Mənim balaca qardaşımı çox yüngülvarı da yoxlamaq olardı, ancaq nədənsə siz lap ağır imtahana çəkmisiniz Elməddini.

Ziyaülhəqq qalın, çatma qaşlarını alnının ortasına qaldırdı:

— Bəli, demişdin Şəfi. Ancaq bizim ayrı çarəmiz yoxdur, qardaş. Biz kərək seçdiyimiz, ümid bəslədiyimiz adamları novruz bayramı qabağı yumurta döyüşdürən uşaqlar kimi, dişimizə vuraq, bərkliyini-boşluğunu yoxlayaq. Biz daha heç vaxt, heç nədə səhv eləyə bilmərik, Şəfi. Sənin yaxşı yadındadı ki, bir kiçik səhvimiz bizə neçə yoldaşımızın qanı bahasına başa gəldi. Onların qanı bizim boynumuzdadı, Şəfi. O ki, qaldı ağayi Elməddinə, onun qorxmağına, eybi yoxdur. Rusların böyük sərkərdəsi Suvorov buyurub ki, təlimdə çətinlik çəkən əskər üçün döyüş asan olur. Qoy Elməddin dostumuz bəri başdan bu yolun çətinliyini, həm də şərəfli olduğunu yaxşı-yaxşı dərk eləsin. Bu yol ki biz seçmişik, onda hər cür əzab-əziyyət — həbsxana da, dar ağacı da ola bilər. Süst, qorxaq, əqidəsi möhkəm olmayan adamları biz öz cərgəmizə — ocağımızın başına buraxa bilmərik! — O, yenə nə isə demək istəyirdi ki, ara qapı cırıltı ilə açıldı və Məleykə xanım, artıq gecə saat birə qaldığına baxmayaraq, əlindəki sinidə

üç balaca dəm çaydanı, üç piyalə, noğul qabı içəri daxil oldu. Ziyaülhəqq sözünü kəsdi, Məleykə xanıma sarı dönüb:

— Gecənin bu vaxtı nə əziyyət çəkirdiz, Məleykə xanım? — dedi.

— Heç bir əziyyəti yoxdur.

— Amma, Məleykə xanım, dilim belə deyir, ürəyim çay istəyir. İçəcəyik. Siz əla çay dəmləyirsiniz, bacım. Közünə hil də vuranda lap olur əlayul-əla!

— Çox sağ olun, Ziya qardaş. Görünür, siz Şəfi ilə sözləşibsiniz. Biz sizdə olanda Şəfi sizin xanımınızı tərifləyir, bizdə olanda da siz məni... — deyə Məleykə ərinə baxıb qımışdı.

Şəfi güldü:

— Görürsən, Ziya, bu arvadları məclisə buraxmaq düz deyil, hər şeyə fikir verirlər. — Sonra Məleykəyə müraciət elədi. — Nə oldu sənin yeməyin bəs, ay Məleykə? Qardaşın da — o, Elməddipi göstərdi, — acdı, həm də bir az qorxub, elə qorxub ki, bir saatdı burdadı, hələ də özünə gəlməyib.

Elməddin zarafata salmaq istədi:

— Zarafat eləyirlər, Məleykə bacı.

Bayaq onun qeyri-adi hərəkətlərindən şübhələndiyini xatırlayan qadın yenə Elməddinə ötəri nəzər salıb:

— Bayaq üzünə baxan kimi bildim ki, uşaq qorxub. Zarafat-zad eləmirlər, lap düz deyirlər. Nə olmuşdu ki, məgər?

Şəfi əlini dizində gəzdirib!

— Əşi heç, iki quldur istəyirmiş onu soysun, — dedi və Ziyaya göz vurdu.

Məleykə şəhadət barmağını dodaqlarının üstünə qoyub:

— Bıy, bismillah! —dedi. — Görürsən sən allah? Elə Şəfi düz deyir ki, məmləkətin sahibi yoxdur. Bu da işdi, sən allah, kim kimi harda istəyir soyur, öldürür?!

3iyaülhəqq qımışa-qımışa:

— Darıxma, Məleykə xanım, sən yemək-içməyimizi gətir, məmləkətin sahibi olacaq! — söylədi.

— Çayınızı için, bu saat hər şey gətirəcəyəm, — deyən Məleykə otaqdan getdikdən sonra Ziyaülhəqq yenə Elməddinə məmnun nəzərlərlə baxıb əvvəlki söhbətin üstünə qayıtdı:

— Mən gələn kimi sənin söhbətimizin hamısını dostum Şəfiyə danışdım. Sənin hərəkətlərin əsl kişi, əsl comərd hərəkəti idi. Şəfi elə mütəəssir oldu ki, gözləri yaşardı.

— Mən ustadı çox istəyirəm, ağayi Ziyaülhəqq. Mənim ustadım bizim vətənin elə oğludu ki, onun həyatı üçün tək mən yox, çox cavanlarımız sinəsini güllə qabağına verər. O, xalqımızın dərdlərini, arzularını bəyan eyləyən kəsərli dilidir, vətən torpağının bir parçasıdır. Ağayi Ziyaülhəqq, millətini, doğulduğu diyarı sevən hər qeyrətli kəs, ustadı sevməyə bilməz. Sevənlər isə heç nədən qorxmurlar.

Ziyaülhəqq onların söhbətinə qulaq asan və ömrünün bəlkə də ən bəxtiyar dəqiqələrini yaşayan Şəfiyə baxıb göz vurdu:

— Bu dərya imiş, Şəfi. Sağ ol, oğlum, halal olsun. Şəfi, sən doğrudan da yanılmamısan. O, — deyə Ziyaülhəqq başı ilə yuxarıya işarə elədi və kimi isə — özündən böyük bir adamı xatırlatdı ki, adını Elməddin bilmirdi: bu işarəni təkcə Şəfi başa düşdü, — yaman maraqlanırdı və eşidəndə çox sevinəcək.

Elməddin anladı ki, bu iki nəfərdən — Şəfidən və Ziyaülhəqdən də böyük bir şəxs var ki, o da onunla maraqlanırmış və imtahandan yaxşı çıxdığını eşidəndə çox sevinəcək. Varlığını küman elədiyi, adını eşidib üzünü görmədiyi o adamı görmək arzusu baş qaldırdı ürəyində Elməddinin.., və bu arzu çox küclü idi.

...O gün, o gecə Elməddinin yaddaşına həmişəlik həkk olundu.

ÜÇÜNCÜ FƏSİL

3ərrintac eyvandakı kresloda əyləşmişdi. Qarşısındakı dördkünc, alçaq jurnal stolunun üstündəki piyalədə məxməri çay buğlanırdı. Əyninə güllü parçadan isti xalat geymiş qız əllərini qoynuna qoyub fikrə getmişdi, gözləri yol çəkirdi. Nigaran idi, Elməddin dünən axşam gəlməli idi, amma gəlib çıxmamışdı. Nədənsə Zərrintac keçən gün çox istəyirdi ki, onunla görüşsün, söhbət eləsin. Söhbət də olmasa, elə-belə otursunlar, baxsınlar bir-birinə, — bu istək qəlbini elə sarmışdı ki, vaxt keçdikcə, oğlan gəlib çıxmadıqca qız bir yerdə qərar tutmamış, gah evə girmiş, gah eyvana çıxmış, yollara baxmaqdan darıxmışdı. Onun bu narahatlığını atası da hiss eləmişdi, ancaq üzünə vurmayıb bir söz deməmişdi.

İki-üç dəfə evə zəng çalmışdı, ancaq dəstəyi götürən olmamışdı. Demək yox idi, harasa getmişdi. Bəs hara? Gecə keçəndən sonra da ondan bir xəbər çıxmadı. Bu gün isə bütün gecəni narahat yatan Zərrintac yuxudan ayılanda gördü ki, Elməddindən küsüb. Ona görə

səhər də zəng eləmədi, harda olduğunun, niyə gəlmədiyinin səbəbi ilə maraqlanmadı.

İndi gözləri yol çəkirdi. Fikri-düşüncəsi pərişan idi. Çayı çoxdan soyumuşdu, çay içmək həvəsi də sönmüşdü. Qalxıb aynabəndin açıq pəncərəsindən həyətə boylandı. İlıq payız günəşinin qızılı telləri ağacların qızıllaşmağa başlayan yarpaqlarında oynayırdı. Göyərçinlər dirəyin üstündəki yuvalarından yerə enib quğuldaya-quğuldaya dənlənir, dolçadan su içirdilər. Dəstədən ayrılıb divarın dibinə çəkilmiş ağ köyərçinlə abı rəngli köyərçin tüklərini qabarda-qabarda bir-birilə döşləşir, yaxınlaşıb-uzaqlaşır, sonra yenə mehriban olurdular, ağ köyərçin dilini çıxardır, abı köyərçin isə dimdiyini ayırıb onun dilindən qəribə tərzdə öpürdü. Göyərçinlərin belə ünsiyyəti Zərrintacın ürəyində kövrək, şirin və anlaşılmaz hisslər doğurur, Onu daha da kədərləndirirdi. Zərrintac sadəlövhlüklə düşünürdü ki, kaş adam göyərçin dilini biləydi, görəydi o bəxtəvərlər nə danışır? Ancaq heyf ki, insan belə qüdrətə malik deyil. Ona bax, nökər Əbdül də darvazanın ağzındakı daşın üstündə oturub necə də maraqla onların öpüşməsinə tamaşa eləyir, hərdən də bic-bic qımışır? Görəsən o nə düşünür? Qəribə adamdı o da: heç danışıb-eləmir, elə bil ki, dili yoxdur. «Bəli», «xeyr»dən başqa Zərrintac ondan ayrı söz eşitməmişdi. Neçə aydı Əbdül onlarda yaşayırdı. Ağayi Nəcməddin özü gətirmişdi — öz şirkətinin aşxanasında işləyirdi Əbdül neçə il idi. Çox dadlı, ləziz xörəklər bişirərdi. Ən ümdəsi o idi ki, Əbdül əliəyri deyildi, təmiz adam idi. Dünyada yeganə qayğısı ancaq bir qarın çörək, bir dəst paltar, isti yatacaq yeri idi. Vəssalam. Varlığı, yoxluğu bilinməzdi. Həqiqətən buna Zərrintac tezliklə əmin oldu — qadın kimi səliqəli idi, həyətbacaya, ev-eşiyə elə baxırdı ki, elə bil - hər şey özünün idi. Nəcməddinin də, Zərrintacın da maşınını elə yuyub təmizlərdi ki, lap üstünə yağ tök yala, şəklin üstünə düşərdi, ayna kimi parıldayardı. Səhərdən axşamacan — əl-ayaq, qonaq-qara çəkilib gedənəcən ayaq üstə olardı, yan yerə qoymazdı. Gecələr nə vaxt gəlsəydin, Əbdül oyaq idi.

Nəcməddin yatmışdı. Bu, onun günorta yuxusu idi. Adət eləmişdi; arvadı — Zərrintacın anası öləndən sonra nahar yeməyini yeyib saat yarım dincələrdi... Kişi oyaq olsaydı, yenə ata-bala ordan-burdan danışardı, sıxıntı keçib-gedərdi.

Yenə həyətə göz gəzdirdi. O iki göyərçin bir-birindən doymaq bilmirdi; elə bil onlardan biri harasa uzun müddətə getmişdi, çoxlu, lap çoxlu həsrət çəkmişdilər.

Zərrintac Əbdülün göyərçinlərə tamaşa etməkdən həzz aldığını görüb onu dilləndirmək qərarına gəldi:

— Əbdül?

Əbdül, xanımın səsini eşidib dik atıldı:

— Bəli, xanım.

— Yaxın kəl görüm.

Əbdül nazlanan, sevib-sevilən, nəvazişlə bir-birinn xoşbəxt edən göyərçinləri uçurtmasın, hürkütməsin deyə dövrə vurub demək olar ki, qaça-qaça eyvanın altına gəldi və başını qaldırıb altdan-yuxarı Zərrintaca baxdı. Zərrintac dirsəklərini eyvanın ağ rəngli sürahisinə söykəmişdi, gün işığında kəhrəba kimi parıldayan ipək saçları üzü-aşağı tökülmüşdü. Xalatının açıq yaxasından ağappaq sinəsinin bir parçası aydın görünürdü. Əbdül heç nəyə — nə qızın ipək saçlarına, nə qəribə bir parıltı ilə yanan gözlərinə, nə də açıq sinəsinə fikir vermədən iri, göy gözlərini xanımın ağzına dikib:

— Hə, xanım? — dedi.

Zərrintac kənarda bayaqdan yorulmaq bilmədən mazaqlaşan o iki göyərçini göstərdi:

— Onlar neyləyirlər elə, Əbdül?—deyə şeytan-şeytan qımışıb xəbər aldı.

Əbdül Zərrintac xanımın məhz hansı köyərçinləri nəzərdə tut-duğunu o dəqiqə anlayıb:

— Eləyirlər də, xanım, — dedi və sanki utanıb başını aşağı saldı. Zərrintac yenə bic-bic qımışıb israr etdi:

— Nə eləyirlər axı?

Əbdül əlini təmiz qırxılmış çənəsində gəzdirib:

— Dimdikləşirlər, xanım! — dedi.

— Bəlkə öpüşürlər, ədə?!

— Öpüşürlər, xanım.

— Bəs deyirsən dimdikləşirlər?

— Hə, dimdikləşirlər, xanım.

— Yox ey, ay səfeh onlar öpüşürlər.

— Hə, düz deyirsiz, xanım, öpüşürlər. Zərrintac Əbdülün gah nala, gah mıxa vurmasına yaman bərk güldü:

— Ay səni öküz vursun, Əbdül. Qəribə adamsan. Yaxşı, mə-nim bir sualıma cavab ver, Əbdül.

— Buyur, xanım.

— Ömründə heç öpüşmüsən? Əbdül təəccüblə:

— Mən, xanım?

Zərrintac bu dəfə lap ürəkdən güldü:

— Yox, mən! Əlbəttə, səni deyirəm!

Əbdül yenə başını sinəsinə endirdi, çənəsini qaşıdı, sanki kimisə indiyəcən öpüb-öpmədiyini xatırlamaq istəyirmiş kimi ani fikrə getdi. Azacıq sükutdan sonra:

— Uşaq vaxtı, xanım! — dedi.

— Uşaq vaxtı?

— Bəli, xanım.

— Kimlə, Əbdül?

— Anamla, xanım.

— Bəs sonra, cavan vaxtı...

— Xeyr, xanım!

— Heçç?

— Heçç, xanım! —deyə Əbdül də qeyri-iradi «heç» sözünü Zərrintac kimi uzada-uzada söyləyib susdu. Onsuz da gödəkboylu adam olan Əbdül bu sözdən sonra elə bil bir az da balacalaşdı. Zərrintacın haradasa, qəlbinin dərinliklərində ona yazığı gəldi. «Dünyada nə görübsən bəs, ay biçarə? Sən heç yaşamamısan ki?» — deyə ürəyindən keçirtdi. Əbdülün yaşı çoxdan qırxı adlamışdı. Saçları qapqara şəvə kimi idi, ancaq kicgahlarının tükü ağarmışdı. Uzun çənəsi, iri alnı, qonur gözləri vardı, Bədəni sağlamdı, güclü idi. Lakin nə olsun ki, belə bir adam ömrünü insan kimi yaşaya bilməmişdi. Zərrintacın atası onu ilk dəfə evə gətirərkən dediyi sözləri xatırlayıb:

— Qibləgahım söyləyirdi ki, sən heç evlənməmisən,— dedi. — Bu, doğrudu?

Əbdül sinədolusu ah çəkdi:

— Bəli, xanım.

— Bəs niyə evlənməmisən, Əbdül? Əbdül yenə köks ötürdü:

— Eh, xanım, səbəbi çoxdur.

— Nədi, məsələn?

O, üstü deşik-deşik ayaqqabısının ucu ilə torpağı qurdalaya-qurdalaya dedi:

— Kimdi mənə qız verən, xanım? Ömrüm boyu onun-bunun əlinə baxmışam, bir qarın çörəyə möhtac olmuşam.

Zərrintac düşündü: «Yazıq dərdli imiş. Danışdıranda danışırmış, biçarə! Mən də deyirəm bunun dili-ağzı yoxdu?

— Səni evləndirsəm, evlənərsən? Əbdül yenə çənəsini qaşıdı, təəccüblə:

— Məni, xanım? — dedi.

— Yox, məni! Əlbəttə, səni.

Əbdül ömründə kimsədən belə söz eşitməmişdi. Heç kəs indiyəcən ona bu cür təklif eləməmişdi. Uzun illər bundan qabaq çirkli, cır-cındır paltarlar içində, dalanlarda, parklarda, uçuq-sökük evlərin divarları dibində yaşayıb gecələyəndə, cavan ürəyinin qaynar, ehtiraslı hissləri coşub-tüğyan eləyəndə kasıblıq, yurdsuzluq bu təbii arzunu utandırıb öldürmüşdü. İnsan həyatının güllü-çiçəkli yazı sayılan gənclik illərində o şirin arzu yerin dərinliklərində pıqqır-pıqqır qaynayan, ancaq özünə çıxış yolu tapa bilməyən və buna görə də yavaş-yavaş zəifləyib boğulan çeşmə kimi Əbdülün ürəyində tədricən ölüb getmişdi. İndi isə... Əbdül səsində dərin bir hüzn söylədi:

— Sağ olun, xanım. Ömrünüz uzun olsun, xanım. Gərək deyil. Mən istəmirəm ki, balalarım bu fani dünyada mənim çəkdiklərimi çəksinlər, mənə lənət oxusunlar, necə ki, mən öz valideynimi qarğışla, nifrətlə yad eləyirəm. — O, dərindən köks ötürüb əlavə elədi: — Əgər qovmasanız, ömrümün axırına qədər sizə, bu halal ocağa qulluq eləyəcəyəm. Ağamdan da, sizdən də, — Allah ikinizə də uzun ömür versin, — yerdən göyəcən razıyam. Sizdən bircə təmənnam budu ki, bir gün bu dünyadan köçəndə məni adam kimi beş arşın ağa büküb dəfn elətdirəsiniz, meyitim sahibsiz, yersiz-yurdsuz adamların meyiti təki ortalıqda qalmasın. Bircə təmənnam bu olacaq sizdən, xanım.

Əbdülün kədərlə dediyi bu sözlərdən sonra Zərrintac xanım susdu, heç nə demədi. Diqqətlə onu təpədən dırnağa qədər süzüb çəkdi. Əbdül isə çiynində ağır, gözəgörünməz yük aparırmış kimi ləngərli addımlarla göyərçinləri ürkütməmək üçün kənardan dövrə vurub kölgəsayağı uzaqlaşdı, həyətin o başında yerləşən hücrəsinə girəndən sonra Zərrintac xanım göyərçinlərə nəzər saldı. Qəribə idi. Ağ, dişi göyərçin indi başqa birisini — xınayı xallı köyərçini yanmamışdı və eyni əda ilə, tüklərini qabarda-qabarda onun ətrafında fırlanır, naz eləyirdi...

Ağayi Nəcməddin gərnəşə-gərnəşə eyvanda görünəndə Zərrintac yenə öz kreslosunda oturmuşdu. Qız atasına fikir verdi. Gözləri şişmişdi, qızarmışdı. Ağ saçları pırtlaşıq idi. Açıq yaxasından görünən sinəsinin tükləri pambıq kimi ağarırdı. Qız onun qırışmış alnına, torbalanıb sallanmış buxağına baxıb qəmli-qəmli düşündü; «Qibləgahım qocalır, özünü şax tutmağa çalışsa da qocalır kişi».

— Deyəsən, təzədəm çayın var, qızım? — deyə əsnəyə-əsnəyə keçib o biri kresloda oturdu, ayağını ayağının üstünə aşırdı.

— Hə, qibləgahım. Əla çaydı. — Qız piyaləyə çay süzdü. Nəcməddin qırmızı noğuldan bir dənəsini ağzına atıb ciyərparasına baxdı, çaydan qurtum-qurtum içdi.

— Gözümə bikef dəyirsən, qızım?

Zərrintac əlini xalatının yaxasında, düymələrində gəzdirə-gəzdirə:

— Darıxıram, qibləgahım, — dedi.

— Niyə, qızım, — Nəcməddinin səsində heyrət hiss olundu.

— Heç özüm də bilmirəm. Ancaq anlayıram ki, bu bir həyat deyil biz yaşayırıq.

— Nə danışırsan, qızım? Sənin nəyin çatmır ki, bala? Bəlkə bir arzun var, istəyin var, mənə demirsən? Bilirsən ki, qibləgahın...

— Yox, qibləgahım. Heç bir arzum-filanım yoxdu. Kim bilir, bəlkə də elə ona görə darıxıram ki, ürəyim bomboşdur, arzum-məqsədim yoxdur? Həyatımız yaman maraqsızdı, qibləgahım...

Zərrintacın məyus-məyus dediyi bu sözlər Nəcməddini tamam ayıltdı. Kişini fikir götürdü. İndiyəcən onu ən xoşbəxt qız hesab edirdi; heç nəyin dərdini çəkməyən, hər şeyi olan bir qız... Amma gör o nələr danışırdı. Görünür, gözünün ağı-qarası olan bircə qızını da o qədər var-dövlətlə xoşbəxt eləyə bilməyib? Demək, firavan həyat, naz-nemət, zər-ziba, geyim-kecim, maşın-filan hələ səadət deyilmiş? Bəs səadət, bəxtiyarlıq nədədir görəsən? Bu yaşadıqca doymaq mümkün olmayan dünyada? Yox, qız daha yetişib, çoxdan yetişib, onu ərə vermək gərəkdir. Öz evi, öz ailəsi olar, oğul-uşaqı olar, başı qarışar, onda həyatda, dünyada yaşamaq da onun üçün toy-bayrama, şadlığa, sevincə çevrilər. Bir cəhətdən uşaq düz deyir, mənim də başa düşdüyüm, ancaq nədənsə dilimə gətirməyə belə cəsarət eləmədiyim bu fikirləri o söyləyir. Mən özüm də darıxıram. Evə, eşiyə, şəhərə sığışmıram, bir yerdə qərar tutub qala bilmirəm. Nə yaxşı ki, o gözəl-göyçək Dünya xanım varmış, yoxsa bağrım çoxdan çatlamışdı. Məni yaşadan pul-para, var-dövlət deyil, Dünyadı, mənim şirin, doyulmaz Dünyamdı».

Nəcməddin çoxdan demək istədiyi, ancaq ürək eləmədiyi üçün susduğu fikri, nəhayət, münasib məqam düşdüyünə görə dilinə gətirdi:

— O gün əlahəzrətlə ova gedərkən işarə elədi ki, mənnm gəlinim necədi? Dedim əlinizi öpür, əlahəzrət, ömrünüzə duaçıdı. Səni kiçik oğluna almaq istəyir, qızım.

— O idbara, o adamaoxşamaza?—deyə Zərrintac az qala qışqırdı.

— Niyə elə deyirsən, qızım? Mən onu lap yaxından görmüşəm. Sən deyən qədər də idbar deyil. O sənə yaxşı ər olar, can bala. Onda belə darıxmazsan, həyatın tamam dəyişər, mən də arxayın olaram.

— Yox, qibləgahım. Mən ona ərə getməyəcəyəm. Əxlaqsızın, əyyaşın biridi. Şəhərdə gəzmədiyi, bədbəxt eləmədiyi qız yoxdu. Bunu birdəfəlik yadında saxla, qibləgahım. Özümü öldürərəm, ancaq ona... getmərəm. Hər nə desən, qulunam. Ancaq, icazə ver, ərə getmək məsələsində.. Mən özüm...— Zərrintac doluxsunmuş halda üzünü yana çevirdi və heç bircə dəqiqə keçməmiş, bu söhbətə xitam verdiyini bildirmək üçün qalxıb həyətə endi.

Nəcməddin ev paltarının cibindən siqaret çıxarıb yandırdı, eyvanda var-gəl eləməyə başladı. Buradan qarşıdakı dağlar əzəmətlə görünürdü. Dağın zirvəsində ağ tırım kimi qar ağarırdı. Bir az aşağıda iki qartal uçurdu. Şəhərin, dağların ətəyinə söykənən yerində uşaqlar havaya çərpələng buraxmışdılar.

Nəcməddinin ürəyi sıxıldı. Keçib içəridə geyindi və çoxdan bəri fikrində dolandırdığı qərarı qəti surətdə yerinə yetirəcəyinə özündə, axır ki, təpər tapdı. Demək olar ki, bir uşaq cəldliyi ilə pillələri qaça-qaça düşdü. Həyətdə, öz maşınının yanında qurdalanan Zərrintacı tapdı və dedi:

— Qızım, icazə ver, gedim Dünya xanımı evimizə gətirim, çox xahiş edirəm, yox demə. — Sonra yalvarıcı səslə əlavə etdi: — İcazə ver, qızım. Mən də belə yaşaya bilmirəm. O gəlsə, bəlkə həyatımızın axarı dəyişir. O, çox yaxşı qızdı, bala. Şəndi, oynaqdı, deyib-güləndi. Qoymaz bizi darıxmağa.

Zərrintac atasının düz gözlərinin içinə baxdı və onlarda kədərli bir yalvarış oxudu. Nədənsə içəridə qəlbi əsdi — ancaq səbəbini anlaya bilmədi. Anlar keçəndən sonra birdən-birə anası yadına düşdü. Atası anasının, əziz anasının yerinə təzə arvad gətirmək istəyirdi. Özü də kimi? Kimliyi, əsli-nəsli məlum olmayan bir qızı! Ürəyində bir gizilti gəzdi. Etiraz eləmək, «olmaz» demək istədi, ancaq dodaqları tərpənmədi. Əlini maşının açıq qapısının üstünə qoyub handan-hana aciz və yazıq bir tövrlə:

— Bəs camaat nə deyər, qibləgahım?! — deyə bildi.

— Tüpürüm camaata! Kim nə deyir, qoy desin. Mənə dəxli yoxdur. Mən camaat üçün yaşamıram, özüm üçün yaşayıram, qızım.

—…

— Həyatımız tamam dəyişəcək, görərsən, qızım, dəyişəcək.

Zərrintacın atasına yazığı gəldi. Kişi baxışları ilə, bütün vücudu ilə yalvarırdı. «Bəlkə kişinin ömrü uzandı» —deyə düşündü və səssizcə, başını tərpətməklə «hə» — dedi.

Nəcməddin sevindiyindən bilmədi neyləsin, özünü itirdiyindən kəkələdi, nəhayət, toxtayıb qızının başını sinəsinə çəkib alnından öpdü:

— Çox sağ ol, qızım — dedi.

DÖRDÜNCÜ FƏSİL

Nəcməddin Dünyanı çox istəyirdi. Buna, bəlkə də, indiki cavanların xeyli hissəsinin başa düşdüyü mənada, sevgi demək olmazdı. Ömrünun odunu söndürüb külü ilə oynayan ahıl, saç-saqqalı çoxdan ağarmış bir kişi ilə həyatının güllü-çiçəkli yazını yaşayan, cazibəli, gözəl gəlini bir-birilə bağlayan tellər, əlbəttə hamının anladığı, hiss edə biləcəyi məhəbbət deyildi və ola da bilməzdi. Bəli, Dünya qəşəngdi, təsəvvür olunacağından qat-qat qəşəngdi; bu qəşənglik təkcə cavanlıqla, təravətlə bağlı deyildi; bu, eyni zamanda onun hisslərinin coşğunluğu, təbiətinin qaynarlığı, həssaslığı, şuxluğu ilə əlaqədar idi, gündən-günə də baxıldıqca, sevildikcə daha da cilalanır, göz-könül oxşayır, çiskinli payızı, qarlı-çovğunlu qışı da Nəcməddinin közündə bahara döndərirdi. Zahiri qəşəngliyini doğulub böyüdüyü «hurilər dərəsinin» həzin, kədərli, bəzən isə şən və oynaq mahnıları, şirin, sümük titrədən rəqsləri tamamlayır, kamilləşdirir, ilahiləşdirirdi. Ömrünün qurub çağında heç vaxt narazı olmadığı taleyiilə bəxş etdiyi bu səadət üçün kişi, yaradanına qəlbən minnətdar olur, qalan günlərini, illərini sevilə-sevilə, sevinə-sevinə, şükranlıqla yaşayırdı. Nəcməddini dünyaya bağlayan cavanlıq eşqindən daha çox, piranilik məhəbbəti idi. Bəzən, tək qalan vaxtlarında xəyalən, fikrən keçmiş çağlarına, cavanlıq illərinə qayıdır və öz-özünə iqrar eləyirdi ki, heç vaxt heç kəsi belə dərin, kövrək bir məhəbbətlə sevməyib. Və bu sevgi ona qol-qanad verirdi, gümrahlaşdırırdı. Xarici görkəmi və yaşı ilə daxili aləmi, hissləri, mənəvi qüdrəti arasındakı kəskin fərqi özü lap aydın duyurdu. Dünyaya bir həyat, gənclik çeşməsi kimi baxırdı, ürəyində onu allahlaşdırırdı. Bədəni süd kimi ağappaq, ipək kimi yupyumşaq, saçları yer üzünün ətirləri ilə müəttərlənmiş Dünyanın hər təmasından Nəcməddinin qəlbi nanə yarpağı kimi titrəyir, o boyda, o yaşda kişi, ilk eşqə düşən cavanlar, uzun illərin ayrılığını dadıb

hicran odunda qovrulan həsrətlilər kimi ləzzətdən, bəxtəvərlikdən məst olur, sözünü, danışığını itirir, sərrast nitq qabiliyyətinə malik olmağına baxmayaraq, dili dolaşır, fikri qırılırdı, Bu zaman Dünya özünəməxsus şən bir ədayla uğunub gedir, onun ağ saçlarından, pırpız qaşları altında yaşarıb parıldayan gözlərindən öpür, övladını əzizləyən ana sayağı, kişini şirin nəvazişlər içində itirib batırırdı.

Dünya həssas idi, Nəcməddinin hər arzusunu, istəyini gözlərindən oxumağı bacarırdı, kədərli olanda sınayıcı nəzərlərlə üzünə baxıb bunun səbəbini tapır, işvəsi, nazı, mahnısı ilə sevgilisinin fikrini dağıdır, az bir müddətdə əhvali-ruhiyyəsini tamamilə dəyişir, hər şeyi unutdurur və beləliklə, onu özünə daha möhkəm tellərlə bağlaya bilirdi.

Ancaq Nəcməddin bütün bu sədaqəti, xoşbəxtliyi ilə yanaşı, dərin nigarançılıq hissi keçirirdi, çünki o, gizli bir qorxu içində həmişə düşünürdü ki, kimsə, nə zamansa Dünyasını onun əlindən alacaq və o bədən, o gözəllik, o şirinlik başqa birisinin könlünü oxşayacaq. O müdhiş hiss zaman-zaman gözəgörünməz yollarla Nəcməddinin sakit, arxayın, güllü-çiçəkli səadətinin üstünə kölgə salır, onu kədərləndirirdi: fikirləşirdi ki, hər nə qədər ağıllı olsa da qadındı, aldana bilər, yoldan çıxa bilər. İmkan vermək lazım deyil ki, kiminləsə ünsiyyətdə olsun, desin, gülsün. Bəzən qadın özü də hiss eləmədən, ani bir çılğınlığın, bir baxışın, bir xoş sözün gözəlliyinə uyaraq yolundan sapır, aldanır. Yaxud özünün xəbəri olmadan, sevir — səndən ləyaqətsiz də olsa, gözəl olmasa da — sevir. Sevdisə, qurtardı, onu nəinki var-dövlətlə, göz yaşları ilə, heç zəncirlə də tutub saxlamaq olmaz. Doğrudur, belələri sonra peşman olur, ancaq inam, etibar itəndən sonra — geri qayıtmaq çətin olur, qeyri-mümkün olur. Səni sevən, eşqinlə çırpınan, yaşayan ürək-qədrini bilsən — ömürlük sənin mənzilindir, məskənindir, çalış orada ağılla, düşünə-düşünə yaşa, onda ömürlük yaşayarsan. Şeytanın, qızıl-gümüşün fitnə-felinə, parıltısına uyub ordan çıxdınmı, necə deyərlər, qapını arxanca bağladınmı — daha geri qayıda bilməzsən və heç qayıtmasan yaxşıdı; özün uçurduğun, daşını daş üstündə qoymadığın bir binada necə yaşaya bilərsən?!

Yox, Nəcməddin onu heç kəsə verməyəcək, nə qədər ki canında can var, nə qədər ki ürəyi o sehrli, o əsrarəngiz məhəbbətlə çırpınır, Dünya onun olacaq. Çünki Dünya onun üçün ömürdü, həyatdı, yaşamaqdı. Hətta — bir dəfə belə qərara da gəlmişdi — günlərin birində Dünya ona xəyanət etmək belə fikrinə düşsə və o, bunu

hiss eləsə çılğıncasına sevdiyinə baxmayaraq, canını dişinə tutub uf demədən öldürəcək əzizini. Öldürəcək, vəssalam. Düşündüyünü deməyi xoşlayan Nəcməddin qızı qorxutmaqdan daha çox, itirəcəyindən ehtiyat edərək bu fikrini açıb ona söyləmişdi. Dünya təəccüblənmədən, adi bir söhbət edirmiş kimi gülmüş, Nəcməddinin burnunun ucuna çırtma vurub nazla demişdi:

— Dəlisən, vallah.

Bəli, Nəcməddin neçə müddətdi belə bir qorxunu heç cürə ürəyindən uzaqlaşdıra bilmirdi və indi, qızı ilə danışıb öz Dünyasını evinə gətirməyə gedərkən qəribə bir sövq-təbii ilə səbəbini anlamadığı, hardan axıb qəlbinə dolduğunu bilmədiyi o şübhənin varlığını tərk elədiyini aşkar anlayır, rahat nəfəs alır və buna uşaq kimi sevinirdi. Necə-olsa, közünün qabağında olacaqdı, istədiyi vaxt görəcəkdi, əzizləyəcəkdi. Bu, onun üçün əvəzsiz rahatlıq, qiymətsiz səadət idi. Həm də evdə hökm sürən dəhşətli biganəlik, yadlıq, soyuqluq, boşluq aradan qalxacaqdı. Zərrintac üçün də bir qulaq yoldaşı tapılacaqdı. Dünya söhbətləri ilə onu əyləndirəcək, yerə-göyə sığışmayan, təklikdən kədər içində solub-saralan qızın başını qatacaqdı. O, daha əvvəlki kimi darıxmayacaqdı, Nəcməddinin özü də insan kimi yaşayacaqdı.

Digər tərəfdən də Dünyanın dörd divar arasında keçən qəmli, tənha və pərişan günlərinə son qoyulacaqdı. Əslində zavallı Dünya həbsxana həyatı keçirirdi. Heç yana çıxmır, kimsəni görmürdü. Lazım olan hər şeyi Nəcməddin özü alıb gətirirdi; ətini, yağını, meyvəsini, göy-göyərtisini... Ancaq həyat təkcə bunların üstündə qurulmamışdı ki? Dünya insan idi, qadın idi, onun üçün insan ünsiyyəti gərək idi, heç olmasa qadın ünsiyyəti gərək idi. Hələ gəzintnsi, qonaqlıq, konserti, kinosu bir yana qalsın... Bəli, Dünya — Nəcməddin kimi qadir, qüdrətli bir kişinin sevgilisi bunların hamısından məhrum idi. Kişi onu bəzi mülahizələrə görə indiyəcən üzə çıxarmaqdan, bu qoca vaxtında sərzəniş, tənə qazanmaqdan qorxmuşdu, çəkinmişdi.

Beləliklə, Dünya ancaq Nəcməddin bu evə gələndən gələnə adam üzü görür, bir-iki saat dərdini dağıdır, fərəhlənir, o çıxıb getmək istəyəndə isə buraxmaq istəmir, boynuna sarılıb az qala ağlayırdı.

İndi gör Dünya Nəcməddinin onu öz evinə aparmaq fikrini biləndə necə sevinəcəkdi?..

...Nəcməddin zəngin düyməsini basmadı, şalvar cibindən çıxartdığı açarla qapını astaca açıb otağa girdi. Evdə sakitlik idi, elə bil heç kəs yox idi. Nəcməddinin ürəyi düşdü. «Bu hara getmiş olar?» —

deyə səksəkə ilə evə göz gəzdirdi və Dünyanı çarpayısında şirin-şirin yatan görüb toxtadı. Taxta döşəməni cırıldatmamağa çalışaraq, ayaqlarının ucunda, oğruluğa gedirmiş kimi, astaca irəli yeridi. Dünya üstünə ağ mələfə çəkmişdi, çılpaq qolunun birini başının altına, o birini sinəsinə qoyub körpə kimi mışıltı ilə uyumuşdu. Qapqara saçından iki-üç tel ayrılıb məsum, ağ üzünə düşmüşdü. Nəcməddin qanrılıb çarpayının müqabilindəki divara vurulmuş iri bədənnüma güzgüyə nəzər saldı. Bir Dünya da orada yatmışdı. Necə də gözəl idi bu mənzərə!? Nəcməddii heyran-heyran güzgüdəki Dünyasına xeyli tamaşa elədi. Ani olaraq Nəcməddin əsl Dünyanın hayanda olduğunu unutmuş kimi, iki addım güzgüyə sarı yeridi, ancaq arxadan çarpayının cırıltısını eşidib ayaq saxladı və geri döndü. Dünya oyanmamışdı, azca yana çevrilib balaca, qəşəng əlini sol sifətinin altına qoymuşdu.

Nəcməddin yavaşca çarpayıya yaxınlaşdı, yaxındakı kətilin üstündə əyləşdi. Mışıl-mışıl nəfəs alan, uzun kirpikləri az qala yanaqlarına düşmüş Dünyanın yatışına fikir verdi. Yuxuda gülümsünürdü sanki Dünya. Ağ, yaraşıqlı sifətini incə, güclə sezilə biləcək bir təbəssüm dolaşırdı. Nəcməddin titrək əlilə onun ağ balış üzərinə səpələnmiş yumşaq saçlarını tumarlayır, ürəyində həyəcanla pıçıldayırdı:

«Mənim yatmış mələyim. Mənim əzizim, həyatım, qolum-qanadım. Sən niyə belə gözəlsən, ay şeytan balası? Səni mən niyə bu qədər çox istəyirəm, ay mənim doyulmazım, qənirsizim?! Sən bu ahıl vaxtımda məni dəli edəcəksən deyəsən, Dünyam mənim!». Sonra o, əlini aşağı endirdi, mələfəni ehmalca çəkdi, Dünyanın mərmər sinəsinə bir uşaq məftunluğu ilə tamaşa etdi. «Kainat gözəllik və kənclik üstündə qərar tutub, aman allah» — dedi öz-özünə və qeyri-iradi elə ah çəkdi ki, səsinə Dünya kirpiklərini qaldırdı, yanında Nəcməddini görsə də bunun aşkarda, ya yuxu aləmində olduğunu ayırd eləyə bilmədi, ona görə də yerində əvvəlcə heç qımıldanmadı da. Ancaq Nəcməddin gülümsünə-gülümsünə əsən əlilə Dünyanın hələ də qızlıq təravətini itirməmiş sinəsini sığallayanda o, hürkmüş ceyran kimi yerindən sıçradı və:

—Ay aman!—deyib qorxu içində mələfənin ucundan tutub döşlərinin üstünə çəkdi, gözlərini geniş açaraq Nəcməddinə baxdı: — Sənsən? Haçan gəlmisən? — dedi.

— Əcəb bərk yatmışdın, mələyim, çoxdan gəlmişəm. Gördüm şirincə yatmısan, qıymadım səni yuxudan eləyim. Çünki yuxu görürdün.

Dünya nazla təzədən başını balışa qoydu:

— Nədən bildin yuxu görürəm, ağam?

— Üz-gözündən.

Dünya bəxtiyarlıqla gülümsündü:

— Hə, mənim ağam. Səni yuxuda görürdüm, ona görə gözlərimi açanda başa düşə bilmədim ki, yuxudu, ya həqiqətdi.

— Nə cür görürdün məni?

Dünya iri, qara gözlərini tavana zilləyib röyasını xatırlamağa çalışdı, kirpik çalmadan düşüncəli-düşüncəli söylədi:

— Qəribədi: mən ömrümdə heç dəniz görməmişəm, amma yuxuda sənlə dənizdə çimirdim. Bir qaya vardı sahildən azca aralı. Dənizin suyu gömgöy sona rəngində idi. Körpə dalğalar o kələ-kötür qayalara sarı can atır, astaca şapalaq vurub geri qayıdırdı. Sən məni qolların üstünə almışdın, mən lap suyun üzündə, mavi bir örpəyin üstündə uzanan kimi uzanmışdım. Elə sakit, elə xoşbəxt idim ki...

— Sonra nə oldu? — Dünya fikirlərindən ayrıldı, dənizdən sanki çıxdı, çarpayısına uzandı.

— Sonra... sonra gözümü açıb səni gördüm.

— Su aydınlıqdı, mənim körpəm. Sən tək yuxularında yox, həyatda da xoşbəxtsən, elə deyilmi? Dünya köksünü ötürdü:

— Eh, nə bilim, mənim ağam?! Məncə, yox.

— Niyə?

—…

— Niyə xoşbəxt deyilsən? Məgər... mənim kimi qüdrətli, zəngin bir sevgilisi olan qadın da özünü bədbəxt hiss eləyərmi, ay mənim gözlərimin işığı?

— Xoşbəxtlik təkcə zənginlikdədirmi, mənim ağam? Budur, mən qəfəsə salınmış quş kimi yaşayıram. Dururam, özümü görürəm, otururam dizimi. Sən də vaxtın olandan-olana, yadına düşəndən-düşənə gəlirsən. Mən istəyirəm ki, həmişə yanımda olasan, deyək, gülək, gəzək, insan kimi yaşayaq. Mən sənsiz yaşaya bilmirəm, mənim ağam. Öyrəşmişəmmi, sevirəmmi bilmirəm, ancaq başa düşürəm ki, sənsiz gözümdə hər şey mənasını itirir; sənin gəldiyin günlər, sənlə keçirdiyim anlar məni xoşbəxt eləyir, inanırsan ki, səni yanımdan buraxmaq istəmirəm, amma neyləyim ki, buna qüdrətim çatmır, acizəm. Elə ki, sən gedirsən, dünya közümdə qaralır, hər şey — sənin mənə bəxş etdiyin o səadət də məşum bir kədər pərdəsinə bürünür.

Nəcməddin qulaq asırdı və düşünürdü ki, vaxtında onu evə aparmaq qərarına gəlib. Yoxsa o, günlərin birində bu sıxıntı, təklik əlindən baş götürüb qaça da bilər və onu bədbəxt edərdi. Məhz indicə,

həmin anda Nəcməddin anladı ki, Dünya onun üçün necə də əzizdi, qiymətlidi, əvəzolunmazdı. Odur ki, məramını bildirməyə tələsdi:

—Dur ayağa, əzizim. Dur, geyin. Dünya elə yerindəcə ona sarı çevrildi:

— Hara? Məni gəzməyə aparırsan, mənim ağam?

— Yox.

— Bəs?..

— Səni evimizə aparıram, Dünyam mənim! Dünya qulaqlarına inanmadı. Dikəlib oturdu, mələfəni qarnına, dizlərinin üstünə çəkdi və soruşdu:

— Evinizə? Məni evinizə aparırsan, mənim ağam?

— Hə, istəmirsən?

— Necə istəmirəm, mənim ağam? — Sevincdən hər şeyi unudaraq, çılpaq şəkildə qalxıb Nəcməddinin boynuna sarıldı, üzündən, gözlərindən öpdü, öpdü, — necə istəmirəm, mənim ağam? Məni bu qəfəsdən azad eləyirsən? Aman allah, mən nə xoşbəxtəm, nə xoşbəxtəm? — Onun dizləri üstə oturdu— Ağam, zarafat eləmirsən ki, sən allah?

— Yox, zarafat eləmirəm. Dur, geyin, şeylərini də yığışdır.

Dünya onun üz-gözünü öpüşlərə qərq edərək dedi:

— Sənə qurban olum, sənə qurban olum, mənim ağam, mənim xilaskarım. — Birdən yadına nə düşdüsə, süstəldi, sevinci öləzidi — Bəs, Zərrintac xanım... Zərrintac xanım nə deyəcək? Bəlkə üzümə baxmadı, burunladı.

— Onu razı salmışam, Dünya. O da darıxır, təkdi. Bir-birinizə qulaq yoldaşı olarsınız. Darıxmazsınız. Dünya:

— Mən onu bacı kimi sevərəm, qulluqçusu olaram, ağam! — deyib yenə Nəcməddinin boynuna sarıldı.

BEŞİNCİ FƏSİL

Əbdül maşın səsi eşidib uşaq kimi qaçaraq darvazanı laybalay açdı, gələnin ağası olduğunu görüb əlini döşünə qoyaraq ədəblə baş endirdi. Dünya arxa oturacaqda əyləşmişdi. İçəri girən kimi elə pəncərə arxasından cah-calallı imarətə, bağ-bağatlı həyətə, səliqə-sahmana ötəri nəzər salıb ürəyində gizli, nəşəli bir sevinc duydu. Əyninə xələt geymiş, su sonasına bənzər qız pilləkənin başında dayanmışdı. Tərpənmirdi, əgər yüngül külək çiyninə atdığı güllü, zərli yaylığı astaca tərpətməsəydi, elə sanmaq olardı ki, o, heykəldi, pilləkənin üstündə,

yaraşıq üçün düzəldiblər. İndiyədək üzünü görməsə də, Dünya onun Zərrintac olduğunu anladı və ilk baxışda xoşuna gəldi. Düzdü, hələ ürəyini, xasiyyətini bilmək olmazdı, ancaq Zərrintac zahirən gözoxşayan, qəlbəyatan bir görkəmə malik idi və bu Dünyanın həyəcanlarını, nigarançılığını azaltdı.

Nəcməddin maşından düşmüşdü. Aşağıdan-yuxarıya qızına baxır və onun fikrini üz-közündən oxumaq istəyirdi. Qız isə sükut içində dayanmışdı. Nəcməddin nəhayət, həya-qarışıq bir ərklə:

— Niyə gəlib qonağını qarşılamırsan, qızım? — dedi və ondan cavab gözləməmiş geri qanrılanda Dünyanın hələ də maşından düşmədiyini görüb təəccübləndi:

— Sən niyə orada bitib qalmısan?

Dünya başını irəli uzadıb açıq pəncərədən:

— Qapını açа bilmirəm! —dedikdə Nəcməddin hissolunmaz əsəbi hərəkətlə gəlib qapını açdı. Əyninə qırmızı güllü, qırçın-qırçın don geymiş Dünya balaca, xal-xallı ayaqlarını yerə qoyanda həyəcandanmı, ya nədənsə qıçlarının əsdiyini duydu; ancaq bu tez keçibgetdi. Dünya şax, ipək donunu xışıldada-xışıldada, xal-xalını, arxalığının gümüş pullarını cingildədə-cingildədə irəli addımladı, düz Zərrintac xanıma tərəf yeridi. Sifətini kövrək, qorxu-qarışıq bir təbəssüm bəzəyən Dünya gözlərini qırpmadan Zərrintaca baxırdı. Zərrintac təmkinli, ağır addımlarla pillələri endi və onlar ayaqaltına döşənmiş mərmər lövhələrin üstündə qarşılaşdılar. Bir anlığa baxışları rastlaşdı. Zərrintac sınayıcı, sirayətedici nəzərlərlə atasını neçə vaxtdan bəri əfsunlayan, həm yaşadan, həm də — Nəcməddin qızına deməsə də o, bunu yaxşı hiss eləyirdi — əzab, gizli, dəhşətli qısqanclıq əzabı verən bu gözəl pərinin işıqlı gözlərinə, qələmlə çəkilmiş kimi görünən qara, çatma qaşlarına, tutaş kirpiklərinə, nar çiçəyi kimi qırmızı dodaqlarına, ənliksiz-kirşansız, təbii bir nurla alışıb-yanan biçimli sifətinə ötəri baxdı və üzünün bütün cizgiləri qəribə bir sehrlə beyninə, gözlərinin yaddaşına həmişəlik həkk olunub qaldı. Dünyanın gözəlliyindən qadın olsa belə məstləşmiş Zərrintac özünə gəlməmiş təzə gəlin əllərini irəli uzadıb onun əlini tutdu və başını əyib onun üzüklü barmaqlarından öpdü.

— Xoş gəlmisən, Dünya xanım! — dedi nəhayət Zərrintac da. Və Dünyanı özünə tərəf çəkib alnından öpdü.

— Xoş günün olsun, xanım. Sizi görməyimə çox şadam, böyük xanım. Ağam sizin haqqınızda mənə o qədər xoş sözlər deyib ki, elə bilirəm sizi çoxdan, lap çoxdan tanıyıram, böyük xanım.

Zərrintac mehribanlıqla, razılıq əlaməti olaraq kirpiklərini endirdi və axır ki, heyranlığını gizlədə bilməyərək:

— Ay ölmüş, nə gözəlsən!! —dedi və təzədən onu hərarətlə sinəsinə sıxdı, sonra çevrilib kənardan bu maraqlı, həmişə narahatlıqla xəyalında canlandırmağa çalışdığı görüşü seyr eləyən atasına dedi:

— Zövqün pis deyilmiş, qibləgahım!

Nəcməddinin sanki donu, qırışığı açıldı, gəlib hər ikisini qucaqladı və mehriban ata nzvazişi ilə:

— Çox şadam ki, sizi görüşdürdüm, — dedi. — Ümid edirəm ki, bacı kimi dolanacaqsınız, aranızda ülfət və səmimiyyətdən başqa heç nə olmayacaq. — Qızına müraciət etdi: — O kəllə otağı Dünya xanım üçün ayır, qoy orada yaşasın. Apar, tanış elə. Ümumiyyətlə, ev-eşiklə, həyət-baca ilə tanış elə onu, qoy hər şeyin yerini bilsin. Su ki girdi qaba, oldu içməli, qızım. Elə deyilmi? — deyə əyilib Zərrintacın saçlarını qoxuladı. Zərrintac minnətdarlıq hissilə atasına baxdı:

— Sağ ol, qibləgahım. — dedi. — Və bu sözün mənasını Nəcməddin o dəqiqə anladı. Dilinə gətirməsə də Nəcməddin hiss eləyirdi ki, Zərrintac Dünyanın uzun illər boyu gəlin gələn gündən öldüyü günə qədər anasının yaşadığı otaqda, onun əlinin səliqəsi ilə bəzənmiş, nəfəsilə isinmiş o geniş, çıraqban otaqda atası ilə xoş saatlar, xoş günlər keçirməsinə qısqanar, bu vəfasızlığı, dönüklüyü bəlkə də ona bağışlamaz. Bəli, Zərrintacın anası o otağa gəlin gəlmişdi, o otaqda bəxtəvər günlər görmüşdü, o otaqda da heçlik dünyasına köçüb getmişdi. Zərrintac anasının otağının səliqəsini pozmamışdı, necə qoyub getmişdisə eləcə də saxlamışdı. Qəribə idi ki, Nəcməddin də arvadı öləndən sonra bir gecə də burada yatmamışdı. Ata-bala, ancaq qəmli günlərində, onu xatırlayanda, anadan olduğu və vəfat etdiyi gün bəzən birlikdə, bəzən də ayrı-ayrı bu otağa girər, kreslolarda oturar, divardan böyüdülüb asılmış şəklinə baxar və səssiz-səmirsiz durub çıxardılar.

Zərrintac atasının bu həssaslığını, qədirbilənliyini yüksək qiymətləidirdiyi üçün hədsiz dərəcədə sevinmiş və Dünyanı çoxdan tanıyırmış kimi çəkinmədən, gülə-gülə əlindən tutaraq yuxarı aparmışdı. Bəzəkli, yerinə xalça döşənmiş, ərəb mebeli ilə bəzənmiş, divarları aynalı, müzəyyən otağı görəndə Dünyanın ağzı açıla qalmış, gözləri heyrətdən böyümüşdü:

— Ay aman, necə də qəşəngdi! — demişdi. Zərrintac bəlkə də ömründə belə cah-calallı mənzil görməmiş Dünyanın sonsuz şadlığından ləzzət ala-ala:

— Qibləgahıma yaxşı bax, Dünya! — söyləmişdi. — Onu incitmə, sev və əzizlə, yaxşımı?

— Əlbəttə, böyük xanım. O mənim gözlərimin işığıdı, böyük xanım. Sənin qibləgahın yaxşı kişidi.

ALTINCI FƏSİL

Əbdül çatıltı-patıltı ilə qızaran manqalın üstündə kabab bişirirdi. Əmlik ətinin xoş ətri həyəti başına götürmüşdü. Dünya bu evə gələni Əbdülün də işi xeyli yüngülləşmişdi; bazar işi onun payına düşmüşdü, bişirib-düşürmək işi, evlərin silinib-süpürülməsi, yır-yığış isə Dünyanın. Əbdül az bir zaman ərzində anlamışdı ki, əslində Dünya da elə onun kimi bu evin nökəri, qulluqçusu idi. Fərqi bu idi ki, Dünya əziz nökər idi, Nəcməddinin çox əziz və əvəzsiz nökəri idi, qəşəng nökəri idi. İndi qızlar eyvanda stol açırdılar, iş görə-görə ucadan danışır, şaqqanaq çəkib gülürdülər. Dünyanın gəlişi doğrudan da əvvəllər səssiz-küysüz, sakinləri küsülü kimi gəzib-dolaşan Nəcməddinin evinə bir canlanma, qaynama gətirmişdi. Sükut, sükunət burdan qaçaq düşmüşdü. Bu isə sakinlərin hamısını, ən əvvəl isə Nəcməddini xoşhal eləmişdi.

Bayaq eyvanda dayanıb səfər təsbehini çevirən Nəcməddin ortalığa demişdi:

— Şama bir yaxşı süfrə açın.

Zərrintac nigarançılıq hissi ilə soruşmuşdu:

— Qonağımız olacaq məgər?

—Yox, — deyə Nəcməddin sınayıcı nəzərlə qızına baxmış, onun məyus olduğunu görüncə əlavə eləmişdi. — Elməddin gələcək.

Qız özünü atasının qabağında nə qədər tox tutmağa çalışmışdısa da, içəridən, ürəyinin dərinliklərindən süzülüb gələn sevinc sifətini gül yarpağı kimi qızartmış və o heç nə demədən çevrilib getmişdi. Bu Nəcməddinin sərraf gözündən yayınmamışdı. Kişi təsbehini şaqqıldada-şaqqıldada düşünmüşdü: «Yox, qızın quşu deyəsən bu gədəyə yaman qonub. Doğru deyirlər ki, qadının ağlı gözündə olur. Əlahəzrətin — məmləkətin birinci şəxsiyyətinin oğlu xoşuna gəlmir şeytanın. İdbardı, çirkindi deyir. Hələ bir az ağıldan kəm olduğunu bilmir, yoxsa adı çəkiləndə lap tufan qoparar. Amma bu sövdə baş tutsaydı, mənim üçün çox yaxşı olardı. Arxamızı dağa söykəyib arxayın-arxayın yaşayardıq. Elməddinin qəşəngliyi gözünü qamaşdırıb qızın. İnsafən pis oğlan da deyil, qanacaqlıdı, mərifətlidi, böyük-kiçik

yeri biləndi. Yaxşı qələmi var. Şerləri yaman xoşuma gəlir. Gələcəyi yaxşı olacaq. Ancaq di gəl ki, əsli-nəcabəti məlum deyil. Camaat deyəcək, məmləkətin ikinci yarımpadşahı aman-zaman bir qızını latın-lütün birinə verdi. Eh, dünyanın işini bilmək olmur; ya nəsib, ya qismət! Amma şeytan mənim də ürəyimə yaman girib!»

Sonra Nəcməddin fikir verib görmüşdü ki, Zərrintac stolu açandan sonra otağına keçərək paltarını dəyişmiş, təzə gəlin kimi bəzənib-düzənmişdi. Kişi özünü elə aparmışdı ki, guya bunu görmür, əhəmiyyət vermir. Ancaq qızının beləcə geyinib-kecinməyindən, üzünə qonan sevincdən tam aydınlığı ilə yəqin edib inanmışdı ki, Zərrintac Elməddinə biganə deyil və bundan nə isə gizli bir sevinc də duymuşdu. Elməddin hava qaralanda gəlib çıxdı. Onu həyətdə Nəcməddin qarşıladı. Görüşüb hal-əhval tutdular. Yuxarı çıxanda Zərrintacı eyvanın sütununa söykənən görüb baş endirdi, yeriyib qızın irəli uzatdığı ağ əlini ehmalca öpdü:

— Zərrintac xanımın kefi necədir? — deyə Elməddin şən-şən soruşanda qız incikliyini gizləmədən:

— Niyə, siz yoxlayandan yaxşıyam, — dedi. Və baxışlarını qaldırıb Elməddinin gözlərinin içinə baxdı, elə atasının yanında ərklə sual verdi: — Neçə gündü hardasınız? Nə işdə tapılırsınız, nə evdə?

Elməddin Nəcməddinə baxıb güldü:

— Oho... Xanım yoxlayırmış məni, hə, ağayi Nəcməddin? — sonra günahkarcasına Zərrintaca tərəf döndü: — Bağışlayın, xanım. Son günlər başım yaman qarışıq olub. Səhərdən axşamacan elə müəssisələri kəzmişəm, ağamızın tapşırıqlarını yoxlamışam, bir sözlə yamanca işləmişəm.

— Düz deyir, qızım, — Nəcməddin Elməddinin köməyinə çatdı.— Onu qınama. Həqiqətən bu həftə ağayi Elməddinin heç başını qaşımağa da vaxtı olmayıb.

Atasının sözləri qızın könlünü azca aldı və o gülüb dedi:

— Başınızı qaşımağa vaxtınız olmayanda, mənə zəng eləyin, Əbdülü göndərim, gedib yaxşı-yaxşı qaşısın.

— Baş üstə, Zərrintac xanım! — deyən Elməddin də güldü, Nəcməddin də.

— Yaxşı, qızım, siz işinizdə olun, mənim Elməddinlə söhbətim var, — deyə Nəcməddin oğlanın qoluna girib öz otağına apardı. Divanda əyləşdilər.

— Hə, danış görək nə var, nə yox?! İşlər necə gedir? Elməddin dedi:

— Ağama ərz olsun ki, işlər əladır. Əsas vaxtım nəssaci[1] müəssisəsində keçdi. Son vaxtlar yunun keyfiyyəti, rəng-boya işləri yaxşılaşdığı üçün İrandan, Pakistandan, Hindistandan gələn tacirlər sifarişlərinin sayını artırıblar. Elə daxili bazarda da malımızın, necə deyərlər, ayağı yerə dəymir. Belə getsə, sifarişçilərimizi təmin edə bilməyəcəyik. Bu qorxunu mən indidən hiss edirəm, ağa.

— Bəs, səncə, nə etmək lazımdır?

— Mən fikirləşirəm ki, müəssisəni böyütmək kərəkdir. Düzdür, bunun üçün gərək maya qoyasan, bunsuz iş aşmaz. Məncə, İngiltərədən o toxuculuq dəzgahlarından hələlik yüz ədəd gətizdirmək, binanı böyütmək lazımdır. İşçi qüvvəsindən sarı nigaran olmağına dəyməz. İstənilən qədər adam toplamaq olar, ağa!

— Xub, xub! — deyə Nəcməddin razılıqla başını tərpətdi.

— Mən sərincinarla[2] ölçüb-biçdim, bütün bu işlərə bizim uzaqbaşı bir milyon xərcimiz çıxacaq. Həmin pulu isə biz ən çoxu altı aya götürəcəyik və ondan sonra illər boyu qazancı bizə qalacaq.

Nəcməddin ani olaraq fikrində nə isə ölçdü, biçdi, hesabladı, sonra əlini Elməddinin çiyninə qoydu:

— Mən razı. Məqul fikirdi. Günü sabahdan sərəncam verirsən, Almaniyaya adam göndərirsən. Oldumu?

— Oldu!!

— Elə sabahdan da binanın böyründəki boş sahədə eynən o quruluşda, o ölçüdə-biçidə bir imarət inşasına başlamaq haqqında sərincinara tapşırıq verirsən. Pul burax, qoy dəzgahlar gələnə qədər tikib qurtarsınlar. Tikinti işini nə qədər sürətlə görsələr, bir o qədər yaxşıdır.

— Baş üstə, ağa!

— Afərin, Elməddin. Sən mən gözlədiyimdən də ağıllı imişsən, oğul.

Elməddin ağayi Nəcməddinin tərifindən xoşlanmasa da, büruzə vermədi, düşündü ki, əgər onun bu təklifi həyata keçərsə, şəhərin ən azı beş-altı min işsizi özü üçün bir tikə çörək qazanmaq yeri tapacaq və bu, Elməddinin ürəyini ağasının tərifindən daha çox böyük sevinclə doldurdu. İndi yadına düşmüş kimi, cibindən iki qatlanmış bir vərəq çıxartdı, Nəcməddinə verdi:

— İki milyondu! — dedi.

---

[1] Nəssaci — toxuculuq kombinatı.

[2] Sərincinar — baş mühəndis.

Nəcməddinin sanki gözünə işıq gəldi: çeki alıb oxudu, qoltuq cibində gizlətdi:

— Allah bərəkət versin, — dedi. — Hansı banka qoydun?

— Mərkəzi banka, ağa.

— Hə, yaxşı eləmisən. Əlahəzrət də, qohum-əqrəbası da pullarını orada saxlayırdar. Ora hayana dönsə əmin-amanlıq olar.

Elməddin sözü dəyişmək üçün xəbər aldı:

— Əlahəzrət dediniz, yadıma düşdü. Ovunuz necə keçdi, ağa? Ümidvaram ki, yaxşı istirahət eləyə bildiniz, eləmi?

—Bəli, oğul. Gözəl istirahət elədik. Çoxlu kəklik, ceyran vurduq. Elə çöldə kabab bişirdilər, yedik, içdik, yerin məlum.

— Nuşi-can, ağa.

Şahənşahla ova çıxmağın ayrı ləzzəti varmış.

— Şahənşahınızın əhvali-şərifi necədi, ağa?

— Kefi çox kök idi. İtaliyadan istirahətdən təzə gəlib, Kökəlib. Deyib-gülürdü. Yaxşı, sərrast güllə atmağı varmış. Bir qəribə hadisə oldu.

— Hə? — deyə Elməddin maraqlandı.

— Bəli, oğul. Hamımızı mütəəssir elədi o hadisə. Cip maşınında gedirdik. Birdən motərvan dedi ki, kəklik! Dönüb baxdıq, torpaq yoldan xeyli aralı iki kəklik daşların arasında səkirdi. Əlahəzrət buyurdu ki, yaxın sür maşını. Motərvan yoldan çıxdı, güllə tutana qədər sürdü. Kəkliklər maşının səsini eşitməyə bilməzdilər, ancaq uçmurdular. Əlahəzrət nişan alanda kəkliyin biri qalxdı. O, kəkliyi havada vurub saldı. Qəribə bu idi ki, güllə səsinə ikinci kəklik uçmadı. Ürəyimə gəldi ki, yaralıdı yəqin. Əlahəzrət ikinci kəkliyi yerində atdı. Sonra motərvan düşüb qaçdı, kəkliləri gətirdi və dedi ki, balaları da var. Gedib baxdım. Bala kəkliklər körpə idilər, xırdaca daşların arasında küclə yeriyirdilər. Dəymədim. Qayıdanda mənə aydın oldu ki, əvvəlcə uçan kəklik erkək imiş, yerdə qalan, balalarını güllə səsi eşidəndən sonra da qoyub qaçmayan isə ana kəklik imiş!!

—Can, can!— deyə Elməddin yetim qalan o körpə kəkliklərin halına yandı. — Ana ürəyinin böyüklüyünə baxırsanmı? Balalarını başsız qoyub uçmayıb, öləcəyini bilsə də, uçmayıb. Heyf! Amma aranızda əsl ovçu yoxmuş, ağa. Güllə açılandan sonra da kəkliyin uçmadığını görəndə təcrübəli, görüb-götürmüş ovçu ona güllə atmazdı, bilərdi ki, yanı balalıdı o kəklik!

Hə, düz buyurursan, Elməddii. Əlahəzrət atırdı. Heç kəs cürət eləyib bir söz deyə bilməzdi. Ancaq elə oradaca da əlahəzrət atasının ölümünü xatırladı və halı çox dəyişdi.

— Niyə xatırladı ki, kəkliyə görə?

— Yox, sən demə, əlahəzrətin mərhum atasının qatili Qulam Nəbini min bir əzabla öldürmüş, cavanlıq dostu Xeybər ağa bu səhrada, otuz üç il bundan qabaq elə o yerlərdə həlak olubmuş.

— Mən bu əhvalatı eşitməmişəm, yəqin çox maraqlıdı, eləmi?

—Sənin yaşından xeyli qabaq olub o hadisə. Mən onda cavan oğlan idim. Nadir şahe-mərhum—əlahəzrətin atası üç-dörd il idi ki, məmləkətnn şahı elan edilmişdi. Hərbi məktəb zabitlərinin buraxılışı günü Nadir şah həmin məktəbə gəlmiş, yeni rütbə almış zabitlərin səfi önündə çıxış etmiş, onları, məmləkət ordusunun ilk qaranquşları kimi təbrik eləmiş, və səfəri yaxınlaşmış zabitlərin əlini bir-bir sıxmış. Bu zaman Qulam Nəbi adlı bir zabit elə oradaca Nadir şahın təpəsinə üç güllə vurmuş və onu qətlə yetirmişdir.

— Axı bu Qulam Nəbi Nadir şahı nə üçün öldürməli imiş?

— Bilirsən, Nadir şah hakimiyyət uğrunda mübarizənin qızğın vaxtında Qulam Nəbinin ağasını xəyanətlə öldürtdürübmüş. Deyilənə görə, o, general imiş. Nadir şaha qarşı vuruşurmuş. Nadir onun yanına elçi göndərib ki, barışsa, onun tərəfinə keçsə, yeni təşkil olunacaq dövlət kabinəsində hərbi nazir vəzifəsini ona verəcək və guya Qurani-şərifə də əl basıb and içibmiş. General Nadir şahın vədinə inanır və yanına gəlir. O isə generalı həbs edib öldürtdürür və bütün ailə üzvlərini də qılıncdan keçirtdirir. Bu Qulam Nəbi o vaxt yeniyetmə imiş, öz ağasını atası qədər, bəlkə də ondan da çox istəyirmiş. O boyda ailədən bircə Qulam Nəbi qaçıb canını qurtarır və and içir ki, ağamın qanını yerdə qoymayacağam. Vaxt dolanır, o gəlib hərbi məktəbə girir, oxuyur və Nadir şah rəsmi mərasimə gələndə öz əhdinə sadiq qalıb ağasının qanını alır.

Qulam Nəbini, təbii ki, tutmuşdular. Nadir şah ölən kimi əlahəzrət çox cavan olmasına baxmayaraq şah elan olundu. Qulam Nəbini çox böyük cəza ilə öldürməyi qərara almışdılar. Bu işi əlahəzrətin yaxın dostu Xeybər xan öz boynuna götürmüşdü. Zindanda hər gün onun bədəninin bir əzasını kəsir, dağ edilmiş yağa basıb yandırır, qanaxmanın qarşısını alıb zavallını ölməyə qoymurdular. Əllərini, qollarını, ayaqlarını buğum-buğum, hissə-hissə kəsib atmışdılar: bircə bədəni və başı qalmışdı biçarənin. Lap axırda başını da kəsdilər. Bütün bu işləri eləyən və elətdirən Xeybər xan bir neçə il sonra

bizim ova getdiyimiz həmin səhrada mindiyi atın ürkməsi nəticəsində həlak oldu.

— Xeybər xan atdan yıxılıb öldü?

— Yox. Yıxılıb ölsəydi, canı rahat çıxardı. At ürkmüşdü, götürülmüşdü. Dəlisov at imiş. Xeybər xan yəhərdən aşırılır, ancaq ayağının biri üzəngiyə ilişir. Başı daşa, qayaya dəyir, parçalanır. Nə başını ağrıdım, at yorulub dayananda üzəngidə Xeybər xanın tək bircə qılçası qalıbmış!!!

Elməddin bu faciəli hadisələri heç kəsdən eşitməmişdi, yazmamışdılar da. Nadir şahın vaxtilə dost olduğu adama xəyanəti, Qulam Nəbinin mərdliyi, Xeybərin əzazilliyi və axırda da taleyin cəzasına çatması — bütün bunlar Elməddin üçün son dərəcə maraqlı və eyni zamanda da dəhşətli əhvalatlar idi. Yazılmalı idi bunlar. İndi də mümkün olmasa, kələcəkdə yazılmalı, tarixin malı olmalı, gələcək nəsillərə çatdırılmalı idi bunlar. Amma indi heç kəs bu barədə danışmır, susur, xalqın adından məmləkəti idarə edən bir qrup adamın necə də qızıl qanlar tökdüyü, xəyanətlər etdiyi barədə kəlmə kəsmir. Aman allah, Elməddinin bilmədiyi, eşitmədiyi nə qədər şey varmış dünyada?!

Nəcməddinin özünə yaxın hesab eləyib danışdığı o söhbətlər Elməddini sarsıtmışdı. Dillənmirdi, eləcə susub xəyala dalmışdı.

— Hə, nə fikrə getdin, oğul? — deyə Nəcməddin sanki birdən qorxuya düşmüş kimi xəbər aldı. — Bunları sənin bilməyin lazımdı, ancaq yazmaq olmaz, bala. Başın ağrıyar. Elə bilirsən, bunları tək mən bilirəm? Yox, çox adam bilir, ancaq heç kəs danışmır, oğul, Çünki belə lazımdı, heç kəs başını bıçağa sürtmək istəmir.

— Bəli, — o ah çəkdi, — təəssüf ki, belədir, ağa. Zərrintac içəri girib onların söhbətini yarıda kəsdi:

— Sizin müşavirəniz nə uzun çəkdi, qibləgahım? — dedi, — süfrə hazırdı, sizi gözləyirik. — Elməddinə üz tutdu: — Sən işdən çıxıb bura gəlmisən, acsan yəqin, eləmi? - Xanım düz buyurur, — dedi Elməddin. — Çörək yemədim ki, burada yeməsəm, olmaz. Acam, düzdü. Ancaq ağamla söhbətimiz elə şirin və maraqlı idi ki, yemək heç yadıma da düşmürdü. Bax, indicə anladım ki, acından başım kicəllənir.

— Durun, durun.

Onlar qalxdılar, eyvandakı əlüzyuyanda yuyunub süfrə başına gəldilər. Stol üstə ləziz xörəklər düzülmüşdü. Qrafinlərdə limonlu

şərbətə qədər qoyulmuşdu. Əyləşdilər. Nəcməddin Zərrintacın üzünə baxdı:

— Bəs Dünya xanım hanı? Zərrintac çiyinlərini çəkdi:

— İndi burada idi ki!

Dünya öz otağında idi. Nəcməddin çağırmasa, icazə verməsə, məclisə gəlməyəcəyini əvvəlcədən nəzərdə tutmuşdu. Söz yox ki, Elməddinin kim olduğunu Zərrintac xanımdan soruşub öyrənmişdi. Evin məhrəm adamı olduğunu və bir qadın sövq-təbiisi ilə qızın da ona biganə olmadığını hiss eləmişdi. Buna baxmayaraq Dünya ağılla hərəkət edərək çağırılmamış süfrə başında oturmaq istəməmişdi. Elməddin isə Dünya adını eşidən kimi məsələnin nə yerdə olduğunu dərhal anlamışdı, çünki Zərrintac atasının sevdiyi gözəl qadın haqqında bir-iki dəfə söhbət eləmişdi. «Demək Nəcməddin Dünyanı evinə gətirib! Nə yaxşı, nə yaxşı!» — deyə Elməddin ürəyindən keçirdi.

Nəcməddin durub Dünyanın dalınca kedəndə Zərrintac məftun, nazlı baxışlarla Elməddini süzdü:

— Səndən incimişəm.

— Bilirəm, Zərrin, vallah...

— Zərrintac onun sözünü kəsdi, çəngələ batırdığı tikə kababı Elməddinin ağzına dürtüb:

— Yaxşı, yaxşı, bəhanə gətirmə... acından öldün, bu tikəni ye, gözlərinə işıq gəlsin, — dedi. Elməddin anasından yem alan bala qaranquş kimi ağzını açıb istiotlu, darçınlı tikəni yeməyə başladı.

— Qibləgahım da Dünyasını gətirdi.

— Əcəb eləyib. Onun üçün bəlkə də belə yaxşıdı. Nəcməddin qabaqda, Dünya da dalınca otağa qayıtdı.

— Ağayi Elməddin, tanış ol, bu xanım bizim Dünyamızdı. — Dünya baxışlarını qaldırıb Elməddinə baxdı və başını tərpətməklə salam verdi.

—Çox gözəl, çox şadam. Xoş gəlibsiniz bu xanimana, — deyə Elməddin başdan-ayağa zərxara içində yanan, cavan, qəşəng Dünyaya diqqət yetirdi və ürəyində öz-özünə söylədi ki, nə qəşəngdir!

Nəcməddin Dünyanı yanında əyləşdirdi. Yeyə-yeyə Dünyaya deyirdi:

— Ağayi Elməddin bizim evin adamıdı. Demək olar ki, mənim sağ əlimdir. Ondan utanmaq, çəkinmək lazım deyil. Elə bil, qardaşındır. Özü də xoşladığın şairlərimizdəndir. Şairin qarnı ac oldu, danış-

maz, qoy hələ bir az toqqasının altını bərkitsin, bir-iki gilas[1] da nuşican eləsin, yəqin ki, bizə təzə şer də oxuyacaq. — Nəcməddinin bu sözünə hamısı güldü. — Bəs piyalələr niyə boşdu, ey məclisimizin gözəl saqisi? — deyə Nəcməddin zarafatla qızına müraciət elədikdə Zərrintac loğmasını udub:

— Bu dəqiqə! — dedi və büllur qədəhlərə fransız arağı süzdü. Dünya xanım badəsini kənara itələdikdə Nəcməddin dilləndi:

— Heç elə şey yoxdu. İçəcəksən, Dünya xanım. Zərrintaca yoldaşlıq eləməlisən. Utanma, burda özgə adam yoxdu. Əvvəllər, düzdü, içə bilmirdin, çeçiyirdin, ağız-burnunu büzüşdürürdün, amma sonralar yavaş-yavaş öyrəndin, indi maşallah, göz dəyməsin yaxşı içirsən. — Dünya qızarmışdı. Utanırdı. Yalvarıcı nəzərlərlə tez-tez Nəcməddinə baxır, «məni biabır eləmə» — deyə sanki yalvarırdı.

Nəcməddin bu gün nədənsə çox şad idi. Elməddin fikirləşirdi ki, iki milyon pul kişinin kefini yamanca kökəldib; Zərrintac isə düşünürdü ki, Dünyanın gəlişindən atası belə yerə, göyə sığışmırdı! Hər ikisi düz idi. Əslində deyib-gülən, məzəli, əsl həyat adamı olan Nəcməddini bu gün hər iki səbəb sanki göylərə qaldırmışdı.

Zərrintac xanım böyründə oturan Elməddinin qulağına nəsə pıçıldadı, o, badəsini götürüb ağayi Nəcməddinə müraciət edərək:

— Ağamız icazə versəydi, iki kəlmə söz deyərdim, — söylədi!

— Ba, buyuracaqsınız, buyuracaqsınız!

Elməddin sinəsini mizə söykəyib qısaca sağlıq dedi:

— Gəlin bu ilk badələrimizi bizim Dünya xanımın sağlığına içək və ona «bu xanimana xoş gəlmisən!»—deyək. Biz, Zərrintac xanım və mən öz sevimli ağamızı sənə tapşırırıq, hər ikinizə səadət və cansağlığı arzu edirik.

Hamısı badəsini götürdü. Dünya xanım minnətdarlıqla Elməddinə və Zərrintaca baxıb gülümsədi, içdilər. Zərrintac badəsini yerə qoyub tikə əti dişinə çəkə-çəkə:

— Onun başından bir tük əskik olsa, başının tükünü yolub yelə verərik ha! — dedi. — Elə deyil, Elməddin?

— Əlbəttə, əlbəttə!

Məclis getdikcə qızışırdı. İkinci, üçüncü badədən sonra Dünyanın da qırışığı açılmışdı. Deyib-gülürdü. İri, qara gözləri süzgün baxışlarla təbəssüm saçırdı.

[1] Gilas - piyalə.

— İndi də sözü verək şairimizə. — Nəcməddin badələri doldurdu. — Onun gəncliyi, istedadı şərəfinə içək və xahiş edək ki, qəlbimizi gözəl bir şerlə feyziyab eləsin. Sağ ol, Elməddin. Sənin şərəfinə — deyə Nəcməddin hamıdan əvvəl badəsinn boşaldıb yerə qoydu.

Zərrintac da, Dünya da ona «sağ ol» — deyib içdilər.

Elməddin azca təxirdən sonra:

— Vallah, heç bu məclisə layiq şerim yoxdu. — dedi.

— Daha özünü naza qoyma, ay Elməddin. Bir şey de gəlsin! — deyə Nəcməddin təkid etdi. — Şairlər həmişə belə deyirlər, ancaq sonra, elə ki qızışdılar, saxlamaq olmur. De gəlsin. Dünya xanım da şer sevəndi, mahnı sevəndi.

— Hə, ağam düz deyir, mən şeri çox sevirəm. Onu da deyim ki, hələ indiyəcən şair görməmişdim, elə bilirdim ki, onlar nə isə qeyri-adi adamlar olurlar, bizim kimi deyillər. Mən şairləri həmişə ilahi bir varlıq hesab eləmişəm.

— Amma indi görürsən ki, şair də adi adamdır. Çörək də yeyir, hətta şərab da içir. — Nəcməddin Dünyaya zarafat etdi. — Sənin kimi, mənim kimi.

Zərrintac üzünü Elməddinə çevirdi:

— Bilirəm, ürəyin gedir şer demək üçün, naz eləmə! Elməddin gülüb çarəsiz-çarəsiz boğazını arıtladı, kimsənin üzünə baxmadan keçən gecə yazdığı şeri söylədi:

Yaşatsan yaşaram, yaşatmasan yox,
İnan ki, ölərəm, «öl» desən mənə.
Gözümdən qanlı yaş axıdan zaman,
Ay gülüm, gülərəm, «gül» desən mənə.

***

Əgər ürəyinə dəysə bir nadan,
Əsərəm, coşaram, qoparram tufan.
İzini, tozunu, nəslini, canan,
Dünyadan silərəm, «sil» desən mənə.

***

Bir gün acı hicran ayırsa bizi,
Atsa alovlara ürəyimizi.

Adlayıb dağları, keçib dənizi,
Yanına gələrəm, «gəl» desən mənə.

Hamıdan əvvəl Dünya heyrətlə içini çəkib səsləndi:

— Aman allah, nə yaxşı şerdi! — dedi.

— Həqiqətən gözəldi, Elməddin! — Nəcməddin söylədi. Zərrintac isə susurdu. Elməddin sanki onun fikrini bilmək istəyirmiş kimi sual dolu nəzərlərlə Zərrintaca baxdı. O, şerin özünə yazıldığını güman edərək sevinsə də, sakit, təmkinli səslə fikrini bildirdi:

— Ortadakı «asaram-kəsərəm»i çıxandan sonra yaxşıdı. Mən bildiyimə görə, şairlər dildə pəhləvan olurlar, əslində isə, belə asıb-kəsməklərinə baxmayaraq qorxaqdılar. Düz demirəm? — Zərrintac Elməddindən soruşduqda əvəzinə atası cavab verdi:

— Səhv eləyirsən, qızım. Tarixdə sözü ilə əməli bir, əqidəsi yolunda qılınc çəkib vuruşan şairlər az olmayıb, mənim balam.

YEDDİNCİ FƏSİL

«Zərnigar» parkında oturmuşdular. Şəhərdən və parkdan əlayaq çəkilmişdi. Təpənin üstündəki dirəyin yeganə lampası yanır, ətrafa solğun, dumanlı bir işıq səpələyirdi. Parkın küçəyə çıxan qapısı ağzında iki polis nəfəri gəzişirdi.

Havada şaxta vardı: quru bir şaxta dolaşırdı parkın içində. Ətraf dağlardan seyrək duman axıb gəlmişdi, ağacları, evləri nazik, boz pərdəyə bürümüşdü.

Sınıq, söykənəcəyinin iki taxtası qopub düşmüş, oturacaq laxlayır, cırıldayırdı. Əyləşmiş iki nəfər: Rəhgüzər və Elməddin — oturacaq cırıldayıb zəhlə tökməsin deyə tərpənmir, asta-asta söhbət eləyirdilər. Elməddin əllərini paltosunun ciblərinə dürtmüşdü. Məhəmməd Şəfi siqaret çəkirdi. Elməddin ağayi Nəcməddinlə son görüşünü, onun Dünyanı evinə gətirməsini, əlahəzrətlə ova getməsini təfsilatı ilə ustadına danışıb qurtarandan sonra Məhəmməd Şəfi xeyli susdu, kəlmə belə kəsmədi. Siqaretinin kötüyünü çırtma ilə uzağa atandan sonra, nəhayət, dilləndi:

— Nəcməddin mahiyyət etibarilə, bizimlə müxalifətdə olsa da, ağıllı və tədbirli adamdır, Elməddin. Dünyagörmüş, həyatın kəşmə-kəşlərində bişib-bərkimiş adamdı. Biz ondan istifadə eləməyi bacarmalıyıq, çünkn o, həm varlıdır, nüfuzludur, həm də saraya yaxındır. Yuxarıdakı yoldaşlar — xüsusən rəhbərimiz Bəbir sənin o ailəyə

düşməyini və yaxın olmağını çox təqdir edir. Ağayi Nəcməddindən əlahəzrətin bir çox fikirlərini sənin vasitənlə asanlıqla öyrənə bilərik — bu isə işimizə çox fayda verə bilər. Qaldı ki, Zərrintac məsələsi, onun sənə biganə olmamağı, bəlkə də sənə vurulmağı heç də pis deyil. Zərrintac gözəldi, varlıdı, sənə münasib bir qızdı. «Hə» desən, səni evləndirərik — bu elə də çətin iş deyil. Görürəm ki, sən özün də o qızı istəyirsən, intəhası, köhnə məhəbbətin havası hələ də başından getməyib, ona görə də tərəddüd eləyirsən. Şəxsən mən də, Məleykə bacın da bu fikirdəyik ki, münasib şərait yarananda səni o qızla evləndirək. Hə, necə baxırsan bu işə, Elməddin?

Elməddin də siqaret yandırdı və ani təxirdən sonra dedi:

— Vallah, ustad, çaşıb qalmışam. Əvvələn, ona görə ki, mən yetim, kimsəsiz, kasıb bir oğlanam, özümü o milyarder ailəyə heç cür yaraşdıra bilmirəm. İkincisi, ən başlıcası isə budur ki, Zərrintacdan qorxuram.

Məhəmməd Şəfi güldü:

— Kişi də arvaddan qorxar, ay Elməddin?

— O mənada yox, ustad. Nikarançılığım ondadır ki, aristokrat tərbiyəsi görmüş, naz-nemət içində böyümüş bu qız şeri, sənəti başa düşməkdən uzaq adama oxşayır deyəsən. Dünən gecə tanış olduğum, Nəcməddinin təzə zövcəsi Dünya xanım şerə Zərrintacdan daha çox pərəstiş eləyir.

— Düz deyirsən, Elməddin. Qələm əhlinin arvadı gərək şer yazmasa da, yarımşair olsun. Dözümlü olmalıdı şair arvadı, fədakar olmalıdı. Oxuculardan da, münəqqidlərdən də qabaq o, ərinin qiymətini, böyüklüyünü, kiçikliyini bilməlidi. Şairi — sənətkarı evində uca tutmasalar o, xalq içində çətin sevilər. Bu cəhətdən sənin lə şərikəm ki, Zərrintac hələ cavandı, sən onu necə tərbiyə eləsən, necə öyrətsən, elə də olmağa qabil qızdı. Kişidən də çox şey asılıdı.

— Nə bilim, ustad. Hələ hara tələsirik? Qoy görək işlərin kedişi nə göstərəcək? — deyə Elməddin bu söhbətə xitam vermək lazım olduğuna incə şəkildə işarə elədi. — Görək ürək nə deyəcək, ustad?!

Araya sükut çökdü. Haradansa polis fitinin səsi eşidildi, parkın qırağında gəzişən polislər fit gələn tərəfə qaçdılar. Asfalt küçə ilə yüyürən polis nəfərlərinin nallı ayaqqabılarının tappıltısı eşidilməz olanda Məhəmməd Şəfi ah çəkib dedi:

— Bax bunlardır, bir də ordudur bizim əlahəzrətin dayağı, Elməddin. Onun cəmiyyətdə söykəndiyi əsas iki sütun polis və ordudur. Sən hələ cavansan, çox şeylərdən agah deyilsən, Elməddin. Sən

ağayi Nəcməddindən əlahəzrətin atasının öldürülməsini, Qulam Nəbinin faciəsini eşidib heyrətlənirsən. Bu məmləkətdə o qədər elə qanlar tökülüb, o qədər elə qeyrətli oğullarımız güllələnib, dar ağacından asılıb ki... Səfalət, aclıq, işsizlik... bizim xalqımızı öz dəhşətli əlləri ilə, caynaqları ilə hər gün gəmirir, öldürür. Bunları ürək ağrısı ilə görməmək mümkün deyil, gərək kar olasan, gərək kor olasan ki, bu zavallı xalqın səfalət bataqlığında boğulduğunu görməyəsən, naləsini, fəryadını eşitməyəsən. Onun taxt-tacı qan üstündə qurulub, sümük üstündə yaşayır, Elməddin. Mən deyim ki, axmaq adam deyil o, bicdir, siyasətcildir. Elə incə siyasət yeridir, gərək son dərəcə ağıllı olasan ki, bu xətti-hərəkəti, onun məqsədini başa düşüb anlayasan. Dövlət borc içində boğulur. Xarici məmləkətlərdən nə qədər borc almaq olar? Bu torpaq qızıl bitirsə, ağaclarımız qızıl meyvə versə belə, yalan olmasın, yüz ilə o borcların altından çıxmaq olmaz. Hara gedir o pullar? Camaatın güzəranı yaxşılaşırmı, məktəblər açılırmı, təhsil pulsuz olurmu? Yox! Camaatın gözünə kül üfürmək üçün yollar çəkilir, evlər tikilir, bərq[1] stansiyaları qurulur. Vəssalam. Bəs hanı sənin fabrikin, zavodun ki, heç olmasa camaatın işləsin, sənayen artsın, xalqının bir tikə çörək qazanmaq təminatı olsun? O, qəsdən belə şeylərə fikir vermir, çünki fabrik-zavod açarsa, istər-istəməz əmələ sinfi yaranacaq, əmələ sinfi isə onun ən böyük düşmənidir. Özünə qəbirqazanların meydana gəlməsindən qorxur o, Elməddin.

Ustad bu şaxtalı, dumanlı gecədə çox danışdı. Dərdlərini, düşüncələrini açıb dedi. Elməddin Məhəmməd Şəfinin indiyənəcən hələ belə açıq və odlu danışdığını görməmişdi. O, indi başa düşdü ki, ustadının başı təkcə şairliyindən belə erkən ağarmayıb, onun dərdləri varmış, o dərdlər də, bu torpağın, bu millətin dərdləri imiş! Ustadın belə pərdəsiz-boyasız məhrəmanə söhbəti, onu Elməddinin gözündə daha da ucaltdı, doğmalaşdırdı. Bir anlığa ona elə gəldi ki, o, kimsəsiz deyil, yetim deyil, onun Şəfi kimi, çoxunu tanımadığı, üzünü görmədiyi əqidə dostları kimi yaxın, çox doğma adamları var və onlar Elməddini heç vaxt darda qoymazlar, arxa olarlar. Bu hiss belə sazaq havada Elməddinin ürəyini elə isindirdi ki, əllərini cibindən çıxartdı, paltosunun yaxasını açdı və durub Məhəmməd Şəfinin qabağında gəzindi:

[1] Bərq — elektrik.

— Mən sizin məramınızı yaxşı anladım, ustad. Siz daş qoyan yerə mən baş qoyaram, — dedi. Məhəmməd Şəfi də ayağa qalxdı, Elməddini bağrına basıb alnından öpdü. Tək dirəyi kəlləsindən dumanı yarıb gələn solğun işıqda Elməddin ustadının gözlərinin yaşardığını aydın gördü.

***

Ev soyuq idi. Divarlar adama gəlirdi. Elməddin otağın ortasında xeyli hərəkətsiz dayandı. Saata baxdı, on ikiyə on dəqiqə qalırdı. Ustadla səhbətindən sonra çox həyəcanlandığından tezliklə yata bilməyəcəkdi. — Düşüncələri, hissləri düyün düşmüş kələf kimi qatmaqarışıq idi. Ürəyindəki fikirlərin, son hadisələrin təsiri altında sanki sökülüb dağıldığını aydın hiss edir, həyatda hələ çox şeyi bilmədiyini anlayırdı, ancaq bütün bu çalpaşıq duyğuların tutqun dumanları içərisində bir həqiqəti daha çox anlayırdı ki, daha o, təqribən iki il bundan irəli, Ədnan kəndində sakit, arxayın, süst və demək olar ki, ölü arzuları ilə, uğursuz ilk məhəbbəti ilə orada, çox-çox uzaqlarda qalan Elməddin deyildi: onun əvəzində, bu səsli-küylü, milyonerli-dilənçili şəhərdə təzə, hələ özünün də yaxşı tanımadığı, baş çıxara bilmədiyi, ümidli, arzulu bir Elməddin doğulmuşdu; bu Elməddin getdikcə saflaşır, durulur, dünyada nə üçün yaşadığını başa düşürdü. İndi həyat əvvəlki kimi, Ədnanda olduğu zamanlardakı təki çansıxıcı, bezikdirici deyildi; indi o nə isə maraqlı, şirin bir axına qoşulmuşdu və həmin axının onu haraya aparıb çıxaracağını hələ aydın kəsdirə bilməsə də, ömrünün şəhərdə keçən günlərindən çox məmnun idi; yavaş-yavaş yazılarını, rəsmlərini çap etdirir, camaat, oxucular onu tanımağa başlayır, söz-söhbəti şəhərə, rəsmi dairələrə yayılırdı. Ağayi Nəcməddinin idarəsində gördüyü işlər, Məhəmməd Şəfinin ruznaməsindəki az-çox fəaliyyəti, o dəhşətli gecədə maşında Ziyaülhəqqin adını çəkdiyi «adıbilinməz, gözəgörünməz» təşkilatın onunla belə ciddi maraqlanması, nəhayət, bu gecə ustadının ürək qızdıraraq danışdığı söz-söhbət Elməddinin həyatını, ürəyini işıqlı arzularla doldurmuşdu. Zahirən durğun, ölü bir təsir bağışlayan, təvəkkülə inanaraq başını aşağı salıb hara getdiyini, gələcəyini düşünməyən bu cəmiyyətdə o, nə isə edirdi, nəyəsə gərək idi və hələ dostları ondan daha çox şey gözləyirdi — bax bu hisslər onun qəlbini qururla doldurmuşdu.

İşləyə bilməyəcəkdi, yata da bilməyəcəkdi. Əvvəl istədi təzədən şəhərə çıxsın, elə beləcə, əlləri cibində səhərəcən küçələri dolaşsın, öz-özü ilə həsb-hal eləsin, dərdləşsin. Lakin bu fikirlərdən daşındı: polis nəfərləri şübhələnə bilər, izləməyə başlardılar. Bəlkə ağayi Nəcməddingilə getsin? İndi yatmış olarlar. Düzdü, Zərrintac xanım indi bu gəlişinə çox sevinər, durub geyinər, onu öz otağına aparıb söhbət edər, musiqi çaldırardı. Ancaq... yox, bu da olmaz, yaxşı düşməz. Xeyli götür-qoydan sonra, Elməddin kefi kök halda, fit çala-çala yerini açdı, soyunub uzandı. Əl atıb mizin üstündən ustadın təzə çapdan çıxmış və dəst-xəttilə yadigar yazıb verdiyi kitabı götürdü, şairin birinci səhifədən baxıb gülümsəyən şəklinə tamaşa elədi, bir az əvvəl dediyi sözlər təzədən beynində, qulaqlarında səsləndi və belə böyük, sevimli bir adamla şəxsən dost olduğunu düşünüb sevincdən gözləri yaşardı, əziz, doğma adamının əksini öpürmüş kimi dodaqlarını soyuq şəklə toxundurdu. Elə bu zaman telefon səsləndi. Kitabı sinəsinin üstünə qoyub elə uzandığı yerdə dəstəyi qaldırdı.

— Alo? Eşidirəm!

Cavab gəlmədi. «Bu, Zərrintacdı!» — deyə ürəyindən keçirmişdi ki, dəstəkdə həzin, kədər dolu bir musiqi səsləndi. Elməddin bəxtiyarlıqla gülümsündü: «Zərrintacdı». Və Zərrintac onun çox xoşladığı, milyon dəfə də dinləməyə hazır olduğu (bunu o, Zərriitaca demişdi) «Məra bebus»u[1] çaldırırdı. Elməddin nəşədən məst olmuş adamlar kimi hər şeyi unudaraq dinləyirdi: dəstəyi qulağına bərk-bərk sıxmışdı. Uzaqdan, gözəgörünməz telefon telindən süzülüb gələn o sehrli həyat eşqi ilə dolu mahnı Elməddinin bütün vücudunu titrədir, qəlbində əvəzsiz, xoş giziltiyə çevrilib sanki ona layla çalırdı. Sevdiyindən həmişəlik ayrılan, son vida anını yaşayan, taleyini tufanların qoynuna atan bir insanın acı könül fəryadları tək inləyən mahnını müğənni elə incə, elə böyük kədərlə ifa edirdi ki, Elməddinin qeyri-ixtiyari gözləri yaşarmışdı. Son ayrılıq anı, sevdiyindən son dəfə vəfa öpüşü istəyən adamın hıçqırtıları...

Məra bebus, məra bebus,
Bərayi axerin bar.
Xoda tora nigahdar

[1] İran mahnısıdır. «Məni öp» — adlanır.

Ki, mirəvəm besuya tufanha...»[1]—

deyirdi. Elməddin ömründə o xanəndəni görməmişdi, tanımırdı, ancaq səsini eşitmişdi və sevmişdi; həmişə olduğu kimi, indi də, yatağında uzanıb gözəl Zərrintac xanımın gecəyarıdan keçəndən sonra telefon telləri ilə göndərdiyi o sehrli mahnını gözüyumulu dinləyə-dinləyə görürdü ki, müğənninin rəngini belə bilmədiyi gözlərindən yaş axır... Çünki, o, elə mahnı idi ki, onu ürəyinin min yerindən, gözlərindən qan-yaş axıtmadan oxumaq olmazdı. Yaşamadan oxusaydı, o mahnı ölərdi. Çünki musiqi də inləyirdi, sözlər də. Əhvali-ruhiyyəsinin belə çalpaşıq vaxtında darıxdığından nə edəcəyini bilmədiyi bir çağında «Məra bebus»la onu yad eləyən Zərrintac xanım yanında olsaydı, utanmadan, çəkinmədən bağrına basıb üzündən, gözlərindən öpərdi, minnətdarlığını bildirərdi. Heyf ki, o, burada deyildi; sonra fikirləşdi ki, Zərrintac yanında olsaydı, onda bu mahnı olmayacaqdı.

Lent qurtardı, müğənni susdu. Elməddin hələ özünə gəlməmişdi, ürəyində, beynində hələ də o mahnı çalınırdı, oxunurdu. Zərrintacın səsi ayırdı onu xəyaldan:

— Salam, Elməddin. Axşamın xeyir! Elməddin sevinclə:

— Axşamın xeyir, Zərrintac xanım. Necəsən, Zərrin? —» dedi.

— Belə... Nə çox yaxşı, nə çox pis... Elməddin təşəkkürünü bildirdi:

— Çox sağ ol, Zərrin. Mahnı üçün çox sağ ol. Sən nə bildin ki, mən o mahnını çox sevirəm, Zərrin?

Zərrintac xəttin o başında nazla gülümsündü:

— Mən sənin ürəyindən keçən hər şeyi bilirəm, Elməddin?

— Hə?

— Hə!

— Beləsə, mən özümü xoşbəxt hesab eləyə bilərəm, Zərrin!

— Elə-elə! Yatmışdın?

— Uzanmışdım. Kitab oxumaq istəyirdim... Sən nə əcəb yatmamısan bu vaxtacan Zərrin?

— Nə bilim... Yuxum gəlmir... Son vaxtlar yata bilmirəm...

---

[1] T ə r c ü m ə s i: Məni öp, məni öp,
Axırıncı kərə məni öp.
Tanrı səni hifz eləsin,
Mən tufanlar qoynuna gedirəm.

— Niyə ki?

— Heç özüm də bilmirəm...

—Sənin yaşda olan qızlar... bir şeydən yata bilməzlər, Zərrin.

— Nə? Nədi ki, o elə?

— Bilmirsən?

— Yoox!!

— Ürəyinə qulaq asmısan?

— Ürəyimə?

— Hə! Ürəyinə!

— Yox!

— Ürəyinin səsini dinlə, gör o nə deyir sənə? Səni niyə qoymur yatmağa?

— Səncə, ürəyim qoymur məni yatmağa?

— Bəli, Zərrin.

— Bunu bilmirdim. — Sükut... — Yaxşı, ürəyim yanımdadı, ondan soruşaram. Ancaq sən de görüm, mən yaşda olan qızlar nədən yata bilmirlər gecələr?

— Desəm, acığın gəlməz ki?!

— Yox... De!

— Sən... Sən...

— Kəkələmə, söylə!

— Sən... sevirsən, Zərrin!

— Sevirəm?!... Məən?

— Hə.

Zərrintac susdu. Dəstəkdə yünkülcə ah səsi eşidildi.

Elməddin əsl nöqtəyə toxunduğunu anlayıb qımışdı.

— Niyə səsin kəsildi, sənə nə oldu?

— Heç nə!

Elməddin Zərrintacın yataq otağını yayda görmüşdü. İri, işıqlı otaqdı, iki pəncərəsi arxa tərəfdən küçəyə baxırdı, divardan asılmış, par-par alışıb-yanan herat xalçasının üstündən qızın keçən il çəkdirdiyi böyük şəkli asılmışdı; o, hörüklərini qabarıq sinəsinin üstünə atmışdı, xoşbəxt gülüş sifətinə nur çiləmişdi, inci kimi ağappaq, yaraşıqlı— biçimli dişləri azca aralı nazik dodaqlarının arasından parıldayırdı. Təkadamlıq çarpayısının üzərinə tül çəkilmişdi. Baş tərəfində ortasına gül vazası qoyulmuş stolun üstündə fil sümüyündən düzəldilmişə oxşayan telefon vardı. Bu, Zərrintacın şəxsi telefonu idi. İndi, Elməddin uzaqdan-uzağa aydın təsəvvür eləyirdi ki, gözlərinə yuxu getməyən, darıxdığından, canını qoymağa yer tapmadığından

gecənin bu vaxtında zəng eləyən Zərrintac soyunub ağ gecə köynəyində qu tükündən düzəldilmiş, qar kimi ağappaq yorğan-döşəkdə necə uzanıb, onun ipək kimi yumşaq saçları ağ balışın üstünə necə səpələnib. Və Elməddinin «Sevirsən, Zərrin!» sözlərindən sonra da qızın necə də bir anlığa donub qaldığını, özünü itirdiyini yanında imiş kimi apaydın görürdü. Hətta ona elə gəlirdi ki, bu sözdən bədəni də istiləndi, yanaqları da pörtdü. Elməddin azca qorxaq-ürkək səslə:

— Daha niyə qızarırsan, Zərrin? — dedi. Zərrintac xanım təşviş içində:

— Sən nə bilirsən ki, qızardım? — deyə xəbər aldı.— Haradan bildin?

—Görürəm səni, Zərrintac. Uzaq da olsam görürəm. Bax, bu saat çarpayıda uzanmısan, ağ kecə köynəyi geymisən. — Elməddin otağın quruluşunu nəzərində canlandırıb: — Özün də sağ böyrü üstə uzanmısan, telefonun dəstəyi sol əlindədi... Düz demirəm, Zərrin?

—…

— Niyə dillənmirsən, Zərrin?

Zərrintac çaşıb qaldığından dillənə bilmirdi. Elməddinin təsəvvürünün güclülüyündənmi, ya da adicə təsadüf üzündən dediklərinin hamısı düz idi, eləcə idi, zərrəcə fərqi yox idi.

— Sən sehrkarsan, nəsən, Elməddin? Bunları... sən necə görə bilirsən?

Elməddin güldü:

— Görürəm də... Sən mənim ürəyimdən keçənləri bilirsən, mən də hər şeyi görürəm.

Ani sükutdan sonra Zərrintac Elməddinin bu «hər şeyi görmək» qabiliyyətini bir də yoxlamaq məqsədilə soruşdu:

— Yaxşı, madam ki sən hər şeyi görürsən, de görüm qibləgahım hardadı indi?!

— Qibləgahın?

— Hə.

— Bu dəqiqə deyim. Bax, Zərrin, qibləgahın şam vaxtı yaxşıca içib. İndi də özünün cavan, qəşəng arvadının qucağında şirin-şirin yatır.

— Yatır, ya oyaqdı?

— Yox, yatır, Zərrin. İnanmırsan, get, yoxla.

— Oho, mən necə onların otağına gedə bilərəm?!

— Əlbəttə gedə bilməzsən. Heç lazım da deyil. Ancaq əmin ola bilərsən ki, yatır.

Zərrintacdan səs gəlmədi. Onun qulaqlarında Elməddinin Dünya haqqında dediyi «cavan, qəşəng» sözləri cinkildəyirdi. Xatirinə gətirdi ki, dünənki məclisdə Dünya necə də qəşəng geyinmişdi, gözləri də, paltarı da alışıb-yanırdı və bu da gəlib gözlərinin qabağında dururdu ki, Elməddinə hərdən Dünya gözaltı necə də baxırdı; xüsusilə o, şer oxuyanda təzə gəlinin hayıl-mayıl olmasını, özünü, yanındakıları unudaraq qulaq kəsildiyini yadına salıb nəşəsi pozuldu. Ancaq bunu büruzə verməməyə çalışaraq xəbər aldı:

— Gəlinimiz xoşuna gəldimi?

Elməddin həssaslıqla qızın səsinin dəyişdiyini, bayaqkı həvəsin, şuxluğun harasa uçub getdiyini dərhal anladı və laqeydliklə söylədi:

— Belə də... Ümumiyyətlə pis deyil, sənii əlinə, ayağına su tökməyə yarayar, Zərrin!

— Bəs indicə deyirdin cavan, qəşəng... — deyə o dəqiqə əhvali-ruhiyyəsində canlanma, dirçəliş yaranan Zərrintac xanım gümrahlıqla davam etdi. — Cavan, qəşəng Dünya xanım.

— Onu elə-belə dedim, Zərrin. Cavan olmağına, qəşənglnyinə söz ola bilməz Dünya xanımın, Ancaq sən olmayan yerdə, Zərrin. Sən mənim gözümdə hamıdan gözəlsən, Zərrin!

SƏKKİZİNCİ FƏSİL

Doğma kənd üçün, Ədnan üçün bu qədər bərk darıxdığını indiyəcən Elməddin belə dərindən hiss eləməmişdi. Əslində orda onun heç nəyi qalmamışdı. Boş, kimsəsiz evlərindən başqa heç nəyi... Bir də uşaqlığı, dərdsiz-qayğısız günləri qalmışdı orada, ilk eşqə düşdüyü o əzablı-şirinli günlər qalmışdı orada. Hərdən o kənd üçün, onun güllü-çiçəkli torpağı üçün burnunun ucu göynəyir, varlığını bir həsrət yandırırdı, ancaq işinin çoxluğu, vaxtının azlığı tezcə bu göynərtini, bu həsrəti yuyub aparır, unutdururdu.

Ancaq bu gün, şəhərə, qardaşı Mümtazgilə gəzməyə gəlmiş, Ətiqullanın səyi nəticəsində tapışıb qabaq-qənşər oturmuş qəryədar Qulamla söhbət eləyəndə Elməddin bir daha dərk elədi ki, doğulub böyüdüyü, ömrünün iyirmi üç ilindən çoxunu qoynunda keçirtdiyi o Ədnandan ötrü nə qədər də möhkəm darıxıbmış! Qəryədar Qulamla görüşü az qala onun üçün toy-bayrama çevrilmişdi, üzü də, gözləri də gülürdü. Elə bil, ən doğma adamını tapmışdı bu yad şəhərdə, sevincək olmuşdu; bu iki ildə qəryədar Qulam elə bil heç dəyişməmişdi,

ağ qaşları altında parıldayan xırda, qonur gözləri elə əvvəlki kimi sakit-sakit, nüfuzedici baxışlarla Elməddinə, evinin əşyalarına tamaşa eləyirdi. Təkcə o vaxt dəngil-düngül qara tükləri olan saqqalı dümağ ağarmışdı. Yerişi, hərəkətləri gümrah idi. Yenə məntiqlə, sərrast danışır, ağ sədəf təsbehini aramla çevirirdi. Elməddin neçə il əlinin altında işlədiyi, xasiyyətinə, rəftarına yaxşıca bələd olduğu qəryədar Qulama baxıb elə hey gülümsünür, kənddə ondan sonra baş vermiş hər şeyi mümkün qədər öyrənmək ümidilə gözünü onun ağzına dikib dururdu. Qəryədar Qulam isə, təbiətən azdanışan, daha çox ürəyində həsb-hal etməyi xoşlayan adam olduğundan, öz aləmində ən mühüm hesab elədiyi məsələləri Elməddinə çatdırırdı:

— Bəli, dünya əzəldən belə yaranıb, oğul. Bir gün yaranan, bir gün də bu fani aləmdən köçünü çəkib dari-bəqaya[1] getməlidi. Səbihə arvad, sənin anan xiffətdən, təklikdən, Yusifin, sənin dərdindən qışın orta ayında yorğan-döşəyə düşdü. Nədən ki, o qədər dərdə, taleyin zərbələrinə arıq, çəlimsiz bir qadın daha tab gətirə bilmədi. Dükandar Həzrətgülün kiçik övrəti tez-tez ona baş çəkərdi, yemək-çay verərdi. Ancaq biçarə günorta vaxtı keçindi. Xəbəri eşidəndə çox qəmgin oldum; fərmayiş verdim ki, mərhuməni el adətincə yığışıb dəfn eləsinlər. Dəfn mərasimində də özüm şəxsən iştirak elədim. Biçarəni oğlunun — Yusifin yanında torpağa tapşırdıq... Ağlama, oğul, heç kəsin ata-anası ömrünün axırına qədər yanında qalmır. Hanı mənim atam, anam? İndiyə sümükləri də çürümüş olar yəqin. Şəkilləri də az qala yadımdan çıxıb. Dünya etibarsız dünyadı, oğul.

Elməddin cib yaylığı ilə gözlərini sildi, anasının dəfnini təşkil etdiyi üçün qəryədar Qulama öz minnətdarlığını bildirmək istədi, ancaq münasib söz tapa bilməyib susdu, eləcə ehtiramla ona baxmaqla kifayətləndi.

Qəryədar Qulam davam etdi:

— Mal-qaranızı, gördüm ki, aralıqda qalıb itib-batacaq, qatdım öz heyvanlarıma. Səndən məktub alandan sonra isə torpağınızı da, evinizi də özüm kötürdüm. Fikirləşdim ki, başqasına qismət olunca elə özümüzdə qalsın. Sən də şəhərdəsən, yəqin sənə də pul-para lazımdı: nədən ki indi pulsuz-parasız uzağa gedə bilməzsən. Odur ki, bu dəfə şəhərə gələndə qardaşoğlundan xahiş elədim ki, həl-həlbət səni tapsın, əmanətini verim. İndi, bacıoğlu, sənin adına axşam Əti-

[1] Dari-bəqa — əbədi dünya.

qulla xana iki yüz əlli minlik bir çek yazdırdım — bu, torpağının, mal-qaranın, evinizin puludu, hamısı bir yerdə. Gərək az da olsa götürəsən, çox da olsa, — deyə qəryədar Qulam cibindəki portmanatın içindən bir kağız çıxardıb Elməddinə verdi. Elməddin heç vaxt alver etməmişdi, məzənnəni də bilmirdi, ona görə qəryədar Qulamın haqq-hesabda onu aldatdığını, yaxud insafla iş gördüyünü deyə bilməzdi, amma hər necə olsaydı, qəryədar Qulam ona böyük yaxşılıqlar, hörmətlər etmişdi, bunun müqabilində Elməddin onunla qəpik-quruş söhbəti etməzdi: həm də bu, təbiətinə yad idi.

Digər tərəfdən Elməddinin ömründə bu qədər pulu olmamışdı, «iki yüz əlli min» sözünü eşidəndə qulaqları guruldadı: həyəcanını gizləmək üçün piyalədə qalıb soyumuş çaydan dalbadal üç-dörd qurtum içdi, tələsik:

— Çox sağ olun, — dedi. — Bəsdi. O qədər əziyyət çəkmisiniz, ağa! Sizə ömrüm boyu minnətdaram.

— Pulunu istədiyin vaxt gedib mərkəzi bankdan götürə bilərsən, oğul. Ev ala bilərsən, evlənməlisən kec-tez. Yaxşı yadıma düşdü, Əfsanədən bir səs-soraq çıxdımı?

— Xeyir, ağa — o, köks ötürdü. — Taleyikəm heç bilmədim necə oldu. Axtarmadığım kənd, şəhər qalmadı, kümanım gələn yerlərə baş çəkdim, gördüm deyən olmadı. Ruznamədə elan da verdirdim, nəticəsiz qaldı. Ürəyim mənə deyir ki sağdı. Ancaq haradadı bəs?

— Hər şey ola bilər, oğul.

— Günah məndə oldu, ağa. Mən onu bədbəxt elədim, onsuz da bədbəxt idi, təzədən mən də bədbəxt elədim. Onu qəbul eləmədim, arvad kimi...

—Necə qəbul eləmədin, Elməddin? Axı sizin toyunuzdan bir həftə sonra yoxa çıxdı qız?

— Bəli. Elə ona görə yoxa çıxdı ki, mən onunla bir yastığa baş qoymadım. Ürəyim qəbul etmədi. Axı o mənim nakam qardaşımın arvadı idi. Yusif rəhmətlik gəldi durdu gözlərimin qabağında. Keçmişin söhbəti olduğuna görə indi sizə deyə bilərəm ki, Yusifdən əvvəl onu mən istəmişdim, qız da məni sevmişdi. Ancaq fələk işləri elə qurdu ki, mənə yox, qardaşıma qismət oldu Əfsanə! Sonrası da ki...

Qəryədar Qulam təsbehini çevirə-çevirə başını buladı:

— Səhv eləmisən, oğul. Gərək o qıza qarşı sən elə qəddar olmayaydın, madam ki səni də istəyirmiş, gərək heç belə eləməyəydin, onun da, özünün də isti yuvanıza su calamayaydın, oğul. İnsan gərək xoşbəxtliyini tapanda çalışsın ki, itirməsin onu. İtirdinmi, sonra ay-

ağına dəmir çarıq geysən də, əlinə dəmir əsa alıb dünyanı dolaşsan da, çətin taparsan, oğul. Ola bilər, tapasan da! Ancaq daha o xoşbəxtlik deyil, onun külüdür, kölgəsidir.

— Nə bilim, görünür, qismətimiz belə imiş, yazı yazan, siz demişkən, belə yazıbmış! Qaldı ki mənim şəhərə gəlməyimə, buna peşman deyiləm, ağa, əsla peşman deyiləm. Bu, mənim çoxdankı arzum idi. Burada, indi yavaş-yavaş ayağım yer tutur, dostlarım var, sizin kimi, yaxşı dostlarım var.

— Hə, Ətiqulla danışırdı. Mən bununla ancaq fəxr edə bilərəm, Elməddin. Bir də, üzünə demək olmasın, sən elə oğulsan ki, hayana getsən özünə dost-tanış, hörmət-ehtiram qazana bilərsən. Nədən ki, mərdsən, ürəyin təmizdi, orada bəzi adamlar kimi, ilan-çayan qaynaşmır. Bir olan Allah bilir ki, mən səni həmişə bu sifətlərinə görə çox istəmişəm, indi də istəyirəm.

— Ömrünüz uzun olsun, ağa.

Susdular. Sanki hər şeyi danışıb qurtarmışdılar. Lakin Elməddinin yadına haradansa Cahan qarı düşdü.

— Cahan arvaddan nə xəbər var, ağa? Qəryədar başını buladı:

— Heç ..nə, — dedi.—Yayda danışırdılar ki, binəvanın başı lap pozulub. Dava-dərman da kömək eləmir. Deyirdilər zəncirdə saxlayırlar. İndiyə sağ qalmaz, ölmüş olar.

— Hə, qoca arvad idi. — Bir az susub əlavə etdi: — onu bilirəm ki, dünya müsibətlərlə doludur. Bu niyə belədi görəsən, ağa?

Qəryədar Qulam «ya Allah!» — deyib döşəkçənin üstündən qalxdıqdan sonra ağır-ağır dilləndi:

— Dünya əzəldən belə bina olub, oğul. Yaradan belə xəlq eləyib bu cahanı. Hamı xoşbəxt olsaydı, bəlkə də zindəkanlıq belə maraqlı olmazdı. Görürsən, bu gün gülən, sabah ağlayır. Bu gün öldürəni sabah öldürürlər. Bütün ömrünü xoşbəxtliklər, bəxtəvərliklər içində yaşayan adam nadir tapılır yer üzündə, oğul. Hər kəsin bir dərdi, səri olmamış deyil. Mən sənə baxanda xoşbəxtəm, sən bir başqasının gözündə xoşbəxtsən, oğul. Halbuki biz özümüz yaxşıdan da yaxşı bilirik ki, mənim də dərdim var, sənin də... Bir gözü kor olan adam, iki gözü də işıq üzünə həsrət qalmış adama baxıb təsəlli alır, oğul. Yoxsa, belə olmasaydı, onun ürəyi partlardı.

DOQQUZUNCU FƏSİL

«Bağı-bala»[1] restoranında, irilaylı pəncərənin qabağında qoyulmuş stol arxasında iki nəfər oturmuşdu — Ətiqulla ilə Elməddin. Qəryədar Qulama — əmisinə nə qədər demişdisə də, kişi boyun qaçırmış, «namazımın vaxtı keçir!» — deyə bəhanə edərək Ətiqulladan, Elməddindən aralanmışdı.

Ətiqulla hündürlükdə, dağın ətəyində yerləşən, ətrafı yaşıllıqlar içində itib-batan, göz-könül oxşayan «Bağı-bala» restoranına tez-tez gəlməyi xoşlayırdı. Bura səliqəli idi. Xidmətçilər abırlı-başlı idi. Yeməkləri də dadlı, ləzzətli olurdu. Üstünlüklərindən biri də bu idi ki, yaxşı xarici içkiləri, pivələri vardı. Xaricilər də gəlib-gedirdi bura, ona görə növbənöv şərab tapmaq olardı burda. Kababın xoş iyi adamın burnunu qıcıqlandırırdı. Tikə, döymə kababı xüsusən gözəl bişirirdilər.

Hər ikisi möhkəm acmışdı, danışmır, iştahla yeyirdilər. Birinci badədən gözlərinin qurdunu öldürəndən sonra danışıq tutmuşdu:

— Sən qəribə oğlansan, vallah! — Ətiqulla dedi. — Mən ömrümdə birinci dəfədi sənin kimi adama rast kəlirəm.

— Nə olub ki? — Elməddin onun nəyə işarə elədiyindən anlayıb təəccüblə yox, elə-belə, xala xətrin qalmasın, xəbər aldıqda Ətiqulla söylədi:

— O dəfə qızın yanından çıxmışam, səni axtarmışam, qızlar gülə-gülə deyiblər ki, bəs dostunun bizdən xoşu gəlmədi, Həsrət arvadı bəyəndi, düşdü onun yanına. Arvad da dedi ki, çıxdı getdi, qalmadı. Təəccüb eləmişəm. Sənə nə olub? Cavan oğlansan, özü də subay. Sənin yerinə olsaydım, vallah, billah, gecə-kündüz ordan çıxmazdım. Ölüb qalmalı yerdi. Bir də, ay Elməddin, biz dünyaya bir dəfə gəlirik. Qocalandan, öləndən sonra həyat öz ləzzətini yamanca itirir, qardaş. Bilsəm ki, ikinci dəfə də dünyaya qayıtmaq mümkün olacaq, o başqa məsələ, ancaq ovcumun içi kimi bilirəm ki, möcüzələrlə dolu olan bu dünyada ancaq iki möcüzə baş verməyəcək; birinci budu ki, ölü dirilməyəcək, ikincisi də budu ki, qoca dönüb cavan olmayacaq. Ona görə, bu beşgünlük fani dünyada ye, iç, kefini çək. Şükür ki, indi pulun da var.

[1]Bağı-bala — yuxarı bağ.

— Ömrün mənası ancaq yemək-içməkdən, kefdən ibarət deyil, Ətiqulla. İnsan ancaq bunun üçün yaşamır ki...

— Bəs nə üçün yaşayır, Elməddin?

Elməddin dostunun bu sualına ətraflı cavab vermək istədi, ancaq düşündü ki, fikri-zikri yemək-içmək, əyyaşlıq olan Ətiqulla onu çətin anlayar. Belə adamların məqsədi ancaq puldu, yeməkdi, qadındı, onlar başqa heç nə barədə fikirləşmək istəmirlər. Varlarını, milyonlarını qorumaq üçün — yalnız bunun üçün lazım gəlsə, vuruşmağa, oda-alova girməyə hazırdılar. Vəssalam. Odur ki, qısaca söylədi:

— İnsan yaşayır ki, onun dünyaya gəlib-getməyi bilinsin. Öz işilə, əməllərilə adını dünyanın, vətənin yaddaşına həkk eləsin. İnsan elə yaşamalıdır ki, ölüb gedəndən sonra da onu unuda bilməsinlər...

— Əşi, o, boş-boş şeylərdi. Bu ancaq şöhrətpərəstlərin, nağdı qoyub nisyənin dalınca qaçanların xülyasıdı, Elməddin. — O, fransız arağını badələrə süzüb: — Götür içək, əşi, götür içək öz sağlığımıza, həyat adamı olmaq, bu günümüzün, bax, bu dəqiqə sağ olmağımızın, nəfəs almağımızın şərəfinə. Bizdən sonra nə olacaq, onu Allah bilir, — dedi.

İçdilər. Ətiqulla portağal soyub Elməddinin qabağına qoydu, sonra bir bananın da «köynəyini» çıxarıb Elməddinə uzatdı.

— Çox sağ ol, Ətiq, zəhmət çəkmə, özüm...

— Yeməyin də pisdi. Fikirlisən. Heç olmasa yemək-içmək zamanı bu fikir-xəyalı qoy kənara. Başın dincəlsin. Fikir-xəyal kimi insanın ömrünü gödəldən ikinci bir şey yoxdu cahanda. — Elməddin portağalın dilimini ağzına atdı:

— Təbiətim belədi, sən fikir vermə. Hər şeydən qaça bilər insan. Ancaq özündən, ürəyindən heç yana qaça bilməz.— Elməddin daha nə isə demək istəyirdi ki, Ətiqulla o biri stola yaxınlaşan ucaboy, qırmızıyanaq, bığlı kişini səslədi:

— Ağayi Əli, bura təşrif gətirin, bura.

Əli adlanan kişini Elməddin birinci dəfə idi görürdü. O, əllərini ovuşdura-ovuşdura yaxınlaşdı, Ətiqullanı tanıyan kimi şax, uca qamətini əyib irəli uzandı və əlini sıxdı:

— Xoş gördük, a şair! — dedi Ətiqulla,— yenə restoranlarda gəzirsən, özü də tək-tənha. Adam da restorana tək gələr, ay şair?

Əli şair imiş—düşündü Elməddin və o dəqiqə ürəyinə damdı ki, bu, şair Əli Tüğyan olacaq. Hissi aldatmamışdı, o idi. Və bu gözlənilməz görüşdən Elməddin sıxıldı. Karikaturası gəlib durdu gözlə-

rinin qabağında. Rəhgüzər gəlib durdu gözlərinin önündə. Əzabı ilə. Maraqlı idi ki, indi, onu tanıyandan sonra Əli Tüğyan nə hala düşəcək, ona necə münasibət bəsləyəcək və bu maraq Elməddinin ürəyindəki sıxıntını qovub çıxartdı.

Əli Tüğyan Ətiqullanın göstərdiyi stulda əyləşdi və qövsvarı, qalın qaşlarıpın altında parıldayan iri gözlərini dolandırıb Elməddinə baxdı. Ətiqulla dnlləndi:

— Bu, — şairi göstərdi, — bu bizim şair Əli Tüğyandı. Tanış olun, bu da — o, Elməddinə işarə elədi, — bu da mənim dostumdu, ağayi Elməddindi, ağayi Nəcməddinin yanında işləyir.

Əli Tüğyanın üz-közündən, əzvayişindən başa düşdü ki, Elməddini tanımadı, yəni bilmədi ki, Rəhgüzərin qəzetində dərc olunmuş «o biabırçı» karikaturanın müəllifi ilə üzbəüz oturub. «Bəlkə belə yaxşıdı, qoy tanımasın».

— Ha axtardım, əlimə bir fərli-başlı adam keçmədi ki, gətirəm özümlə çörək yeməyə, — deyə Əli Tüğyan kabab tikələrinə baxıb udqundu.

— Adamın fərli-başlısını axtardın, tapa bilmədin, hə? Ye, görürəm, bərk acsan, bizə baxma ye. Ay səni, şair. Bir dilənçi gətirəydin, bir qarın çörək verəydin. Olmazdı? Dilənçi ki doludu şəhərdə.

— Mən dilənçi ilə restorana gələydim, ağa? — deyə o, tikəsini çeynəyə-çeynəyə Ətiqullaya baxdı.

— Özünə yaraşdırmazsan. Şair və dilənçi bir restoranda, bir stol arxasında çörək yeyir... Görən, bilən nə deyər?

— Ağam zarafat eləyir ey — deyə o, bu dəfə Elməddinə baxıb qımışdı. Əli acközlüklə yeməyi — xörəyi gözünə təpirdi. Ətiqulla onun üçün də araq süzdü:

— Götür şair, götür içək bu badələri sənin sağlığına. Sən qibləgahımın ürəyinə yaman yol tapıbsan, kişi oturub-durub səni tərifləyir. Onun pullarının axırına çıxsan, sən çıxacaqsan. — Sonra o, üzünü Elməddinə tutub davam elədi. — Bilirsən də, qibləgahım pul buraxır, o da ruznamə nəşr eləyir, yəni ki, kişinin pullarını havaya üfürür.

— Hə? — deyə Elməddin söhbətin təzə nəşrə başlayan «Sülh» qəzetindən getdiyini bilsə də özünü bixəbər kimi göstərib xəbər aldı. — Nə ruznamədir o belə? Mən bütün ruznamələri oxuyuram.

— Oxuyursan? — Əli Tüğyan badəsi əlində Elməddinə diqqətlə baxdı — «Sülh»ü də oxuyursan?

— Bəli.

— Mənciyəz ruznamə-zad oxumuram. Nəyimə lazımdı başımı ağrıdım? Bilirəm hamısı çərən-pərən yazır. Ruznamə yazanların çoxunu özüm tanıyıram, bilirəm kim necə adamdı, kim nə yaza bilər, — dedi Ətiqulla.

Əli Tüğyan söylədi:

— Bax, o «Sülh»ün redaktoru mənəm. Necədi, xoşunuza gəlir?

— Nə deyim, vallah? — Elməddin çiynini çəkdi. — Düzünü desəm, qorxuram acığınıza gələr.

— Yox, canım. Acığıma niyə gəlir?

— Acığına gələr, araq içər, — deyə Ətiqulla zarafat elədi. Və fürsətdən istifadə edib badəsini başına çəkdi, o birilər də ona baxıb içdilər. — Bax belə. Bax belə, keçmişlərdə bir şeydən hirslənəndə, acıqlananda su içərdilər, indi araq içirlər.

— Hə, deməli bizim ruznaməni oxuyursunuz? Mən oxucu ilə rubəru durub söhbət etməyi xoşlayıram. Nədən ki, oxucu səsi kütlənin, xalqın səsidir. Onu eşitmək, gələcək fəaliyyətimizdə, təkliflərini, arzularını nəzərə almaq ümumi işimizin xeyrinədi. O biri yandan da, bunu hamı bilir ki, ruznamə xalqın əfkari-ümumisidir.

— Elədir, ancaq hər ruznamə yox, ağayi Əli Tüğyan.

— Tamamilə düz buyurursunuz. Ruznamə gərək xalqın, camaatın ürəyinə girə bilsin, onun dərdini bəyan eləyə bilsin, işıqlı gələcəyindən danışa, xəbər verə bilsin.

— Amma bu, hər ruznaməyə müyəssər olmur, ağa! Məsələn sizin ruznaməni götürək. Mən əminəm ki, bir oxucunuz kimi fikrimi deyə bilərəm, elə deyilmi?

— Əlbəttə, buyurun.

— Sizin ruznamə... — Elməddin ani olaraq duruxdu, demək istədiklərini yumşaltmaq üçün yollar aradı, ancaq düzü düz, əyrini əyri deməkdən ayrı çarə görməyib davam etdi: — Sizin ruznamə təəssüf ki, xalq ruznaməsi deyil, camaatı düşündürən məsələlərdən yan keçir, ümumi sülh şüarı ilə cəmiyyətin kəm-kəsirlərini ört-basdır eləyir.

— Hə? — Əli Tüğyanın gözləri böyüdü, qırmızı yanaqları daha da qızarıb allandı.

— Bəli, ağa. Siz dövlətlər arasında ümumi sülhü təbliğ edirsiniz, bu özlüyündə çox yaxşıdır. Ancaq bizim cəmiyyətimizdə — ağası, nökəri, varlısı, yoxsulu olan cəmiyyətdə insanlar arasında da sülhü, qardaşlığı təbliğ edirsiniz. Bax, bu düz deyil, sizin səhviniz, özü də böyük səhviniz bundadır, ağa. Mən inanmıram ki, sizin kimi savadlı, hörmətli bir şair, neçə-neçə şer məcmuəsinin müəllifi bu hə-

qiqəti başa düşməsin. Yox, bunu çox gözəl anlayırsınız, ancaq sizin sinfi mövqeyiniz buna imkan vermir, ağa. Bir özünüz fikirləşin — mülkədarla ac-yalavac kəndli, milyonerlə evsiz-eşiksiz şəhər yoxsulları arasında hansı bərabərlikdən, qardaşlıqdan və sülhdən danışmaq olar? Bunlar təbiətən necə deyərlər, anadangəlmə bir-birinə düşmən olan zümrələr deyilmi? Görürsünüz, ağayi Ətiqullanın bayaq zarafatla dediyi sözlərdə çox böyük bir həqiqət var — siz, dilənçi ilə bir restoranda, bir stol arxasında oturmağı, çörək yeməyi öz şəninizə sığışdıra bilmədiniz. Amma ruznamənizin yazdığına görə, axı siz qardaşsınız, bərabərsiniz?! — Əli Tüğyan Elməddini dinləyirdi, yemək-içmək yadından çıxmışdı, hiss edirdi ki, qarşısında oturan bu cavan oğlan heç də adi dəftərxana işçisinə oxşamır, sözləri, mühakimələri məntiqlidir, kəskindir və haradasa ürəyinin dərinliklərində bunu da anlayırdı ki, çox şeyləri düz deyir. Bununla belə arxasını yerə qoymaq, təslim olmaq istəmirdi.

— Mən deyərdim ki, sizin də sözləriiizdə müəyyən qədər həqiqət var, lakin siz hələ cavansınız, bir çox həyat həqiqətlərini, hadisələrin məntiqi inkişafının kələcəyini hələ layiqincə görə bilmirsiniz, dərk edə bilmirsiniz, ağa.

Biz qan əleyhinəyik, nahaq qan tökülməsi əleyhinəyik. Bu cəmiyyətimizin bütün üzvlərini ona görə qardaş olmağa çağırırıq ki, qan tökülməsini istəmirik, bəli! Yoxsa siz bir anlığa təsəvvür edin ki, biz də, ağayi Rəhgüzər kimi, cəmiyyətimizin zümrələrə bölsək, onları bir-birinin üstünə qaldırsaq, onda nə olar? Qan su yerinə axar, qardaş qardaşı qırar, ata oğula əl qaldırar. Onda müsibətlər olar, ağa.

Elməddin artıq danışmaq istəmədi, Əli Tüğyanı şübhələndirəcəyindən ehtiyat edib susdu, saatına baxıb getmək vaxtı çatdığını Ətiqullaya xatırlatdı. Amma Elməddinin söz-söhbəti Əli Tüğyanın xoşuna gəlmişdi. Onunla ətraflı maraqlanır, hardan gəldiyini, konkret nə ilə məşğul olduğunu öyrənmək istəyirdi. Elməddinin isə bu, ürəyincə deyildi.

Ətiqulla, tərs kimi, dostunu ətraflı təqdim etməyə məcbur oldu:

—Ağayi Elməddin də şer, hekayə yazır, ağayi Əli Tüğyan.

Düzdü, mən oxumamışam, ancaq deyirlər pis yazmır. —O, — deyə Əli Tüğyan sevindi — Əşi, bunu bayaqdan de də! Mən də fikirləşirəm ki, ay allah, bu kimdi. Mən sizin şerləri, hekayələri çox böyük məmnuniyyətlə oxuyuram, ağayi Elməddin. Ağayi Rəhgüzər sizin yazıları böyük bir səxavətlə çap edir. Sən bayaqdan danışdıqca barmağımı dişlədim ki, bu məktəb ağayi Rəhgüzərin məktəbinə ox-

şayır. Yanılmamışam. — O, nəsə fikirləşib:—Yeri gəlmişkən bir şey soruşum sizdən, — dedi.

— Buyurun.

— Rəhgüzərin ruznaməsinin rəssamı kimdi?

Elməddin onun nəyə işarə elədiyini duyub gülümsündü:

—Düzü, bilmirəm, ağa!

Əli Tüğyan köks ötürdü:

— Rəhgüzər böyük sənətkardır, amma heyf ki, yollarımız ayrıdı.

Elməddin qalxdı:

— Bəlkə elə-belə olmağı yaxşıdı, ağa!

ONUNCU FƏSİL

Dünya xanım az bir müddət içində təzə həyata, ev-eşiyə isinişmişdi, uyğunlaşmışdı. Elə sərbəst gəzib-dolanırdı ki, deyirdin bəs on ildi bu evdə, bu adamların arasında yaşayır. Deyib-gülən, dərd-qəm çəkməkdən uzaq, «bu gün varsan, gününü xoş keçir, sabah nə olacaq, olacaq» — deyə düşünən bir qadın təsiri bağışlayan Dünya xanım Nəcməddinin cah-calalını görüb az qala ağlını itirmişdi. Yatıb yuxuda da görə bilməyəcəyi, təsəvvürünə belə gətirə bilməyəcəyi bir səadət, bəxtiyarlıq onun cavan könlünü sehrli-sirli duyğularla doldurmuş, əvvəllər dörd divar arasında təklikdən, qüssədən solğunlaşmış sifəti indi çıraq kimi yanmağa başlamış, qara gözlərinə sanki nur seli axıb tökülmüşdü. Bəxtəvərlik onsuz da gözəl olan Dünyanı daha da gözəlləşdirmiş, sonalaşdırmışdı. O, nağıllardan, əfsanələrdən uça-uça gəlib bu həyət-bacaya, Nəcməddinin çiyninə qonmuş bir mələk kimi öz qoca ərinin ömrünü də nağıllaşdırmış, əfsanələşdirmişdi. Nəcməddin təzə eşqə düşən bir cavan oğlan təki xəyalpərvər olmuş, nikbinləşmiş, geyim-keciminə, yeməyinə xüsusi fikir verməyə başlamış, hərəkətlərində, yerişində-duruşunda çeviklik əmələ kəlmişdi. Taleyindən, yaradanından isə elə razı idi ki... «Yaradan var, vallah, var!—deyirdi özözünə. — Məni unutmadı o, səadət verdi mənə, ömrümü-könlümü işıqla-sevinclə doldurdu mənim. Səni tanımayana lənət, ya rəbbi!» Nəcməddin Dünyanın böyür-başında yenicə ailə qurmuş cavan ər kimi hərlənir, xəlvətə düşən kimi gəlini sonsuz bir həvəs və eşqlə bağrına basıb öpür, qucağına götürüb körpə uşaq sayağı fırladır, çarpayının üstünə atıb başını sinəsinin üstünə qoyub sevincindənmi, həyəcanındanmı titrəyə-titrəyə onu əzizləyir, nəvazişlər içində itirib-batırır, sonra

ipək təki yumşaq saçlarından tutmuş ayaqlarına qədər duz kimi yalayırdı; yorulub qalxanda isə Dünya xanım kişinin gözlərindən axan yaşı görüb təəccüblənirdi. Bütün bu müddət ərzində sonsuz nəvaziş içində, əzizlənmələr içində əriyib yumşalmış, uşaqlaşmış, gülməkdən, qıdıqlanmaqdan uğunmaq dərəcəsinə gəlmiş Dünya xanım dünyada heç qadının heç bir kəs tərəfindən belə dəlicəsinə sevilə bilməyəcəyi hissindən sonsuz dərəcə biixtiyar olaraq Nəcməddnnin yaşarmış gözlərindən öpə-öpə, onun mirvari göz yaşlarını, demək olar ki, dili ilə quruda-quruda deyirdi:

— Daha niyə ağlayırsan, ay dəli?

Nəcməddin Dünyanın ipək tellərini qoxulaya-qoxulaya, pıçıltıyabənzər bir səslə:

— Doğrudan mən dəli olmuşam, Dünyam mənim! —deyə cavab verirdi. — Sənin eşqin, sənin gözəlliyin məni divanə eləyib, gülüm. Ancaq məni qınama, sən allah, ürəyində mənə gülmə, Dünyam. Mən yer üzünün bəlkə ən bəxtəvər kişisiyəm indi. -Elə bilirəm, dünyanı mən yaratmışam, kainatda hər şey, hər şey, hətta bax o göylərdəki ulduzlar da mənimdi. Mən ömrümdə özümü belə qadir, belə əzəmətli, belə xoşbəxt hiss eləməmişəm, inan buna! Bu gücü mənə sən veribsən, sənin kəncliyin, gözəlliyin, məhəbbətin verib, mənim gözəl Dünyam. Bunun üçün tanrıma, sənə minnətdaram, elə minnətdaram ki, söz tapıb deyə bilmirəm. Əgər ən qüdrətli şair olsaydım, belə, çox güman ki, ürəyimdəkilərin, sənə bəslədiyim məhəbbətin onda, yüzdə birini də bəyan eləyə bilməzdim.

Dünya xanım Nəcməddinin bu sözlərindən məst olmuş halda xoşbəxtlik içində söyləyirdi:

— Çox sağ ol, əzizim. Sən də məni bəxtiyar eləmisən, səni heç kəsə, hətta ölümə belə verməyəcəyəm. Özüm isə ölüncə qulunam, ölüncə sənənəm, ay mənim allahım.

Onların arasında tez-tez, bu və ya digər şəkildə, belə söhbətlər olurdu. Hər ikisi ürəyi gözəl hisslər, duyğularla dolu halda bir-birini əzizləyir, xoş sözlər deyir, şad-xürrəm yaşayırdılar. Yaşayırdılar və günlər, həftələr keçdikcə bu qəribə eşq nəinki azalırdı, əksinə, üstünə yağ tökülmüş od kimi daha da çox alovlanır, şölələnir, hər ikisini xoş bir gizilti ilə yandırırdı.

Bütün bunları, əlbəttə, evin içində Zərrintac eşitmirdi, ancaq yetkin, ərgən bir qız kimi duyur, anlayırdı. Və sevinirdi ki, nəhayət, atası — vaxtını əvvəllər orda-burda keçirən, ev-eşiyə sığışmayan Nəcməddin indi, necə deyərlər, ev toyuğu olmuşdu, mehriban olmuş-

du, az hirslənirdi, qanqaralığın daşını atmışdı; kişini bu Dünya xanım elə bil, təpədən-dırnağa dəyişmişdi, cavanlaşdırmışdı, Zərrintac aradabir qısqansa da, əsasən Dünyaya bağlanmışdı, atasını çox istədiyinə görə, o da Dünyanı sevməyə başlamışdı, Dünya ilə mehriban dolanır, bir çox şeylərdə məsləhətləşir, dərdini-sərini bölüşdürürdü. Dünya isə Zərrintacın qulluğunda uşaq kimi, qulluqçu kimi dayanır, yeməyinə-içməyinə, təmizliyinə fikir verir, bir xoş söz eşidəndə ona xoş söz deyirdi. Hərdən, kişi evdə olmayanda, Dünya rəqqasə kimi, paltarındakı pulları cınqıldada-cınqıldada, ayağındakı xal-xalı səsləndirə-səsləndirə qaval çalıb qabağında oynayar, «hurilər dərəsi»nin ürəyəyatan mahnılarından oxuyar, cürbəcür gülməli söhbətlər danışar, qızı elə əyləndirərdi ki, konsertdən, teatrdan çıxan adam kimi qızın əsəbləri dincələr, yüngülləşərdi. Dünya sanki sinədəftər idi, o qədər söz, nəğmə bilirdi ki, qurtaran deyildi. Dünyanın sanki sümüyü yox idi, elə incə, zərif hərəkətlərlə əyilib-düzəlirdi ki, baxanda göz dincəlirdi. Dünyanın gözəlliyi, kəncliyi Nəcməddinin həyata da, evinə də, qızının ömrünə də bir təzəlik, bir təravət gətirmişdi və adama elə gəlirdi ki, bu növrağı, bu səadəti, bu xoşbəxtliyi heç vaxt, heç kəs pozmağa qadir deyil.

...Dünya xanım Zərrintacı həyətdəki hamamda çimizdirmişdi, qızın yanaqları pörtüb qızarmış, daha da qəşəngləşmişdi. Əyninə bu üzündən baxanda o üzü görünən mavi rəngli gecə köynəyi geymişdi, o mavi ipəyin arxasında qızın bədəninin ağ dərisi, sinəsi apaydın görünürdü. Saçları hələ qurumamışdı. Dünya qızın böyründə, çarpayısı üstündə oturub tiftikli dəsmalla yumşaq tellərini qurulayır, üzündə, yanaqlarında əmələ gələn tər damcılarını silirdi. Zərrintac isə bu qayğıkeşliyi, mehribanlığı görüb xəyala dalmışdı, gözləri yol çəkirdi. Anası yadına düşmüşdü. Ana, Zərrintac uşaq olanda, elə lap böyük vaxtında da, ölməmişdən azca qabağacan qızını beləcə yuyundurar, əlləri üstə evə gətirər, əzizləyə-əzizləyə, nəğmə oxuya-oxuya qurulayıb geyindirərdi, sonra bir stəkan şərbət verərdi. İndi Dünya da onu bax beləcə, anası kimi nəvazişlərə qərq etmişdi, hətta qabağına şərbət də qoymuşdu. Ancaq Zərrintacın gözü yol çəkirdi, şərbəti görmürdü.

— Niyə fikrə getmisən, ay Zəri? — deyə Dünya onun saçlarını daraya-daraya çönüb baxdı. — Şərbəti niyə içmirsən, qadası?

Zərrintac elə bil yuxudan ayıldı, Dünyanın sifətinə dalğın bir nəzər salıb gülümsündü:

— Heç, — dedi. — Elə-belə...

Dünya yerindən qalxdı, dəcəl uşaqlara məxsus çevik bir hərəkətlə fırlanıb Zərrintacın qabağında dayandı və gülə-gülə:

— Yoxsa şairin yadına düşüb, Zəri? — dedi və cavab gözləməmiş davam etdi: — Hə, vallah, elədi. İstər kişi olsun, istər qadın hamamlanıb yüngülləşəndə, nə sirri-xudadırsa, ürəyinin ən əziz adamını — sevdiyini yadına salır, onun yanında olmasını arzulayır. İndi sən də, gül kimi cavansan, dərilməmiş qönçəsən, toxunulmamış nərgizsən, Zəri, özü də tərtəmiz yuyunub ətirlənmisən; vallah, billah, qadınlığımla mənim sənə tamahım düşür. Onda qalmış ola şair. Şair,— adı nə idi onun, hə, Elməddin — o şerləri sənə yazır, ay bəxtəvər. Ürəyinin ən incə, zərif hisslərini sənə bağışlayır, gül kimi, çiçək kimi sənin başına səpir, Zəri. Çox xoşbəxtsən ki, səni şair sevir, Zəri. Mən eşitmişəm, sənin qibləgahın danışıb mənə, bu şairlərin məhəbbəti qəribə olur, vallah. Deyir, onlar yaman sevirlər, elə sevirlər ki, o məhəbbət axırda sevdiyini də, özünü də yandırıb külə döndərir.

Bayaqdan ilk dəfə ağız açıb dinən Zərrintac, yumşaq əlini sol döşünün giləsində gəzdirib söylədi:

— Bütün şairlər elə olmur, Dünya. Çox şair var ki, hərcayı olur, gündə birinə eşq elan eləyir, buna bir şer, ona beş şer yazır, bəzən deyirlər, belə də eləyirlər ki, bir qıza yazdığını, ondan üzülüşəndən sonra, başqasına: «Bunu bu gecə sənə yazmışam» — deyir, aldadır. Ağlım belə kəsir ki, şairlərin içində əsl sədaqətlisi az olur, Dünya!

Dünya adam boyu ucalığında olan bədənnüma güzgünün qənşərinə gəldi, istər-istəməz öz camalına, gözlərinə baxdı, birçəyini burub ətir şüşəsini götürdü və yaxınlaşıb Zərrintacın saçlarını, qulaqlarının dibini, sinəsini, döşlərinin arasını ətirlədi; otağı xoş, bihuşedici bir qoxu bürüdü:

— Oxqay, nə gözəldi!—deyib gözlərini yumdu. Çarpayının üstündə uzanmış Zərrintac altdan-yuxarı Dünyanın məst olduğunu görüb: «Çox atəşli və həssas qadındı» — deyə ürəyindən keçirib dilləndi:

— Özün də vur!

Dünya ətrin ani olaraq apardığı o xoş, gözəl aləmdən səsə qayıtdı:

— Yoox, — dedi, — sağ ol. Mən də çimərəm, sonra...

— Sən də çiməcəksən?

— Hə. Mən çimənd qibləgahının yaman xoşuna gəlir.

— Qibləgahımı çox istəyirsən, Dünya?

Dünya ani duruxdu və sonra bic-bic gülümsündü:

— Bəli, xanım. Onu çox istəyirəm. Ancaq, düzü, o məni daha çox istəyir, Zəri. Kişi elə bil on səkkiz yaşında oğlandı. — Sonra nə isə fikirləşdi, belə getsə çox şeyi açıb deyəcəyini hiss edib özünə xas bir ustalıqla sözünün axırını çöndərdi: — Ərə get, Zəri, ər yaxşı şeydi. Adama həyan olmağından başqa, bir də bilirsən ki, yaşayırsan... İnsan kimi yaşayırsan, dünyanın hər dərdi-sərini unudursan, xoşbəxt olursan. Duyursan ki, kimə isə lazımsan. Ona görə deyirəm ki, get ərə, Zəri.

Zərrintac üçün onun danışıqları şirin idi, birinci dəfə idi ki, beləcə, ərli bir qadınla üzbəüz oturub söhbət etdiyindən hələ dünən həyatda çox şeyləri bilmədiyini, tutqun, dumanlı şəkildə təsəvvür etdiyini anlayırdı və çox istəyirdi ki, Dünya yenə danışsın, onunla lap açıq danışsın, ancaq görünür, Dünya daha usta idi və hər şeyi birdən-birə açıb demək istəmirdi. Bunu hiss etdiyi üçündü ki, Zərrintac onun verdiyi suala sualla cavab verdi:

— Kimə gedim, Dünya?

Dünya yanını çarpayının qırağına qoydu, Zərrintacın mavi gecə köynəyinin altından sivrilib çıxmış qəşəng, dolu və yaraşıqlı ayağını sığallaya-sığallaya dedi:

— Kimə? Odey, Elməddinə! Cavandı, qəşəngdi. Üstəlik şairdi. Ondan yaxşısına gedəcəksən?

— Ondan yaxşıları da istəyir məni, Dünya. Hətta əlahəzrətin oğluna da istəyir versin qibləgahım məni.

— Qibləgahın deyir ki, əlahəzrətin oğlu çirkindir. Ondan keç. O biriləri deyəsən o da tanımır, Zərrintac ahəstə səslə:

— O biriləri, gözəl olsalar da, xoşuma gəlmirlər, Dünya. Nəsə ürəyimə yatmırlar. Onları görəndə elə bil nökərimiz Əbdülü görürəm. Məndə heç bir hiss oyanmır...—dedi.

Dünya söhbətin incə yerə gəldiyini anlayıb məqamında sual verdi:

— Bəs Elməddin necə?

— Onu görəndə... — susdu, çox incə bir ah çəkdi və bunu Dünya da tutdu, — onu görəndə... nədənsə sevinirəm, Səbəbini özüm də bilmirəm, ancaq sevinirəm. Kec gələndə darıxıram.

— Bax, onu sevirsən, Zəri. Bəlkə də bu hələ sevgi deyil, ancaq bu, böyük məhəbbət ola bilər... - Dünya bu sözləri deyərkən səsindəki bayaqkı qətiyyət azaldı, əli süstəlib Zərrintacın ayağının üstündən sürüşüb düşdü. Baxırdı qıza, ancaq fikrində ayrı şey canla-

nırdı: Dünyanın həssas təsəvvüründə Elməddinlə Zərrintac qoşalaşmışdı, qaynayıb-qarışmışdı, göz-gözə, nəfəs-nəfəsə toxunmuşdu. Dumanlanmış baxışları qarşısında cilvələnən bu qoşa cavanın xəyalı çəkilib getmirdi ki, getmirdi. Elə bil Elməddin onun idi, bax, indicə bu taxtın üstə uzanıb xumarlanan qız onu əlindən aldı: Ürəyində gizli bir ağrı duydu və elə məhz o anda anladı ki, Elməddin ilk baxışdan xoşuna gəlibmiş və bu hissi dərhal içində boğmağa çalışdı: «Onun mənə nə dəxli var? Nəcməddin bilsə başımı tərsə kəsər!» — deyə düşündü, qəlbindəki küt ağrılı hissi özündən kənar eləməyə müvəffəq olduqdan sonra:

— Bir-birinizə əcəb yaraşırsınız, Zəri!—dedi—Allah eləsin qovuşasınız, xoşbəxt olasınız. Bunu nə qədər tez eləsəniz, o qədər yaxşıdı, Zəri.

— Niyə ki? Nə qaçhaqaçdı? Dünya güldü:

— Qaçhaqaç deyil, bacım. Amma ömür gedir, hər keçən gün bizi bir az da qocaldır, ölümə yaxınlaşdırır. Heç kəs də bilmir ki, nə vaxt öləcək. Sizdən, bizdən uzaq, Bunu elə-belə deyirəm ey. Ona görə həyatda hər anın qədrini bilmək, yaşamaq, sevmək, sevilmək, əzizlənmək gərəkdi, Zəri.

Zərrintac dikəlib dirsəkləndi:

— Yaman çoxbilmişsən ha, Dünya!

— Mən «hurilər dərəsi»nin qızıyam, Zəri. Mən gözəl təbiətin qoynunda, gözəl-köyçək qızların, qəşəng, su sonası kimi gəlinlərin arasında böyümüşəm. Taleyin qismətindən ağılla faydalanmağı bacarmaq gərəkdi, Zəri.

ON BİRİNCİ FƏSİL

Gecə saat onu keçmişdi. Divar saatının yeknəsəq çıqqıltısından başqa otaqda heç bir səs-səmir eşidilmirdi. Bəbir barmaqlarının yazmaqdan keyidiyini hiss eləyirdi, ancaq fikirlərini kağıza köçürmək, «Nə etmək lazımdır?» adlı nəzəri-siyasi məqaləsini qurtarmaq istəyirdi. Dörd sutka idi ki, yazırdı, həvəslə, şövqlə yazırdı, Söz üçün axtarmırdı, çünki hər şeyi ölçüb-biçmiş, demək olar ki, əvvəl beynində yazmışdı. Məmləkətin iqtisadi-ictimai vəziyyəti ona beş barmağı kimi bəlli olduğundan heç bir çətinlik çəkmir, faktları kəskin dillə qələmə alır və yazdığı çap olunandan sonra qopacaq hay-küyü, tufanı göz önünə gətirir, ürəyi həm fərəh, həm də kədər hissilə dolurdu. Ona görə sevinirdi ki, onu oxuyan nə qədər adamın gözü açılacaq,

tərəfdarları, dostları çoxalacaqdı. Kədərlənirdi, ona görə ki, düşmənləri də çoxalacaqdı; özü də bunlar adi düşmənlər olmayacaqdı; pullu, vəzifəli adamlar olacaqdı, hökumət olacaqdı; şübhəsiz, şahənşahın da qəzəbinə səbəb olacaqdı bu məqalə. Amma çəkinmək lazım deyil, hücumu bir an da zəiflətmək olmaz, geri çəkilmək olmaz — Bəbir belə düşünürdü və yazırdı. Nəhayət, son cümləni yazıb nöqtəni qoydu. Sonsuz sevinc içində şirin-şirin gərnəşib keyimiş barmaqlarını açıb yumdu, qaraya baxmaqdan, yuxusuzluqdan şişib qızarmış gözlərini ovuclarının içi ilə ovxaladı...

Yazılmış vərəqləri dəcləyib bir-birinin üstünə yığaraq fərəhlə baxıb gülümsündü... Xəyala getdi... Qəzet səhifələri... Sonra əl-əl gəzən qəzetləri... gördü...

Ayağa qalxıb çox sadə, kasıbyana bəzənmiş, nəzərə çarpacaq qiymətli bir müxəlləfatı olmayan otaqda var-gəl eləməyə başladı. Əllərini arxasına qoymuşdu; beş addım o başa, beş addım bu başa... Ancaq fikri bu dörd divar arasından çoxdan çıxmışdı; şəhərdə, uzaq vilayətlərdə, kəndlərdə gəzib-dolanırdı. Yoldaşları ilə, tanıdığı-bildiyi məclis üzvləri ilə, baş nazirlə fikrən danışır, mübahisə edirdi. Və bu səssiz-səmirsiz, qiyabi söhbətlər Bəbirin qətiyyətini artırır, ürəyini coşdurur, sevindirirdi. O özünün, yenicə yaratdığı təşkilatı getdikcə böyüyən, ayağı yer tutan, müdrikləşən, qüdrət sahibinə çevrilən bir adama bənzədirdi. Doğrudan da yoldaşların son vaxtlar apardığı çətin, səmərəli iş nəticəsində bir sıra etibarlı, fədakar, əlində imkanı olan, sözü keçən adamlar yoxlanıb sınandıqdan sonra dəstəyə cəlb edilmişdi. Təşkilatın başçısı kimi bu onu çox sevindirirdi. Ən fərəhlisi o idi ki, şahənşah ordusunun zabitləri arasına yol tapılmış, hərbi hava qüvvələrinin komandanı Gülbahar xan onlarla işləməyə razılıq vermişdi. Bəbir bunu son dərəcə böyük qələbə hesab edirdi. Bundan əlavə şəhərin şeyxülislamı Şeyx Əhməd, cavan şair Elməddin də onların tərəfində idi. Xüsusilə Elməddinin sınaqdan mərdanə çıxmağı sevincdən Bəbirin gözlərini yaşardırdı. O, ölümünə razı olmuşdu, döşünü güllə qabağına vermişdi, ancaq Rəhgüzərə xəyanət eləməmişdi. «Bax, bizə belə sədaqətli adamlar lazımdı, gözünə güllə sıxsan da məsləkindən, əqidəsindən dönməyən belə oğullar gərəkdi!» — deyə var-gəl edə-edə düşünən Bəbir siqaret yandırıb sümürürdü. Külək pəncərələri tıqqıldadaraq gecənin qərib sükutunu pozur, uzaqda boğuq səslə uğuldayırdı. Qapı döyülürdü, ancaq Bəbirə elə gəlirdi ki, külək tıqqıldadır. Lakin bu dəfə daha bərk çırpılanda o, qapıya sarı döndü, kiminsə çöldə dayandığını yəqin edib cəld bir hə-

rəkətlə stola sarı cumdu, qabağındakı kağızları xalçanın altında gizlədi, sonra qapıya yaxınlaşdı:

— Kimsən?

Çöldən səs gəldi:

— Mənəm... Aç qapını!.. — Bu səsi eşidəndə Bəbirin ürəyi çırpındı, əhvalı pozuldu; sevindimi, kədərləndimi — o an soruşan olsaydı, qəti deyə bilməzdi. Gələn atası idi. Açdı qapını. Kandarda, əlində çəlik, qaşı, kirpiyi ağarmış, solğunlaşıb arıqlamış çəlimsiz, ancaq şaxqamətli general Əziz xan — Bəbirin atası dayanmışdı. Kişi sanki təklif gözləyirdi, içəri keçmirdi, kirpikləri seyrəlmiş xırda göy gözlərini oğlunun sifətinə dikib dayanmışdı. Bəbir atasının bu gözlənilməz gəlişindən özünü itirmişdi, nə edəcəyini sanki unutmuşdu. Anlar keçəndən sonra o, nəhayət, özünə gəlib kəkələyə-kəkələyə:

— Çöldə niyə dayanmısan, qibləgahım?—dedi. — Gəl içəri.

Əziz xan sol əlindəki çəliyi irəli uzatdı, çəliyin dalınca özü də içəri girdi. Bəbir geri çəkilib atasına əl verdi:

— Xoş gəlmisən, qibləgahım, — dedi.

Əziz xan oğlunun üzünə baxmadan, irəli yeridi, Bəbirin əli havadan asılı qaldı: kişinin gər səsi otaqda eşidildikdə Bəbir kiçilib balacalaşdı:

— Mənə qibləgahım demə, Bəbir. — Onun səsində bir qətiyyət vardı: Bəbir atasının qabağında yazıq-yazıq dayanmışdı. Kişi saymazyana keçib divanda oturdu, çəliyini böyrünə qoydu. Otağın dər-divarına göz gəzdirdi. Ev soyuq idi, pəncərələrin arasından külək içəri dolur, nazik pərdələri tərpədirdi. Mebelin — stolun, stulların pardağı çoxdan gedib bozarmışdı. Küncdə qoyulmuş tək çarpayının yorğan-döşəyi yığılmamışdı. Bu otağın canlı, yaşayan, nəfəs alan təkcə bir guşəsi vardı — o da Bəbirin iş stolu idi, onun üstündəki kitablar idi, siqaret kötükləri ilə dolu külqabı idi. O boyda gen-bol otaqda Bəbir sanki elə bu kiçik stol arxasında yaşayırdı, qalan şeylərin ona heç bir dəxli yox idi.

Əziz xan baxışlarını dolandırıb stolun yanında, altında kağız gizlədilən xalçanın üstündə dayanmış qəşəng-sifətli, itibaxışlı, qalın, cod saçlarına artıq dən düşmüş, ehtiyac içində yaşadığı gözlərindən oxunan oğluna uzun-uzadı baxdı. Bəbir də gözlərini ondan çəkmədi. Lakin sonra davam gətirə bilməyib baxışlarını endirdi,

— Otur! — deyə uzun illər hərbçi işləmiş Əziz xan, rütbəcə, vəzifəcə özündən kiçik zabitə əmr edirmiş kimi ötkəm səslə dilləndi,

Bəbir qeyri-ixtiyari atasının sözünü yerinə yetirərək stulda əyləşdikdən sonra kişi davam etdi:

— Bu nə gündü, bu nə rüzgardı? Bu nə yaşayışdı, Bəbir?

— Nə olub ki?

— Daha deyirsən nə olsun?

— Heç nə...

— Olan olub artıq. Daha bundan oyanasını mən təsəvvür eləyə bilmirəm.

— Amma mən təsəvvür eləyirəm. Bundan oyanası da var. Hələ buna şükür eləməliyəm mən. Sən evsiz-eşiksizlər görməyibsən, qışın şaxtasında, qarında, payızın sərt soyuğunda donanları, pilləkən altında yaşayanları görməmisən...

— Axı sən özünü niyə onlarla müqayisə edirsən? Onların kimkimsənəsi yoxdur, sənin isə var axı?

— Var idi, nə zamansa var idi... indi yoxdur.

— Niyə? Axı mən sənin... atanam, Bəbir. O var-dövlətim sənin deyilmi? Bəbir ah çəkdi:

— Sən də bir zaman... mənim atam idin... Amma indi yox. Yadından çıxıb o gün, on il əvvəlki o dəhşətli gün? Ola bilər ki, sən unutmusan o günü, ancaq mən unuda bilmərəm. Məni evdən qovdun... «Fikrindən, məsləkindən dönməsən, səni oğulluqdan da, var-yoxdan da məhrum edəcəyəm» söylədin. «Qoşulma bu namussuzlara, şərəfsizlərə» —deyirdin. — «Sənin nəyin yoxdur, nə üçün o dələduzlara, latlara-lütlərə qoşulursan?» — deyirdin? Yox, qibləgahım, onlar, mənim qoşulduğum o adamlar namussuz deyillər, şərəfsiz deyillər, bəlkə bizim məmləkətin ən namuslu, şərəfli, qeyrətli oğullarıdı. Mənim heç nəyim yox idi, o vaxt da, indi də. Elə sənin də heç nəyin yoxdur...

— Bəs o torpaqlar, banklardakı o pullar... mənim deyil, kimindir, səncə?

— Onlar da sənin deyil. Torpaq bu biçarə, ac-yalavac xalqındır, o pullar da bu camaatındır.

— Nə danışırsan, Bəbir? Xalq mənimlə torpaq almışdı, pul qazanmışdı? Hamısını özüm...

— Yox, qibləgahım, elə deyil, lap onlar sənə mərhum atandan da qalmış olsa, yenə sənin deyil, bu xalqındır...

Bəbir susdu. Əziz xan ona qəribə, kinli bir nəzərlə baxdı. Dünyada yetmiş beş il ömür sürmüş bu qoca sərt adam idi. Dediyindən dönməyən, heç kəsdən qorxmayan Əziz xan, indi, həyatının sonu

yaxınlaşdığını görsə də, bilsə də, xasiyyətindən əl çəkə bilmirdi. O zaman — təqribən on il bundan qabaq oğlunun «bəd əməllərindən» xəbər tutanda Əziz xan gözünün ağı-qarası olan Bəbiri «məmləkətin şərə-şur adamlarından» qorumaq üçün yanına çağırıb danlamış, danışdırıb fikirlərini öyrənmiş; düzü, cavan, qanı qaynayan «uşağın» ağzından qan iyi gəldiyini görüb qorxuya duşmüşdü. Bir neçə gün sonra yalvarmış, «əlahəzrət bilərsə, bunun axırı yaxşı olmaz, oğul, mən balaca adam deyiləm, vəzifəm, hörmətim-izzətim var kişinin yanında. Bəlkə hər şey — sən də, mən də məhv olarıq, canımciyərim!» — demişdi. Ancaq uzun-uzadı aparılan söhbətlər, dostların, qohumların təkidi Bəbiri fikrindən döndərməmişdi. Bir evin içində üç ay küsülü qalandan sonra Əziz xan Bəbirlə təzədən danışmış, bu dəfə əsəbiləşib: «Çıx, get, mənim sən adlı oğlum yoxdur!» — demişdi. — «Nəməkbeharam!» Ciddi, məğrur bir gənc olan Bəbir əvvəl eşitdiklərinə inanmaq istəməmişdi, ancaq əsib-coşan, ağzı köpüklənən kişi təkrar qapını ona göstərib: «Rədd ol burdan, bir də gözüm səni bu evdə görməsin!» deyəndə onun həssas qəlbi daş dəymiş şüşə kimi çilik-çilik olub ayaqları altına tökülmüşdü, o, kədərli, qəhərdən alacalanıb yaşarmış gözlərini atasına zilləmiş, uzun-uzadı baxmış, sonra papağını götürüb ağır addımlarla evdən çıxmış və ürəyindəcə and içmişdi ki, bir də bu qapıdan içəri girməyəcək.

Getmişdi. Günlər, həftələr, aylar keçmiş, o geri qayıtmamışdı. Bunu görən Əziz xan peşmanlamış, «nahaq uşağın xətrinə dəydim!» — deyib özünü yamanca danlamış, dostlarını, oğlunun tay-tuşlarını minnətə-xahişə göndərmiş, ancaq Bəbir tüpürdüyünü yalamamışdı. Ata isə qüruruna sığışdırıb oğlunu axtarıb tapmamışdı. Beləcə, ata-oğulun yolları ayrılmışdı. Bəbir iki il sonra siyasi fəaliyyəti üstündə həbsxanaya düşəndə Əziz xan ürəyi ağrısa da, öz mövqeyini, rütbəsini mülahizə edib Bəbirə dəyməyə getməmişdi.

İndi budur, on illik ayrılıqdan sonra, ata-bala görüşmüşdü və buna görüş demək olmazdı əslində. Əziz xan yenə sərt-sərt danışır, ümid edirdi ki, bu ötən illər ərzində başı daşdan-daşa dəymiş, olmazın əzab-əziyyət çəkmiş Bəbir, bəlkə də, fikrini dəyişmiş olar, azca hədə-qorxu gələndən sonra, lal-dinməz yanına düşüb gedər. Heç ola bilməzdi ki, Bəbir on il ayrılıq müddətində atasından ötrü darıxmamış olsun axı! Əziz xan ona pis baxmamışdı, evin yeganə uşağı olduğundan üstündə əsim-əsim əsmiş, ürəkdolusu sevmiş, əzizləmişdi, bircə arzusuna qarşı durmamışdı. O, Bəbir üçün yaxşı ata olmuşdu. Bəbir də atasına çox bağlı idi. Atası evə gec gələndə, hərbi ezamiyyətlərə

gedib neçə gün qayıtmayanda, Bəbir onun üçün darıxır, evə-eşiyə sığmır, yediyini-içdiyini bilmirdi. Əziz xan qayıdanda isə uşağın sevinci yerə-göyə sığmır, atasının qabağına qaçır, boynuna sarmaşır, cod tüklü üzündən öpür, balaca əllərini onun par-par parıldayan poqonlarında gəzdirirdi.

İndi bu soyuq otaqda, bir-birindən uzaqlaşıb soyumuş ata-oğul, sükutun lal qoynunda həyatlarının keçmiş səhifələrini vərəqləyir, xatirələr ürəklərini göynədir, titrədir, tustüləndirirdi. Ancaq bunlar keçmişin hərarəti idi, hər ikisinin qəlbini uzaqdan qızdırırdı. Hazırda isə, onların arasında gərginlik hökm sürürdü. Bəbir fikrə getmiş atasına tamaşa eləyirdi. Uşaqlıq illərinin xatirəsini, atasının o vaxt göstərdiyi mehribanlıqlar yadına düşdüyündənmi, ya nədənsə birdənbirə ona yazığı gəldi; bayaq elə sərt, boz danışdığına görə özünü qınadı və mülayim, azca titrək səsilə söylədi:

— Qocalmısan, qibləgahım. Əziz xan xəyaldan ayıldı:

— Nə deyirsən? — yaxşı eşitmədiyini bildirmək istəyirmiş kimi soruşdu.

— Deyirəm, yaman qocalmısan, qibləgahım.

Əziz xan bayaqkı kimi «mənə qibləgahım demə!» — söyləmədi. Bu söz onun ürəyində xoş duyğular oyatdı, kövrəltdi. Bu boyda dünyada ona «qibləgahım!» — deyə biləcək yeganə doğma adamın səsi idi bu səs! O, uşaq kimi qəhərləndi:

— Eh, oğul, — deyə bayaqdan bəri ilk dəfə «oğul» sözünü dilinə gətirdi, — sən mənim belimi bükdün, oğul. Yoxsa mən qocalmazdım, bala. Dost-tanış içində, tay-tuş arasında məni xar-xəcil elədin, böyüklərin yanında etibarsız elədin, oğul. Bu dərdə dağ da dözməzdi, mən dözdüm. Bir olan Allah şahiddir ki, səndən ayrı keçən bu illər ərzində nələr çəkmişəm. Sən bunu başa düşməzsən, bala, çünki özün halə ata deyilsən, oğul. — Əziz xan istəyirdi hər cümlənin axırında, yox, hər sözdən sonra bir «oğul», «bala» desin və ötən on il ərzində ucadan demədiyinə görə az qala yadırğadığı bu doğma, bu əziz sözü doyunca işlətsin. Ürəyində min dəfə, milyon dəfə demişdi, ancaq bax beləcə, ciyərparasının hüzurunda dilinə gətirə bilməmişdi. İndi deyirdi, deyə bilirdi və o da — Bəbir də bu sözü eşidirdi. Nə böyük səadət idi Əziz xan üçün bu?

— Tərssənmiş yaman, oğul!—deyə o, xoşbəxtcəsinə gülümsünə-gülümsünə davam edirdi. — Elə tərssənmiş ki, heç ağlıma gətirməzdim, bala.

— Sənin oğlunam, qibləgahım!. — dedi Bəbir; o da gülümsündü.

Yaranan bu mehribanlıq kişini ürəkləndirdi və o, əsl mətləb üstünə gəldi:

— Oğul, mən qocalmışam, gördüyün kimi, hay-hayım gedib, vay-vayım qalıb. Bir ayağım burdadı, bir ayağım gorda. Gəl daşı tök ətəyindən, yığış gedək evimizə. Heç olmasa öləndə başımın üstündə ol, gözlərimi bağla, — onun gözləri yaşardı, susub cibindən əzik dəsmal çıxartdı, yaşını sildi. — Bütün varidatımı, torpaqlarımı sənə vəsiyyət eləmişəm. Nə etdiyinin, nə iş gördüyünün mənə dəxli yoxdu, oğul. Özün bilən məsləhətdi, oğul. Əgər mən — sənin zabitəli doğma atan səni bu yoldan döndərə bilmədimsə — demək, heç kəs, heç nə səni bu yoldan döndərə bilməz, oğul. Ancaq gedək, sənə yalvarıram, bala, gedək.

Bəbir atasının ağladığını görməmək üçün başını aşağı saldı.

ON İKİNCİ FƏSİL

— Məleykə, ay Məleykə!

Yan otaqdan Məleykə cavab verdi:

— Nədi?

— Bir bura zəhmət çək!

Məleykə əllərini məhrəbaya silə-silə qapı ağzında göründü və yorğun nəzərlərini ərinə dikib dayandı:

— Nədi?

Şəfi arvadının duruşundakı, baxışındakı əzginliyi, süstlüyü dərhal sezdi, ah çəkdi:

— Yorğunsan deyəsən. Bu uşaqlar, evin-eşiyin, həyət-bacanın işi səni əldən-dildən salır, Məleykə. Bilirəm, sən deməsən də, bilirəm, əzizim. Neynək, bir az da döz, qadası oğlun böyüyər, ona bir qəşəng gəlin gətirərik, sənə kömək olar, qulluğunda durar.

— Eh, nə bilim, ay Şəfi. Yəni ölməyib o günü görəcəyik?

— Görəcəyik, görəcəyik, mənim Məleykəm.

Məleykənin gözləri dirildi, parladı; bütün günü ayaq üstə gəzib-dolanan, qıçları zoqquldayan Məleykənin Şəfinin bu sözlərindən sonra elə bil rəngi də açıldı,

— Bəs məni neynirdin, ay Şəfi?

— Daha heç, əzizim. Yorğunsan, get yat, dincəl.

Məleykə getmədi, gəlib yanında əyləşdi:

— Yox, nə isə demək istəyirdin. Bir də... nə qədər yorğun, əzgin olsam da, səninlə danışan kimi hər şey keçib-gedir. Başım ağrıyırsa, başımın ağrısını, dişim ağrıyırsa, dişimin ağrısını unuduram, Şəfi. Səsini eşidən kimi... ən ağır dərdim belə yadımdan çıxır. Sən öz mehribanlığınla, xoş, səmimi rəftarınla adamı göylərə qaldırırsan.

Şəfi onun kürəyinə əl çəkdi:

— Axı... başqa cür də ola oilməz. Sən mənim əzizimsən, gözlərimin işığısan, Sədaqətinlə, namusunla sən mənim arxamda dağ kimi dayanmısan, Məleykəm mənim. Orduları, düşmənləri özünə tapındıran ən qüdrətli bir qəhrəman, qadını ona sədaqətsizlik eləsə, arxasından qaçsa, balaca bir uşağa da təslim olar. Mən səninlə güclüyəm, gülüm.

— Mən də səninlə xoşbəxtəm, əzizim.

Susdular. Şəfi fikirləşdi ki, doğrudan da insan ürəyinin qəribəlikləri, gözlənilməz döngələri, uçuşu, enişi çoxdur. Ailədə – səmimiyyət, sədaqət, mənəvi təmizlik böyük nemətdi. O, arvadına indi, gecəyarıya az qalmış, bu sözləri deyəcəyini bir az əvvəl heç ağlına da gətirməzdi; Şəfi onu yanına, əgər həvəsi olsa, istəsə, Elməddinin təzə hekayəsini oxumaq üçün çağırmışdı. Amma söz-sözü çəkdi, hisslər, duyğular tərpəndi, neçə ilin ər-arvadı bir-birinə elə gözəl, elə xoş sözlər dedilər ki, ikisi də məmnun oldu. Doğrudan da, gözlənilməz, elə-belə, öz-özünə başlanan bu söhbətdən sonra Məleykə gümrahlaşdı. Şəfidən eşidəndə ki Elməddin yeni hekayə yazıb, lap sevindi, onun neçə gündən bəri görünmədiyinin səbəbini, iş-kücünü soruşdu.

— Yaxşıdı Elməddin! — dedi Şəfi. — Bu gün yanıma gəlmişdi. Oturub xeyli dərdləşdik. İşi çoxdu, həm idarədə, həm də evdə... Sənə salam göndərdi. Sən demə, Əli Tüğyanla tanış olub. Sonra hətta evlərinə də aparıb onu Əli Tüğyan. İstəyir Elməddini öz tərəfinə çəksin — görür ki, ağıllıdı, dərrakəlidi.

— Ruznamədəki şəkli Elməddinin çəkdiyini bilib görəsən?

— Yox. Deməyib. Mənim dalımca bir az asıb-kəsib, əsib-coşub. Elməddin də cavabını verib. Əli Tüğyanın arvadından yaman narazılıq elədi Elməddin. Deyir kobudun, mədəniyyətsizin biridi. Əli Tüğyanı heç adam yerinə saymır — deyir. Arvad dura-dura mənim qabağıma çayı, çörəyi Əli Tüğyan özü gətirdi, — deyir.

— A... elə də ailə olar? — deyə təəccüblə Məleykə içini çəkdi.

— Olar, olar, Məleykə. Elə bilirsən bütün kişilər mənim kimi, bütün arvadlar da sənin kimidi?

— Nə bilim?

— Yox! Elə olsaydı, nə sənin qiymətin olardı, nə mənim, Məleykə...

— Düz deyirsən, Şəfican! —deyə Məleykə başını ərinin çiyninə qoyub xumarlandı, az sonra dikəlib: — Hə, Elməddinin hekayəsini oxu, qulaq asım, — dedi.

— Oxuyum deyirsən?

— Oxu, sən allah. Onun yazdıqlarından xoşum kəlir...

Şəfi irəli uzanıb stolun üstündəki kifi[1] açdı, içindən qəzetə bükülmüş hekayəni çıxartdı, eynəyini düzəldib oxumağa başladı.

— Adını «Təqvim» qoyub.

— Nə?

— «Təqvim»... Qulaq as. «Ağayi Dostməmməd vəzarətxanada[2] işləyən dostunun kabinetindən çıxıb heç yerə dönmədən birbaş evə gəldi. Kefi kök, damağı çağ idi. İçəri girən kimi həmişə özü ilə güclə gəzdirdiyi iri, qarınlı kifi stolun üstünə atıb arvadını səslədi:

— Ay Nazxanım?

Əyninə uzun xalat geymiş, ətli-əndamlı Nazxanım mətbəxdən çıxıb kişinin yanında dayandı. Ərini şad-xürrəm görüb tələsik soruşdu:

— Nə olub, kişi, xeyir ola? Yenə üz-gözün gülür?

— Daha demə, arvad, əhvalat uzundu. Ancaq hələlik mənə bir qələm, bir də ağ kağız ver.

Arvad bu sözlərdən heç nə başa düşmədisə də, əl atıb şkafın üstündən ağ kağız götürdü, qələmi də ərinin öz cibindən çıxarıb qarşısına qoydu. Bunu görən Dostməmməd:

— Lap başımı itirmişəm, qələm cibimdə, səndən istəyirəm, — dedi.

— Deyəsən ilhamın gəlib, hə? —deyə ərinin bu anlaşılmaz sevincinin səbəbini bilməyən Nazxanım xəbər alanda Dostməmməd cavab verdi:

— Ay rəhmətliyin qızı, ilham nədi, zad nədi? İndiyəcən gəlib, neyləyib ki, bu ilham zəhrimar, bundan sonra gələ, neyləyə?

— Bəs onda bu haray-həşirlə qələm-kağız nəyinə kərəkdi?

— Yaxşı dostların siyahısını tutacağam, arvad.

---

[1] Kif — portfel.

[2] Vəzarətxana — nazirlik.

— Bu nə sözdür, ay Dostməmməd, dostlarını tanımırsan məgər? Ta siyahı nəyə lazımdır?

— Yox, arvad, birdən yadımdan çıxıb-eləyən olar! Özün bilirsən ki, bizim rövşənfikirlilərimizin[1] ürəyi çox yuxa olur, dəymədüşərdilər, sözdən söz çəkib inciyirlər. Mənim də, uzun illər həsrətlə yaşayandan sonra, əlimə bir imkan düşüb. Bütün tanış-bilişlərimə, azçox qabiliyyəti olanlara bir yaxşılıq eləmək istəyirəm. Nədən ki, atalar deyib, sən yaxşılıq elə, balığı at dəryaya, balıq bilməsə də, xaliq bilər. Mən yaxşılığımı eləyəcəyəm. Hərçənd onların bəzisi belə şeylərdə məni unudurlar, ancaq yaxşılığımı eləyib onları utandıracağam. Qoy onlar mənə borclu olsunlar; gələcəkdə karıma gələr. Çünki dünyada dostun oldu, arada-bərədə itib-batmazsan, yoxsa əjdaha da olsan ha, tək oldun, bu zəmanədə səni yeyəcəklər; çünki atalar deyib ki, tək əldən səs çıxmaz! Elə mənim özümü götür, iyirmi ildi külünk çalıram, indiyəcən fərli-başlı bir seçilmiş əsərlərimi də çıxartdıra bilməmişəm. Kimin adamı var, ya yaltaqlanmağı, qılığa girməyi bacarır, onu irəli çəkirlər, vəzifə verirlər, kitablarını buraxırlar... Kimin ki, kimsəsi yoxdu, mənim kimi qalır çapalaya-çapalaya, yaş keçir, ömür keçir, bir də görürsən ki, öldü getdi... Allah balalarını saxlasın, ömrünü uzun eləsin, əgər vəzirə ittilaat və kultur[2] həmyerlimiz olmasaydı, mən heç o iki-üç çərəkəni də çıxartdıra bilməzdim.

— Nə olub axı, bir açıq desənə, ay kişi! Ürəyimizi çəkdin ki; elə danışırsan ki, elə bil, indicə adını tarix kitabına salıblar.

— Hələ salmayıblar, ancaq salacaqlar. Yaxınlaşmışam, arvad.

— Kim salacaq, kişi?

— Kim salacaq? Qəribə söz danışırsan ey. Belə özüm. Daha kim götürüb məni tarixə salacaq! Özü də bu zəmanədə!

— Nə təhər, yəni özüm, Dostməmməd? — Nazxanım sözün canını yenə başa düşməyib xəbər aldı. Dostməmməd əhvalatı müxtəsərcə arvadına danışdı:

— İndi ağayi vəzirin yanından gəlirəm. Şəxsən çağırtdırmışdı. Əvvəl-əvvəl hal-əhval tutdu, səni, uşaqları xəbər aldı. Dedim əlhəmdullah, ömrünə duaçıdırlar, əlini öpürlər.

— Kişi, yəni mən də onun əlini öpürəm? — deyə arvad yarıciddi, yarızarafat, ərinin fikrini bilmək üçün soruşanda o, çımxırdı:

---

[1] Rövşənfikirli — ziyalı.

[2] Vəzirə ittilaat və kultur — informasiya və mədəniyyət naziri.

— Hm! Niyə, nə olar sən öpəndə onun əlini? Hələ sənin minnətin olsun ki, ağayi vəzirin əlini öpmək şərəfinə nail olasan.

— Yaxşı, yaxşı, özündən çıxma. Sonra nə oldu?

— Hə, sonra... Heç bildim ki, harda qaldım?..

— Biz onun əlini öpdüyümüz yerdə qalmışdın deyəsən... Dostməmməd tərs-tərs Nazxanıma baxıb davam etdi:

— Düyməni basdı, iki çaynik yaşıl çay gətirdilər. Uzun sözsöhbətdən sonra şəxsən özümə tapşırdı ki, get bir dənə əntiqə, şəkilli-filanlı təqvim hazırla. Dedim, hər iki gözüm üstə, ağayi vəzir.

— Ay kişi, səhərdən bir kitablıq söz danışıbsan, mən heç nə qanmadım yenə. Axı mənə başa sal görüm tarix hara, təqvim hara?

— Sən bilirsən, arvad, təqvimə düşən adam tarixə düşmək üçün bir növ təzkirə[1] almış kimi olur.

— Həəə, belə dee!.. — Nazxanım səsini uzatdı, — Yəni yazıpozu ilə məşğul olanları — şairləri, yazıçıları, alimləri, xanəndələri... təqvimə salacaqsan də?!

— Təkcə onları yox, əlbəttə. Dövlət adamlarını, siyasi şəxsiyyətləri də, hər yazı-pozu ilə məşğul olanı da yox! Bildin? İxtiyar əlimdədi, seçəcəyəm. Kimi istəyirəm salacağam, kimi istəmirəm yox.

Nazxanım ani sükutdan sonra:

— Yaxşı, indi kimdən başlamaq istəyirsən, kişi?— dedi.

— Kimdən başlamaq məsələsi məlumdur. Əlahəzrətdən başlayacağam, bu sözsüzdü. Ancaq sonrası bir az çətinləşir, arvad.

— Niyə çətinləşir, kişi?

Dostməmməd çiyinlərini çəkib qaşlarını dartdı:

— Gərək görkəmli adam olsun, arvad.

— Görkəmli?

— Bəli.

Nazxanım... alnını ovuşdura-ovuşdura xeyli düşünüb nəsə tapmış adam kimi sevinclə qışqırdı:

— Tapdım. İndi Rəhgüzərdən görkəmli adam yoxdu, məncə. O... — Dostməmmədin elə bil, başına qaynar su tökdülər: kişi qıvrılıb açıldı, qəzəblə ona baxıb sözünü xırp kəsdi:

— Hə, bax, burda korladın. Sənə neçə dəfə demişəm ki, onun adını mənim yanımda çəkmə? Demişəm, deməmişəm? Nazxanım astadan:

— Demisən!.. — dedi, — çaşdım ey, kişi, vallah.

[1] Təzkirə — pasport.

— Çaşdım, çaşdım… Sən yaxşı bilirsən ki, ilanın zəhləsi yarpızdan kedən kimi, mənim də zəndeyi-zəhləm Rəhgüzərdən gedir? Bilmirəm bu camaat onda nə görüb? Adi bir cızmaqaraçıdır də. İntəhası, vaxtında adını çıxardıb oturub dəyirmanda. Millət, vətən, azadlıq deyə-deyə bu avam camaatın gözünə kül üfürüb, hamının gözünü bağlayıb salıb dalınca, Allah bilir hara aparır?! Küçədə görəndə böyüklü-kiçikli baş əyirlər, bir yerdə çıxış eləyəndə əlləri qızarıb göynəyənəcən çəpik vururlar. Neyniyib axı, o? Vallah, billah, onun imkanları, vəzifələri məndə olsaydı, indi mən dahi olmuşdum. Madam ki belədi, camaatın da acığına, lap elə sənin özünün də acığına, onu bu təqvimin lap axırına salmasam, məndən pis adam yoxdur. Heç yerli-dibli salmazdım ha, sonra söz-söhbəti çıxar, ehtiyat eləyirəm. Ancaq onu yandırıb cızdağını çıxartmaq üçün lap axırıncı səhifəyə salacağam. Görərsən! Qoy bilsin ki, adam saymamaq nə olan şeydir. Şəhərdə elə gəzir ki, elə bil, alçaq dağları bu yaradıb, adamın salamını da ağzının ucuyla alır.

Nazxanım Rəhgüzərin adını çəkməyə peşman olmuşdu. Ərinin könlünü almaq üçün dedi:

— Əşi, bir zarafatdı, elədim də. Nə tez çıxırsan özündən?

— Yox da, danışanda bir az fikirləş! Dostməmməd bir papiros yandırıb sümürdü, iki-üç dəqiqə keçəndən sonra hirsi soyudu və təzədən soruşdu:

— Yaxşı, kimi məsləhət eləyirsən?

— Düzü budu ki, — deyə Nazxanım fikirləşə-fikirləşə danışmağa başladı, — bayaqdan ha götür-qoy eləyirəm, o yan-bu yana, aşağı-yuxarı baxıram, səndən görkəmlisi gözümə dəymir, kişi!

Dostməmməd qanrılıb arvadını ciddiyyətlə süzdü:

— Get, özünü dola, arvad.

— Kişi, vallah dolamıram, düz sözümdü. Dostməmməd uzun illər bu sözü eşitmək həsrətində imiş kimi səsini alçaldıb:

— Yəni düz deyirsən, Nazı?—deyə yazıq-yazıq soruşdu.

— Əlbəttə, düz deyirəm, mənim sənin birdən-ikiyə zarafatım olub?!

Dostməmmədi fikir götürdü. Bir anlığa gözlərinin qabağında çap olunmuş təqvim vərəqləndi. Əlahəzrətin yağlı, par-par parıldayan şəklindən sonra, həməl[1] ayının ilk günlərinə həsr olunmuş səhifələ-

[1] Həməl — mart.

rin birində məmnun halda gülümsəyən öz şəkli cilvələndi, ötüb-keçdi... Ancaq birdən yadına nə düşdüsə qanı qaraldı, boğuldu.

— Sənə nə oldu, kişi?

— Axı — deyə o, ağır-ağır dindi, — mən həməldə anadan olmamışam, arvad, əqrəb[1] ayında doğulmuşam?!

— Eh, nə olsun ki, — deyə arvad təsəlli verdi. — Bunu kimdi yoxlayan, sağ olmuş?! Ona qalsa, deyirsən Rəhgüzəri lap axıra salacağam, axı o hut[2] ayında doğulmayıb, o həməl ayında doğulub, kişi!

— Hə, düz deyirsən. Əşi, təqvim çıxsın, satılsın, kimdi onu təzədən yığışdıran?!..

Beləliklə, Dostməmməd qabağına qoyduğu kağıza təqvimə daxil edəcəyi adamların adını yazdı. Sonra bir neçə gün gecəni-gündüzə qatıb, özünün dediyi kimi, əla bir təqvim hazırladı.

Başda əlahəzrəti, sonra özünü, arvadının köhnə siyasi xadim olan atasını, məclis vəkili olan dayısı oğlunu, uzaq-yaxın dostlarından bir neçəsini, hətta gələcəkdə böyük, tanınmış adam ola biləcəyinə inandıqlarını (əlbəttə, hərdən araya tək-tük kənar, az tanıdığı, ölüb getmiş, adamları da salırdı ki, daha lap ağ olmasın) təqvimə daxil elədi. Həməl ayının səkkizində anadan olmuş, bu yaxınlarda əlli yaşı tamam olacaq, xalqın sevimlisi, sənətkar oğlu Rəhgüzəri lap axırıncı səhifələrdən birinə — hut ayının son gününə saldı. Özü də onun kitablarından birində neçə il əvvəl çıxmış köhnə şəklini tapıb təqvimdə verdi. Ürəyində isə dedi: «Hə, necədi, ağayi Rəhgüzər? İndi yan-yaxıl».

Nəhayət, əlyazmasının üstündə ağayi vəzirin dərkənarı və imzası olan təqvim cari ilin son ayında mətbəədə çap olunub satışa buraxıldı. Təqvim ayaq tutub şəhərləri, kəndləri az-az gəzdi. Küçədə qəzet-jurnal satan uşaqlar «təqvimi sale-nov[3]» — deyə-deyə yaraşıqlı, nəfis buraxılmış təqvimi qısa bir müddətdə satdılar, qurtardılar. Təqvim novruz bayramı günü artıq divarlara qonmuşdu.

Yeni ilin gəlişini hamı cah-calalla, toy-bayramla qarşıladı. Yedilər, içdilər, oynadılar. Gün keçdi, əllər təqvimə sarı uzandı — yeni ilin birinci günü sona çatanda təqvimin də birinci səhifəsi qoparıldı... İkinci günü ikinci səhifəsini, üçüncü günü üçüncü səhifəsini... qopartdılar...

[1] Əqrəb — sentyabr, oktyabr.
[2] Hut — mart, aprel.
[3] Təqvimi sale-nov — yeni il təqvimi.

Dostməmmədin də evində təqvimin birinci, ikinci, üçüncü səhifəsi qoparıldı. Dördüncü gün gəldi... Dostməmməd o gün elə hey gedib-gəlib öz şəklinə məftunluqla tamaşa elədi, beş-altı dost-qohum evinə baş çəkdi, «Elə-belə, dedim gedim bayramınızı təbrik eləyim. Yox, oturmayacağam, sağ olun!» — deyib dər-divara göz gəzdirdi, öz əksinə baxıb iftixar elədi, yadından çıxıb dünənin səhifəsini qoparmayanlara zarafatla: «Siz hələ dünənki gündə yaşayırsınız!» — dedi, xatırlatdı. «İndi bütün məmləkətdə, gör neçə milyon adam mənə baxır. Baxın, baxın, bala, gözünüzə su verin, görün analar necə oğullar doğublar, bala!» — deyə-deyə gecəyarıdan keçənəcən yatmadı...

Səhər oyananda, dünənki şövqlə təqvimə baxdı; Nazxanım qeyri-iradi olaraq varağı qoparmaq istəyəndə... səksənmiş kimi əl saxladı, çünki bunu görən Dostməmməd elə bərkdən qışqırdı ki...

— Neynəyirsən, ay...

— Bıy, bismillah, ay kişi, qorxdum ki?

Hər ikisi çaşqın-çaşqın bir-birinin üzünə baxdı, susdular.

Nazxanım təəssüf andıran səslə:

— Ay kişi, nə tez? Heç üç-dörd gün qalmadın bu təqvimdə? O qədər əlləşdin-vuruşdun...

Dostməmmədə çırtma vursaydın, qanı çıxardı. Səhv eylədiyini indi anladı, pərt halda fikrə getdi. Saat işlədi, vaxt ötdü, gün dəyişdi, ancaq nə Dostməmmədin, nə Nazxanımın əli gəldi ki, o səhifəni qopartsın.

Ancaq qopartdılar. Başqaları qopartdılar. Hər şəhərdə, hər kənddə, hər evdə...

Məhəmməd Şəfi Rəhgüzər isə lap axır səhifədə, qollarını sinəsinə çarpazlayaraq uca zirvədə dayanmış qartal kimi qürurla Dostməmmədin özünün, dostlarının bir-bir uçub zamanın heçliyində əriyib gedən şəkillərinə tamaşa etdi, qımışdı. Günlər, aylar sovuşdu; zaman üz görən deyil, o, bir gün Rəhgüzəri də nəhəng əlləri ilə öz yerindən qoparıb apardı.

Ancaq hamıdan axırda, bəli, hamıdan sonra...». Məhəmməd Şəfi dayandı, nəfəsini dərdi, diqqətlə qulaq asan Məleykənin burnuna bir çırtma vurub:

— Burda nağılımız qurtardı, Məleykə. Göydən üç alma düşdü; biri sənin —qulaq asdığına görə, biri Elməddinin — yazdığı üçün, biri də mənim — oxuduğum üçün...

Məleykə etiraz elədi:

— Yox, Şəfican, birincisi Elməddinin, ikincisi sənin, üçüncüsü isə mənim, — dedi.

— Yaxşı, sən deyən olsun. Amma gözəl, müasir nağıldı, Məleykə. Çox incə mətləblərə toxunub Elməddin.

— Çap edəcəksən, Şəfi?

— Əlbəttə, əlbəttə. Bu da bizim dərdlərimizdən biridi.

ON ÜÇÜNCÜ FƏSİL

Dünya cənnətə düşmüşdü. Hər şey gözünü oxşayır, ürəyini sonsuz bir fərəh hissi doldururdu: ev canlı muzey idi. Səkkiz otaq dünyanın nadir əşya və şəkilləri ilə elə zövqlə bəzənmişdi ki, baxdıqca doymaq olmurdu, duyğularını, əsəblərini dincəldirdi. Vaxt ötüb-keçdikcə Dünya, nəhayət taleyinin üzünə həmişəlik güldüyünü tam aydınlığı ilə dərk edir, sevincindən yerə-göyə sığışmır, günbəgün qəşəngləşir, gül kimi açılırdı. Lakin bu səadətli günlər çox çəkmədi. Haradansa lənətə gəlmiş bir fikir axıb ürəyinə doldu və bəxtiyarlıq içində xumarlanan, nazlanan Dünyanın xoşbəxtliyinin üstünə gizli su çiləməyə başladı, onun qəlbini sıxdı, gözlərinə kədər kölgəsi saldı. Ona heç kəs güldən ağır söz deməmişdi bu evdə, kimsə xətrinə dəyməmişdi, gözün üstə qaşın var deməmişdi. Ancaq o, pərişan olmuşdu. Səbəbini isə özündən başqa heç kim bilmirdi. Əslində bu qorxu, pərişanlığın səbəbi özünə də tam aydın deyildi. Lakin ağıllı, uzaqgörən, həssas bir qadın olan Dünya tutqun, dumanlı şəkildə anlayırdı ki, onun bu bəxtiyarlığı əbədi deyil, tez keçib-gedəcək və başına sonralar olmazın müsibətlər gələcək. Anlayırdı və qorxurdu. Onu düşüncələrə qərq eləyən, gözlərinə yol çəkdirən də elə bu qorxu idi. Dünya düşünməyə başlamışdı ki, Nəcməddin qoca kişidir, ömrünün çoxu gedib azı qalıb, beş gündən, beş aydan, uzaqbaşı beş ildən sonra dünyadan köçüb gedəcək, o zaman Dünyanın qolundan tutub atacaqlar bayıra bu cənnətdən. Onun burda heç nəyə haqqı çatmayacaq — necə gəlmişdisə, eləcə də çıxıb getməli olacaqdı. O dəhşətli günü gözünün qabağına gətirdikcə, xəyalında canlandırdıqca yazıq varından yox olur, əhvalı pozulur, yuxusu ərşə çəkilir, tikəsi boğazında qalırdı.

Nəcməddin onunla kəbin kəsdirməmişdi, Dünya neçə dəfə işarə eləmişdisə də, kişi özünü o yerə qoymamış, nəhayət bir dəfə qəti fikrini bildirmişdi:

— Kəbin-filan boş şeydi, mənim mələyim. Arada məhəbbət olandan sonra o bir parça kağıza heç ehtiyac yoxdur. Mən səni dəlicəsinə istəyirəm, sənsiz öz həyatımı təsəvvür eləyə bilmirəm. Sən də, görürəm ki, məni çox sevirsən, elə deyilmi? Bizim kəbinimiz — mənim sənə məhəbbətim, sənin mənə sədaqətindir. Ər-arvadın arasında məhəbbət olmayandan sonra kəbin kağızı yox, lap zəncir də onları bir yerdə saxlaya bilməz. Nəcməddin belə demişdi, Dünya dinləmişdi, ehtiyat edərək ürəyindəki mətləbi kişiyə açıb deməkdən çəkinmişdi; çünki onunla yaşadığı ilk ildə xasiyyətinə, ürəyinə yaxşıca bələd olmuşdu, dəvə kimi kinli, uşaq kimi təmizqəlbli olduğunu da bilirdi, sərtliyini də bilirdi. Hələ küsməyi də vardı. Bütün bunlar Dünya xanıma yaxşıca məlum olduğuna görə, daha zahirdə bir də bu söhbətin üstünə qayıtmamışdısa da, fikrində, ürəyində dönə-dönə, az qala hər gün öz aqibətini, gələcəyini götür-qoy eləmişdi.

«Yenə uşaq olsaydı, arxayın yaşardım. Uşaq yoxdur, görünür, olmayacaq da... Uşaq olsaydı mənim üçün yaxşı olardı, yerim-yurdum möhkəmlənərdi. Onda o məni daha çox istərdi, başıma dolanardı. Qocalar uşaqsevən olurlar — rəhmətlik nənəm deyərdi» — deyə düşünən Dünya belə fikirlərdən yorulub-bezəndə, «əşi, cəhənnəmə ki!» — söyləyərdi. — Alnıma nə yazılıb, o da olacaq! Taleyin hökmündən çıxmaq olmaz. Ya nəsib, ya qismət!»

Ancaq son vaxtlar bu nigaranlıq beynində, ürəyində o qədər yurd salmışdı ki, dincliyi yoxdu. Daş daşımış adam kimi yorğun olurdu. Gecələr əri ilə baş yastığa qoyanda səssiz-səmirsiz gözəgörünməz tanrısına yalvarırdı: «Ey ulu tanrı, özün səbəb ol, ürəyimin muradını səndən istəyirəm, məni naümid eləmə!» Bu, artıq onda adət halını almışdı. Hər dəfə beləcə ürəyində Allahına min bir niyazla dil töküb iltimas eləyirdi. Tanrısı isə... sanki onu eşitmirdi, eşitmək istəmirdi.

Vaxt isə keçirdi. Sonra kec olacaqdı, aman allah, kec olacaqdı. Və günlərin birində, ürəyinin hansı guşəsindəsə bir anlığa dəhşətli bir qığılcım alışdı, içərisini, ömrünü nura boyadı; bu işıq elə güclü və gözqamaşdırıcı idi ki, özü də qorxuya düşdü; ona elə gəldi ki, həmin məşum fikri üzündə, gözlərində yazılıb, indicə Nəcməddin onu oxuyacaq və... hər şey bitəcək. Vücudunu titrətmə tutan kimi, Nəcməddini tələsik özündən kənar eləyib üzünü divara çevirdi, nəfəsini udub səksəkə içində susdu. Ona elə gəldi ki, Nəcməddinə onun fikrindən keçənlər əyan oldu və o indicə iri, tüklü əlləri ilə onun zərif, su içəndə belə görünən boğazından yapışıb boğacaq. Ancaq anlar keçdi, heç nə olmadı. Handan-hana Nəcməddinin təəccüblü səsi eşidildi:

— Sənə nə oldu birdən-birə?

—…

— Dünyam mənim, — deyə o, Dünyanın yumşaq saçlarını sığallaya-sığallaya təzədən: — nə oldu sənə? — soruşanda, Dünya özünə gəldi və nazla gülümsünərək üzünü ərinə sarı çevirib:

— Mənə elə gəldi, yatmışam, yuxu görürəm, əzizim, — dedi — içərimdən, lap ürəyimin başından uşaq səsi gəldi qulağıma, Nəcmi. Ondan qorxdum.

Dünyanın əvvəlcədən fikirləşmədiyi, elə indicə vəhydənmi, qeybdənmi (buna özü də təəccüb elədi!) dilinə gələn bu sözləri eşidəndə Nəcməddin güldü:

— Dəlisən, vallah. Daha niyə qorxursan ay mənim gözlərimin işığı? Təki uşaq olsun. Mənə bir oğul doğsan səni təpədən dırnağa qızıla tutaram, gülüm. - Nəcməddinin gözləri parıldayırdı, od saçırdı elə bil. İndiyəcən o, bu arzusunu heç bildirməmişdi. Sən demə, yanırmış kişi bu arzu ilə. Bunu görən Dünya çevrilib onun boynunu qucaqladı, üzündən öpdü:

— Doğrudan uşaq istəyirsən, Nəcmi?

— Necə ki, istəyirsən! İstəyirsən də sözdü? Sənin kimi qəşəng bir mələkdən dünyaya gəlmiş körpəni necə də arzulayıram, Dünya! Onda bilərəm ki, mən ölməyəcəyəm, mənim çırağımı yandıran olacaq məndən sonra.

— Bəs o biri oğlanların?

— O biri oğlanlarım... çoxdan, lap çoxdan mənə yad olublar, Dünya. Mən Zərrintacın anasına evlənəndən sonra onların heç biri bu qapıdan içəri ayaq basmayıb, inanmırsanmı?

— İnanıram, mənim ağam.

Ani sükutdan sonra Nəcməddin arxası üstə uzanıb gözünü tavana zillədi, nəsə fikirləşib təzədən yuxu məsələsinə qayıtdı:

— Doğrudan deyirsən uşaq səsi eşitdin?

— Hə...

— Axı sən yatmamışdın...

— Yatmamışdım. Ancaq mənə elə gəldi ki, yatmışam. Özü də bircə anlığa. Və o bircə anın içində... mən o yuxunu gördüm... Uşaq səsi eşitdim, Nəcmi! — Qəribə idi, Dünya özü də öz sözlərinə inanmışdı sanki. Bunun yalan yox, həqiqət olduğuna and da içə bilərdi. Bəlkə də bu, onun ürəyinin istəyi olduğuna görə belə idi? Hər halda o özü də sözlərinə inanırdı.

— Kaş yuxun çin olaydı, mənim Dünyam! Dünya sağ qolunu alnının üstünə qoyub gözlərini yumdu və yuxuda danışırmış kimi astadan söylədi:

— Allah bilən məsləhətdi. Nəcməddin köks ötürdü:

— Sən bilən... olar, olmaz!!!

Dünya dikəldi, qu tükündən düzəldilmiş balışın tən ortasına dirsəyini söykəyib:

— Tale qismətimizə yazıbsa, olacaq... —dedi — Sən... maşallah, cavan oğlan kimisən... o... — Dünya qaşlarını dartıb göylərə işarə elədi. — O istəsə... niyə olmur ki...

Dünyanın «cavan oğlan kimisən» — sözləri Nəcməddinin ürəyinə yağ kimi yayıldı. Şelləndi. Dünya bilirdi ki, yalan deyir. Nəcməddin anlayırdı ki, bu sözlərdə həqiqət çox azdı. Ancaq bu, xoş yalan idi. Belə sözləri eşitmək, yalan olsaydı da belə, onun üçün fərəhli idi.

Sonra Nəcməddin nə oldusa da ruhdan düşdü, büzüşüb balacalaşdı:

— Amma... olsaydı... indiyəcən olardı...

Söhbət çox ciddi şəkil almışdı. Bunu Dünya dərk edirdi. Anlayırdı ki, Nəcməddinin övlad istəmək meyli çox küclüdü, ancaq o, uşaq deyildi, təcrübəsiz deyildi. «Görürsən nə incə mətləbə əl atdı: «Olsaydı, indiyənəcən olardı»... Bu fikri onda öldürmək lazımdır, cücərməyə, qol-budaq atmağa imkan verməmək gərəkdir» — Dünyanın beyni sürətlə işlədi, yenə bayaqkı işıq şölələndi içində, ona yol göstərdi;

— İndiyənəcən... Mən istəmirdim...

— Necə? Sən istəmirdin?..

— Hə.

— Niyə?

— Ona görə ki... sənə belim bağlı deyildi... Qorxurdum... atarsan... sonra... mən... neyləyərəm..

— Onda... Sən mənə inanmırmışsan, hə?

— Nə bilim...

— İndi necə?.. İnanırsan mənə?

— İndi inanıram, mənim əzizim... İndi görürəm sən məni çox sevirsən. Mənə elə gəlir ki, heç kəs, heç kəsi dünyada belə istəməyə qadir deyil yer üzündə.

— Səni ölənəcən sevəcəyəm, Dünyam mənim. Mənim aləmimdə sevə-sevə ölənlər cənnətlik olurlar, ürəyində odlu-alovlu mə-

həbbəti olan adamları Allah da o dünyada qır qazanında yandırmır, çünki məhəbbət özü elə yanmaq deməkdi. Şirinliyi də var, acılığı da.

Nəcməddin danışırdı, ancaq Dünyanın fikri ayrı aləmdə idi; o ancaq kişinii səsini eşidirdi, bu gözəl, ürəkdən deyilmiş sözləri ayırd etmir, mənasını anlamırdı. Qəlbində, içində yenə o naməlum, hardan axıb gəldiyi bilinməyən o qəribə işığın oduna isinir, nagüman, qorxu-qarışıq bir sevincin əsrarəngiz gözəlliyini duyurdu.

— Düz demirəm, əzizim?—deyə Nəcməddin ona müraciət edəndə Dünya onun nədən danışdığının fərqinə varmadan qeyri-ixtiyari cavab verdi:

— Düzdü, hamısı düzdü.

Nəcməddin Dünyanın bayaq dediyi «İndiyənəcən... mən istəmirdim» sözlərinin mənasını anlamaq üçün xəbər aldı:

— Bəs... yaxşı... nə cür eləyirdin ki, olmurdu?

Dünya beynindəki fikirləri qovdu, o qəribə işığı iradəsinin gücü ilə söndürdü və ağzını Nəcməddinin qulağına (sanki otaqda başqa adam vardı, eşidəcəyindən ehtiyat eləyirdi) söykəyib nəsə pıçıldadı, kişi güldü.

— Ay sənin!!! — Sükutdan sonra əlavə etdi: — Doğrudan da qadın ürəyi sirli-sehrli bir kainatdır. Ondan hələ heç kəs axıra qədər baş açа bilməyib indiyə qədər.

Dünya fikirli-fikirli cavab verdi:

— Əgər qadın qəlbi sirli-sehrli bir kainat olmasaydı, onda sevmək də, əzab çəkmək də, deməli, yaşamaq da çox maraqsız və cansıxıcı olardı, mənim əzizim.

Naz-nemət içində yaşayan, sevilən, əzizlənən Dünya o gün Nəcməddinə — onu uşaq kimi təmiz bir qəlblə sevən, məhəbbətilə yaşayan, bəzən qabağında sevindiyindən, sevdiyindən gildir-gildir göz yaşı tökən, bəzən öz məhəbbətindən qanadlanıb özünü ilahi sanan Nəcməddinə o sehrli, məşum, təhlükəli işığın şölələri altında fikrən xəyanət elədi. Bunu Dünya özü anladı, bunu da başa düşdü ki, əsl xəyanət əvvəl ürəkdə, beyində doğulur; fikrən edilən xəyanətlə əmələn yerinə yetirilən xəyanət arasında fərq, məsafə çox azdı, bəlkə də heç yoxdu. Əməli xəyanət fikri xəyanətin ancaq və ancaq açıq-saçıq davamıdır.

ON DÖRDÜNCÜ FƏSİL

Dünya öz «fikri xəyanətin»dən utanırdı. Qəlbində hərdən özünə nifrət də eləyirdi. «Yox, ola bilməz. Lazım deyil. Nəcməddin yazıqdı, onu heç kəs bilməsə belə sındırmaq, şərəfini kiminsə ayaqları altına atmaq ən azı insafsızlıqdı. Gör o məni necə sevir, ilahi? Belə sevən adama xəyanət eləmək? Allah adama qəzəb eləyər, qəzəb eləyər» — deyə-deyə ürəyində doğan, getdikcə kök atıb rişələnən bəd fikirləri qovmaq, taleyi ilə, qisməti ilə barışıb oturmaq istəyirdi. Ancaq elə o an başqa bir duyğu — öz gələcəyiin qorxusu hissi dil çıxardıb Dünyanın qulağına ayrı şeylər pıçıldayır, nəyin bahasına olursa-olsun, bu isti, zəngin ocağın başında yerini-yurdunu möhkəmləndirmək zərurətindən danışır, onu çaşqın bir vəziyyətdə qoyurdu.

...Gün günortadan əyilmişdi. İlıq yaz günəşi, qışın soyuğundan sonra adamın canını xoş bir gizilti ilə qızdırırdı. Göyərçinlər, toyuqcücə həyətdə gəzişir, dənlənir, qığıldaşırdılar.

Əbdül iki saatdan çox idi ki, harasa getmişdi, hələ də qayıtmamışdı. Nəcməddin səhər saat onda çıxmışdı; «Əlahəzrətin yanına gedirəm!» — demişdi. Zərrintac isə səhər çörəyini yeyib təzədən yatmış, oyanandan sonra maşına minib şəhərə çıxmışdı.

Dünya yataq otağını silib təmizləmiş, aynabəndli şüşələrini par-par parıldatmış, radiodan verilən konsertə qulaq asmış, darıxıb həyətə enmişdi...

Bu zaman çöl darvazasının zəngi çalındı. Dünya başının yaylığını düzəldib darvazaya sarı boylandı. Şübhəsiz, gələn Əbdül deyildi, o, zəngi çalmazdı. İrəli yeriyib qapını açdı: qarşısında Elməddini görəndə nədənsə həm çaşdı, həm də sevindi. Elməddin qara kostyum geymişdi, kökəlmişdi də deyəsən. Qara gözləri şən-şən gülümsünürdü:

— Salam, Dünya xanım. Gəlmək olar?

Dünya ayağının birini qoyub o birini götürə-götürə (sanki yerdə isti bir şeyin üstündə dayanmışdı):

— Buyurun, buyurun, — dedi. — Xoş gəlmisiniz... Elməddin həyətə keçdi. Dünya darvazanı örtdü,

— Necəsiniz, xanım?

— Çox sağ olun, ömrünüzə dua eləyirik, ağayi şair.

Elməddin Dünyanı bir neçə dəfə görmüşdü. Nəcməddinin, Zərrintacın yanında. Ötəri baxmışdı, bununla belə gözəl olduğunu sezmişdi. Ancaq indi, birinci kərə görürmüş kimi, ona diqqətlə fikir

verdi. Və nə qədər gözəl olduğunu tam aydınlığı ilə duydu. Qəribə idi ki, onun gözlərindəki işıq və saçları Elməddinə öz bədbəxt, bir tikə yağlı çörəyə dönüb itkin düşmüş Əfsanəsini xatırlatdı. Gözlərinə küclə sezilə biləcək bir kədər kölgə saldı... Ürəyinin başı gizildədi. Köksünü ötürüb keçmiş günlərin acı xatirələrini qovmağa çalışaraq Dünyanın sözlərinə cavab verdi:

Mən şair deyiləm, xanım. Elə-belə, özüm üçün yazıram.

Dünya sağ çiynindən sinəsinin üstünə düşmüş saçının ucunu oynada-oynada:

— Təvazökarlıq eləyirsiniz, ağa! – dedi. — Siz gözəl yazırsınız. O gün məclisdə oxuduğunuz şerlər elə gözəl idi ki, bir dəfə eşitdiyimə baxmayaraq, hamısı yadımda qalıb. Elməddin təəccübləndi.

— Bəli, ağayi şair. İnanmırsınız?

Elməddin gülümsünüb «yox» mənasında başını tərpətdi. Onda Dünya xanım baxışlarını onun gözlərinə zilləyib Elməddinin iki şerini həzin, məlahətli bir səslə əzbərdən söyləyəndə o, doğrudan da ürəyində sonsuz bir sevinc duydu. Elməddin özü yaxşı şer deyə bilmirdi, səsində yapışıq az idi; amma Dünya xanım o şerləri elə gözəl dedi ki, oğlanın ürəyi titrədi, onları özünün yazdığına inanmaq istəmədi. Yenə Əfsanə yadına duşdü. Onun şerini ilk dəfə Əfsanə belə yox, mahnı kimi oxumuşdu. İndi də Dünya xanım.

— Hafizəniz yaxşı imiş.

— Yox, ağa, şeriniz yaxşıdı. Ona görə yadımda qalıb!

Elməddin sakit idi. Darvazadan aralanıb yavaş-yavaş pillələrin başına gəlmişdilər. Elməddin köyərçinlərə baxırdı. Dünya isə onun yanında idi. Nədənsə bədəni əsirdi. O. məşum, o qəribə işıq yenə içini, ürəyini doldurub isindirmişdi. Daxili, qarşısıalınmaz bir istək baş qaldırmışdı qəlbində. Ancaq Elməddin ona baxmırdı. Baxsaydı, bəlkə də onun hisslərini anlardı. Ancaq nə yaxşı ki, baxmırdı. Dünya utanırdı ondan. Elməddinin baxışları bir-birinə qarışıb gəzinən göyərçinlərdə qalmışdı; ayağını ilk pilləyə qoyanda qırmızıpipikli iri xoruz qığıldayıb çil toyuğu yaxaladı, toyuq bunu gözləyirmiş kimi yerə sinəndə Elməddin üzünü Dünyaya çevirdi. Dünya qızarıb başını aşağı saldı.

Elməddin heç nə görməmiş kimi soruşdu:

— Yəqin Zərrintac xanım yenə yatıb, hə?

— Yox, yox!—deyə Dünya çaşqın halda dilləndi — Evdə yoxdu. Şəhərə gedib... Ağa da yoxdu. Ərke-şahiyə[1] təşrif aparıb.

— Hə, belə de! — Elməddin ayağını pilləkəndən çəkdi.— Demək heç biri yoxdu?..

— Bəli, ağa. Siz buyurun yuxarı, əyləşin, harada olsa gələr Zərrintac xanım.

Elməddin qəti şəkildə:

— Yox! Mən gedim! — dedi, — sonra gələrəm.

— Getməyin, ağa. Oturun, çay için, xörək yeyin. Xörəyim hazırdı.

— Sağ olun, xanım. Toxam.

Elməddin ona baxdı. Üzü qızarmışdı. Gözləri sözsüz nəğmə oxuyurdu. Mənası bircə kəlmə idi o nəğmənin: «Getmə!»..

Ancaq Elməddin:

— Məndən salam deyin! — dedikdə Dünya xanım başını tərpətdi, dillənməyə mafarı olmadı. Elməddin üç-dörd addım uzaqlaşmışdı ki, arxadan Dünyanın səsini eşitdi:

—Ağa!..

O geri döndü:

— Buyurun, xanım.

— Sizdən... — o, sözünü kəsib irəli yeridi, başını yuxarı qaldırmadan söylədi, — sizdən təvəqqe eləyirəm, ağama deməyin mən sizin şerləri əzbər bilirəm... Yaxşımı? Elməddin gülümsündü:

— Baş üstə, xanım. Demərəm.

— Heç Zərrintac xanıma da.

— O da baş üstə, xanım!..

Əgər o, bunu dilindən qaçırdarsa, atanın, balanın buna nə məna verə biləcəyini ağlına gətirib qorxmuşdu, ona görə işini ehtiyatlı tutmaq istəyirdi. Elməddinin də ürəyinə ayrı şey gəlməsin deyə izahat verməyi də lazım bildi:

— Çünki mən onlara deməmişəm ki, sizin şerləri əzbərləmişəm, ağa.

Elməddin başını tərpətdi, «hə» dedi və iti addımlarla darvazaya sarı yeridi. Sanki burdan qaçıb uzaqlaşmaq istəyirdi. Dünya yerindəcə dayanmışdı. Qəribə bir sövq-təbii ilə gözləyirdi ki, bax indicə, darvazadan çıxhaçıxda Elməddin geri qanrılıb ona — heykəl kimi donub

[1] Ərke-şahi — şahlıq sarayı.

qalmış Dünyaya baxıb yenə şirin-şirin gülümsünəcək. Ancaq o dönmədi, baxmadı, getdi. Dünya köksünü dərindən ötürdü...

Neçə saniyə beləcə qalmışdı, birdən bayaqkı qızılpipikli xoruz qanadlarını yerlə sürüyə-sürüyə qara toyuğun qırmızı pipiyindən dimdiyi ilə tutub onu da xıxırtdıqda Dünya ona sarı bir boğma atıb ayağını qəzəblə yerə çırparaq ürkütdü:

— İtil cəhənnəmə. Rədd ol burdan! —deyib az qala qışqırdı. Elə bu zaman Əbdül darvazadan içəri girdi. Xanımı həyətin ortasında görüb evə gec gəldiyinin qəbahətini anlamış uşaq kimi başını aşağı salıb ayaqlarını sürüyə-sürüyə irəli gəldi.

— Haradasan, ay çərxi dönmüş? — deyə Dünya qəzəbindən nə edəcəyini bilməyən adam kimi, bir də ayağını yerə çırpdı, qırmızıpipikli xoruzu yenidən qara toyuğun üstündən qovurmuş təki qışqırdı. Əbdül onun səsindən səksəndi, qorxu dolu nəzərlə xanımı ötəri süzüb heç nə demədi. Özünü itirdiyindən əl atıb çalmasını yoxladı — çalması başında idi. «Bəs bu xanım niyə belə hirslənib?» — deyə düşündü — «hə... gec kəlmişəm ona görə» — O, özünə gəlməmiş Dünya xanım bayaqkına nisbətən azca həlim səslə:

— Səhərdən hardasan, Əbdül? — dedi. Əbdül dayandı:

— Getmişdim, xanım.

— Bilirəm; getmişdin. Soruşuram ki, hardaydın?

Əbdül yenə yazıq-yazıq çalmasını yoxladı, uzunsov, qorxu dolu gözlərini ürkək-ürkək xanımın sifətində gəzdirib, güclə eşidiləcək halda:

— Çimməyə getmişdim, xanım! — dedi.

— Hara?

— Çimməyə, xanım. — harda, o beçə?[1]

Əbdül yenə yavaşca:

— Çayda, xanım! — dedi.

Dünya «çay» sözünü eşidib üşüyən kimi oldu, titrətmə keçdi canından.

— Necə, yəni çayda, o beçə? Bu soyuqda, qiyamətdə sən.., çayda çimməyə getmişdin?

— Bəli, xanım.

— Üşümürdün?

[1] O b e ç ə - nökərə müraciət formasıdır. «Ay uşaq» — deməkdir.

— Üşüdüm-üşümədim, xanım. Üç aydı çimmirdim, paltarım da çirkli idi.

Dünya pilləkənin birincisinə yanını qoyub oturdu və zabitəli bir tərzdə:

— Yaxın gəl, görüm. Məni başa sal görüm bu nə çimməkdir?

Əbdül qorxu içində, demək olar ki, ayaqlarını sürüyə-sürüyə qabağa gəldi, Dünyanın iki addımlığında dayanıb əllərini ovuşdurmağa başladı. Doğrudan da çimənə — özü də soyuq suda çimənə oxşayırdı. Dodaqları gömgöy idi. Sifətinin cod tükləri biz-biz durmuşdu. Əsirdi yazıq. Ancaq Dünya bilmirdi ki, o, soyuqdan əsir, ya qorxudan. Zərrintac Əbdül haqqında ona bəzi şeylər danışmışdı. Dünyanın ona yazığı gəlmişdi. Evi-eşiyi olmayan, ailə səadətinin nə olduğunu bilməyən, ancaq çox təmiz, ürəyi düz, sədaqətli bir adam kimi Nəcməddinin diqqətini cəlb eləyən bu kişi, nəhayət burada özü üçün rahatlıq, isti yer tapıb məskən salmışdı. Yaşı qırxı təzəcə keçsə də, həyat, pis güzəran öz silinməz möhürünü onun saçlarına, sifətinə, ürəyinə basmışdı; saçlarına dən düşmüş, sifəti qırışmışdı. Ürəyində isə insanı insan eləyən bütün hisslərini, arzularını öldürmüşdü, ancaq həyat onun saflığına, mənliyinə toxuna, ləkə sala bilməmişdi. Bir qarın çörək, isti yatacaq yeri tapdığına görə özünü xoşbəxt sayırdı Əbdül.

— Eşitmirsən? Danış görüm?... — Dünyanın zabitəli səsi eşidiləndə Əbdül miskin bir görkəmlə başını qaldırdı:

— Nə danışım, xanım?

— Sən çayda niyə çimirsən, Əbdül?

— Bəs harda çimim, xanım?

— Evdə hamam yoxdur ki, sən çayda çimirsən? Əbdül köks ötürdü:

— O hamam mənim üçün deyil, xanım. Mənim o hamamda çimməyə ixtiyarım yoxdur, xanım.

— Necə yoxdur? Bunu sənə kim deyib? Ağa deyib? Zərrintac deyib?

— Yox, xanım, başına dönüm, — Bu sözü eşidəndə Dünyanın dodaqları qaçdı, — heç kəs deməyib. Özüm bilirəm ki, o hamamda çimə bilmərəm.

— Niyə axı? Səni yandırar?

— Yox. Yandırmaz. Ancaq o hamam ağa üçündür, xanımlar üçündür, xanım.

Dünya onu təpədən dırnağa süzdü. Enli çiyinləri, dolu sifəti, dərinliklərdə qorxudan öləzimiş gözləri Dünyaya cazibədar göründü.

O, bir anlığa Əbdülü təzə paltarda təsəvvür etdi; gözləri qabağına ortayaşlı, sağlam, bir qədər də kobud bir adam gəldi.

— Demək, sən çayda çimirsən?

— Bəli, xanım çimirəm, paltarlarımı da yuyuram çayın suyunda, sərirəm günün altına. Quruyanacan özüm çayda yuyunuram — Bu sorğu-sualın evə gec gəldiyinə görə baş verdiyini kəsdirən Əbdül ondan - xanımdan üzr istəmək qərarına gələrək söylədi:

— Bağışlayın, xanım.. Bir də gec gəlmərəm evə. Gün az idi, paltarım gec qurudu, ona görə gecikdim, xanım. Bax, hələ də heç yaxşı qurumayıb.

Dünya baxdı. Həqiqətən tumanı ala-nəm idi, uzun köynəyinin ətəyindən su damcılayırdı. Dünyanın ona rəhmi gəldi.

— Bir də belə qələtlər eləmə.

— Baş üstə, xanım.

— Çimmək istəyəndə hamamı yandır, çim. Mən icazə verirəm. Eşitdin?

— Bəli, xanım, eşitdim.

Əbdül minnətdarlıq hissilə Dünya xanıma nəzər salıb getmək istəyəndə Dünya xanımın ürəyində yenə o sehrli işıq yandı və o işıqdan qamaşan, qaynayan gözlərini Əbdülə dikib aramla, amiranə bir səslə dedi:

— İndi get, hamamı yandır!

— Baş üstə, xanım.

Əbdül uzaqlaşdı. Dünya elə pilləkənin başında, oturduğu yerdəcə qaldı. Göyərçinlər qurultu ilə gəzinirdilər, öpüşürdülər; qızılpipikli xoruz bu dəfə sarı fərəni yanlamışdı, böyür-başına keçirdi. Bu gün xoruz Dünyanı lap əsəbiləşdirmişdi. Elə bil, qəsdə durmuşdu, Dünyanın ürəyində gizli surətdə alovlanan atəşin üstünə yağ çiləyir, şölələndirirdi. Əlacı olsaydı, əlindən gəlsəydi, bu dəqiqə onu tutub başını üzərdi.

Əbdül hamamı yandırmışdı. Buxarıya daş kömür doldurub od vurmuşdu. Kömür qızıl külçəsi kimi közərirdi. O, buxarının dəmir qapısını açıq qoyub üst-başını istiyə verir, paltarlarını qurudurdu. Soyuqdan uyuşmuş bədəninin qırışığı açılır, canı qızırdı.

«Zabitəli arvaddı ha. Adamnan elə danışır ki, bir sözünə etiraz eləmək olmur. Bax, indi deyən gərəkdi ki, ay xanım, dünən çimibsən, indi neynirsən hamamı? Adam da gündə-gündə çimər? Lap su quşudu elə bil! Yox, bəlkə mənə yazığı gəldi, elə paltarlarımı qurutmaq üçün, canımı qızdırmaq üçün yandırtdırdı bu hamamı?» Yerinə

kaşı düzülmüş aynalı hamam otağı artıq qızmışdı; vannanı təmiz yudu, suyu yoxladı, sonra üst-başı qurumuş halda çölə çıxıb eyvana sarı gəldi. Xanımı elə pilləkənin başında oturmuş görüb:

— Hamam hazırdı, xanım! — dedi,

— Hazırdı?

— Bəli, xanım.

Dünya əvvəlcə Əbdülün ayaqlarına, sonra dizlərinə baxdı, daha sonra onun sifətinə nəzər salıb xeyli susdu:

— Hə, indi get təzədən çim, bədəninin çirkini pasını tök! — dedi.

— Mən?

— Bəli, sən!

— Yox, xanım, mən indicə çimmişəm, xanım. Siz çimin!.. Dünya tam ciddiyyətlə:

— Mənim bir sözümü iki eləməyə sənin ixtiyarın yoxdu, bildin? — dedi.

— Baş üstə, xanım...

— Hə, indi get çim!.. Yaxşı-yaxşı çim. Heç indiyəcən hamamda çimibsən?

— Yox, xanım!

— Hə, get çim. Sonra mənim ömrümə dua eləyərsən.

— Allah sənin ürəyinin bütün mətləblərini versin, xanım, xoşbəxtlik quşu sənin başının üstündən heç yana uçub getməsin, xanım.

— Get! Get!!!

Əbdül hamama girib qapını bağladı, Dünya sinədolusu ah çəkib pilləkənləri yuxarı qalxmağa başladı, axırıncı pilləkənin üstündə ayaqları getmədi. Elə bil, onu yerə mıxladılar. Dayanıb həyətə boylandı, hamama sarı baxdı, baxdı. Beləcə on dəqiqədən çox durdu. Sonra sanki gözəgörünməz bir əl onun qolundan yapışıb, ehmal-ehmal pillələri endirdi, heç yana yox, düz birbaşa barmaqları ucunda hamamın qapısına gətirdi. Orda o gözəgörünməz əl onu tək qoyub harasa getdi. O, çırpınan ürəyi ilə kaşı döşəmənin üstündə tək qaldı. İçəridən su şırıltısı gəlirdi. O gözəgörünməz əl yenə onun qolundan tutdu, qaldırdı, dəstəyin üstünə qoydu, təzədən qeyb oldu. Dünyanın əli soyuq dəstəyin üzərində neçə saniyə qaldı. Qulaqları guruldadı. İçəridən qəti bir səs eşitdi:

—Yox! Dünya, yox!».., — Əli dəstəkdən sürüşüb yanına düşdü. Və o geri çəkildi, uzaqlaşdıqca su şırıltısının səsi azaldı, həyətin ortasına çıxanda lənətə kəlmiş o xoruz yenə qabağına çıxdı və o

geri qayıtdı. Bu dəfə qapı ağzına gəlmədi, daş divarın dibinə keçib pərdə salınmış tək pəncərəyə boylandı. Boyu çatmırdı, pərdə də kip örtülmüşdü. Barmaqları ucunda qalxdı. Yox. Çatmadı boyu. Hasarın dibindəki yeşik gözünə sataşdı, qaça-qaça gedib onu gətirdi, ayağının altına qoydu. Və... sol gözünü yumub içəri baxdı. Əbdül vannanın içində ayaq üstə dayanmışdı. Başını sabunlayırdı. Duşdan su şırıltı ilə axıb tökülürdü. Bədəni tüklü idi. Arxası pəncərəyə tərəf durmuşdu, şəkli tutqun halda qarşı divardakı güzgüyə düşmüşdü. İçəri buğla dolu idi deyə güzgü tərləmişdi. Əbdül birdən çevrildi, yanakı durdu. Dünyanın cəmi bir neçə an davam edən bu tamaşası onun bütün həyatını, indiyə qədər bildiklərini və eşitdiklərini alt-üst elədi və o, daha orda dayana bilməyib yerə hoppanaraq birbaşa evə qaçdı, qapını təpiklə açıb özünü çarpayının üstünə saldı və hönkürtü vuraraq: — Aman allah, dünyada necə kişilər varmış! — deyə hıçqırdı.

ON BEŞİNCİ FƏSİL

Balaca, ağ rəngli, uzaqdan tısbağaya oxşayan «Folksvagen» maşını beton döşənmiş yolda şütüyürdü. Hərəkət azdı, tək-tük maşınlar gəlib keçirdi.

İçəridə iki nəfər oturmuşdu. Zərrintac sükan arxasında, Elməddin isə onun yanında. Tələsmirdilər; qız arxayın-arxayın, danışa-danışa maşını idarə edir, Elməddin isə onun sərbəst hərəkətlərinə, cəldliyinə tamaşa eləyirdi.

Bu gün istirahət günü idi; Elməddin bəzi yazı-pozu işini görüb yenicə qurtarmışdı ki, Zərrintac gəldi. Elə qapının ağzında salamlaşdılar. Qız otağa ötəri bir baxış fırladıb oğlanın dəvətini cavabsız buraxaraq:

— Gözəl havadı, Elməddin. Geyin gedək bir az fırlanaq, — dedi.

— Gəl, bir az dincəl, çay iç. Sonra gedərik.

— Yox, istəmirəm.

Elməddin üzündə təbəssüm pencəyini geyinib çıxdı. Az sonra onlar şəhəri artıq geridə qoymuşdular. Susurdular, sanki danışmağa söz tapmırdılar. Elməddin düşünürdü ki, bu qıza görəsən nə oldu, gələndə şad-xürrəm idi. Astanada dayanandan, otağa boylanandan sonra niyə qanı qaraldı onun? «Yəqin tör-töküntü idi ev. O isə səliqə-sahman sevəndi. Bəlkə bu xətrinə dəyib? Ya bəlkə Dünya xanım ona məndən bir

söz deyib? Yox, nə deyə bilər? Lənət şeytana — deyə öz aləmində götür-qoy eləyir, yolun sağındakı, solundakı yaşıl çəmənə, orda-burda otlayan qoyun sürülərinə baxırdı. Dolayda, yamacın döşünə elə bil tünd-mavi rəngli xalı sərilmişdi. Elməddinin gözləri axdı. Burnuna novruzgülünün demək olar ki, heç hiss edilməyən qoxusu dəydi. Və o, Zərrintacın ötüb keçəcəyindən qorxurmuş kimi, tələsik ledi:

— Zəri, sən allah, saxla bir dəqiqəliyinə. Zərrintac bu gözlənilməz xahişdən səksənmiş təki ayağını qəfil əyləcə basdı, maşın sürünüb dayandı.

— Nə olub?

— Heç. Bircə dəqiqə... — deyib Elməddin özünü çölə atdı və yolun sağındakı talaya tərəf yüyürməyə başladı. Yamacın döşünə çatıb əyilərək tünd-mavi rəngli çiçəklərdən qoparanda Zərrintac onun məqsədini anladı, güldü. Elməddin təngnəfəs özünü maşına təpəndə bərk tövşüyürdü. O, çiyinlərini ata-ata:

— Novruzgülüdü, Zəri, — dedi. — Sənin üçün dərmişəm! — və üç-dörd gülü onun ağ, yumşaq ovucuna qoydu. Elə bil ona kəpənək verirdi, qanadlarının sınacağından, zədələnəcəyindən ehtiyat eləyirdi!

— Çox sağ ol, Elmi, — dedi Zərrintac və gülləri burnuna yaxınlaşdıpıb qoxuladı. — Heç ətri yoxdu ki?

— Var, ancaq azdı, çox azdı. Amma qəşəngdi, Zəri, elə deyilmi?

— Hə, qəşəngdi. — Ətri olmasa da, novruzgülü Zərrintacın ürəyində xoş, sehrli duyğular oyatdı; o, gülləri təzədən burnuna yaxınlaşdırıb qoxuladı, havanı ciyərlərinə çəkib «oxqay» — söylədi, gözlərini yumub başını Elməddinin çiyninə tərəf əydi. Onun yumşaq, ətirli telləri Elməddinin üzünə toxundu. Oğlan sol əlini ehmalca qaldırıb onun saçlarına sığal çəkdi; bu təmasdan məst olan qızın bədəni oğlana sarı axdı.

Elməddin özünü saxlaya bilməyib Zərrintacın dodaqlarından öpdü, öpdü. Dodaqları sanki yanırdı, köz vardı sanki onlarda. Qızın əlləri Elməddinin boynuna dolaşmışdı, o da öpürdü, o da oğlanın gözlərindən, yanaqlarından, dodaqlarından öpürdü, öpürdü...

Elməddin necə deyərlər, bu iki daşın arasında xatırladı ki, bu onun həyatında ilk busədi, yazıq Əfsanəni öpmək ona heç nəsib olmadı. Belə düşünəndə onun bədəni süstəldi, qolları boşalıb yanına düşdü. Zərrintac hələ də közlərini açmamışdı. Məst idi elə bil, yuxudaydı elə bil. Elməddin başını oturacağa söykəyib şirin duyğular aləmində uyuyan bu xoşbəxt qıza, onun gödək paltarının ətəyindən

aşağıda ağaran dolu dizlərinə, qabarıq, tez-tez enib qalxan sinəsinə tamaşa edirdi. Novruzgülləri qucağında idi. Handan-hana o, gözlərini açıb Elməddinə utancaq, məsum bir nəzər saldı, nə isə demək istədi, ancaq elə bil, dodaqları əriyib bir-birinə yapışmışdı. Başını aşağı salıb qucağındakı novruzgüllərini götürdü, onlara baxıb mənalı-mənalı başını tərpətdi:

— Bunlrı saxlayacağam, Elmi.

— Saxla, Zəri. Onlar mənim sənə yadigarımdı, Zəri.

Zərrintac böyrünə qoyduğu əl sumkasını açdı, içindən göy rəngli kitabça götürüb gülləri arasına qoydu. Sanki qiymətli bir şey tapmışdı, yad nəzərlərdən gizləyirdi.

— Bunları qocalanda, haf-haflayan vaxtımızda çıxardıb sənə göstərəcəyəm, Elmi.

— Onda bu, sənin mənə ən yaxşı hədiyyən olar, Zəri.

— Sağlıq olsun.

— Amin!! Ancaq... — Elməddin duruxub kəsik-kəsik davam etdi — qibləgahın bilsə, məni ya öldürər, ya da işdən-zaddan qovar. Elə deyil?

— Yox, Elmi! Qibləgahıma demişəm.

— Demisən?

— Hə.

— Haçan?

— Lap bu yaxınlarda.

— Nə dedin ki?

— Dedim də... O mənə işarə elədi ki, əlahəzrətin kiçik oğluna vermək istəyir məni. Mən söylədim ki, yox, mən Elməddini sevirəm, ona da kedəcəyəm.

— O nə dedi?

— Nə deyəcək? Mənim xasiyyətimi yaxşı bilir qibləgahım. Dedim, qurtardı. Dünya xanım da srağagün onunla danışıb, başa salıb qibləgahımı.

— Məgər Dünya xanım da bilir məsələni?

— Hə, bilir. Özü çox həssas qızdı, başa düşübmüş. Söz düşəndə səni tərifladi, dedi yaxşı oğlandı. Mən də heç nəyi gizlətmədim, danışdım. Qibləgahım deyib onda toyu tez eləmək lazımdı; bizə dörd otaq verir.

Elməddin fikrə getdi. «Yox, mən orda yaşamayacağam!». Sonra həmin qərarını Zərrintaca bildirdi:

— Biz orda yaşamarıq, elə deyil?

— Bəs... bəs harda yaşayarıq?

— Mən ev alaram, öz evimizdə...

— Yox, Elmi... Mən qibləgahımı tək qoymaram, qoya bilmərəm.

— Tək niyə olur qibləgahın? Arvadı ilə yaşayır...

— Xeyr... Gül kimi şəraiti var qibləgahımın. Bir də təzədən ev almaq, səliqə-sahman yaratmaq... uzun işdi. Həm də bizə gülərlər. O cür cah-calallı evləri qoyub haradasa yaşamaq...

— Nə isə... Onlar sonranın işidi, Zəri.

Elməddin bu xoşagəlməz söhbətə son qoymaq üçün təzədən əlini Zərrintacın boynuna doladı, üz-gözünü, tellərini öpməyə başladı. Zərrintacın bədəni uçunurdu. Və o, titrək səslə:

— Sevirəm, Elmi, sevirəm! — deyirdi.

Elməddin danışmır, elə hey öpürdü, öpürdü. Bu nə idi? Məhəbbət idimi, şəhvət idimi? Elməddin başa düşmürdü. O, məhəbbətin oduna bir dəfə yanmışdı; o, yanmağın nə demək olduğunu görmüşdü. Onda, Əfsanənin eşqi ilə çırpınanda Elməddinin ürəyi oxuyurdu, həsrət çəkirdi, qan olurdu: o, ölürdü, dirilirdi. Ancaq indi... indi nə isə ayrı hisslər keçirirdi. Onun özünü ilk busələrin məstedici təsirindən itirmiş cavan qızın bütün varlığına hakim olmaq istəyi o qədər küclü idi ki, bu işin aqibəti, nə ilə qurtaracağı artıq maraqlandırmırdı.

«Eh, nə olacaq olsun. Yəqin alnıma bu da yazılıbmış» — deyərək Elməddin təzədən Zərrintacı bağrına basdı.

İKİNCİ HİSSƏ

BİRİNCİ FƏSİL

Bəbir neçə vaxtdı narahatdı. Qayğılı, düşüncəli gəzib-dolanır, işləyə bilmir, gecələr gözünə yuxu getmirdi. Atasının nagahan gəlişi, aralarında olan söhbət, nəhayət, o zabitəli və hökmlü adamın aciz, kücsüz bir uşaq kimi gözüyaşlı çıxıb getməsi Bəbirin indiyəcən aramla, sakit axıb gedən həyatını alt-üst eləmiş, onu dərdə salmışdı. Nə edirdisə, hara gedirdisə, Əziz xanın o nəmli gözləri xəyalından silinmirdi. Ürəyində elə hey onunla danışırdı:

«Nə üçün belə etdin, qibləgahım? Nə üçün mənim oğulluq məhəbbətilə dolu qəlbimi öz əllərinlə daşlara çırpıb parçaladın, qibləgahım? Axı mən səni qibləm, tanrım sanırdım, qibləgahım? Yolumuz ayrılmışdı — bu, taleyin işi idimi, həyatın bizə verdiyi dərs idimi — bilmirəm; onu bilirəm ki, biz — bir ocağın adamları, qan birləşdirsə də, məsləkcə, əqidəcə uzaqlaşmışdıq, soyumuşduq... Burda, belə haçalaşma məqamında ikimizdən birimiz güzəştə getməyi bacarmadıq, qibləgahım. Sən məğrur idin, sən qan üstündə qurulmuş bu taxt-tac səltənətinə sadiq idin. Səni qınamıram, qibləgahım, gözünü dünyaya açıb belə görmüşdün, belə tərbiyə olunmuşdun. Sən əlahəzrəti hər şeyə qadir sanırdın, yer üzündə Allahın kölgəsi sanırdın və buna sidqi dildən inanırdın, bu inam isə sənin əqidənə, məsləkinə çevrilmişdi, qibləgahım. Döşündə parıldayan, qızıl suyuna çəkilmiş o dəmir-dümürün işartısı, nuru sənin gözlərini qamaşdırmışdı və sən hər yeri, hər şeyi işıq içində, nur içində görürdün. Sən o işığın, o nurun arxasında, üstünə pərdə çəkilmiş aclığı, səfaləti, çirkabı görmürdün, qibləgahım. Görə də bilməzdin. Onu görmək üçün bir az aşağı enmək, ipək yorğan-döşəkdən çıxmaq, gözqamaşdıran o dəmir-dümürdən yaxa qurtarmaq lazım idi, qibləgahım! Bunu isə sən bacarmadın, hələ də bacarmırsan.

Səni qınamıram; mən o adamları xoşlayıram ki, dostluqda, sədaqətdə bütövdür: sevirsən, bütün varlığınla sev; sadiqsən, bütün varlığınla sadiq ol. Yaxud nifrət edirsən, yenə də həmçinin — bütün qəlbinlə nifrət et! Əqidədə, məhəbbətdə dəyişkənlik, sabitqədəm olmamaq kec-tez səni xəyanət yoluna aparacaq, bədnam və bədbəxt

eləyəcək. Mənim ağlım belə kəsir, qibləgahım; sənin sabitqədəmliyindən xoşum gəlir. Sən hətta oğul məhəbbətini də ürəyindən çıxartmağa hazır idin; inanıram ki, əgər sənə əmr edilsəydi, öz sədaqətini sübut etmək üçün, mənim başımı da apararдın əlahəzrətin ayaqları altına. Yaxşı ki, belə əmr olmadı, belə vuruş olmadı və əgər bundan sonra olarsa, sən daha bu döyüşlərdə əliqılınclı, belitapançalı iştirak edə bilməzsən, qibləgahım.

Məni də qınama, qibləgahım. Mən sənin oğlunam, sənin qanın damarlarımda axır; fərqimiz budur ki, mən dünyaya sənin gözlərinlə baxmıram, öz gözlərimlə baxıram və sənin görmədiyin şeyləri görürəm, qibləgahım».

Bəbir fikirli-fikirli həyətdən çıxmaq istəyirdi ki, başı çalmalı, ayağında taxta çəkələk olan uzunsaqqallı kişi özünü onun qabağına verib baş endirdi:

— Salamünəleyküm, ağayi Bəbir!

Bəbir ayaq saxlayıb qocaya nəzər saldı və onu tanıdı; bu, onların qədimi ev nökəri Heybətəli idi. Bəbir közünü açıb onu öz evlərində görmüşdü; o, demək olar ki, elə Əziz xanın qulluğunda dura-dura qocalmışdı. Uşaq vaxtı Bəbir onu çox incitmişdi, hətta nəyinsə üstündə (indi yadında deyil) qibləgahına şikayət eləyib kişini döydürmüşdü də. Bəbir Heybətəlini görüb əvvəl gülümsündü, salamını alıb kefini-əhvalını soruşdu, ancaq sonra birdən Heybətəlinin bura elə-belə gəlmədiyinə, atasının başında bir xətər ola biləcəyini xatırlayıb tutuldu və tələsik:

— Xeyir ola, Heybətəli? Səndən nə əcəb bu tərəflərə təşrif gətirmisən? — deyə soruşdu.

Heybətəli mırıq dişlərini göstərə-göstərə dedi:

— Heç, ağa. Qibləgahın... — duruxdu, sonra əlavə elədi, — qibləgahın dedi ki, get Bəbir ağanı yanıma çağır. Bəbir həyəcan içində:

— Düzünü de, yoxsa... kişiyə bir şey olub?—deyə soruşduqda onun təşvişini hiss eləyən Heybətəli and içdi:

— Qəsəm bexoda[1], heç nə yoxdu. Bir az nasazdı ağam. Dedi get, çağır!..

— Düzünü de!

— Vallah, ağam, düz sözümdü. Bəbir azca düşündü, sonra dedi:

— Yaxşı, gedək.

[1] Allaha and olsun.

Taksidə gedirdilər. Bəbir dinib-danışmırdı, fikirli oturmuşdu. Heybətəli arxada Bəbirin enli kürəyinə, ağarmağa başlamış saçlarına baxıb onun uşaqlığını xatırlayırdı, keçmiş günlərini yadına salmaq istəyirdi, ancaq qanının qara olduğunu görüb susurdu. Bu ara Bəbir geri dönüb:

— Sən məndən sədaqətli çıxdın, Heybətəli, qibləgahıma! — dedi.

Heybətəli irəli əyildi:

— Hə, Bəbir!—dedi. — Bizim sədaqətli olmaqdan başqa heç nə əlimizdən gəlmir, ağam!

Bəbir bu sözlərin mənasını yaxşı anladı və dərdli-dərdli ah çəkib:

— O vaxt qoca mənim qəlbimi yaman qırdı, Heybətəli — dedi.

— Böyüyündü, gərək dözəydin, ağa!

— Dözə bilmədim. Ürək sındırmaq pis şeydi, Heybətəli, mən deyərdim, cinayətdi.

— Düz sözdü, ağam. Bunu kim bilməsə də, biz yaxşı bilirik. Sənin ürəyini ömründə bircə dəfə sındırıblar, unuda bilmirsən, gör neçə il keçib unuda bilmirsən. Bəs biz? Bizim ürəyimizi o qədər sındırıblar ki, ağa, o qədər sındırıblar ki!

— Sınıq ürəklə yaşamaq çox çətin olur.

— Elədi, ağa. O yaşamaq deyil daha, sürünməkdi, ağa! — Heybətəlinin ürəyi dolu idi; yeri gəlmişdi, danışmaq istəyirdi. Bəbir düşünürdü ki, insan həyatında hələ nə qədər naqisliklər, kamil olmayan cəhətlər var. İnsan yaşadığı cəmiyyətin bir parçasıdı, təmiz güzgüsüdür. Onun yaxşılıqları, pisliklәri, ədalətsizliyi, əsəbiliyi, xoşbəxtliyi insanın ürəyində, mənliyində, rəftarında əks olunür. Əsəbi cəmiyyətin adamları əsəbi, nizamsız cəmiyyətin adamları intizamsız, bərabərlik üstündə bərqərar olan cəmiyyətin adamları bərabər və xoşbəxt olurlar.

Bizim cəmiyyətimiz qeyri-bərabərlik əsasında qurulub; ona görə biri ağadı, yüzü qul, nökər. Ona görə də ağalar qulların, nökərlərin qəlbini qırıblar həmişə, qıracaqlar da. Nə qədər ki belə davam edir, qıracaqlar da, bəli! Onlar buna adət etdiklərindən, bəzən, fərqinə varmadan, öz övladlarının da qəlbini sındırırlar, mənliyini tapdalayırlar!

Bəbir həyətə girəndə ürəyi çırpındı, hündür, qollu-budaqlı tut ağacı yenə əvvəlki əzəmətilə dayanmışdı; ev həmin evdi, heç bir dəyişiklik olmamışdı. On il əvvəl Bəbir necə qoyub getmişdisə hər şey eləcə də dururdu. Ayaq saxlayıb ətrafı nəzərdən keçirdi. Bir uşaq

gəldi gözünün qabağına. Dəcəl, ipə-sapa yatmayan, tut ağacından asılmış yelləncəkdə yellənən... Bu, o özü idi. Səs eşitdi, uşaq səsi...— uzaqdan, illərin arxasından nəsə qışqırdı — öz səsi idi.

Heybətəli haçan içəri keçmişdi — Bəbir görməmişdi. Heybətəli sevindirmişdi ağasını; «gətirdim oğlunu!» — demişdi. Ona görə şad-xürrəm təzədən Bəbirin qabağına yeridi;

— Ağam közləyir! — dedi.

Bəbir ağır addımlarla on il qabaq çıxdığı qapıdan min həyəcanla içəri girdikdə, tavandan asılmış çilçırağın işığı altında sifəti başının ağ tükündən seçilməyən Əziz xan çarpayısında dikəlmək istədi, ancaq deyəsən, gücü çatmadı. Yalnız başını azca yana əyib çuxura düşmüş gözlərini Bəbirə sarı döndərdi, taqətsiz halda:

— Gəldin, oğul? — dedi.

Bəbir qorxa-qorxa irəli yeridi, böyründə dayanıb atasına ehtiramla baxdı və əyilib qar kimi ağ olsa da, od təki isti alnından öpdü:

— Qibləgahım!.. — dedi, ancaq sözünün dalı gəlmədi, qəhər onu boğdu. Sonra çarpayısının böyründə əyləşdi, əlini əlinin içinə alıb nəvazişlə sığalladı. Kişinin halı ağır idi. Nazik ipək yorğanın içində sinəsi tez-tez qalxıb-enir, çiyinləri tərpənirdi. Üzünün almacıq sümükləri çıxmışdı. Son dəfə gördüyündən heç iki ay keçməmişdi, ancaq bu az müddət ərzində o, xeyli arıqlamış, sınıxmış, bir dəri, bir sümük qalmışdı. Ata-oğul lal-dinməz, sükut içində xeyli baxışdılar.

— Sən də gələrmişsən bu evə, oğul!—deyə Əziz xan kədərli-kədərli dillənəndə Bəbir kövrək səslə:

— Təbib gəlib baxıb? — deyə xəbər aldı.

— Baxıb... Ancaq... nə faydası, oğul?!

— Nə dedi təbib, qibləgahım?

Kişi ümidsiz halda başını buladı və gözlərini yumdu. Bəbir o biri otaqdan harasa zəng elədi, kiminləsə danışdı. Bu zaman Heybətəli yemək gətirdi. Toyuq şorbası bişirmişdi; qabı çarpayının böyründəki kətilin üstünə qoydu. Bəbirə işarə elədi ki, gör yedirə bilərsənmi — mən verirəm, yemir...

Bəbir atasının balışını dikəltdi:

— Hə, qibləgahım, sənlə bir yerdə gör neçə ildi çörək yemirik. Neçə il olar? — Onun cavabını közləməmiş üzünü Heybətəliyə çöndərib: — mənim üçün də çək gətir xörək. Ata-bala bu gün gərək bir yerdə nahar eləyək biz, Heybətəli — dedi.

— Baş üstə, ağa!

Əziz xan gözünü dolandırıb kasadakı xörəyə, yumşaq təndir çörəyinə nəzər saldı, udqundu. Bəbir qaşığı götürəndə kişi dilləndi:

— Məni qaldır, oğul.

Bəbir onu dikəltdi: Əziz xan qıçlarını aşağı saldıqda oğlu yorğanı kürəyinə çəkdi. Kişi qaşığı götürdü, ancaq yemədi, qapıdan gələn Heybətəliyə dedi:

— Gətirdin? Ay sağ ol. Hə, bismillah, oğul. Başlayaq.

Bəbir qımışıb kasanı qabağına çəkdi. İştahla yeməyə başladı. Əziz xan da yeyirdi. Kişinin sanki gözlərinə işıq, qoluna qüvvət gəlmişdi. Neçə gündü boğazından tikə keçmirdi, amma indi, maşallah, yeyirdi. Elə bil, əhd eləmişdi, oğlu gəlsin, onunla bir süfrə arxasında oturub çörək yesin. Arzusu yerinə yetmişdi elə bil. Heybətəli də divarın dibində ayaq üstə dayanıb ağasının iştahla yediyini gördükcə Bəbir kimi sevinirdi. Çünki neçə gündü ki, Əziz xan əlini tikəyə vurmur, sudan başqa heç nə içmirdi. Heybətəlinin zəhməti hədər gedir, bişirdiyini elə özü yeyirdi.

— Ağzım dada gəldi, oğul. Çox sağ ol, oğul, — deyə Əziz xan doyandan sonra dəsmalla ağzını silib məmnun halda Bəbirə fikir verdi. O hələ yeyirdi. Kişi də sanki oğlunun yeməyindən ləzzət alırdı.

— Nuş-can, qibləgahım, mən də haçandı belə iştahla nahar eləməmişdim. Heybətəli, əlin-qolun var olsun. Dadlı xörək bişirmişdin.

Ata-balanı bir süfrə arxasında görən, ömrünün qırx ilindən çoxunu bu evdə keçirən Heybətəli də, uzun ayrılıqdan sonra onların ulduzunun barışdığını zənn edib şadlanmışdı, odur ki, dedi:

— Heybətəli haçan dadsız xörək bişirib ki, ay saqqalı ağarmış. Ağamız, — Allah onun canına şəfa versin, — həmişə deyərdi ki, bütün şəhərdə Heybətəli kimi aşpaz yoxdu, onun bişirdiyi xörəkləri yeyəndən sonra adam istəyir barmaqlarını da yalasın. Sən bu evdən gedəndən sonra Heybətəlinin xörəyi dadsız olub, ay pir olmuş! O kişiyə yazığın gəlsin, gəl otur evində-eşiyində, Bəbir.

Bəbirin gəlişi evə hərarət gətirmişdi, səmimiyyət gətirmişdi, günlərlə kölgə kimi həyət-bacada gəzib-dolanan qaradinməz Heybətəlinin də dili açılmışdı. Əziz xan illər boyu həsrətini çəkdiyi arzusuna qovuşmuş adam təki sevinirdi, elə bil, daha heç bir kamı qalmamışdı ürəyində. Kişinin xəstəliyi də yadından çıxmışdı. Bəbir də sanki sinəsində düyünlənib qalmış daşı atmışdı elə bil.

Keçmişləri yad elədilər, dedilər, güldülər. Söhbət ara verəndə Əziz xan Heybətəliyə müraciət elədi:

— O beçə, o gün yazdığım, möhürlədiyim kağızı gətir bura.

— Baş üstə, ağa! — Heybətəli üzü meşin cildli hafiz divanının arasından iki qatlanmış kağızı götürüb Əziz xanın üstünə qoydu:

— O nədir, qibləgahım?

Əziz xan titrək əlilə kağızı oxumamış oğluna sarı uzatdı.

— Vəsiyyətnamədi, oğul... Yazmışam... Vəsiyyətimi eləmişəm…

Bəbir kağızı almadı:

— Qoy oyana, qibləgahım. Vəsiyyətnamə nədi, zad nədi? Ürəyimizi qana döndərmə, sən allah. Mənə sənin heç nəyin lazım deyil, canın sağ olsun, nəfəsin gəlsin, mənim bəsimdi, qibləgahım. Özünə fikir ver, ye-iç, əmələ gəl. Özünü indidən tərk-silah eləyib yorğan-döşəyə salma. Ölməyə nə var ki? Ölməkdən asan şey yoxdu, dünyada, qibləgahım. Yaşamaq çətindi, yaşamaq, qibləgahım. Mən yaşamağı bacaranlara pərəstiş eləyirəm, qibləgahım. Çətinliyə düşən kimi, vəzifədən çıxan kimi, rütbəsi əlindən gedən kimi özünü ölümün soyuq qucağına atmağa can atanlar aciz adamlardı, qibləgahım. Yaşa, sən hələ bizə lazım olacaqsan, sənin böyük təcrübən var, dünya görübsən, qibləgahım.

Əziz xan yaxşı başa düşürdü ki, oğlu onun hərbi nazir tərəfindən, demək olar ki, zorla istefa verməyə məcbur edilməsinə işarə eləyir. Doğrudan da bu, Əziz xana pis təsir bağışlamışdı və onun indi belə, taqətsiz halda yorğan-döşəyə düşməsinə səbəb olmuşdu. Kişi içində çəkmişdi, ancaq dözməyib yıxılmışdı. Və ona elə gəlirdi ki, daha hər şey bitib, daha «general Əziz xan» yoxdu, heç vaxt da olmayacaq. İndi isə Bəbir ayrı şeylər söyləyirdi. «Sən hələ bizə gərək olacaqsan» deyirdi. Bu sözlər onun canına qüvvət, gözlərinə işıq verirdi.

Bəbir saata baxdı və nigaran halda:

— Bəs bu təbib niyə gəlib çıxmadı? — dedi.

— Təbib çağırmısan, oğul?

— Hə...

Kişi minnətdarlıq hissilə dolu nəzərlərlə Bəbiri süzdü:

— Lazım deyil, oğul. Mənim təbibim sən özünsən, bala. Sən yanımda olsan, mən yaşayaram, oğul.

— Yaxşı, qibləgahım... Sənin təbibin mən özüm olacağam, qibləgahım! — deyib atasının əlindən öpdü... Bu zaman həkim gəlib çıxdı...

İKİNCİ FƏSİL

Rəhgüzər «Pərçəm»in redaksiyasında, balaca, sadə bəzənmiş otaqda oturub növbəti nömrə üçün materialları nəzərdən keçirirdi. Ustadın əhvali-ruhiyyəsi gözəl idi. İşləri hələ ki qaydasınca gedirdi. Qəzetin tirajı getdikcə artırdı, çünki müştərisi çoxalırdı. Deməli, onu başa düşənlər, anlayanlar artır, oxuyanların dairəsi günbəgün genişlənirdi. Bu isə balaca məsələ deyildi. Təkcə Rəhgüzər yox, Bəbir də, Elməddin də, başqa mübarizə yoldaşları da buna sevinməyə bilməzdi,

Keçən nömrədə Rəhgüzər Elməddinin «Təqvim» hekayəsini oxucularına təqdim etmişdi. Hər yazısı dərc ediləndə olduğu kimi, bu dəfə də Elməddin uşaq kimi sevinmiş; yerə-göyə sığmamışdı. Rəhgüzər fikirləşmişdi ki, əsərin çap olunması yaradıcı adam üçün həmişə toy-bayramdı, bu sevinc müəyyən dərəcədə övladı dünyaya gəlmiş ata-ana sevincinə, fərəhinə oxşayır. Neçənci uşaq olur olsun, sevinc eyni sevincdi. Neçənci əsər olur olsun, fərəh həmin fərəhdi. Rəhgüzərə bu hisslər tanışdı, Elməddini yaxşı başa düşürdü. O özü də otuz ildən çoxdu ki, həmin duyğuların oduna isinə-isinə yaşamışdı, yazıb-yaratmışdı. Və hər dəfə hiss eləmişdi ki, dünyada bundan müqəddəs, şirin sevinc yoxdur və ola da bilməz.

Bu gün səhərdən Bəbirin yazdığı və poçtla redaksiyaya göndərdiyi «Nə etmək lazımdır?» məqaləsini oxuyub onun siyasi zonasına, hazırlığına və məntiqinə heyran qalmışdı. Bəbir məmləkətin mövcud iqtisadi-ictimai vəziyyətini elə təhlil etmişdi ki, çap olunarsa, əhalinin böyük əksəriyyətinin ürəyindən tikan çıxaracaqdı, camaatın gözünü açacaq və ruhlandıracaqdı. Buna Rəhgüzərin böyük ümidi vardı. Buna da şübhəsi yox idi ki, Bəbir bu məqaləsi ilə hökuməti möhkəm silkələyəcəkdi, saraya, lap əlahəzrətin canına üşütmə salacaqdı. Və onlar, şəksiz, quduzlaşacaqdı, axtarışlar, həbslər, təqiblər başlanacaqdı. Qoy olsun. O heç nədən qorxmurdu.

«Demək, bu nömrə heç... Gələn nömrədə «Nə etmək lazımdır?» kedəcək. Üç səhifəni bütöv tutacaq. İki nömrədə də vermək olardı, ancaq bu təhlükəlidir, ruznaməni bağlaya bilərlər, onda sözümüzü axıra qədər deməmiş olarıq. Yox, bir nömrədə. Vəssalam. Lap lazım gəlsə, başqa heç bir material verməyəcəyəm, təkcə Bəbiri verəcəyəm»,— deyə Rəhgüzər məmnum halda durub gəzindi.

Bu zaman qapı döyüldü. Rəhgüzər çevrilib:

— Buyurun! — dedi.

İçəri ruhani paltarı — əba və əmmamə geymiş, qara-saqqallı, ortayaşlı bir kişi girib kimdənsə qorxurmuş kimi əvvəlcə otağa göz gəzdirdi, sonra dönüb arxasınca qapıya baxdı, arxayın olub:

—Salaməleyküm, ağayi Rəhgüzər! — dedi.

— Əleykəssəlam! —dedi Məhəmməd Şəfi və gələni tanıyıb, təşvişə düşdü. O bura gəlməməli idi; demək nə isə fövqəladə bir hadisə üz verib!—Xoş gəlibsən, molla Səxi! Səndən nə əcəb?

Molla Səxi, görünür, tələsik gəlmişdi, nəfəsini çiyinlərindən alırdı. Azca toxtayıb:

— Ağayi Rəhgüzər, şeyx Əhmədi apardılar! —dedi. Rəhküzərin rəngi ağardı, gözləri böyüdü:

— Nə danışırsan? Kim apardı? Haçan?

— Bəli, ağa. Bir saat bundan qabaq, «Sazmane-əmniyyə»[1] işçiləri idi deyəsən...

Rəhgüzər keçib yerində əyləşdi. Başını əlləri arasına alıb gözlərini yumdu. Elə o vəziyyətdə:

— Otur görüm! — dedi. — Ətraflı danış!

Molla Səxi nəfəsini dərə-dərə divarın dibindəkn stulda rahatlandı. Araya ani sükut çökdü, Rəhgüzər dikəlib siqaret yandırdı, tüstünü ciyərlərinə sümürüb:

— Necə oldu axı?! —deyə xəbər aldı və ondan cavab gəlməmiş öz qənaətini bildirdi:—Demək aramızda satqın var!

— Bəli, mənə də elə gəlir ki, satqın var aramızda! İşlərimiz yaxşı gedirdi. Şeyx Əhməd özünəməxsus bəlağət və fəsihətlə «dərsini» deyirdi. Şəriətdən başlayırdı, tam əmin-amanlığa inanandan sonra, lazımi siyasi mətləblər şərh edir, insanlar, sübutlar gətirə-gətirə əziz vətənimizin düşdüyü ağır vəziyyəti, camaatın ağır güzəranını izah edir, bu işdə günahkar olanları ittihamlandırdı, sonra yenə Allahtaalanın kəramətindən, qüdrətindən söhbət açıb sözünə xitam verirdi. Düz üç aydı bu qaydada dərsimizi alırdıq Şeyx Əhməddən.

— Dəstənizdə neçə nəfər var, molla Səxi?..

— Əvvəl iyirmi doqquz nəfər idik. Sonra bir nəfər də gəldi — Heratdan gəlmişəm!—deyirdi. — Yazıq və məzlum bir molladı. Yatmağa da yeri yox idi. Mən öz hücrəmdə yer verdim ona.

— Adı nədir onun?

— Adı Molla Qasımdı, ağa.

— Ondan şübhələnmirsən ki?

[1] Sazmane-əmniyyə — Təhlükəsizlik idarəsi.

— Yox, ağa, nə danışırsınız? O, gəlmə, qərib bir adamdı, şəhəri tanımır, hara gedir mənimlə gedir... Şeyx Əhmədin fikri bu idi ki, bir azdan sonra onu da vətəninə göndərsin ki, orada iş aparsın...

— Bəs... başqa... şübhəli adam varmı dəstədə?

— Yox... Məncə, yox...

— Bəs onda... Necə ola bilər, molla Səxi? Molla Səxi çiyinlərini çəkdi:

— Özüm də məəttəl qalmışam, ağayi Rəhgüzər!

— Yox, — Rəhgüzər qətiyyətlə fikrini bildirdi — yox, gün kimi aydın həqiqətdi ki, xain var yoldaşlarınızın içində... — Belə!.. Demək Sazmane-əmniyyə... izə düşüb... Biz sizə böyük ümidlər bəsləyirdik, molla Səxi. Çünki, sən bilirsən ki, bizim məmləkət müsəlman məmləkətidir, ruhanilər böyük nüfuza malikdirlər, camaatımız dindar olduğundan sizin sözünüzə daha tez inanar. Amma, şeyx, görünür, haradasa ehtiyatsızlıq eləyib. Yoxsa... belə asanlıqla... — Rəhgüzər birdən-birə qəzəblə əlini stolun üstünə çırpdı. — Satqın tapılmalıdır, nəyin bahasına olur-olsun tapılmalıdır, molla Səxi!

Molla Səxi səksəndisə də, Rəhgüzərin qəzəbqarışıq inamla dediyi sözlərin təsiri altında:

— Baş üstə, ağayi Rəhgüzər!—dedi. — Ancaq necə? Bunu ondan indi soruşsaydın, əlbəttə, heç nə deyə bilməzdi.

— Demək, ipin ucu düşmənin əlinə keçib... Bu iş çözələnə bilər, kələf açıla bilər və onda, hər şey məhv ola bilər. «Aman allah, bunu Bəbir eşitsə, dəli olacaq, ürəyi partlayacaq!»— deyə o, özü haqqında yox, çox sevdiyi, hətta adını ilk övladına verdiyi Bəbir haqqında düşünə-düşünə Molla Səxidən soruşdu:

Şeyx Əhmədi sən necə tanıyırsan, Səxi? Mən onu on beş ildi tanıyıram. Mənim mürşidimdi, ağa, şeyx Əhməd.

— Mərddi, dözümlüdü?

— Məncə, hə, ağayi Rəhgüzər.

— Biz onu sınamışıq, yoxlamışıq, Səxi. Ancaq... insandır da, bir də görürsən ki, sözübütöv, əsl kişi kimi tanıdığın bir adam, su boğazına çıxan kimi, balasını da qoydu ayağının altına!

— Yox, ağa. O, etibarlı, dəyanətli adamdı.

Rəhgüzər yenə qalxıb gəzindi. Xeyli götür-qoy eləyəndən sonra molla Səxiyə yaxınlaşıb əlini onun çiyninə qoyaraq dedi:

— Heç yaxşı hadisə olmadı. Qanqaralığıdı. Ancaq ruhdan düşmək lazım deyil, Səxi. Səs-küy qaldırmayın, özünüzü elə aparın

ki, guya heç nə olmayıb. Oturun, yığışın yenə şəriət dərsinizi aparın. Sən özün hələlik Şeyx Əhmədi əvəz elə.

Onsuz da o xəstə olanda, bir yerə gedəndə vəzifəsini mənə tapşırırdı, ağa.

— Bu, lap yaxşı. Şübhə doğurmaz. İki-üç həftədən sonra mənə dəyərsən, ancaq bura gəlmə, evimizə gələrsən, özü də adi paltar geyərsən, başa düşdün?

— Bəli, ağa!

— Hə! Gələrsən, söhbət eləyərik, görək nə etmək olar, şeyxə necə kömək göstərə bilərik. Ən ümdəsi isə... satqını tapıb ortalığa çıxarmaq bizim başlıca vəzifəmizdi. Bu işdə, bu müqəddəs işdə bizə xəyanət eləyən, əgər ciyərparamız olsa belə, aman yoxdur. Başa düşdün?

— Bəli, ağa, başa düşdüm.

— Özün də adamlarınıza diqqət elə, gör kim necə baxır bu işə, kim nə deyir. Yaxşımı?

— Oldu.

— Hə. İndi gedə bilərsən. Sağ ol ki, vaxtında xəbər verdin. Ehtiyatı əldən vermə, ayıq ol, Səxi.

Molla Səxi baş endirib otaqdan çıxdı; Rəhgüzər pərişan halda içəridə tək qaldı.

ÜÇÜNCÜ FƏSİL

Ağayi Nəcməddinin kefi kök, nəşəsi sazdı. Aynabənddə qoyulmuş yumşaq divanda oturub qıçını-qıçının üstünə aşıraraq təsbeh çevirir, fit çalırdı. Günorta yatıb durmuşdu. Əsəbləri sakit, əhvali-ruhiyyəsi yaxşı idi.

Dünya evləri yığışdırıb, silib-süpürüb çəkələklərini sürüyə-sürüyə Nəcməddinin yanına gəldi, onun böyründə əyləşib başını divanın söykənəcəyinə dayayaraq:

— Vay! - dedi,— lap əldən düşdüm.

— Özünü çox yorursan, mənim əzizim! — deyə Nəcməddin çevrilib Dünyanın qəşəng üzünə, yumulu gözlərinə, yanaqlarını döyən kirpiklərinə tamaşa elədi, onun gözəlliyindən ürəyində incə, güclə sezilə biləcək bir titrəyiş duyub öz-özünə gülümsündü və düşündü: «Zalımın balasında elə bil əfsun var, sehr var. Hər görəndə uçunuram, qəlbim əsir, müti, zəif bir uşağa dönürəm qabağında. Bütün dünyanın sevinci axıb sinəmə dolur. Bu qız, bu mələk donu geymiş

varlıq ya mənim ən böyük, bir də heç vaxt görə bilməyəcəyim səadətdi, xoşbəxtlikdi, tanrı mənim üçün ömrün qürub çağı göndərib. Ya da ən böyük bədbəxtlikdi, rüsvayçılıqdı, hər nə isə, Allah axırını xeyir eləsin».

—Neynim,- Dünya gözlərini açıb nazlandı,—iş çoxdu, Zərrintaca özüm qıymıram. Cavandı, qoy gəzsin, kefini çəksin. Sonra dikəlib açıq pəncərələrdən həyətə göz gəzdirdi: — Bu Əbdül ciyəri yanmış hardadı, bir çaynik çay gətirərdi, ciyərim yanır!

— Susamısan? Hə, elə mən də çay içmək istəyirəm. O beçə, ay Əbdül! —deyə Nəcməddin durub aynabənddən aşağı boylandı: — o beçə!..

Əbdül əlində bıçaq qaça-qaça gəldi:

— Bəli, ağa.

— Bura çay gətir!

— Baş üstə, ağa.

Nəcməddin qayıdıb yenə yerində oturdu;

— Hə, deyirsən Zərrintacı qoymursan işləsin, hə?

— Bəli, ürəyim gəlmir, elə zərif qızdı ki, Allah saxlamış! Mən qadınlığımla ona az qala vurulmuşam.

— Yox a?

— Vallah!

— Düz deyirsən, Dünya. Mənim ciyərparam qəşəngdi. Ancaq mənim üçün sən hamıdan qəşəngsən, əzizim. Dünya xanım qəmzə ilə güldu:

— Sənin gözünə elə görünür, Nəcmi. Sevirsən məni, ona görə gözündə gözələm... Sevməsən, elə-belə, adi bir qadınam... Məhəbbət sevənin gözündə çirkini də gözəlləşdirir, ilahiləşdirir,— deyirlər. Məsələn, indi Zərrintac xanımın nəzərində —deyə o ustalıqla sözü hərləyib-fırlayıb mətləb üstünə gətirdi — Elməddindən qəşəng oğlan yoxdu.

Nəcməddin yerində qurcalandı:

— Hə? Nədən bilirsən, Dünya?

— Bilirəm də... Qız Elməddini sevir, Nəcmi. Sən bir ata kimi bunu görmürsəi?

Nəcməddin çətin sual qarşısında qalmış şagird təki əvvəlcə nə deyəcəyini bilmədi, sonra kəkələyə-kəkələyə:

— Nə isə... hiss eləyirəm... Görürəm qız onu görəndə sevinir, gül təki açılır...— dedi. — Ancaq fikirləşirəm ki, o yaşda hər kəsdə belə hallar ola bilər... Bəlkə keçib-gedər...

Yox, qibləgahım, səhv eləyirsən. Daha doğrusu özünü aldadırsan. Onlar artıq danışıblar, necə deyərlər, bir-birinin ağzını arayıblar...

— Belə de!

— Hə, qibləgahım!

Nəcməddin təsbehi divanın qabağındakı stolun üstünə tulladı, zərli amerikan siqaretindən birini yandırıb damağına qoydu, tüstünü havaya buraxıb:

— Bu da işdi, sən allah, su sonası kimi qız böyüt, tərbiyə elə, gecə-gündüz üstündə əs, günlərin birində öz əlinlə ver gədanın birinə, aparsın qoysun başının altına.

— Həyatın qanunu belədi, Nəcmi. Bəs özün belə eləməmisən? Nə yoğurub, nə yapıb, hazırca kökə tapmayıbsan? Məni gətirib qoymamısan balışın altına? Yazıq atam-anam mənim bu xoş günümü körməmiş köçüb getdilər. Anam elə hey deyirdi, səni doğunca qara bir daş doğaydım, bala. Bu zamanada qız doğulmaq bədbəxtlikdi, quzum — deyərdi rəhmətlik. — O, köks ötürdü, — kaş bir möcüzə olaydı, anam-atam bircə günlüyə diriləydi, gəlib mənim bu günümü görəydi, rahat olaydı.

Nəcməddin razılaşdı:

— Düz deyirsən. Atalar demişkən, əkiblər yemişik, əkirik yesinlər. Amma hər necə olsa, adam qısqanır! Bu Elməddin də ki elə bil göydan zənbilnən gəlib düşdü ocağımızın başına. Pis oğlan deyil, insafən. İşbacarandı, zirəkdi, yaxşı qələmi var. Di gəl ki, mənim tayım deyil, əsli-nəcabəti bəlli deyil. Deyirsən, alışıb-verişiblər artıq?

— Hə, ağam. Toylarını eləyək, əl-ayaqlarını yığaq bir yerə, - deyə Dünya evin xanımı kimi məsləhət elədi.— Cavandılar, qoy yaşasınlar! — Dünya Zərrintacın Elməddinlə gəzməyə çıxdığını, söhbətlərini təfərrüatı ilə Nəcməddinə söylədi.

Nəcməddin qaşlarını alnının ortasına qaldırıb ovurdlarını köpürdərək «pıff» elədi və çarəsiz adamsayağı:

— Nə deyirəm ki, Dünya?—dedi.— Atalıq borcumuzu yerinə yetirməliyik, yetirək!

Nəcməddin Dünyanı evinə gətirəndən sonra, Elməddinin buraya gəlib-getməsindən yana gizlində, ürəyinin dərinliklərində xeyli narahatçılıq hiss eləməyə başlamışdı. Ona görə yox ki, Elməddinə etibar eləmirdi. Yox, Elməddin çox başıaşağı, əxlaqlı, çörək kəsdiyi evin qeyrətini çəkməyi bacaran bir oğlan təsiri bağışlamışdı ona. Kişi ilk dəfə Dünya ilə onun bir məclisdə iştirak elədiyi gün də, sonralar da gözaltı baxıb fikir vermişdi və əmin olmuşdu ki, Elməddin

Dünyaya — Nəcməddinin sevdiyi adama başqa nəzərlə baxmamışdı, başıaşağı gəlib, başıaşağı da getmişdi. Qardaşı arvadını almaması bu inamı bir az da artırırdı. Onun qızı ilə mehriban danışdığına, baxışlarına qısqanmışdı. Qəribə idi, hardasa, ürəyinin dərinliklərində bundan ağrılı-əzablı bir sevinc də duymuşdu deyəsən. Ancaq özünü bunda tutmuşdu ki, Elməddin cavandı, qəşəngdi, üstəlik şer də yazır — Dünya, bu gözəl mələk ona vurula bilər, rəğbət bəsləyə bilər — onda qəlbini elə bil sıxıb əzmişdilər. Dünyanın incə zövq sahibi olması, musiqinin, şerin pərəstişkarı olması Nəcməddinin ürəyinə gözəgörünməz bir xal, gizli bir qorxu salmışdı. Keçən dəfə Elməddinin həyətə gəlməsi, qapıdan qayıtması... «Mən heç kəsə, hətta özümə də inanmıram!» — fəlsəfəsi ilə yaşayan Nəcməddin qadına, xüsusən Dünya kimi gözəl qadına inanmaq fikrindən uzaq idi. «Qadın incə, zərif məxluqdur, onlarda hiss, ürək, ağıldan üstün olur çox vaxt! Şirin sözə, yağlı vədə tez aldanır qadın. Küclü məhəbbət qarşısında isə, bütün varlığı dəmirdən yoğrulmuş, sərt, ürəyidaş qadın belə gün altına qoyulmuş buz kimi əriyib suya dönə bilər! Odur ki, kişi olan kəs gərək qadın məsələsində işini bəri başdan ehtiyatlı tutsun, inansa da qorusun, hər addımına fikir versin, başlı-başına buraxmasın. Yoxsa bir də görərsən ki, axmağın, alçağın biri sənin başına elə papaq qoydu ki, heç ömrün boyu çıxarda bilməzsən, bədnam olarsan, gözükölgəli olarsan...» Bütün həyatını tədbirlə, yüz ölçüb, bir biçə-biçə yaşamış Nəcməddin bu mülahizələri nəzərə alaraq, işini ehtiyatlı tutub, Elməddinlə Zərrintacın münasibətini görəndən sonra şəhərin axar-baxarlı yerində, bağ-bağatlı, ayrıca bir həyət, altıçeşməli bir mənzil almış, mebelini, xalı-xalçasını gətizdirmiş, bəzətdirmişdi, qapısını da bağlayıb açarını cibinə qoymuşdu. Bu barədə nə qızına, nə Dünya xanıma heç nə deməmiş, açarları toy günü qızına, kürəkəninə verəcəyini qərara almışdı. Gələcək kürəkəni üçün hələ qara rəngli «Mersedes» sifariş verdiyini də gizli saxlamışdı.

— Nə olar? — deyə Nəcməddin düşüncələrindən ayrılıb dillənndi, — əvvəl-axır bir qız bir oğlanındır. Evləri hazır, eşikləri hazır...

Dünya bayaqdan ürəyində dolandırdığı sözü Nəcməddindən eşidəndə, yaxşı məqam düşdüyünü görüb xəbər aldı:

— Bu üç otaq bəsləridi, elə deyil?

— Hansı üç otaq?

— Bunlar da, — deyə Dünya əlilə Zərrintacın yataq otağına, onun böyründəki iki geniş zala işarə elədi. — Məncə, hələlik bəsləridir.

Nəcməddin güldü:

— Yox, Dünya. Atalar sözüdü, deyir: el elə sığar, ancaq ev evə sığmaz. Qorxuram bir yerdə yaşasaq, araya inciklik düşə bilər, narazılıq olar. Ona görə... — kişi Dünyaya sirr verirmiş kimi səsini alçaltdı, — qızıma təzə mülk almışam, Dünya. Gözəl bir mülkdü, cənnət kimidi lap. Toy hədiyyəsi eləyərik onlara...

Dünya Nəcməddinin mülk alması söhbətini eşidəndə nə qədər sevindisə, «eləyərik» sözünə ondan da çox sevindi. Demək Nəcməddin onu özündən ayırmır, demək, Zərrintac toy olan günü həyətdən gedəcək və bu cah-calallı ev-eşik yalnız onun ixtiyarında qalacaq!.. Bu, Dünya xanımın indiyəcən dilinə gətirmədiyi, ancaq fikrində gizlicə elə hey dolandırdığı arzularından biri idi. İndi o arzusu yerinə yetirdi.

— Ağıllı iş görmüsən, Nəcmi! Ancaq onsuz darıxacağıq, öyrəşmişik. O da darıxacaq, biz də, — deyə Dünya özünü tox tutub canıyananlıqla söyləyəndə Nəcməddin:

— Darıxar, gələr bura, yeyərik-içərik, yatmağa gedərlər öz evlərinə. Yaxud biz darıxarıq, gedərik dəyərik. Bu elə çətin məsələ deyil, Dünya. Təki qızım xoşbəxt olsun.

Dünya bir ana qayğıkeşliyi ilə:

— Amin! — dedi. — Amin!..

Pilləkənlərdə tappıltı eşidildi. Hər ikisi dönüb baxdı. Əbdül əlində güllü sini, içində iki çaynik və iki piyalə gəldi; günahkar kimi yalvarıcı tərzdə:

— Ağa, bağışlayın məni, sən allah, çayı kec gətirdim, əlim ilişdi, çaydan dağıldı. Təzədən qaynadınca... — dedi.

—Eybi yoxdur, olur!—deyə Nəcməddin kefi kök halda cavab verdi. Dünya isə, — əgər Nəcməddin baxsaydı, görərdi, — qıpqırmızı qızarmışdı, Əbdülün ancaq ayaqlarına baxırdı, üzünə baxmağa ehtiyat eləyirdi sanki. Nəzərləri taxta çəkələkli ayaqlarında ilişib qalmışdı, Amma fikrinin, ürəyinin gözləri onu təpədən dırnağacan görürdü; indi o, Dünyanın nəzərində paltarsız idi, başından axıb ayağında bənd olan suyun şırıltısını eşidirdi, bədəninin tüklərini görürdü. Qəribə idi, baxmırdı, ancaq görürdü. Əbdül gedəndən sonra Dünya piyalələrə çay süzdü. Hiss etdi ki, əlləri əsir... Vücudunu gəzib-dolaşan gizilti keçib getməmişdi hələ, canına axıb dolmuş hərarət azalmamışdı hələ. Kirpiklərini üç-dörd dəfə qırpdısa da, Əbdülün çılpaq heykəli yerindən tərpənmədi ki, tərpənmədi. Və bu hal, tək indi baş vermirdi. Dünyanın öz qəribə hisslərinin əlində əsir olduğu

gündən bəri neçə dəfə belə olmuşdu. Həyət-bacada hər dəfə onu görəndə Dünya utancaqlıq qarışıq əsrarəngiz bir istəyin əsiri olur, tilsimə düşür, qopub uzaqlaşmaq üçün əl-qol atıb çapalayırdı.

Dünya bir şeyi dərk eləməmişdi ki, o gündən, bəlkə də elə o andan sonra Nəcməddin — dağcüssəli, hökmlü-zəhmli Nəcməddin gözündə balacalaşıb kiçilmiş, gücsüzləşmiş, yazıqlaşmışdı. Doğrudur, Dünya bu hissi var qüvvəsi ilə qəlbindən çıxarmağa çalışırdı və çox vaxt da buna müvəffəq olurdu. Fikrində, təsəvvüründə getdikcə əriyib cılızlaşan Nəcməddinin əlindən-qolundan bərk-bərk yapışır, əvvəlki yerinə-mövqeyinə, ucalığına qaldırırdı, lakin az sonra, Əbdül gözə görünən və xəyalının bağlı qapılarını açıb içəri girən təki, Nəcməddin yaş balıq sayağı Dünyanın ovcundan sürüşüb yerə — aşağı, ayaq altına, gücsüzluk, kiçiklik məqamına düşürdü. Dünya qaldırırdı, Nəcməddin isə düşürdü. Bu qəribə mübarizədən, gözəgörünməz vuruşdan nə Nəcməddinin, nə də Əbdülün xəbəri vardı. Bunu təkcə Dünya bilirdi və heç kəsə də deyə bilməzdi. Bu, ürək sirri idi, ancaq özünəməxsus bir sirr idi.

— Əcəb ləzzət elədi çay mənə! — dedi Nəcməddin.

— Hə, ciyərim yanırdı!—deyə Dünya onun sözünə qüvvət verdi, Əbdülün çayını, xörəyini tərifləmək istədi, ancaq nə düşündüsə, fikrindən daşındı, söhbəti, özündən asılı olmayaraq yenə onun üstünə gətirdi:

— O kişiyə yaxşı baxmırsan ha, Nəcmi?—dedi. Nəcməddin piyaləni yerə qoyub təəccüblə:

— Hansı kişiyə, qadası? — dedi.

— Əbdülə də. Nəcməddin gülümsündü:

— Əbdül nə vaxtdan kişi olub? O, nökərdi, Dünya.

— Mən də elə nökər demək istəyirdim, — deyə Dünya səhvə yol verdiyini anlayıb sözünü düzəltdi. — Bizim nökərə...

— Nə cür yəni yaxşı baxmırsan, başa düşmədim...

— Yəni paltarları-zadı lap tökülür yazığın deyirəm. Dəyişəyi-filanı yoxdu. Hayana dönsə adı sənindi, Nəcmi. Bazara-dükana gedir, yəni çoxu bilir ki, o sənin nökərindir. Sənin adına görə deyirəm, Nəcmi. Mən istəmirəm ki, sənin haqqında hər yetən ağzıgöyçək bir söz desin...

Nəcməddin siqaret yandırdı və Dünyanın sözlzrini saf-çürük eləyib sevindi:

— Hə, düz deyirsən, Dünya. Ağıllım mənim. İndiyəcən heç bu barədə fikirləşməmişəm, doğrusu. Mənim adımdı. Tamamilə düz ərz eləyirsən. Pul verrəm, köhnəfüruşdan bəzi şeylər alar, geyər.

Tüstünü havaya üfürən Nəcməddin Dünyanın təkcə evdə yox, hətta bütün şəhərdə yerə-göyə sığmayan adı, şöhrəti, üstündə necə əsdiyini zənn edib xoşbəxtcəsinə gərnəşdi və əlini Dünyanın çənəsinə atıb:

— Ay mənim ağıllı mələyim!—deyərək saçlarından öpdü.

DÖRDÜNCÜ FƏSİL

Günortaya az qalırdı. Səhərdən idarədə kabinetinə qapılıb işləyən, Nəcməddinə məxsus müxtəlif şirkətlərin, kombinatların göndərdiyi pul-maliyyə sənədlərini nəzərdən keçirən, yazıb-pozmaqdan biləyi ağrıyan Elməddin qələmi cibinə qoyub kağız-kuğuzu kənara itələdi, bayaq sürücü Əhədullanın gətirdiyi qəzetləri qabağına çəkib mütaliə eləməyə başladı. Əlinə birinci keçən «Sülh» qəzeti oldu.

— Hə, Əli Tüğyan möhkəm yazır!—deyə yanında kimsə varmış kimi ucadan söylədi. — Gör nə yaxşı kağız tapıb? Deyəsən, yapon kağızıdı. Bizim ruznamənin kağızından yaxşıdı. Amma heyf ki, belə kağızda çərən-pərən çap eləyir. Özü də az qala hər nömrəsində ən çox öz yazılarını verir. Yəqin yazanı, müəllifi azdı. Neyləsin yazıq?

Baxışları ilə oxuyurdu. «Əli Tüğyan». «Biz qardaşıq» şeri. Yenə öz şerini verib — deyə Elməddin az qala bir sütunu tutmuş şeri nəzərdən keçirdi. Əsər barədə heç nə düşünmədi (çünki duşünüləsi şey yox idi). O biri materiallara diqqət yetirəndə ürəyi şiddətlə döyünməyə başladı. Çünki iri, qara hərflərlə yazılmış «Yalançı sənətkar» sərlövhəsinin altında «Ağayi Elməddinin yazıları...» sözlərini oxuyub məqalənin onun haqqında yazıldığını yəqin etdi. Bəli, hissi Elməddini aldatmamışdı. Uzun məqalənin axırında Əli Tüğyan öz imzasını qoymuşdu. Məqalədə Əli Tüğyan Elməddinin son zamanlar «Pərçəm»də dərc edilmiş lirik şerlərini, «Təqvim» hekayəsini ciddi tənqid atəşinə tutmuş, hətta, deyəsən Rəhgüzərin də, ümumən qəzetin də acığını ondan çıxmaq istəmişdi. Məqaləni oxuduqca Əli Tüğyanın qıpqırmızı sifəti gözlərinin qabağında canlanır, həyəcanlandığından sözləri yaxşı dərk eləyə bilmirdi. Tənqid eşitmək sahəsində təcrübəsi yox idi deyə çox əsəbiləşdi, özündən çıxmışdı. Ancaq dəqiqələr keçəndən sonra təbii halına qayıtdı, sakitləşdi. Və təzədən

əvvəlcə ordan-burdan baxdıqca, çoxunu anlamadığı sətirləri təzədən, soyuqqanlıqla gözdən keçirdi.

«Axır vaxtlar sağlam ədəbi mühitimizə dostbazlıqla yol açmış ağayi Elməddin özünün zəif, ürəkdən gəlməyən, quru söz yığınından ibarət olan, ancaq şəxsi (!) intim hissləri təbliğ edən «şerləri» ilə bizim gözəl klassik ənənələr ruhunda tərbiyə almış yüksəkzövqlü oxucularımızda dərin bir təəssüf hissi doğurmuşdur. Bu cızma-qaraların əsl şerlə heç bir əlaqəsi yoxdur və ola da bilməz. Həmin «əsərləri» çap etməklə ağayi Elməddin də, ağayi Rəhgüzər də bizim möhtərəm oxucularımıza ancaq və ancaq hörmətsizlik edirlər ki, bu da bağışlanmaz ədəbi cinayətdir. Biz ağayi Elməddinin «Təqvim» hekayəsini mütaliə eləyəndə heyrətimizdən donub qaldıq. Səbəbi bu idi ki, hekayə adlandırılan bu cızma-qarada bir dənə də olsun həyat həqiqəti yoxdur, hekayə başdan-ayağa yalanlar, özü də, etiraf edək ki, ustalıqla düzəldilmiş yalanlar üzərində qurulmuşdur. Adını sənətkar qoymaq istəyən adam, xalqına, oxucularına necə yalan danışa bilər? Sən demə, bilərmiş. İnanmaq istəməyən, lütfən zəhmət çəkib ağayi Elməddinin «Təqvim» hekayəsini bir də oxusun; onda görərsiniz ki, anlar necə yalançı oğullar doğublar. Bizim əməkdaşımız bu münasibətlə vəzarəte-ittilaat və kulturda[1] ağayi vəzirlə müsahibə aparmışdır. Aydınlaşmışdır ki, əvvələn ağayi vəzirin (o, hələ başqa bir qəbahət də edərək ağayi vəzirin adını dəyişmişdir) Dostməmməd adında heç bir dostu və ya tanışı yoxdur. İkincisi, bizim məmləkətdə balaca, cəmi iki-üç səhifədən ibarət cib təqvimindən başqa heç bir bəzəkli şəkilli təqvim buraxılmamışdır. Üçüncüsü... Məncə, elə bunlar da ağayi Elməddinin yalan yazdığını, həyatımıza böhtan atdığını sübut etmək üçün kifayət edəcək dəlillərdir. Beləliklə, ağayi Elməddinin necə bir yalançı pəhləvan olduğu sizə aydın olur»...

Elməddin ilk zərbənin dadını bildi. Ancaq bir şeyə sevindi ki, Əli Tüğyan hekayənin əsl mətləbini anlamamışdı. Ağıllı oxucu üçün bu sözlər, Əli Tüğyanın özünün əleyhinə çevrilmiş olacaqdı. Hər halda Elməddinin həyatında birinci dəfə idi ki, tənqidin xoşagəlməz «ləzzətini» görürdü. Təkcə dostlarının yanında utanacağı Elməddini sıxırdı... Görəsən onlar bu «tənqidi» necə qarşılayacaqdı?

[1] Vəzarəte-ittilaat və kultur — İnformasiya və mədəniyyət nazirliyi.

..Telefon səsləndi. Elməddin fikri dağınıq olduğundan aparata donuq nəzərlərlə baxdı, sanki telefonun «qışqırığını» eşitmirdi. Lakin uzun-uzadı zəng səsi əsəblərinə işlədiyindən dəstəyi götürdü:

— Bəli, eşidirəm.

— Elməddin, sənsən?

Elməddin Rəhgüzərin səsini eşidib ürəkləndi:

— Hə, mənəm, salam, ustad!

— Necəsən, pəhləvan?

Ustad heç vaxt Elməddinə belə müraciət eləməmişdi... «Oxu-yub»... deyə təəssüf hissilə düşündü. «Məni biabır elədi bu müzür oğlu müzür!» Və süni surətdə güldü.

— Yaxşıyam, ustad. Oxumusan məqaləni?

— Hə, oxumuşam. Ancaq boş şeydi, ürəyini sıxma. O, səndən çox özünü biabır eləyib, Elməddin. Mətbuatdan, sənətdən az-çox başı çıxan adam Əli Tüğyanın savadsızlığına, nadanlığına gülür indi. Sən sözünü demisən, ariflər də başa düşüblər ki, sən nə deyirsən, niyə deyirsən...

— Çox sağ ol, ustad. Yaman pərt olmuşdum, düzü. Belə şey görməmişəm axı.

— Hə, onda gör mən nələr çəkmişəm. O qədər elə haqsız hücümlar olub mənə ki, sənin başının tükü sanı! Belə şeylər adamı daha da mətinləşdirir, Elməddin! Mübarizəmiz yeni, daha gərgin mərhələyə qədəm qoyur və bu, məni çox sevindirir. Əli Tüğyanların əsl simasının ifşa olunmasına çox qalmayıb, Elməddin.

Elməddin telefonda hiss elədi ki, Rəhgüzər tək deyil, yanında kimsə var, çünki kəsik-kəsik səslər eşidirdi. Ona görə xəbər aldı:

— Deyəsən tək deyilsiniz, ustad, orda?

— Hə. Tək deyiləm. Məleykə bacın bayaqdan böyrümü deşib ki, ver mən də danışım. O da yaman həyəcan keçirir, deyir ciyəri yanmış, uşaqdan nə istəyir? Yaxşı, yaxşı, al danış. Elməddin, bacın sənlə danışmaq istəyir.

— Ver.

— Alo, Elməddin qardaş, qətiyyən darıxma ha, it hürər, karvan keçər. Eşitdin?

— Hə, sağ ol, bacı.

Sonra yenə dəstəyi Məhəmməd Şəfi aldı:

— Elməddin..

— Bəli, ustad...

— Böyüyümüz də oxuyub o məqaləni... Mənə zəng eləyib dedi sizə çatdırım ki, möhkəm olsun, ruhdan düşməsin, hekayə bizim cəmiyyətin yaralı yerinə toxunur, biz, deyir, gələcəkdə o yaraları da müalicə etməli olacağıq...

— Hamınıza təşəkkür eləyirəm, Ustad.

...Ağayi Nəcməddin qəzet oxuyan deyildi. Onunku qədim şairlərin nəfis şəkildə çap edilmiş divanlarını mütaliə edib ləzzət almaqdı; bir də tanış şairlərin təşkil etdiyi şer məclislərinə getməyi xoşlardı. Qəzeti isə...

Bu gün «Pole-Mahmud xanın»[1] yanından keçərkən, küçələrdə maşın çox olduğundan, azca ləngiməli olmuşdu. Qəzetsatan uşaqların qışqırığını eşitmişdi:

— «Sülh»ün təzə nömrəsi var ha... Şair Elməddinin atasını yandırıblar. Alın, oxuyun, peşman olmazsınız, ağalar, xanımlar!..

«Şair Elməddin» adını eşidən kimi Nəcməddinin dalağı sancdı, maraqlandı. Maşını yolun azca sağına verib saxladı və qəzetsatan ayaqyalın uşağı çağırdı:

— Beçə, o beçə, mənə bir ruznamə gətir! Başıaçıq, ayaqyalın, sol qolunun üstünə bir dəstə qəzet atmış oğlan asta-asta keçib-gedən maşınların qabağından şütüyüb Nəcməddinin yanına qaçdı:

— Buyur, ağa, şair Elməddinin...

— Yaxşı, yaxşı... — deyə Nəcməddin əsəbiliklə oğlanın ovcuna bir metal beşlik basıb qəzeti aldı. Və açıb baxmamış böyrünə atıb düz evə sürdü.

Zərrintacla Dünya divanda oturub söhbət eləyirdi. Nəcməddinin qanıqara olduğu sifətindən bilinirdi. Salamsız-kəlamsız gəlməsi də buna dəlalət eləyirdi. Dünya o saat dikəldi:

— Nə olub, ağam?

— Elə bir şey deyil. Daha doğrusu hələ bilmirəm nə olub. Onu bilirəm ki, Elməddini ruznaməyə vurublar.

— Ruznaməyə vurublar? — deyə Dünya təəccüblə soruşduqda ağası donub qalmış Zərrintaca ötəri nəzər salıb qəzeti stolun üstünə atdı. Qızların ikisinin də əli birdən irəli uzandı, ancaq Zərrintac qabağa düşdü.

— Bərkdən oxu, biz də qulaq asaq, qız! — deyə Nəcməddin qarşıdakı kresloya yayxandı. Zərrintac qəzeti xışıldada-xışıldada açıb məqaləni tapdı və ucadan oxumağa başladı. Heç kəs dinib-danışma-

[1] Mahmudxan körpüsü.

dan qulaq asdı. Zərrintac qurtarandan sonra sükut çökdü. Üçü də dəhşətli bir şeyə baxırmış kimi stolun üstünə atılmış qəzetə gözlərini zilləmişdi. Nəhayət, Nəcməddin ağır-ağır dilləndi:

— Əli Tüğyanın işidi. Yanıqlıdı o, Elməddindən, Rəhgüzərdən. Ona görə, ağzına gələni yazıb... Ruznaməfüruş uşaq elə haray-həşir qoparırdı ki, gəl görəsən... «Şair Elməddinin atasını yandırıblar!» — deyə bağırırdı.

Zərrintac əsəbiliklə yerində qurcalandı:

— Vay, daha denən bütün şəhərdə rüsvay olduq da! — dedi. — Axı deyən gərək sənin Əli Tüğyandı, nə zibildi, onunla nə işin var ki, o da səni belə rüsvay eləsin?

Dünya xanım sözə qarışdı:

— Hekayəsindən başım çıxmadı, ancaq şerləri barədə o Əli Tüğyan gözünün içinəcən yalan deyir. O şerlər bizim mahnılarımız kimi gözəldi, ürəkoxşayandı.

— Eh, — deyə Nəcməddin son sözünü dedi: — Bineyi-qədimdən bu qələm əhli həmişə bir-birilə vuruşub, indi də vuruşur, gələcəkdə də vuruşacaq. — Zərrintacın pərt olduğunu görüb üzünü ona tutdu: — Darıxma, qızım.

— Eh, mən niyə darıxıram, qibləgahım? Mənə nə dəxli var? Qoy nə qədər vuruşur-vuruşsun. Özünə eləyəcək axırda.

BEŞİNCİ FƏSİL

Əziz xan «mənim təbibim də sənsən, dərmanım da sənsən, oğul!» — deyərkən haqlı imiş. Nazilib üzülmüş, yönü o yana olan kişi, Bəbirlə barışandan, oğlu yanında qalandan bəri dirçəlmişdi, artıq durub gəzir, yeyib-içirdi; daha oğlunun xatirinə dəymirdi, çünki başı, necə deyərlər, daşdan-daşa dəymişdi. Bəbir bura gələnə qədər yaşadığı otağı da əlində saxlamışdı — işləmək üçün, yoldaşlarla görüşüb məsləhətləşmək, dərdləşmək üçün. Yeməyi, içməyi, yatmağı atasının evində idi. Ancaq bura da gəlirdi, yazıb-pozur, düşünürdü.

Əziz xan daha onun heç bir işinə qarışmır: «Yekə kişidi, maşallah, nə etdiyini özü məndən yaxşı bilir!» — deyirdi.

Bəbir son aylar həm atası ilə barışdığına, həm də hələ işıq üzü görməmiş «Nə etmək lazımdır?»ı yazdığına görə çox xürrəm idi. Həvəslənib daha başqa bir əsər üzərində şövqlə işləyirdi.

Ancaq... Məhəmməd Şəfinin şeyx Əhmədin həbs olunması barədə verdiyi xəbər, sonra Elməddinin «Sülh» qəzeti tərəfindən «vu-

rulması» Bəbirin kefinə soğan doğramışdı, pərt eləmişdi onu. Hər ikisi xeyli oturub, yaranmış yeni vəziyyəti müzakirə etmiş, ölçübbiçmiş, xətti-hərəkəti müəyyənləşdirmişdilər. Belə qərara alınmışdı ki, əvvələn hələlik «Nə etmək lazımdır?» bir neçə nömrə təxirə salınsın; çünki şeyx Əhmədin İstexbarat həbsxanasında özünü necə apardığı barədə əldə heç bir məlumat yox idi, ola bilərdi ki, şeyx cəzalara, işgəncələrə dözməyib ad çəksin, onları izə salmış olsun: məhz buna görə ehtiyatlı olmaq gərəkdi. İkincisi, şeyx Əhmədin dəstəsində olan satqın nəyin bahasına olursa-olsun tapılıb aradan götürülməli idi. Şəfinin əhvalatı eşidən kimi qərara aldığı bu fikri, Bəbir də bəyənmiş, hətta o xaini necə kəşf eləməyin yolunu da müəyyən eləmişdi. O tapılmalı idi, nə kimi məlumatlar verdiyi və bunların öz adamlarına hansı yollarla çatdırıldığı öyrənilməli, sonra isə... aradan götürülməli idi. Qərar belə olmuşdu.

Əməliyyat bu günə təyin edilmişdi. Molla Səxiyə Məhəmməd Şəfi lazımi tapşırıqları şəxsən özü vermişdi, Ziyaülhəqqi də, üç gün əvvəl molla libasında şeyx Əhmədin dəstəsinə qoşmuşdular. Demək bu gün...

...Molla Səxi, camaat məsciddə axşam namazını qılıb qurtarandan sonra, minbərin sağ tərəfindəki hücrəsinə çəkilmişdi. Divardan Məhəmməd peyğəmbərin çərçivəyə salınmış şəkli asılmış, yerə xalça-palaz döşənmişdi.

Molla Səxi hündür döşəkçənin üstündə dizlərini qatlayaraq əyləşmişdi. Saat doqquz tamamda «şagirdləri» yığışıb gəldilər. Səssküylə, danışa-danışa hücrəyə daxil olub hər kəs öz yerində oturdu. Molla Səxi başını qaldırıb əyləşənlərə göz gəzdirdi. Özü ilə iyirmi doqquz nəfər idi. Elə bu zaman kök, boylu-buxunlu təzə molla da səssiz-səmirsiz içəri daxil oldu, lap axırda bardaş qurub oturdu.

Araya sakitlik çökdü, Molla Səxi dikəldi, boğazını arıtlayıb cingiltili gümrah səslə sözə başladı:

— Bu gün həzrət Məhəmməd səllallahu-əleyhüssəlamın həyatını mütaliə eləyəcəyik, — deyib susdu, nəsə fikirləşib ağzını açmaq istəyirdi ki, orta cərgədən bir əl qalxdı:

— Molla Səxi, sizdən çox təvəqqe edirəm, dərsimizə başlamamış bizim bax bu Molla İbrahimlə aramıza düşmüş mübahisəmizi həll eləyin, çünki bunu mən heç cürə başa sala bilmirəm, — deyə ağ saqqalı sinəsinə yayılmış Molla yanındakını — cavan, alnıçapıq kişini göstərdi.

Molla Səxi səbir və təmkinlə:

— Buyur, molla Sübhan, dinləyirəm. O nə məsələdi elə? — dedi.

Molla Sübhan adlanan kişi döşəkçənin üstündə yerini rahatlayıb:

— Biz bilmək istəyirik, həzrət Məhəmməd Aişəyə evlənəndə neçə yaşı vardı, Molla Səxi? — dedi.

Molla Səxi sol əlində oynatdığı təsbehin axırıncı muncuğu ilə çənəsini qaşıyıb cavab verdi:

— Həzrət Məhəmmədin düz əlli dörd sinni var idi, o zaman ki, Aişəni alıb evinə gətirdi. Aişə onda doqquz yaşın içində idi.

Molla Sübhan sevinclə:

— Ay atan rəhmət, molla Səxi, — dedi. — Deməli, həzrət əlli dörd yaşında olanda doqquz yaşlı Aişəni almışdı.

— Bəli, bəli.

Molla Sübhan əlini molla İbrahimin çiyninə qoydu və qalib adam ədasıyla:

— Gördün, molla İbrahim? Eşitdin? — dedi. Sonra üzünü molla Səxiyə çöndərib əlavə etdi:

— Mən deyirəm belədi, bu deyir ki, yox, Məhəmməd peyğəmbər onda çox cavan idi.

— Xeyr, sən düz buyurursan, molla Sübhan... Molla İbrahim yanılır... — Molla Səxi mübahisəni həll edəndən sonra bəlağətlə həzrət Məhəmmədin şərhi-halını şirin-şirin danışmağa başladı. Hücrədə sakitlik idi. Heç kəs cınqırını belə çıxarmırdı.

Nəhayət, Molla Səxi sözünə xitam verdi, sorğuları aydınlaşdırdı, dərsin qurtardığını elan etdi. Camaat durub getmək istəyəndə o, əlini yuxarı qaldırdı:

— Az qala yadımdan çıxmışdı... əyləşin, əyləşin! Xamuş!..

Hamı bir nəfər kimi öz yerində oturdu. Molla Səxi məclisə göz gəzdirib:

— Bizim möhtərəm şeyximiz, — Allah onun işinə fərac versin, — məhbəsdə bir yuxu görüb...

— Nə yuxu, ağa? — deyə kimsə xəbər aldıqda Molla Səxi əlini yuxarı qaldırdı:

— İndi deyəcəyəm. Ancaq əvvəlcə sizin hamınızdan xahiş və tələb eləyirəm: çıxardın əmmamələrinizi. Əvvəlcə hamı bir-birinin üzünə baxdı.

— Çıxardın, çıxardın, — deyə Molla Səxi təkid edəndə otuz əl otuz başdan otuz əmmamə çıxartdı.

— Çıxartdınız?

— Bəli.

— İndi açın əmmamələri... Otuz əl otuz əmmaməni açdı!

— Açdınız?

— Bəli.

— Hə, indn bağlayın əmmamələrinizi. Molla Səxi nəzər saldı. Oturanlar dizini irəli uzadıb əmmamənin parçasını ona doladı və başına qoydu. Bunun üçün heç bircə dəqiqə də vaxt getmədi. Lakin molla Səxi arxada oturan təzə molla ilə onun yanında əyləşən molla Qasımın çaşıb qaldığını görəndə gözləri heyrətdən böyüdü: Molla Qasım ha əlləşirdisə əmmamənin dolağını bağlaya bilmir, gözaltı böyründə oturanın əlinə fikir verib öyrənmək istəyirdi, ancaq o, bu işi elə sürətlə eləmişdi ki, heç əlini də görə bilməmişdi. Məsələ aydın idi... «Molla» Ziyaülhəqqlə molla Qasım əsl ruhani deyildi, hətta əmmaməni bağlamağı da bilmirdi. Molla Qasım təşvişə düşmüşdü, rəngi ağarmışdı.

Molla Səxi ürəyində coşub-daşan kini, küdurəti boğmağa çalışaraq aramla söylədi:

— Demək, belə... Sizin aranızda iki nəfər əmmamə bağlamağı bacarmır. Şeyx ƏHməd də elə bunu yuxuda görmüşdü. — Sonra üzünü o iki nəfərə tutdu, — Molla Qasım, sən, bir də sən, — Ziyaülhəqqin adını çəkmədi, — qalın. Siz isə gedə bilərsiniz, camaat. Mən gərək onlara əmmamə bağlamağı öyrədəm!..

Hamı çıxıb getdi. Molla Qasımı elə bil yerə yapışdırmışdılar, tərpənə bilmirdi. Təzə molla — Ziyaülhəqq Molla Səxiyə baxıb qımışırdı. Molla Səxi isə çaşqın halda idi. Bilmirdi sevinsin, ya bu dəqiqə məzlum cildinə girib onu aldatmış, bu ikiüzlü, satqın adamın üstünə atılıb didim-didim eləsin. Demək, düşmən lap ocaq başında imiş, onunla bir damın altında yaşayırmış, bir süfrədə çörək kəsirmiş. Amma molla Səxi Məhəmməd Şəfinin ağlına, zəkasına heyran qalmışdı elə indicə. Əhvalatı eşidən kimi o, bu molla Qasımdan şübhələnməmişdimi? Hər halda Səxinin şadlığı təəssüfünə üstün gəldi. Və o, rişxəndlə:

—Ay pedər lənət, bəs əmmamə bağlaya bilmirdin, gecə-gündüz yanımda idin, niyə məndən öyrənmirdin?—dedi. Ziyaülhəqq qəzəblə gülümsündü:

— Eybi yoxdu, molla. Mən ona öyrədərəm əmmaməni necə bağlamaq lazımdı.

Molla Qasım yaxşı tanımadığı bu adama çəpəki nəzər saldı və zəif, qorxu dolu səslə:

— Heç sən özün də bilmirsən, ağa. Mənə necə öyrədəcəksən? — dedikdə Ziyaülhəqq qalxdı, onun yaxasını əlinə keçirib üzünə taraz bir şillə çəkdi:

— Öyrədəcəyəm səni, satqın! — dedi. Şillə tapança gülləsi kimi günbəzdə əks-səda verdi.

— Ağa, başına dönüm...

— Kəs səsini, alçaq! — deyə o, arxa cibində gəzdirdiyi balaca, işıqda par-par parıldayan tapançanı onun alnına söykəyib:—Dur gedək. Səsini çıxartsan, qaçmaq istəsən, yerindəcə güllələyəcəyəm, — dedi. — Molla Səxi, sən qabağa düş, bu sənin dalınca gəlsin... Səssiz, küysüz...

Molla Səxi hücrədən çıxdı. Məscidin həyətindən, hovuzun yanından keçdilər. Yolun kənarında qara bir maşın dayanmışdı. Qapı açıldı. Molla Səxi kənara çəkildi.

Ziyaülhəqq Qasımın qolundan tutub içəri saldı. Özü də yanında oturdu. Maşın gurultu ilə yerindən tərpəndikdə Molla Səxi titrək əlini saqqalına çəkib salavat çevirdi və Qasım qabağında imiş kimi üzünə tüpürdü: — Tfu, sattın!..

ALTINCI FƏSİL

Gözəl bahar günü Dünya xanım halında xoş bir dəyişiklik hiss eləməyə başladı; ağzı sulanır, ürəyi bulanır, məcazı cürbəcür şeylər istəyirdi. Ancaq nə — bunu tapıb deyə bilmir. Bu dəyişikliyin səbəbi birdən-birə ona aydın olanda gözlərinə elə bil işıq gəldi — yenə içərisində o qəribə işıq şölə saçıb yandı, əslində əzgin, yorğun bədənində elə yüngüllük hiss elədi ki, sanki quş olmuşdu, kəpənək olmuşdu — bu dəqiqə istədiyi yerə uçacaqdı elə bil. Çünki bütün vücudunu sarmış o müxtəlif, adsız istəklərdən ancaq biri lap qabardı, adını dedi: o, turş şey istəyirdi!!

Dünya xanım gəlib yataq otağında iki çarpayının ayaq ucunda qoyulmuş iri bədənnüma güzgünün qənşərində dayandı. Əvvəlcə üzgözünə, sonra bədəninə tamaşa elədi. Yox, nəzərə çarpacaq elə bir dəyişiklik yox idi. Ancaq, xoş, məmnun bir hissiyyatla özünün daha da qəşəngləşdiyini görüb yerə-göyə sığmadı, qayğısız qız uşağı təki aynanın qabağında fırlandı...

Nə xoş günü idi Dünyanın, ilahi? İyirmi üç illik həyatında hələ belə sevindiyi yadına gəlmirdi. Hətta onu Nəcməddin bu cah-calallı evə gətirəndə də duyduğu sevinc bunun yanında çox kiçik və qanadsız göründü ona. Halbuki Dünyaya o zaman elə gəlmişdi ki, ömründə bundan böyük fərəhi ola bilməz, heç vaxt ola bilməz. Amma indi anlayırdı ki, yanılıb. Ola bilərmiş, tale onun üçün hələ çox belə sevinclər, fərəhlər göndərəcəkmiş!

Eyvana çıxdı, Zərrintac evdə yox idi — ona deyərdi sevincini, həyətə düşdü, dolandı, Əbdül də yox idi — onu qəfildən qucaqlayıb öpərdi Dünya!..

Dodaqaltı şən və oynaq bir mahnı zümzümə edərək yuxarı qalxdı, soyunub yerinə girməmişdən əvvəl yenə güzgüdə öz gözəlliyindən doymurmuş kimi bir də tamaşa elədi, nazla dilini çıxarıb güzgüdəki əksinin ağzını əydi. Güzgüdəki Dünya da eyni hərəkətlə ona cavab verdikdə o, gülüb ipək yorğan-döşəyinə uzandı.

Nəcməddini közləyirdi, o isə gəlib çıxmırdı. Sevindirmək istəyirdi qocanı Dünya.

Nəhayət, qapı yavaşca açıldı. Xəyal aləminə qapılmış Dünya gözlərini açanda Nəcməddini görərək cəld hərəkətlə qalxıb elə yerindəcə oturdu. Yorğanı sinəsindən aşağı düşmüşdü. Ağappaq sinəsi, yaraşıqlı qolları açıq qalmışdı, Nəcməddin irəli gəlib onun sinəsindən öpdü və şadlıq içində əlini cibinə atıb qatlanmış bir kağız çıxartdı. Nəcməddin doğrudan da məhəbbətin adamı dəli eləyə biləcəyi barədə ömrü boyu çox əfsanələr eşitmişdi, ancaq, düzü, heç birinə o qədər də inanmamışdı. Amma indi, ömrünün bu xəzan çağında düşdüyü məhəbbətin böyüklüyünü, əzabını, ləzzətini duyub eşq haqqında deyilənlərə inanmağa başlamışdı. Nəcməddin sehrlənmişdi elə bil. Dünyadan doymurdu, istəyirdi sinəsini yarıb onu ürəyinin içində gizlətsin, hara getsə özü ilə aparsın, gözünün bəbəklərinə qoysun, duz kimi yalasın. Dünyada hər şey başından, ürəyindən, hafizəsindən silinib getmişdi — təkcə Dünya xanım qalmışdı onlarda; o, Nəcməddinin özünə çevrilmişdi. Bəzən ona elə gəlirdi ki, bədəninin hansı bir hissəsini kəsib atsalar, o parçası da «Dünya» deyə çırpına-çırpına fəryad qoparar. Qabaqlar Nəcməddin ölüm haqda tez-tez düşünər, o məşum fikir kişinin əl-ayağını hər şeydən soyudar, bədənini buza döndərərdi. Lakin indi ölüm barədə fikirləşmirdi — vaxtı hardaydı?

Dünyaya yer üzündə deyilməsi mümkün olan hər sözü — əzizləyici, nəvazişli, məhəbbətli sözlərin hamısını demişdi. Dünya da bunlardan əvəzsiz bir zövq, nəşə ala-ala xumarlanmışdı, bəxtəvər-

lənmişdi. Ancaq ürəyi sonsuz məhəbbət duyğuları ilə coşub-daşan Nəcməddin hiss eləyirdi ki, bu sözlər onun qəlbindəki gözəlliyi, şirinliyi tam şəkildə ifadə edə bilmir, sönük görünür, kücsüz görünür; onun Dünyaya bəslədiyi istək, doymamazlıq o sözlərə sığışmır...

Odur ki, Nəcməddin axır vaxtlar köhnə divanlardan axtarıb tapdığı və yaxud tanıdığı, bildiyi şairlərin ən gözəl məhəbbət şerlərinin üzünü köçürüb sevinə-sevinə Dünyasına oxuyurdu. O isə — şerpərəst olduğundan bundan son dərəcə böyük bir zövq alırdı...

İndi, Dünyanın çarpayısı qırağında oturarkən cibindən çıxartdığı qatlanmış kağızda şer vardı — onu Elməddinin iş stolunun üstündən götürüb köçürmüşdü və ac halına uyğun olduğunu görüb lap sevinmişdi. Hər halda şair şairdi — nahaq Yerə ona «lisanül qeybiyyə»[1] deməyiblər köhnə sənət xiridarları. Şair ən gizli, ən ülvi, əlçatmaz hissləri, mətləbləri, sözə çevrilə biləcək hər duyğunu bəyan etməyə qadir bir məxluqdur — buna Nəcməddinin şübhəsi yox idi. Ancaq yenə duyurdu ki, şəxsən onun ürəyində elə hisslər var ki, sözə çevrilə bilməz. Kim bilir, bəlkə də o, şair olmadığına görə, belə düşünürdü. Bəlkə də şair olsaydı, həmin sözə çevrilməz duyğuları dilə gətirib Dünyasına çatdırardı. Bəli, nə qədər qəribə görünsə də, Nəcməddinin məhəbbəti hər cür bəyandan, izhardan yüksək idi və o, bununla da fəxr eləyirdi, bununla yaşayırdı.

— Yenə şer gətirmisən mənim üçün?

— Hə, Dünyam mənim. Sən elə bir varlıqsan ki, sənin hər zərrən, hər tükün sevilmək istəyir, gülüm. Hərəsi bir aşiq istəyir sənin hər zərrənin, mehribanım. İndi gör mən nə aşiqəm ki, səni bütöv, təpədən dırnağa sevirəm, gülüm.

—Yaxşı-yaxşı, özünü tərifləmə. Şeri oxu. Nəcməddin vərəqin qatını açıb oxumağa başladı:

Ürəyimə od salıbdı bir gözəl,
Odu deyir, közü deyir: «Sev məni».
Dilində «get» deyir, ürəyində «gəl!»
Qaşı deyir, gözü deyir: «Sev məni».

***

Mən sevirəm, məhəbbətim min aləm.
Qismətimiz gah sevincdi, gah da qəm,

[1] Qeyb dili.

Qədəmləri dəyən yerdən öpürəm,
Ayağının tozu deyir: «Sev məni».

***

Yer üzündə gözəllikdə o birdi,
Sevən könlüm zülflərinə əsirdi,
Yaram üstə duz bassa da, nə sirdi
Şirin olur duzu, deyir: «Sev məni».

***

Ondan başqa bir kimsədə yox gözüm.
Gül adıdır əzəl sözüm, son sözüm —
O tanrıya qul olmuşam mən özüm,
Tanrım gəlib özü deyir: «Sev məni».

Nəcməddin şeri qurtarıb susdu, Dünyanın məst gözlərinə baxdı. O, şer dinləyərkən şərab içdiyi vaxtdakından daha gözəl məst olurdu. Elə bil, qız qeybdən səs dinləyirdi, elə bil, yenə içərisinə o sehrli-sirli nur axıb dolurdu. Ətrafındakıları, hər şeyi, hətta Nəcməddinin özünü də unudub yalnız o səsi (kim olur olsun) eşidirdi — o səsdə misilsiz bir qüvvət, qüdrət həzinlik və gözəllik duyurdu Dünya.

— Hə, necədi, əzizim? — Nəcməddinin sualı onu o sehrli aləmdən ayırıb bura — otağa qaytardı və o, başını balışın üstünə ataraq: — indiyə qədər mənə oxuduğun bütün şerlərdən ən gözəlidi, Nəcmi. — dedi. — Sevilmək arzusu ilə yanan bir gözəlin (qadın isə həmişə sevilmək, əzizlənmək istəyir — bunu yadından çıxartma) ürək çırpıntılarıdı bu şer. Çox qəribə deyib: Sənin ürəyinə od salmış bir pərizadənin— özü bir yana qalsın — odu da, közü də, qaşı da, ayağının tozu da, hərdən səni incidərkən yaranın üstünə basdığı duz da (yara üstünə basılmış duz yaman göynədir, Nəcmi — sən bunu bilmirsən yəqin. Gör necə sevəndi ki, o yandıran duz da dönüb şirin olur, aman allah) deyir ki, sev məni. Çünki onların hamısı bilir ki, sən necə sevirsən, sevirsənsə demək onları da sevməlisən, onlar da ərköyün, arxayın bir təmənna ilə deyirlər «sev məni», çünki biz onun — sənin sevdiyinin zərrələriyik Nəcmi. Sən özünü onun qulu hesab edirsən, ayaqları altından öpməyə razısan.. Eyni zamanda xoşbəxtsən ki, o, sənin tanrı deyə tanıdığın gözəl özü də sənə sığınıb səni əzizləyə-əzizləyə: «sev məni!» deyir, Nəcmi...

— Xoşuna gəldi deyəsən, mələyim?—deyə sevinclə Nəcməddin dilləndi. Doğrudan da indiyəcən hələ Dünya heç bir şerə belə

aludəçiliklə qulaq asmamış, dinləyəndən sonra belə izah etməmişdi — xoşun gəldisə, bir də oxuyum?!

— Yox, indi sən qulaq as, mən oxuyum.

Nəcməddin kağızı ona uzatdı, ancaq Dünya almadı:

— Lazım deyil. Qulaq as!.. Və o, şeri məlahətli ahənginə, dərdinə uyğun bir səslə əzbərdən söyləyəndə Nəcməddinin gözləri kəlləsinə çıxdı:

— Sən bu şeri əvvəldən bilirdin?

— Yox. Elə səndən eşitdim indicə...

— Elə şey olmaz, canım?

— Vallah...

Nəcməddin fikrə getdi. «Bəlkə... Elməddin... o şeri buna verib, bu da əzbərləyib, hə? Heç ola bilməz ki, bircə dəfə oxumaqla şer beləcə adamın yadında qalsın. Heç ola bilməz!» İnanmadı:

— De sənii əziz canın üçün?

— Sənin əziz canın üçün!..

— İndi birini də oxusam, yenə əzbərdən qaytarıb mənə deyə bilərsən?

— Yaxşı şer olsa, hə!

Nəcməddin bayaq Elməddinin stolunun üstündən iki şer götürmüşdü. Əvvəl oxuduğunu dünən yazmışdı, ikincisini — hələ Dünyaya oxumadığını bu gün. Elməddin nə dünən, nə də bu gün onlara ayaq basmamışdı. Və ikinci şeri Nəcməddin ehtiyat üçün saxlamışdı. Ancaq indi o, Dünyanın yalan deyib-demədiyini yoxlamaq üçün həmin şeri də oxumalı oldu:

Yaxşı, birini də oxuyuram. Dünya güldü:

— Oxu, oxu...

Nəcməddin əlləri əsə-əsə ikinci şeri də çıxardıb oxudu:

Gah ağlatdın, gah güldürdün sən məni,
Hikmətini bilmək olmur, nədəndi?
Selə-suya qərq elədim cahanı —
Göz yaşımı silmək olmur, nədəndi?

***

Nə biləydim, xəzan vurmuş gülmüşəm,
Öz ömrümü sənin ömrün bilmişəm,
Fələk məni ağladanda gülmüşəm —
Sən ağlatsan, gülmək olmur, nədəndi?

***

Yaşamağa nə inam var, nə güman.
Başım üstdən heç əskilmir sis-duman.
İstəyirəm həsrətinlə verim can,
Həsrətindən ölmək olmur, nədəndi?

Nəcməddin şeri oxuyan kimi büküb cibinə qoydu. Sanki qorxurdu ki, o, sehrli bir tərzdə, uzaqdan, kağıza baxmadan şeri oxuya bilər.

— Hə, de görək?!

Dünya Nəcməddinə baxa-baxa, — elə bil şer onun gözlərinə həkk olunmuşdu, — bir sözünün yerini belə dəyişmədən, çaşmadan təkrar söyləyəndə... Nəcməddin çarəsiz qalıb güldü:

— Əcəb hafizən varmış, gülüm! — dedi.

— Hm... Sən bilmirdin?

— Yox... hardan biləydim, Dünyam mənim?!

— Şerlər üçün çox sağ ol, əzizim. Bu gün ruhum elə qanadlıdı ki, elə şer istəyirdi könlüm.

— Onda lap yerinə düşüb. Mən sənin arzularını gözündən oxuyuram, gülüm.

— Minnətdaram... — Sonra Dünya ani olaraq nə düşündüsə gülə-gülə dedi, — inanmıram, əzizim. Ancaq... sən məni yoxlayan kimi, istəyirəm mən də səni yoxlayam.

Yoxla! — Nəcməddin arxayın-arxayın cavab verdi.

—İndi ki mənim arzumu gözümdən oxuyursan, onda de görüm ürəyim indi nə istəyir?!

Nəcməddin duruxdu, çətin yerdə ilişdiyini anlayaraq başını qaşıyıb Dünyanın bic-bic gülümsəyən gözlərinə baxdı, baxdı və birdən itirdiyini tapmış adam sevinci ilə əyilib Dünyanın şerdə deyilən kimi, qaşından, gözündən, balaca qəşəng ayağının altından öpdü. Sonra təntimiş halda dikəlib:

Hə, düz tapdım? — deyə xəbər alanda Dünya gülə-gülə başını silkələdi:

— Yox...

— Yox?

— Yox!

— Pul istəyirsən?

— Yox. Özünü yorma, Nəcmi. Tapa bilməzsən!

— Hə?

— Hə, tapa bilməzsən. Düz yüz gün də axtarsan, tapa bilməzsən.

Nəcməddin susub təslim oldu:

— Yaxşı... Mən təslim... Nə istəyirsən?

Dünya birdən-birə cavab vermədi, bir anlığa gözünün qabağına gətirdi ki, bu sözü deyəndə Nəcməddin nə hala düşəcək, necə sevinəcək — həyəcanlandı.

— Nə istəyirsən axı, mənim mələyim? Dünya nazla gülümsündü:

— Tur... şu... istəyirəm, Nəcmi!

— Nə? — Nəcməddinin qulaqları guruldadı, ev başına dolandı, elə bil, gözləri də qaranlıq çaldı — Nəəə? Turşu?..

— Hə, Nəcmi... Turş şeydən ötrü ölürəm lap, Nəcmi.

— Demək?..

— Hə, demək...

Nəcməddin dəli kimi özünü Dünyanın üstünə atdı, saysız-hesabsız öpüşlərə qərq elədi onu. Nəfəsi tıncıxa-tıncıxa:

— Sənə qurban olum, sənə qurban olum... — deyirdi və elə bil başqa söz bilmirdi, elə hey bu üç sözü təkrar eləyirdi.

— Ədə, yavaş, boğdun məni, qabırğalarımı sındırdın, yavaş!.. — deyə Dünya az qala sevincindən vəhşiyə dönmüş Nəcməddini özündən kənar eləməyə çalışır, ancaq bacarmırdı... Nəhayət, kişi yorulub əldən düşərək kənara çəkiləndə, qulaqlarına inanmırmış təki təzədən soruşdu:

— Sən allah, düz deyirsən?

— Vallah, hə. Evi ələk-vələk eləmişəm, bir dənə turş şey yoxdu. Əbdülü tap, göndər bazara, bir az turş xiyardan, badımcandan alıb gətirsin. Ağzımın suyunu saxlaya bilmirəm.

— Bu dəqiqə... —deyə Nəcməddin təzədən onun gözlərindən öpüb özünü bayıra atdı və iki dəqiqə sonra qayıdıb gəldi. - Əbdülü göndərdim, indi alıb gətirər, əzizim. Ey Allahım mənim, məni də xoşbəxt elədin sən, sənə qurban olum.

Dünya gözlərini yummuşdu, ancaq tələsə-tələsə bazara gedən Əbdülü elə gözüyumulu görürdü...

YEDDİNCİ FƏSİL

Bu balaca bir daxma idi. Cəmi bircə pəncərəsi vardı, ona da qalın pərdə salınmışdı. İçəridəki girdə mizin üstünə qoyulmuş fənərin solğun, zəif işığı otağı güclə işıqlandırırdı. Bəbir, Məhəmməd Şəfi taxta çarpayının kənarında oturub siqaret çəkirdi. Vaxt keçirdi, ancaq Ziyaəddingil hələ gəlib çıxmamışdılar.

Xeyli keçəndən sonra həyətdə maşın səsi eşidildi. Gəzinib keşik çəkən Elməddin qapını aralayıb başını uzatdı:

— Gəldilər... — dedi və yenə çəkilib getdi. Ziyaülhəqq otağa təkcə girib salam verdi.

— Gətirdin? — Bəbir soruşdu:

— Bəli.

— Danışdı?

— Əlbəttə. Mən lalı da danışdıraram!

— Yaxşı. Gətir.

— Baş üstə. Ancaq... Səni görməsəydi, yaxşı olardı, məncə.

— Niyə?

— Bu, satqındı. Sizi tanıtdıra bilər başqalarına.

— Düz deyir Ziyaülhəqq, Bəbir. Gərək bizsiz həll edəydilər uşaqlar, — deyə Məhəmməd Şəfi bayaqdan bəri ilk dafə ağız açıb dilləndi — Sonrakı işlərimizi... korlaya bilərik...

Bəbir ani fikrə gedib Ziyaülhəqdən soruşdu:

— Xəyanətlərini boynuna aldımı?

— Bəli, aldı. Hər şeyi iqrar etdi.

— Onda gətir, — dedi qətiyyətlə Bəbir. — Satqınlar öləndən sonra şahidlik eləyə bilmirlər.

Otağa ani sükut çökdü. Çünki, Bəbir son cümləsində molla Qasım adlanan xainin ölüm hökmünü elan eləmişdi. Hər şey aydındı. Hökm qəti idi və yerinə yetirilməli idi bu gecə. Şəfi nəsə demək istədi, ancaq dillənmədi. Ziyaülhəqq başı ilə «oldu» işarəsi verib cəld addımlarla daxmadan çıxdı.

İki-üç dəqiqə keçmişdi ki, Ziyaülhəqq mollanı itələyib içəri saldı, özü də arxasında dayandı.

Bəbir də, Məhəmməd Şəfi də ilk dəfə gördükləri bu adama diqqətlə baxırdılar. O da qorxu dolu nəzərlərlə oturanları ötəri süzdü, heç birini tanıya bilmədi. Gözünün altı qaralmışdı, qara saqqalında qan laxtalanmışdı, qaşının üstündə çapıq yeri görünürdü. Məhəmməd Şəfi özünü saxlaya bilməyib Ziyaülhəqqə söylədi:

— Nahaq belə eləmisən! Ziyaülhəqq yerindən tərpənmədi:

— Yoxsa siz elə bilirsiniz orda, istexbarat zirzəmisində Şeyx Əhmədin başını sığallayıb ipək yorğan-döşəkdə yatırdırlar? Yox, mən düşmüşəm ora, cəhənnəm əzabı verirlər adama, ağa. Dirigözlü öldürürlər səni. Dirildinsə... Təzədən öldürürlər, dirilmədinsə... Allah rəhmət eləsin!! — dedi.

Bəbir Şəfiyə sarı döndü:

— Ürəyiyumşaqlığı qoy bir kənara, qardaş! Belələrinə rəhm eləmək ümumi işə xəyanət etmək deməkdir, zindanlarda bax bu alçaqların satqınlığı üzündən çürüyən oğullarımıza xəyanət etmək deməkdi. — sonra Bəbir Molla Qasıma üz tutdu, — otur o kətilin üstündə.

O, müti halda iki addım irəli yeridi, taxta kətili altına çəkib əyləşdi. Gözucu arxa tərəfində dayanmış Ziyaülhəqqə baxıb başını aşağı saldı! Ziyaülhəqq Bəbirə müraciət etdi:

— Başlayaq, ağa? Bəbir:

— Hə, başlayaq. — dedi.

— Ey, sənin ləyəm, mənə necə danışıbsan, eləcə də yerliyataqlı bu ağaya danış hər şeyi. Çalış heç nə yadından çıxmasın, yoxsa... —deyə Ziyaülhəqq mollanı hədələdi. Onun səsi gələndə mollanın ürəyi əsirdi.

Sorğu-sual başlandı: Bəbir danışdırırdı, o, cavab verirdi, Şəfi isə bəzi şeyləri kağıza köçürürdü.

— Adın nədir?

— Molla... Yox, ağa, bağışlayın, bəndənizin əsl adı Möhsündür.

— Molla Qasım sənin ikinci adındı, eləmi?

— Bəli, qurban.

— Sən nə vaxtdan istexbarata qulluq göstərirsən?

— Doqquz ildi.

— Əslən haralısan?

— Elə buralıyam, ağa, bu şəhərdənəm.

— Necə oldu ki, onlara işləməyə başladın?

— Düzü, ağa, heç özüm də bilmədim necə oldu. Çoxdanın söhbəti idi, istexbaratdan yanıma bir nəfər gəldi, onda Qari Aman xanım mağazasında xidmətçi işləyirdim. Mənə təklif elədi ki, onun yanına gələn xaricilərə göz qoyum, kimdir, nəçidirlər, nə gətirirlər... nə aparırlar... Lüt qadın-kişi şəkilləri, tiryək, nə bilim nə...

— Sən də yazıb verirdin, eləmi?

— Hə, ağa. Müqabilində mənə səkkiz yüz rupi pul verirdi o kişi.

— Adı nə idi?

— Adını bilmədim, vallah. Sonra o getdi, başqası gəldi... İndi onun üçün işləyirəm. İsmi Qədirdir gərək ki... hara lazım olsa, göndərir, iş düzəldirdi.

— Bəs şeyx Əhmədin dəstəsinə necə düşdün?

— Bir gün çağırdı məni, dedi məscidə getməlisən, molla libası verdi, dedi qulaq asarsan, görərsən nə danışırlar. Xüsusən şeyx Əhmədə diqqət yetirməyimi tapşırdı. Şübhələnirmiş, nədi? Bilmirəm.

— Səndən başqa da şeyx Əhmədin dəstəsində adamları vardı?

— Mən bilən yox, ağa!

— Sən daha kimin haqqında ona — Qədirə məlumat vermisən?

— Heç kimin, ağa!

— Yaxşı fikirləş, bəlkə vermisən?

— Yox, heç kimin haqqında...

— Bəs molla Səxini necə, satmısan?

— Xeyr. O mənə çox yaxşılıqlar eləyib, ağa. Yer verib, yeməyimi verib...

— Elə çıxır ki, Şeyx Əhməd sənə çox pislik eləyib, hə?

— Xeyr, ağa.

— Bəs onu niyə satırdın?

— Nə bilim, ağa. Tapşırmışdı...

— Məlumatları yazılı verirdin, ya şifahi?

— Yazılı...

— Harda yazırdın bəs? Sən ki molla Səxidən ayrılmırdın heç?

— Təşnabda![1]

— Təşnabda yazırdın?

— Bəli.

— Bəs harda verirdin ona kağızı?

— Elə orda aftafanın altına yapışdırırdım, mən çıxandan sonra o gəlib götürürdü.

— Üsula bax ha. Bu sənin ağlına kəlmişdi, ya onun?

— O təklif eləmişdi, ağa.

— Şeyx Əhmədin sözarası elədiyi siyasi söhbətlər sənin xoşuna gəlmirdi? O düz demirdi?

[1] Təşnab — tualet.

—…

— Sənin ləyəm! Düz deyildi onun dedikləri? Ürəyincə deyildi?!

— Düz idi, ağa. Ürəyimcə idi...

— Bəs niyə yazırdın, ay şərəfsiz?! Axı şeyx Əhməd hamının dərdindən, ehtiyacından danışırdı, bütün xalqın xoş gələcəyi naminə görüləsi işlərdən, sizin bu mübarizədə vəzifələrinizdən, sizin ən qatı, ən qəddar düşmənlərinizdən danışırdı!?

—…

— Niyə susursan? — Nə deyim, ağa?!

— Sənin ailən var?

— Bəli, ağa. Bir arvadım, dörd də uşağım var.

— Neçə yaşındadı uşaqların?

— Böyüyü on, kiçiyi üç yaşındadı.

— Sən onları yaxşı dolandıra bilirsən?

— Yox, ağa. Yarıac, yarıtox. Qış düşəndə, qar yağanda oğlan məktəbə də gedə bilmir, çılpaq olduğu üçün.

Bəbir susdu. Təzə siqaret yandırdı, sümürüb tüstüsünü ağzının cəngindən havaya buraxaraq Şəfiyə nəzər saldı. Bayaqdan, o danışdıqca nəsə yazan Şəfi də əl saxladı. Görünür dörd uşaq məsələsi hər ikisini eyni dərəcədə narahat etmişdi. Şəfi Bəbirə qüssəli-qüssəli baxdı, astaca köks ötürdü. Bəbir onu anladı və ürəyində üzünü görmədiyi, bir-birindən balaca olan kərpələrə şəfqət hissi oyandı və onun əl-qolu boşaldı bir anlığa. Qabağında dayanan, bəlkə də dolanmaq üçün istexbaratın işçisi Qədirin toruna düşmüş bu biçarə adam gözündə satqınlıq libasını çıxarıb yazıq bir görkəm aldı. Ancaq bu, bir anlıq davam etdi. Möhsün yenidən əvvəlki halətilə nəzərlərində canlandı və Bəbir, nə qədər uzaq olsa da, indi Şeyx Əhmədin düşdüyü vəziyyəti, döyülməsini, işgəncələrini yanındaymış kimi apaydın görüb qəlbindəki tərəhhüm hissini boğmağa çalışdı, ani olaraq bir insan kimi öz zəif cəhətini həyatında bəlkə ilk dəfə dərk etdi və belə bir «xəstəliyi» olduğuna görə həm sevindi və həm də kədərləndi. Bəbir yaşadığı illər boyu təkcə cəmiyyətin deyil, özünün də gözəgörünməz, gümanedilməz halətlərini, mənəvi təbəddülatları hadisələr axınında, müxtəlif gərgin vəziyyətlərdə kəşf edə-edə ömür sürmüşdü. Ən çətin anlarında belə o, kənar, yad bir adam gözü ilə özünə baxmağı xoşlayırdı və yaxşı xüsusiyyətlərini görüb sevinir, zəif cəhətlərini bir cərrah soyuqqanlılığı ilə kəsib atmağa çalışırdı. İndi, Qasımla — Möhsünlə söhbət zamanı varlığına yol tapmış bu humanistlik hissini boğmaqda çox çətinlik çəkəcəkdi, lakin birdən-

birə onun qulağına, haradansa uzaq, qaranlıq bir zirzəmidə işkəncələrə dözə bilməyib qışqıran, «ax, öldüm?» — deyən Şeyx Əhmədin səsi gəldi sanki. Yerin altından gəlirdi o səs elə bil. Fəryad, nalə dolu o səsi eşidən kimi olanda Bəbir o «xəstəliyinin» üstündən qələm çəkdi, o hissi öldürdü və ayaqları altına alıb tapdaladı. «Yox, — dedi öz-özünə,—bələləri zatən satqındır. Onlar öz arvad-uşağı xatirinə məni, səni, hətta vətənn də satarlar, buna sənin heç şübhən olmasın, Bəbir!» Və o, aradakı gərgin sükutu parçalayıb quru, hökmlü səslə:

— Yaxın gəl! — dedi. Qasım — Möhsün əvvəl başa düşmürmüş kimi döyükdü, yerindən tərpənmədi. Ziyaülhəqq arxadan onu dümsükləyəndə sanki ayıldı və qorxa-qorxa irəli yeridi.

Bəbir Şəfiyə üz tutdu:

— Ona iki vərəq kağız və qələm ver, Şəfi!

Məhəmməd Şəfi bayaqdan bəri Bəbirə baxırdı və o sukutla keçən anlarda özünə xas həssaslıqla anlayırdı ki, Bəbirin içində indi iki hiss — rəhm və qanun üz-üzə gəlib çırpışır, vuruşur: Görəsən hansı üstün gələcəkdi? Şəfi intizar içində Bəbirə baxır və elə bil, o gizli döyüşü aşkar görürdü. Lakin Bəbir əlini üzünə çəkib Şəfiyə: «Ona iki vərəq və qələm ver!» — deyəndə anladı ki, dostunun ürəyində rəhm hissi öldü və daha artıq-əskik danışıb qan qaraltmağına dəyməzdi. Şəfinin ürəyindən soyuq bir uğultu keçdi, üşüdü elə bil. Bəbirin də, Qasımın da üzünə baxmadan iki səhifə kağızı və qələmi stolun o qırağına itələdi.

— Otur! — dedi Bəbir. — Otur yaz!

Möhsün sanki keyimişdi. Mütiliklə deyiləni icra elədi. Kətili çəkib əyləşdi və bayaqdan bəri ilk dəfə stolun o biri kənarında oturan və onu sorğu-suala tutan Bəbirə gözü dolusu fikir verdi. Və onun simasındakı sərtliyi, baxışlarındakı qəzəb qığılcımlarını görüb əməlli-başlı qorxuya düşdü.

— Yaz! — Bəbir azca səsini endirib dilləndi. Möhsün ölgün-ölgün:

— Nə yazım, ağa? — deyə xəbər aldı.

— Mən nə desəm, onu da yazacaqsan! — Bəbir siqaretinə son qullab vurub külqabına basaraq söndürəndən sonra diktə etdi. «Bəradəri-mükərrəm Molla Səxi. Mən daha təhsilimi davam etdirə bilmədim, çünki öz şəhərimizə getməli oldum: ailəm mənsiz dolanmır, bəradər. Mənə elədiyin yaxşılıqlar üçün sənə ömrüm boyu minnətdaram. Ba ehtiram: bəradərin molla Möhsün»... Yazdın?

— Bəli, ağa... Möhsün udqundu və kəsik-kəsik soruşdu — Ağa, başına dönüm, axı mən əvvəl ərz elədim ki, elə bu şəhərdənəm... Siz... məni... başqa şəhərə... göndərirsiniz?

— Hə, başqa... şəhərə göndəririk... Gedib satqınlığı orda eləyərsən, burda, bizim gözümüzün qabağında yox. — Qəzəblə baxdı ona Bəbir. Möhsün nə isə demək istədi, ancaq onun acıqlı baxışlarını görüb susdu. — İndi ikinci məktubu yaz. Arvadının adı nədir?

— Kənizinizin adı... Ənisədi, ağa.

— Yaz. «Əziz övrətim Ənisə!.. Mən məmuriyyətimlə əlaqədar olaraq bir ieçə illiyə başqa şəhərə getməli oldum. İş elə təcili oldu ki, gəlib sizinlə görüşə bilmədim. Sənə və uşaqlara... On beş min rupi göndərirəm». — Möhsün bu sözləri yazıb dayandı və Bəbirə baxdı:

— Ağa, nə deyirsiz siz? Mənim heç on beş rupim yoxdu... Birdən-birə on beş min rupi?..

— Uzun danışma. Nə deyirəm onu da yaz! — «On beş min rupi pul göndərirəm... Mürurla xərclə, ta uşaqlar və özün acından ölməyəsiniz. Qiyabən hamınızı öpürəm. Əlvida! Sizin Möhsün. Pulu dostum gətirəcəkdir sizə!» Yazdın?

— Bəli, ağa. Axı... mənim dostum... yoxdu...

Bəbir acı-acı gülümsündü:

— Sənin kimi adamların heç vaxt dostu olmur. Hətta övladların da, ağılları kəsəndən sonra sənə nifrət edəcəklər. O uşaqlar günahsızdırlar. Dediyim on beş min rupini də mən göndərəcəyəm onlara. Qoy onlar satqın çörəyi yeyə-yeyə böyüməsinlər...

Bəbir kağızları onun qabağından götürdü, nəzərdən keçirəndən sonra dörd qatlayıb cibinə qoymaq istəyəndə yadına nəsə düşdü, soruşdu:

— Bura ünvanını yazmamısan? Onu da yaz... Möhsün ünvanını yazdıqdan sonra dedi:

— Ancaq çətin taparsan mənim evimi, ağa!..

— Niyə? — Bəbir kinayə ilə söylədi — Aftafanın altına yapışdırarıq, Qədir gəlib aparar.

Möhsün başını aşağı salıb heç nə demədi. Yenə araya sükut çökdü. Məhəmməd Şəfi durub gəzinməyə başladı. Əllərini arxasına qoymuşdu, sifəti qapqara qaralmışdı. Bəbir ona müraciət etdi:

— Məncə, qurtaraq. Daha bəsdi... — Sonra üzünü Möhsünə çevirdi, başqa bir sözün yoxdur ki, bizə? Möhsün belini düzəltdi:

— Ağa, sizi and verirəm o bir olan allaha, icazə verin gedim uşaqlarımla görüşüm, xudahafizləşim. Bəbir başını «yox» mənasında buladı.

— Məni uzağa göndərirsiz, ağa?

— Bəli, çox uzağa.

— Nə vaxt qayıdacağam, ağa, mən uşaqlarımın yanına? Bəbir də ayağa qalxdı:

— Uşaqlarından nigaran qalma. O ki qaldı qayıtmağına... — o, sözünə ara verib istehzaqarışıq bir kədərlə əlavə etdi: — Əmmaməni açıb bağlamağı öyrənəndən sonra... qayıdacaqsan...

Bütün bu müsibətlərin onun başına bu zəhrimar əmmamənin üstündə gəldiyini indi lap yaxşı dərk eləyən Möhsün, əl atıb əmmaməni başından çıxartdı və ayaqları altına atıb əsəbi, çılğın bir hərarətlə tapdalamağa başladı...

— Apar!

SƏKKİZİNCİ FƏSİL

Neçə gündü ki, Məhəmməd Şəfi özündə deyildi. Yaxşı yata bilmirdi, çörək yeyə bilmirdi. Fikrini cəmləşdirib masa arxasında oturmağa da qərarı gəlmirdi. Düşüncəli-qayğılı gəzib-dolanır, yuxulu, yaxud sarsıntı keçirmiş və bunun nəticəsində də keyləşmiş adama oxşayırdı. Möhsünün, — satqın, xəfiyyə olsa belə, — ölümü onu yamanca silkələmişdi. Bir yandan istexbaratın divarları arasında olmazın işkəncələrə məruz qalan, lakin mərdanə susub heç kəsin adını çəkməyən şeyx Əhmədin dərdi, o biri yandan da bu Möhsünün öldürülməsi, onun başsız-sahibsiz qalan ailəsinin dərdi Məhəmməd Şəfinin ürəyini alt-üst eləmişdi. «Həyatın qanunları necə sərtdi, aman allah!— deyə gəzib-dolanır, hər şeyi ürəyinə salıb dərd eləyirdi. — Həyat nə qədər təzadlıdı; şirindi həyat, əzablıdı həyat eyni zamanda. Bir yanda süslü saraylar, xanimanlar, harınlar, o biri yanda isə bir tikə çörək üçün şərəfini satmağa, başını bıçaq altına qoymağa hazır olanlar, aclar, yalavaclar... Yox, mənim ürəyim bu ağrılara, əzablara dözə bilmir... Bu zəiflikdir, nədir, heç bilmirəm. Amma Bəbir möhkəm adamdır. Ziyaülhəqq sərt adamdır. Mən belə ola bilmirəm, bacarmıram. Lakin dərindən fikirləşəndə bəlkə onlar haqlıdırlar? Hamının, böyük əksəriyyətin əzabla yaşamasına son qoymaq üçün bəlkə beş-on nəfər satqını, alçağı əyan-əşrəfi aradan qaldırmaq ən doğru yoldur? Mən Bəbirə inanıram — onun ağlına, müdrikliyinə inanıram».

Məleykə ərindən yaman nigaran idi. Şəfinin neçə gündü bulud kimi tutulub açılmaması, öz-özünə danışa-danışa gəzib-dolanması Məleykəni demək olar ki, lap qorxutmuşdu. Şəfi işdə, çöldə-bayırda olan söz-söhbətin hamısını evdə arvadına danışırdı, çox şeydə onunla məsləhətləşərdi; Məleykə ən ağır anlarda ərinin qılığına girir, təsəlli verir, deyib-gülür, kişinin kefinn açırdı. Ancaq bu dəfə nə illah eləyirdisə, Şəfinin qırışığı açılmırdı. Məleykə şeyx Əhmədin tutulduğunu bilirdi, Möhsün adlı xəfiyyənin də ələ keçdiyini Şəfi demişdi ona. Ancaq Möhsünün öldürüldüyünü gizləmişdi, onun dörd uşağının yetim qaldığını gizləmişdi. Məleykənin ürəyini bilirdi, desəydi, bu ona dərd olacaqdı. Məhz buna görə söyləməməyi lazım bilmişdi. İşə getmək vaxtı idi. Şəfi gecəni səhərəcən yatmasa da, tezdən durmuş, üzünü təraş etmiş, çay-çörəyini də yemişdi, ancaq getməyə tələsmirdi. Pəncərənin qabağında dayanıb payızın xına çəkdiyi ağaclara tamaşa edir, siqaretini siqaretin oduna yandırırdı.

Arxasında hənirti eşidib qanrıldı. Məleykə böyründə səssiz-səmirsiz dayanıb ərinin ağarmış saçlarına baxaraq fikrə getmişdi:

— Şəfi can! — deyə Məleykə ehmalca sol əlini ərinin sağ çiyninə qoydu, — Şəfi can! — səsi ağlayırdı Məleykənin. Şəfi nə qədər qayğılı, başqa aləmdə olsa da, sevimli arvadının ağlar səsinə, nəmlənib yaşarmış gözlərinə biganə qala bilmədi və hətta bu, ona bir qədər qəribə də göründü. Və yalnız indi Şəfiyə çatdı ki, bu neçə günü Məleykəyə çox əzab verib: onun qayğılarını, arzularını cavabsız qoyub, rəhmsizlik eləyib arvadına və ona görə özünü ürəyində yamanca danladı. Dönüb Məleykə ilə qabaq-qənşər dayandı, titrək əlilə onun tel-tel ağarmağa başlayan saçlarını sığalladı.

— Sənə nə olub, ay mənim Məlaikəm? — deyə mehriban bir səslə soruşdu. Məleykə boğazına yığışıb düyünlənmiş qəhəri udub:

— Mənə heç nə! Sənə nə olub, Şəfi, qurban olum? — dedi, — niyə məndən gizləyirsən, Şəfi?!

Məhəmməd Şəfi onun qolundan tutdu, çəkib divanda, özü ilə yanaşı oturtdu. Məleykə onun bu hərəkətindən lap kövrəldi!

— Yaxşı, yaxşı... Ağlama, sən allah. Vallah, heç nə olmayıb... Sadəcə dilxoram, Məleykə!

— Yox axı... Mən səni yaxşı tanıyıram, sən heç belə olmamışdın indiyəcən, Şəfi? Son günlər... nə yeməyin yeməkdi, nə yatmağın yatmaqdı. Sənin özündən xəbərin yoxdu, elə bil bu üç-dörd günün içində on il qocalıbsan, Şəfi can? Nə olub ki, dilxorsan, qurban olum! Səni tutacaqlar?

Şəfi güldü:

— Məni? Niyə tuturlar ki, məni?

— Nə bilim, ay Şəfi. Sən belə olanda ürəyimə əlli min fikir gəlir. Elə bilirsən mən gecələr yatıram? Yox, qurban olum, mən də səni oyaq görüb yerimin içinə qor düşmüş kimi çapalayıram.

Şəfi günahkar kimi ah çəkdi:

— Bağışla məni, əzizim. Səni özümün də xəbərim olmadan yamanca incitmişəm, Məleykə. Məni bağışla, canım-ciyərim. Bilirsən Məleykə, bizim yaşadığımız həyat dəhşətlərlə doludur. Hara baxırsan, adamın ürəyi parçalanır, qana dönür. Sən evdə oturmusan, şəhərdən, məmləkətdən az xəbərin var... Nələr olur, sən bilmirsən, əzizim? — Şəfi az qalmışdı Möhsünün öldürülməsi məsələsini Məleykəyə danışsın, özünü saxladı, arvadının yalvarışına, təkidinə baxmayaraq həqiqəti deməkdən vaz keçdi və elə bu an yadına Elməddinin təzə yazdıqı «Qan» hekayəsi düşdü. O, qanqaralığının səbəbini həmin hekayə ilə bağlamaq qərarına gəldi. — Bilirsən, bizim bu Elməddin dəhşətli bir hekayə yazıb. Neçə gündü onun təsiri altındayam, özümə gələ bilmirəm. Ha istəyirəm unudum, unuda bilmirəm.

— Elməddin deyəsən tənqiddən qorxmayıb! — deyə üstündən dağ götürülmüş təki rahat nəfəs alan Məleykə qəmli-qəmli gülümsündü və ürəyində söylədi: «Şükür, qorxulu bir şey yoxdu. Lap ürəyimi yemişdim».

— Elməddin qorxana, ruhdan düşənə oxşamır, Məleykə. İradəli, mətin adamdı. Mən özümlə onu bəzən müqayisə edirəm, görürəm ki, o, deyəsən məndən dözümlüdür. Məni tənqid eləyəndə bir ay özümə gəlmirəm. Amma o, maşallah, heç vecinə də almır.

— Belə olmağı yaxşıdı, yox, Şəfi?

— Əlbəttə. O, mən deyərdim, bizim cəmiyyətimizi bir təbib gözü ilə müayinə edir, yaraları vaxtında görür və göstərir. Bu isə balaca iş deyil. Belə getsə, o çox məşhur, hamının sevəcəyi bir sənətkar olacaq, Məleykə...

— Olsun, olsun, Şəfi. Ancaq, — o güldü, — qoy bura gəlsin, qulağını dartacağam onun. Səni az qala öldürmüşdü öz hekayəsi ilə, məni isə dəli eləmişdi. Deyəcəyəm bir də elə hekayə yazmasın.

Şəfi güldü:

— Yox, qoy yazsın. O, hamımızın dərdini yazır. Kefi durulub qırışığı açılmış Məleykə ərinə sığındı:

— Nə hekayədi o elə? Oxu mənim üçün, Şəfi, onu. Görək bu «Qan» nədi?

Şəfi əslinə qalsa bu «Qan» hekayəsini də Məleykəyə oxumaq istəmirdi. Çünki o da sarsıdıcı olacaqdı Məleykə üçün. Amma gec-tez oxuyacaqdı deyə Şəfi naçar qalıb qəzetin arasına qoyduğu «Qan» hekayəsini Məleykəyə oxumağa başladı:

«— Dağların ətəyində yerləşən şəhərin ucqarındakı palçıqdan-kərpicdən tikilmiş yastı-yapalaq evlərdən xeyli aralı, çayın qırağında qara, pırtlaşıq saçları çoxdan daraq görməmiş, cırıq çit tuman geymiş, boynu muncuqlu, ayaqyalın bir qız uşağı dayanmışdı. Altı-yeddi yaşı ancaq olardı qızın. Onu bura çay sahilindəki qumların üstündə şəkil çəkmək, oynamaq həvəsi çəkib gətirmişdi.

O, başını aşağı əyib şəhadət barmağı ilə qumluqda cürbəcür rəsmlər cızır, xoşu gəlməyəndə iki addım oyana keçib təzəsini çəkirdi. Enli çayın içində qoyun-quzu kimi orda-burda yatışmış iri, boz daşların arasından axan suyun şırıltısı qızın qulağını oxşayır, o hansı bir uşaq mahnısını isə zümzümə eləyirdi.

Qız öskürək səsi eşidib qanrıldı və əlini uzunkirpikli gözünün üstünə qoyub hənirti gələn səmtə baxdı. Başına çalma bağlamış topa-saqqal, arıqcüssəli, gödək şalvarından nazik qıçları görünən bir kişi ona yaxınlaşırdı. Qıza yaxınlaşıb dayandı, pırpız qaşları altında qaynayan şübhəli-qorxulu qara gözlərini qıza zillədi, sonra kimdənsə ehtiyat edirmiş kimi o yan, bu yana boylandı. Yaxınlıqda ins-cins yox idi.

Kişi azca irəli yeriyib suyun qırağında çömbəldi, əlini yuya-yuya qızdan xəbər aldı:

— Adın nədir, qız?

— Mənim? — Qızın mırıq dişləri göründü.

— Hə, sənin.

— Adım Bibigüldü.

— Atan var?

— Yox, atam yoxdur.

— Bəs anan necə?

— Var.

— Hardadı?

— Gedib ağagilə.

— Ağa kimdi, qız?

— Nə bilim, anam deyir böyük ağadı.

— Orda gedib neyləyir anan?

— Orda paltar yuyur. Sonra ağa ona pul verir: o da mənə noğul alıb gətirir, çörək alır, ət alır...

— Noğul istəyirsən? — deyə kişi qalxdı, əlini çalmasının çiynindən sallanan ucuna sildi, cibindən beş-altı dənə ağ, qırmızı, sarı noğul çıxardıb qıza sarı uzatdı...

— Al, əmi sənə gör neçə noğul gətirib... ye, gör necə şirindi?

Bibigülün ürəyi çoxdan noğul istəyirdi, anası hər dəfə ağagilə gedəndə qız yalvarırdı ki, mənə noğul al gətir, ancaq anası əldə elədiyi beş-on rupini çörəyə, pendirə verib gətirirdi, körpələrinin ac qarnını doydururdu və hər dəfə də uşağı aldadıb deyirdi ki, noğulsatan yox idi, gələn dəfə hökmən alıb kətirəcəyəm. Gələn dəfə də belə... Bibigül indi bu tanımadığı kişinin əlində rəngbərəng noğulları görəndə ağzı sulandı, şirin şey yemək istəyi bütün qüdrətilə ürəyində baş qaldırdı; o, noğullara baxıb udqundu:

— Götür, qız, götür! — dedi kişi.

Bibigül gözlərini kişidən çəkmədən noğulları onun açıq, iri ovcunun içindən qamarlayıb götürdü. Bir-bir ağzına atıb çürük-sınıq dişləri ilə xırtıldada-xırtıldada yeməyə başladı.

— Şirindi? — şübhəylə ətrafa boylanan kişi soruşdu. Bibigül xoşbəxtcəsinə gülümsünüb başını tərpətdi:

— Şirindi.

Bibigül məst adam kimi bəxtəvər idi. Dördüncü noğulu ağzına atıb qumun üstündə oturdu. Az sonra gözləri xumarlandı. Əlində iki noğul qalmışdı.

— Bunu anama sax... — O, sözünü tamamlaya bilmədi, böyrü üstə uzanıb noğul tutduğu əlini yumub başının altına qoydu. Bir saniyə sonra gözləri astaca yumuldu.

— Yatdı!— deyə naməlum kişi, marığa yatmış vəhşisayağı, bunu gözləyirmiş kimi cəld qıza sarı cumdu, əvvəlcə uşağın totuq yumruğunu açıb onun anasına saxlamaq istədiyi o iki noğulu götürüb: «lazım olar!» — deyərək cibində gizlədi, sonra qızı qucağına götürüb çayaşağı addımladı, özünü daşlı-kəsəkli dərəyə saldı. Dünyadan bixəbər Bibigülü yerə uzatdı və...».

Şəfi bura çatanda Məleykə özünü saxlaya bilməyib, demək olar ki, qışqırdı:

— Daha bəsdi, Şəfi. Oxuma dalını. Doğrudan da dəhşətdi!

Şəfi gözünü varaqdan çəkdi:

— Hələ qurtarmayıb, Məleykə, hekayə.

— Bilirəm nəynən qurtaracaq. Aman allah, altı-yeddi yaşında qız... — Məleykə gözünün qabağında kiminsə ətini kəsirmişlər kimi — can, can! — dedi.

Şəfi ah çəkdi:

— Bilirsən nəynən qurtaracaq? — söylədi.

— Bilirəm, Şəfi. — Sonra o, əyilib ərinin qulağına nəsə pıçıldadı.

Şəfi başını tərpətdi:

— Yox.

— Hə?

— Hə!

— Onda bəs?

— Onda... dalına qulaq as... Buracan, sənin düşündüyün dünənki dərdimizdi, Məleykə, bundan sonra eşidəcəyin isə bugünkü dərdlərimizdi, əzizim.

— Yaxşı, oxu. İlahi, nə görəcəkli günlərimiz varmış!

Şəfi davam itdi:

«— Kişi tələsik qoltuq cibindən şpris çıxartdı, qızın köynəyinin sol qolunu çırmalayıb kəndirlə sıxıb boğdu, iynəni arıq— bir sümük, bir dəri olan qolunda köyərən damarına keçirtdi; şpris qanla doldu. Qan şüşənin içinə fışqırdı; şpris ikinci dəfə də, üçüncü dəfə də... doldu. Şpris dolub boşaldıqca yazıq qızcığazın onsuz da qansızlıqdan bomboz olan sifəti ağarırdı. Kişi onun avazımış üzünə baxmamağa çalışırdı. İşini qurtardıqdan sonra ayağa durdu, ətrafa nəzər salıb iti addımlarla oradan uzaqlaşdı. Dərədən çıxandan sonra rahat nəfəs aldı. Artıq heç bir təhlükə yox idi.

Kişi sevinirdi. Onun gözləri önündə indi tanış daru-xapə[1] sahibinin gülümsər çöhrəsi və evdə yolunu gözləyən altı ac uşağının, əmzikli arvadının üzü canlanırdı. Kişi sevinə-sevinə ürəyində deyirdi:

— Bu qanı aparıb satacağam, puluna sizə çoxlu çörək alıb gətirəcəyəm. Bu gün doyunca çörək yeyəcəksiniz, balalarım...»

DOQQUZUNCU FƏSİL

Möhsün düz deyirmiş; onun-evini tapmaq çətin oldu. Şəhərin ucqarlarının cikini-bikini əlinin içi kimi tanıyan Ziyaülhəqq Möhsünün ailəsinin yaşadığı yeri iki gün axtarandan sonra güc-bəla ilə tapdı.

Gün günortadan əyilmişdi. Payızın boz-buludlu səmasında qızaran günəş qərbdəki dağların zirvəsinə tərəf meyllənmişdi. Soyuq külək əsirdi. Maşını aşağıda qoyan, plaşının yaxalığını qaldırmış Ziyaülhəqq ətəyi şəhərə toxunan dağın döşündə salınmış, yastı-

[1] Daruxanə — aptek.

yapalaq, alçaqlı-ucalı evciklərin arasından düşmüş dar, dolanbac çığırla üzüyuxarı qalxırdı. Əlləri plaşının cibində idi. Sol cibində pul bağlısı, var idi. Elə bil od aparırdı cibində. Hərdən barmaqları pula toxunanda kişinin əli yanırdı elə bil...

Ziyaülhəqq möhkəm adam idi. Onun təkcə bədəni deyil, əlləri də möhkəm idi. O qədər soyuqqanlı idi ki, bəzən yoldaşları da təəccüblənir, «sənin qanın balıq qanıdır» — deyirdilər. Qorxu bilməzdi, sentimental hisslərə qapılmazdı. Ancaq bu Möhsün hadisəsi onun da qəlbini-ürəyini tərpətmişdi. O, Möhsünü arxadan, başından vurmuşdu. Güllənin səsilə Möhsünün «ax» deyən qışqırtısı bir-birinə qarışmışdı və anlaşılmaz bir uğultuya çevrilmişdi dağların arasında. Xəndəyin içində quylayandan sonra yaş torpağı ayaqlayıb:

— Satqınların qəbri bilinməsə yaxşıdır!—demişdi və bu sözləri elə söyləmişdi ki, sanki hələ bədəni soyumamış Möhsün onun bu sözlərini torpağın altında eşidəcəkdi. Bura qədər, bu iş onun üçün adi bir iş idi. Ancaq bundan sonra görəcəyi iş, atacağı addım qeyri-adi idi, görünməmişdi. Öz əlilə öldürüb torpağa quyladığı bir adamın gedib ailəsini tapmaq, onlarla danışmaq, gözlərinin içinə baxmaq, hələ üstəlik pul da vermək... — bax bunu o, indiyə qədər nə eləmişdi, nə də görmüşdü.

«Bəbir nə qəribə insandı, — deyirdi ürəyində. — Satqındı, öldürdük, qurtardı getdi. Daha bu pul nədi verirsən? Uşaqlarına yazığın gəlir? Doğrudan da uşaqların nə təqsiri var axı? Onlar niyə acından ölməli, ya küçələrə düşüb dilənməlidi? Yox, Bəbir ədalətli adamdı. Belə yaxşıdı, — deyə çox götür-qoy edəndən sonra belə qərara gəlmişdi və bu qərar, hardasa ürəyinin dərinliklərində bir xoş duyğu oyatmışdı. Hər halda Ziyaülhəqq Möhsünün evinə tərəf uzanan cığırla addımladıqca həyəcanlanır, bədəni isinirdi.

Bir dəstə uşaq evlərin arasında, iri, sal qayanın güneyində büzüşüb oturmuşdu, başıqırxıq qara oğlanın söhbətinə qulaq asırdı. Ziyaülhəqq onların yanından keçəndə ayaq saxladı, uşaqlara nəzər saldı. Uşaqlar yad adamın onlara baxdığını görüb döyükdülər.

— O beçə, Möhsünün evi hansıdı? — Ziyaülhəqq xəbər aldı.

Başıqırxıq oğlan ayağa qalxdı, irəli yeridi. Ziyaülhəqqin içəridə ürəyi əsdi nədənsə. Oğlanın çənəsi, qaş-gözü eynən Möhsününkü idi. «Oğludu!» Ziyaülhəqq gözlərini onun baxışlarından yayındırıb yalın ayaqlarında saxladı.

— Neynirsiz, əmi?

Ziyaülhəqq hələ də qulağından getməyən güllə və «ax» səsini öz gur səsilə batırdı:

— Lazımdı! Sən onun oğlusan?

— Bəli, ağa.

— Adın nədi sənin?

— Mənim adım Munisdi, ağa.

Onlar bu söhbətdə ikən üç uşaq da yavaşca gəlib Munisin böyründə sıralandılar. İkisi qız idi, balacaları!.. Ortancıl oğlan... Qızlar boyunlarını çiyinlərinə qoyub yad kişiyə maraqla baxırdılar. Lap balaca qız özündən böyük bacısının əlindən tutmuşdu, baş barmağını da ağzına salıb sorurdu. Dördünün də ayağı yalın idi. Ziyaülhəqqin gözləri dumanlandı, beynində fikirləri düyün düşdü, az qala bura nə üçün gəldiyini də unudub getmək istəyirdi. Ancaq bu anda əli cibindəki pul bağlısına toxundu və fikri duruldu. Ürəyindən keçən ilk hissi bu oldu «sağ ol, Bəbir!».

— Bunlar sənin bacıların, qardaşındı?

— Bəli, ağa.

— Hə... Eviniz hansıdı?

Oğlan əlini qayanın dalına uzatdı:

— Odur.

— Anan evdədi?

— Hə.

— Gedək sizə...

Oğlan qabağa düşdü. Ziyaülhəqq ortada, qalan uşaqlar da onun dalınca... həyət balaca idi, necə deyərlər, iki xoruz döyüşsə idi, biri təndirə düşərdi. Ev isə palçıqdan hörülmüş təkgöz birotaqdan ibarət idi. Qapı əvəzinə, əsl rəngi bilinməyən parçadan pərdə salınmışdı. Divarların dibində,torpaqdan qazılmış ocaq yeri qaralırdı. Hisdən divarın bir tərəfi qapqara olmuşdu.

Ziyaülhəqq həyətdə dayandı. Balaca qız içəri qaçdı, danışıq səsi gəldi, sonra çarşablı qadın pərdəni qaldırıb bayıra çıxdı. Təkcə gözləri görünürdü qadının, kədərlə baxan iri, ala gözləri. Ziyaülhəqq salam verdi, qadın başını tərpətməklə cavabını aldı. Ziyaülhəqq hardan necə başlamaq lazım olduğunu yenə unutdu, duruxdu. Handanhana o, yersiz sükutu poza bildi:

— Məni Möhsün göndərib, həmşirəm. Qadın yaşmağını azca aralayıb:

— Xoş gəlibsən, ağa!—dedi. — Bəs özü hanı? Neçə gündü gözümüz yoldadı. Uşaqlar dil-boğaza qoymurlar. Yollara baxmaqdan gözlərinin kökü saralıb yazıqların. Bəs niyə gəlmədi özü?

Ziyaülhəqq qadının birbaşa dediyi bu sözləri eşitdikcə uçunurdu. Gözlərinə elə bil qatı duman çökürdü, ev də, qadın da, uşaqlar da bu duman içində əriyir, yerində dağlar, dağların arasında maşından düşüb irəli yeriyən Möhsün, güllə və «ax!» səsi canlanırdı, eşidilirdi. Sonra o, fikrən yaş torpağı ayaqlayırdı, sonra öz səsini eşidirdi: «Satqınların qəbri bilinməsə yaxşıdır!»

Daha sonra qabağında qara çadralı qadının azca əvvəl söylədiyi «Yollara baxmaqdan gözlərinin kökü saralıb yazıqların!» — sözlərini eşidirdi. Və bu sözlər elə hey təkrar olunurdu, təkrar olunurdu.

«Yazıqlar hələ çox baxacaqlar yollara. Ömürləri boyu. O, isə daha gəlməyəcək, heç vaxt gəlməyəcək!» — deyə qəribə bir nisgillə ürəyindən keçirən Ziyaülhəqq bir də onda özünə gəldi ki, ayağının birini götürür, birini qoyur — elə bil, Möhsünü indicə, bax bu həyətin ortasında, arvad-uşağının gözünün qabağında basdırmışdır və yaş torpağı ayaqlayırdı. «Satqınların qəbri bilinməsə yaxşıdır!».

Nəhayət, Ziyaülhəqq pencəyinin döş cibinə qoyduğu, Möhsünün ölümqabağı yazdığı (deyəsən heç özü də bilmirdi ki, bu, onun ölümqabağı ailəsinə yazdığı son məktubudu) məktubu qadına uzatdı.

— Oxuya bilərsən?

— Yox, bəradər!

Ziyaülhəqq məktubu oxumaq istədi, ancaq nə fikirləşdisə, fikrindən daşındı. Elə dil-cavabı dedi:

— Möhsün mənim tanışım idi. Başqa şəhərə getdi, Uzun müddətə. Hələ gəlməyəcək. Pul qazanmağa getdi. Şəhərin adını da demədi mənə. Məndən xahiş elədi ki, bu məktubu və pulu — on beş min rupini sizə çatdırım. — O, məktubu və pulu qadına verdi. Qadın çarşabın altından çıxan cadar-cadar əlini irəli uzadıb Ziyaülhəqqin verdiklərini aldı. Uşaqların arasında canlanma əmələ gəldi. Ziyaülhəqqin qulağı böyük oğlanın dediyi bu sözləri aldı:

— Ay! Gör qibləgahım nə qədər pul göndərib! — Görünür, yazıq uşaqlar ömürlərində bu qədər pul görməmişdilər. Onlara dönüb baxdı Ziyaülhəqq. Sevinc yağırdı üz-gözlərindən. Qadının da qəmli gözlərinə sevinc çilənmişdi elə bil.

Bu şadyanalıq Ziyaülhəqqə də sirayət elədi, o da qəlbən onlara qovuşub sevindi və Bəbirin ürəyinin böyüklüyünü, uzaqgörənliyini

minnətdarlıq hissilə xatırladı. Özü də sanki bura gəlməklə, bu pulu, məktubu gətirməklə vicdanı qarşısında pak oldu, təmizləndi.

— On beş mindi, — dedi.

— On beş min? — Ənisə təəccüblə əlindəki pullara baxdı. — Bu qədər pulu hardan qazanıb Möhsün qurban olduğum ?

— Qazanıb da. Mənə demədi. Məktubda da yazıb, özümə də tapşırdı ki, bu pulu umurla xərcləsinlər. Mən gələnəcən, Munis böyüyüb əlinizdən tutanacan birtəhər dolansınlar. Uşaqlara əyin-baş al, həmşirəm, yeməklərinə fikir ver. Yaman günün ömrü az olar. — Bu sözləri o, özündən deyirdi, Möhsün belə şey söyləməmişdi ona.

— Ömrün uzun olsun, ağa. Balalarım ayağının altında ölsün! — deyə qadın dua-alqış eləyəndə Ziyaülhəqq «ayağının altında» sözünü eşidib qeyri-iradi yerə baxdı, — ayağının altına. Yox, yaş, təzə qazılmış torpaq yox idi orda. Və o, başını endirməklə xudahafizləşdi, getmək istəyəndə Munis — böyuk oğlan onu səslədi:

— Əmi!

Dayandı:

— Nədi?

— Siz qibləgahımı görəcəksiniz? Ziyaülhəqq tutuldu, özünü itirdi:

— Yox! Hə! Necə bəyəm?

— Görsəz... ona deyin... evimizə tez qayıtsın. Yaxşı, əmi?

ONUNÇU FƏSİL

Gəlini — Zərrintac xanımı aparmağa gəlmişdilər. Darvazalar taybatay açılmışdı, həyət qonaq-qara ilə, qonum-qonşu ilə dolu idi. Camaat dövrə vurub dayanmışdı, hasarın dibində ayaq üstə durmuş çalğıçılar şıdırğı çalır, oynayanlar bir-birini əvəz edirdilər. Nökər Əbdül isə ortalıqdan çıxmaq bilmir, gələnə yoldaş, kedənə qardaş olub oynayırdı. Təzə paltar geymişdi — kostyumu, köynəyi, ayaqqabısı təzə idi. Nəcməddinin evinə gəl-gedi olmayanlar onun nökər olduğunu əsla ağıllarına belə gətirməzdilər.

Məşşatələr, Dünya xanım, Məleykə xanım Zərrintacın otağına yığışmışdılar, gəlini bəzəyib-düzəyir, zər-zibalarını geyindirir, oxuyub oynayırdılar. Zərrintac gəlinlik paltarının içində alışıb-yanırdı, daş-qaş içində itib-batmışdı.

Nəcməddin, Məhəmməd Şəfi və dostları eyvanda dayanıb oynayanlara, şadlananlara baxıb öz aralarında nəsə danışıb gülürdülər.

Ağayi Nəcməddin qızına toy eləmişdi bu gün. Bu elə bir toy idi ki, çoxdan, lap çoxdan şəhərdə belə toy olmamışdı. Gəlib-gedənin, yeyib-içənin sayı-hesabı yox idi. Kişi məclis üçün heç nə əsirgəməmişdi, gələnlərdən də nə pul, nə hədiyyə qəbul etməmişdi. Düzdür, mövcud adət-ənənəyə əməl olunmamışdı bu toyda. Yəni oğlan adamı qapıya elçiliyə gəlməmişdi — hərçənd ki, bunu Elməddin və onun dostları eləyə bilərdilər. Ancaq Nəcməddin razı olmamışdı. Onun fikrincə, belə işlərdə ata-ana qabaqda durmalı, qol çırmayıb hər şeyi yoluna qoymalı idi. Madam ki oğlanın ata-anası, bacısı-qardaşı yoxdu, onda heç dostları da əziyyətə salmağa dəyməzdi. Onlar elə qara versinlər, gəlsinlər, yesinlər-içsinlər, çalıb-oynasınlar, vəssalam. Nəcməddin belə demişdi və heç kəs də sözünü çevirə bilməmişdi.

Nəcməddin eyvanda, yanında dayanmış Məhəmməd Şəfiyə üz tutdu:

— Bəs Elməddin hanı, Şəfi? Şəfi təəccübləndi:

— Məgər Elməddin də burda olmalıdır?

— Olmamalıdı bəs?

— Yox! Adətə görə...

— Eh, ay Şəfi. Sən də lap avam adamlar kimi danışırsan! Nə adət, nə qayda? Sən birdəfəlik bil: rəhmətlik atam deyərdi ki, şəriət avamlar üçündür. Mənim üçün nə adət, nə ənənə, ay Şəfi. Mənim özümün adətim var, ənənəm var. Adəti biz insanlar özümüz yaradırıq və sonra da, qanımıza-canımıza işləyəndən sonra əsiri olub qalırıq, ha çapalayırıq zəncirini qıra bilmirik, kişi. Mən heç kəsdən utanmıram, heç kəsdən qorxmuram, indiyəcən ürəyim istəyən kimi yaşamışam, bundan sonra da belə yaşayacağam.

— Yaxşı eləyirsən, Nəcməddin. Mən də elə sənin kimi düşünürəm. Sadəcə olaraq, fikirləşdik ki, bəlkə Elməddinin gəlin aparmağa gəlməsi sizin xoşunuza gəlməz, ona görə...

— Hə, onda, neçə ilin dostu olsaq da, sən məni yaxşı tanımırsan, Şəfi. Əhədullanı tap, getsin Elməddini harda olsa, qoysun maşına gətirsin. Mən qızımı bu camaata vermirəm ki, Elməddinə verirəm, o da zəhmət çəkib gəlib xanımını aparsın...

— Baş üstə. Mən bu dəqiqə... — deyib Şəfi pilləkənləri düşdü, darvazanın qabağına yüyürdü. Sonra qayıdıb gəldi, Nəcməddinə dedi:

— Göndərdim...

— Lap yaxşı...

Nəcməddin aynabəndin sütununa söykənib aşağı, həyətə tamaşa eləməyə başladı. Şəfi də böyründə dayandı. Əbdül yenə oynayırdı. Üz-gözü gülürdü. Tər alnından axırdı. Ancaq yoruldum demirdi. Bu ara cavan, mütənasib bədənli, səliqəli geyinib-keçinmiş, kürən bir oğlan da meydana girdi, qollarını qaldırıb Əbdülü yarışa çağırırmış kimi ayaqlarını yerə döydü və «ehehey» — deyib süzməyə başladıqda, çalğıçılar iki bir oyun havası çaldılar. Bu, şıdırğı bir hava idi. Oğlan elə gözəl rəqs eləyirdi ki, dövrə vurub duran adamlar, qeyriiradi əl çalırdılar. Az sonra, görən də, görməyən də əl çalmağa başladı. Bu, eyvanda dayananlara da sirayət etdi. Nəcməddin də, Şəfi də, başqaları da camaata qoşuldular. Arada nə üçünsə eyvana çıxmış Dünya xanım da eyvanın o başından başını irəli uzadıb dairənin içində süzənlərə fikir verdi. Oğlanın çevik, müvazi hərəkətləri, hərdənbir başını qaldırıb iri, yaraşıqlı gözlərini eyvana sarı dolandırması, başını silkələyib kürən saçlarını arxaya atması... elə gözəl idi ki, Dünya bir neçə an gözlərini ondan çəkə bilmədi. Sonra ötəri Əbdülə fikir verdi. O da yaxşı oynayırdı, ancaq deyəsən yorulmuşdu. Dünya çəkilib içəri girdi. Şəfi Nəcməddindən soruşdu:

— O oğlan kimdi, Nəcməddin?

— O, qonşunun oğludu. Səlimullahın oğludu, darülfünun professoru vardı ha, keçən il öldü ey. Fransada öldü ha...

— Hə, hə.

— Bax, onun oğludu.

— Yaxşı oynayır, zalım oğlu. Elə bil anadangəlmə rəqqasdır.

— Cavandı də, ay Şəfi. Mən cavanlıqda ondan da yaxşı oynayırdım. Çalğıçılar çalardılar, mən arxaya əyilərdim, alnımı yerə qoyub yerdəki dəsmalı dişimlə götürərdim. Hamı deyərdi Nəcməddinin sümüyü yoxdu. Amma indi... indi əyilib ayaqqabılarımın bağını bağlaya bilmirəm. — Söhbət bura çatanda Əbdül, elə bil bu sözləri eşidibmiş kimi, yavaşıdı. Nəcməddin ürəyində: «Köpəkoğlu yordu özünü, gərək bic tərpənəsən, havaya güllə atmayasan, belə həriflərin qabağına gərək qoz qoyasan!» — deyə düşündü və az qala qışqıracaqdı ki, onu yormamış çıxma oyundan, Əbdül. Lakin Əbdül əl atıb cibindən dəsmal çıxartdı; Nəcməddinin gözlərinə elə bil işıq gəldi.

— Aha, Şəfi, ora fikir ver... — dedi sevinclə.

— O sənin nökərin deyil?

— Hə, mən ölüm ora bax!

Əbdül işarə elədi, çalğıçılar havanı dəyişdilər, ağırlaşdırdılar; o, dəsmalı yerə sərdi, ətrafına dolanıb irəli keçdi, eyvana göz gəzdir-

di, ağasının gülən gözlərini görüb ürəkləndi, daha kimi isə axtardı və sonra, musiqinin ahənginə uyğun olaraq yavaş-yavaş bədənini əsdirə-əsdirə geri əyilməyə başladı. Asta-asta əyilirdi, Səlimullahın oğlu isə, tez-tez gözünün üstünə düşən saçlarını yana ataraq ətrafda fırlanır və nə isə indicə maraqlı bir şey olacağını gözləyirmiş kimi baxırdı. Yəqin yıxılacağını güman eləyirdi, ya nə idi? Əbdül isə əyilir, əyilirdi. Hamı nəfəsini içinə çəkib tamaşa eləyirdi. Nəhayət, Əbdül kəlləsinin düz ortasını yerə qoydu, bədənini bir az da irəli verib alnını yerə yapışdırdı və dəsmalının azca dikəlmiş ucunu uzanmış dodaqları ilə tutdu, sonra yenə yavaş-yavaş dikəlməyə başladı. Qamətini düzəldib qalib bir tərzdə qonşu oğlanın qabağında fırlandı. Hamı əl çaldı, uğultu həyəti başına götürdü. Əbdül yenə eyvana göz gəzdirdi, Dünyanı gördü, Nəcməddini gördü. Sevinə-sevinə yanındakı oğlana baxmaq istəyəndə onu görmədi. O, oyundan çıxmışdı. Bu ara Nəcməddin yerindən qopdu, pilləkənləri quş kimi uça-uça aşağı endi, meydandan çıxmaq istəyən Əbdülün qabağına keçdi, cibindən iki dənə minlik çıxarıb birini ona, birini də armançalana[1] bağışladı. Sonra üzünü Əbdülə tutdu:

— Halal olsun, o beçə!—dedi. — Xoşum gəldi səndən.

Əbdül minnətdarlıqla əlini döşünə qoyub adamların arasına girdi.

Darvazanın ağzında maşın siqnalı eşidiləndə Şəfi Nəcməddinə dedi:

— Elməddin gəldi deyəsən!

— Hə, get, gətir bura.

İki dəqiqədən sonra bəylik paltarı geymiş, utandığındanmı, həyəcanındanmı yanaqları pul kimi qızarmış Elməddin Şəfinin yanındakı adamların arasından keçib yuxarı çıxdı. Camaat uğuldayırdı:

— Damad gəldi.

— Nə qəşəng oğlandı.

— Damad özü qızın dalınca gəlib? Vay, vay!

— Nəcməddindi də. Ağlına nə gəlir, onu da eləyir. Nə Allahdan qorxur, nə padşahdan.

— Allahdan qorxsaydı içməzdi, padşahdan qorxsaydı, qızını onun oğluna verərdi, yetimin birinə verməzdi.

[1] Arman — milli musiqi alətidir.

Şəfi ilə Elməddin eyvanda dayanmış Nəcməddinin yanına gəldilər. Elməddin qayınatasının üzünə baxmağa utanırdı. O öz aləmində idi, elə bil yatmışdı, bütün bunlar yuxuda baş verirdi. Sanki, onun yox, kiminsə yaxından tanıdığı bir adamın toyu idi. Sevinmirdi. Sadəcə məst adam kimi, maraqlı, gözəl tamaşaya baxan kimi hər şeyə baxır, hər şeyi görür, ancaq heç nə düşünmürdü. Ona elə gəlirdi ki, bir azdan camaat dağılışıb gedəcək, səs-küy kəsiləcək və tamaşa qurtaracaqdı, o da, hamı kimi, öz hücrəsinə bağlanacaq, soyuq otağına gedəcək, yıxılıb yatacaqdı. Ancaq hərdən, bu vurhayın içində kəsik-kəsik, lent parçası kimi Yusifin toyu gözünün qabağına gəlirdi, haradasa Əfsanə cilvələnirdi nəzərində, sonra, özünün bəlkə də toy adlandırmaq mümkün olmayan uğursuz izdivac gecəsi, kəndlərindəki evlərində, alaqaranlıqda Əfsanənin soyunub yatağa girməsi, paltarının xışıltısı yadına düşdü Elməddinin. Və o düşünürdü ki, ən ağıllı adamlar belə dünyanın, həyatın əlaqəli, əlaqəsiz hadisələr axınına düşəndən sonra, sabah, beş gün, hətta beş il sonra başına nə gələcəyini görə bilməz, təsəvvür edə bilməz — bu, insan idrakının imkanları hüdudundan çox kənarda olan bir şeydir. Bax, elə Elməddin özü, heç cürə ağlına belə gətirə bilməzdi ki, günlərin birində Nəcməddin kimi möhtəşəm, evinin sütunları da qızıldan olan bir adamın qızını ala bilər, yazıçı ola bilər, əsərləri çap oluna bilər, onu tanıyarlar, sevərlər, nifrət edə bilərlər. Bunlar Elməddin üçün ömrünün-gününün səhifələrinə yazılmalı olan şeylər imiş ki, özünün də xəbəri yoxmuş. Amma indi-indi oxuyurdu o səhifələri. Onu Nəcməddinin səsi fikrindən ayırdı:

— Hə, damad, özünü necə hiss edirsən? Elməddin utana-utana:

— Yaxşıyam, ağa! — dedi. — Sağ olun.

— İndi gəlin bura! — dedi Nəcməddin və onları içəri — qonaq otağına aparıb əyləşdirdi. Stolun üstündə yemək-içmək var idi. Bir dəstə qızılgül qoyulmuşdu güldana. Otaqdan ətir iyi gəlirdi.

Şəfi dedi:

— Ay Nəcməddin, sən bu gün deyəsən bizi yemək-içməklə öldürmək istəyirsən, nədi? İndicə yemişik, toxuq.

— Yox! Bunun ayrı ləzzəti var, Şəfi. Mən istəyirəm sizinlə bir yerdə xudmani məclisdə, rəmzi də olsa, çörək kəsək. Bu saat qoy mən bizimkiləri də çağırım. Bircə dəqiqə... —deyib yan otağa keçdi, az sonra qayıtdı və onun dalınca ağ gəlinlik libasında Zərrintac xanım, Dünya, Məleykə içəri girdilər. — Gəlin, özgə adam yoxdu burda, özümüzük!

Qadınlar çəkinə-çəkinə bir-birlərinə baxıb oturdular. Məleykə Zərrintacı Elməddinin yanında əyləşdirdi. Şəfi gəlinə baxıb uşaq kimi sevindi, arvadına işarə elədi ki, əladı. Sonra Dünyaya fikir verdi, dönüb Nəcməddinə nəzər saldı.

Nəcməddin çox içmişdisə də, hələ sərxoş deyildi. Nə etdiyini, nə dediyini yaxşı bilirdi. Kişi sadəcə şad idi. Dünyaya işarə elədi ki, qədəhləri doldursun. Dünya zərif bir hərəkətlə qədəhlərə şərab süzdü. Nəcməddin qədəhi götürüb ayağa durdu:

— Şəfi, bu gün mənim ən xoşbəxt günümdür. Zərrintacımın— ciyərparamın toyunu görmüşəm. Bu gün onu oğlum hesab elədiyim Elməddinə tapşırıram. Hər ikisinə xoşbəxtlik, səadət və ən ümdəsi, böyük məhəbbət arzulayıram. Şəfi, mənim aləmimdə çörəksiz də yaşamaq olar, susuz da, ancaq məhəbbətsiz yox. Sizə xeyir-dua verirəm, balalarım. Xoşbəxt olun deyirəm. — Sonra hamı ayağa durdu, Nəcməddin keçib əvvəlcə qızının, sonra isə Elməddinin alnından öpdü. — Xoşbəxt olun. — Və içdi. Elə oradaca cibindən bir dəstə açar çıxartdı: — Bu da sizin cehizinizdi. Bax, bu sizin imarətinizin açarlarıdı, qurulu evdi, hər şeyi içində. İndi, burdan durub ora gedəcəksiniz, mənim balalarım. Mən o dünyanın əfsanəsi cənnətini bu dünyada sizə yaratmışam, çünki cənnət bu dünyadadı. Başa düşürsünüz, bu dünyadadı. — Nəcməddin bir qədəh də içib o biri açarı Elməddinə verdi.

— Bu da sənin hədiyyəndi. «İmpala» maşını almışam sənin üçün, həyətində, qarajındadı, oğlum.

— Çox sağ olun, ağayi Nəcməddin! — dedi Elməddin. — Neynəyirdiniz? — Belə deyib o, açarı Zərrintacın qabağındakı açarların yanına qoydu və ona baxıb gülümsündü. Zərrintac Elməddinin ayağına toxundu. O, başa düşdü ki, nə demək istəyir qız!!!

Nəcməddin məclisə fikir verdi. Heç kəs yeyib-içmirdi. Hamı bir-birinə baxıb təbəssümlə şadlıqlarını bildirdi. Birdən heç kəsin gözləmədiyi halda, Nəcməddin üzünü Elməddinə tutub gülə-gülə söylədi:

— Damade-əziz, bilirsən bütün bunların müqabilində səndən nə istəyirəm?

Elməddin bayaqdan bəri ilk dəfə başını qaldırıb qaynatasının üzünə qorxu, təəccüb hissilə baxdı:

— Nə istəyirsiniz?

— Bilmirsən?

— Yox.

Şəfi sözə qarışdı:

— Mən deyim nə istəyirsən, Nəcməddin?

— Hə. De!

— Şer istəyirsən, eləmi?

— Afərin! — Nəcməddin əlini-əlinə vurub şaqqanaq çəkərək güldü və kəsik-kəsik: — Hardan bildin, ay Şəfi? — dedi.

— Mən sənin xəstəliyini çoxdan bilirəm, Nəcməddin! Amma heç hənanın yeridi, ay Nəcməddin? İndi Elməddinin yadına şer düşür heç?

— Yox, yox, Şəfi, səhv eləyirsən. Əsl şair gərək şersiz olmasın. Ən pis günündə də, ən şad günündə də,

Elməddin Şəfiyə baxdı, gülümsündü və Nəcməddinə dedi:

— Sizə şer verərəm, bir şərtlə!

— Nə şərtdi o elə?

— Burda oxumayasınız, biz gedəndən sonra oxuyasınız. Yaxşımı?

— Oho! Baş üstə, damade-əziz, belə mənim bu gözlərim üstə.

Elməddin cibindən dörd qatlanmış kağızı çıxarıb qayınatasına verdi. O, kağızı öpüb gözünün üstünə qoyduqdan sonra sevinc içində dedi:

— Mən öz haqqımı aldım. İndi... Gedə bilərsiniz, mənim əzizlərim, yolunuz uğurlu olsun, mənim balalarım...

Hamısı ayağa durdu. Zərrintac minnətdarlıq hissi ilə atasına baxdı, evə göz gəzdirdi, baxışları nəmləndi... Yaxın gəlib atasının sinəsinə başını qoydu. Sonra o, Dünya ilə öpüşüb ayrıldı. Qapıdan çıxanda Şəfi gördü ki, Nəcməddinin də gözləri yaşarıb...

Həyətdə çalırdılar...

ON BİRİNCİ FƏSİL

Həyət-bacaya sakitlik çökmüşdü. Qu desəydin, qulaq tutulardı. Elə bil yarım saat bundan qabaq çal-çağır olan həyət deyildi. İkidən işləyirdi. Qonum-qonşu da çəkilib getmişdi. Əbdül pilləkənin aşağısında oturub dizlərini qucaqlamışdı. Darvazada, eyvanda, sütunlarda yanan işıqları söndürməmişdi. Elə yorulmuşdu ki, qalxıb yatmağa belə ərinirdi, ayaqları zoqquldayırdı.

Yuxarıdan da səs-səmir gəlmirdi. Deyəsən ağa ilə xanım da yatmışdı. Ancaq Əbdül səhv eləyirdi. Nəcməddin qızını yola salandan sonra dönüb qonaq otağına keçmiş, qədəhinə şərab süzmüş, qa-

bağına qoymuşdu, ancaq içməmişdi. Başını aşağı əyib qolunun üstünə söykəmişdi, düşünürdü:

«Ey gidi dünya. Zərrintac da belə getdi. Böyüt, bəslə, sonra da ver aparsınlar. Amma ürəyimcə oldu toy. Heç kəs hələ qızına belə toy eləməyib. İllərlə dillərdə dastan olacaq mənim balamın toyu. Deyəcəklər... eh nə deyəcəklər? Boş şeylərdi hamısı, vallah, boş şeylərdi...».

Çiyninə göyərçin kimi ağ, zərif bir əl qondu, yanında göyərçin qanadının xışıltısına bənzər hənirti eşitdi. Dünya astaca onu tərpətdi:

— Yatmısan, mənim əzizim?

Nəcməddin dikəldi, qızarmış, yorğun gözlərilə Dünyaya diqqət yetirdi; elə bil bütün günü onu birinci dəfə idi görürdü. Nə qəşəng geyinmişdi, ilahi, Dünya? Necə də bu paltarda — ağla qırmızının qarışıb yandığı bu geyimdə gözəl idi Dünya? O da yorğun idi və bu yorğunluq onun sifətinə, baxışlarına xüsusi bir məlahət verirdi. Gözləri xumar-xumar süzülürdü, təbəssümdən işıq saçırdı. Stulu çəkib böyründə oturdu:

— Yorulub əldən düşdün, — dedi və nəvazişlə onun ağ, pərişan saçlarını sığalladı.

— Hə, daha demə, yamanca yorulmuşam. — Gər səslə Nəcməddin söylədi.

— Ay toy idi ha, maşallah. Mən ömrümdə belə toy görməmişdim.

— Tək sən yox, heç mənim özümün də belə toy gördüyüm yadıma gəlmir, Dünya. Adıma layiq elədim. Qoy deməsinlər ki, Nəcməddin qızının toyuna xəsisliklə pul xərclədi.

— Yaxşı elədin, mənim əzizim. Sən mənim ağıllımsan. Hər şeyin yerini bilirsən.

Tərif Nəcməddinin qırışığını açdı:

— Bu gidi dünyada havayı yaşamamışıq, quzum. Papağımızı boş-boşuna günə yandırmamışıq, ceyranım. — O susub otağa göz gəzdirdi. — Amma ev elə bil boşaldı. Heç inanmaq istəmirəm ki, Zərrintac getdi. Bayaqdan oturub fikirləşirəm ki, qız öz otağındadı; heç yana getməyib, hələ az qala ağzımı doldurub uşağı çağırmaq da istədim bir dəfə. Sonra yadıma düşdü ki, gedib axı mənim balam.

— Hə, gedib! — deyə Dünya ah çəkdi. — Qız qonaqdı evdə. Axırı, geci-tezi var, bir gün gedib özgə şamı yandırandı.

«Özkə şamı!» — bu sözləri eşidəndə Nəcməddin duruxdu, beynindən qatmaqarışıq bir uğultu keçdi, «özgə» sözü qılınc kimi tez-

tez başına dəydi, qulaqlarında səsləndi. Elməddinlə qızının münasibətini biləndən sonra qəlbində gizli-gizli gəzib-dolaşan, ancaq mətləbi-istəyi bilinməyən bir duyğu, nigaranlıq və qorxu indicə, Dünyanın dilindən o sözləri eşidəndən sonra durulub aydınlaşdı. Nəcməddin məhz indicə başa düşdü ki, səhv eləyib, qızı Elməddinə verməkdə yanılıb, çünki gün kimi ona aydın oldu ki, Zərrintac oğlanı nə qədər çox sevsə də, istəsə də, Elməddin onu sevmir və ya az sevir. Kişi, bunu hətta Elməddinin şerlərindən də hiss elədi, Sanki birdən-birə anladı ki, bu odlu ürək çırpıntıları ilə dolu olan şerlər — məhəbbət şerləri heç də Zərrintaca yazılmayıb, tamam başqa bir adam haqqında deyilmiş şerlərdi. Bəli, onların bircə sözünün də onun qızına dəxli yoxdu, necə ki, həmin şerlərin Dünyaya dəxli, aidiyyəti yox idi. Bunu anlayanda kişinin bütün sevincinin üstünə su ələndi, o, soyuq və ayaz bir havada suya salınıb çıxarılmış adam kimi büzüşüb balacalaşdı. Canını qızdırmaq üçün qabağındakı dolu qədəhi götürüb başına çəkdi, içib heç nə yemədi. Az sonra yenə açılışdı və o nigarançılıq hissini özündən uzaqlaşdırdı: «Öyrəşərlər, isinişərlər, xoşbəxt olarlar!» — deyə qəlbinə toxtaqlıq verdi.

— Nə dərin fikrə getdin, Nəcmi? — deyə süfrəni yığışdıran Dünya xəbər alanda o:

— Heççç... — deyib çölə çıxdı. — Elə-belə... Darıxdım...

Dünya əlbəttə, onun qəlbindəkilərdən xəbərsizdi. O, sadəcə olaraq, bunu, qızını ər evinə köçürmüş atanın əhvali-ruhiyyəsi hesab edirdi və hər şeyin tezliklə keçib-kedəcəyinin ümidində idi. Buna baxmayaraq, süfrəni yığışdırmaqdan əl çəkib Nəcməddinin ardınca eyvana yollandı. Bu zaman o, pilləkənlərin başında dayanıb Əbdüllə söhbət eləyirdi. Deyirdi:

— Yaman qan elədin ha, Əbdül. Afərin, xoşum gəldi səndən. Əməlli-başlı oynayan imişsən ki sən, heç bizim xəbərimiz yoxmuş!!

Əbdül, pilləkənlərin aşağısında ayağı ilə yeri qurdalaya-qurdalaya cavab verirdi.

— Hə, ağa. Mən xanımın toyunda heç oynamaya bilərdimmi? Bizim Zərrintac xanım, — Allah xoşbəxt eləsin, — yaxşı uşaqdı. Ağıllı, mərifətli. Odur ki, ürəklə oynayırdım, ağa.

— O oğlanın qabağına yaxşı qoz qoydun amma!

— Neyniyim, ağa? Gördüm çox havalıdı. Özünü elə aparırdı ki, guya yer üzündə ondan yaxşı oynayan yoxdu. Mən də eləmədim tənbəllik...

Dünya xanım Nəcməddinin böyründə dayanıb Əbdülə baxırdı. O, Əbdülün hələ də adını bilmədiyi o qonşu oğlanla şıdırğı oynamağına ötəri tamaşa eləmişdi. Əbdül doğrudan da gözəl rəqs eləyirdi. Nədənsə onun rəqsi Dünyanın ürəyində toyun sevincinə bərabər bir fərəh oyatmışdı. Son zamanlara qədər həyət-bacada əzgin-küskün gəzən, dinib-danışmayan, həmişə öz aləminə qapılıb nə isə düşünən, yaşına görə çox qoca görünən Əbdülü sanki büsbütün dəyişmişdilər: o gümrahlaşmışdı, cavanlaşmışdı, deyəsən, hətta gözəlləşmişdi də. Dünya ona fikir verirdi, o isə, ağasının yanında dayanan, iri, işıqlı gözlərini ona zilləyən Dünyanı elə bil görmürdü. Bircə dəfə də baxışlarını qaldırıb gəlinin üzünə baxmırdı, sanki heç o, burada yox idi. Bu isə, Dünyanın xoşuna gəlirdi. Onun sözü Əbdül üçün qanun olmuşdu. «Baxmayacaqsan!» — deyə tapşırdığını xatırlayıb sevinirdi. Əbdül isə xanımının sözünü yerinə yetirirdi — sədaqətlə, dəyanətlə.

— Mən gedirəm yatmağa! — deyə Dünya ərinin qulağına astaca pıçıldadı və ondan cavab almamış, Əbdülə son dəfə şirin bir nəzər salıb ipək donunu xışıldada-xışıldada uzaqlaşdı.

Nəcməddin dönüb arxasınca baxdı, sonra həyətə duşüb açıq havada Əbdüllə xeyli gəzindi, onunla ordan-burdan söhbət elədi. O, yataq otağına qayıdanda Dünya soyunub yerinə girmişdi. İşıqları söndürməmişdi. Gözlərini tavana zilləyib düşünürdü. Zərrintacı xatırlayırdı, indi, ilk zifaf gecəsi iki cavanın həsrətlə, məhəbbətlə birbirinə sarmandığını, kama çatdığını gözünün qabağına gətirir və bundan əvəzsiz bir ləzzət alırdı. Elə bil o özü ərə getmişdi. Bu toy onun öz toyu idi elə bil. Gedən Zərrintac deyildi, Dünya idi. İndi yəqin ki, Elməddinin qüvvətli qolları arasında çırpınıb-çapalayan da Zərrintac deyildi, Dünya özü idi. Və bu fikir onun bədənində xoş, giziltili duyğular oyadırdı.

Ancaq bu, Nəcməddin tappıltı ilə içəri girənəcən davam elədi. Yox, gedən həqiqətən Zərrintac imiş, qalan isə Dünya!

— Yatmısan, mənim mələyim?!

— Yox, səni gözləyirəm! — hisslərinin əlində qovrulan Dünya şirin-şirin gərnəşib sinəsini qabartdı. — Mən də öz bəyimi gözləyirəm!

Nəcməddin Dünyanın alışıb-yanan gözlərinə diqqət yetirdi və birgə yaşadıqları bu neçə vaxtda ilk dəfə ondan qorxdu. Bu balaca, qəşəng, təpədən-dırnağa məhəbbət parçası olan Dünyanın qarşısında gücsüz olduğunu dərk edib üşüyən kimi oldu. Ancaq bu hissi özündən uzaqlaşdırdı, soyunmağa başını qarışdırıb o bəd fikri unutmağa müvəffəq oldu.

Dünyanın yanına girəndə o, əlilə kişini kənara itələdi.

— Gəlmə!

— Niyə?

— Nə yadından çıxıb?

— Mənim? Heç nə?

— Yaxşı fikirləş!!

Nəcməddin çarpayının qırağında oturub gözlərini döydü. Nə unutmuşdu? Yadına sala bilmirdi.

— Tapmadın?

— Yox, vallah. Axı...

Dünya ərinin diqqətsizliyindən incimiş kimi üz-gözünü qırışdırdı:

— Bəs hanı şerin?!

— A... — deyə Nəcməddin sevincək səsləndi — Mənə bax a! Lap yadımdan çıxmışdı... Şer... — o, əlini uzadıb stulun başından asdığı pencəyinin cibindən bayaq Elməddindən aldığı vərəqi götürdü və Dünyanın yorğanının altına girdi. Bu dəfə Dünya etiraz eləmədi. Lakin şərtini söylədi:

— İndən belə... şersiz... səni yanıma buraxmayacağam!

— Həə?

— Bəli... şersiz buraxmayacağam... — Şəhadət barmağı ilə Nəcməddinin, ucunda iki-üç qara tük bitmiş burnuna bir çırtma vurub güldü. Nəcməddin dedi:

— Bəli də. Bu yaşda gərək şairliyə başlayaq deyirsən?!

— Nə olar? Başlayanlar səndən artıqdı?

— Yetmişində öyrənən gorunda çalar!.. Bu sözdən sonra Dünya ah çəkib dinmədi... Nəcməddin vərəqi açıb ürəyində oxumağa başlayanda Dünya söylədi:

— Özün üçün oxuyursan? Ucadan oxu, mən də eşidim də! Gözləri ilə oxuduğu şer Nəcməddinin xoşuna gəldi. Sevindi kişi. Məmnuniyyətlə Dünyaya da oxudu:

Vüsalına qovuşandan sərxoşam,
Vüsalından hələ məstəm, hələ məst.
Yerdəyəmmi, göydəyəmmi — bilmirəm,
Dünya özu görməyibdir belə məst.

***

Bəxtəvərəm, məskənimdir o ürək.
Mən sevən gün doğulmuşam, ey mələk.
Yer üzündə aşiq varmı mənim tək —

Doğula məst, yaşaya məst, ölə məst!!

Dünya gözlərini yumub elə bil həzin musiqi dinləyirdi. Mizrab vurulandan sonra titrəyən sarı sim kimi bütün vücudu inildəyə-inildəyə əsirdi. Nəcməddin susmuşdu, Dünyanın bu an ləzzət aləmində olduğunu, ürəyində o şerin sözlərini birər-birər təkrar etdiyini bilirdi. Çünki o, gözlərini yummuşdu və bu o demək idi ki, şer Dünyanın ürəyinə yatmışdı, nəşələndirmişdi. Handan-hana o, yerindən qurcuxub:

— Bu şer kimə yazılıbsa o, dünyanın ən xoşbəxt qadınıdı, Nəcmi! Ən xoşbəxt qadını!.. Aşiqi onu sevən gün dünyaya gəlib. Yəni ondan qabaq yaşadığını öz ömründən hesab etmir o aşiq. Onun vüsalından elə məstdi ki, dünya hələ elə məst görməyib, aman allah... O, məst doğulub, məst yaşayıb, məst də ölüb gedəcək. Budur əsl məhəbbət, əsl böyük məhəbbət bax budur, Nəcmi.

— Zalım elə bil mənim haqqımda yazıb.

— Sənin haqqında?

— Hə, Mən də elə olmuşam, Dünya. Mən də sənin vüsalından sərxoşam, hələ də ayılmamışam. Heç ayılmaq da istəmirəm, əzizim. Mən də səndən qabaq yaşadıqlarımı ömrümdən saymıram, mən də səni sevən günü anadan olduğum gün hesab eləyirəm, gülüm. Məst doğulmuşam, indi də məst yaşayıram. Ancaq elə et ki, bu məhəbbətdən ayılmayım, elə beləcə məstanə də dünyadan köçüb gedim, Dünyam mənim... — Son sözləri bayaqkı qorxunun təsirilə dediyini anlayıb susdu. «— Elə məst də ölüb getmək... mənə qismət olacaqmı? Ya...» — deyə düşündü. Dünya ona tərəf çevrilib əlini boynuna saldı. Özünə tərəf çəkib sinəsinə sıxdı.

— Nə yaxşı danışdın, Nəcmi... Ölürəm şirin söz üçün, məhəbbət dolu söz üçün ölürəm, Nəcmi. — O, sözləri pıçıltı ilə söyləyirdi, elə astadan söyləyirdi ki, Nəcməddin güclə eşidirdi. Onun səsi elə bil yuxu aləmindən gəlirdi: o, şeri həzin pıçıltı ilə təkrar edirdi:

Vüsalına qovuşandan sərxoşam...
Vüsalından hələ məstəm, hələ məst...

Sonra o, susdu, elə bil yatdı. Ancaq yatmamışdı. Nəcməddinin əlini sinəsinə sıxıb tam ayıq halda:

— İndi yəqin Elməddin də bu şeri Zərrintac üçün oxuyur, — dedi.

Nəcməddinin əli süstəldi və o, ah çəkdi...

...Amma yox, Dünya yanılırdı. Elməddin Zərrintaca şer oxumurdu. Əslində şer heç yadına düşmürdü. Arxası üstə uzanmış Zərrintacın utancaq gözlərinə baxır, dirsəklərini dayaq verib balışın üstünə dağılmış ətirli saçlarını sığallayırdı. Gözlərini açanda Zərrintac idi yanındakı, yumanda o yox olurdu, Əfsanə gəlirdi. Əfsanənin səsini eşidirdi, hənirtisini duyurdu. Gözünü açanda isə Zərrintacı görürdü.

— Xoşbəxtsənmi, Zəri? — deyə o, tövşüyə-tövşüyə soruşdu.

Zərrintac baxışlarını qaldırıb Elməddinə diqqətlə baxdı və:

— Hə! — dedi. — Bəs sən?!

Elməddin başını tərpətməklə «hə» cavabını verdi və yenə gözlərini yumdu...

Əfsanənin isti nəfəsi boyun-boğazını qarsıdı.

ON İKİNCİ FƏSİL

Darvazanın yanında siqnal səsi verildikdə Əbdül namaz qılırdı. Namazı yarımçıq qoymaq olmazdı, ancaq çarəsi nə idi — «Allahü əkbər!» — deyib ayağa qalxdı və qaça-qaça gedib darvazanı açdı. Ağayi Nəcməddin maşını içəri salanda Əbdül adəti üzrə əlini sinəsinə qoyub baş endirdi və lay qapıları örtüb bağladı. Nəcməddin maşından düşdü. Səndirləyirdi, sərxoş idi. Kefi kök idi.

— Hə, Əbdül, nə təhərsən eyyy? — deyə uzada-uzada nökərin halını soruşdu — Neynəyirdin?

— Heç, ağa. Namaz qılırdım.

— Ba, nə pis iş oldu, namazın batil oldu ki, ay yetim.

— Neyniyim, ağa... Təzədən qılam gərək...

Nəcməddin həyətin ortasında dayanıb əllərini belinə qoydu. Səsə Dünya xanım eyvana çıxmışdı, ortada pəhləvan kimi dayanıb güləşməyə adam axtarana oxşayan ərinin duruşundan anladı ki, kişi o ki var, içib, ərşnən-kürşnən əlləşir. Nəcməddin altdan-yuxarı arvadına baxıb qımışdı:

— Necəsən, mənim mələyim? Yəqin yenə yatmışdın, hə?

— Hə! — Dünya xalxallarını çıqqıldada-çıqqıldada pilləkənləri endi, yanına gəldi: — Yenə harda içmisən, Nəcmi?

— İçmişəm?

— Hə də.

— Lap az içmişəm, Dünya.

— Necə az içmisən, ayaq üstə dayana bilmirsən, kişi? Kimnən içmisən? — Nəcməddin irəli yeriyib Dünyanın balaca burnuna bir yüngül çırtma vurdu:

— Kimnən içəcəyəm! Ağayi Elməddinlə, qızım Zərrintac xanımla.

— Hə? — Dünya sevindi. — Ora getmişdin? Necədilər?

— Lap əla! Yaşayırlar özləri üçün.

— Bəs məni niyə aparmadın, Nəcmi?

— İstəyirdim gələm səni də götürəm, ancaq tənbəllik elədim, doğrusu. Səni gələn dəfə apararam...

— Necə dolanırlar təzə bəylə, təzə gəlin?

— Evin sirrini bilmək olmaz, Dünya. Zahirdə yaxşı idilər, batini bilmirəm.

— Batində də yaxşı olarlar, inşallah... — deyə nədənsə nigaran olduğunu duyan Dünya ona təsəlli verdi. — Elməddin elə oğlandı ki, onunla dolanmaq olar. Lap dünyanın o başına da getmək olar, Nəcmi.

— Sənin sözündən belə çıxır ki, mənim qızım pisdi?

— Yox! Əstəğfürullah, Nəcmi. Pis niyə olur sənin qızın? Yəni demək istəyirəm ki, evdə əsas kişidi — kişi yaxşı oldusa, o evdə xeyir-bərəkət olar, ürəkbulandıran söz-söhbət olmaz... Zərrintac ağıllı qızdı, özü də oğlanı çox istəyir, mən inanıram ki, onlar xoşbəxt yaşayacaqlar.

— Təki olsun, Dünya. Elə nigaranam ki... Sən bilirsən mən bu it qızını çox istəyirəm, ən böyük arzum onu xoşbəxt görməkdi, Dünya.

— Elə də olacaq, Nəcmi, heç darıxma. Bir də indi evlər, ailələr ən çox bilirsən niyə dağılır?

— Yox! Niyə dağılır?

— Kasıblıq ucundan, Nəcmi. Kasıblıq qapıdan girəndə, arvad pəncərədən çıxar — deyirdi rəhmətlik nənəm. Sənin qızın, damadın isə bu sarıdan təmin olunublar. Daha burda nigaran olmağa dəyməz.

— Nə bilim. Mənə elə gəlir ki, əsas ürəkdi. Məhəbbət olmayanda, ailə daha tez dağılır, məncə. Bax, biri sən. Sən məni sevməsən, qalarsan yanımda?

Bu gözlənilməz sual bir anlığa Dünyanı çaşdırdı, ancaq o, özünə xas ustalıqla təxirsiz cavab verdi:

— Qalaram. Sənin kimi kişini hansı arvad qoyub gedər? Mən sənin qulunam, Nəcmi? Mən ölənəcən sənin.

— Mən, ya sən?

— Başa düşmədim. Necə yəni «mən, ya sən?».

— Mən ölənəcən mənimsən, ya allah eləməsin, sən ölənəcən mənimsən?

— Kişiyə bax ey, gör nə danışır sən allah? Hər iki halda sənin-nəm, sən ölənəcən də, mən ölənəcən də!

— Demək, işdi, mən ölsəm, yenə mənim olacaqsan, eləmi?

— Əlbəttə, saçımın birini ağ hörəcəyəm, birini qara, yenə sənin olacağam.

— Heç kəsin yox?

— Heç kəsin yox!

Dünyanın bu sözləri Nəcməddini təzədən bəxtiyar elədi və xəzinə tapmış yoxsul adam kimi hədsiz-hüdudsuz bir sevinc içində irəli cumub Dünyanı qucaqladı, ayaqlarını yerdən üzdü və fırladı. Elə fırladı ki, gəlinin donu çətir kimi açıldı.

Dünya:

— Ədə, yavaş, neyləyirsən? Qol-qabırğamı sındırdın. Burax məni, — deyəndə o dayanıb qızı yerə qoydu və dodaqlarından öpdü:

— Sənə qurban olum.

Namaz qıla-qıla bayaqdan gözucu onlara baxan Əbdülün səsi eşidildi:

— Allahu əkbər! Allahu əkbər.

Nəcməddin bu səsə əhəmiyyət vermədi, gedib ağacın altındakı uzun oturacaqda əyləşdi. Dünya isə Əbdülün səsindəki əsəbiliyi duyub özünü yığışdırdısa da, zahirən buna heç bir əhəmiyyət vermirmiş kimi Nəcməddinin yanına gəldi. Nəcməddin yaylıqla alnının tərini silib dedi:

— Sən canın, bura bir az yemək-içmək gətir. Havada yaxşıdı, elə həyətdə oturaq.

— Baş üstə.

Heç beş dəqiqə keçməmiş Dünya üstünə müşəmbə salınmış stolun üstünə xörək gətirdi. Piyalə bir dənə idi. Nəcməddinin gözündən qaçmadı bu: — Bəs, piyaləni bir dənə niyə? — Mən içməyəcəyəm.

— Niyə?

— Olmaz! Sənə o dəfə demədim daha mənə olmaz? — deyə o baxışları ilə qarnına işarə elədi.

— Hə, hə. Bağışla sən allah. Amma hər halda birini də gətir. Elə-belə, rəmzi. Qoy sənin badənə vurub içim:.

— Yaxşı. Amma sən allah, özün də az iç, Nəcmi. Qabağını da içibsən axı.

— Baş üstə..

Dünya ikinci qədəhi də gətirdi. Nəcməddin piyalələri doldurdu:

— Otur, mənim əzizim!—dedi Dünyaya. Dünya bayaqdan ona diqqət yetirirdi. Kişi onun sözlərindən lap məst olmuşdu. Təpədən dırnağa bütün vücudu, hətta gözləri də, tükləri də bəxtəvər idi Nəcməddinin. — İnsan qəribə məxluqdu, — deyə Dünya fikirləşirdi, — öləndən sonranı da düşünməkdən əl çəkə bilmir. Sən öləndən sonra nə fərqi var mən sənin oldum, ya olmadım. Bu fikirlə barışmaq istəmir ki, daha sənin deyiləm. Ondan olsa elə özü ölən günü məni də öldürər ki, başqasının olmayım.. Yəqin bu da məhəbbətdəndir, ancaq məhəbbətdən. Düzdü, burda bir az xudpəsəndlik də var, ancaq məhəbbət xudpəsəndlikdən çoxdu, böyükdü. Bəs onda görəsən ölərkən, yaxud həmişəlik ayrılarkən öz sevdiklərinə «get, xoşbəxt ol, mən sənin xoşbəxtliyini arzulayıram, sən xoşbəxt olsan, mən də xoşbəxtəm!» — deyənlər necə? Onları necə başa düşmək lazımdır? Görəsən bu iki qisim adamın hansı daha çox sevir?» — Dünya öz aləmində bu suala cavab tapmamış Nəcməddinin səsi onu fikirdən ayırdı:

— Sağ ol, əzizim, sənin sağlığına içirəm. Dünya düzəliş verdi:

— Sənin yox, sizin. Mən tək deyiləm ki, — deyə nazla gülümsündü, badəsini onun badəsinə vurub yerə qoydu.

— Hə, hə! Sizin sağlığınıza içirəm, — dedi tələsik Nəcməddin. Və yenə gözəgörünməz sevinc dalğası onun üzünü, gözlərini işıqlandırdı.

— Şer gətirmisən?

— Şer? Hə... Yox, yox. Gətirə bilmədim. Elməddinin böyürbaşına çox keçdim, dedi yazmamışam.

— İndi onun şer yazmağa vaxtı hardaydı? Hələ uzun müddət şer yazmaq yadına düşməz Elməddinin.

Əbdül namazını qılıb qurtardı, maşını yumaq üçün bu tərəfə keçəndə Nəcməddin onu gördü:

— Əbdül?

— Bəli, ağa!

— Bura gəl!!

Əbdül tələsik stola yaxınlaşdı:

— Bəli, ağa. Eşidirəm.

— Otur!

Əbdül qorxa-qorxa gözlərini Nəcməddinə zillədi. Tərpənmədi. Dünyaya isə heç baxmırdı.

— Eşitmirsən, deyirəm otur! — Əbdül dizini qoyub yerdə oturmaq istərkən Nəcməddin şaqqanaq çəkib güldü: — Orda yox, süfrə başında.

— Ağa...

— Otur, otur... Bu gün bizimlə çörək yeyəcəksən. Toy günü ki sən elə oynadın, yaman xoşuma gəldi, otur çörək ye bizimlə...

— Ağa, mən naharımı eləmişəm.

— Ağanla bir-iki tikə yeyərsən...

— Lütfün artıq olsun, ağa. Ancaq mən...

— Uzun danışan adamdan zəhləm gedir. Otur. Əbdül çarəsiz qalıb ağayi Nəcməddinin, Dünyanın qarşısında əyləşdi.

— Hə, bismillah...

Əbdül süfrəyə baxdı. Yumşaq təndir çörəyindən bir tikə qopardı, göyərtidən götürdü. Nəcməddin Dünyanın badəsini onun qabağına qoyanda Əbdülün boğazı qurudu, tikəsi ağzında qaldı.

— Ağa...

Nəcməddin güldü:

— Birinci badəni Dünya xanımgilin, — bu dəfə səhv eləmədi, — sağlığına içmişəm. Bu badəni sənin sağlığına içəcəyəm. Götür.

Əbdülün rəngi ağardı. Qara, dərisi çat-çat olmuş əli əsdi, qonur, kədərli gözləri böyüdü.

— Ağa, siz nə danışırsınız... Mən müsəlmanam...

— Gədə, pədər süxtə, bəs biz kafirik?

— Yox, ağa. Yəni demək istəyirəm ki, mən oruc tuturam, namaz qılıram. Ağa, başına dönüm, mən ömrümdə ondan dilimə vurmamışam.

— Mən də nə zamansa vurmamışdım, Əbdül. Görürsən az qala otuz ildi asta-asta içirəm, hələ ölməmişəm...

— Ağa, ayağının altında ölüm, məni günaha batırma, çevir o tək balanın başına məni, günaha batırma.

— Günahın mənim boynuma. Yəni deyirsən mən, ağayi Nəcməddin bir sənin də günahını boynuma götürə bilməyəcəyəm? İç!

— Yox, ağa. İncimə, içməyəcəyəm.

— İçməyəcəksən?!

— Yox, başına dönüm, ağa, içməyəcəyəm.

Bayaqdan bu söhbətə qulaq asan, gözlərini Əbdüldən çəkməyən Dünya şən-şən uğunub gülürdü və bu məzəli söhbətin axırının nə ilə qurtaracağını gözləyirdi. İşin ciddiləşdiyini görən Dünya ərini dümsüklədi:

— İşin olmasın onunla, Nəcmi!

— Yox, içəcək, Dünya. Mənim ürəyim istəyir ki, o da dünyanın bu gözəl nemətindən dadsın, Yoxsa bu cahana eşşək kimi gəlib, eşşək kimi kedəcək bizim bu Əbdül.

— Qurban olum, ağa, içməyəcəyəm.

Söz ağzından qurtarmamışdı ki, Nəcməddin əl atıb arxa cibindən balaca tapançanı çıxartdı:

— İçməsən vuracağam, Əbdül.

Əbdül qorxu, təşviş içində ayağa durdu:

— Vur, qurban olum, ağa, ancaq içməyəcəyəm.

— Bax, üçəcən sayıram, bir... Əbdül hirslə:

— İçməyəcəyəm!—dedi və böyümüş gözlərini bayaqdan bəri ilk dəfə dolandırıb oğrun-oğrun Dünyaya, imdad istəyirmiş kimi baxdı.

— İki.

Dünya bu an vəziyyətin gərginliyini, ərinin çılğınlaşdığını görüb baxışları ilə Əbdülə «iç» işarəsi verdi. Vaxt az idi, cəmi bir-iki saniyə qalmışdı. Həm də Əbdülün fikri elə alt-üst olmuşdu ki, daha ayrı şeylər barədə düşünməyə imkanı yox idi. Bəlkə səhv başa düşmüşdü. «Aman allah, Dünya da deyir, iç! O deyəndən sonra mənim nə ixtiyarım var ki, içməyim. Zəhər də olsa içməliyəm...». Nəcməddinin «üç» deməyilə Əbdülün əlini badəyə uzatmağı bir oldu. Əli əsdiyindən badədən bir neçə qətrə süfrəyə dağıldısa da, o, heç nəyə fikir vermədən gözlərini yumub ürəyində «Allah, sən özün keç günahımdan!» deyib başına çəkdi və badəni şəstlə yerə qoydu. Gözlərindən elə bil od çıxdı. Boğazı, sinəsi yandı elə bil Əbdülün.

Nəcməddin gülə-gülə:

— Bax, belə! —dedi və ona turş xiyar qıçası uzatdı. O, titrək əlilə alıb xırtıltı ilə yedi xiyarı. Nəcməddin Dünyaya sarı döndü:

— Gördün tapançanın hökmünü?

Dünya isə başını tərpədə-tərpədə dilləndi:

— Hə!—dedi, ancaq ürəyindən keçirdi: «Sən görmədin, Nəcmi, mənim bir baxışımın hökmü sənin tapançanın hökmündən qüdrətli oldu!»,

ON ÜÇÜNCÜ FƏSİL

Zərrintacgilin bağlı-bağatlı həyət-bacası, son dərəcə səliqə-sahmanla tikilmiş otaqları, bəzək-düzək Dünya xanımın yaman xoşuna gəlmişdi. Barmağı heyrətdən, təəccübdən azca açılmış dodağının

üstündə asta-asta gəzinib hər şeyə baxandan sonra gəlib divanda, qıçlarını altına yığmış Zərrintacın yanında əyləşdi:

— Əntiqədi, Zəri, sağlığınıza qismət olsun. Ha baxdım bircə dənə də eyib tapa bilmədim. Əhsən Nəcməddinin zövqünə. Kişi zövq əhlidi də, daha buna heç nə demək olmaz.

Zərrintac həvəssiz qulaq asırdı. Elə bil bu evin, Dünyanın dediklərinin ona əsla dəxli yox idi. Əsnədi.

— Yuxusuzsan deyəsən, hə, Zəri? Zərrintac əlilə ağzını örtüb:

—Yox! — dedi. — Elə-belə...

— Daha mənə yox də, — deyə Dünya xanım gülüb astaca onun çiyninə toxundu. — Mənə yox də. Yəqin Elməddin səhərəcən səni yatmağa qoymur, hə? Təzə bəy, təzə gəlin...

— Elə deyil, Dünya.

— Bəs nə cürdür, Zəri? Sözlü adama oxşayırsan. Nə olub?

— Heç nə olmayıb.

— Bəlkə Elməddindən narazısan, hə?

— Yox, narazı deyiləm. Ancaq mən deyən adam deyilmiş...

— Niyə axı? Diqqətsizdi sənə qarşı?

— Diqqətsiz də deyil, ancaq, bilirsən, Dünya, gərək bu şairdi, ədibdi — bax bu cür adamlar gərək evlənməsin.

— Boy, bu da təzə çıxdı? Niyə evlənməsinlər, Zəri? Bəs o yazıqlar adam deyillər?

— Adam olmağına adamdırlar. Ancaq bilirsən, onların fikri-zikri elə kağız-kuğuzda, qələmdə, stolda olur. Sənin lə danışır, bir də görürsən, fikri ayrı yerdədi, öz aləmindədi. Girirəm yerimə gözləyirəm, gözləyirəm, o, hələ stolundan qopmur. Çağırıram, deyirəm yorulmadın, əldən düşmədin — gəl yat da. Deyir, bu saat gəlirəm, gülüm. Sonra görürsən yadından çıxır, məni də yuxu aparır. Gecəyarıdan keçəndə, bəzən də xoruzun ilk banı bir də görürsən gəldi girdi yanıma, küçük kimi boyun-boğazımı, ağzımı yalamağa başladı. Onda da yuxulu-yuxulu cin vurur başıma, itə dönürəm. Üzümü çevirirəm divara, ya da zəhərləyirəm.

— Eh bundan sarı qanın qaradı? Ay səni, Zəri. Ay qız, sən bilirsən ki, o, şairdi, yazı-pozu adamıdı, o gərək yazsın, yaratsın. Sənə gül kimi şerlər yazır ha, onlar elə-belə, göydən düşmür ey, Zəri. Onları gərək fikirləşəsən, oturub yazasan. Yoxsa elə-belə, şair olmaq olmaz ki, Zəri.

— Eh, onun şairliyi mənim nəyimə gərəkdi, Dünya? Mənə adam lazımdı, ər lazımdı, oturub danışmağa, dərdləşməyə bir qulaq həyanı lazımdı, bilirsən?

Dünya təəccüblənirdi ki, Nəcməddin kimi əhli-zövq bir kişinin qızından belə sözlər eşidir. Doğrudan da Nəcməddin şeri, musiqini, gözəl rəsm əsərlərini necə böyük bir məhəbbətlə sevirdi və bəlkə elə bu gözəlliyə məftunluq hissi idi ki, onu belə gümrah, qəlbən cavan saxlamışdı. Bəli, yəqin ki, belə idi. Dünya ərinin bu cəhətini çox qiymətləndirirdi. Ona xoş gəlirdi ki, Nəcməddin məhz belə adamdı, ürəyincə olan adamdı. Çünki Dünya özü də bu hisslərlə yaşayan qadın idi. Və o, bunu əvəzsiz bir nemət hesab eləyirdi.

İndi, Zərrintac gör nə danışırdı, «onun şairliyi mənim nəyimə lazımdır?» — deyirdi, Aman allah, onda Elməddinin günü necə olacaqdı?

— Deyirsən gül kimi şerlər yazır...

— Bəs nədi, yazmır? Mən ölürəm o şerlər üçün, kişini elə hey məcbur eləyirəm ki, Elməddindən şer alsın, gətirsin oxusun mənə. Hələ tapşırmışam şersiz gələndə mənimlə işin olmasın. Sən isə, şadlığına şitlik eləyirsən, Zəri? O, böyük adam olacaq, sənə yazdığı şerlər kitabda çıxacaq, əl-əl gəzəcək, hamı deyəcək o şerlər həsr olunmuş qadın dünyanın ən bəxtəvər qadınıdı.

Zərrintac ah çəkdi:

— Mənə elə gəlir ki, o şerləri mənim haqqımda yazmır, Dünya.

— Sənin haqqında yazmır? Bəs kimin haqqında yazır?

— Öz əvvəlki sevgilisi barədə yazır, Dünya. Onların mənə bir dırnaq boyda aidiyyəti yoxdur. Ürəyim mənə belə deyir, Dünya.

— Dəli olma, Zəri. Əvvəlki sevgilisini o çoxdan unudub yəqin. Unutmasaydı, heç sənə evlənməzdi.

— Evlənərdi. Hazırın naziri olmaqdan hansı axmaq qaçar? Ona ev-eşik, iş lazım idi. Atam da verdi. Hələ üstəlik məni də verdi.

— Atan səni zorla vermədi ki, ona. Özün istəyirdin Elməddini, sevirdin onu. Nə tez doydun, heç beş ay deyil evlənmisiniz?

— Yenə də sevirəm, Dünya. Mən demirəm ki, istəmirəm onu... Ancaq o, şeri məndən çox istəyir, ona görə acığım gəlir...

— Nahaq yerə! Elməddin yaxşı oğlandı, ağıllı, mərifətli. Sən onun qədrini bil, qız, hər qadına belə səadət nəsib olmur, Zəri.

— Nə bilim, Dünya, yaman pərişanam, heç bilmirəm niyə belə axmaq iş tutdum.

— Heç də axmaq iş tutmayıbsan, Zəri. Baxarsan, öyrənəcəksən, isnişəcəksən, inan. İndi təksən, bir azdan uşağın olacaq, başın qarışacaq, hər şey əla olacaq.

— Yox, nə danışırsan? İndidən uşağı neyləyirəm, qoy oturmuşuq, sən allah. Əl-qolumu bağlayım, nə var-nə var, uşaq böyüdəcəyəm.

— Elməddinə demisən bu barədə?

— Demişəm.

— Nə deyib?

— Ağzı nədi bir söz desin. Mən nə dedim o da olmalıdı. Çox da bərk durmadı, dedi — necə istəyirsən, elə də olsun.

— Görürsən, yenə Elməddindən narazılıq eləyirsən. Ayrı kişi çətin razı olardı. Uşaq evin, ailənin, ata-ananın sevincidi, Zəri. Sən bunu hələ bilmirsən, amma allah qoysa ana olandan sonra başa düşəcəksən.

— Yox, indidən əl-qolumu bağlamaq istəmirəm, hələ özümüzçün yaşamaq istəyirəm. Uşaq olandan sonra isə adam özü üçün yox, övladı üçün yaşayır. — O, Dünyanın qarnına işarə elədi. — Salamatlıq olsun, özün görəcəksən ki, mən düz deyirəm.

— Bəlkə də bu belədi; ancaq mən ayrı cür düşünürəm, Zəri. Mən uşaq istəyirəm, elə istəyirəm ki, bilmirəm sözlə necə başa salım səni. İnsanın ki övladı olmadı, o, barsız ağaca bənzəyir, məncə.

— Eh, nə isə. Yaşayarıq, görərik, sağlıq olsun, — deyə Zərrintac söhbəti dəyişmək üçün ayağa qalxmaq istədi, — çaydan daşdı, sənə bir çay dəmləyim.

Dünya çiynindən basıb oturtdu:

— İçmirəm, Zəri. Bir az bundan qabaq içmişəm. — Nə xatırladısa güldü, içmirəm dedim, yadıma Əbdül düşdü.

— Nə olub ki, Əbdülə?

— Heç nə olmayıb. Ancaq qibləgahın yazığı o gün zorla içirtdi.

—Yox a?

— Vallah.

Sonra o, əhvalatı yerli-yataqlı Zərrintaca nağıl elədi, Zərrintacın kefi duruldu.

— Daha denən yazığa zülm eləyib də qibləgahım. Kefləndi?

— Kefləndi də sözdü? İki-üç qədəh içəndən sonra Əbdül başladı heç nədən ağlamağa, əlini qaldırıb Allaha yalvardı ki, keç günahımdan, xudaya! Beş-on dəqiqə keçməmiş kişinin gözləri qurudu və başladı gülməyə. Dəli kimi elə öz-özünə gülürdü. Biz də baxıb ona qoşulmuşduq. Qibləgahım dedi ki, o gün Zərrintacın toyunda əla oy-

nayırdın ha, Əbdül. Əbdül hırıldaya-hırıldaya cavab verdi ki, istəyirsən, ağacan, elə indi də oynaya bilərəm. Oyna! — dedi. O da qol qaldırıb çalğısız-filansız bir sındırmağa başladı ki, gəl görəsən... Nə başını ağrıdım, Əbdül, o lal-dinməz, dindirməsən danışmayan Əbdül bizə bir kef verdi ki, haçandan belə ləzzətlə gülməmişdik, Zəri. Sonra yorulub əldən düşdü, getdi yatdı.

Amma əslində belə olmamışdı. Dünyaya əvvəlcə Əbdülün içməyi maraqlı gəlirdi. Görəsən içsə necə olar? Oruc tutan, namaz qılan adamın içki içməsi heç ağlabatan işə oxşamırdı. Dünya bilirdi ki, içməz Əbdül. Həqiqətən də imtina elədi. Hətta ölüm qorxusu ilə Nəcməddin onu hədələyəndə də «içmirəm!» deyib durmuşdu. Vəziyyətin gərginliyini görən, ərinin həddən artıq sərxoş olduğunu başa düşən Dünya can alan, işvəli gözləri ilə «iç» deyəndən sonra içmişdi Əbdül. Ancaq tez məst oldu, oyun çıxartdı və bu, əvvəl Dünyanı əyləndirdisə də, az keçmiş acığına gəldi: hələ deyəsən qürurunu da toxundu, Nəcməddinə acığı tutdu. Ürəyinin dərinliyində qəribə bir hiss baş qaldırdı Dünyanın... varlısan, milyonersən deyə, camaatın başında qoz sındıracaqsan? Axı o da insandır, onun da ürəyi, mənliyi var!.. Dünya yenə baxışları ilə Əbdülə işarə elədi ki, çıx get! Əbdül bu sözsüz-səssiz əmri kirimişcə anlayıb yerinə yetirdi və kölgə kimi uzaqlaşıb getdi, həyətin o başındakı balaca hücrəsinə qapılıb qapını da içəridən bağladı. Bir də axşamçağı çıxdı Əbdül.

— Qibləgahımın da at getməz yolları-işləri var. Ağlına bir şey gəlməsin, gəldimi, qurtardı. Onu eləməyincə sakit oturan deyil.

— Hə, o elədi. Bir tərəfinə baxanda, Zəri, belə yaxşıdı. Kişi gərək elə o cür olsun, qətiyyətli olsun, mənim belə kişilərdən xoşum gəlir. Mən Nəcməddini bu sifətlərinə görə çox istəyirəm, Zəri.

Bu zaman Elməddin gəlib çıxdı. Dünya xanımı görən kimi gülə-gülə:

— Xoş gəlibsən, ay Dünya xanım. Necəsən, ağamız necədir — dedi. Dünya xanım közucu Elməddinə diqqət yetirdi. Şıq geyinmişdi, bir az arıqlamışdısa, ancaq ağarıb qəşəngləşmişdi də. Əynindəki qara kostyum bədəninə kip oturduğundan onu lap cavan göstərirdi.

— Çox sağ ol, Elməddin. Yaxşıyıq. Siz yoxlayandan çox yaxşıyıq, — deyə Dünya giley dolu səslə cavab verdi.

— Vallah, başımız yaman qarışıqdı, iş də çoxdur, Zərrintac xanım da təkdi. İdarəyə gedirəm, işdən azad olan kimi də evə qaçıram.

— Onu yaxşı eləyirsən, Elməddin. Daha əliuşaqlısan də. — Elə hesab et ki, Zərrintac xanım sənin körpəndi. Gərək vaxt-bivaxt

onun, mənim bu gül balamın qulluğunda durasan. Yoxsa — o, ərklə barmağını silkələdi, — vallah başının tükünü bir-bir yolaram, verərəm yelin ağzına.

Elməddin pencəyini çıxarıb stolun başına keçirə-keçirə güldü:

— Yalan deyirsən məgər?!

Sonra üzünü Zərrintac xanıma çevirdi:

— Necəsən, Zəri?

Zərrintac yerindən tərpənmədən soyuq bir tərzdə:

— Yaxşıyam, — söylədi.

— Niyə belə süstsən?

— Heç. Yorğunam. Evlərə əl gəzdirmişəm bir balaca.

— Evlərə nə olmuşdu ki, gül kimidi. Demişəm heç nə eləmə də.

Dünya sözə qarışdı:

— Bir qulluqçu niyə tutmursan, Elməddin?

— Soraqlaşıram. Bir abırlı-başlı adam axtarıram. Düzdü, Zərrintac xanım özü istəmir, ancaq çarəsi yoxdu, gərək tapaq.

— Mənə qulluqçu-zad lazım deyil.

— Niyə, qız?

— İstəmirəm. Qoy hamısı rədd olsun. Özüm eləyərəm hər şeyi. Bazarlığı o özü eləyər, biş-düşü də mən. Qulluqçu nəyimə gərəkdi?

— Axı əziyyət çəkirsən, Zəri, — deyə Elməddin qayğıkeşliklə söylədi.

— Heç əziyyəti yoxdu.

— Özün bilən məsləhətdi. İndi bərk acmışam, Zəri. Yeməyə nəyin var, gətir yeyək.

Zərrintac cavab vermədən tənbəl-tənbəl ayağa durdu, çəkələklərini sürüyə-sürüyə mətbəxə keçdi. Dünya Elməddinə nəzər salıb:

— Hə, necədi bizim qız? Səni incidib eləmir ki? — deyə xəbər aldıqda Elməddin qanrılıb mətbəxə sarı baxdı, ehtiyatla söylədi:

— Yoox. Yaxşıdı. — Dedi və mənalı-mənalı gülümsündü. Dünya bu gülüşü özünə xas ustalıqla aldı:

— Sözlü adama oxşayırsan deyəsən? Elməddin başını yırğaladı:

— Nə narazılığım ola bilər ki? Gül kimi qızdı.

— Uşaqdı hələ. Çox şeyləri başa düşmür. Yavaş-yavaş öyrənəcək. Sən onun, o sənin xasiyyətinə bələd olacaq, xoş günlər görəcəksiniz.

Elməddin:

— Təki olsun, Dünya xanım, — dedi və ah çəkdi.

Zərrintac buluda çəkilmiş qovurmaplovu ortalığa gətirdi. Təzə xiyar, pomidor, göy-göyərti düzdü stolun üstünə.

Elməddin həyətə düşüb əl-üzünü yudu, yuxarı qalxdı. Üçü də süfrə başında oturdu. Dünya süfrədə içki dəsgahı körməyib xəbər aldı:

— Bəs nə əcəb içmirsiniz?

— Tərgitmişik! — dedi Elməddin. — Ağayi Nəcməddin gələndən-gələnə içirik. Kişi bizi zorla içirdir. Ürəyin istəyir, gətirim?

— Yox, mən də daha içmirəm.

— Nə əcəb, Dünya xanım? — Elməddin soruşdu.

— Olmaz mənə. Ürəyim istəmir.

— Yaxşı eləyirsən. Bizim məmləkətimiz müsəlman ölkəsi olduğuna görə, içki qadağandır. Əgər ruhanilər bilsə ki, biz içirik, bizi kafir adlandırıb təkfir eləyərlər. Ağayi Nəcməddin heç kəsdən qorxmur, ona görə içir.

— Sənin ağayi Nəcməddinin özünə təzə badə yoldaşı tapıb.

— Hə? Kimdi?

— Kim olacaq, Əbdül.

— Əbdül?

— Hə. O gün içirdib kişini zorla, — deyə o əhvalatı Dünya təfsilatı ilə Elməddinə də danışdı... Elməddin şaqqanaq çəkib güldü.

Yeyib doyandan sonra Dünya Elməddinə üz tutdu:

— Daha bizim kişiyə şer vermirsən, xeyir ola?

— Şer? Hə. Şer yazıram ki, ona da verəm?

— Niyə yazmırsan ki?

— Yaza bilmirəm daha! Zərrintac özünü saxlaya bilmədi:

— Yaza bilmirsən, bəs gecə səhərəcən o kağız-kuğuzla niyə əlləşirsən?

Elməddin onun səsindəki narazılığı tutdu, təəssüf dolu nəzərlə Zərrintaca baxdı və:

— Qoyursan ki? — dedi.

Zərrintac əlini sinəsinə qoyub dikəldi:

— Mən? Mən qoymuram səni? Əlini tuturam sənin, qələmini alıram sənin, ya neynirəm?

— Heç nə eləmirsən, Zəri! — Elməddin mümkün qədər yumşaq cavab verdi. — Sən nə əlimi tutursan, nə qələmimi alırsan... Mən şeri neynirəm. Sən özün mənim ən gözəl şerimsən, Zəri. Şerdən aldığım ləzzəti səndən alıram, — deyə o, evlənəndən bəri ilk dəfə olaraq dilinə gətirmək istədiyi həqiqəti udub əvəzində tamam ayrı şey-

lər söylədi. Onu bu məsələ çox narahat edirdi. Ancaq düşünürdü ki, keçib-gedən haldı, zaman-vaxt ötdükcə Zərrintac ondan doyacaq, Elməddin onun üçün adiləşəcək, elə oğlan özü də onun bu xasiyyətinə bələd olub sakitləşəcəkdi. Elməddinin daxili bir kinayə ilə dediyi bu son sözlərin əsl mənasını anlamadığı üçün idi ki, Zərrintacın coşub-daşmaqda olan hirsi-hikkəsi soyudu, o sözlər canına yağ kimi yayıldı. Dünya əsl mətləbi başa düşüb aranı bir az da yumşaltmaq məqsədilə dedi:

— Amma şair ki, şair. Elə bax, indicə, süfrə başında bir şer yazdı, Zəri.

— Hanı? — deyə Zərrintac Elməddinin qarşısına baxdı, kağız-qələm görməyib soruşdu: — Hanı? Dünya əlini Zərrintacın çiyninə vurdu:

— Ay sənin canınacan. Eşitmədin ki, dedi sən mənim ən gözəl şerimsən? Şerdən aldığım ləzzəti səndən alıram? Bu özü elə şer deyilmi?

Elməddin üzünü yana çevirib gizli bir ah çəkdi.

ON DÖRDÜNCÜ FƏSİL

Elməddii deyə-gülə nahar edəndən, Zərrintacla, Dünya xanımla xudahafizləşəndən sonra idarəyə getmək üçün darvazaya çıxanda - Əhədulla maşında, sükan arxasında oturub köhnə qəzet parçasına bükdüyü pendir-çörəyi yeyirdi. Sənkək[1] quru idi, srağagündən qalma idi, pendir isə saralmışdı, iyi uzaqdan adamı vururdu. Elməddin maşının arxa şüşəsindən Əhədullanın nahar etdiyini görəndə ayaq saxlayıb irəli gəlmədi: «Qoy çörəyini yesin!» — deyə düşündü, siqaret çıxartdı, yandırıb çəkməyə başladı. Əhədullanın güzəranı-dolanışığı ona dərd olmuşdu. Kişi o qədər təmiz, ürəyi Allah xofu ilə dolu adam idi ki, qanun-qaydadan, buyurulandan bir addım kənara çıxmağa cürət eləmirdi. «O gözəgörünməz qurban olduğun necə məsləhət bilib elə də olacaq. Görünür mənim də yazımı belə yazıb!» — deyə təvəkkülə bel bağlayır, addımını kənara qoymurdu ki, birdən, allah eləməmiş, Nəcməddinin qəzəbinə düçar olar, güclə tapdığı bu işi də əlindən çıxardı. Bu qorxu hissi həmişə ürəyinin başından asıl-

[1] Sənkək — cod arpa çörəyi.

mışdı. İşə qətiyyən gecikməzdi, saatlarla ağasını — Elməddini gözlərdi, maşını isə, öz malı imiş kimi, az qala dili ilə yalayar, üstünə toz düşəndə üfürə-üfürə təmizlərdi. Daim əli maşının üstündə idi.

Elməddin düşündü ki, bax belə təmiz, zəhmətkeş bir adam pendir-çörək ümidi ilə yaşayır, işləyir. O, özünün keçmiş günlərini xatırlayıb indiki günləri ilə tutuşdurdu; onun sadəcə olaraq necə deyərlər, aşığı alçı durmuşdu, bəxti gətirmişdi. Və beləsi, onun kimisi bu boyda şəhərdə, yaxud elə məmləkətin özündə ya bir olardı, ya iki — çox olmazdı. Elməddinin özünün imkanı vardı ki, heç olmasa günortalar, nahar vaxtı Əhədullanı özü ilə evə gətirsin, yedirtsin. Bir qarın çörək yeyəcəkdi — nə idi ki? Ancaq on beş gün bundan qabaq sözarası bunu Zərrintaca eşitdirəndə o, ağız büzmüşdü:

— Elə bir o əskik idi ki, hər gədə-güdə ilə bir süfrə başında oturub çörək yeyək. Sən allah, belə axmaq-axmaq şeyləri başından çıxart. Harda görünüb ki, motərvən[1] gəlib ağası ilə bir yerdə çörək yesin? Eşidən-bilən olsa, vallah, gülər bizə.

Elməddin bu sözlərin müqabilində susub heç nə deməmişdi, elə... belə, lal-dinməz arvadının — naz-nemət içində bəslənmiş, ömründə bircə an da olsa ehtiyacın, kasıblığın, aclığın nə olduğunu dadmamış, gözəl-göyçək arvadının, kənardan baxanda pərəstiş eləməyə belə hazır olduğun Zərrintacın ağ üzünə, qara gözlərinə baxmış, ürəyində qara-qura fikirlərin yol tapmasına imkan verməmək üçün araya ayrı söz qatmışdı; ancaq nə zamansa özünün də Zərrintacın nəzərində «gədə-güdə» olduğu, yaxud «gədə-güdə» olacağı günü düşünüb sıxıldı və balacalaşdı. Demək, bir şəhərdə yaşasalar da, hətta bir idarədə işləsələr də, Əhədulla ilə Elməddinin arasında bir daş divar hörülmüşdü, elə bir divar ki, diqqətlə baxmasan görə bilməzsən. Bəlkə o daş divardan Elməddinlə Zərrintac arasında da vardı, ancaq o, görünmürdü, yaxud görüb özünü görməməzliyə vururdu, qanıb qanmamazlığa vururdu? Əslində bu divarı o, lap əvvəldən hiss edirdi, sıxılırdı, ancaq qəribə idi ki, o, cəsarətsiz addımlarla irəli yeridikdə həmin qalın, gözəgörünməz divar geri çəkilir, aralanır, onu içəri buraxır və yenidən qayıdıb əvvəlki halında birləşirdi. Bəli, bu divarda qəribə bir xüsusiyyət vardı; qoruduğu, mühafizə elədiyi o harın adamların ürəyini oxuyurmuş təki gah nazilir, parçalanır, gah da qalınlaşıb möhkəmlənirdi, onların ürəyincə, istəyincə. Onların bu və

[1] Motərvən — sürücü.

ya digər mülahizə ilə lazım sandığı, qəbul olunmağa layiq adamlara, indiki halda məsələn Elməddinə — yol verir, o taya — gül-çiçəkli, naz-nemətli, süslü-bəzəkli bir dünyaya buraxır, saxlayır, yoxlayırdı. Əgər uyuşurdusa, qaynayıb-qarışırdısa, axıracan bəsləyir, yedirir, içirir, keçmişini unutdururdu. Yox, əgər ipə-sapa yatmırdısa, öz əslinə, əvvəlinə qayıtmaq istəyirdisə, onu gərəksiz bir əşya kimi kənara tullayır, qəlbini didib qanadırdı.

İndi, neçə müddətdən bəri idi ki, Elməddin bu divarı keçmişdi; ürək ağrısı ilə bu həqiqəti dərk edirdi və hələ, təcrübəsiz olduğundan, bərkdən-boşdan çıxmadığından həmin vəziyyətdə, çaşqın halda beləcə yaşayırdı. Və günlər, həftələr, aylar keçdikcə özünün o süslü-bəzəkli aləmdə yavaş-yavaş əridiyini, qaynayıb-qarışdığını, üstəlik ailə zənciri ilə də o aləmə bağlandığını hiss edib əzab çəkməyə başlamışdı. Bütün bunlar tutqun — adı, ünvanı hələ dəqiq bəlli olmayan düşüncələr idi.

Keçmiş günlərini xatırlayanda, Əhədullaları, Əbdülləri görəndə, nəvəsi yerində olan Dünya xanım kimi qənirsiz gözəlləri pul gücünə, daş-qaş hesabına özünə arvad eləyən Nəcməddini, lap elə pul gücünə onun sevgilisini özünə arvad eləyən qardaşı Yusifi düşünəndə Elməddinin gözləri önündə bu divar daha da qalınlaşır, qəlbiləşirdi və ürəyində həmin daş-divarı uçurub-dağıtmaq arzusu daha qüvvətlənirdi. Və haradasa, qəlbinin lap dərinliklərində bir sevinc çeşməsi qaynamağa başlayırdı, fərəhlənirdi ki, o daş-divarı yerlə yeksan eləmək istəyən, insanlar arasındakı bu gözəgörünməz bənd-bərəni dağıtmaq üçün çarpışan Bəbir kimi, Rəhgüzər kimi oğullar var və onlar Elməddinin dostlarıdır, qardaşlarıdır, onu öz cərgələrinə qəbul ediblər, ona inanırlar, ondan kömək gözləyirlər. Bu hiss Elməddinin ürəyini şadlıq duyğusu ilə doldurdu. Siqaretin kötüyünü yerə atıb ayaqladı və maşına sarı addımladı. Əhədulla çörəyini yeyib qurtarmışdı. Elməddin arxada əyləşdi.

— Getdik, Əhədulla! — dedi.

— Baş üstə, ağa. — Və maşını astaca yerindən tərpətdi. İşdən gələrkən yorğun olduğuna və gecəni də pis yatdığına görə Əhədulla ilə heç danışmamışdı Elməddin. Əhədulla onun görkəmindən başa düşmüşdü ki, halı özündə deyil ağasının, ona görə də, ümumiyyətlə dindirməsən dinməyən Əhədulla lal-dinməz maşını düz onun təzə imarətinin qabağına sürmüşdü. Ancaq indi, Elməddin nahar eləyəndən sonra deyəsən əhvalı yaxşılaşmışdı və o, bunu «getdik, Əhədul-

la!»—deməsindən o dəqiqə başa düşdü. Ürəyinin arzusunu dilinə gətirdi:

— Ağa, sizə bir söz demək istəyirəm.

— Buyur, Əhədulla. Ancaq sənə deməmişəm ki, mənə «ağa» demə?

— Hə, düzdü, ağa.

— Yenə ağa?

— Vallah, dilim öyrəşib, ağa. Başına dönüm, qoyun elə «ağa» deyim sizə. Bunu mənə irad tutmayın, siz allah...

— Yaxşı, — deyə Elməddin güldü, — öyrənibsən. Səndə günah yoxdu, Əhəd, mühitimiz belədi. Mən özüm də, kiməsə «ağa» deməliyəm, mənim «ağa» deyə müraciət elədiyim adam da kiməsə, özündən böyüyünə «ağa» deməlidir. Və bu zəncir bu məmləkətdə tək bircə nəfərə — ağalar ağasına çatanacan davam eləyir, orda bu zəncir qırılır, daha ondan o yanası yoxdu, Əhəd. Bilirsən də, bu zəncir harda qırılır?

— Yox, ağa. Mən elə dərin şeyləri başa düşmərəm, vallah.

Elməddin ah çəkdi:

— Eybi yoxdu vaxt gələr hər şeyi özün yaxşı-yaxşı anlarsan... Sən başa düşməsən də uşaqların başa düşərlər, Əhəd...

Əhədulla mahiyyətini o qədər də anlamadığı bu söhbətdən uzaqlaşmaq istəyirdi, ancaq söz tapa bilmirdi, lakin Elməddin özü təbii surətdə onu «dardan» qurtardı: «uşaq» sözündən Əhədulla, necə deyərlər, dördəlli yapışdı:

—Elə mənim də sözüm uşaq barəsində idi, ağa! Nə uşaq? — Elməddin təəccüblə xəbər aldı. Əhəd gözünü yoldan çəkmədən:

— Bəndənizin bir nökəri dünyaya gəlib! — dedi.

— Hə? — Elməddin qulaqlarına inanmadı. Onun səkkiz qızı olduğunu bilirdi, güzəranının ağır olduğunu duyurdu. İndi təzədən bir uşaqları da olub. Ani olaraq, üzünü görmədiyi, səsini eşitmədiyi, dünyaya təzəcə-təzəcə göz açmış və hələ dünyanın girdablarından, tufanlarından və ləzzətlərindən xəbərsiz olan o körpəyə yazığı gəldi.

Ancaq Əhədullanın üzünü, gözlərini parıldadan sevinci hiss eləyəndə o da sevindi.

— Ay səni təbrik eləyirəm, Əhəd. Xoşbəxt olsun, atalı-analı böyüsün, Əhəd. Ay kişi, haçan olub?

— Dünən axşamçağı.

— Bəs indiyəcən ağzına niyə su alıb susursan, kişi? Özü, anası necədi?

— Yaxşıdırlar, ağa. Hər ikisi əlini öpür.

— Nəhayət, səkkiz qızdan sonra bir oğul! Şükür, min şükür!

— Allah sənə də qismət eləsin, övlad şirin şeydi. Xüsusən də ki oğlan. Qurban olum Allaha, muradımı gözümdə qoymadı. Sevincimiz yerə-göyə sığmır, ağa, vallah, Elə bilirik bir xəzinə tapmışıq. Anası məndən çox sevinir, yazıq. Qızları ki daha demirəm.

Dünən Əhədulla Elməddini evə gətirəndən, maşını qaraja qoyandan sonra həyətə girən kimi on altı yaşlı qızı Siminbər ağlaya-ağlaya atasının qabağına qaçmışdı:

— Nə olub, qız?—deyə Əhədulla təşvişlə soruşanda qız əlinin dalı ilə gözlərini silə-silə:

— Madərim ölür! — demişdi. — Bayaqdan qışqırır, yazıq.

Əhədulla işin nə yerdə olduğunu başa düşüb özünü içəri təpmiş, boyda-boyda dayanıb analarına baxan, ağlamış uşaqları kənara itələyərək dizlərini yerə qoyub gözləri hədəqəsindən çıxmış arvadından soruşmuşdu:

— Çoxdan başlayıb?

— Səhərdən, sən gedəndən... Ölürəm, Əhəd, qurban olum, Daha dözə bilmirəm...

Əhədulla ani fikrə getdi. Qadını xilas etmək gərəkdi: ölə bilərdi. Doğum evi o qədər də uzaq deyildi — cəmi iki tin keçəndən sonra doğum evi idi. Ancaq orada yatmaq üçün pul lazım idi — bir gecəsi dörd yüz rupi. Əlini cibinə atdı. Tanqahından[1] cəmi əlli rupi qalırdı — bu ancaq xəstənin bir saatlıq yatmağı üçün güclə çatardı. Hələ dava-dərman lazım olsa... onda heç nə! Əhədulla qəti bir hərəkətlə arvadını mələfəyə büküb qucağına almış, qızı Siminbərə, «Dalımca gəl!» — deyib qapıdan çıxmışdı. Arvad qışqırırdı. Əhədulla heç nəyə fikir vermədən küçə boyu qaçırdı. Siminbər onun dalınca ağlaya-ağlaya yüyürürdü, ayaq saxlayıb: «nə olmuşdur?» deyən adamlara cavab vermədən yüyürürdü.

Doğum evinə çatanda arvad daha bərk çığırmışdı. Əhədulla dəhlizdə onu yerə qoyub üz-gözünün tərini silmiş, sərtəbibin[2] yanına qaçmışdı:

— Sərtəbib xanım, başına dönüm, arvad ölür, onu xilas eləyin.

---

[1] Tanqah — maaş.

[2] Sərtəbib — baş həkim.

Ağ paltarlı təbiblər, mamaçalar xəstəni dövrəyə alıb içəri aparmış, yarım saatdan sonra isə, çıxıb Əhədullanı təbrik eləmişdilər:

— Oğlun olub, kişi!

Əhədulla qulaqlarına inanmamışdı. Dönüb yanında ağlayan Siminbərə baxmış, onu bağrına basıb öpmüşdü:

— Gözün aydın, qızım, qardaşın olub ey, qardaşın! — Sonra həkimlərə sarı dönüb:

— Ömrünüz uzun olsun, xahərlərim. Heç bilmirəm... Heç bilmirəm sizin xəcalətinizdən necə çıxacam. — Və yaşaran gözlərini silmişdi.

Yarım saat sonra isə, qadını yenə qucağına götürmüş uşağı isə bacısı cır-cındıra büküb evə qayıtmışdılar.

Əlli rupini Əhədulla sərtəbibə vermişdi.

ƏHədullanın səkkiz qızdan sonra dünyaya gələn oğlu beləcə dünyaya gəlmişdi.

Əhədulla bütün bu təfsilatı Elməddinə söyləmədən bir-baş mətləbini dedi:

— İstəyirəm nökərinizin adını siz qoyasınız, ağa.

— Mən?

— Hə, ağa. Elə arvad, türkün məsəli, hamilə olan kimi ürəyimdə əhd eləmişdim ki, oğlan olsa, adını siz qoyasınız! Allah o oğulu mənə yox, sizə verib, ağa. Mənə verən olsaydı, indiyəcən vermişdi. O sizindi, ağa. Adı da sizindi, böyüyəndə özü də sizin nökərinizdi, ağa.

Elməddin, əlbəttə, bu xəbərdən şad olmuşdu. Səkkiz qızdan sonra oğul övladı tapmış Əhədullanın sevincinin böyüklüyünü təsəvvür eləyirdi. Və bunu da qiymətləndirirdi ki, Əhədulla onu necə çox istəyir, inanır, ürəyinin ən müqəddəs arzusunu onun adı ilə bağlayırdı. Ona görə Elməddin nə qədər olsa da, fikrən öz doğma kəndlərinə, qardaşı Yusifin qətl mərasimində qulağına pıçıldadığı o sözləri bütün aydınlığı ilə illərin arxasından eşitdi: «Oğlum olsa, adımı qoyarsan!» Ürəyi titrədi Elməddinin, Əfsanə yadına düşdü. Yusifin yadigarı qalmadı. Əfsanə də eləcə, naməlum şəkildə yoxa çıxdı, qeybə çəkildi.

Elməddin düşündü: «Sənin arzunu öz oğlum olanda... yerinə yetirəcəyəm, qardaş!» Sonra... Zərrintacın «uşağı neynirəm?» sözləri yadına düşdü. Əhədulla Elməddinin halının dəyişdiyini hiss eləyib belə dediyinə peşman kimi:

— Sizə nə oldu, ağa? — deyə soruşanda Elməddin xəyaldan ayrıldı və gülümsünməyə çalışıb:

— Heç, — dedi. —Yaxşı bir ad fikirləşirəm!

— Hə, ağa, qurban olum, yaxşı ad olsun. Bu ad sizin yadigarınızdı axı.

Elməddin alnını qaşıyıb:

— Vətənyar qoyuram təzə vətəndaşın adını, — dedi.— Qoy Vətən ona, o da vətənə yar olsun, Əhədulla. Necədi, xoşuna gəlir?

— Vətənyar!—deyə ata sevinclə təkrar etdi bu qəşəng adı — Gözəl isimdi, dilinə qurban olum.

...Üç gün sonra isə Elməddin körpə üçün bir neçə dəst palpaltar, anası və bacıları üçün iyirmi metr parça, iki-üç pay noğul-şirni alıb Əhədullaya verəndə kişi gözlərinə inanmadı:

— Bunlar nədi, ağa?

— Heç, uşaqlar üçün almışam. Apararsan evə. Əmisinin Vətənyar üçün kiçik töhfəsidir.

— Yox, ağa, vallah...

— Qulaq as, Əhəd. Götürməsən, səndən inciyərəm. Nə böyük şeydi ki, xırda-xuruşdu. Yoxsa, məni özgə hesab eləyirsən, Əhəd!

— Nə danışırsınız, ağa?

— Onda apar evə, ver gəl.

Əhədulla yaşarmış gözlərini Elməddin görməsin deyə üzünü yana çevirdi.

ON BEŞİNCİ FƏSİL

Günortadan sonra, ağacların, adamların kölgələri sağ tərəfə meyllənən vaxt balaca Bəbrək çantasını yellədə-yellədə, fit çala-çala həyətə girəndə Məleykə xanım sol əlini dalına qoyub qapı-bacanı süpürürdü. Bəbrək dərsdən həmişə səssiz-küysüz gələrdi; yorulardı, ona görə çörəyini yeyib azca dincəlməmiş dirçəlməz, qırışığı açılmazdı. İndi isə fit çalırdı, çantasını atıb-tuturdu — bu onda görünməmişdi indiyəcən. Odur ki, anası təəccübləndi, belini dikəldib oğluna nəzər saldı. Uşağın üz-gözü gülürdü.

Bəbrək anasına yaxınlaşıb adəti üzrə salam verdi:

— Salam, madərcan!

— Salam, mənim gül balam. Necəsən, canım-ciyərim?

— Yaxşıyam.

— Xeyir ola, oğul, kefin kökdü deyəsən? Nə olub? Bəbrək gülümsündü:

— Heç, — dedi. — Qibləgahım hardadı?

— Neynirsən, oğul?

— Elə-belə... Baxmaq istəyirəm ona.

Məleykə xanım əlini dodağına aparıb təəccüblə:

— Bıy, bismillah! Necə yəni baxmaq istəyirəm ona. Bu nə sözdü, bala? Guya qibləgahını indiyəcən görməyibsən? — dedi.

— Görmüşəm, madərcan. Ancaq indi məxsusi baxmaq istəyirəm.

Məleykə bir şey anlamadı. Mat-mat üzünə baxan anasını başa saldı Bəbrək:

— İndi məktəbdə müəllimimiz qibləgahımdan danışırdı, madərcan.

—Müəlliminiz? Hansı müəllim, a bala?

— Ədəbiyyat müəllimimiz, Qadir xan... Deyirdi. Məhəmməd Şəfi Rəhgüzər böyük adamdı, bizim fəxrimizdi.

Doğrudan da məktəbdə, Bəbrək oxuyan sinifdə belə söhbət olmuşdu. Darülfununu iki il əvvəl bitirmiş, «İstiqlal» məktəbində ədəbiyyat müəllimi işləyən cavan, tökməbədənli, səliqəli geyimi ilə hamıdan fərqlənən Qadir xan az bir müddətdə təmkini, yaxşı dərs deməsi, gözəl danışığı ilə uşaqların ürəyini elə ələ almışdı ki, hamısı onu sevir, tapşırıqlarını can-başla, sonsuz həvəslə yerinə yetirir, onun kimi olmağa çalışır, bəzən özlərini belə ona oxşadırdılar. Onun sözlərinə bir qanun kimi baxır, dediklərini yadda saxlayır, çoxlu şer əzbərləyirdilər.

Qadir xan Bəbrək oxuyan sinfin də sevimlisi idi. Bu gün də o, həmişəki kimi qara rəngli, alçaq partaların arası ilə asta-asta gəzişir, aramla danışırdı. Parta çatmadığından pəncərə qabağında oturmuş uşaqlar belə, narahatlıqlarına baxmayaraq, cınqırlarını da çıxarmırdılar. Milçək uçsaydı səsi eşidilərdi. Bax, bugünkü dərsin belə sakit dəqiqələrinin birində indi yazıb-yaradan şairlərdən, ədiblərdən danışarkən Qadir xan Məhəmməd Şəfi Rəhgüzər — Bəbrəkin atası barəsində demişdi: «O, bizim xalqın ən sevimlisi, ən böyük şairidir, millətimizin danışan dili, görən gözüdü, bizim hamımızın fəxridi. Onun əsərlərini, ruznaməsini oxuyun, öyrənin. Əgər bu torpağa yararlı övlad olmaq istəyirsinizsə, ondan çox şey öyrənə bilərsiniz...».

Qadir xanın dediyi bu sözlər, təbii ki, Bəbrəkə çox xoş təsir bağışlamışdı. Hətta yanında oturan oğlan ayağını basanda belə dönüb üzünə baxmamış, heç gülümsünməmişdi də. Özünü elə aparmışdı ki, sanki, söhbət onun atası barədə yox, tamam başqa, yad bir adam haqqında gedirdi. Amma içəridə, qəlbinin dərinliklərində atasından yana sonsuz bir sevinc hissi coşub-daşırdı, otağa sığmırdı fərəhindən uşaq.

Bax, həmin bu sevinc idi Bəbrəki indi belə dingildədən. Bu günə qədər atası onun nəzərində adi ata idi: qayğıkeş, mehriban. Sən demə, o, böyük adam imiş, görkəmli şəxsiyyət imiş.

Oğlunun fərəhi Məleykəyə də sirayət elədi. O da, bu həqiqəti çoxdan anlasa da, dərk etsə də, Bəbrəkin eşitdiyi və indi anasına təkrar etdiyi o sözlərdən qanadlandı, mehriban nəzərlərlə oğluna baxıb şirin-şirin gülümsündü.

— Qibləgahın evdədi, bala, işləyir!—dedi Məleykə xanım və yenə belini əyib həyəti süpürməyə başladı, ürəyindən keçirdi ki, «ey pərvərdigar, bu səadəti mənə, mənim balalarıma çox görmə. Özün onu hər xata-baladan hifz elə — bizim xatirimizə».

Bəbrək çantasını artırmadakı stolun üstünə qoydu, ayaqqabılarını çıxarıb barmaqlarının ucunda otağa keçdi, ordan adlayıb atasının işlədiyi balaca otağın qapısı ağzına gəldi. Qapı aralı idi. Məhəmməd Şəfi Rəhgüzər yazı masasının arxasında oturmuşdu, nə isə yazırdı. Arabir dayanır, gözlərini tavana zilləyir, düşünür, sonra yenə yazırdı. O, evdə olarkən həmişə geydiyi mil-mil kostyumunda idi, qabağındakı külqabı siqaret kötükləri ilə dolu idi. Qulağının dibinə söykədiyi sol əlinin barmaqları arasında yenə siqaret tüstülənirdi. Beli azca irəli əyilmişdi, ağarmış saçları pırtlaşıq idi.

Qadir xanın otuz-qırx şagirdin içində dediyi o sözlərdən sonra Bəbrəkə elə gəlmişdi ki, o, indiyə qədər atasına fikir verməyib, yaxşı-yaxşı baxmayıb: onda nə isə qəribə bir qeyri-adilik olmalıdı ki, bu Qadir xan belə deyir. Amma indi qapı arasından o, diqqətlə içəri baxır, atasına tamaşa eləyir, lakin onda heç bir fövqəladəlik, qeyri-adilik görmürdü. Xeyli beləcə dayandı, sonra birdən sanki kimsə onun qulağına pıçıldadı ki, onun böyüklüyü, qeyri-adiliyi görkəmində deyil, onun qələmində, yazı masasındadı, yazdıqlarındadı, Bəbrək, onun ürəyində, fikirlərindədi, oğul. Onun qələmini al əlindən — o, sudan çıxarılmış balıq kimi çırpınıb-çapalayıb məhv olar, tez məhv olar. Bəli, o, qələmi ilə, düşüncələri ilə, dərdləri ilə böyükdür, əzəmətlidir. Zahirində böyüklük axtarma.

Bu qaibanə fikir Bəbrəkin bütün diqqətini atasının qələminə yönəltdi. Çox qəribə idi ki, qələmində də heç bir sehr-filan yox idi. Həmin qələmdən Bəbrəkdə də var idi, bacılarında — Jalədə və Rəbiədə də vardı. Bəbrək anladı bu həqiqəti ki, o qələm ancaq sehrli əllərdə sehrli ola bilər!

Sonra o, arxayınca çəkilib getdi. Artırmaya çıxanda həyətdə danışıq səsi eşitdi. Anası kiminləsə danışırdı:

— Dünya xanım necədi, Nəcməddin ağa?

— Sağ ol, qızım, yaxşıdı.

— Olsun, olsun. Dünən Şəfi ilə getmişdik Zərrintac xanımgilə.

— Hə, xəbərim var. Axşam zəng eləmişdim. Dedi gəlmişdilər.

— Yaxşıdırlar, maşallah. Ələlə verib dolanırlar.

— Hm, — dedi Nəcməddin. Sonra başı ilə yuxarı işarə elədi — Deyirsən kişi işləyir, hə?

— Hə, çıxın yuxarı. Sizi görüb, sevinəcək, qalxın.

Nəcməddin taxta pilləkənlərdə ləngər vura-vura artırmaya çıxdı, Bəbrəki görməyib düz birbaş Şəfinin iş otağına girdi.

Məhəmməd Şəfi doğrudan da ağayi Nəcməddinin gəlişinə çox sevindi: görüşdülər, bir-birindən hal-əhval tutdular. Deyib-gülüb, zarafatlaşandan sonra Nəcmədini qayğıkeş bir görkəm alıb:

— Mən ciddi bir məsələ üçün gəlmişəm, Şəfi! — dedi. Şəfi yenə zarafat elədi:

— Yoxsa arvad səni şersiz yanına buraxmır?...

Nəcməddin nə isə yaralı yerinə toxunulmuş kimi yüngülcə köks ötürdü və bunu gizləmək üçün zorla gülümsədi:

— Orası elədi, zalımın qızı, doğrudan da elə hey məndən şer istəyir. Elməddinin də şer bazarı son vaxtlar kasıblaşıb, bir şey vermir. Sən də ki bizə baxmırsan...

Şəfi stolun bir küncündə qoyduğu iki vərəqi qatlayıb ona verdi:

— Sənin üçün saxlamışam. Oxuyarsan arvadağaya, kefi kökələr. Təki dərd şer dərdi olsun, ay Nəcməddin...

Nəcməddin vərəqləri aldı, baxışları ilə səssiz-səmirsiz oxuyub cibinə qoydu:

— Çox sağ ol, Şəfi. Ancaq mən ayrı iş üçün yanına gəlmişəm.

— Hə?

— Bəli, Şəfican! Sən bilirsən ki, mənim sənə nə qədər hörmətim var. Səni çox istəyirəm, qiymətləndirirəm.

Məhəmməd Şəfinin dalağı sancdı: həqiqətən Nəcməddin nə isə çox vacib bir məsələdən söz açmaq istəyirdi deyəsən. Şerdən ötrü gəlməmişdi əlbəttə.

— Nə olub axı, Nəcməddin?! Nəcməddin siqar yandırdı:

— İndi Ərke-şahidən[1] gəlirəm. Ələhəzrətlə bilyard oynayırdıq, ağayi nəxost vəzir[2] də gəlib çıxdı. Xeyli oynadıq, o yandan-bu yan-

[1] Ərke-şahi — şahlıq sarayı.

[2] Nəxost vəzir — baş vəzir.

dan söhbət elədik... Naharı da bir yerdə etdik... Süfrə arxasında söz hərlənib-fırlanıb siyasi məsələlərin üstünə gələndə sənin adın da çəkildi.

— Kim çəkdi mənim adımı?

— Nəxost vəzir.

— Nə dedi ki?

— Sənin nüfuzun, açığını deyim ki, hər ikisini yamanca təşvişə salıb. Səni oxuyur xalq, sevir camaat, sənin sözünə, ruznamənə inanır camaat. Bu isə onların xoşuna gəlmir, lap açığı, qəzəbləndirir, Şəfi. Ağayi nəxost vəzir beləcə də buyurdu: «Məclisin deputatları arasında Bəbir nə qədər qorxuludursa, kənarda, ictimai həyatda da, Rəhgüzər bir o qədər təhlükəlidir, əlahəzrət! Son vaxtlar hər ikisi neştəri kənara qoyub qılınca əl atıblar. Bu barədə düşünmək lazımdır!..»

— Bəs əlahəzrət cənabları nə buyurdu?

— Onun qaşları çatıldı, fikrə getdi. Sonra dedi ki, baxarıq bu məsələyə. İndi, Şəfican, deməyim odur ki, sən bir qədər ehtiyatlı ol. Özünə və uşaqlarına yazığın gəlsin. Bilirsən ki, bunların kəsdiyi başın sorğu-sualı yoxdur və ola da bilməz. Və ümumiyyətlə sizin bu mübarizəniz qarışqaların fillə müharibəsinə bənzəyir, Şəfi. Nədən ki, bineyi-qədimdən dünya belə qurulub, belə gedəcək.

Şəfi Nəcməddini iyirmi ildən çox idi ki, tanıyırdı. Xasiyyətinə, mərdliyinə, ürəyinə bələddi. Siyasi baxışları ona aydındı: burada onların yolları ayrılırdı; çox mübahisələr, müsahibələr etmişdilər, lakin heç biri öz əqidəsindən, yolundan dönməmişdi. Onların dostluğunun bu uzun illər bax beləcə davam etməsinə yeganə səbəb Nəcməddinin şer, sənət vurğunu olması, həssaszövqlü olması idi. İndi ona görə Şəfi onunla təzədən mübahisəyə girişmək istəmədi, dediklərini sukutla dinləyib ürəyində onun bu xidmətini yüksək qiymətləndirdi. Şəfi şübhə etmirdi ki, Nəcməddin onu bir insan, sənətkar kimi çox istəyir. Əgər bu belə olmasaydı, o, sarayda olan söhbəti gətirib ona xəbər verməzdi, onu ayıq salmazdı. Bunu ancaq dost adam edə bilərdi.

— Şəfican, bunu da bil ki, mən bu söhbəti sənə deməyə də bilərdim. Ancaq ürəyim məni məcbur elədi ki, səni xəbərdar eləyim, çünki sənə heyfim gəlir. Bilirsən ki, mənim belə elədiyimi onlar bilsələr, gecənin birində mən yoxam, oğurlayarlar, məhv edərlər, inanmırsan? Deyirsən dostlarımdı? Yox, Şəfi. Mən rəyasət adamının, yüksək məqamlı şəxslərin dostluğuna heç vaxt inanmamışam. Sadəcə

olaraq, onlarla ağılla danışmışam, susmaq lazım olanda susmuşam, gülmək lazım olanda gülmüşəm, qumarda, bilyardda uduzmaq lazımdısa, uduzmuşam. Çünki bizim zəmanə, cəmiyyət bunu belə tələb eləyib. Mən yaşamaq istəmişəm, inanmışam ki, ikinci dəfə dünyaya gəlməyəcəyəm, faydasız, az qiymətli iş üçün çox qiymətli, əvəzsiz həyatımı, başımı bıçaq altına qoymağı axmaqlıq sanmışam, Şəfi. Odur ki, qardaş, mən sənə heç nə deməmişəm. Oldumu?

Şəfi qəmli-qəmli gülümsündü:

— Minnətdaram, Nəcməddin, sənə. Çox sağ ol, qardaş. O barədə arxayın ola bilərsən, biz uşaq deyilik ki!! Sənin bu fədakarlığını biz yüksək qiymətləndiririk. O ki qaldı insanın dünyaya bircə dəfə gəlmək məsələsinə, məncə, elə həyatın gözəlliyi də elə ondadır ki, insan bircə dəfə dünyaya gəlir, iki dəfə yox.

***

...Nəcməddin gedəndən sonra Məhəmməd Şəfi tək qaldı, eşitdiklərini, öyrəndiklərini götür-qoy eləməyə başladı. Düşündükcə qəlbində iftixar hissi ilə qəribə qorxu hissi tez-tez bir-birini əvəz eləyib varlığını sıxdı. Yanında bir dost, həmdəm arzuladı ki, ürəyini açsın, yüngülləşsin. Bəbirlə görüşün vaxtı hələ çatmamışdı, Elməddin isə yerində yox idi. Əlbəttə, bunu hələlik Məleykə xanıma demək olmazdı, o, narahat olacaqdı, nə boğazından tikə keçəcəkdi, nə də yata biləcəkdi. «Demək, qorxurlar! Ona görə də bizi —Bəbiri də, məni də aradan çıxarmaq üçün münasib fürsət, məqam gözləyəcəklər».

Şəfi gəzinir, siqareti siqaretin oduna yandırırdı; otağa elə bil, dağlardan duman axıb gəlmişdi. Nəfəs almaq mümkün deyildi.

Şəfi damağında siqaret eyvana çıxdı, oradan hovuzun qırağına gəldi. Dərdsiz-qayğısız üzən, bir-birilə «zarafatlaşan», «vuruşan» balaca, qırmızı, ağ, qara balıqlara tamaşa elədi. Oğlu o yanda, hasarın dibində oturub dərs oxuyurdu, Məleykə bir yerə topladığı zir-zibilə od vurmuşdu.

Məleykə asta addımlarla ona yaxınlaşdı:

— Ağayi Nəcməddindən nə əcəb, Şəfi? — deyə xəbər aldı. Şəfi qəmli, tutqun nəzərlərini arvadından gizləməyə çalışaraq:

— Elə-belə...—dedi. — Deyirdi sənin üçün darıxmışam... — O, vicdan əzabı çəkə-çəkə yalan danışdı yenə. Məleykə kefi kök halda güldü:

— Yəqin yenə Dünya xanım şerdən ötrü kişini dağa-daşa salıb, hə?

— Hə, hə! — Şəfi bunu niyə vaxtında tapıb deyə bilmədiyinə təəssüfləndi — Şer verdim ona, apardı.

— O qız bu kişinin axırına çıxmasa yaxşıdı. Uşaq kimi əsir-yesir eləyib bu boyda kişini. Öl desə ölür, qal desə qalır.

— Sevir də.

— O yaşda nə sevgi, ay Şəfi! Nəcməddinin ələyi ələnib, xəlbiri də göydə fırlanır.

— Ürəyin işini bilmək olmaz, Məleykə. Bu, yəqin onun qocalıq eşqidi. Bəlkə də onu elə gümrah saxlayan o qızın məhəbbətidi, nə bilmək olar?..

— Hələ bu gün-sabah uşaq da olacaq, gör onda Nəcməddinin başında nə turp əkəcək!

— Əkə bilməz, Məleykə. Nəcməddini sən yaxşı tanımırsan. Mən onu beş barmağım kimi tanıyıram. Sən bilirsən o necə zirək, hələm-hələm arxasını yerə qoymayan bir kişidi?

— Nə deyim, vallah. Özləri bilərlər. — Sonra Məleykə söhbəti dəyişib Bəbrəkin üstünə gətirdi — Bəbrək bayaq yanına gəldi?

— Yox.

— Gəlmədi? Bayaq sənə baxmağa gəlirdi uşaq.

Şəfi bayaqdan ilk dəfə gözlərini hovuzdan çəkib arvadına baxdı:

Necə yəni mənə baxmağa gəlirdi?

Məleykə Qadir xanın bu gün sinifdə danışdığını ərinə sevinə-sevinə nağıl elədi:

— Deyib ki, Rəhgüzər bizim ən böyük adamımızdır, fəxrimizdir.

Şəfi kədərli halda başını tərpətdi və istehza ilə:

— Hə, — dedi, — məmləkətin ən böyük adamları da mənim barəmdə elə o fikirdədirlər!

— Sən allah, düz deyirsən? Kim, Şəfi? Şəfi astadan dedi:

— Əlahəzrət, nəxost vəzir...

— Nə yaxşı, nə yaxşı, ay Şəfi. Onlardan çıxmayan iş?!—deyə ərinin bu sözləri nə mənada dediyini anlamadığından lap sevindi. — Gözün aydın, kişi. Səni təbrik eləyirəm.

— Niyə dinmirsən, Şəfi?

Şəfi fikri dağınıq olduğunu gizləməyə çalışaraq:

— Hə, çox sağ ol, Məleykəm mənim. Ancaq mən onların sözündən daha çox Qadir xanların sözünə inanıram!

...Bəbir otaqda var-gəl edə-edə Məhəmməd Şəfini dinlədi. Şəfi sakit-sakit danışırdı, səsində nigarançılıq vardı, qayğı vardı, neçə gündən bəri düşüncələrin, xəyalların yorub əldən saldığı Şəfi,

Nəcməddinin danışdıqlarını artırıb-əskiltmədən, olduğu kimi Bəbirə çatdırandan sonra:

— Yenilik bundan ibarətdir, Bəbir!—dedi. — Özü də mənə elə gəlir ki, bu məsələni əhəmiyyətsiz — boş şey kimi qəbul edə bilmərik. Mənə elə gəlir ki, bu söhbət havayı yerə gedib o yerə çıxmayıb!!!

— Tamamilə düz deyirsən, Şəfi. Demək, məclisdə, nümayəndələr arasında mən nə qədər qorxuluyamsa, sən də çöldə, cəmiyyətdə bir o qədər qorxulusan, hə, — deyə Bəbir keçib stulunda, Şəfinin üzbəüzündə oturdu. — Bəli. Beləcə də deyib!

— Nə olar, bizim üçün bu, fərəhlidir, Şəfi. Adama düşmən kimi ətraflı və dəqiq qiymət verən ikinci şəxs çətin tapılar. Dost qiymətində bir qədər aludəlik, artırma-əskiltmə ola bilər, ancaq düşmən adama düşmən kimi qiymət verir — real, necə varsansa, elə! Demək, atdıqlarımız hədəfə dəymişdir, boş çıxmamışdır, Şəfi.

Bəbir danışdıqca Şəfi ondakı nikbinliyə, qorxmazlığa heyran olur, istər-istəməz bu neçə gündə keçirdiyi hissləri Bəbirin coşub-qaynayan duyğuları ilə müqayisə edir və öz dostunun mərdliyinə, dönməzliyinə qibtə ilə baxırdı. Düşünürdü ki, indiki halda Bəbirlə onun fərqi bundan ibarətdir: Bəbir başladıqları bu işin yarımçıq qalacağını ağlına belə gətirmirdi, Şəfi isə ancaq və ancaq bundan qorxurdu.

Bəli, hər ikisinin ən müqəddəs arzusu bu vətənin, bu torpağın, bu xalqın səadətə çıxması uğrunda aparılan mübarizənin uğurla nəticələnməsi idi. Bu yolda hətta ölüm qorxusu da onların gözünə görünmürdü. Bəbir cavan idi, hələ bu taxt-tacın qan üstündə dayandığını, insan sümüklərinə söykəndiyini — nəzəri cəhətdən çox yaxşı bilsə də, əmələn görməmişdi, təsəvvür eləmirdi. Şəfi isə öz ömründə çox belə mübariz oğulların — «böyük» və «qorxulu» olduqları üçün — «adi təsadüf» üzündən çayda boğulduğunu, avtomobil qəzasına uğradığını, «qəflətən» öldüyünü görmüşdü, eşitmişdi. Onların yalnız ömürləri deyil, arzuları da yarımçıq qalmışdı. Şair məhz bundan qorxurdu, ancaq bundan! Şəfi bu fikirlərini Bəbirə söyləyəndə o, özünə xas çılğınlıqla cavab verdi:

— Ondan da qorxmaq lazım deyil, Şəfi. Biz olmasaq da, bizdən sonra gələnlər bu müqəddəs işi axıra çatdıracaqlar. Bundan nigaran olma, bu duyğunu birdəfəlik ürəyindən çıxart, at! O, səni tərk-silah eləyə bilər, Şəfi.

Şəfi narazı halda başını tərpətdi:

— Yox, Bəbir. Bundan arxayın ola bilərsən. Mənim deməyim odur ki, son dərəcə ehtiyatla işləməliyik, adamlarımızı, xüsusən səni qorumalıyıq. Yoxsa biz mənəvi cəhətdən düşmənimiz qarşısında uduzmuş olarıq.

— Düzdür, Şəfi. Tamamilə düzdür. Nəcməddinin bu fədakarlığını qiymətləndirməliyik, biz onu əldə saxlamağa çalışmalıyıq. Bu belə... Qaldı ki, vəziyyətimiz... Sən narahat olmaqda haqlısan, Şəfi. Gərgindi bizim vəziyyətimiz. Ona görə, biz müvəqqəti olaraq, ruznaməmizdə kəskin şerlər verməməliyik; mənim «Nə etmək lazımdır?» məqaləmi hələ vermə. Çünki bu onları lap quduzlaşdıracaq.

— Dayan, Bəbir. Həmin məqalə üçün bir karikatura da çəkib Elməddin.

— Nə karikatura?

— O... Əla bir şəkildi. Özü də hər ikisini bir nömrədə verəcəyəm. Əgər Nəcməddin bu xəbəri çatdırmasaydı, bu nömrədə verəcəkdim.

— Hanı, baxım?

Şəfi qovluğun içindən bir qalın səhifə çıxardıb Bəbirin stolunun üstünə qoydu. Bəbir diqqətlə baxmağa başladı. Səhifədə tuşla baş nazirin şəkli çəkilmişdi. O, qara bir pərdənin qabağında, stulda əyləşib ayağını ayağının üstünə aşırmışdı. Arxasındakı qara pərdədə saysız-hesabsız sual işarələri vardı. Və baş nazir corab toxuyurdu. Yumaq yerə düşmüşdü. Baş nazirin sifəti, başı elə çəkilmişdi ki, adını yazmaq lazım deyildi, baxan o saat tanıyardı. Çünki hansı qəzetə, jurnala baxsaydın, baş nazirin şəklini görə bilərdin. Ya diplomatik qəbulda, ya qonaq qarşılayıb yola salanda, ya da əlahəzrətin hüzurunda...

Altında bircə kəlmə yazılmışdı: «Sözsüz...».

Bəbir karikaturaya baxıb uğundu:

— Ay səni, Elməddin! Nə yaxşı çəkib, nə yaxşı çəkib!! Afərin!

— Sən bunun siyasi mənasına fikir verirsənmi, Bəbir?

— Bəli, çox böyük siyasi mənası var, Şəfi. Yəni bu qədər hələ olunmalı məsələlər qalıb, baş nazir xırda-para işlərlə məşğuldur, corab toxuyur.

— Başqa mənası da budur ki, baş nazir başımıza corab hörür.

— Bəli. Bu da tutarlıdır. Hə, məqalə ilə bu karikaturanı bir yerdə çap etməyi yaxşı düşünmüsən — məqalə savadlılar üçün, karikatura isə savadsızlar üçün! Ancaq hələ yox, bir az sonra, Şəfi.

— Elədir. Gözləmək lazımdır.

— Elməddinin kefi necədir, Şəfi? Zərrintac xanımla dil tapıb yaşaya bilirmi?

— Yaşayır. Çətin də olsa, yaşayır. Bilirsən, məncə, o, Elməddini başa düşüb qiymətləndirə bilmir. Bu isə onun faciəsi olacaq, məncə. Bəlkə də Elməddinin özü bunu dərk etmir, ancaq kec-tez bu belə olacaq, Bəbir.

— Eh, nə bilim, Şəfi. Əgər elə olsa, ancaq təəssüf etməliyik. Kaş elə olmasın. Mən ona görə həmişə deyirəm ki, evlənmək çox çətin məsələdi.

—Yoxsa, ona görə evlənmirsən, Bəbir?

— Xeyr, evlənəcəyəm, ancaq sonra, əsas arzuma yetəndən sonra, Şəfi.

— Elə et ki, biz də toyunda oynaya bilək, Bəbir.

— Oynayacaqsan, Şəfi. Az qalıb o günə.

— Təki olsun, Bəbir, təki olsun...

...Onlar gecədən xeyli keçənə qədər söhbət elədilər. Gələcək işlərindən, ümumi vəziyyətdən, orduda, camaat içində aparılan işlərdən ətraflı danışdılar.

Məhəmməd Şəfi Bəbirlə xudahafizləşib çıxanda qəlbində bir yüngüllük vardı, inam vardı. Qorxu hissi tamam yox olmuşdu.

ÜÇÜNCÜ HİSSƏ

BİRİNCİ FƏSİL

Əsl məhəbbət insan ömrünə bircə dəfə gəlir, yalnız bircə dəfə! Gəlir, ya yaşadır, güldürür, xoşbəxt edir, dünyanı, insanları gözündə gözəlləşdirir, ucaldır səni, ya məhv edir, uçurur, dağıdır, yandırır, rüsvay edir, alçaldır səni! Gəlir, bəzən vaxtlı gəlir, vədəsində gəlir! Gəlir, bəzən vaxtsız gəlir, vədəsiz gəlir!

Ağayi Nəcməddinin məhəbbəti vaxtsız-vədəsiz gəlmişdi, doğulmuşdu. Gəncliyini kəşməkeşli həyat yollarında itirəndən, şəvə kimi qara saçlarını qar kimi ağardandan sonra, əl-ayağını yığışdırıb rahatlaşmağa hazırlaşdığı bir vaxtda gəlmişdi. Bu, əvvəl hava-həvəs idi, əyləncə idi, amma sonralar özünün də heç gözləmədiyi halda anlaşılmaz, duyulmaz, duyulub dərk edilməz, yandırıb-yaxan, viran qoyan bir məhəbbətə çevrildi.

Ağayi Nəcməddin bu uzun ömründə iki dəfə rəsmi evlənmişdi, saysız-hesabsız, cavan, qəşəng qadınların qucağında nazlanmışdı, xumarlanmışdı, ancaq heç birini sözün həqiqi mənasında sevməmişdi, hörmət eləmişdi, qiymətləndirmişdi, bağlanmışdı, ləzzət almışdı, lakin bunlar əsl sevgi olmamışdı, ola bilməmişdi. Və o, qadının, məhəbbətin, ömrün bu qədər şirin, əvəzolunmaz, qiymətsiz olduğunu da heç vaxt belə dərindən, bütün gözəlliyi və bütün ağrısı-əzabı ilə dərk eləməmişdi.

Dünya xanım gəlmişdi onun ömrünə. Ömrünün qürub çağında gəlmişdi, heyf! O, həyatın əsl zövqünü, şirinliyini, gözəlliyini, qüdrətini, kəncliyin təravətini Dünya gələndən sonra anlamışdı elə bil. Kişi körpə uşaq anasına bağlanan kimi bağlanmışdı ona; Dünya onun bu kövrək vaxtında həm anası olmuşdu, həm sevgilisi. Dünya onu bu qatma-qarışıq, hər kəsin közü öz qabağına eşmək istədiyi cahana gözəgörünməz, möhkəm, ipək tellərlə elə bağlamışdı ki, Nəcməddin çox zaman ömrünün keçib-getdiyini, qocaldığını, qaçılmaz olan ölümün yaxınlaşdığını unudur, yeniyetmə oğlan kimi hər şeyə biganə, qayğısız, dərdsiz yaşayırdı. Elə yaşayırdı ki, elə bil hələ hər şey qabaqda idi.

Neçə il idi ki, ağayi Nəcməddin özünün kecikmiş səadətindən, məhəbbətindən həzz-ləzzət ala-ala yaşayırdı, özünü dünyanın ən

bəxtəvər, ən müqtədir adamı sayır, qürrələnirdi. Neçə il idi ki, vaxtsız-vədəsiz taleyinin yolunun üstə çıxartdığı bu şirin məhəbbət saçları çoxdan ağarmış Nəcməddini bir uşağa çevirmişdi, onu təbiətinə xas zahiri kobudluqdan belə uzaqlaşdırmış, incələşdirmişdi. O, ipək kimi yumşaq, uşaq kimi mehriban olmuşdu. Dünya xanıma bir körpə təki baxır, onu əzizləyir, oxşayırdı və bundan əvəzsiz bir ləzzət alırdı. Bu onun üçün səadət idi, bəxtəvərlik idi. Milyonlar, milyardlar onu belə xoşbəxt edə bilməmişdi heç vaxt. Bəzən ona elə gəlirdi ki, vardövlətsiz də, cah-calalsız da, o, Dünya ilə uçuq komada, əldən-ayaqdan uzaq bir meşədə belə bu cür bəxtəvər ola bilər!

Dünya cavandı, qəşəngdi, Dünya əksər gözəllər kimi işvəli-nazlı idi, öz qiymətini yaxşı bilirdi. Nəcməddinin sonsuz bir məhəbbətlə sevdiyini görürdü, hiss edirdi, bəzən bundan qürrələnirdi də. Ancaq elə anlar da olurdu ki, ürəyinin dərinliklərində — Nəcməddinin hiss edəcəyindən qorxurdu — qocanın bu dəlisov məhəbbətinə gülürdü, rişxənd eləyirdi. Bu hisslərini o heç vaxt büruzə vermir, özunə etiraf eləməkdən belə çəkinirdi. Ağılla yaşamağı, ölçüb-biçib hərəkət etməyi xoşlayan Dünya, bəzən ürəkdən istəməsə də, Nəcməddinə mehriban olurdu, ona xoş sözlər deyirdi, başını dizinin üstünə qoyub ağ saçlarını sığallayır, körpə kimi nəvaziş göstərir, «sən mənim səadətimsən, Nəcmi!» — deyirdi. — «Səni tanrım mənim üçün heç bilmirəm hayandan yetirdi, mehribanım. Mənim xilaskarım oldun sən, Nəcmi. O ağayi Siracüddövlənin xarabasında qalsaydım, indi çoxdan ölmüşdüm, ya da xəstələnmişdim, aman allah! Ona görə mən sənin qulunam, mənim ağam, mənim xilaskarım!» Dünya xanımın həyəcanla, bəzən gözləri yaşara-yaşara dediyi bu qəbil sözlər Nəcməddini məst eləyirdi, ona daha çox bağlayırdı, əsir edirdi. Və Nəcməddinin Dünyaya etibarı artırdı, çünki görürdü ki, bu balaca mələyin qəlbi ona qarşı şükranlıq hissilə, sədaqət hissilə doludur və hələ şəhərdə, ayrıca tutduğu evdə tək yaşayarkən arabir qəlbinə axıb dolan xəyanət şübhəsi onu evinə gətirəndən, bir dam altında yaşayıb xasiyyətinə bələd olandan sonra əriyib yox olmuşdu; Dünya ona vəfadan, sədaqətdən yoğrulmuş bir varlıq kimi görünməyə başlamışdı.

Nəcməddin Dünyanın nəvazişlərindən məst olduğu belə anlarda gözləri yol çəkə-çəkə deyirdi:

— Mənim həyatım pis keçməmişdir zənnindəydim indiyə qədər. Lap cavanlıq illərimdən nə istəmişəm, onu da eləmişəm, Dünya. Çünki pulum olub, imkanım olub, özüm də qəşəng olmuşam. Bu vaxta qədər elə düşünürdüm ki, həyatım mənasız keçməyib, dünyada heç

bir arzum-kamım qalmayıb. Ancaq, sənə rast gələndən sonra, xüsusilə son illər başa düşmüşəm ki, yox, səhv eləyirmişəm. Bunların heç biri əsl səadət deyilmiş, əsl xoşbəxtlik deyilmiş, mənim mələyim. Bunlar hər insanın həyatında ola biləcək, mümkün olacaq şeylər imiş. İndi dərk edirəm ki, mən bir ömür boyu səni axtarırmışam, səni gözləyirmişəm! Sən məni elə xoşbəxt eləyibsən ki, heç özün də təsəvvür eləyə bilmirsən, Dünyam mənim. Bəzən mən özüm təsəvvür eləməyə acizlik çəkirəm. Çünki qəlbim elə doludur, gözlərim elə işıqlıdır, həyatım elə mənalıdır ki, şair olsaydım belə, bunları bəyan eləməyə acizlik çəkərdim. Sən mənim qəşəngimsən, şerimsən, musiqimsən, sən mənim şirin dünyamsan, Dünyam mənim. Mən sənə rast gələndə artıq dünyadan doymuşdum, bezmişdim, məni həyata bağlayan tellər — zəncirlər çürümüşdü, köhnəlmişdi, kiçicik bir təkandan, sarsıntıdan qırıla bilərdi və mən məhv olardım. Ancaq sən gəldin və mənə ikinci ömrü bağışladın, cavanlaşdırdın məni, o çürümüş telləri — zəncirləri dəyişdin, təzələdin, məni dünyaya — bu əsrarəngiz, sehrli dünyaya bağladın, gülüm. Və mən indi qəti əminəm ki, o telləri sən özün kəsməsən, heç kəs kəsə bilməz, heç kəs məni məhv edə bilməz. Mən milyonlarımla yox, sənինlə güclüyəm, gülüm, mən var-dövlətimlə deyil, sənինlə bəxtəvərəm, mehribanam.

— Nəcməddinin yuxudaymış kimi pıçıldaya-pıçıldaya dediyi bu sözlər Dünyanın xoşuna gəlirdi, çünki onu, həqiqətən heç kəs belə bir məhəbbətlə sevməmişdi, qiymətləndirməmişdi, qaldırıb göylərə — ayın, ulduzların yanına qoymamışdı. Həyatında belə adam olmamışdı. Həmin sözlərin, naz-nemətin, cah-calalın doğurduğu fərəh Dünyanı daha da gözəlləşdirir, mələkləşdirirdi. Ayna qabağında dayanıb öz camalına, zərif, ağ bədəninə tamaşa edərkən ürəyi qürur hissilə dolur, belə gözəl yarandığına görə taleyindən razılıq eləyirdi. Bunu da düşünürdü ki, gözəlliyindən və ağlından başqa onun əslində heç nəyi yoxdur- Onu yaşatsa-yaşatsa, bu iki nemət yaşadacaq. O, qadın sövqtəbiisi ilə anlayırdı ki, gözəlliyi və ağlı Nəcməddinin milyonlarından, qızıllarından çox-çox qüdrətlidir, hökmlüdür. Belə olmasaydı, Nəcməddin kimi bir şəxsiyyət — şəhəri heyrətə salan əzəmətinə və milyonlarına baxmayaraq onun qabağında quzuya dönməzdi, dağ boyda kişi hesab eləməzdi. Bu idi onun gücü, silahı: gözəlliyi, tədbiri, ağlı, yaşını, qüdrətini unudub başını onun qu tükündən düzəlmiş balış kimi yumşaq dizinin üstünə qoyub özünü bəxtəvər sanırdı! Düşünürdü ki, dünyada bədbəxt qadın yoxdur, ağılsız, tədbirsiz qadın

var! Yalnız ağılsız və tədbirsiz qadınlar bədbəxt olurlar, bunun da günahı onların özündədir.

Bir dəfə... belə gözəl, xoşbəxt günlərin bnrində, hər ikisinin kefi kök, damağı çağ olan bir vaxt, söhbət səadətdən, vəfadan, gözəllikdən və qüdrətdən düşərkən, — bu o, zaman idi ki, Dünya çarpayıda oturmuşdu, qəşəng, dolu, yalın qılçalarını aşağı sallamışdı, Nəcməddin isə sərxoş halda xalça üstündə oturub onun ayaqlarını sinəsinə sıxıb sığallayır, dizlərindən öpürdü, — Dünya xanım şeytancasına gülüb demişdi:

— Kişi, sən qüdrətlisən, ya mən?! Nəcməddin qürurunu sındırmayaraq:

— Əlbəttə, mən! — demişdi.

— Nəylə?

Nəcməddin azca duruxub cavab vermişdi:

— Milyonlarımla, ad-sanımla, qızıllarımla! Dünya xanım onun ağ saçlarını nazla, bir az da incik halda qarışdırmışdı:

— Yox, bilmədin, Nəcmi?! Dünyada qızıldan da qüdrətli bir varlıq var, Nəcmi!

Nəcmi gözlərini qaldırıb Dunyanın gözlərinin içinə təəccüblə baxmışdı:

— Nədir o elə, Dünya?

— Nədir? Bilmirsən?

— Yox. Mən dünyada var-dövlətdən, qızıldan hökmlü ikinci varlıq tanımıram. O, hətta padşahdan da, allahın özündən də qüdrətlidi, Dünya. Sən qızılın hökmünü görməmisən, ancaq mən görmüşəm.

— Yox, əzizim, var elə bir varlıq ki, sənin qızılından da qüdrətlidir.

— Nədir axı o?

— O... qadındır, Nəcmi!

— Qadın?

— Bəli.

— Ola bilməz... Qızıla baş əyməyən ikinci qüvvə yoxdur cahanda. Qadın özü də ona baş əyir...

Dünya yenə onun ağ tüklərini qarışdırmış, başını çəkib dizinin üstünə qoymuş və burnuna bir çırtma vurub:

— İstəyirsən sənə bir əhvalat danışım — demişdi — Bizim «hurilər dərəsinin» əfsanələrindəndi...

— Yaxşı, danış.

Və Dünya belə bir əfsanəmi-nağılmı danışmışdı:

— Deyirlər, ulu tanrı yer üzündə bütün məxluqatı, naz-neməti xəlq eləyib hərəsinin öz vəzifəsini, ləyaqətini, qiymətini izhar elə-yəndən sonra demişdir: «Gedin, sizi mən yaratdım, gedin, qədirbilə-niniz yer üzündə, insan yanında, mənim yanımda həmişə əziz olacaq, qədirbilməyəniniz zəlil, xar və qiymətsiz olacaqdır!» Deyirlər, sənin qüdrətinə çox inandığın və güvəndiyin qızıl da bu xəlq olunanlar ara-sında imiş. Yer altında yaşayırmış, yarandığına şükür eləyirmiş, parıl-tısına, qiymətli olduğuna uyub lovğalanırmış, yaşamağını yaradanın adına bağlayarmış. Başqa məxluqat kimi, əslini, yaradanını unut-murmuş. Buna görə ulu tanrı qızıla deyib: səni işıqlı dünyaya çıxardı-ram, insanlar arasında yaşa, səni əziz, qiymətli və qüdrətli elan edi-rəm, qızıl.

Qızıl o zamanlardan insanlar arasında yaşayır, gəzir-dolaşır, əl-dən-ələ keçir, bağlı qapılar açır, həlli müşkül məsələlərin düyününü açır. Doğrudan da hamının yanında əziz olur. Onu görəndə hamı ehti-ramla ayağa durur, baş əyir, həyatı bahasına olsa belə onu əldə et-məyə çalışır, onu qoruyur, canından, övladından belə çox istəyir, gecə-gündüz onun haqqında düşünür... O, hansı qapını açıb içəri gi-rirsə, o evə sevinc, şadlıq gəlir, güc-qüdrət gəlir... Bütün bu ehtiram-lar üçün o, öz yaradanına minnətdar olur. Bir gün ulu tanrı qızılı yanı-na çağırıb soruşur:

— Hə, Qızıl ağa, yer üzündə işlərin necə gedir?

— Ey əziz tanrı,—deyir qızıl, — sayeyi-mərhəmətindən işlərim əladır. Yer üzündə bütün əşrəfi-məxluqat mənə ehtiram bəsləyir.

— Heç elə olubmu ki, sözün keçməsin, sənə kəmetina olsunlar, ayaqlar altına düşəsən? Qızıl ah çəkib deyib:

— Olub, ulu tanrım.

— Danış, görüm?!

— Sahibimlə bir ölüm işini həll eləmək üçün bir hakimin ya-nına getmişdim. Sahibim oğlunun ölüm hökmünü əfv etdirmək istəy-irdi. Gümanı təkcə mən idim. Məni atlas kisəya yığdı, apardı. Dərdini dedi, məni hakimin qabağına tökdü. Mən parıldadım, cilvələndim, gözünü qamaşdırmaq istədim. Ancaq hakim mənə gözünün ucuyla da baxmaq istəmədi. Yox, — dedi, — olmaz, — dedi. Bu zaman su so-nası kimi bir cavan qadın içəri girdi. O qədər gözəl idi ki, o qədər zərif idi ki, elə bilirdin mələikədi, göylərdən enib gəlib, hakim də, sahibim də heyrət içində donub qalmışdılar. Mən ayaqlar altında idim, üzümə baxan da yox idi, ulu tanrım.

Hakim özünü unutmuş halda:

— Buyurun, xanım. Mən sizi dinləyirəm. Əyləşin, — dedi, sonra üzünü bizə tutub dedi, — siz gedə bilərsiniz. Bu düzələn iş deyil.

Sahibim kor-peşman məni də götürüb çıxdı; qapı ağzında çaşqın dayanıb nə edəcəyimizi bilmirdik. Mənim qürurum sınmışdı, sahibimin isə beli. Ancaq biz qapı arxasında gələn qadının dediyi bu sözləri eşitdik:

— Möhtərəm hakim, o ölümə məhkum olmuş cavan mənim sevgilimdi, onu mənə bağışlamağınızı xahiş edirəm.

Və bir azdan sonra qadın hakimin otağından şad-xürrəm çıxanda biz başa düşdük ki, hakim məhkumu bağışlayıb.

Ulu tanrım, o vaxtdan mən harda qadın görürəm, qarşısında baş əyirəm, barmaqlarını, sinələrini, topuqlarını, qulaqlarını bəzəyirəm qadınların. Çünki ulu tanrım, sən qadını məndən də qüdrətli, hökmlü yaradıbsanmış!

Dünyanın bu söhbətini dinləyən Nəcməddin başını bulamışdı:

— Yox, düz deyil, Dünya. Bu, əfsanədi.

— Əfsanədi? — deyə Dünya razı olmadığını bildirmək üçün soruşmuşdu. — Düz deyil? Gözünlə görmək istəyirsən?

— Hə. Göstər, göstər körüm.

Dünya ağlına gələn fikirdən qorxsa da, bu qorxunu nazaqəmzəyə büküb eləmiş, onun başını əyib saçlarından öpmüş, sonra gülə-gülə demişdi:

— Buyur, bax! — O, xalçanın üstə oturub ayaqlarının xırda, qara tüklərini pişik tükləri kimi sığallayan Nəcməddinə və özünə baxışı ilə işarə eləmişdi — Dünyanın ən qüdrətli, ən varlı, ən qızıllı bir kişisi olan sən indi mənim ayaqlarım altındasan, ey mənim əzizim, ay mənim dilbilməzim. İndi inandın?

Nəcməddin bu sözdən sonra sıçrayıb ayağa qalxmaq istəmişdi, ancaq Dünyanın ağ dizlərini, dolu ayaqlarını görüb təzədən hər şeyi unudaraq onları öpməyə başlamış və sonra yorğun-yorğun demişdi:

— Ay şeytan, düz deyirsən, sən məndən qüdrətlisən, mənim Dünyam, mənim sevincim, mənim ürəyim, gözlərimin işığı.

O anda ürəyində ötəri, sarsıdıcı, qürurunu, mənliyimi tapdalayıb əzən, lakin Dünyanın şirin sözlərilə tez keçib-gedən bir hiss oyandırmış bu sözləri eşidəndə qız bu xanimana təzə gəlmişdi, necə deyərlər, şirin, dadlı vaxtları idi; onda Nəcməddin özünə söz vermişdi ki, bir də heç zaman onun ayaqları altına düşməyəcək, özünü kişi kimi aparacaq, alçaltmayacaq, hökmünü, ixtiyarını əlindən verməyəcək. Sonralar da bu əfsanə və onunla əlaqədar Dünyanın dediyi söz-

ləri tez-tez xatırlayırdı Nəcməddin. Ancaq günlərin birində, — onunçun nə qədər ağır olsa da, — başa düşdü ki, dünyanın bütün gözəlliyini, şirinliyini, işvəsində, nazında, gözlərinin işığında, bədəninin ağlığında və doyulmazlığında gizlətmiş, bu ilahi qadının ayaqları altına düşmək, onun qədəmləri dəyən yerləri öpmək də bir səadətdir, kimsəyə nəsib olmayan bir xoşbəxtlikdir. Bunu da dərk elədi ki, ondan qaçmaq, yaxa qurtarmaq, doymaq, əl çəkmək mümkün deyil, əsla mümkün deyil. Yer göyə qovuşa bilər, aləm dağıla bilər, ancaq bu, ola bilməz. Çünki o, sehrdi, tilsimdi, əfsundu. Onu bu qadından ancaq və ancaq ölüm ayıra bilər, əgər ayıra bilsə? Ölmək? Yox, belə gözəl, belə şirin və doyulmaz qadını qoyub ölmək də olmaz. İlahi, özün Nəcməddinə belə bir dağ çəkdirmə. Onun üçün ən yaxşı ölüm hər ikisinin birgə ölümü ola bilər, bax bu cür ölümün özü də bir səadət olar! Nəcməddin bu həqiqəti dərk edəndən sonra, doğrudan da Dünyanın qabağında bir qula, bir əsirə döndü və onun nazı ilə oynamağı, özü ilə oturub-durmağı adət elədi.

Dünyanın hökmranlığı hamilə olandan sonra daha da artmışdı. Ərköyün böyümüş uşağa dönmüşdü Dünya. Nəcməddin onun qabağında bir dayə kimi dayanmışdı. Çayını verirdi, suyunu verirdi, soyundururdu, geyindirirdi. Kişi bəlkə də doğma qızının — çox istədiyi ciyərparası Zərrintacın qulluğunda bu cür canıyananlıqla durmazdı. Buna hövsələsi çatmazdı. Nəcməddin qayğısını, mehribanlığını artırdıqca Dünyada bir arxayınlıq, ərköyünlük əmələ gəlirdi və o, yeri gəldikcə Nəcməddinə təlqin eləməyə çalışırdı ki, onların gözəl günləri hələ qabaqdadır,

Oğlanları olandan sonra, — Dünyanın fikrincə mütləq oğlu olacaqdı, — onlar bundan da xoşbəxt olacaqlar. Nəcməddin «oğlan» sözünü eşidəndə uçunurdu, az qalırdı Dünyanın «oğlan» deyən dodaqlarını gəmirsin, onu sonsuz öpüşlərə qərq eləyirdi. Bu zaman Dünya onu ərklə kənara itələyirdi.

—Yavaş, ədə, adam kimi öpməyi də bilmirsən. Ağzının, burnunun suyu axıb adamı iyrəndirir. — Və bu sözdə Dünyanın içindəki gizli ikrah özünü büruzə verirdi, lakin gözləri tutulmuş, dərk etmək qabiliyyəti sanki əlindən alınmış Nəcməddin bu ikrahı duymurdu, başa düşmürdü. Son vaxtlar əlinə yaxşı bir bəhanə də düşmüşdü — şersiz gəlmə yanıma!—deyirdi. Şeri olmayanda Nəcməddini yanına buraxmır, naz eləyir, kiçicik bir şeyi bəhanə edir, «özümü pis hiss eləyirəm!» deyib üzünü divara çevirərək yatırdı. Nəcməddin onu çox sevdikcə, əzizlədikcə gözəgörünməz bir əl sanki Dünyanı çəkib

uzaqlara aparırdı. Onun sanki hissləri, varlığı, ürəyi harasa qeyb olur, təkcə bədəni qalırdı Nəcməddinin gözləri qabağında. Və bədbəxtlik burasında idi ki, bunu Nəcməddin görə bilmirdi, hiss edə bilmirdi — bunu ancaq Dünya özü bilirdi; bilirdi ki, Nəcməddinin ona dediyi məhəbbət dolu sözlər əvvəllərdə olduğu təki indi ona ləzzət vermir, sönük, quru, boğazdan yuxarı deyilmiş sözlər kimi görünür, bəzən isə, iyrənc, bezdirici təsir bağışlayır! Halbuki həmin sözləri Nəcməddin ürəkdən, yana-yana, sevə-sevə deyirdi, deməyi bacarmadığı üçün söyləyirdi — onlarda bu qoca, bəlkə də həqiqətən miskin görünən bir məftunun ürəyi çırpınırdı.

Nəcməddin isə bütün bu şıltaqlığını Dünyanın hamiləliyi ilə izah edirdi, «qadın ikicanlı olanda bir az da uşaq xasiyyətli olur, bətnindəkinə arxayınlaşıb ərköyünləşir, eybi yoxdur, qoy eləsin, mənim balamın anası olacaq, dözərəm, hər nazına, hər şıltaqlığına, təki salamatlıq olsun» — deyir, ürəyinə hərdən yol tapan qara fikirlərə, şübhələrə qılınc çəkir, özünü arxayınlaşdırırdı.

Bütün müəssisələrinin gəlirini-çıxarını quruşuna-rupisinə qədər fikrinin gözü ilə görən Nəcməddin, ömrünü, gününü qurban elədiyi, dünyada hamıdan, hətta özündən də çox istədiyi Dünya xanımın gözü qabağında ikiləşdiyini, cismən burda, fikrən isə başqa yerdə olduğunu görə bilmirdi.

Və onun faciəsi məhz bunda idi!

İKİNCİ FƏSİL

Gün dağların dalından bir adam boyu qalxmışdı. Evlərin şərqə baxan pəncərələri şəfəqdən alışıb-yanırdı.

Əbdül səhər tezdən harasa tələsən ağasının yeməyini-içməyini verib yola salmışdı. Nəcməddin yuxusuz, gecə pis yatan adama oxşayırdı, gözləri qızarmışdı, tez-tez əsnəyirdi. Demək olar ki, Əbdülə heç nə danışmamışdı da. Düzü Əbdülün də onunla kəlmə kəsmək həvəsi yox idi, çünki o da sübhün gözü açılanacan qəribə bir qısqanclıq hissinin əlində əsir olaraq həyət-bacada gəzmiş, evin arxa tərəfinə keçmiş, Nəcməddinlə Dünya xanımın yataq otağının pəncərələrindən süzülüb gələn o sehrli, əzablı işıqlara baxmış, işıqlar sönmədikcə onun ürəyi hövl eləyib az qala sinəsindən çıxmışdı. Gecəyarıdan keçmiş, saat üç-dörd olmuşdu, işıqlar yenə sönməmişdi. «Görəsən neyləyirlər?» — deyə bir sual qəlbini qurd kimi gəmirmiş, yandırıb

çızdağını çıxartmışdı. Ayağının altına daş-taxta qoyub pəncərədən içəri boylanmaq arzusunu ürəyində güclə boğmuşdu, qorxmuşdu.

Əbdül nəzərində canlandırırdı ki, indi Nəcməddin — o qoca qurd Dünyanı bağrına basıb duz kimi yalayır, gözlərindən, dodaqlarından, buxağından, sinəsindən öpür, öpür... Yorulmur da qoca qurd! Əbdül ha əlləşirdi ki, ürəyini parçalayan, ona olmazın əzablar verən, hətta ağladan bu bəd fikirləri özündən kənar eləsin, qovsun, ancaq bacara bilmirdi ki, bilmirdi.

Halbuki onlar küsmüşdülər. Hərəsi öz çarpayısında üzünü kənara çevirib yatmışdı və bir-birinin acığına durub işığı da keçirməmişdilər. Əbdül isə öz fikirlərinin əlində yanıb qovrulmuşdu. Ona görə idi ki, o, səhər Nəcməddini görərkən daxili bir nifrət duymuşdu ürəyində; üzünə ötəri baxmış və o, çıxıb gedənəcən kirpiklərini də qaldırmamışdı.

Sonra dəli bir istəklə Dünya xanımın otağına girmək istəmiş, lakin xanımın özü razı olmadan bu işi eləməyin ona baha başa gələcəyini düşünüb «lənət sənə, kor şeytan!» — deyərək fikrindən vaz keçmişdi. Çünki Dünya xanım tez inciyəndi, tez küsəndi, yeri gələndə qəddar idi, hətta! Onun istəyi xilafınca bir şey etmək əsla mümkün deyildi. Əbdülün ixtiyarı nə idi ki, xanımın razılığı olmadan hətta salam versin, dindirsin, baxışlarını qaldırıb onun əsmər üzünə baxsın. Yox idi Əbdülün bunların heç birinə ixtiyarı:

Yuxqsuzluqdan başı şişmiş, gözləri qan çanağına dönmüş Əbdül həyətdə çox gəzikdi, yumurtası tərs gəlmiş toyuq kimi çox ora-bura vurnuxdu, lakin Dünya otağından çıxmadı, eyvanda dayanıb sinəsinin üstündən sallanan hörüyünün ucunu oynada-oynada Əbdülə baxmadı, lazım bilsə, kirpiyi ilə onu salamlamadı.

—«Yatır hələ!» — deyə Əbdül dərindən bir ah çəkib çarəsiz halda darvazanın qabağına çıxdı — «Qoca yəqin səhərəcən yazığı yatmağa qoymayıb!»

Darvazanın qabağında Əbdül taxtadan yaraşıqlı bir oturacaq qayırmışdı, rəngləmişdi. Bikar vaxtlarında, işi-kücü olmayanda çıxıb oturar, dincələrdi, küçədən keçənlərə tamaşa edərdi, qonşu həyətə baxardı. İndi də gəlib oturdu. Başı ağrıyırdı, araqçınını çıxarıb böyrünə qoydu, əlini cod saçlarında gəzdirdi... Sonra gözlərini yumdu, mürgü vurmaq istədi... Ancaq xəyalında yenə pəncərədən axıb gələn işıqlar yandı, ipək-yorğan döşək, Dünyanın ağ bədəni canlandı. Sonra haradansa Nəcməddin peyda oldu, qıllı əllərini, çılpaq, tüklü sinəsini gördü. Əbdül dəhşətli bir şey görmüş kimi, səksəndi. Və özünə kənar

adam gözü ilə baxıb: «Xudaya, özün kömək ol mənə!» — dedi. Bu dəfə o «dəhşətli» mənzərəni görməmək üçün gözlərini yummadı, bir məşğuliyyət axtardı. Bu zaman başına qoyduğu məcməidə təmizlənmiş çuğundur satan kişi gəlib yanından keçdikdə əlinin işarəsi ilə onu əylədi, bir çuğundur qıçası aldı, cibindən çıxardığı bıçaqla dilimləyib yedi. Çuğundur çox şirin idi, qıpqırmızı idi: onun iştahı yox idi, elə-belə yeyirdi, başını qatmaq üçün.

O, çuğunduru yeyib qurtarmamışdı ki, üzbəüz evin darvazası açıldı, narıncı rəngli maşın çıxdı küçəyə...

Sükan arxasında Zərrintacın toyunda onun qabağına çıxıb oynayan o kürən oğlan oturmuşdu. Əbdül onun adını bilmirdi, sadəcə qonşunun oğlu kimi tanıyırdı. Salamları-kəlamları yoxdu, yeganə qarşılaşdıqları toyda olmuşdu. Və onda Əbdül başa düşmüşdü ki, o, lovğadır, gözəlliyinə, gəncliyinə öyünəndi və o qədər camaatın içində onu — nökər Əbdülü yorub sındırmaq istəyirdi. Əbdül bunu dərhal başa düşmüşdü, odur ki, var qüvvəsini toplayıb axıra qədər möhkəm dayanmış, o kürəni yorub oyundan çıxartmışdı. Sonralar bu mənzərəni gözünün qabağına gətirən Əbdül yadına salmışdı ki, o, tez-tez eyvana baxır, gözləri ilə kimisə axtarırdı. Aha, Dünyanı, əlbəttə, Dünyanı axtarır. Deyəsən o oynayanda Dünya da iki daşın arasında imkan tapıb eyvana çıxmışdı! Bəli, çıxmışdı. Əslində, Əbdülə elə gəlirdi ki, Dünya onun — Əbdülün oyununa tamaşa eləmək üçün boylanır. Lakin Əbdül gözucu baxıb görmüşdü ki, Dünya ona yox, kürənə baxır və ani olaraq ürəyində nə isə qırılıb düşmüşdü. Amma qəzəbmi, nifrətmi onun əlindən tutmuş, yorğun ayaqlarına qüvvət vermiş və o, axıra qədər oyundan çıxmamışdı. Uzun müddət bu xoşagəlməz müşahidələr Əbdülü rahat buraxmamış, ürəyinə salıb qaynatmış, özünə dərd eləmiş, neçə vaxt Dünyaya qəlbinin dərinliklərində oyanan, közərən bir şübhə ilə baxmış, ancaq açıb ağartmamışdı. Günlər, həftələr keçəndən sonra o, bu şübhəni qəlbindən çıxara bilmişdi, ancaq qonşu kürən oğlana bəslədiyi nifrət azalmamışdı. Nə isə ondan xoşu gəlmirdi. Elə bil, o qazanırdı, kürən yeyirdi, içirdi, lovğalanırdı. Sanki bu maşını da o, Əbdülün puluna almışdı.

Kürən axır vaxtlar maşını darvazadan çıxarar, bir dəfə siqnal verər, sonra ya yuyardı, ya da yaş əski ilə tozunu silərdi. Bu, bəzən gündə iki-üç kərə təkrar olunardı. Əbdül bunlara əvvəllər əhəmiyyət verməzdi, adi şey kimi baxardı. Ancaq bu gün... bu gün nə pis gün idi, ilahi! Gecəni səhərəcən yatmamışdı yazıq, gözünə cürbəcür şeylər görünmüşdü, üstəlik bu hadisə də...

Kürən maşından düşdü, əlində əski vardı. Görünür, Əbdülü görmürdü, o dəqiqə Nəcməddinin daş hasarına sarı boylandı və başını, kimləsə salamlaşırmış kimi tərpətdi, əli ilə maşının tozlu pəncərəsinə işarə elədi və sonra şəhadət barmağı ilə şüşənin üstünə nə isə yazdı: Əbdülün dalağı sancdı, gözlərini geniş açıb şüşəyə yazılanı oxumağa çalışdı. Və oxudu: 94-32. Bu nə demək idi? O niyə bu rəqəmi şüşəyə yazırdı? Sonra bir də daş hasara baxdı. Elə bu zaman Əbdül ilan vurmuş kimi yerindən sıçradı və yarıaçıq darvazadan içəri, həyətə keçdi. Və gözlərinə inanmadı. Dünya ağ xalatda eyvanda dayanmışdı, saçının ucunu qurdalayırdı və kürənə sarı baxıb gülümsünürdü. Dünya elə aludə olmuşdu ki, Əbdülün həyətə girdiyini görməmişdi.

Əbdülün başına elə bil isti su tökdülər. Bütün vücudunu gözəgörünməz od-alov qarsdı. Heykəl kimi yerində donub qaldı, tərpənməyə taqəti olmadı Əbdülün!

Dünya onu görmədi, qayıdıb otağına keçdi... handan-hana Əbdül özünə gəldi, maraq üçün yenə çölə çıxdı. Oğlan maşının yanında yox idi. Ancaq şüşəyə yazdığı rəqəmlər yaddan çıxıb eləcə qalmışdı: 94-32.

Əbdül sanki birdən hər şeyi anladı: bu, adicə rəqəm deyildi, kürənin telefon nömrəsi idi. Dünyaya vermişdi öz telefonunun nömrəsini. Dəhşət! Əbdül iki addım irəli cumdu, maşının şüşəsini daşkəsəklə qırıb çilik-çilik eləmək, nömrəni beləliklə pozmaq istədi. Ancaq düşündü ki, artıq kecdi, Dünya oxudu o nömrəni, əzbərlədi o nömrəni, Əbdül çaşqın halda geri qayıtdı, pilləkənlərə doğru qaçdı. Dayandı yenə. İndi onlar telefonla danışırlar! Görəsən nə danışırlar, aman allah?!

Birdən taqətsizləşdi, elə pilləkənlərin üstündə qıçları büküldü, çevrilib oturdu. Başını dizləri üstünə qoyub hönkür-hönkür ağladı, ağladı...

Ürəyi boşaldı, gözləri boşaldı... həyatı, arzuları puça çıxmış, uzun illərin intizarından sonra tapdığını yenidən itirmiş adam kimi səndirləyə-səndirləyə pilləkənlərdən düşüb öz hücrəsinə getdi, açıq qapıdan içəri girib üstündə mütəkkə, pambıq döşək olan taxta çarpayıya üzüqoylu uzandı və:

— Eh, namərd Dünya! — dedi. Onun çiyinləri titrəyirdi.

...Nəcməddin günortaya yaxın gəldi. Maşını özü həyətə saldı. Əbdül yox idi. Həmişə, o nə vaxt gəlsəydi, darvazanı açardı, ağasına baş endirərdi: ancaq indi gözə dəymirdi. Dünya da gözə dəymirdi.

Bir-iki ağız öskürdü, Səsinə hay verən olmadı. Ölüblər? Yatıblar?.. Ortalıqda dayanıb çağırdı!

— Ehey! Ay Əbdül! Əbdül heyy!!!

Yenə cavab verən olmadı. Onda Nəcməddin hücrəyə sarı addımladı... Qapı açıq idi və Əbdül də üzüqoylu taxtın üstündə yatmışdı...

— O beçə!.. Əbdül?!

Əbdül hərəsan qalxdı. Taxtdan düşüb ağasını görüncə özünü itirdi. Kəkələyə-kəkələyə:

— Bəli, qurban, bəli, ağam! — dedi, — huş aparıb məni, yatmışam, bağışla, ağa.

— Darvazanı da açıq qoyubsan, gəlib burda div yuxusuna gedibsən. Şəhərdə oğru-quldur azdı? Gəldilər, yığışdırdılar, sonra neyləyəcəksən? — Onun qızarmış, yuxulu gözlərinə baxıb astadan xəbər aldı — Dünya hanı bəs?

— Dünya?..Mən... mən bilmirim. O da yoxdu?

— Nə bilim, baxmamışam.

— Mən bu gün onu heç görməmişəm, ağa.

— Yatıb yenə yəqin? Sən belə elə. Maşında ət var, ceyran əti-di, onu yaxşı-yaxşı doğra, manqala od sal, bişir! Yandırma. Görürəm yuxulusan. Bu gün arvadağanın anadan olan günüdür, kef eləyəcəyik.

— Baş üstə, ağa!

Nəcməddin onu təpədən-dırnağa süzəndə Əbdül üşürgələndi. Çünki çox diqqətlə baxırdı ağa:

— Sənə nə olub, hə?

— Heç nə, ağa. Bir az yorğun idim, yıxılıb yatmışam.

— Bəs niyə ağlamısan?

— Kim? Mən? — «O, hardan bildi?» — qorxu ilə düşündü.

— Gözlərindən bilirəm ağlamısan!

Əbdül yenə kəkələdi. Ömründə yalan danışmamışdı, ancaq görünür bu evdə yalan danışmağa da öyrənməli idi. Bayaq «ağama deyəcəyəm!»—deyə Dünyanın dalınca alıb-verən Əbdül indi anladı ki, bunu açıb-ağartmaq mümkün deyil, hər ikisini doğram-doğram eləyər, ara yerdə o günahkar olar. Amma Dünyadan necə intiqam almaq arzusu baş qaldırmışdı ürəyində. Dünya bütün gözəlliyi və zərifliyi ilə ölmüşdü gözlərində, çirkaba batmışdı, xəyanətə bürünmüşdü. Ondan hər cür intiqam almağa dəyərdi. Əbdülə yeganə ümid verən bu idi ki, o kürənin əli dəyməyib Dünyaya, olsa-olsa səsini eşidib, vəssalam. Nə qədər sağdı Əbdül, buna imkan verməyəcək. O kürən

bura gələ bilməyəcək, Dünya da evdən çıxa bilməyəcək. Bu, hələlik telefon xəyanəti idi.

— Hə, ağa, başına dönüm, rəhmətlik anam yuxuma girmişdi, səsini eşitdim, ürəyim kövrəldi, yəqin onda ağlamışam, ağa — o, ağlamsındı.

— Yaxşı, yaxşı, burda yasxana açma. İşinlə məşğul ol.

— Beçeşm, ağa!

Nəcməddin maşının açarını barmağında fırlada-fırlada yuxarı çıxdı. Əbdül üzünə su çırpdı, əti maşından götürdü.

İki saatdan sonra Əbdül ağacın altında stol açmışdı. Çörək, göygöyərti düzmüşdü. Boşqab qoymuşdu. Kababı ayrıca qaba çəkib qapağını da örtmüşdü. Çəngəli, duzu qoyurdu ki, Nəcməddin eyvana çıxdı:

— Nə oldu, ay Əbdül, sənin bu kababın?

— Hazırdı, ağa, buyura bilərsiz!

Nəcməddin geri qayıtdı. Dünya xanımın qolundan tutub çölə çıxartdı. Dünya xanım qıpqırmızı lalə rəngində, gen-bol don geymişdi. Yumşaq, xurmayı saçlarını burub boynunun dalında sancaqlamışdı. Qulaqlarından asdığı sırğa, qızıl və mirvari boyunbağılar ona olduqca yaraşırdı. Bunu Əbdül ərinin qolunda pilləkənləri düşərkən sezmişdi: gözünün içinə baxmamağa çalışaraq özünü məşğul göstərmişdi.

— Gör sənin üçün nə hazırlamışam?

— Nədi ki? Kabab?

— Hə. Əgər bilsən nə kababıdı? Dünya xanım çiyinlərini nazla çəkdi:

— Nə olacaq? Həmişə yediyimizdəndi yəqin.

— Yox, tapmadın. Əbdül, bu nə kababıdı?

— Ceyrandı, xanım! — Əbdül qabın ağzını açıb ortalığa qoydu.

— O, ceyran! Nə yaxşı, Nəcmi? Haradan tapdın bunu?

— Sənin nəyinə lazımdır? Ceyran kababı istəyirdin, buyur, bu da ceyran kababı.

— Çox sağ ol, mənim əzizim! —O, əyilib böyründə oturan Nəcməddinin üzündən öpdü, — mütəşəkkirəm.

Əbdül sıxıntı içində qanrılıb, çıxıb getmək istəyərkən Nəcməddin:

— O beçə, o yəxçaldan[1] viskini də gətir bura, iki də badə gətir, — dedi. Əbdül gətirdi.

[1] Yəxçal — soyuducu.

— Otur! — Nəcməddin söylədi. — Bəs xanımı niyə təbrik eləmirsən, Əbdül. Axı bu gün onun anadan olduğu gündü. Əbdül çaşqın halda:

— Hə, hə... Bayaq dediniz, ağa... —dedi və sonra Dünyanın üzünə baxmadan (əvvəllər xanım özü qadağan eləmişdi, indi o özü baxmaq istəmirdi) ədəblə əlini döşünə qoyub xırıltılı səslə:—Təbrik eləyirəm, xanım. Xoşbəxt olun, xanım, — söylədi. — Ancaq ağa, mənə icazə verin gedim, siz naharınızı edin.

— Yox, elə şey yoxdu, — Dünya dilləndi, — bu gün bizimlə nahar edəcəksən, Əbdül. Bu gün yeyəcəksən, içəcəksən. Sən içəndə məzəli olursan, Əbdül. Otur, otur.

— Hə, xanım deyəndən sonra nəinki sənin, heç mənim də ixtiyarım yoxdu onun sözünü yerə salım.

Əbdül çıxılmaz vəziyyətdə qalmışdı. Dünya xanımla bu gün üzbəüz oturmaq onun üçün əməlli-başlı işkəncə idi, ona dərin bir nifrət bəsləyirdi. Ancaq neyləyə bilərdi. O biri tərəfdən də elə içmək istəyirdi, elə içmək istəyirdi ki, bəlkə hər şeyi unuda — o məkrli baxışla, o məkrli təbəssümü. Oturdu.

Kabab yaxşı çıxmışdı. Dünya xanım yedikcə gah Nəcməddini, gah Əbdülü tərifləyirdi. Nəcməddin viski şüşəsini açdı, özünün də, Əbdülün də piyaləsinə viski doldurdu. Sağlıq dedi:

— Bu gün mənim ceyranımın ad günüdür. Mənim ağıllı, həssas, vəfalı ceyranımın doğulduğu gündür. Mən ceyranımın ad gününə ceyran kababı təşkil eləmişəm. Arzum, istəyim budur ki, mənim ceyranım daim belə cavan, belə gözəl olsun və gözləri ceyran gözünə oxşayan bir oğul əta eləsin mənə.

— Niyə? Mənim gözüm bəyəm ceyranın gözündən pisdi? — Dünya nazla çiyinlərini silkələyib incidiyini bildirdi. — Mənim gözüm ceyranın gözündən də yaxşıdı, qəşəngdi. Elə deyil, Əbdül?

Badə Əbdülün əlində əsirdi. O, ani fikirdən sonra:

— Mən nə ceyranın gözünü görmüşəm, nə də sizin, xanım! — dedi, — onu ağam bilər, ceyran bilər...

Bu söz Nəcməddinin xoşuna gəldi. Elə Dünyanın da. Bu ara Dünyanın qulaqlarına tanış, Əbdülün indiki səsinə oxşar, ancaq indikindən çox həlim və mehriban bir səs gəldi: «Gözlərinə qurban olum, nə qəşəng gözlərin var sənin! Qoy o gözlərdən doyunca öpüm, sən allah!»

— Hə, içirik ömrü bahar, özü bahar Dünya xanımın sağlığına! — Nəcməddin badəsini Əbdülün badəsinə toxundurub başına çəkdi. Əbdül də içdi. Dünya içmirdi, ancaq elə şad idi ki, elə ürəkdən şaqqanaq çəkib gülürdü ki, deyirdin bəs sərxoşdu. Ad günü olduğuna görəmi idi? Arzuladığı ceyran kababına görə idimi? Bəlkə də belə idi. Ancaq Əbdül düşünürdü ki, bunun səbəbi başqadı. Səbəbi kürənlə danışmasıdı. Yəqin bir-birinə xoş sözlər deyiblər, telefonda da olsa. «Vüsala qovuşublar!» Belə fikirləşəndə Əbdülün qanı qaralırdı, kabab da, içki də öz ləzzətini itirirdi. Bu dəfə o, əl atıb ağasının, özünün badəsini dolduranda Nəcməddin güldü:

— Bax, belə! Xoşum gəldi indi səndən. Maşallah, daha yavaş-yavaş öyrənirsən. Bu, yaxşıdı. Su girdi qaba, oldu içməli. Ağa necə, nökər də elə. Mən başqa yerlərdə, başqa adamlarla içmirəm. Elə ikimiz, ürəyimiz istəyəndə, bala-bala vurarıq. Bu yaxşı deyil, Dünya xanım?

— Əlbəttə, əlbəttə! İçin, şənlənin. Xüsusilə bu gün nə qədər istəyirsiniz, için. Ancaq elə eləməyin ki, mən sizi sürüyüm, yerinizə salım.

— Yox, ondan qorxma.

Əbdülün qırışığı açılmışdı.

— Ağa, icazə verin, bunu sizin əziz və şərafətli vücudunuzun sağlığına nuşican edim. Siz... siz... yaxşı adamsınız, sizi mən... çox istəyirəm... Bağışlayın, mən danışa bilmirəm, ancaq onu bilirəm ki, sizin qədrinizi bilməliyik... Sizin qədrinizi... bilməyən xoşbəxt ola bilməz...

— O, gör nə yaxşı sözlər deyir bu, Nəcmi? — Dünya yenə şaqqanaq çəkib güldü. — Əməlli-başlı sağlıq deyə bilir Əbdül!

— Bəs necə? Ağasına oxşayır. Mal yiyəsinə oxşamasa haramdı, — deyirlər.

— Sağ ol, ağa. Allah sizi bu evdən əskik eləməsin! — deyib Əbdül ikinci badəni də içdi.

— Ye, yeməsən, yenə tez keflənəcəksən.

— Yox, ağa. Mən bu gün keflənməyəcəyəm. Bu gün mən...

— Ananı yuxuda görmüsən, ona görə də keflənməyəcəksən, hə?

— Anasını?

— Hə!

— Gəlirəm, görürəm yatıb. Durğuzuram, görürəm ağlayıb. Adə, — deyirəm, — niyə ağlamısan? Deyir anamı yuxuda görmüşəm. Adə, bəs sən boyda kişi də anasını yuxuda körəndə ağlayar?

— Nə bilim, ağa, Ürəyim kövrəldi... heç on yaşım yox idi o öləndə... Ondan sonra mən də öldüm — elə hesab eləyin, ağa.

Nəcməddin onun piyaləsini dəyişdi; iri su stəkanına süzdü viskini.

— Neynirsən? — Dünya xəbər aldı — Öldürmək istəyirsən onu?

— Ölməz. Canı bərkdi, sənin də canından bərkdi, mənim də.

Dünyanın bu canıyananlığı Əbdülün ürəyinə yatdı, könlünü oxşadı: «Qayğıma qalır!». Bütün məclis boyu ilk dəfə gözlərini qaldırdı, qorxa-qorxa, isinə-nsinə onun ala gözlərinə baxdı. Və kininiküdurətini unutdu Əbdül!

Nəcməddin stəkanı onun qabağına qoydu:

— Hə, indi bir sağlıq da özün haqqında de, Əbdül,

— Özüm haqqında?

— Bəli.

Dünya yenə güldü:

— Adam da özü haqqında sağlıq deyər?

— Deyər! Niyə demir ki, sadəcə elə bilərsən ki, özün haqqında yox, başqası haqqında danışırsan.

— A, heç elə də şey olar?!

— Olar, Dünya xanım! — Bu sözü Əbdül söylədi və stəkanı götürüb bir neçə saniyə fikirləşəndən sonra: — Əbdül yaxşı quldu, — dedi — İçək Əbdülün sağlığına!

Ər-arvad ikisi də gözləri yaşarınca güldü.

— Afərin, Əbdül! Həqiqətən sən yaxşı adamsan. Təmizkar, vəfalı, sadiq. Şəxsən sənin sağlığına.

Badələri toqquşdurub içdilər. Əbdül stəkanı axıracan başına çəkdi. Hovxurub ağzına bir tikə ət atdı. Nəcməddin ona su verdi.

— Mənim üçün ayran süz, Nəcmi!—Dünya qrafinə işarə elədi. — Dünya ayranı içib:

— Oxay, nə sərindi! — dedi.

Əbdül keflənirdi. Gözü axır, üzü gülürdü. Hərdən kiminlə oturduğunu unudub ucadan qəhqəhə çəkirdi. Nəcməddin də, Dünya da ona qoşulub gülürdülər.

Dünya əyilib ərinin qulağına nəsə dedi: o, balaca piyalələrə viski töküb üzünü Əbdülə tutdu:

— Əbdül, Dünya xanım deyir ki, sağlıq desin Əbdül. Mənim sağlığıma dedin, xanımın sağlığı qaldı axı. Əbdül başını buladı:

— Yox, xanımın sağlığına siz dediniz, ağa.

— Biz istəyirik, sən də deyəsən, Əbdül! — Nəcməddin badəsini götürdü.

— Bəlkə heç xanım istəmir mənim kimi bir naçiz adam onun barəsində söz desin?

— İstəyirəm!

— Hə. Onda... onda böyük stəkana süzün, ağa... Yoxsa... xanımın sağlığına mən az içə bilmərəm...

— Yox, elə balacada yaxşıdı, Əbdül. Böyük səni dəli eləyər.

— Mən belə istəyirəm...

— Yax...şı!

Əbdül badəsini qaldırdı:

— Mən... xanım haqqında onu deyə bilərəm ki, xanım çox gözəldi, ağıllıdı. Arzum budur ki... o, sağ-salamat ağama bir oğlan bəxş eləsin və mən... o nur parçasını bax bu qollarım üstə böyüdüm, toyunu görək... Çox sağ olun, xanım. Bir də... istəyirəm ki, siz... ağam və siz... heç vaxt bir-birinizdən ayrılmayasınız.

— Amin! — Nəcməddin söylədi. — Sən içəndə əməlli-başlı adam olursan. İçməyəndə kölgə kimi səssiz-səmirsiz... Bilmirəm, varsan, yoxsan...

— Afərin! — Dünya dedi.

Əbdül içdi, Sonra ayağa qalxdı... Bu ara küçədə maşın siqnal verdi. Əbdül şəkləndi, gözucu Dünyaya baxdı. O heç qımıldanmadı da. Əbdül səndələyə-səndələyə darvazaya çıxdı, geri qayıtdı:

— Gələn var? — deyə Nəcməddin maraqlandı. Əbdül cavab verdi:

— Yox, yoldan ötəndi. — Və sonra düşündü ki: «Siqnalın səsini də tanıyır! Bildi ki, o deyil...» ...Sonra hücrəsinə yollanmaq istəyəndə Nəcməddin səsləndi:

— Hara gedirsən, Əbdül!..

— Gəlirəm, ağa... Bir dənə zəng eləyim!..

— Nə zəng, a Əbdül? Bir bura gəl görüm? O qayıtdı.

— Orda məgər sənin telefonun var?

— Yox!..

— Bəs hara zəng eləyirsən?

Əbdül duruxdu. Udqundu handan-hana:

— Anama... — dedi. — Bayaq mənə telefon nömrəsi verdi, dedi nə vaxt istəsən, zəng elə!..

— Xa, xa!.. Anan yuxuda telefon nömrəsi verdi sənə? Məgər o dünyada ölülərin telefonları var?.. Xa, xa! Ay oyunun olsun, sənin Əbdül.

— Get yat, Əbdül!—deyə Dünya hökmlü səslə Əbdülə müraciət elədi, — keflisən, get yat... Ayılandan sonra zəng eləyərsən. Yaxşı?

— Yaxşı... — Və müti addımlarla uzaqlaşdı.

— Sənə demədim bunu çox içirtmə, axırda sarsaqlayacaq?

— Xa, xa! — Nəcməddin uğunurdu — Ay oyunun olsun... Anama zəng eləyim.

— Bir də onu içirtmə, Nəcmi!

— Əşi, əylənirik də. Oturaq bir-birimizin üzünə baxaq? Dünya dinmədi, nigaran halda Əbdülün hücrəsinə diqqət yetirib fikrə getdi... «Olmaya?»...

ÜÇÜNCÜ FƏSİL

Mətbəənin havası kəsif idi, tünd idi. Nəfəs alanda adamın boğazı acışırdı. Turşu və qurğuşun qoxusu Şəfinin gözlərini göynədirdi. Zirzəmidən düz küçənin səkisinə açılan balaca pəncərədən içəri axan təmiz çöl havası da buradakı bəd və zəhərli üfunəti təmizə çıxara bilmirdi.

Hürufçin Teyyub səhərin gözü açılandan aramsız-fasiləsiz işləyirdi. Arabir «Vip»[1] yandırır, çəkirdi.. Əllərini görmək olmurdu Teyyubun. Baxışlarını mətndən çəkmirdi, əlləri isə şriftlər yığılmış qara, çirkli taxta qutulara uzanır, istədiyi hərfi götürürdü. Şəfi təəccüb eləyirdi: elə bil, Teyyubun barmaqlarının da gözü vardı — baxmadan, yoxlamadan lazım olan hərfi seçir, yerinə düzürdü. Şəfi düşünürdü ki, bu, ancaq adətdəndir, vərdişdəndir.

Teyyub zəif idi, arıq idi, üzünün almacıq sümükləri çıxmışdı; tez-tez öskürürdü, çiyinləri qalxa-qalxa nəfəs alırdı. Sifətinin rəngi qurğuşun kimi boz-boğunuq idi. Çuxura düşmüş gözləri isə diri və parıltılı idi, elə bil bütün gücü, qüvvəti gözlərinə yığılmışdı. Xəstə, sısqa olduğuna baxmayaraq yorulmaq bilmirdi, gecə-gündüz hürufat qutusunun, çap dəzgahının yanından getmək istəmirdi.

[1] «V i p» — Pakistan siqaretidir.

Təbiətən xoş, deyib-gülən adam idi. Yanına bir kimsə gələndə işindən zərrəcə ayrılmadan söhbət edir, müsahibinin suallarına cavab verirdi. Şəfi ilə görüşəndə isə lap çox sevinirdi, ona müxtəlif suallar verir, danışdırmaqdan ləzzət alırdı. Şəfinin yazılarının çoxunu əzbər bilirdi, sevirdi, elə bir böyük sənətkarı şəxsən tanıması ilə ürəyində gizlicə iftixar da eləyirdi. Onun xasiyyətinin həlimliyi, sadəliyi, uşaqla uşaq, böyüklə böyük olmağı Teyyubun çox xoşuna gəlirdi. Dərdisəri olanda, ehtiyacı olanda, çəkinmədən deyə bilərdi, həmişə də kömək görürdü. Şəfini ona sevdirən bir cəhəti də bu idi ki, o, ruznaməsində maraqlı, kəskin şeylər yazırdı, qorxmurdu, camaatın dərdini qələmə alırdı. Onun yazdığı məsələləri başqa ruznamə mühərrirləri də görməmiş deyildi, ancaq onlar ağızlarına su alıb susurdular — bu isə, Teyyubun acığına gəlirdi.

Şəfi ruznamə çıxarmağa başlayandan bəri Teyyub bunu da müşahidə edib öyrənmişdi ki, ruznamədə ciddi hücum xarakterli materiallar çap olunanda Şəfi bu mətbəəyə gəlir, əvvəldən axıra qədər burada qalır, işin gedişinə, oxunuşa və s. nəzarət edirdi.

Bu gün də o özü gəlmişdi. Demək, bu nömrə adi nömrə olmayacaqdı. Materiallarla tanış olandan sonra Teyyub bu fikrində yanılmadığını dərhal anladı. «Nə etmək lazımdır?» adlı adi məqaləni hərf-hərf yazdıqca Teyyubun çuxura düşüb parıldayan gözləri daha da dirilir, boz-bulanıq üzü gülür və o, sonsuz bir həvəslə işləyirdi.

«Hə, bu kəlamdı. Hamının ürəyindən tikan çıxardacaq» — deyə düşünürdü. Baş nazirin karikaturasını görəndə isə Teyyub əvvəlcə güldü, sonra ciddi fikrə getdi. Anlar sovuşduqca karikaturanın siyasi mənasını dərk edib gül kimi açıldı və kənarda dayanıb siqaret çəkən Şəfiyə üz tutdu:

— Bu nömrə əla nömrədi, ustad!

— Doğru deyirsən? — deyə bayaqdan bəri bu nömrənin aqibətini ürəyində götür-qoy eləyən, min bir nigarançılıq çəkən Şəfi xəyal aləmindən ayrıldı.

— Vallah, ustad, çox dolu nömrədi. Əl-əl kəzəcək, bütün şəhərə, bütün məmləkətə səs salacaq, ustad. Məhəmməd Şəfinin gözləri küldü:

— Mən də elə düşünürəm, Teyyub.

— Ancaq... bir az qorxuludur, ustad. Müsadirə eləyə bilərlər. Onda... səsimiz heç yana çatmaz.

— Mən onu düşünmürəm. Ona görə nəyin-bahasına olursa-olsun, Teyyub, bu gecə bütün tiraj çap olunmalıdı, kecəykən də yerlə-

rə-göndərilməlidir. Kağıza qənaət eləmə, nə qədər ehtiyat kağızın var, ver maşının ağzına. Uşaqlar səhərə yaxın gələcəklər, hər kəs öz payını aparacaq... Necə olsa da, gərək bu nömrə xalqa çatdırıla.

— Mən əlimdən gələni edəcəyəm, ustad.

— Çox sağ ol, Teyyub. Təki bu nömrə çıxsın, camaata çatsın, sonra... məni güllələsələr də, heyfsilənmərəm, Teyyub.

Teyyub parıldayan gözlərini Şəfinin ağarmış saçlarında, yorğun simasında gəzdirdi və sanki onu son dəfə görürmüş kimi hər cizgisini, duruşunu, baxışını yadda saxlamağa çalışdı.

***

Şəfi səhərə yaxın evə getdi. Lap əldən düşmüşdü, ayaqları elə bil şişmişdi. Gözləri qızarmışdı. Axşamdan zəng eləyib Məleykə xanıma gec qayıdacağını bildirmişdisə də, qadın yata bilməmiş, yerinə qor dolmuş kimi çalıxıb-çapalamış, nəhayət, yerindən qalxıb vaxtı «öldürmək üçün» uşaqların, ərinin pal-paltarını ütüləməklə məşğul olmuş və beləliklə səhəri diri gözlü açmışdı. Məleykə Şəfini qapı ağzında qarşılayanda əri əsnəyə-əsnəyə xəbər aldı:

— Nə tez durmusan, Məleykə?

Əsnək əsnək gətirər deyərlər. Onu da əsnəmək tutdu və əlilə ağzını örtüb:

— Heç yatmışam ki, duram da, — dedi.

— Niyə yatmırdın ki?

— Nə bilim. Yuxum ərşə çəkilmişdi elə bil. Nədənsə yaman narahat idim, Şəfi. Hər şey öz qaydasındadı?

— Hə, mənim Məleykəm, hələlik hər şey əladır. Nəzərdə tutduğumuzdan da əlli min nüsxə artıq çap elədik. Düzdü, Teyyub əldən-dildən düşdü, ancaq zor iş gördü. Uşaqlar da sağ olsunlar — bütün şəhərlərdən gəlmişdilər, hamısının payını verdim apardılar. Çox böyük işdir, Məleykə.

— Təki axırı salamatlıq olsun, Şəfi.

— Qorxma, Məleykə. Heç nədən nigaran qalma, gülüm. — Şəfi divanda oturdu, arvadının yorğun, nigaran sifətinə baxıb əlavə elədi, — indi, bir hadisə-filan olsa da arxayınam. Sənə arxayınam, gülüm. Əgər başıma bir iş gəlsə, sənə arxayınam — səni bir kişi sanıram, Məleykəm mənim...

Ərinin bu sözlərini eşidəndə Məleykə ağlamsındı:

— Nə danışırsan, Şəfi? Sənsiz bu evin nə yaraşığı? Tək evin yox ey, bu dünyanın nə yaraşığı, Şəfi? Uşaqlar, mən... sənsiz məhv

olarıq. Düzünü de, Şəfi, sən allah, yoxsa qorxulu bir şey çap eləmisən, hə?

— Yox, qorxulu heç nə yoxdur əslində. Bizim üçün qorxulu heç nə yoxdur, qorxu onlar üçündür, baş nazir üçündür, əyan-əşrəf üçündür, əlahəzrət üçündür — qoy onlar qorxsunlar, biz nədən qorxuruq ki... Sən heç nədən narahat olma...

Şəfi elə yorğun idi ki... Ayrı vaxt olsaydı, arvadına çap etdiyi şeylərdən ətraflı danışardı, dərc olunmuş «Qırın zəncirləri, buxovları siz!» şerini əzbərdən oxuyardı... Ancaq indi həvəsi yox idi, həm də bugünkü nömrənin materiallarından danışsaydı, şübhəsiz, Məleykə qorxuya düşəcəkdi, səksəkə ilə yaşayacaqdı.

Məleykə isə çox həssasdı, fəlakəti ərinin «əgər başıma bir iş gəlsə, sənə arxayınam!», «qorxu onlar üçündür — baş nazir üçündür, əyan-əşrəf üçündür, əlahəzrət üçündür» sözlərindən başa düşmüşdü, rəngi ağarmışdı. O, ağzını doldurub nə isə demək istəyirdi ki, Şəfinin elə oturduğu yerdəcə qollarını sinəsində çarpazlayaraq xorna çəkib yatdığını gördü, daha səsini çıxartmadı. Xasiyyətini yaxşı bildiyindən onu çağırıb soyunduraraq yerinə salmaq, rahatlamaq fikrindən vaz keçdi. O buna adət etmişdi. Bərk yorğun olanda, yuxusuz olanda bax beləcə, pallı-paltarlı mürgü vurub yuxusunu alardı — bir saat, iki saat. Belə hallarda çağırsaydı, əsəbiləşə bilərdi, yata bilməzdi. Bütün bunları bildiyindən Məleykə heç nə demədən qayğıkeş bir ana nəvazişi ilə yun şalı Şəfinin qarnı üstünə saldı və dodaqaltı öz-özünə pıçıldadı:

— Xudaya, sən özün balalarıma, ərimə rəhm elə, mənə yazığın gəlsin!!

* * *

Əziz xan kresloda oturmuşdu. Nökərin bazardan alıb gətirdiyi ruznaməni oxuyurdu. Qoca qızılı sağanaqlı eynəyini tez-tez burnunun üstündə düzəldə-düzəldə əvvəlcə baş nazirin karikaturasına xeyli tamaşa elədi. Rəssamının adı yazılmamışdı. Kim çəkmişdisə eynən oxşatmışdı — iri gözləri, uzun burnu, səliqəli vurulmuş bığı... demə görməmişəm, lap ağayi baş nazirin özüdür. Necə də bir qadın səliqəsi ilə corab toxuyur...

Əziz xan əvvəlcə qımışdı. Sonra dümağ qaşları çatıldı. Baş nazirin bu şəkli görəndən sonra nə hala düşəcəyini, quduzlaşacağını təsəvvürünə gətirib qorxuya düşdü. «Bu işlərdə hökmən Bəbirin barmağı var!» — deyə qoca nökəri səslədi:

— Hikmət, Bəbiri çağır bura.

Hikmət talvarın altında kartof soyurdu: elə ordan cavab verdi:

— Ağam evdə yoxdu, bu gecə heç evə gəlməyib. Axşam siz yatandan sonra zəng eləmişdi, dedi ki, mən gəlməyəcəyəm, işim var, aşağıdakı evdə qalacağam, qibləgahıma de ki, nigaran qalmasın.

Əziz xan daha dillənmədi. Asta-asta «Nə etmək lazımdır?» adlı məqaləni oxumağa başladı. Kişi mütaliə etdikcə gözləri böyüyürdü. Kəskinliyindən, sərtliyindən Bəbirin nəfəsini duyurdu, özünü saxlaya bilməyib məqalənin axırına baxdı ki, görsün bu qurd ürəyi yemiş, cəmiyyətin daşını daşı üstə qoymayan, hər şeyin artıq çürüdüyünü var səsilə elan edən, bu «ağalar, qullar dünyasını» dağıtmağa çağıran qorxmaz, öz başını bıçağa sürtən adam kimdir? Bilirdi, ürəyinə dammışdı ki, məqalənin axırında öz ciyərparasının — Bəbirin adını oxuyacaq. Ancaq... «Şəmsəddin»... sözünü oxuyanda əvvəlcə gözlərinə inanmadı. Bir də baxdı. Yox, «Şəmsəddin» yazılmışdı. Demək, Bəbir deyil məqaləni yazan. Əziz xanın üstündən dağ götürüldü elə bil. Kimdi bu Şəmsəddin görəsən?»

Sonra şeri oxudu. Şer Məhəmməd Şəfi Rəhgüzərin idi. «Qırın zəncirləri, buxovları siz!»... Əziz xan təəssüf hissilə düşündü:

— Şəfi özünü heyif elədi. Bu ütüdən salamat çıxmaz!.. Yox, çıxmaz!

Əziz xan yenə səsləndi:

— O beçə, o telefonu gətir bura.

Hikmət telefonu gətirdi, kişi aparatı dizinin üstünə qoyub oğluna zəng çaldı.

— Bəbir?

Bəbirin şən, gümrah səsini eşidən Əziz xan rahat nəfəs aldı.

— Bəli, sənsən, qibləgahım?

— Necəsən, oğul? Bəs evə niyə gəlməmişdin?

— İşləməli idim, qibləgahım.

— Sağ-salamatlıqdır?

— Hə, necə məgər?

— Heç... elə-belə... Şəfinin ruznaməsini oxumusan?

— Yox! — dedi Bəbir. Halbuki qəzet stolunun üstündə idi. — Nə olub ki?

— Heç... Şəfi işləri yaman korlayıb.

— Şəfi ağıllı adamdır, korlamaz, qibləgahım.

— Sən oxusan ruznaməni, belə deməzsən.

— Oxuyaram, oxuyaram. İndi danışa bilmirəm, gələrəm, söhbət edərik...

— Özündən muğayat ol, oğlum.

Bəbir atasının nigarançılığını başa düşürdü, Doğrudan da çox ciddi və gərgin bir vəziyyət əmələ gəlmişdi. Bəbir qəzetə baxmaqdan doymurdu. Bu nömrə çox yaxşı çıxmışdı. Məqalə, şer, karikatura... hamısı bir-birindən kəskin... Bəbir bilirdi ki, bu nömrə bütün məmləkətdə bir çaxnaşmaya səbəb olacaq. Söz bomba kimidir — partladacaq, rəxnəyə salacaq... Mümkündür ki, bu partlayış onlara baha başa gəlsin, qurban verməli olsunlar. Ancaq, nə etməli, qurbansız mübarizə yoxdur, qurbansız heç vaxt azadlıq əldə edilməyib, edilə də bilməz.

Bəbir bir müəllif qüruru ilə öz yazısına baxırdı. Yuxusuz gecələr keçirib yazdığı məqalənin altında öz adı yox, uydurma «Şəmsəddin» adı yazılmışdı. Bəbir yox, Şəmsəddin. Bəbir gülümsündü:

— Bu da bir cür qurbandır! Mən adımı qurban vermişəm!!!

DÖRDÜNCÜ FƏSİL

İki gün idi ki, Dünya xanımı «Şahənşahi» doğum evinə aparmışdılar. Hələ azad olmamışdı. Nəcməddin tez-tez zəng eləyir, tikan üstündə oturmuş kimi rahat ola bilmirdi. Gecələr yatanda da telefonu yanına qoyurdu. Ancaq bir səs-soraq yox idi. Nəhayət, üçüncü gün gündüz saat 12-də doğum evindən şad xəbər verdilər: Dünyanın oğlu olmuşdu. Baş həkim özü zəng eləmişdi. Nəcməddini muştuluqlamışdı. «Oğlan» sözünü eşidən kimi elə bil kişinin qulaqları batmış, beyni uğuldamışdı. Həkimə «muştuluğun məndə!» — deyib tələsik dəstəyi asmış, Əbdülü səsləmişdi, sevindiyindən onu bağrına basıb üzündən öpmüşdü və demişdi:

— Oğlum olub, Əbdül. Məni təbrik elə, Əbdül. Oğlum olub, oğlum olub! — Nəcməddin Əbdülü buraxıb qol qaldıraraq süzmüşdü.

Əbdül də ona baxıb oynamışdı:

— Közün aydın, ağam. Xoşbəxt olsun:

İkisinin də sevinci bir-birinə qarışmışdı. Kənardan baxan olsaydı, aydın edə bilməzdi ki, hansı daha çox sevinir. Yamanca sevinirdilər. Nəcməddin quşa dönmüşdü, elə çevikləşmişdi ki, deyərdin bəs iyirmi yaşlı oğlandı. Özünü itirmişdi, nə edəcəyini bilmirdi, danışdığını bilmirdi.

— Oğlan olmağı yaxşı oldu. Zalımın qızı elə bil əlilə qoymuşdu, elə hey deyirdi oğlun olacaq. Bu da sənə oğul. Qızdan oğul yaxşıdı, Əbdül. Oğul ata çırağı yandırandı.

— Bəs necə, ağa. Oğul adama arxadı, həyandı.

— Mənim oğlum... — O, nə isə demək istəyirdi, ancaq nə dediyini unutdu, iri əlilə Əbdülün çiyninə vurdu və sözünü yarımçıq qoyub yuxarı qaçdı, Zərrintaca zəng çalıb oğlu olduğunu xəbər verdi. Zərrintac atasının sevincini danışığından duyub onu təbrik elədi. Sonra dostlarına, tanışlarına zəng etdi. Nəcməddin Əbdülə nəzər saldı — onun üz-gözündə heç vaxt görmədiyi bir sevinc vardı. Elə hey gülümsünürdü, dişləri ağarırdı. «Çox sədaqətli adamdı bu Əbdül. Ona bax ey, necə də uşaq kimi sevinir. Elə bil öz övladı dünyaya gəlib!» — deyə Nəcməddin Əbdül haqqında fikirləşdi.

— Sənə bir dəst təzə dirişi[1] alacağam, Əbdül. Qoy sağsalamat evə gəlsinlər. — Nəcməddin öz aləmində Əbdülün sevincini qiymətləndirdi. — Lap ürəyin istəyəndən.

— Çox sağ ol, ağa. Payın çox olsun. Mənə sizin sağlığınızdan başqa heç nə lazım deyil.

— Yox, Əbdül. Sənin sədaqətin xoşuma gəlir. — Nəcməddin belə deyəndə Əbdül başını aşağı saldı və uzaqlaşdı.

Nəcməddin çaşqın hərəkətlə maşına yaxınlaşdı, minib motoru işə saldı. Açıq darvazadan elə sürətlə çıxdı ki, təkərlərin uğultusu uzun müddət Əbdülün qulaqlarından çəkilib getmədi.

«—Kişi yaman sevinir. Bir xata qayırmasa yaxşıdır!» deyə düşündü. Gəlib darvazanı bağladı. Kürən oğlan üç gün idi siqnalsız çıxıb gedirdi evdən. Maşını da yumurdu. Dünyanı ambulansda[2] doğum evinə aparanda o həyətdə idi. Əski əlində maşını silirdi, gözünü darvazadan çəkmirdi. Dünya xanım — ağrı əlində qovrulan o mələk donlu gözəl ona sarı ötəri bir nəzər fırlatdı və qabaqda olan, Dünyadan baxışlarını çəkməyən Əbdül, uzunkirpikli gözlərini «xudahafizmi», «səni sevirəmmi» demək üçün — o bunu anlaya bilmədi — açılıb yumulduğunu gördü. Və o an — bəlkə də ölüm ayağına gedən, bəlkə də bir daha geri qayıtmayacaq Dünyaya qəlbinin dərinliklərində bir nifrət, sonsuz bir kin duydu. Onda Əbdül hər şeyi başa düşdü. Demək, onların — o kürən oğlanla Dünya xanımın arasında nə

[1] Dirişi — kostyum.
[2] Ambulans — təcili yardım maşını.

isə gözəgörünməz, sirli, bəlkə də şirin bir əlaqə vardı və bu da yəqin idi ki, bu əlaqə hələ başlanğıc idi, dərinə getməmişdilər, bu, bir baxış əlaqəsi idi. Amma bu əlaqənin, bu yaxınlığın olmasına heç bir şübhə ola bilməzdi. Əbdülün gözlərinə o an qan sağıldı elə bil. Başından dəhşətli bir ağrı qopdu. Təcili yardım gedəndən sonra da Əbdül yerində mıxlanmış kimi tərpənə bilmədi. Maşının dalınca baxdı, toz seyrəlib təzədən yola yapıxandan sonra Əbdül qımıldanmadı. Oğlan da fikrə getmişdi. Əskini maşının üstünə qoyub siqaret çəkirdi. O da maşın gedən səmtə baxırdı.

«Sənin o gözlərini çıxartmaq mənə borc olsun, kürən!» — deyə Əbdül nifrətini güçlə boğub həyətə girmişdi. Uzun müddət sakitləşə bilməmişdi, həyət ona bomboş, kimsəsiz görünmüşdü. İnsan ürəyinin qəribə halları olurmuş. Əbdül indiyənəcən bilmirmiş. Bayaq Dünyanı sonsuz nifrət hissi ilə yola salan Əbdül, indi Dünyasız bu həyətin də, bu həyatın da mənasız olduğunu anladı və düşündü ki, onun Dünya bu evə gələnə qədər keçirdiyi xoş, sakit, qayğısız günlər çoxdan qurtarıb və bundan sonra, — arada yuxu kimi sehrli və şirin günləri çıxmaq şərtilə, — onun ancaq və ancaq əzablı günləri başlanıb, əzablı anları davam eləyir və hələ Allah bilir nə qədər də davam eləyəcək! Düyünlü, səksəkəli, iztirablı bir aləmə düşmüşdü Əbdül. Hər şey yaxşı idi, Əbdülün təsəvvür eləmədiyindən də gözəl idi, ancaq bu kürən hayandan çıxdı, nə üçün Dünya onu gördü və nə üçün bütün bu işlər belə tərsinə çevrildi? Əbdül bundan baş açа bilmirdi. Bu üç günü o, Dünyanın haqqında çox düşünmüşdü. «Burdan qan iyi gəlir! Ancaq qan iyi gəlir! Aman allah, mənim günahım nədi, mən — adi, yoxsul, nökər baba idim, nökərçiliyimi eləyirdim, bir parça çörəyimi yeyirdim, Allahıma şükür eləyirdim. Bu nə fəlakət idi məni saldın, xudaya!» — deyə o, həyətdə gəzinirdi, yata bilmir, yeyə bilmirdi. Nəcməddinin gözlərinə də baxmırdı, bacarmırdı. Saçı-saqqalı ağarmış, bir ayağı bu dünyada, bir ayağı o dünyada olan, milyonlarına qürrələnib şux-şux gəzən bu qocanın nə ağılla belə namünasib bir izdivaca qol qoyduğunu əvvəl-əvvəl adi havavü-həvas kimi, Nəcməddinin böyük məhəbbətini görəndən sonra bir aqillik kimi, Dünyanı yaxşı tanıyandan sonra isə bir axmaqlıq kimi qiymətləndirməyə başlamışdı. O yaxşı bilirdi ki, divin canı şüşədə olduğu kimi, Nəcməddinin də canı Dünya xanımdadı, onun gözəlliyində, məhəbbətindədi. Ancaq Dünya xanım bu parıltılı həyatda zahirən onundu, dildə onundu, sözdə onundu. İçəridə isə ona kişi lazımdı, cavan, qüdrətli, eyni zamanda itaətkar bir kişi. Elə bir adam ki, yumanda

ovcunda, açanda əlində olsun. Dünyanın bu fəlsəfəsini, bu iddiasını başa düşmək üçün Əbdülə xeyli vaxt lazım oldu. Və bu aylar ərzində Əbdül yarıməst, yarıyuxu aləmində yaşadı, gah sevindi, gah kədərləndi. Bəzən elə anlar oldu ki, Əbdül öz hücrəsində qapanıb uşaq kimi ağladı da. Ancaq onun dərdini deyə biləcəyi kimi-kimsəsi yox idi. Dərdini özü çəkdi, özü uddu. Onun fəlakətini hətta Dünya özü də başa düşmədi, çünki o, həyata, onun gözəlliklərinə bir əyləncə kimi baxmağa başlamışdı, Əbdülün hiss elədiklərini, ancaq dilinə gətirib deyə bilmədiklərini Dünya sözsüz də başa düşməli ikən sözlə də anlamadı, onun dediyi, demək istədiyi şeylərə gülüb uğunmaqla cavab verdi. Təbiəti belə imiş!

Əbdül çalpaşıq, düyün düşmüş, tez-tez dəyişən əzablı hisslər, duyğular aləmində tələyə düşmüş kimi çapalayırdı, Dünyaya gah nifrət eləyirdi, gah da yazığı gəlirdi. İndi də oğlu olub Dünyanın. Yəqin Nəcməddin sevinən kimi, o da sevinir. Uşaq sahibi olmaq axı hamıdan əvvəl Dünyanın arzusu idi. İlahi, bunu necə də istəyirdi. Bu arzusuna çatmaq üçün o, hər şeyindən keçməyə hazır idi. İndi çatıb bu istəyinə! Çatıbsan istəyinə, Allahına şükür elə, otur yerində. Daha bu kürənlə qaş-göz oynatmaq sənin nəyinə lazımdır? Bax, bunu Əbdül heç cür anlaya bilmirdi. Nəcməddin özünü dünyanın ən qadir, ən xoşbəxt adamı sayırdı, xüsusilə bu gün. Ancaq Əbdül fikirləşirdi ki, bu, belə deyil, yalandı, qondarmadı, Nəcməddini aldadıblar, alçaldıblar, heysiyyətinə toxunublar! İndi ona görə belə xoşbəxtdi və sakitdi ki, bunu bilmir. Bilsə, duysa, quduz canavara dönəcək, əlini-dişini qana batırmasa, dayanıb toxtamayacaq. Allah o günü göstərməsin — o gün dəhşət dolu, fəlakət dolu bir gün olacaq!!! Bunu dərk etdiyindən Əbdülün bədəni soyudu.

...«Şahənşahi» doğum evinə çatanda Nəcməddin ha çalışırdı ki, özünü toxtatsın, aram olsun, bu yaşında özünü həkimlərin, xidmətçilərin yanında gülünc vəziyyətə qoymasın, ancaq ürəyini sarmış sevinc o qədər böyük idi ki, bacara bilmirdi, təmkinini əldən verirdi. Bu onun birinci uşağı deyildi, altıncı övladı idi. İndi o, kənar adam gözü ilə özünə baxır, uzaq-uzaq illərin hadisələrini yadına salıb görürdü ki, o biri övladları dünyaya gələndə heç vaxt belə sevinməmişdi. Bəlkə də bu ondan irəli gəlirdi ki, o artıq qocalmışdı və ömrün qürub çağında cahana övlad gətirmək qüruru onu belə qanadlandırmışdı? Bəlkə o, əvvəlki arvadlarını Dünya qədər sevməmişdi? Dünya qədər bütün varlığını onlar özünə təslim edə bilməmişdi? Nəcməddin

bu sualların heç birinə indi cavab verə bilməzdi. Və ümumiyyətlə, o, indi sanki düşünmək qabiliyyətini itirmişdi.

Özünü yel kimi içəri təpdi. Doğum evinin dəhlizi işıqlıdı, təmizdi. Divarların dibi boyunca, pəncərələrin ağzına gül dibçəkləri düzülmüşdü. Ağ xalatlı həkimlər, tibb bacıları ora-bura çovuyur, otaqlara girib-çıxırdılar.

Baş həkim — ortayaşlı, çopur arvad Nəcməddini körən kimi irəli yeridi:

— Salam, ağayi Nəcməddin!

Ağayi Nəcməddin dərhal onu tapıdı və ayaq saxlayıb;

— Salam, — dedi, — necədi vəziyyət?

Baş həkim gülüb qızıl dişlərini göstərdi:

— Sizi təbrik edirəm, ağa! Gözəl-göyçək, sağlam bir oğul doğub xanımınız sizin üçün.

— Çox sağ olun, doktor. — Bunu deyib o, pencəyinin cibindəki bağlıdan bir dənə göy minlik çıxartdı və baş həkimin ovcuna basdı: — Bu sizin muştuluğunuz, xanım.

— Təşəkkür edirəm, ağa! — O, pulu xələtinin cibinə dürtdü. — Payınız çox olsun.

— Mən görə bilərəmmi?

— Əlbəttə, ağa. Buyurun.

Dünya təkadamlıq otaqda idi. Nəcməddin içəri səssiz addımlarla girdi. Dünya ağ çarpayıda arxası üstə uzanmışdı. Qəşəng gözləri yumulu idi, uzun kirpikləri yanağının üstünə yatmışdı. Sifəti sinəsinə çəkilmiş ağ mələfə kimi ağarmışdı, əvvəllər nar yarpağı kimi gözəl və qırmızı dodaqlarının qanı qaçmışdı.

Nəcməddin bir neçə saniyə lal-dinməz dayanıb Dünyanın yatışına, ağır-ağır nəfəs almasına tamaşa elədi. Sonra ehmalca əyilib onun yumulu gözlərindən öpdü. Bu zaman Dünya kirpiklərini qaldırıb başı üstə dayanan Nəcməddini gördü və dirçəldi.

— Xoş gördük, əzizim! — dedi Nəcməddin. Dünya kirpiklərini endirməklə cavab verdi.

— Necəsən, qurban olum? Qurumuş dodaqları aralandı:

— Yaxşıyam... Məni təbrik elə... Sənə oğul doğmuşam.

— Təbrik edirəm, mənim əzizim. Çox sağ ol, mənim əvəzsizim. — Nəcməddin gözləri yaşarmış halda əlavə etdi: — Dediyini elədin, oğul doğdun! Afərin! — Sonra əyilib onun qansız dodaqlarından yenə öpdü, yanını çarpayının qırağına qoydu və minnətdarlıq dolu baxışlarla arvadına baxıb razılıq hissilə gülümsündü:

— Uşaq necədi, gülüm?

— Yaxşıdı. — Ani sükutdan sonra söylədi: — Sənə oxşayır, azca da mənə...

— Hə?

Dünya gözlərini yummaqla onun sözlərini təsdiqlədi.

— Qoy gətirsinlər, baxım.

— Bir az əvvəl əmizdirmişəm, yəqin indi yatır...

— Heç nə olmaz, qoy gətirsinlər... Görmək istəyirəm oğlumu.

—…

Nəcməddin dəhlizə çıxdı, iki dəqiqə sonra qayıtdı:

— Dedim, indi gətirəcəklər. — Araya sükut çökdü. Xeyli sonra Dünya:

— Sevinirsən, Nəcmi? — deyə xəbər aldı.

— Sevinirsən də sözdü? Uçmağa qanadım yoxdu, inan. Elə bilirəm bütün dünyanı mənə bağışlayıblar. Sağ ol, əzizim. Bu sevinci mənə sən bəxş eləmisən, mehribanım.

Dünyanın solğun üzünə bir təbəssüm qondu və elə bil, sifətinə azca qan gəldi, allandı.

Dayə içəri girdikdə Nəcməddin ayağa qalxdı. Cavan, burnu, ağzı tənziflə örtüldüyündən ancaq iri gözləri parıldayan qadın çağanı qucağında dik tutmuşdu. Uşağın gözləri yumulu idi. Qırmızı sifəti vardı. Ağzı, burnu qəşəng idi. Nəcməddin diqqətlə baxdı, baxdı və sonra üzünü Dünyaya çevirib:

— Bu köpəkoğlu yatıb ki. Qorxuram bu zalım dünyaya yuxulu gəlib yuxulu gedə, hə? — dedi. Elə bu zaman uşaq gözlərini açdı və qabağında dayanan adama baxdı — kirpik çalmadan baxdı. Nəcməddin irəli yeridi, şəhadət barmağını onun balaca çənəsinə toxundurub muşqurdu:

— Xoş gəlmisən bizim bu dünyaya, oğul! — dedi və cibindən bir dənə qırmızı beşyüzlük çıxarıb dayənin ağ xələtinin döş cibinə basdı:

— Bu sənin şirinliyindi.

Dayə təşəkkür elədi və zarafatla söylədi:

— Görüş vaxtınız qurtardı. Biz getdik! — Belə deyib çevrilib getdi, uşağı da apardı.

Onlar tək qaldılar. Baxışdılar, gülümsündülər:

— Adını Nəcməddin qoyacağam, Dünya.

— Öz adını?

— Hə! Qoy mənim adımı daşısın. Diri adı verilən uşaq deyirlər, xoşbəxt olur.

— Doğrudan? Mən heç eşitməmişdim.

— Bəli. Qoy mənim adımı yaşatsın.

— Nə deyirəm ki. Atası sənsən, necə istəyirsən, mən razıyam.

— Demək, bu məsələni belə həll elədik. Yaxşı, səni neçə gün saxlayacaqlar burda?

— Bir həftə.

— Hm. Bir həftədən sonra demək, evimizdəsən.

— Hə.

— Hər gün gələcəyəm yanına. İndi gedib gül alıb gətirəcəyəm. Xəbəri eşidəndə elə tələsdim ki, hər şey yadımdan çıxdı.

— Eybi yoxdur, təki canın sağ olsun...

— Mənim canım, ömrüm, ürəyim sənə bağlıdı, gülüm. Mən sənin nəfəsinlə yaşayıram, nə qədər sən varsan, mən də varam. Neçə gündü evdə yoxsan, ev suyu sovulmuş dəyirmana bənzəyir...

Dünya onun bu xoş sözlərinə cavab verməmiş xəbər aldı:

— Əbdül neyləyir? Bildi oğlun olmağını?

— Hə! Birinci ona dedim. Sevindiyindən qol qaldırıb oynadı. Bir minlik bağışladım ona. Çox sevindi, Dünya. Elə bil, öz oğlu olmuşdu.

BEŞİNCİ FƏSİL

Həyətə üç nəfər yad adamın — ikisi mülki paltarda, biri hərbi libasda — girdiyini görən kimi hovuzun dibində qab-qaşıq yuyan Məleykə xanımın dalağı sancdı, bədəninə soyuq tər gəldi, əlləri süstəldi, nazik stəkan daşın üstünə düşüb çilikləndi. O, çömbəltmə oturmuşdu, yad kişilərin gəldiyini görüb ayağa qalxmaq istədi, ancaq bacarmadı. Dursa yıxılacağını hiss elədi. Ona görə yerindən tərpənmədən geniş açılmış gözlərini daş döşəməni tıqqıldada-tıqqıldada ona sarı gələnlərin ayağına dikib qorxu içində gözlədi. Tanış deyildilər, bu evə gəlib-gedənlərə oxşamırdılar. Beş il bundan qabaq da belə adamlar gəlmişdilər, müxtəsər bir söhbətdən sonra Şəfini qabaqlarına qatıb aparmışdılar. Kişi o gedən getmişdi və düz bir ildən sonra üzülmüş, arıqlamış, saçları ağarmış halda qayıdıb gəlmişdi. Bir ilin ayrılığı, həbsxananın ağır şəraiti və həsrət öz işini görmüşdü. Şəfinin ürəyi ağrımağa başlamışdı — hələ də ağrıyırdı, əzablı ağrılar o boyda kişini yumağa döndərirdi. İndi də gəliblər... Məleykə səksəkə ilə qabağında daya-

nan ucaboy kişiyə baxdı. Kişi salam verdi və arvadın cavabını almadan soruşdu:

— Ağayi Rəhgüzər evdədirmi, xanım?

— Xeyr, ağa. İdarəyə gedib.

Ucaboy kişi çönüb yoldaşlarının üzünə baxdı və Məleykəyə söylədi:

— Biz sizə gəlmişik, xanım.

Məleykə bütün iradəsini, gücünü toplayıb ayağa qalxdı və həyəcanlı bir səslə:

— Xoş... gəlmisiniz! — dedi.

Ucaboy adam pencəyinin qoltuq cibindən yaşıl rəngli bir kitabça çıxarıb Məleykənin gözləri önündə tutdu və quru, amiranə bir tərzdə:

— Sizdə... axtarış aparmalıyıq!.. — dedi.

Məleykənin rəngi ağardı, sifətinə əzablı, qorxulu bir ifadə çökdü, ürəyindən... «məhv olduq» — deyə keçirdi və qətiyyətsiz halda soruşdu:

— Axtarış?!

— Bəli, xanım. Yüngülvarı bir axtarış.

— Sahibi burda yoxdur. Gələr, axtararsınız...

— Xeyr, xanım. Sizin iştirakınız... kifayətdir...

Məleykə bilirdi ki, müqavimət göstərmək, etiraz etmək mənasızdı, ona görə daha heç nə deməyib ayaqlarını sürüyə-sürüyə irəli yeridi.

Ucaboy kişi dedi:

— Bizi onun iş otağına apar, xanım.

— İş otağına?

— Bəli. Biz qızıl-gümüş axtarmağa gəlməmişik, xanım.

— Bəs nə axtarmağa gəlmisiniz, ağa?

— Onun kağız-kuğuzlarına baxacağıq, yazı-pozusuna baxacağıq, vəssalam.

Məleykənin ürəyi titrədi içəridən. O bilirdi ki, Şəfinin qəlbi, beyni, düşüncələri, dərdləri qovluqlardakı vərəqlərdə, yazı stolunun üstündəki səhifələrdədi. Onun böyüklüyü də kağızlardadı, ölümü də. Anlayanlar, ariflər, qeyrətlilər əlinə düşsə, ona heykəl qoyarlar; ürəksizlərin, nadanların, bu torpağı sevməyənlərin əlinə keçsə Şəfini öldürə də bilərlər. Xüsusən «Mənmm dərdlərim» əsəri... Aman allah, necə də ehtiyatsızlıq edib Məleykə! Özünü danladı ki, niyə qovluğu götürüb gizləməyib — o, ələ keçməsəydi... Şəfi özü yazılanların

qeydinə qalan deyildi. Onun kağız-kuğuzunu Məleykə sahmana salardı, qovluqları yığardı, şkaflara düzərdi. Hansı əsərinin harda olduğunu Məleykə bilərdi, Şəfi yox. Məleykə bir növ, ərinin katibəsi idi və bu işi o, böyük həvəslə görərdi, bundan xüsusi zövq alardı.

Ucaboy kişi dəhlizdən keçərkən otaqlara, səliqə-sahmana baxıb dedi:

— Ağayi Rəhgüzər heç də pis yaşamır, mən görürəm. Amma yazdıqlarından belə çıxır ki, acından ölür...

Bayaqdan danışmayan, alçaqboylu, tösmərək kişi dedi:

— Görünür, bunlar azlıq eləyir onun üçün.

Məleykə ortalıqda dayandı. Şəfinin iş otağını nişan vermək istəmirdi.

— Budur bizim evimiz!

— İş otağı hansıdır? — Tösmərək kişi soruşdu.

— Elə harda gəldi, işləyir.

— Kitabları, kağız-kuğuzu hardadı?

Məleykə cavab verməmiş hərbi paltarlı cavan oğlan böyründəki qapını itələyib açdı, başını içəri uzadıb geri çəkildi və dedi:

— O göstərmək istəmir, ağa, ancaq budur iş otağı, buyurun.

Ucaboy kişi Məleykəni tərs-tərs süzüb otağa keçdi:

— Özün də gəl bura.

Məleykə onların dalınca otağa daxil oldu.

— Sən əyləş burda! — O, stulu Məleykəyə göstərdi və üzünü yaxındakılara tutub əlavə etdi:

— Siz başlayın. Diqqətlə yoxlayın... Siyasi şeylərə xüsusi diqqət yetirin.

Məleykə oturdu. Əsirdi bədəni. Bir bəhanə ilə çıxmaq, Şəfiyə zəng eləmək istəyirdi. Tez qalxdı:

— Hara?

— Sizə çay gətirim, ağa!

— Xeyr, çox sağ olun, biz bura çay içməyə gəlməmişik... Xahiş eləyirəm, əyləşin...

Məleykə kişinin zəhmli baxışları altında təzədən oturmalı oldu. Hökmündən, danışığından rəisə oxşayan ucaboy kişi də Şəfinin kreslosunda əyləşdi, qıçını-qıçının üstünə aşırıb siqaret yandırdı. İki nəfər isə stolun üstündəki kağızlara, şkaflardakı qovluqlara baxmağa başladı. Məleykə gözucu fikir verirdi. Bəzi şeyləri ayırır, üst-üstə yığırdılar. Başa düşürdü ki, bunları aparmaq üçün seçirlər. Odur, «Mənim dərdlərim»i də götürdü tösmərək kişi. Əlyazmasını vərəqlədi, baxış-

ları ilə ötəri ordan-burdan oxudu və kənara qoydu. Ucaboy kişi kreslonu fırladı, əllərini qoynunda çarpazlamış, məlul-müşkül oturmuş Məleykəyə sarı döndü:

— Xanım, səncə, Şəfi — sizin əriniz ağıllı adamdır?

Bu sual gözlnilməz idi, Məleykənin nəzərində çox yersiz idi, ona bənzəyirdi ki, soruşasan «günəş işıq saçırmı?» Söz Məleykəni yandırdı. O, sərt cavab vermək istədi, ancaq özünü saxladı:

— Siz məgər Şəfini tanımırsınız? Bütün məmləkət — Uşaqdan-böyüyə onu tanıyır, sevir, ağa!

— Ola bilər, bütün məmləkət tanısın, ancaq sevməyini deyə bilmərəm.

— Niyə, məgər siz onu sevmirsiniz?

— Biz? — o gülümsündü. — Yox!

Məleykə alacalanmış gözləri ilə ona nifrətlə baxdı və özü də hiss elədi ki, bütün nifrəti gözlərinə yazıldı bu an. Bunu ucaboy kişi də görməyə bilməzdi.

— Onda... məni bağışlayın... Siz bu torpağın oğlu deyilsiniz yəqin. Siz hardansa, başqa məmləkətdən gəlmisiniz, yadsız, xaricisiniz, ağa!.. Sizin damarlarınızda bu millətin qanı axmır yəqin, ağa. Siz bu torpağın suyu-çörəyi ilə böyüməmisiniz deyəsən, ağa. — Bu sözləri dedi və özünü saxlaya bilməyib hönkür-hönkür ağladı Məleykə. İkisi də əl saxlayıb ona baxdı. Ucaboy kinayə ilə söylədi:

— Bərəkallah. Arvadı belə düşünəndə, indi gör Şəfi xan özü nə düşünür! Bərəkallah...

***

Şəfi donmuş halda mizin arxasında oturmuşdu. İri əllərini soyuq şüşənin üstünə qoymuşdu. Gözləri kədərlə qabağında əyləşmiş polkovnikə zillənmişdi. Qapının ağzında iki polis nəfəri dayanmışdı. Heç kəs danışmırdı. Arabir polkovnikin çevirdiyi vərəqlərin, məktubların xışıltısı eşidilirdi. Polkovnik qızılı sağanaqlı eynəyi altından tələsmədən qabağına tökdüyü yazıları bir-bir yoxlayırdı.

Qəzet çıxandan sonra Şəfinin ürəyini sarmış sevinc hissi uçub getmişdi: «Doyunca sevinməyə də qoymurlar, alçaqlar!» — deyə düşünürdü və başına gələcək müsibətləri indidən, hələ öz kabinetində ikən göz önünə kətirir, təəssüflənirdi. Bilirdi ki, aparacaqlar onu. Kim bilir, bəlkə həmişəlik. Evdən çıxanda uşaqları ilə, Məleykə xanımla vidalaşmadığı üçün özünü danlayırdı: «Belə vəziyyətdə gərək

hər gün, hər dəfə evdən gedərkən ailənlə xudahafizləşəsən. Çünki bir daha evinə — xanimanına qayıtmaya bilərsən. Görəsən evə də gediblər? Zəng etməyə qoymurlar. Getsələr Məleykə qorxacaq. Yaxşı ki, uşaqlar dərsdədirlər. Getsələr yazılarımı da aparacaqlar, «Mənim dərdlərimi» də aparacaqlar! Şəfi belə fikirləşirdi, nəfəsi tutulurdu. Ürəyi sancırdı — ağrılar deyəsən lap çoxalmışdı.

Polkovnik kağızları nəzərdən keçirib qurtarandan sonra başını qaldırıb Şəfiyə baxdı və səsini uzada-uzada dedi:

— Be...lə!.. Ağayi Rəhgüzər. Bu ruznaməni siz buraxmısınız, elə deyilmi? Zənnimcə, bunu inkar edə bilməzsiniz!

— Bəli, mən nəşr eləmişəm. Sizə məlum olmamış deyil ki, mənim bu dövlətdən bu ruznaməni intişar etmək üçün rəsmi icazəm vardır.

— Bəli, bilirik bunu ağayi şair! Ancaq bunu da siz yəqin bilirsiniz ki, biz sizə bu qılıncı verərkən — o, qəzetin əlinin altındakı son nömrəsini yuxarı qaldırıb yellədi, — deməmişdik ki, öz qılıncımızla özümüzü doğrayıb biçəsiniz.

— Mənə elə gəlir ki, mətbuat qanunlarını mən siz cənablarından heç də pis bilmirəm, ağayi dikərval[1]. Bizim qanüni-əsasimizdə söz və mətbuat azadlığının biz vətəndaşlara nə kimi hüquqlar verdiyini biz də bilirik, siz də.

— Söz və mətbuat azadlığı o demək deyil ki, siz bir budaqda oturub min budağı silkələyəsiniz, gəmidə oturub gəmiçi ilə cəngicidala çıxasınız.

— Siz nahaq elə düşünürsünüz ki, biz bir budaqda oturub mini-mini silkələyirik, yox, ağayi dikərval, biz bütün ağacı köklü-köməcli silkələyirik, əgər o ağac çürükdürsə, yıxılsın, məhv olsun, yerində təzə ağac əkək, gül açsın, meyvə versin, bu yazıq xalq da onun şirin meyvəsindən yesin. Yoxsa çürük, qurumuş ağacın dibini yumşaltmaq, su vermək havayı, boş zəhmətdən başqa bir şey deyil. Bunu gərək siz də bilmiş olasınız. O biri tərəfdən gəmi də bizimdir, gəmiçi də. Biz xarici təzkirə ilə bu gəmiyə minmiş əcnəbilər deyilik, ağa.

Polkovnik susdu. Əsəbi adama oxşamırdı. Şəfinin sakit-sakit dediyi bu sözləri dinləyib kicgahının ağ tüklərini sığalladı, eynəyini düzəltdi və aram bir səslə dedi:

— Siz tələsməyin, ağayi Rəhgüzər. Bu sözləri orda, lazımi yerində deyərsiniz. Mən bura sizinlə siyasi müzakirə aparmaq üçün gəlməmişəm. Sizin beyninizin içi bizə çoxdan məlumdur və əgər siz

bu sözləri dilinizə gətirməsəydiniz belə, mən bilərdim ki, siz bunları deyə bilərsiniz, deməlisiniz. Mən bura iki şey üçün gəlmişəm.

— Buyurun, ağayi dikərval.

— Birincisi budur ki, sizin ruznamədə çap olunmuş «Nə etmək lazımdır?» məqaləsinin və nəxost-vəzirə çəkilmiş karikaturanın müəlliflərinin kim olduğunu sizdən öyrənim! Beləliklə, deyin görüm məqalənin müəllifi kimdir?

— Seyid Şəmsəddindir, ağayi-dikərval, — Bu ki məqalənin altında yazılıbdır.

— Görürəm. Kimdir bu Şəmsəddin?

— Oxucumuzdur.

— Nəçidir?

— Mən onu bilmirəm, ağayi dikərval. O müəllifin heç üzünü də görməmişəm, şəxsən tanımıram. Məqaləni məktub vasitəsilə göndərib, mən də oxumuşam, xoşuma gəlib çap etmişəm.

— Hm... — polkovnik barmaqları ilə stolun qırağını tıqqıldatdı və soruşdu: — Hanı məktub?

Şəfi arxa tərəfindəki şkafdan, köhnə qəzet nömrələrinin üstündən iki zərf götürüb polkovnikin qarşısına qoydu:

— Buyurun. Məqalə də, karikatura da bu zərflərdə gəlibdir. Lazımınız olsa, ünvanlarını götürüb həmin adamları tapa bilərsiniz.

Polkovnik zərfləri diqqətlə nəzərdən keçirtdi. Üstündə ünvan, ad yazılmış zərflər doğrudan da poçt vasitəsilə göndərilmişdi. Poçt idarəsinin möhürü, tarixi vardı.

— Belə çıxır ki, siz hər kəs yazı göndərirsə, çap edirsiniz?

— Əlbəttə. Yaxşılarını ancaq.

— Yox! Nə isə, düz demirsiniz, ağayi Rəhgüzər.

— Sübutunuz?

— Sübutum hələlik yoxdur, ancaq hissiyyatım mənə deyir ki, bu heç də siz deyən kimi deyil. Bəlkə də mənim yerimdə başqası olsaydı, sizin dediklərizə inanardı. Ancaq mən... mən bu işlərdə iyirmi beş il can çürütmüşəm. Məni aldatmaq olmaz, ağayi Rəhgüzər.

Bu zaman redaksiyanın qapısı açıldı, polis nəfərləri çevrildilər: içəri bir nəfər cavan zabit girdi, ayaqlarını cütləyib polkovnikə salam verdikdən sonra dedi:

— Elməddinin evini axtardıq...

Elməddinin adını eşidən kimi, Rəhgüzərin ürəyi şiddətlə çırpındı. Ani olaraq gözləri qaranlıq gətirdi, beyni uğuldadı, «heyf!» —

dedi öz-özünə və yüngül ah çəkdi. Ancaq bu çaşqınlıq bir an oldu. Şəfi özünü ələ alıb zabitin üzünə baxdı. O deyirdi:

— Şerləri var, hekayələri var, bir də bax bu şəkli tapdım, qəzetdə çıxan şəkli. — O, iki qatlanmış vərəqi polkovnikə uzatdı. Rəhgüzər karikaturanı tanıdı. Qaralama variantı idi. Altında, kağızın aşağı qulağında o, öz adını da yazmışdı. Bunu görəndə Şəfi lap sarsıldı. Həyəcanını, təşvişini gizlətmək üçün siqaret yandırdı. Polkovnik qalib bir ədayla:

— Gördünüz, ağayi Rəhgüzər? Məni aldatmaq olmaz deyirdim sizə? Kimdir bu Elməddin?

— Mən onu tanımıram. Düzdür bir Elməddin var, onun şerlərini, hekayələrini çap etmişəm. Ancaq bu Elməddini tanımıram.

Polkovnik kinayə ilə gülümsündü:

— Siz elə bilirsiniz biz yatmışıq? Yox, ağa. Biz sizdən də ayıqıq, bu, bizim vəzifəmizdir. Baxın, karikatura şəhri-novdan[1] 33 №-li evdən gəlib. Elə deyilmi? Bax belədir ünvan. Bəs — o, üzünü zabitə tutdu, — Elməddin harda yaşayır?

— Yadeyi-Madiriyyədə!

— Görürsünüz, ağayi Rəhgüzər? Demək, bu, yalan ünvandır. Bu sizin özünüzün uydurmanızdır. Mən yoxlamamışam hələ, ancaq əlimin içi kimi bilirəm ki, şəhri-novda otuz üç nömrəli evdə Elməddin adlı adam yaşamır və əgər yaşayırsa da, bu həmin Elməddin deyil. Eləcə də Şəmsəddin. Buna nə deyirsiniz?

Şəfi tüstünü havaya üfürüb qətiyyətlə dedi:

— Mən dediyimi yenə də deyirəm. Nə Şəmsəddini, nə də Elməddini şəxsən tanıyıram.

— Nahaq inad edirsiniz. Siz uşaq deyilsiniz. Bilirsiniz ki, biz istədiyimizi daşdan-divardan belə öyrənə bilərik.

— Öyrənin.

Polkovnik üzünü zabitə tutdu:

— Gedin Elməddini aparın.

— Baş üstə. Ancaq evdə yox idi.

— Yerin deşiyində olsa da, tapın, aparın. Bunları orda görüşdürərik.

— Baş üstə! — Zabit çevrilib çıxdı. Polkovnik ani sükutdan sonra Şəfiyə baxmadan söylədi:

— Bu biri. Qaldı ikinci məsələ... Şəfi yorğun-yorğun soruşdu:

[1] Şəhri-nov — yeni şəhər.

— Nədir o ikinci məsələ?

Polkovnik tələsmədən ayağa durdu. Qapı ağzında dayanmış polis nəfərinə baxıb göz vurdu. Onlar irəli yeridilər: hərəsi bir tərəfdən.

— Götürün!—dedi polkovnik. Polislərdən biri arxasında tutduğu dəmir qandalı Şəfinin qoluna salmaq istəyəndə o, ayağa qalxıb:

— Bu nəyə lazımdır, mən özüm gedirəm, ağayi dikərval! — dedi.

Polkovnik iblisanə bir gülüşlə:

— Sizin mətbuatın öz qanunları olduğu kimi, bizim də öz qanunlarımız var, ağayi şair, — dedi. Onun bu sözündən sonra Şəfi müqavimət göstərməyin yersiz olduğunu anlayıb əllərini irəli uzatdı. Qandal-buxov cingildəyib bağlandı. Polkovnik soruşdu:

— Necə yazmısınız, ağayi şair? Hə, yadıma düşdü «Qırın zəncirləri, buxovları siz!»... Sonra baxışları ilə qandala işarə elədi: — Hə, indi qırın zəncirləri... görün, qıra biləcəksinizmi!?!

Şəfinin gözləri nifrətlə parıldadı.

Əvvəlcə polkovnik çıxdı. Dalınca Şəfi və polislər. Küçədə üstüörtülü göy maşın dayanmışdı. Şəfi başını aşağı salmışdı. Bu beşaddımlıq yolu əlləri qandallı getmək onun üçün çox ağır idi. Küçədən keçənlər görəcəkdi. Qapıdan çıxandan iki addım atmamışdı ki, bir qadın qışqırdı divarın dibindən:

— Şəfi, Şəfi can! — Şəfi başını qaldırdı — Məleykə idi, qaça-qaça ona sarı gəlirdi. Yanında da Bəbrək. Rəbiə, Jalə...

Bəbrək qabağa qaçıb özünü atasına yetirdi, qıçlarını qucaqladı, əllərinə baxıb ağladı:

— Qibləgahım...

— Ağlama, oğul. — Şəfinin gözləri doldu. Qızlar da sarmaşdılar, ağladılar. Şəfi əyilib onların üzündən öpdü. Sonra gözlərindən gildir-gildir yaş tökən Məleykəyə baxdı:

— Sən də ağlayırsan, Məleykə?

— Şəfi, sənə qurban olum...

— Darıxma, Məleykə. Ağlama. Uşaqlardan, özündən muğayat ol, Məleykə. Tez gələcəyəm.

Camaat artıq gurlaşmışdı. Küçədən keçənlər ayaq saxlayıb tamaşa edirdi. Şəfinin qıçlarından qopmayan körpələrin fəryadına, Məleykənin ağlamasına sükutla baxırdılar. Çalmalı bir kişi yanındakı cavan oğlana deyirdi:

— Şairi apardılar. Məleykənin səsi ürək qoparan idi.

— Şəfi, Şəfi can!!!

***

Nəcməddin dəstəyi yerə qoyaraq siqaret yandırdı. Kreslodan tərpənməyə mafarı olmadı. Qıçını qıçının üstünə aşırıb fikrə getdi... Məleykənin ağlar səsi qulaqlarından çəkilmirdi. Arvad hıçqırıq içində boğula-boğula Şəfinin İstexbarat işçiləri tərəfindən tutulub aparıldığını söyləyəndə Nəcməddin o qədər də təəccüblənmədi, çünki o, gec-tez belə bir işin olacağını bilirdi, yuxarılarda gedən söhbətləri eşitmişdi. Bununla belə, Şəfini bir şair kimi çox istədiyindən, bu xəbər onu təşvişə saldı, heyfsiləndi, Məleykəyə ürək-dirək verib üstündən də dedi:

— Mən ona tapşırmışdım axı, ehtiyatlı olsun.

Məleykə cavabında nəsə söylədi, ancaq Nəcməddin yaxşı başa düşmədi.

Dünya o biri otaqda Nəcməddinin kimləsə telefonla danışdığını eşidib çağanı asma beşiyə qoyaraq yanına gəldi. Kişini çox pərişan görüb soruşdu:

— Nə olub, Nəcmi? Kim idi danışan?

Nəcməddin siqaretin külünü külqabına çırpıb dedi:

— Məleykə idi, Şəfini tutublar!

Dünya xanım səksənmiş halda barmağını alt dodağının üstünə qoyub:

— Vay!.. — dedi, — kim tutub, Nəcmi?

— Sizmane-əmniyyə...

— Nə üstə görəsən, Nəcmi?

— Eh, nə üstə olacaq? Yəqin siyasi şeylər üstə... — o, siqaretinə bir dərin qullab vurub əlavə elədi: — su çanağı suda sınar. Neçə dəfə dedim ki, qarışma bu işlərə. Şair babasan, otur şerini yaz. Köhnə bazara təzə nırx qoymaq sənə qalmayıb. Dünya bineyi-qədimdən belə gəlib, belə də gedəcək. Başını bıçağa sürtmə dedim. Dedi yox. Bu da nəticəsi.

— O boyda şairi tutmaq olar, Nəcmi?

— Tutarlar, hələ canını alıb təpəsinə güllə də çaxarlar. İndi nə zəmanədi məgər? Padşahları öldürürlər, onda qalmış şair ola! — Bu zaman telefon səsləndi. Nəcməddin əlini uzadıb telefonun dəstəyini götürdü. Danışan Zərrintac idi.

— Necəsən, qızım? — Nəcməddin soruşduqda Zərrintac bikef-bikef cavab verdi:

— Elməddini apardılar, qibləgahım. Bir az əvvəl gəlib evi gəzdilər, kağız-kuğuzunu götürdülər, indi də Əhədulla xəbər gətirdi ki, özünü də dəftərdən maşına qoyub aparıblar.

— Hə? — dəstək Nəcməddinin əlindən düşdü.

— Elməddini də tutublar? — Dünya danışıqdan, ərinin vəziyyətindən hər şeyi anlayıb xəbər alanda Nəcməddin başını tərpətdi.

Dünya yenə barmağını alt dodağına qoydu:

— Vay!.. Bu nə müsibətdir biz düşdük?!

Nəcməddin ani düşüncədən sonra ayağa qalxdı və Dünyaya heç nə demədən başılovlu evdən çıxdı.

...Telefon cingildədi. Bəbir qələmi yerə qoyub dəstəyi götürdü:

— Mənəm.

Kim idisə azca sükutdan sonra səsi tanıyıb həyəcanla dedi:

— Mənəm! — Adını çəkmədi. Bəbir də səsindən danışanı tanıdı, — Hər ikisini apardılar!

— Elə şey olmaz?

— Oldu... apardılar!

Zəng edən artıq heç nə deməyib dəstəyi asdı. Bəbir də dəstəyi qara aparatın üstünə qoyub gözlərini yumaraq başını tüklü əlləri arasına aldı...

ALTINCI FƏSİL

Sən demə, bu cah-calallı imarətdə, gül-çiçəkli həyətdə bir gizli məhəbbət də yaşayırmış. Sən demə, zər-ziba içində süslənən, gözəlliyi ürəklər sızıldadan, gözlərinin dərinliyində bir günahsız körpə məsumluğu gizlənən Dünya etibarsız imiş, vəfasız imiş. Sən demə, həyatda qul kimi yaşamaq üçün yarananlar, məhəbbətdə hakim ola bilməzmişlər, eləcə qul olarmışlar... Sən demə...

...Nəcməddinin maşını tini burulub səsi eşidilməz olan kimi Dünya xanım eyvana çıxdı, əvvəl hasarın o tərəfindəki xanimana gözucu baxdı, kürən oğlanı görməyib öz həyətlərinə boylandı. Əbdül darvazanı içəridən bağlayırdı. Çönəndə onu elə bil ildırım vurdu: Dünya xanım eyvanın sütununa söykənmişdi. Heykələ oxşayırdı: ağ mərmərdən yonulmuş heykələ. Uzun saçının birini sol çiyni üstündən aşağı salmışdı, yaraşıqlı sifəti ağ paltarından seçilmirdi. Hərəkətsiz halda dayanıb Əbdülə tamaşa eləyirdi. - Əbdül onu şəfaxanadan çıxandan bəri, bu ay yarım ərzində hələ belə ağıllı-başlı görməmişdi. İmkan olmamışdı, çünki Nəcməddin evdən çıxmamışdı, dayə kimi

arvadına, uşağına qulluq eləmişdi. Həsrət, gözəl Dünya ilə kəlmə kəsmək, onun məlahətli səsini doyunca eşitmək arzusu Əbdülün ürəyini titrədirdi; o, itiyi itmiş adam kimi, divanə kimi həyət-bacada gəzir, boğazından çörək ötmür, gözlərinə yuxu gəlmirdi. Gecələr, ərarvad öz otaqlarına çəkilib yatandan sonra o da öz hücrəsinə girib yatmaq əvəzinə, arxa hasarın dibinə çəkilir, tül pərdə çəkilmiş pəncərə dalında Dünyanın kölgəsini belə görmək ümidilə saatlarla oturub nəzərlərini o işıqlı pəncərədən ayırmırdı. Açıq havada olmasına baxmayaraq boğulub təngnəfəs olurdu; ürəyi az qalırdı partlasın. Elə əzabla yaşayırdı ki, ölmək bundan yaxşıdır. Qabaqlar, hələ Nəcməddinin evində işləməyə gəlməmişdən qabaq, ac qaldığı, soyuğa düşdüyü, ölümlə pəncələşdiyi vaxtlar az olmamışdı. Ancaq o əzablar bunun yanında toy-bayram imiş, heç əzab da deyilmiş. Görəsən, Dünya xanım da onun üçün belə darıxırdımı? Oxşamırdı, çünki o, heç bir təlaş keçirmir, sanki Əbdülü heç görmürdü. Elə bil o, heç bu həyətdə yox idi, yaşamırdı burda. Bircə dəfə də olsun onun halını soruşmağa, bir xoş söz deməyə can atmamışdı Dünya xanım. «O məndən çox-çox ağıllıdı, yəqin belə lazımdı» — deyə özünə günlərlə, həftələrlə təskinlik verən Əbdülün bu gün lap səbir kasası dolmuşdu, hövsələsi bir tikə olmuşdu.

İndi, yerinə mıxlanmış kimi dayanmış Əbdül kədərli gözlərini Dünyaya zilləyib yalvarış dolu bir nəzərlə baxırdı, onu gözlərinə həkk eləmək istəyirdi. Dünya isə heç nə demir, nə isə düşünur, saçının ucunu burурdu. Anlar əriyib gedirdi, bu anların hər biri Əbdül üçün illərə bərabər idi; həm də bu anlar, əgər Dünyanın yanında olardısa, onun üçün ömrə bərabər olardı. Görünür, bütün gözəl qadınlar kimi, Dünya da əzab verməyi xoşlayırdı. Onun fikrincə, əzab məhəbbəti daha da alovlandırır. Əzab və həsrət çox olanda məhəbbət daha küclü olur, — fikirləşirdi. Çətinliklə əldə edilən səadət və vüsal şirin olur, çox şirin olur, — düşünürdü. Dünyada çox az şey görübgötürmüş, uşaq vaxtından onun-bunun qapısında bir qarın çörəyə möhtac olmuş, başıqapazlı Əbdül, qırx üç illik həyatında ilk dəfə rast gəldiyi bu qadının közəlliyindən çox, ağlına heyrət eləyirdi. İlahi, o, yeri gələndə öz istəyini də, ürəyinin arzusunu da necə məharətlə boğa bilirdi. Hisslərinin cilovunu ağlın əlinə tapşırmağı necə də gözəl bacarırdı, ilahi! Əbdül düşünürdü ki, indi də yəqin belədir o. Bax, dayanıb, fikirləşir. Yəqin onun da ürəyi Əbdülü istəyir, ancaq hələ düşünür, ağılla ürək hələ çırpışır — hansı hansını üstələsə...

Elə bu zaman Dünyanın ağ sifətində bir təbəssüm gəzdi, gözləri gülümsündü və o, astaca kirpik çalmaqla Əbdülü yanına çağırdı. Əbdülün ürəyi sudan çıxarılmış balıq kimi var kücü ilə çırpındı, o yerindən qopanda Dünya — bayaqdan heykələ oxşayan bu gözəl məxluq sütundan aralanıb evə keçdi. Əbdül oğurluğa gedən adam təki ayaqlarını yerə yavaş basa-basa pilləkənləri qalxdı, eyvandan sürüşüb Dünyanın otağına girdi. O özünü itirmişdi, boz üzü alışıb-yanırdı, gözləri ov üstünə atılmış pələnk gözü kimi parıldayırdı. Dünya xalçanın üstündə sütun kimi dayanmışdı, üzü qapıya sarı idi. Əbdül qapını örtdü, bir neçə saniyə Dünya xanıma baxıb birdən dizlərini yerə qoydu və demək olar ki, sürünə-sürünə gəlib Dünyanın xırda, nəleyinli ayaqlarını ikiəlli qucaqladı və tüklü üzünü onlara sürtüb öpməyə başladı... Elə hərarətlə, elə şövqlə öpürdü ki... nəsə deyirdi, nəsə pıçıldayırdı. Dünya onun sözlərini ayırd edə bilmirdi, ancaq səsini eşidirdi və bu səs, bu öpüşlər Dünyanı elə məst eləmişdi ki, o, ayaqlarına döşənmiş bu qüdrətli kişiyə baxmaqdan sonsuz ləzzət aldığını duyub sərxoş adam kimi gözlərini yumdu. Ayaqlarına isti göz yaşları düşürdü — bu ona ləzzət verirdi. Nəcməddin belə ağlaya bilmir, onun göz yaşı çoxdan quruyub... Nəcməddin belə ehtiraslı deyil, o, artıq qocalıb... Ani olaraq Dünya bu bihuşluq içində Nəcməddinlə Əbdülü müqayisə etdi və qəlbini dolduran fərəh hissindən yenidən bihuş oldu. Ona bu fərəhi, sevinci bəxş edən Əbdülə minnətdarlıq duyğusundan Dünya öz aləmində gül-çiçək içində uçan bir kəpənəyə döndü və qonduğu güldən şirə çəkmək həvəsi ilə əyilib ağ əlləri ilə Əbdülün çiyinlərindən tutaraq qaldırdı. Əbdül titrəyən vücudunu dikəldib Dünya ilə üzbəüz dayandı. Dünya məst nəzərlərlə ona fikir verdi və gördü ki, Əbdülün qara gözlərindən ağ mirvari damcıları düşür yanağına. Dünya o an fikkrləşdi ki, dünyada bu göz yaşlarından qiymətli mirvari, cavahirat yoxdur, hətta Nəcməddinin milyonlarından da qiymətlidir bu göz yaşları...

— Niyə ağlayırsan, dəli? — dedi və qolunu Əbdülün boynuna salıb onun yaşlı gözlərindən öpdü Dünya.

— Sənə qurban olum, sənə qurban olum... — Əbdülün pıçıltısı eşidildi və o, qüvvətli qollarını onun incə belinə dolayıb ayaqlarını yerdən üzdü, çarpayıya sarı apardı.

...Dünya gözlənilməz, təzadlı, bəzən ağlasığmaz hadisələrlə dolu imiş. O zəif günəşli payız gününəcən, çayda çimib evə qayıtdığı günəcən Əbdül bunu anlamamışdı. Həyatın bir qarın çörəkdən, bir dəst köhnə-kürüş, nimdaş paltardan, işləməkdən və sümükləri sızıl-

daya-sızıldaya yatmaqdan ibarət olduğunu görən və daha başqa heç nə haqda düşünməməyə adət eləmiş Əbdül gözləmədiyi, ağlına gətirmədiyi halda, birdən-birə səadətini, xoşbəxtliyin, doyulmaz və soyumaz məhəbbətin ləzzətini duyanda, kobud və qabarlı əllərini tanrısının dərgahına qaldırıb gözləri yaşara-yaşara, kövrək və titrək səslə dua eləməyə başladı: «Ədalətinə qurban olum, ey ulu, gözəgörünməz tanrım, məni də yaddan çıxarmayıbsan, mən də insan imişəm». Və Əbdül özünə kənar adamın gözü ilə baxıb görürdü ki, xoşbəxt olub, səsi də dəyişib, qəlbi də, ürəyi də. Gözəlləşib, güclü olub. Dünya da gözəlləşib gözündə, həyət-baca da, hətta gördüyü iş də. Göyərçinlər də gözəlləşib, toyuqlar da, ala köpək də. Əvvəllər əlayaq çəkiləndən sonra öz hücrəsinə çəkilib daş kimi yuxuya gedən o, indi yerinin içinə uzanıb şirin-şirin xəyallara dalır, dodaqaltı zümzümə eləyir, ləzzət ala-ala yaşayırdı. Bunu da tam aydınlığı ilə anlayırdı ki, indiyə qədər o, yaşamayıb, insan kimi yaşamayıb, elə-belə günlərini keçirib.

Dünya xanım — gözlənilmədən, qəfildən onun ömrünə gün kimi doğmuş Dünya xanım qəlbindəki sonsuz fərəhin, sevincin nə qədər böyük və qiymətsiz olduğunu təsəvvür eləyə bilməzdi. Əbdül onun üçün təkcə şəhvani ləzzət bəxş eləyən bir kişi kimi qiymətli idi, onun qiyməti Dünya xanım üçün ancaq və ancaq bundan ibarət idi. Əbdül üçün isə Dünya xanım bütün kainat idi, günəşi, ayı, ulduzu ilə güclü, çiçəyi ilə, sevinci və xoşbəxtliyi ilə göz qamaşdıran, onu yaşadan, fərəhləndirən bir dünya idi. Ona görə Əbdül Dünyanın üstündə kənardan-kənara əsim-əsim əsirdi, onun ayağına tikan batmasına, başının ağrımasına belə razı deyildi; həmişə öz-özünə pıçıldayırdı ki, ona gələn bütün qada-bala mənə gəlsin, mənim üçün onun hər əzabına dözmək xoşdur, bu da mənim üçün səadətdir, — deyirdi. Əvvəl məhəbbət yox idi. Əvvəl ağanın cavan, qəşəng xanımı vardı, həyətdə gəzərdi, danışardı, gülərdi. Əbdül onu görərdi, qulluğunda durardı. Ancaq hələ məhəbbət yox idi. Olmayacaqdı da, əgər o zəif günəşli payız günü olmasaydı. Əgər Əbdül çimmək, paltarlarını yuyub-qurutmaq üçün çaya getməsəydi, qayıdıb gələndən sonra, həyətdə Dünya xanıma rast gəlməsəydi, bu məhəbbət olmayacaqdı, bəlkə heç vaxt da olmayacaqdı.

...Uşaq — balaca Nəcməddin beşikdə qığıldadı, sonra yenə yatdı.

Əbdül ağ balışın üstündən başını qaldırıb boylandı və:

— Sənə qurban olum, oğul! — dedi. Dünya çılpaq qolunu qaldırıb Əbdülün başından aşağı basdı və ağ əlini onun dodaqlarının üstünə qoydu:

— Bir də heç vaxt elə demə, Əbi. Eşidirsən, heç vaxt ona «oğul» demə. Dilin öyrəşər, başqalarının da yanında deyərsən, sonra biabır olarıq.

— Baş üstə, Dünyam mənim. Sənin hər sözün mənim üçün qanundur. Mən ancaq ürəyimdə deyərəm ona «oğul».

— Ürəkdə olar, ancaq dildə yox. Mən sənə bu sözü dilinə gətirməyi qəti qadağan eləyirəm.

— Baş üstə mənim ömrüm.

Susdular. Dünya ağ əlini Əbdülün qara tüklü sinəsində gəzdirdi. Əbdülün bədəni gizildədi, vücudunu xoş, sehrli bir duyğu gəzib-dolaşdı.

— Dünya...

— Can.

— Bu, həqiqətdi, ya yuxudu?

— Nə?

— Sənin mənim olmağın.

— Yuxuyabənzər həqiqətdi. Əbi.

— O gündən bir ildən artıq keçib, ancaq mən hələ də elə bilirəm yuxu görürəm, bu yuxudan heç vaxt ayıla bilmirəm, Dünyam. Ağlıma sığışdıra bilmirəm bu necə oldu axı.

Dünya nəyi isə xatırlayırmış kimi susub dərhal cavab vermədi. Əslində o, əsl fikrini — uşaq sahibi olmaq fikrini gizlətmək üçün susmuşdu. Bu onun öz fikri idi, ikinci bir adama, hətta Əbdülün özünə də deməməyi çoxdan, lap ilk gündən qərara almışdı. Əbdül onun dinmədiyini görüb öz-özünə danışırmış kimi astadan söylədi:

— Mən gözəl deyildim, adicə nökərdim... Birdən... birə... Dünya xanım nəhayət dilləndi:

— Səni hamamda gördüm, təsadüfən... Səndən xoşum gəldi, Əbi. Qaçıb evə girdim, çarpayıma uzanıb ağladım...

— Niyə ağlayırdın ki...

— Heç özüm də bilmirəm. O zamankı hisslərimdən özüm də baş açmıram. Ərimmi qoca idi, sənmi mənim közümə qüdrətli, cavan göründün, bilmirəm. O anlarda nə isə özümü çox bədbəxt hesab eləyirdim. Yəqin bu ondan irəli gəlirdi ki, Nəcməddinlə mənim aramda qırx ildən çox fərq var. O, batan günə bənzəyir, mən isə təzə yaşamağa başlayıram. Bilirsən, Əbi, qadını təkcə var-dövlətlə xoşbəxt

eləmək olmaz, qızıl-gümüşlə xoşbəxt eləmək olmaz. Qadın — qadındır; onun ürəyini əldə saxlamaq, gözünü yox, ürəyini doydurmaq lazımdı. Nəcməddin mənim gözümü doydurdu, ürəyimi yox, Əbi...

— Ağladın. Bəs sonra?

— İki gün heç özümdə olmadım, Əbi. Nə yata bildim, nə çörək yeyə bildim. Sən gözlərimin qabağından çəkilib getmirdin. Çox düşündüm, hətta Nəcməddin özü də çaşbaş qalmışdı. Sənə nə olub axı! —deyib dururdu. Əl çək yaxamdan! Kefsizəm! — deyirdim. Hətta bu günaha batmamaq üçün istədim səni evdən qovduram. Deyəm ki, bu nökər mənə pis gözlə baxır.

— Mənim kügahım nə idi ki?

— Elə mən də onu fikirləşdim. Sənin günahın yox idi. Günah mənim taleyimin idi, Əbi. Sonra ürəyimə baxdım, gördüm səni istəyirəm. İstəyirdim sənin qollarının arasında olam, istəyirdim məni əzizləyəsən, hətta döyəsən də. Ancaq sonra öpüb oxşayıb könlümü alasan, Əbi. — Bu istək getdikcə küclәndi məndə və gördüm bu hissin qarşısını ala bilmirəm. Heç cür ala bilmirəm, inan, Əbi, buna. Bunu ona görə deyirəm ki, başa düşəsən, məni qınamayasan.

— Mən səni heç vaxt qınamamışam, əzizim. Qınamaram da. Sən mənə səadət vermisən, yuxuda da görə bilməyəcəyim səadəti vermisən, gülüm. Mən ölənəcən sənin qulunam, öləndə ayağının altında ölsəm, cənnətməkan olaram, gülüm.

— Çox sağ ol, Əbi. Məni heç kəs hələ belə sevməyib, çətin də ki, sevən olsun. Doğrudur, bu, gizli məhəbbətdir, oğrun məhəbbətdi, amma gözəl məhəbbətdi, Əbi. Qorxulu məhəbbətdi, Əbi. Qorxulu məhəbbətdi, ölümlü məhəbbətdi, ancaq şirin məhəbbətdi, Əbi.

Mən əvvəl qorxurdum, ilk dəfə...

— Hə, onda mən səndən də bərk qorxurdum, Əbi. Mənim əsl qorxum səndən idi. Səni yaxşı tanımırdım, etibar eləmirdim, deyirdim birdən ağana sədaqətin üzündən məni satarsan, bundan qorxurdum. Sonra fikirləşdim ki, Nəcməddin məni çox istəyir, mənim sözümə daha tez inanar, nəinki sənin. Qərara gəldim ki, sən bir söz desən, mən deyəcəyəm ki, o mənə sataşmaq istəyirdi. Mən belə desəm, səni o, bircə anda məhv eləyə bilərdi. Bu mənə cəsarət verdi. O idi ki, üçüncü gün səni yanıma çağırdım. Həyəcanından əsirdin.

— Səni çarpayıda uzanmış görəndə tər məni basdı, özümü itirdim, qayıdıb qaçmaq istədim.

— Mən yenə səni çağırdım, Əbdül, — dedim, — xəstələnmişəm, gəl bura. Gəl, qorxma, gəl, alnımı övkələ bir az. Sən qorxa-

qorxa gəldin. «Otur» dedim. Səndəli çəkib oturdun. Gözlərini qaldırıb mənə baxmırdın da. «Əlini alnıma qoy, gör qızdırma içində necə yanıram?—dedin, — Əlini alnıma qoy, sən allah». «Xanım, ağa gələr, yaxşı olmaz» «Ağa əlahəzrətlə ova gedib. Gəlməz... Qorxaqsanmış ki, lap sən». Sən bir gözün qapıda əlini alnıma qoydun, ürəyin çırpındı, Əbi.

— Sonra bu ağ əlini, — Əbdül Dünyanın sinəsinin üstdəki o ağ əlini götürüb dodaqlarına yaxınlaşdırıb öpdü, — əlimin üstünə qoydun, sığalladın, sonra yavaşca sürüşdürüb sinənin üstünə gətirdin... Yadındadı, gülüm?

— Yadımdadı, Əbi... O gün ömrüm boyu yadımdan çıxmaz, Əbi. O gün mən dünyada qorxu içində olsa da, özümü ən xoşbəxt qadın hiss elədim, Əbi. Elə bildim o gün toyum oldu, o gün gəlin oldum, Əbi.

— Hə, gülüm. Bizim toyumuz doğrudan da o gün oldu, ancaq, çalğısız, xanəndəsiz. Sən mənim həyatımda ilk qadın idin, özü də belə gözəl, belə şirin... Bundan sonra məni öldürsələr də qorxmuram. Heç nədə gözüm yoxdu, əzizim.

— Bu da qəribə bir toy idi, Əbi. Bizim qismətimizə beləy toy yazılıbmış, Əbi, görünür... Məni çox istəyirsən, Əbi?

— Sözlə deyə bilmirəm, gülüm. Elə bir söz yoxdu ki, onunla səni nə qədər istədiyimi izhar eləyə bilim. Yoxdu o söz. Ürəyim elə doludu ki, az qalır partlaya, inan. Səndən doya bilmirəm, ay mənim doyulmazım. Səndəm doymaq mümkün deyil, mümkün deyil. Bu qədər xoşbəxtliklə bəzən yenə özümü bədbəxt hiss eləyirəm. İstədiyim vaxt səni görə bilmirəm, əzizləyə bilmirəm, çünki buna mənim qanuni ixtiyarım yoxdu, çünki mən adicə nökərəm, adicə qulam, gülüm. Sənin xəbərin yoxdur, mən hər geçə sənin pəncərənin qabağında, hasarın dibində saatlarla, sən işığı söndürənəcən oturub həsrətlə sənin nəfəsinlə dolu otağına baxıram, baxıram; elə vaxt olur, ağlaya-ağlaya, əzab içində qovrula-qovrula elə oradaca mürgü vururam. Bilirsən, hərdən yamanca qısqanıram səni ona. Bu hiss az qalır məni dəli eləsin. İstəyirəm girəm içəri, onu doğram-doğram eləyəm, qanını içəm. Əvvəllər o kişini çox sevirdim, ancaq indi bilmirəm, ürəyimdə nifrət qaynayıb daşır ona qarşı, düşmən hesab eləyirəm özümə. Sonra da fikirləşirəm ki buna əsla haqqım yoxdu, çünki mən nökərəm. Səni görmək üçün, səni itirməmək üçün o mənə nə əzab versə, dözməyə hazıram çünki başqa çarəm yoxdu mənim.

— Dəlilik eləmə, Əbi, şadlığına şitlik eləmə. Axmaq bir hərəkətin hər ikimizi məhv eləyə bilər. Ağıllı olmaq lazımdır. Ağıllılar həmişə udublar. Zahirdə mən sənin üçün yoxam, sən də mənim üçün yoxsan. Zahirdə mən xanımam, sən nökərsən, Əbi. Amma ürəkdə...

—Amma ürəkdə... biz sevgiliyik, eləmi?

— Hə, batində, ürəkdə sən mənim əzizimsən, Əbi. Səni mən çox istəyirəm, sən küclüsən, qüdrətli kişisən, Əbi. Sənin adicə əlin mənə toxunanda məni uçunma tutur, bütün dünyanı unuduram, özümü çox xoşbəxt hiss eləyirəm, Əbi. Sən bəlkə də bunu başa düşmürsən, ancaq bu, mənim üçün böyük səadətdi, inan. Mən o qocanı sevmirəm, onun elə-belə, arvadıyam, vəssalam. Ona alçalmıram, nəvazişli sözlər demirəm. Düzdü, əvvəllər deyirdim, ancaq səndən sonra o gözümdən düşüb, dilim gəlmir ona xoş söz deyəm. Cinayət eləyirəm elə bil. O bədbəxt isə məni çox istəyir, elə çox istəyir ki, lap yazığım gəlir ona. Uşaq kimi vurulub mənə. Mənsiz yaşaya bilməz bircə gün də. Ancaq sən bunların heç birinə fikir vermə. Mən sənin-əm, ömrüm boyu da sənin olacağam, Əbi.

Dünyanın gözlərini yumub pıçıltı ilə dediyi bu şirin sözlər Əbdülü məst eləmişdi, elə bil ona uzaq-uzaq illərin arxasında, uşaqlıq çağlarında olduğu kimi kimsə həzin bir səslə layla çalırdı, nağıl danışırdı. O sözləri dinlədikcə gözlərinin bulaqlarından yaş axırdı. Əbdül bundan böyük səadət görməmişdi. Bundan sonra da çətin görərdi. Bu səadət onun bütün qalan ömrünə bəs eləyəcək qədər çox idi, küclü idi, tükənməz idi. O, çevrilib Dünyanı yenidən bağrına basdı, gözlərindən, saçlarından, dodaqlarından, sinəsindən öpməyə başladı. Dünya nazla dilləndi:

— Əbi, yavaş, yeri qalar...

...Əbdül geyinib balaca Nəcməddinin beşiyi başında dayanmışdı və gözlərini onun ağ sifətinə, nazik, qırmızı dodaqlarına zilləyib tamaşa eləyirdi. Və hiss eləyirdi ki, dünyadan xəbərsiz, mışıl-mışıl yatan bu körpəyə qarşı ürəyində nə isə doğma bir hiss yaranır, o, günlər yox, anlar keçdikcə Əbdül üçün əzizləşir, doğmalaşır. Əbdül hardan biləydi ki, bu, övlad məhəbbətidi dünyaya gəlir?!

O, yavaşca əyildi, uşağın iri alnından ehmalca öpdü və astaca pıçıldadı:

— Xoşbəxt ol, mənim balam!..

Dünya çarpayısında uzanıb bu mənzərəni səssiz-səmirsiz seyr eləyirdi. Gözləri xoşbəxtliklə, nigaran bir xoşbəxtliklə dolu idi.

YEDDİNCİ FƏSİL

Bir-birinin vüsalından sehrlənib məst olandan, Dünya xanım öz yatağında, Əbdül isə öz hücrəsində ikilikdə keçirdikləri o xoş anların xəyalatına dalandan sonra bütün həyətdə qəribə bir səssizlik yarandı. Hər şey — hərdən hürən it də, aramsız quruldaşan köyərçinlər də, ara-sıra qaqqıldaşan toyuq-xoruz da, qəfəsdəki dil-boğaza qoymayan bülbül də bu iki bəxtəvər adamın düşüncələrini, xəyallarını dağıtmamaq, pərən-pərən salmamaq üçün sanki qəsdən susmuşdu. Dünya xanım da, Əbdül də azca əvvəl yaşadıqları o sehrli, şeriyyət dolu aləmin gözəlliyinə dalıb bir-biri haqqında düşünürdü. Və bu düşüncələr gah təmiz niyyətlə sevən ürəyin çırpıntıları kimi səmimi, şirin olurdu, gah da hiylə və məkr donuna, qısqanclıq alovlarına bürünub əfi ilana dönür, gözəl duyğular üstündə qərar tutmuş bu məhəbbəti zəhərləyib boğmaq istəyirdi.

Səmimiyyət olmayan yerdə məhəbbət yaşaya bilmir. Səmimiyyət məhəbbətə inam, qol-qanad verir, onu böyüdur, ülviləşdirir. Bu həqiqəti Dünya xanım, cavan olsa da, qadınlıq sövq-təbiisi ilə anlayırdı və bu hisslərini indiki yarıbihuş, yarıayıq halında götür-qoy edərək bu qənaətə gəlirdi ki, Əbdül onun üçün əzizdi, şirindi, ləzzətlidi. Ancaq nə olsun? İkisi də keçmişləri etibarilə eyni olsalar da, indi aralarında Nəcməddinin sayəsində dərin bir uçurum var. Dünya uca bir dağın başında dayanıb, Əbdül isə ətəyində. Əbdül hamının gözü qabağında öz ləyaqətilə, zəhmətilə, Dünyasının qərar tutduğu o dağın başına, sevgilisinin vüsalına qovuşmaq üçün çıxa bilməz — bu, onun imkanı xaricindədi. Əbdül ancaq gizlicə, oğrun-oğrun oraya dırmaşa bilər, qısamüddətli, qorxulu-təhlükəli bir görüşdən sonra, yenə gizlicə, heç kəs görməsin deyə sürünə-sürünə aşağılara, öz hücrəsinə qayıda bilər. Dünya milyoner xanımıdı, Əbdül nökərdi, quldu. Dünya xanım camaatın gözü qabağında, zahirdə onunla ancaq bir nökər kimi rəftar etməliydi. Əbdül də həmçinin — ona, onsuz da taleyin qəribə hökmü ilə qul olduğu Dünya xanıma ağa xanımı kimi baxmalıdı, ehtiramını saxlamalıdı. Ona açıq-aşkar bir sevgili kimi baxa bilməz, bu onun həyatı bahasına başa gələr.

Dünya xanım hərdən, ehtirasları ayazıyıb ürəyinin atəşi azca öləziyən kimi, çox qorxulu bir oyun oynadığını anlayır, bədəninə üşütmə düşürdü. Bu işin aqibətini düşündükcə canına soyuq tər gəlir, gözləri yol çəkir, belə addım atdığına görə özünü min dəfə danlayırdı. Bu peşmançılıq hissi, Nəcməddin onun ayaqlarına düşəndə, nəva-

zişlə oxşayanda, onu özünün tanrısı hesab eləyəndə daha da güclənir, qəlbini məngənə kimi sıxırdı; ərinin üzünə şax baxa bilmirdi.

Dünyagörmüş qocanın — ömründə çox belə qadınlarla oturub-durmuş Nəcməddinin mehriban və isti baxışlarının dərinliyində qəribə, küclə sezilə biləcək bir şübhənin də közərə-közərə sakitcə yaşadığını Dünya xanım sövq-təbii bir həssaslıqla görməyə bilmirdi. Hələ indiyə qədər o şübhə dilə gəlməmişdi, açılıb-ağardılmamışdı, dolu tapança kimi öz qoburunda yatırdı, çünki Nəcməddin Dünyanı çox, özünün təsəvvür edə biləcəyindən də çox sevirdi, bu sevgidə bir dəlilik də, bir müdriklik də vardı, hələ desən uşaqlıq da vardı. Dünya onun üçün həyat idi, ömür idi, behişt idi, gözəllik tanrısı idi, yaradan və yaşadan idi. Ona görə Nəcməddin o şübhəyə layla çalıb yatırırdı, özündən uzaqlaşdırırdı o şübhəni və özünü inandırırdı ki, Dünya, bu gözəllik ilahəsi ona xəyanət eləyə bilməz, daha doğrusu, eləməz. Bax, məhz buna görə Nəcməddinin gözlərinin dərinliyində bir mənhus şübhə közərə-közərə sakitcə yaşayırdı. Vay o gündən ki, bir uğursuz külək əsəydi, o közərtini körükləyib-üfürüb alovlandıraydı, onda zəbanə çəkilən alov, Dünyanı, — nə qədər əziz olsa belə, yaşadan olsa belə, — dirigözlü yandırıb külə döndərərdi. Vay o gündən! Bəli, Dünya məhz o gündən qorxurdu, üşürgələnirdi. Danlayırdı özünü, bəzən nifrət eləyirdi özünə. Bir daha Əbdülə baxmayacağına, onu yanına çağırmayacağına söz verir, xoş söz deməyəcəyinə and içirdi. Ancaq beş gün, uzaq başı on gün keçməmiş bu körkəmsiz, kobud, daxilən güclü Əbdülsüz darıxdığını hiss eləyir, onunla qorxa-qorxa da olsa, ixtilat etmək, təmasda olmaq, ehtiraslı və qüvvətli qolları arasında bihuş olmaq arzusunu boğa bilmirdi. Bu arzu onun əlindən tutub dayə kimi Əbdülün yanına gətirirdi. Əbdül Dünya üçün cırcındır içində, (özü ilə müqayisədə) çirkab içində gizlədilmiş bir xəzinə kimi qiymətli idi. Onda hər cür zərif, şirin, gözqamaşdıran, gözyaşardan bahalı daş-qaşlar — hisslər, duyğular vardı. Ən xoş və maraqlısı o idi ki, bu hisslər, bu duyğular təbii idi, olduğu təki idi, bəzəkdüzəksiz idi, bəzən yonulmamış idi və buna görə çox gözəl idi. Hər dəfə bir yerdə — tale üzlərinə gülən günlərdə, — olanda, söhbətləşəndə, Dünya onda yeni-yeni keyfiyyətlər görürdü və bütün bunların hamısı Dunyanı xoşbəxt etmək üçün imiş! Dünya insan hisslərinin coşğunluğuna, sonsuzluğuna və doyulmazlığına məhz belə anlarda heyrət eləyirdi!

O, bəzən, — qəribə də olsa, — bu xəzinəni elə beləcə də məxfi saxlamaq, onun işığından, naz-nemətindən, ləzzətindən başqaları-

nın da feyziyab olacağından qorxmaq kimi qəribə fikirlərə də düşürdü. «Heç kəsə verməyəcəyəm səni, heç kəsə!» — deyə hərdən, bayğınlıq və çılğınlığın ən yüksək məqamında Əbdülun özünə də deyirdi. Əbdül isə gülümsünüb: «Mən kimin nəyinə lazımam!» — söyləyirdi. Onda Dünya öz aləmində düşünürdü ki, bədbəxt öz qiymətini bilmir! Sağlam adam sağlamlığının qədrini bilməyən kimi, qızıl öz qiymətini bilməyən kimi. Dünya Əbdüldə bir mütilik görmüşdü və bu mütilik onu Dunyanın gözündə çox ucaldırdı. O, belə bir hikmət kəşf eləmişdi ki, kişi qadının nəzərində ucalmaq istəyirsə, enməyi bacarmalıdır, onun saçlarından öpmək istəyirsə, əvvəlcə ayaqlarının altına düşməyi bacarmalıdır, çünki Dünya körürdü ki, Əbdül belə elədikcə, onun ayrılıq (bir həyətdə yaşasalar da) əzablarına, ərköyünlüyünə, nazlarına səbirlə-mətanətlə, içəridən çəkə-çəkə dözdükcə daha sevimli olur, daha əziz olur. Qadın allah kimi məxluqdur, üzərində hökmranlıq edəni sevməz — özü hakim olduqda və bunu dərk etdikdə o, xoşbəxt olur, qəlbində məhəbbət və şəfqət hissi daha da güclənir. Dünya bütün bunları öz aləmində, öz ürəyində görürdü, duyurdu. Əbdül alçaldıqca ucalırdı, ucaldıqca sevilirdi. Əbdül sevilən anlarda, əziz olan günlərdə, saatlarda Nəcməddinin bütün böyüklüyü, əzəməti, milyonları ilə Dünyanın gözündən düşürdü, kiçilirdi, mənən ölürdü. Üzə vurmasa da, içəridə, qəlbinin dərinliklərində ona qarşı bir soyuqlut, hətta bəzən nifrət də hiss eləyirdi. Nəcməddin miskinləşirdi, cılızlaşırdı. Belə vaxtlarda Dünya kiçicik bir şeyi bəhanə edib «nazla», «ərklə» ondan küsürdü, üzünə xoş baxmırdı və Nəcməddin «axı bunun da üstündə adam küsər?» — deyib ürəyində baş sındırır, səbəblərini axtarır, heç nə tapa bilməyib nəhayət, «xasiyyətidir də, Allah verib!» — deyə susub dözürdü. Kişi Dünyanın könlünü alınca, barışınca çox əzab çəkirdi, barışanda isə uşaq kimi sevinirdi. Bəli, Dünya Əbdülü özünə yaxın buraxmaqla, məqsədinə çatmaq, övlad sahibi olmaq, Nəcməddinin cah-calalına gələcəkdə yiyə durmaq üçün atdığı bu addımla çox qorxulu, tilsimli bir oyun oynamışdı. Əvvəllər bu ona çox adi, asanca başlayıb, asanca da qurtarmaq mümkün olan bir iş kimi görünmüşdü. Onda hələ o qədər də təcrübəsi olmayan Dünya, bu hərəkətilə sakit və ölü bir həyat keçirən Əbdülü gözəgörünməz tellərlə, bəlkə də qırılmaq bilməyən zəncirlə özünə bağladığını, eyni zamanda özünün də əl-qolunu və hətta dilini belə bağladığını heç də bütün təfərrüatı, ciddiyyəti ilə dərk edə bilməmişdi. Birdən-birə başlanmış və getdikcə dərinləşib möhkəmlənmiş bu münasibətlər, indi Dünya özü belə istəsəydi də,

qurtara bilməzdi, qırıla bilməzdi. Çünki Əbdülü — vulkanı içəridə bu vaxta qədər mürgü vurmuş, heç bir xoşbəxtlik və səadət ləzzəti dadmamış, indi isə nagahan belə bir bəxtəvərliyə qovuşmuş Əbdülü Dünya özündən asanlıqla uzaqlaşdırmağı bacarmazdı. Əbdül kimi adamlar — ömrü boyu ağ gün, səadət arzusu ilə yaşayan, onu əldə etməyə can atan, nəhayət, ümidini itirib öz kəm taleyi ilə barışan adamlar, heç gözləmədikləri halda axtardıqlarını tapanda onu əldən verməzlər, ölümə belə razı olarlar, ancaq əldən verməyə yox. Dünya görürdü ki, Əbdül ona möhkəm bağlanıb, onunla kəlmə kəsəndə əriyir, müəllimini görmüş uşaqlar təki özünü itirir, rəngi dəyişir, sevincdən lal olur, yaxşı sərrast danışa bilmir — bir sözlə sevir, sevir. Və bu sevgi yolunda o, ən böyük fədakarlıqdan tutmuş ən böyük cinayətə qədər — nə desən edər. Dünya kimdənsə, hardasa eşitmişdi ki, qulun məhəbbəti böyük olur — özündən də böyük, arzularından da böyük. Bu yandan da balaca Nəcməddin vardı arada. Əbdül o körpəyə günlər keçdikcə daha çox bağlanırdı və bu bağlılıq Dünyanı qorxudurdu, səksəkədə saxlayırdı. Hardasa, nə zamansa bu dolaşıq kələfin ucu açıla bilərdi və onda əsl fəlakət qopa bilərdi.

Dünya düşünürdü, düşündükcə kələf dolaşır, ilmənin ucu ələ gəlmir, fikir haçalaşıb çözələnirdi. İki saat qabaqkı şairanə təəssürat, qəlbini işıqla, fərəhlə dolduran o görüşün şirinliyi, gözəlliyi əzabqarışıq bir hissə çevrilir və onun ürəyini incidirdi. Ancaq hərdən ürəyinə gəlirdi ki, bəlkə bu görüş, bu vüsal və gizli münasibət ona görə belə şirindi, doyulmazdı, gözəldi ki, gizlidi, əzablıdı. qorxuludu? Yəqin elə belədi ki, var!

Sonra fikirləşdi ki, bəlkə hər şeyi taleyin ixtiyarına buraxmaq, qəzavü-qədər nə yazıbsa, o da olacaq, — deyə susmaq, gözləmək daha yaxşı idi. Bəlkə Əbdülün özünü lal-dinməz, bir göz qırpımında aradan götürmək, yeganə sirr dağarcığını məhv etmək və sonra da arın-arxayın, qorxusuz, ürküsüz yaşamaq? Sonra sakit yaşamaq olardımı körəsən? Axı onun, təpədən dırnağa məhəbbət olan bu zavallı Əbdülün günahı nə idi? Axı o, Dünyanın özünə də gərək idi, o da Əbdülü çox istəyirdi, dəfələrlə öz-özünə qadağan elədiyinə baxmayaraq, Dünya hisslərilə, ürəyi ilə bacara bilmədiyini yaxşı xatırlayırdı, onunla necə görüşdüyunü lap yaxşı xatırlayırdı. Əbdüldə nə isə qəribə bir sehr-əfsun var idi. Əbdül məhəbbətdə təkraredilməz idi, doyulmaz idi, bircə dəfə oxunub kənara qoyulası, doyulası kitab deyildi. Dünya onda hər dəfə nə isə daha gözəl, daha mənalı, daha şirin bir cəhət görürdü. Dünya neçə dəfə bu qərara gəlmişdi, Əbdül bəlkə

də yer üzündə nadir kişidi ki, belə sevə bilir, belə qüdrətlidir, belə zərifdir və heç kəs də onu — Dünyanı belə atəşin bir məhəbbətlə, əzizləyə-əzizləyə, yalvara-yalvara, ucalda-ucalda, allahlaşdıra-allahlaşdıra sevməyə qadir ola bilməz, heç kəs heç vaxt ola bilməz!.. Onun nəfəsində nə isə bir cazibə var, sözlərində nə isə ahənrübalıq var, danışarkən həyəcanındanmı, canyanğısındanmı, gözlərinin məhzun-məhzun yaşarmasında nə isə bir ilahilik var, — bunlardan qaçmaq olmur, aman allah, heç qaçmaq olmur. Yox, Əbdülü məhv etmək olmaz, sevəni məhv etmək ən böyük günahdır, ən böyük qatil olmaq deməkdir. Onu məhv etmək Dünyanın özü üçün də ağır itki olardı, həyatının bir parçası, arzularının bir parçası çilik-çilik olub sınardı, dağılardı. Yox, Əbdül yaşamalıdı. Əbdül Dünyanın olmalıdı. Əbdül Dünyanı əzizləyə-əzizləyə, yalvara-yalvara, ucalda-ucalda, allahlaşlıra-allahlaşdıra sevmək üçün yaşamalıdır!

...O yanda, alaqaranlıq hücrədə isə Əbdül əlini başının altına qoyub duyduğu ləzzətlərinin, nəşələrinin təsirindən yarıbihuş, yarıayıq halda xumarlanırdı. Üç aya yaxın davam etmiş ayrılığın, həsrətin ağrısı, acısı iki saatlıq vüsaldan sonra canından çıxmışdı, bədəni dincəlmişdi, ruhuna səhər mehi kimi səfabəxş bir sərinlik və rahatlıq axıb dolmuşdu. Özünü görmürdü, ancaq hiss edirdi ki, bu dəqiqə çox gözəlləşib, gözləri işıqla dolub, üzünə munis və mehriban bir təbəssüm qonub. Yuxu aləmində imiş kimi sonsuz və mavi boşluqda ipək təki yumşaq qanadlarını çala-çala uçurdu. Sanki o, dörd divar arasında, hücrəsində deyildi — uçurdu, uçurdu. Ürəyini, gözlərini nəhayətsiz bir sevinc dənizi doldurmuşdu. Qulaqlarına Dünyanın isti nəfəsi gəlirdi, mehriban nəfəsi gəlirdi, səsini — pıçıltılı, həyəcanlı səsini eşidirdi: «Ömrüm boyu sənin olacağam, səni heç kəsə verməyəcəyəm, Əbi!».. Əbdülün fikrincə, əsl Dünya bu sözləri deyən Dünyaydı. O sözlər Dünyanın ürəyi idi, qəlbi idi ki, dilində çırpınırdı. Dünya ağıllı idi, tədbirli idi, boş və mənasız söz deməyi, iş görməyi xoşlamırdı. Gör Əbdülə necə məsləhətlər verirdi — «məni qısqanma!» «Mən sənin körpəyə «oğul» deməyini qadağan edirəm, Əbi». Görünür, belə lazımdı, belə məsləhətdi. Sonra, Əbdül dəfələrlə şahidi olmuşdu ki, Dünya yeri gələndə necə də ürəyinin səsini boğur, istəyini boğur, özünü saxlayır, çünki ağıl belə hökm edir, o, ağlın sözünə də baxmağı unutmur. Əbdül şəxsən belə şeyləri düşünməzdi, ehtiyat eləməzdi, təki Dünyanın vüsalına qovuşsun; sonra qoy lap öldürsünlər də, heç eybi yoxdur. Onun yolunda ölmək özü də, vüsalına qovuşmaq kimi elə səadətdi ki, hər sevənə qismət olmaz...

Şirin xəyal aləmində, sevinc, nə qədər qoynunda yarıbihuş, yarıayıq halda yaşadığı o xoş dəqiqələrdə, birdən darvazadan o tərəfdə, hasarın arxasında maşın siqnalının səsini eşitdi. Bu səs onu o gözəl aləmdən ayırıb alaqaranlıq hücrəyə qaytardı, ayıltdı və sevincinin üstünə su çilədi elə bil. Çünki səs Nəcməddinin maşınının siqnalının səsi deyildi, qonşu oğlanın — o kürənin maşınının səsi idi. Eşidər-eşitməz Əbdül qalxdı, həyətə çıxdı. Və yadına bəzi xırda şeylər düşdu, qanı qaraldı. Xatırladı ki, o kürən oğlan son vaxtlar necə də onun gözəl Dünyasına maraq göstərir, gözucu ona sarı baxır; yadına saldı ki, deyəsən maşının üstünə telefon nömrəsi də yazmışdı. Ancaq Əbdül bilmədi ki, Dünya ona zəng çaldı, ya yox! Onu doğum evinə yola salanda da deyəsən Dünya gözlərini yummaqla salam vermişdimi, xudahafiz demişdimi? Əbdül neçə dəfə görmüşdü ki, o kürən, maşını darvazadan çıxaran kimi Dünya da eyvana atır özünü, küçəyə baxır!! Bütün bunları hiss eləməmiş, görməmiş Əbdül daha xoşbəxt idi. Ömründə məhəbbətin nə demək olduğunu Dünyaya qədər dadmamış Əbdül qəribə bir əzab hissi keçirməyə başlamışdı, bunları görəndən, duyandan sonra! Tanrısı qədər sevdiyi, bu az müddətdə ilahiləşdirdiyi, ayın, günəşin yanına qaldırdığı, namaz qılarkən belə Allah əvəzinə itaət etdiyi Dünya bəzən onun gözündə əvvəlki əzəmətini itirir, ucalığından enir, sirli, müəmmalı bir məxluqa dönür, ikiləşirdi. «Ömrüm boyu sənin olacağam, səni heç kəsə verməyəcəyəm!» — deyən də Dünya idi, kürənin siqnal səsinə eyvana çıxan da. Bundan Əbdül heç cür baş açа bilmirdi, çaşırdı və məhz bu zaman həmin əzablı hisslər doğulurdu. Onda Əbdül qəlbinin dərinliklərində o kürənə qan düşməni kimi, qatı düşmən kimi baxırdı, hiss edirdi ki, o hər kəsdisə, onun səadətinə göz dikib, ömrünün təsəllisini, gözəlliyini, rahatlığını əlindən almaq istəyir. Yəqin onun nəzərində Əbdül kim idi ki, adicə nökər idi. Yəqin Nəcməddin kimi heç ağlına da gətirə bilməzdi ki, Dünya ilə onun arasında nə isə yaxın bir münasibət ola bilər. Nəcməddin onu kişi hesab etməyən kimi – bu sözünü Dünya gizli görüşlərinin birində Əbdülə söyləmişdi və gülüb əlavə eləmişdi ki, o, qələt eləyir, mənim gözümdə əsl kişi sənsən—yəqin kürən də onu adam yerinə qoymur. Və Əbdül ona nifrət eləyirdi. O özü bunu hiss eləməsə də, bu qısqanclıq idi—doğulmuşdu Əbdülün ürəyində, dəhşətli, əzablı qısqanclıq idi. Bu duyğu zəhər kimi acı idi, öldürücü idi—öldürmürdü, ancaq eləcə əzab verirdi, incidirdi, zərrə-zərrə, damcı-damcı bütün vücuduna yayılıb sağalmaz bir mərəzə çevrilirdi. Qəribə idi ki, hərdən belə əzablı anlarında o, Dünyanı da məhv et-

mək istəyirdi, ancaq sonra səbrini basıb susur, «yox, mənim Dünyam belə ikiüzlü, xəyanətkar ola bilməz. Bu qədər nəvazişdən, əzizləmələrdən, can fəda etməkdən sonra belə alçaq fikirlərə əsla düşə bilməz, yox, düşə bilməz».—deyir, qəribə bir qısqanclıq odu ilə alışıb-yanan qəlbinə təskinlik verir, bütün qüvvəsini cəmləyib özünü inandırmağa çalışırdı. Sonra yenə düşüncəsi dolanır, sual suala calanırdı. Onda bəs axı bu mübhəm hərəkətlər, baxışlar nə idi? «Axı sənin nəyin yoxdur, Dünya? Malın, dövlətin, padşah xanımına layiq güzəranın, o yanda Nəcməddin kimi qüdrətli, qoca da olsa, zabitəli ərin, bu yanda mənim kimi qulun? Axı sənin dünya naz-nemətindən heç nəyə ehtiyacın yoxdur, əzizim. Çıxart bu iyrənc, bu qorxulu fikirləri başından, yaşa adam kimi — ləyaqətlə, namusla. Onda tanrı o biri günahlarından da keçər, vallah keçər, odla, ölümlə oynama. Özünə, gül kimi körpənə, nəhayət, adı-sanı az qala bir məmləkəti tutmuş o qocaya yazığın gəlsin, mənə yazığın gəlsin». «Bəlkə... nə olar, adam adama baxanda? Bəlkə heç o, mən düşündüyüm mənada baxmır, göz qırpmır? Bəlkə mənə elə gəlir? Bəlkə bu sadəcə maraqdı? Olmazmı? Hə, hə, elədi, vallah, elədi. Dünya — o gözəllik sahibi, o ağlın sahibi Dünya elə qadın deyil, deyil. Bax, indi o lənətə gəlmiş kürən oğlan siqnal verdi, görüm Dünya eyvana çıxacaqmı, baxacaqmı ona sarı?» — deyə düşünürdü və ürəyində Allaha yalvarırdı ki, kaş çıxmayaydı. Ürəyi şiddətlə çırpınır, hövl eləyib ağzından çıxmaq istəyirdi. Anlar keçirdi, bir-birindən uzun, küclü anlar... Xoşbəxtlikdən, Dünya eyvanda görünmədi. Əbdül titrəyə-titrəyə xeyli gözlədi, boylanıb pəncərələrə də nəzər saldı: yox idi Dünya, baxmırdı Dünya. Bu, Əbdülün ürəyini sonsuz nəşəli bir sevinclə doldurdu, onu əzablı duşüncələrin əlindən xilas elədi. Əbdülə elə gəldi ki, Dünyanı təzədən tapdı. Onun haqqında bədgüman olduğuna yaman peşman oldu, özünü o ki, var danladı.

Yenə beynində dolandı ki, yox, Dünya belə qadın deyil. O, sadəcə olaraq təcrübəsizdi, oturub-durmağını, hərəkətlərinin mənasını düşünmür. O, bəzən özünü elə aparır, elə danışıb-gülür ki, tanımayan, xasiyyətinə bələd olmayan kənar kişi, onun haqqında pis şeylər fikirləşə bilər, ona yaxın olmaq, ona söz atmaq, yoldan çıxartmaq fikrinə düşə bilər. Lənət şeytana, elə bunun özü də çox pisdi. Bəzən birisində düşünülməmiş bir hərəkətdən, sözdən sonra yaranan fikri ömrü boyu heç nəylə alt-üst eləmək olmur, elə o səni beləcə tanıyır, xatırlayır. Yox, gərək Dünya buna-qətiyyən yol verməsin. O gərək kişilərin beyninə yaxın düşülməz, əlçatmaz bir qadın təsiri buraxıb yaşasın,

heç kəs ona yaxın düşmək, söz demək fikrini ağlına belə gətirməsin. Bax, onda Dünya əsl Dünya olar. Bax, Əbdül Dünyanı ancaq və ancaq belə görmək istəyirdi.

Sakitləşib özünə gəlmiş Əbdül bu fikirlərlə darvazanın ağzına çıxdıqda kürən qonşunun qapılarının ağzında dayanıb maşını sildiyini gördü və yenə fikirləri alt-üst oldu.

Oğlan maşının böyür-başına fırlanır, üzünü eyvana sarı çevirməsə də, gözucu baxırdı. «Ay it oğlu, sənin o gözlərini nə çıxardardım!» — düşünüb bir adam boyu olan hasara nəzər saldı və beynində doğmuş fikrə sevindi — hasarı bir az da qaldırmaq. Vəssalam. Sonra qoy nə qədər istəyir baxsın...

Qayğılı, döyülmüş, təhqir olunmuş kimi həyətə qayıtdı və ağacın altındakı oturacaqda əyləşib eyvana, pəncərələrə tamaşa eləməyə başladı... Bir saatacan beləcə, hərəkətsiz dayandı... Dünya nə eyvana çıxdı, nə pəncərə ağzında göründü... Əbdül yenə toxtadı...

Günortadan sonra ağayi Nəcməddin qayıdıb gəldi. Qanıqara idi. Əbdülün yanından saymazyana keçib yuxarı qalxdı. Ağasının onu dindirməməyi Əbdülü sevindirdi. Danışığa tutsaydı, Əbdül Nəcməddinin üzünə şax baxa bilməyəcəkdi, əzab çəkəcəkdi, səksəkəli olacaqdı. Belə yaxşıdı, dindirməməyi yaxşıdı. Dünya ipək yorğan-döşəyin içində, balaca Nəcməddin də öz beşiyində şirin-şirin yatmışdı. Nəcməddin evin ortasında azca dayanıb yatan əzizlərinə xeyli tamaşa elədikdən sonra iki pəncərənin arasına qoyulmuş, üstünə ceyran dərisi salınmış kresloya yayxandı və:

— Ax... — deyib ufuldadı. Bununla həm bərk yorulduğunu, həm də qayıtdığını Dünyaya eşitdirmək istəyirdi. Dünyadan isə səs-səmir çıxmırdı. Daş kimi düşmüşdü. Ağappaq üzündə sözlə təsvir edilməsi mümkün olmayan bir xoşbəxtlik, bir ləzzət ifadəsi donub qalmışdı. Mışıl-mışıl, lap körpə uşaq kimi, yüngül-yüngül nəfəs alırdı.

Nəcməddin bu ilahi görkəmi görüb yorğunluğunu unutdu, oğurluğa gedirmiş kimi qalxıb ayaqlarının ucunda çarpayısına yaxınlaşdı, yanını çarpayının qırağına qoyub oturdu. Xeyli, məftun-məftun diqqət yetirəndən sonra dodaqaltı, dua oxuyurmuş kimi pıçıldadı:

— Allah səni mənə çox görməsin, mənim qəşəng Dünyam — və sonra əlini atıb Dünyanın sinəsi üstünə çəkdiyi ağ örtüyü yavaşca qaldırdı. Dünya səksənmiş halda gözlərini açıb başını azca dikəltdi və qabağında Nəcməddini görüb:

— Sənsən? — deyə xəbər aldı, sonra yenə gözlərini yumub üzünü yana çevirdi. Qəribə idi, indi Dünya istəmirdi Nəcməddini,

görmək belə istəmirdi. Onun gözlərinə, sifətinə baxmaq istəmirdi. Bir az əvvəlki Əbdüllü dünyasından, Əbdüllü düşüncələrindən ayrılmaq istəmirdi. Amma Nəcməddin gəlmişdi, onu öz dünyasından ayırmaq istəmirdi.

— Bu nə vaxtın yatmağıdı belə? Dünya gözlərini açmadan:

— Uşaq yamanca yorub məni. Gecə səhərəcən qoymayıb yatam. Ölürəm, — dedi, — sən allah, mənimlə işin olmasın hələ. Qoy gözlərimin acısını alım...

Nəcməddin:

Al, al, gözlərinin qadasını alım, al! — dedi və ayağa durdu.

SƏKKİZİNCİ FƏSİL

Və hərlənib yenə beşiyin yanına qayıtdı. Körpə Nəcməddin arxası üstə, şirincə uyumuşdu. Seyrək qaşlarını, böyüklərə məxsus bir ədayla, nəsə ciddi bir şey fikirləşirmiş kimi, çatmışdı. Xırdaca dodaqları, uzunsov çənəsi arabir tərpənir, ancaq gözlərini açıb baxmırdı. Nəcməddin ürəyinə sığışmayan qürurla uşağına tamaşa eləyir, doymaq bilmirdi. «Kaş tez böyüyəydin, əlindən tutub gəzdirə bileydim, məclislərə apara bileydim və hamıya deyə bileydim ki, baxın, bu mənim canım-ciyərim, arxam-dayağım, hurilər hurisindən olan oğlumdu, mənim canişinimdi!» — deyə düşünür, fərəh içində gah beşiyin bu böyründən, gah da o biri böyründən dünyadan xəbərsiz halda yatan çağaya baxmaqdan usanmırdı. Nəhayət, uşaq gözünü açdı, başının üstündə dayanan adama diqqətlə nəzər salıb nə üçünsə gülümsündü.

— Niyə gülürsən, oğul? — Nəcməddin böyük adamla danışırmış kimi xəbər aldı, o isə təbii ki, cavabsız buraxdı bu sualı. Kişi şəhadət barmağını onun zənəxdanlı çənəsinə toxundurub dedi: — Demirsən niyə gülürsən? Daha maşallah yekə kişisən. Bu gün bu qoca dünyada düz qırx gündü yaşayırsan. Bizim uşaqlığımız ayrı zəmanəyə düşüb — avamlar zəmanəsinə. Amma indi dünya tamam dəyişib, oğul. Gərək bu qırx gündə sən çox şey öyrənmiş olaydın. Heç olmasa danışmaq öyrənəydin. Bax, bayaq xoşum gəldi səndən, filosof kimi qaşlarını düyüb fikirləşirdin. Fikirləşə bilirsən demək! Fikirləşə bilirsən, onda danışa da bilərsən demək. Heç olmasa mənim kimi adamın oğlu olduğun üçün gərək danışmağı bacarasan, bala. Gözlərini yaxşı aç, mənə — öz doğma atana yaxşı-yaxşı bax, məni tanı. Mən sənin arxanda dağ kimi dayanmışam. Sabah ölsəm belə, yenə sənin arxanda

durmuşam, bala. Ad-sanımla, dostlarımla, var-dövlətimlə. Zirək ol, heç kəsdən utanma, heç kəsdən qorxma. Od parçası ol, odun içindən pul götürməyi bacar, bala. Aciz olsan, səni yeyəcəklər, ayaqlar altında tapdalayacaqlar. Bir fransız dahisinin yaxşı kəlamı var: «Ot olub yeyilməkdənsə, qoyun olub yemək yaxşıdır». — Bu zaman körpənin harası ağrıdısa, üz-gözünü turşutdu, başını buladı, ata buna ayrı məna verdi: — Hə, nədi? Razı deyilsən bu fikrimlə? Deyirsən yəni qoyunu da yeyərlər?.. Hə, düz deyirsən, afərin, oğul. Bax, burasını fransız dahisi düşünməyib…

Həyətdə eşidilən maşın səsi Nəcməddinin oğlu ilə apardığı bu «söhbəti» yarımçıq qoydu—o, eyvana çıxdı. Gələn Zərrintac xanım idi. Nəcməddin qızının gəlişinə çox sevindi. Onlar pilləkənin başında görüşüb öpüşdülər. Ata əlini qızının çiyninə qoydu, gəlib eyvandakı divanın üstə əyləşdilər. Zərrintac ata evindəki kimi şən və gümrah deyildi. Rəngi solğundu. Nəcməddin ürəyindən keçirtdi: «Qızlar var, ərə gedəndən sonra gül kimi açılır, kefi göynən gedir, xoşbəxtliyindən yerə-göyə sığmır. Elə uzağa getməyək, elə bu bizim Dünya xanımı götürək. Bu da təzə gəlindi, demək olar ki, Dünya da təzə gəlindi. Dünya çiçəkdi deyirsən. Dünya səadət aləmində məst olub elə bil. Yeriyəndə az qalır ayağının altında yer yarılsın. Amma mənim balam... nə isə ərə getdiyi ilk günlərdən boynubükük bənövşəyə oxşayır, üz-gözündən niskil yağır. Axı niyə? Elməddin məgər pis oğlandı? Başa düşən, həssas. Qabiliyyətinə də söz yoxdu. Axı sən özün istəyibsən, qızım. Mən səni zornan ona verməmişəm, közümün işığı. Görürsən, sevmədiyin üçün əlahəzrətin oğluna vermədim səni. Gördüm meylin bunadı. Dedim çörəksiz yaşaya bilərsən, amma ürəksiz yox. Könlün istəyən adamla beş gün də yaşasan, ömürdü, İndi də... belə...»

— Bəs Dünya xanım hanı, qibləgahım? — deyə soruşanda Dünya xanım otaqdan çıxıb onun qabağında dayandı:

— Xoş gəlibsən, Zəri! — dedi və əyilib onun üzündən öpdü. — Necəsən, Zəri?

— Yaxşıyam, sən necəsən? Uşaq nə təhərdi, Dünya?

— Uşaq da yaxşıdı, mən də.

— Bir onu gətir bura, sən allah.

Dünya ərinin üzünə baxıb gülümsündü, sonra içəri keçib çağanı gətirdi.

Zərrintac onu qucağına aldı, qollarının altından yapışıb ayaqlarını dizinin üstünə qoyaraq artıq tamam-kamal oyanmış uşağın gözlərinin içinə baxdı:

— Kuş, kuş. Necəsən, qaqaş? Ay sənə qurban olum. Ay şeytan, gülürsən? Məni tanıdın? Mən sənin bacınam da. Tanımadın? Yox? Eybi yoxdu, böyüyəndə tanıyarsan. Nə qəşəng uşaqdı, ay Dünya, maşallah. Tfu-tfu. Əz çeşmi bəd dur[1]. Ağappaq, maya kimi. Bu ağlıqda belə kimə çəkib, ay Dünya?

Nəcməddin Dünyadan qabaq cavab verdi:

— Ağlıqda anasına, ağılda mənə.

Zərrintac küldü:

—Yaxşı, ağlığı köz qabağındadı, bunu gördük. Bəs ağıllı olduğunu nədən bildin, ay qibləgahım?

— O, sənin xəbərin yoxdu, bir az bundan qabaq ikimiz xeyli söhbət eləmişik. Anası da yatmışdı. Ata-bala ikimiz dünyanın işlərindən danışırdıq...

Söz bura çatanda Dünya qıpqırmızı qızardı və özünü itirmiş halda:

— Mənim? —dedi. Yaxşı ki, nə Nəcməddin, nə də Zərrintac bu an onun üzünə baxmırdı, nəzərləri uşaqda idi. Nəcməddin güldü:

— Sən Dünyanın yox, qadası, ümumiyyətlə bu dünyanın— dedi. — Əvvəl gördüm qaşlarını çatıb dərin-dərin düşüncələrə dalıbdır. Soruşdum nə fikirləşirsən, demədi. Xoşum gəldi. Kişi hər fikirləşdiyini hər kəsə açıb deməz. İnsan öz sirri ilə küclüdür. Sonra buna başa saldım ki, bu dünya belədi, elədi, filan-bəsməkan. Diqqətlə qulaq asdı. Nə hə dedi, nə yox. Bu da xoşuma gəldi. Kişi gərək o dəqiqə hər eşitdiyinə, hər gördüyünə öz münasibətini bildirməsin. Təklikdə otursun, eşitdiyini, gördüyünü saf-çürük eləsin, nəticə çıxartsın, sonra fikrini desin. Ancaq bir yerdə etirazını bildirdi mənim dediklərimə. Dedim, bir fransız dahisi deyib ki, ot olub yeyilməkdənsə, qoyun olub yemək yaxşıdı. Bax, burda oğul bala üz-gözünü turşutdu, başını buladı, demək istədi ki, yox, qoyunu da yeyirlər axırda... Gördüm kişinin oğlu düz deyir...

Balaca Nəcməddin ağladı. Dünya aldı Zərrintacdan uşağı:

— Acıb deyəsən... — dedi anası. Elə ordaca, Zərrintacın böyründə oturub əmizdirməyə başladı. Araya sükut çökdü. Heç kəs dinib-danışmırdı, sanki söz tapmırdılar. Halbuki danışmalı söz-söhbət çox idi. Bu ara başlarının üstdəki qəfəsdə saxlanılan bülbül oxudu. Nəcməddin üzünü Dünyaya tutub xəbər aldı:

— Onun qabına su tökübsən bu gün?

— Hə. Dən də tökmüşəm, su da.

— Onda kefinin köklüyündən oxuyur. — Sonra münasib məqam yetişdiyini duyub Nəcməddin sözü Elməddinin üstünə gətirdi: — Qaldı o biri qəfəsdəki bülbülümüz... — Belə deyib fikrə getdi. Zərrintac utanıb atasının üzünə baxmadı, ancaq Dünya xəbər aldı:

—Doğrudan, Elməddinin işi nə təhər oldu, Nəcmi?

Nəcməddin sədəf təsbehini çevirə-çevirə, ağır-ağır danışdı:

— Bu gün çox ora-bura qaçdım. Əvvəl Vəzarəte-daxiliyyəyə getdim, ağayi vəzirlə öz kabinetində görüşdüm. Sən demə, bilmirmiş ki, o mənim kürəkənimdi. Çox təəssüf elədi, ancaq bir kömək eləyə bilməyəcəyini söylədi. Sonra İstexbarat rəisinin yanına qaçdım, — o, ətraflı danışdı. Sən demə, çoxdan ağayi Rəhgüzər də, onun ruznaməsi də nəzarət altında imiş. Hər addımı izlənirmiş, ruznamənin hər nömrəsi zərrəbinlə yoxlanırmış. Yuxarılarda belə qərara gəliblərmiş ki, əsas məramı nədən ibarətdi. Bu biçarə də xəbərsiz işləyirmiş. Deyir, qırqovul başını kola soxur, amma quyruğundan xəbəri yoxdur. Daha demir ki, indi dovşanı araba ilə tuturlar. Ağayi rəis də bilmirmiş ki, Elməddin mənim qohumumdu. Təəccüb elədi, dedi, ay kişi, sən özün bizim adamsan, bizim hörmətli dostumuzsan — ancaq kürəkənin özgə dəynrmanına su tökürmüş. Bu o deməkdi ki, o elə sabah sənin özünü də yıxıb yerlə yeksan eləməyə hazırdı. Sən nə əcəb bunu başa düşməyibsən? Dedim, vallah, o, yaxşı oğlandı, yaxşı şairdi, rəssamdı. Yəqin onu təhrik eləyiblər, yoxsa onun baş nazirlə nə işi var axı? Dedi bizi onun şeri, rəsmi yox, bunların məfkurəsi maraqlandırır. Yoxsa, şükür allaha, məmləkətdə yüzlərlə şair var, onlarla rəssam var, bəs onları niyə həbs etmirik? Hə, soruşuram da, niyə tutmuruq? Demək, məsələ işin mahiyyətindədir.

Sözün qısası məni başa saldı ki, iş ondan asılı deyil. Anladım ki, əmr çözələnə-çözələnə yuxarılara gedib çıxır. Baş nazir ağayi Nur Əhməd ki Elməddin onun əksini çəkib külli-məmləkətdə biabır eləyib, onun əlindən zəncir çeynəyir. Düşündüm ki, onun yanına getməkdən bir şey çıxmayacaq. «Yüz imama yalvarınca bir allaha yalvar» məsəli yadıma düşdü. Dedim əlahəzrətin yanına gedəcəyəm. Getdim, əhvalatı danışdım. Sən demə, bilirmiş. Güldü. Əlini daz başına çəkib dedi: hə, nə deyirsən, deyirsən yəni bizim kökümüzə balta çalanı açıb buraxaq, bildiyini eləsin? Sən hara baxırsan, kişi? Düşmənin gəlib oturub ocağının başında ki?! Yavaş-yavaş ayağının altını eşir, yurduna su calamaq istəyir. Sən isə yatıbsan, kişi. Mən səni belə bilməzdim.

Səni qazdan ayıq hesab eləyirdim. Onların hamısını güllələtdirəcəyəm. Düzü, qorxdum, rəngim qaçdı. Dedim, cavandı, əlahəzrət, keç günahından. Bu dəfə keç günahından, cavandı, başa düşməyib felə gedib. Yoxsa o elə uşaq deyil, çox xahiş eləyirəm. Fikrə getdi, durub gəzindi, sonra dedi ki, qoy bir az burnu ovulsun, sonra buraxarlar. Dedim axı... Zərrintac xanım özünü öldürür...

Zərrintac onun sözünü kəsdi:

— Özümü öldürüb-eləmirəm. Niyə elə deyibsən, qibləgahım?

— Orda elə demək lazımdı, qızım.

— Lazım deyildi. Öz cəzasıdı, qoy çəksin...

Nəcməddin ona sarı çevrildi:

— Qızım, sən niyə belə olubsan axı? Elə danışırsan ki, guya Elməddin özgə adamdı? Axı o sənin ərindi, bala, evinin kişisidi, qızım.

— Mən elə kişini istəmirəm, qibləgahım. Elə bircə həbsxanalarda yatanımız əskik idi.

— Axı, bu izdivac sənin öz istəyinlə olub, zornan, hiyləynən olmayıb, bala. Axı mənim gözümdən tük də yayınmaz, görürdüm ki, sən onu istəyirsən. Onu görəndə necə də sevinirdin, özünü xoşbəxt hiss eləyirdin. Mən uşaq deyildim, bunların hamısını görürdüm axı mən? İndi nə olub ki, yazıq oğlan gözündən düşüb. Bəlkə arada elə şey var ki, biz bilmirik, deyə bilmirsən? Mənə demirsən, Dünya xanıma söylə. Axır ki, biz də biləkk!!

— Arada heç nə yoxdur, qibləgahım. Sadəcə, əvvəllər xoşum gəlirdi ondan, indi xoşum gəlmir. İndi başa düşürəm ki, qadın hər xoşu gələnə arvad olmağa razılıq verməməlidir.

— Tez qızan tez də soyuyar, buna deyiblər ha. Qəsdin məni bu boyda məmləkətdə biabır, rüsvay eləməkdi, nədi, bala? Axı mən bu xarabada iki-üç kişinin biriyəm, sən bunu başa düşürsən, ya düşmürsən? Sən gərək öz gözlərinlə Rəhgüzərin arvadı Məleykə xanımın ərinin tutulmaq xəbərini eşidəndə düşdüyü vəziyyəti görəydin. Görəydin ki, o arvad necə də ölüb ayaq üstə, necə göz yaşları tökür, necə özünü oda-közə vurub kişinin xilası üçün ora-bura qaçır, kağızlarını gizlədir. Gərək bunları sən öz gözlərinlə görəydin, onda sən— təzə gəlin öz cavan əri haqqında belə biganə-biganə oturub baxmağından bəlkə... — Nəcməddin «utanardın!» — demək istədi, ancaq sözünü uddu və bunu gizləmək üçün ayağa durdu.

Zərrintac isə qıçını-qıçının üstünə aşırıb:

— O, avamdı! — dedi.

Nəcməddin divanın qənşərində ayaq saxlayıb:

— Xeyr, qızım, — dedi, — o sadəcə olaraq sədaqətli qadındı, ərinin, uşaqlarının, nəhayət, öz taleyinin dərdini çəkməyi, sabahı fikirləşməyi bacaran qadındı. Onu avamlıqda günahlandırma, qızım. Əbəs yerə deməyiblər ki, əgər padşah arxasında dayanan sədaqətli ordu ilə basılmazdısa, əsl kişi də evində saxladığı, bir yastığa baş qoyduğu sədaqətli arvadı ilə məğlubedilməzdi. Bu hikmət əsrlərin, qərinələrin sınağından çıxıb gəlmiş bir hikmətdir, bala. O arvad ki Rəhgüzərin var, onu nə həbsxana, nə şahənşah özü sındıra bilməz. Çünki kişinin kürəyinə çox vaxt arxadan, öz evindən, arvadının vasitəsi ilə bıçaq saplayırlar, qızım. Məleykə xanım isə özü kişi kimi arvaddı, sənin düşündüyün kimi avam deyil. Və ümumiyyətlə bu uzun ömrümdə müşahidə elədiyim həqiqət budur ki, bizim zəmanədə mərdlik, sədaqət, dəyanət, təmizlik elə sənin avam hesab elədiyin o adamlarda qalıb, bala. Hiylə bilməzlər, məkr bilməzlər. Mən çox kübar ailələr tanıyıram, bunlarda kişi arvadı, arvad kişini, oğul atanı, qız ananı, ərini elə məharətlə aldadır ki, baxanda gözlərin təəccübdən kəllənə çıxır. Təmizlik, saflıq yoxdur bu ailələrdə. Onların hamısı bu və ya digər dərəcədə mənəvi çirkab içində yaşayırlar, yalan, hiylə içində yaşayırlar. Mən həmişə belə ailələrə nifrətlə baxmışam, qızım və öz ailəmin təmiz olması ilə həmişə fəxr eləmişəm, çünki bundan böyük dövlət, bundan böyük başucalıq yoxdu dünyada, qızım. Mən, sənin atan belə düşünürəm. — Ağayi Nəcməddinin söhbəti bura çatanda, bayaqdan gözlərini ərinin ağzına dikib diqqətlə, maraqla qulaq asan Dünya xanımın baxışları kişinin üzündən sürüşüb ayaqlarına düşdü və o, Nəcməddinin daha nələr dediyini eşitmədi, qulaqlarında onun «kişinin kürəyinə bıçağı çox vaxt arxadan, öz evindən, öz arvadının vasitəsilə saplayırlar, qızım», «öz ailəmin təmiz olması ilə həmişə fəxr eləmişəm, çünki bundan böyük dövlət, bundan böyük başucalıq yoxdu dünyada, qızım!» — sözləri hey təkrar olunurdu. Bu sözlər onun başına çəkic kimi dəyir, ürəyini əzirdi. Ona elə gəlirdi ki, Nəcməddin nə isə bilir, ancaq özünü o yerə qoymur, usta tərpənir «qızım sənə deyirəm, gəlinim sən eşit» yolu ilə Dünyanın bəd əməlini üzünə çırpır. «Aman allah, yəni həqiqətən bilir? Bilsə, mən məhv oldum. Yox, onu mən yaxşı tanıyıram, bilsəydi çoxdan divanməhkəmə qurmuşdu. Bəlkə nə isə hiss eləyir? Onun üçün də bir əsas verməmişəm. Yox, heç bir əsası yoxdur. Olmamalıdı, heç vaxt olmamalıdı. Bu qara qulla da qurtarmaq lazımdı. Onu daha yaxın buraxmaq olmaz, xatadı, başdan-ayağa xatadı. Bu, odla oynamaqdır. O mənə uşaq üçün lazım idi — indi uşağım da var, şükür allaha. Qoy

rədd olsun o yana. Amma it oğlu məni çox istəyir, o istəyin qarşısında dayana bilmirəm. Əli mənə toxunan kimi əsməcə tutur məni, hər şeyi — qorxunu da, ölümü də unuduram. Bir tilsimdi köpək oğlu, düşmüşəm, çıxa bilmirəm. Onun məsum uşaq kimi axıtdığı göz yaşlarını — mənim üçün axıdılan o göz yaşlarını görəndə özümü sonsuz dərəcədə xoşbəxt hiss eləyirəm, çünki mənim üçün heç kəs hələ indiyə kimi belə göz yaşları tökməyib, bəlkə sonra da heç kəs məni belə sevməyəcək, əzizləməyəcək. Qəribədi, hərdən arzulayıram ki, Əbdül yatsın, bir daha durmasın, bazara gedəndə maşın vursun onu. Hərdən istəyirəm zəhərləyəm Əbdülü, qoy gəbərsin — sirrimi özü ilə qəbrə aparsın, çünki bu dəhşətli sirrin yeganə şahidi odur, ancaq ürəyim qoymur. Haçansa o mənə lazım olacaq. İnsandı, o da yaşamaq istəyir, onun da ürəyi var. Aman Allah, özün kömək ol mənə, başımı itirmişəm...» Dünya xanım darıxmış, təntimiş halda ayağa duranda Nəcməddin ondan xəbər aldı:

— Düz demirəm, Dünya xanım?

Dünya Nəcməddinin sözlərinin kələfini çoxdan itirmişdi, bilmirdi, eşitmirdi o nə deyir; can qurtarmaq, ərinin zəhmli, nüfuzlu baxışlarından qaçmaq üçün:

— Elədi! — dedi. — Düzdü, tamamilə düzdü. — Və tələsik addımlarla aradan çıxıb otağa keçdi, beşikdə oyanıb qığıldayan körpəni götürüb bağrına basaraq öpməyə, oxşamağa başladı. Uşağı duz kimi yalayırdı, doymaq bilmirdi,

— Allah səni xata-baladan hifz eləsin, mənim balam! — deyirdi.

Eyvanda isə Nəcməddin qızına söyləyirdi:

— Beş-on gündən sonra Elməddini buraxacaqlar, bala. Ağlını yığ başına, əl-ələ verib dolanın. Mənim də çox ömrüm qalmayıb, bilirsən ki, mən səni nə qədər istəyirəm, sən mənim balalarımın gözüsən, qızım. Mənim arzum səni xoşbəxt görmək olub həmişə, gözümün işığı. Elməddindən də nə narazılığın varsa, mənə de, həll eləyim. O oğlan ağıllı oğlandı, onunla dil tapıb danışmaq olar. Təmiz uşaqdı, lotu-potu deyil, hələ korlanmayıb — hiylədən, məkrdən uzaqdı. Burunlama onu, evdən-eşikdən, özündən soyutma. Əvvələn bunu öz xoşbəxtliyin üçün eləməlisən. İkincisi də, mənim ad-sanımı nəzərə almalısan, qızım. Unutmamalısan ki, sən Həsənin, Hüseynin qızı yox, ağayi Nəcməddinin qızısan. Sənin üstündə mənim adım var, bala. Bu addan sən heç yana qaça bilməzsən. Danışdıq? Ümid edirəm ki, sən məni başa düşdün, eləmi? — Belə deyib o, qızının saçlarını

tumarladı, alnından öpdü. Zərrintac xanım ah çəkib atasını kədərləndirməmək üçün sifət dolusu gülümsündü.

DOQQUZUNCU FƏSİL

Əbdül dünən Dünya xanımın gizli və oğurluq vüsalından nə qədər xoşbəxt və məst idisə, üstündən cəmi bircə gün keçməmiş, bu gün, yarımca saat bundan əvvəl bir o qədər, bəlkə də ondan on qat çox bədbəxt və miskin olmuşdu. Elə bil, Dünya xanım bircə gecənin içində tamam dəyişmişdi, keçən günkü mehribançılığından, nəvazişindən, məhəbbətindən bir zərrə də qalmamışdı, şən, bəxtəvər o qadından əsər-əlamət qalmamışdı; sanki Əbdülün qabağında Dünya xanımın qiyafəsində, libasında olan, onu əsla tanımayan yad və şübhəli bir qadın dayanmışdı. Qaş-göz, saçlar, dodaqlar Dünya xanımın idi, amma ürək yox; Əbdül heyrət içində idi.

Bu gün səhər ağayi Nəcməddini yola salıb darvazanı möhkəm bağlayan Əbdül, aranı xəlvət görüb dünənki səadəti bir də, təzədən yaşamaq, ləzzət almaq üçün yuxarı qalxmaq istəyəndə Dünya xanım pilləkən başında, gözlənilmədən əlinin işarəsi ilə onu saxlayıb üstünə çımxırmışdı:

— Hara gəlirsən?

Əbdül əvvəl heç nə anlamayıb qanrılaraq arxaya, darvazaya baxıb:

— Ağa getdi... — dedi...

— Nə olsun, ağa getdi?

— Gəlirəm yanına...

— Yox! Gəlməyəcəksən!

— Niyə, xanım, başına dönüm?

— Mən istəmirəm, bildin? Mən istəmirəm, Sən bir daha heç vaxt yanıma gəlməyəcəksən, aç qulaqlarını, yaxşı-yaxşı eşit.

Əbdülün qol-qanadı sınıb yanına düşdü. Başı gicəlləndi, yıxılmamaq üçün əl atıb pilləkənin sürahisindən yapışdı, qəmli, dolmuş gözlərilə təəccüb içində yuxarıda heykəl kimi dayanmış Dünya xanıma baxdı. Dünyanın sifətində donuq, soyuq bir ifadə vardı: həmişə atəş saçan, nurlu gözlərində qəzəbqarışıq bir biganəlik əks olunurdu. Deyirdi:

— Elə hesab et ki, bizim aramızda heç nə olmayıb, elə say ki, bir şirin yuxu görmüşük — sən də, mən də. Ayılmışıq, başa düşmü-

şük ki, dünənə qədər gördüklərimizin hamısı şirin, təkrarolunmaz bir yuxu imiş, vəssalam. — Axı yuxu deyildi, xanım.

— Yox! Mən sənə deyirəm yuxu idi, denən yuxu idi! Tez ol, de ki, yuxu idi.

Əbdül Dünya xanımın hökmünə çoxdan bələd idi, özünü onun hökmünə çoxdan tabe eləmişdi. Odur ki, qeyri-ixtiyari onun sözlərini təkrar elədi.

— Hə, yuxu idi.

— İndi qulağından sırğa elə as: bir də mənim yanıma gəlməyəcəksən, mən yoxam sənin üçün, ölmüşəm, bildin?

— İraq candan, xanım...

— Bir də elə niyyətə düşsən, ağaya deyəcəyəm səni qovsun. Bilirsən ki, ağa səni iti qovan kimi qovar qapıdan. Əbdül məhz indi qorxuya düşdü. Neyləyə bilərdi?

— Yox, xanım, etmə elə, başına dönüm. Ona görə yox ki, burdan getsəm acından ölərəm, yox, xanım. İki əlim bir başımı saxlar. Ancaq səni görməsəm yaşaya bilmərəm. Heç olmasa səni görmək səadətini mənim əlimdən alma, yalvarıram sənə. Qoy ömrüm nə qədər var, sənin qapında qul olum, kölgə kimi yaşayım burda, ancaq təki səni görüm, gözlərim sənə baxsın. Məni yaşat, xanım, qurban olum. Hələ mən ağama da vəsiyyət eləyəcəyəm, öləndə məni burda, bu həyətdə basdırsın — yer altında da sənin ayaqlarının, özünün səsini eşidim, xanım.

Əbdül bu sözləri deyəndə göz yaşlarını saxlaya bilmədi, ağladı. Dünyanın ürəyinin başı soyuldu, göynədi. Bu günahsız, bu yazıq adamı belə rəhmsizcəsinə incitdiyi üçün peşmançılıq çəkdi, yumşaldı. Lakin onu içəri çağırmaqdan, yaşlı gözlərindən öpməkdən, ovundurmaq fikrindən özünü güclə saxladı və yenə amiranə bir səslə çımxırmaq istədisə də, bacarmadı, izah elədi:

— Mən qorxu içində yaşamaq istəmirəm, bu dəhşətdi. Mən sənsiz yaşaya bilərəm, ancaq onsuz yox. Mən səni istəyirəm, Əbdül, ancaq belə yaşamağa mənim haqqım yoxdu. Bilsə səni də tikə-tikə doğrar, məni də... Rüsvayçılıq olar. Mən isə yaşamaq istəyirəm, başa düşürsən, yaşamaq istəyirəm, körpəmi böyütmək istəyirəm, onu xoşbəxt görmək istəyirəm. Buna sən də etiraz eləməzsən, bilirəm. Burada ağılnan hərəkət etmək gərəkdi, Əbdül.

Əbdül onun yumşaldığını görüb bir az toxtadı, qorxaq, zəif bir səslə:

— Axı birdən-birə nə oldu xanım? — deyə xəbər alanda o, yenə döndü, səsini qaldırdı:

— Onun sənə dəxli yoxdu! Özüm bilərəm! Mən sənə nə deyirəm, onu da eləməlisən. Əgər istəyirsən ki, bu həyətdə yaşayasan, heç olmasa gündə iki-üç kərə məni görəsən, dediklərimə əməl eləməlisən. Vəssalam. Daha artıq-əskik danışma, mənim zəhləmi tökmə, narahat eləmə məni. Eşitdin? Mənim sözüm sənin üçün qanundu?

— Qanundu, xanım.

— Hə, indi get bazara, bazarlıq elə. — Və o, cəld bir hərəkətlə çönüb içəri girdi. Əbdül elə pilləkən üstündə donub qaldı. Nə edəcəyini bilmirdi. Dünya başına dolanırdı. Neçə dəqiqə belə halsız-hərəkətsiz qaldığını xatırlamırdı. Handan-hana taqətsiz halda aşağı endi, öz hücrəsinə qayıtdı, taxtın üstündə uzandı, uşaq kimi hönkürtü vurub ağladı. Dünən bu taxtın üstündə necə nəşə ilə uzanmışdı, necə xoşbəxt idi. Bu gün isə... Özünü dünyanın ən bədbəxt adamı sayırdı bu dəm. Neçə vaxt idi içi ləl-cavahirdən də qiymətli məhəbbət dolu, nəvaziş, bəxtəvərlik dolu bir xəzinə tapmışdı, gözü qamaşmışdı, dərd-sərini, təkliyini, nökərliyini unutmuşdu. Tanrısına şükür etmişdi ki, nəhayət, o da yadına düşmüşdü, o da insan olduğunu anlamışdı... Ancaq indi... Hər şey alt-üst oldu, xəzinəni əlindən aldılar, yenə tək, kimsəsiz qaldı və özünə də dedilər bu yuxu imiş, şirin bir yuxu. Külək hayandan əsdi? Nə oldu birdən-birə? Əbdül ha baş sındırdısa düyün açılmadı ki, açılmadı.

Düz bir saatdan sonra o, nəhayət özünə gəlib taleyi ilə barışaraq zənbilini götürüb taqətsiz addımlarla evdən çıxdı... Darvazanı çöldən bağladı... Hasarın tinini burulmaq istəyəndə qabaq-qənşər qonşunun darvazası açıldı, oğlanın maşını küçəyə çıxdı... Əbdül qeyri-iradi olaraq ayaq saxladı. Özünü hasarın tininə verib diqqət yetirdi. Kürən oğlan maşından düşdü, adəti üzrə siqnal verdi. Sonra Nəcməddinin eyvanına boylandı və əlini qulağına apardı, bəlkə də qulağını qaşıyırdı, ancaq Əbdülə elə gəldi ki, bu nə isə telefona işarədi. Kürən oğlan həyətə keçdi. Əbdülün ağlına gələn fikirdən ürəyi titrədi. Telefonla danışmağa getdi, oğlan!!! Demək belə... hər şey aydındı. Şiddətli bir arzu bütün vücudunu sardı — kaş onların danışığına qulaq asa biləydi, görəydi nə danışırlar onlar! Ancaq bu mümkün deyildi, bunun üçün o, qayıdıb geri qaçmalı, gizlicə eyvana çıxmalı, sinə-sinə yan otağa girməli, ikinci dəstəyi yavaşca götürüb yavaşca qulaq asmalı idi. Aman allah, bu nə böyük dəhşət olardı! Çatdıra bilməzdi Əbdül. Həm də Dünya duyuq düşə bilərdi. Bu an sidqi-ürəklə arzuladı ki, elə

burdaca Allah onun canını alsın. Bir də o etibarsız Dünyanın üzünə baxmasın. Ancaq ona heç nə olmadı. Eləcə divara söykənib dayandı. Birdən ona elə gəldi ki, Dünya xanım həqiqətən onun qanuni arvadıdı və s. Əbdülə xəyanət eləməyə başlayıb... Qanı qaynadı, əlləri əsdi. Qan tökmək, Dünyanı öz əllərilə boğub öldürmək istəyi bütün vücudunu sardı... «Öldürəcəm, ağaya da deyəcəyəm bax, bu xəyanətin üstündə öldürmüşəm. İstəyirsən sən də məni öldür — heç uf da demərəm. Öldür, əgər qeyrətin varsa... Demək belə. Torbada pişik varmış! Mən də çaşıb qalmışam ki, buna nə oldu birdən-birə, yuxusunu qarışdırdı-nədi, dünən elə, bu gün belə!!. Dünənki Dünya hara, bugünkü Dünya hara? Sən demə, təzə ay çıxıbmış, sən demə, köhnə ayın doğranıb ulduz edilməli vaxtı imiş! «Mən qorxu içində yaşamaq istəmirəm, bu dəhşətdi!» — yalandı, qorxan belə qələt eləməz... Bax, indi telefonla danışırlar, yəqin deyəcək ki, evdə heç kəs yoxdu, gəl. Bax indicə o kürən köpək oğlu evdən çıxıb bizim həyətə girəcək. Hə, görərsən, indicə gəlib girəcək. Bax, toy ondadı. Balta ilə ikisini də doğrayacağam. Yaxşı, Dünya, ver mənə bu əzabı, nə qədər bacarırsan ver bu cəhənnəm əzabını mənə. Yerdə qalmayacaq, bilirəm, gec-tez sən də öz cəzana çatacaqsan. Nəcməddinə nə var? O heç nə ağlına gətirmir, ona görə də asanca yaşayır. O yazıq sənə inanır, sənin hiylələrini, məkrlərini görmür, bilmir və rahatca yaşayır. Amma axı mən görürəm, bilirəm — dəhşətdi bunları görmək və bilmək!»

Əbdül hər şeyi unutmuşdu. Təkcə iki görən gözü qalmışdı bu saat. Onlar da darvaza ağzında dayanmış maşına zillənmişdi — indicə oğlan həyətə çıxacaq, indicə o yan-bu yana baxıb kimsənin olmadığını görüncə Dünya xanımın yanına gedəcək və onlar bir-birinə sarmaşacaqlar! İlahi, sən özün Əbdülə bu dəhşəti göstərmə!

Ancaq iş Əbdülün qorxu və nigarançılıq içində gözlədiyi kimi olmadı. Kürən çıxdı, heç yana baxmadan maşına minib uzaqlaşdı. Əbdül dərindən nəfəs aldı, elə bil, üstündən dağ götürüldü. Hələ deyəsən sevindi də. Zənnində yanıldığını düşünüb özünü xeyli danladı. «Heç dəxli var? Maşının siqnalını verdi, qulağını qaşıdı — bu da sözdü sən allah?! Yox, Dünya təmizdi, Dünya xəyanətdən uzaqdı. Mən ürəyimdəki bu iblisi — bu qısqanclıq iblisini qovlamalıyam...» — deyərək o, arxayın-arxayın bazara getdi. Bazarın yolu xeyli vardı. Daş körpüdən keçməli, sağa burulmalı, sonra bazara girməli idi. Bu yolu o qədər gedib-gəlmişdi ki, gözlərini bağlasaydın da gedərdi, qayıdardı. İndi də elə gözübağlı kimi addımlayırdı. Ətrafda, ayağının altında heç nə görmürdü, yaxınlığında kimsə səsləndi:

— Ay kişi, görürəm, müşkülə düşübsən, gəl falına baxım! Əbdül ayaq saxlayıb döyükdü. Körpünün cəhəngində, sol tərəfdə, çox da böyük olmayan söyüd ağacının altında bir qadın bardaş qurub oturmuşdu. Böyründə, elə torpağın üstündə beş-altı yaşlı qız uşağı yatmışdı — sağ əlini başının altına qoymuşdu. Milçəklər başı üzərində uçur, üz-gözünə qonur, sancırdısa da uşaq oyanmırdı. Çağıranın səsi kişi səsinə oxşadığından Əbdül çaşdı, nəzərləri ilə kişi axtardı. Ancaq o aralarda qadından başqa kimsənə yox idi. Yoluna düzəlib getmək istərkən həmin səs yenə eşidildi:

— Ay kişi, falına baxdırmaq istəmirsən? — Bu həmin qadın idi. — Gəl bəri, ayaq saxla. Peşman olmazsan, kişi.

Əbdül öz aləmində təəccüb elədi ki, qadında da belə səs olar? Lap elə bil kişidi. Və maraq onu yolundan elədi, burulub ağacın altına gəldi, qadına, uşağa diqqətlə baxdı. Qadın qırx beş-qırx altı yaşında ancaq olardı, üzü çopur idi, necə deyərlər, elə çopur idi ki, sifətinə bir ovuc darı atsaydın, bircəciyi də yerə düşməzdi. Amma uşaq elə gözəl idi ki, adam inanmaq istəməzdi ki, bu qəşəng qız belə qara, yöndəmsiz və çirkin arvadın uşağıdı, onun döşlərindən süd əmib. Qadının səsi hökmlü idi. «Otur, falına baxacağam!» — dedikdə Əbdül qəti etiraz eləmədi. «Qoy görək nə deyəcək?» — deyə arvadın qabağında çömbəltmə oturdu. Qadın dizinin altından bir dəstə kart çıxartdı, qarışdırdı və Əbdülün üzünə baxıb dedi:

— Görürəm, bir qadın səni müşkülə salıb, kişi! Əvvəlcə on rupini qoy ovcuma, sənə hər şeyi olduğu kimi deyim. Tez ol, yubanma indi müştərilər gələcəklər, yubanma.

Əbdül arvadın bir əfsunkar olduğunu zənn elədi. Xüsusilə onun «görürəm bir qadın səni müşkülə salıb!» — deməsi onu lap maraqlandırdı, bu cəhətə də fikir verdi ki, Əbdül onun sözlərini sözsüz-sovsuz yerinə yetirirdi. «Gəl» dedi, gəldi. «On rupi ver» — dedi, verdi.

— Hə, indi barmağınla kəs bu kartları. — Əbdül şəhadət barmağı ilə kartları ortadan ayırdı. — İndn o qadının şəklini də mənə təsvir elə. Necə qadındı? Boy-buxunu, rəngi... Onu da bil ki, düz deməsən fal düz çıxmayacaq. Yaxşısı budu düzünü de, kişi. — Əbdül ani fikrə getdi. Nəhayət, ürəyində tutduğu Dünya xanımın nəm-nişanını söylədi: Ortaboylu, cavan bir qadındı. Ənliksiz-kirşansız daha gözəl olur. İpək kimi yumşaq saçları var.

—Kifayətdi...

Sonra arvad kartları ayırmağa, seçməyə, bir-bir yerə düzə-düzə danışmağa başladı. Və soruşdu:

— Evlərindəki ağbaş kişi kimdi?

Əbdül o dəqiqə Nəcməddini gözünün qabağına gətirdi və təəccübdən cavab verməyi unutdu. Qadın təkrar xəbər aldı:

— O ağbaş kişi onun əridi?

— Hə!! — Əbdül qeyri-ixtiyari cavab verdi.

— Bir uşağı var o qadının. Onun üstündə çox əsir. Və başına gələn bütün işlər o uşağın üstündədir. İndi səninlə o qadının arası soyuqdu. İndi bərk qorxu içindədir, uşaq üçün, canı üçün çox qorxur.

Əbdül yenə qeyri-iradi dedi:

— Elədir.

— Arada bir adam da var.

— Adam da var?

— Hə. Ancaq onların arasında hələ heç nə olmayıb. O, səndən cavandı, qəşəngdi. Kürən bir oğlandı. Arvadın ondan xoşu gəlir, ürəyinə salıb, ancaq heç nə demir, ya qorxur, ya ürək eləmir. Eləcə susub durur. Axırınız yaxşı olacaq — heç sən təsəvvür eləmirsən necə yaxşı olacaq...

Arvad daha nə isə deyirdi, ancaq Əbdül daha eşitmirdi. «Kürən» sözü onun bütün varlığını alt-üst eləmişdi. Demək bu qadın hər şeyi- bilir, düzgün deyir. Arada kürən bir oğlan var. Həqiqətən də var — qonşunun oğludu bu... Bəli, Dünyanın ondan xoşu gəlir... Elə gözünün biri onların evindədi, darvazasındadı... Ay sənin, Dünya. — Əbdül arvadın yanından necə getmişdisə, necə bazarlıq eləmişdi demək olar ki, yadında deyildi. Xörəyi də necə bişirmişdi, xatırlamırdı. Bir onu bilirdi ki, arada kürən var, vəssəlam. Hər şey gözünə kürən rəngində görünürdü. Dünyaya qəlbində sonsuz, nəhayətsiz bir şübhə oyanmışdı. Falçı arvadın sözləri qulaqlarından çəkilib getmirdi. Özü isə dünya başına uçmuş kimi idi – key olmuşdu sanki, ürəyini parçalamışdılar sanki. Dünən dünyanın ən xoşbəxt adamı olan Əbdül bu gün bədbəxt bir adam idi…

* * *

Nəcməddin evə kec gəlmişdi. Neçə vaxt idi ki, Elməddin həbsxanada olduğundan bəzi ən mühüm işləri özü görməli olurdu və möhkəm yorulurdu, çox vədə çörək yeməyi də yaddan çıxarırdı. Bu gün də — Əbdülün kefinə əvvəlcə Dünyanın, sonra kürənin, daha sonra isə falçı arvadın soğan doğradığı gün də Nəcməddin evə naharsız qayıtmışdı. Dünyanın əhvalı yaxşı idi, deyib-gülürdü. Ancaq

Əbdül Nəcməddinin gözünə dəymirdi. Kişi yuyunub təmizlənmişdi, yemək istəyirdi. Süfrə isə hazır deyildi. Şam yeməyinin vaxtı idi.

— Bəs bu gədə hanı, Dünya xanım?

— Nə bilim, bu gün bazara gedəndə görənəm, ondan sonra buralara hərlənməyib.

Ağayi Nəcməddin eyvanın o başına getdi, Əbdülü harayladı:

— Əbdül, Əbdül!

Əbdülün hücrəsinin qapısı açıq idi, ancaq səs-səmir gəlmirdi.

— O beçə, hardasan?

— Bəlkə bir yerə gedib? — deyə Dünya ərinin yanına gəldi, böyründə dayanıb açıq qapıya sarı baxdı. Və düşündü ki, o, yəqin küsüb, ya da mənim sözlərimdən sonra özündə deyil. Səhərki vəziyyətini gözünün qabağına gətirib Əbdülün halına bir anlığa acıdı və sonra «əh, qoy cəhənnəm olsun, durub onun nazı ilə oynamayacağam ki!» — deyə düşündü. Nəcməddin qanrılıb arvadına baxdı:

— Xətrinə-zadına dəyməmisən ki?

— Yoox...

— Bəlkə ölüb, ya xəstələnib?

Nəcməddin aşağı endi, hücrəyə gəldi, əllərini qapının çərçivəsinə dirəyib içəri boylandı. Əbdül taxtın üstündə uzanmışdı. Üzüqoylu.

— Əbdül! — O, bərkdən qışqırdıqda, Əbdül dik atıldı, qıçlarını taxtdan sallayıb oturdu və gözlərini ovxaladı:

— Bəli, ağa?!

— Harda batmısan, o beçə? Bu nə vaxtın yatmağıdı, hə? Əbdül əzgin və taqətsiz halda qalxdı:

— Ağa, xəstəyəm, yaman xəstələnmişəm. Ölürəm lap.

— Ölməzsən, ölməzsən. Bizim yeməyimizi ver, sonra ölərsən!

Əbdül ağasının üzünə baxdı — qızarmışdı gözləri, ağlamışdı. Ancaq içəri alaqaranlıq olduğundan Nəcməddin bunu görə bilmədi: Əbdül onun ağappaq saçlarına baxdı. «Görəsən o falçı arvad hardan bildi ki, sənin saçların ağdı, ağa?!» Və Dünya ilə yaxın olduğu gündən bəri birinci dəfə bu cüssəli, zabitəli, eyni zamanda özünü çox ağıllı, üzaqgörən hesab eləyən Nəcməddinə – öz ağasına yazığı gəldi. Həqiqətən Dünya onu yazıq eləmişdi, əski parçası eləmişdi. Doğrudur, bunu hələ heç kəs bilmirdi, ancaq Əbdül ki bilirdi. Dünya indi onu da — Əbdülü də kiminsə gözündə yazıq eləmək, əski parçası eləmək istəyirdi. Yox, Əbdül öləcək, ancaq buna imkan verməyəcək. Sonra ani olaraq fikirləşdi ki, qadın xəyanət eləmək istəməsin, istəsə, sandıqda saxlasan da, istədiyini eləyə bilər. Belə qadının xəyanətinin

qarşısını almaq üçün yalnız bir yol var — o da ölümdü, ancaq ölümlə onu bu yoldan saqındırmaq olar!

— Gözlərini nə döyürsən, o beçə?! Tərpənsənə. Acından qarnım fit çalır. Tez ol, lap tez...

— Baş üstə, ağa.

— İçki də gətir. İçərik, kefimiz açılar!!!

Ağayi Nəcməddinin bu son sözləri Əbdülün lap ürəyindən oldu. Bayaqdan içmək, lap çox içmək istəyirdi ki, bəlkə dərdini unutsun — ona rahatlıq verməyən bu kürən əhvalatını unutsun. Çünki lap hövsələsiz olmuşdu. Çox qəribə idi ki, yalnız bu gün başa düşmüşdü ki, Dünyanı nə qədər sevirmiş, Dünya son dərəcə onun üçün əzizmiş. Və onu, təzə-tər çiçəyi kimsə, başqa bir adam (Nəcməddindən başqa) qoxlayarsa, onun ürəyi partlar. Yox, Əbdül bunu heç cür ağlına sığışdıra bilmirdi. «Yaxşı, mən sənin həyatında artığam, bəs o kimdi? O artıq olmayacaqmı? Axı... sənin nəyin əskikdi, Dünya?!» — deyə ildırım surəti ilə fikirləşirdi, düşünə-düşünə süfrə açırdı, xörək qızdırırdı.

O indi Dünya ilə bir miz arxasında oturub şam etməyin əzablı olacağını bilirdi. Payını götürüb öz hücrəsinə çəkilər, ancaq ağa yəqin ki, içkiyə görə buraxmayacaqdı. Belə də oldu. Əbdülün təkidinə baxmayaraq, Nəcməddin əl çəkmədi. Üçü də şam yeməyinə oturdular. Sözsüz-söhbətsiz oturub içirdilər. Nəcməddin ac olanda süfrə başında qəti danışmazdı — iştahla yeyərdi. Azca gözünün qurdunu öldürəndən sonra başını qaldırıb ətrafa baxar, yanındakılarla danışardı. Dünya isə ac oldu, tox oldu, fərqi yoxdu – ya danışardı, ya da gülümsünərdi. Bu gün xüsusi həvəslə yeyirdi, şad idi ki, Əbdülü başa salmışdı, rahatlanmışdı, Əbdülün onun səhərki sözlərindən sonra haldan-hala düşməsi, ölüb-dirilməsi, xəstələnməsi Dünyaya bir tərəfdən ləzzət verirdisə, o biri tərəfdən əzab verirdi. Onun qəmli gözlərinə, az qala bükülmüş belinə baxanda Dünya xanımı gülmək tuturdu. Adəti idi, bəzən o, belə şeylərdən qəribə — hətta özünün də təəccüb elədiyi bir nəşə duyurdu. «Qoy əzab çəksin, qoy həsrət çəksin, qoy şirin olum bir az da, qoy darıxsın mənim üçün bir az da. Yox, çox sevir məni, çox sevir. Qoy sevsin, sevilməkdən şirin şey yoxdu dünyada. Bu, hətta ömürdən də qiymətlidir. Sevgisiz, məhəbbətsiz ömür, işığı sönmüş bir xanimana bənzər, adamın ürəyinin gözü kor olar. Sən də qəribə adamsan, Əbdül. Mən nə deyirəm inanırsan; «Sevmirəm» deyirəm, inanırsan. Sən mənim dilimə fikir vermə, gözlərimə bax, Əbdül. Dilim ayrı şey deyə bilər, ancaq gözlərim yox. Açığı, səni incitməkdən ləzzət alıram. Sən uşaq kimi safsan, təmizsən, sadəlövh-

sən. Yüz incidirəm, bir xoşbəxt eləyirəm səni. Məgər bu pisdi? Belə olmasa sən mənim qədrimi bilməzsən. Məndən tez doyarsan, bezərsən. Mən istəmirəm sən məndən doyasan, bezəsən. Mən istəyirəm ki, sən həmişə nigaran yaşayasan, nigaran qalasan ki, mən səni sevirəm, ya yox?! Arxayın olmayasan, onda qudurarsan. Çünki mən bilirəm ki, kişilər qudurğan olur, sevdiyini bildimi, qurtardı — səni daha o qədər sevməyəcək. Elə deyəsən qadınlar da belədir, mən də beləyəm. Səndə nə isə bir sehr var, Əbdül, maqnit var, cazibə var, — ha əlləşirəm bu sehrdən, bu əfsundan qurtara bilmirəm. Bəlkə heç sən özün də anlamırsan ki, necə qüdrətlisən məhəbbətdə, necə şirinsən, necə incəsən — sən çirkab içində bir şahzadə balasısan ki, heç kəsin bundan xəbəri yoxdu. Mənim bu az ömrümdə gördüyüm iki kişidən birincisisən. İnanmıram ki, səndən sonra sənin kimi bir kişi görə bilim, Əbdül. Heç istəmirəm də. Lazım da deyil. Mən səndən başqa heç kəsin olmayacağam, səni də heç kəsə verməyəcəyəm, Əbdül...».

Yeyə-yeyə Dünyanın ürəyi, beyni beləcə danışırdı, elə bil indi onun, Dünyanın içərisində tamam ayrı bir adam oturmuşdu, bütün varlığı, hissiyyatı ilə Əbdülü başa düşən, qiymətləndirən, onu sevən bir adam. Bəli, indi o danışırdı, səssiz-səmirsiz, Dünya da qulaq asırdı, çünki qulaq asmaqdan başqa çarəsi yox idi, mübahisə edə bilməzdi, səsini qaldırıb ucadan etiraz eləyə bilməzdi Dünya. Dünya bu ikiləşməyə özü də heyrət eləyirdi. Səhər dediyi sözlərlə indi içərisindən gələn ikinci səsin söylədiklərinin daban-dabana zidd olduğunu hiss etməmək mümkün deyildi. «Tilsimə düşmüşəm, ilahi, özün kömək ol!» Qabağında oturub iştahsız çörək yeyən, ancaq tez-tez piyaləsini boşaldan Əbdül başını qaldırıb bayaqdan bir kərə də olsa Dünyanın üzünə baxmamışdı. Son dərəcə ağır, dözülməz dərdi olan adamlar kimi tez-tez köks ötürür, dalbadal içirdi. İncimişdimi? Küsmüşdümü? Dünya bilmirdi. Ancaq Əbdül əslində Dünyadan yox, öz bəxtindən, taleyindən incimişdi. Bütün ömrü boyu zillətdə, möhnətdə, sıxıntı içində, nəşədən, fərəhdən uzaq yaşamış ona bircə dəfə, tək bircə dəfə gözqamaşdırıcı, məstedici bir səadət vermişdi taleyi, indi isə geri alırdı — doymamış, dərk etməmiş. Bax, bu hiss onu sıxıb əzirdi, öldürürdü, balacalaşdırırdı. Nə Nəcməddin, nə Dünya onu indiyə qədər belə içən görməmişdi. Dünya səbəbini bilirdi, ancaq Nəcməddin bir şey anlamırdı:

— Sənə nə olub, ay uşaq, arağı su kimi içirsən?—deyə bir-iki dəfə soruşmuşdusa da, düz-ağıllı bir cavab almamışdı. Əbdül «heçç» deyib elə içmişdi. Dünya xanım çox istəyirdi ki, Əbdül tək bircə dəfə

ona baxsın, tək bircə dəfə. Onda Dünya ona işarə eləyərdi ki, bəsdi, içmə. Dodaqlarını azca tərpətməklə «öpürəm səni», deyərdi, uzun kirpiklərini endirməklə «mən sənin!» — söylərdi. Ancaq Əbdül inada düşmüşdü, ya nə idisə, Dünyaya heç baxmaq da istəmirdi. Elə bil o burda yox idi.

...Deyirlər, vaxtsız-vədəsiz məhəbbət oda bənzər, hara düşsə, yandırıb kül elər. Dünyanın məhəbbəti də Əbdülün ürəyinə birdən, gözlənilmədən, vaxtsız-vədəsiz gəlmişdi, ona görə də yandırırdı onu, özü də tək onu yox, Dünyanı da, Nəcməddini də, bu topdağıtmaz xanimanı da. Bu alov gözə görünmürdü, içəridə başlanmışdı hələ, közərə-közərə alışırdı, alışdıqca körüklənir, körükləndikcə şölələnirdi — onun körükbasanı qısqanclıq idi. Sən demə, yalanmış ki, çox sevən, möhkəm sevən qısqanmaz, lap ağ yalanmış. Əbdüldən soruşsaydılar o belə deyərdi. Deyərdi ki, ancaq sevməyənlər qısqana bilməzlər. Əsl sevənlər isə, sevdiyini, özü də Dünya xanım kimi gözəl, qənirsiz sevgilisini yad nəzərlərə qısqana bilər, şəhvətlə baxan xain gözlərə qısqana bilər, bədənnüma güzgülərə qısqana bilər, hətta öz-özünə qısqana bilər. Xüsusilə də ki, sənin sevdiyin o mələikə başıaşağı olmaya, deyib-danışmağı xoşlaya, son dərəcə işvəli-nazlı ola, bəlkə çox vaxt özü də düşünmədən başqalarını özünə cəlb etməkdən gizli bir zövq ala, elə rəftar edə ki, qarşısındakı kişi o qadının ondan xoşu gəldiyini düşünə, fikirləşə ki, beləsinin vüsalına qovuşmaq, ələ gətirmək asan olar. Bax bu, həmin qadının, nə qədər ağıllı, nə qədər möhkəm və təmiz olsa da bədbəxtliyidi — gec-tez o, özünün bu xasiyyətinin odunda yanmalıdır, külə dönməlidir. Cəmiyyətdə, şəhərdə, ailədə belə qadınlar haqqında yaman söhbətlər yaranır, tez yayılır; halbuki bu danışan adamların heç biri onu kiminləsə bir yataqda görməyib, tutmayıb — amma gözü ilə görmüş kimi danışır, sırf çılpaq həqiqət kimi danışır. Və beləliklə o, əfkar — ümuminin nəzərində vəfasız, etibarsız bir qadın kimi tanınır. Onun ən böyük, bir də heç vaxt düzələ bilməyəcək faciəsi burdan başlanır. O, təmiz olduğunu, fərz edən, ərinə, yaxud məşuquna xəyanət eləmədiyini, belə fikrə heç vaxt düşmədiyini necə deyərlər, qurandan don geysə də sübut eləyə bilməz. Belələrinin bu cür rəftarın, açıq-saçıq olmağın, belə oturub-durmağın nöqsan olduğunu bir dost kimi izah eləyib başa salmaq istəyənlərə də bərk qəzəbi tutur, acıqlanır, çımxırır, «mənə ağıl öyrətmə» deyir və həmin adamın acığına bir az da dərinə gedir, əvvəllər guya zarafat eləyir, sonra... sonra bir vaxt ayılır ki, ilişib, bataqlığın

içində çapalayır, əl-qol atır — ancaq daha gecdi, xilas olmağa ümid yoxdu.

Əbdül içə-içə bu məsələlər barəsində düşünürdü. Qəribə idi ki, bunları heç kəsdən eşitməmişdi indiyəcən, özünün ağlına gəlirdi. Bu neçə müddəti Dünya onun üçün böyük bir məktəb olmuşdu elə bil. Dünya çox da böyük olmayan bu həyətdə ona əsrarəngiz, təzadlı, qəmli-sevincli, ölümlü-itimli dünyanın çox hikmətlərini, sirlərini mühazirəsiz, yazı-pozusuz başa salmış, anlatmışdı. Dünya burada onun üçün həyatın mənası, fəlsəfəsi, gözəlliyi və puçluğu barədə danışan bir müəllim olmuşdu, müdrik bir müəllim. Dünya ona anlatmışdı ki, məhəbbət nədi, həsrət nədi, Dünya ona anlatmışdı ki, Nəcməddin kimi bir adama — ərə xəyanəti necə eləmək olar, bu cah-calallı evə sahib olmaq üçün necə övlad sahibi olmaq olar, nəhayət, Dünya ona anlatmışdı ki, qadın ürəyi necə də anlaşılmaz, baş açılmaz bir varlıqdır — mehr, məhəbbətlə yanaşı burada necə də məkrlə hiylə başbaşa verib yatır, hərdən biri oyanır. Məhəbbət oyananda o, sənə munis olur, sevir, əzizləyir, səndən heç nəyini əsirgəmir, «sən kişilərin ən gözəli, ən qüdrətlisisən!», «ölüncə səninəm» — deyir, səni bəxtəvər eləyir, güclü, qadir eləyir, elə bilirsən yer üzünün allahı sənsən; məkr və hiylə baş qaldıranda... isə gözdən düşürsən, ölürsən, balacalaşırsan, çirkinləşirsən; məkr və hiylə baş qaldıranda… sənin sevdiyin, tanrı hesab elədiyin o qadın sənin rəqibini görmək üçün siqnal səsinə eyvana çıxır, telefonla danışır. Telefonla danışır? Əbdülün fikri telefon söhbəti yadına düşəndə qırıldı, o yenə miskinləşdi, yumağa döndü. Nə vaxtsa o kürən oğlanın maşının çirkli şüşəsi üstünə yazdığı qoşa nömrə gəldi yadına düşdü, Dünya doğum evinə gedərkən ona göz qırpması, nəhayət, bu gün oğlanın əlini qulağına aparıb içəri qaçması yadına düşdü, sonra isə falçı arvadın sözlərini xatırladı... Və birdən-birə məst oldu Əbdül. Sanki bayaqdan içdiyi araq indi beyninə çatdı, indi onun fikirlərinin nizamını pozdu və o, sərxoşluğunun qəribə bir anında əlində heç bir sübutu-filanı olmasa da, bütün bunların həqiqət olduğuna; Dünya ilə kürən oğlanın arasında nə isə gizli bir münasibətin yaranmaq üzrə olduğuna inandı, elə inandı ki, sanki hər şey onun yanında baş vermişdi. Və qəribə idi ki, ürəyində Dünyaya bəslədiyi məhəbbət — o gözəl duyğular birdən-birə öldü, solub-saraldı, yerində sonsuz bir nifrət peyda oldu. Bu nifrət çox güclü idi, əvvəllər olan məhəbbətdən də güclü idi. İndi Əbdül ona — öz Dünyasına, bu qədər səadət və xoşbəxtlik bəxş edən insana rəhm etmək hissindən çox-çox uzaq idi. Bax, bu andaca dərk elədi ki, nif-

rət də, məhəbbət kimi adamı küclü edə bilər; fərq bundadı ki, məhəbbət insanı incələşdirir, şairləşdirir, zərifləşdirir, ancaq nifrət kobud, rəhmsiz edir səni, qatilə, cəllada döndərir səni... Sən özünü tanıya bilmirsən, tamam başqa bir adam olursan və kənardan özünə baxa bilsən, ancaq təəccüb və heyrət eləyərsən...

Əbdülün əzab içində qovrulan ürəyində intiqam hissi alovlanırdı. Yavaş-yavaş, közərə-közərə. Dünyanı öldürmək onun üçün su içmək kimi bir şeydi bu an. Asan görünürdü, çox asan — çünki nifrət onun gözlərini tutmuşdu. Ancaq beyninin, ürəyinin harasındasa qalıb kök salmış bir hiss ona pıçıldayırdı ki, Dünyanın qatili ola bilməzsən, sənin ona çırtma vurmağa belə əlin qalxmaz. Çünkn sən onu sevibsən, o sənə əziz olub, hətta bu qədər «xəyanətdən» sonra da o sənə yenə əzizdi, doğmadı... Yox, onu sən öldürə bilməzsən, bacarmazsan. — Bu anda ağayi Nəcməddinin səsi onun fikrini yarımçıq qoydu:

— Yenə içək, Əbdül?

Əbdül başını qaldırıb ağasının üzünə baxdı:

— İ...çək... — dedi qırıq-qırıq və Nəcməddin gördü ki, Əbdülün gözlərindən səssiz-səmirsiz yaş axır. Heç nə demədi, soruşmadı, ancaq barmağını dişlədi. Axı o, Əbdüllə çox içmişdi, əvvəllər o içəndə şən olurdu, deyib-gülürdü, oynayırdı, indi isə ağlayır. Yox, Əbdülün başında nə isə var. Nəcməddin ani fikrə gedib qəti qərar çıxardı — bəli, hökmən torbada pişik var.

Dünya bayaqdan bəri Əbdülün arağı, viskini su kimi içdiyini görəndən sonra səsi batmışdı, fürsət axtarmışdı ona işarə eləsin ki, daha içməsin, ancaq belə imkan tapa bilməmişdi. Ona görə axırda çarəsiz qalıb işə qarışmağı lazım bildi:

— Ta bəsdi, iki şüşə içibsiz. Əbdül, dur yığışdır. — Əbdül yenə başını qaldırmadı, tərpənmədi də.

— Yox, içəcəyik, Dünya. Hər dəqiqə adamın belə dəmi gəlmir.

— Bəsdi dedim! — Dünya amiranə bir səslə söylədikdə Nəcməddin onun sözünə əhəmiyyət vermədi, əl atıb ikinci şüşənin dibində qalan viskini də piyaləyə süzdü və öz-özünə danışırmış kimi söylədi, — içəcəyik, Dünya, içəcəyik dünya beşgünlükdü, içəcəyik, Dünya.

Nəcməddinin Dünyanın sözünü saya salmaması Əbdülə ləzzət verdi və ürəyində düşündü ki, daha özünə çox da qürrələnmə, Dünya xanım, sənin ən böyük nöqsanın çox hökmlü olmağındadı. Elə bilirsən ki, sənin sözün həmişə qanun olmalıdı, beyninə nə batdısa, nə dedinsə, elə bilirsən düzdü-doğrudu? Heç kəsi eşitmək istəmirsən,

haqq sözə də qulaq asmırsan. Sən nə qədər hökmlü olsan da, ağayi Nəcməddinin qabağında gücsüzsən, Dünya. Mənə baxma, mən qulam-nökərəm, sənin qulunam, ürəyimin quluyam, məni tapdaya bilərsən, ayaqlarının altına sala bilərsən, ancaq onu yox. Görürsən, daha o da sənə itaət eləmək istəmir, sən öz hökmranlığını yavaş-yavaş itirirsən, hələ çox itirəcəksən, Dünya. Hələ belə getsə, özünü də itirəcəksən, Dünya... — Və onun yadına düşdü ki, çox-çox qabaqlar, bu gizli sevdanın başladığı günlərin birində — Dünya xanım artıq evin xanımı yox, Əbdülün gizli məşuqəsi, Əbdül isə bu evin nökəri deyil, Dünya xanımın sevgilisi, özü də şirii sevgilisi olan vaxtların xoş saatında onların arasında belə bir söhbət olmuşdu:

Dünya xanım Əbdülün qolları arasında vüsal şərbətini içib məst olandan sonra soruşmuşdu:

— Məni çox sevirsən, Əbdül?

Əbdül onun gözlərini, dodaqlarını, buxağını isti, hərarətli öpüşlərə qərq edə-edə cavab vermişdi:

— Mənim sənə olan sevgim bəyana gəlməz, gülüm. Səni tapandan sonra mən ancaq sənə səcdə eləyirəm, mehribanım.

Sən mənim ulu tanrım olubsan, ay mənim doyulmazım. Sən mənim bütümsən, səcdəgahımsan. Ağam hərdən deyirdi, gəl səni evləndirim, düzü az qalmışdım razılıq verəm. Ancaq, indi yox... İstəmirəm, səndən başqa heç kəs lazım deyil mənə!

— Mənə də səndən başqa kimsə lazım deyil. Mən dünyanın ləzzətini, nəşəsini səndə görmüşəm, əzizim. Sən mənim üçün bu dünya malından da artıqsan, şirinsən. Mən qoymaram evlənəsən, öldürərəm səni, diri-diri boğaram, bax, öz əllərimlə. Buna da gücüm çatmasa qovaram səni buradan. Gedərsən, qalarsan mənsiz. Qala bilərsən?

— Yox, bir gün də qala bilmərəm. Sən məni burda elə həbs eləməyibsən ki, burdan bir də çıxmaq fikrinə düşəm...

— Elə deməyimə baxma, mən də qala bilmərəm sənsiz.

— Sənin hər cövrünə, hər əzabına dözərəm, şirinim. Hər acığına dözərəm, bircə dəfə də şikayət etmərəm, bezdim demərəm... Döy məni, söy məni, ətimi tikə-tikə doğra, sənin üçün ixtiyarsız yaş tökən mən indiyəcən bilmirdim ağlaya da bilərəm. Gözlərimi çıxart, incimərəm, uf demərəm... Ancaq...

— Ancaq nə?

— Heç...

— Yox deyəcəksən. Ancaq nə?

Əbdül haradansa ağlına gələn fikri udmaq istədi, ancaq Dünya əl çəkmədi, dirəndi.

— Deməsən, küsəcəyəm səndən.

—…

— Hə, ancaq nə?

Əbdül məcbur olub söylədi:

—Tək bircə... xəyanət eləsən mənə... Bax, onda... Dünya güldü:

— Bax onda... Onda nə olar?

— Onda səndən küsərəm, yox, küsmərəm, onda səni öldürərəm.

— Ürəyin gələr?

—…

— Xəbər alıram, məni öldürməyə ürəyin gələr?! Əbdül xeyli susub sonra cavab vermişdi:

— Eləsən, hə... Mən qulam, qulun intiqamı isə yaman olur... Ancaq, düzü, mən bunu elə-belə deyirəm, biləsən, məni tanıyasan... Əslində isə, heç ağlıma gətirmirəm ki, sənin kimi ağıllı bir qadın elə axmaq bir iş görə bilər nə vaxtsa. Yox, heç ağlıma gətirmirəm. Bu cür məhəbbətdən sonra, bu cür qaynayıb-qarışmaqdan sonra, iki canda bir ürək olandan sonra elə şey dünyasında ola bilməz... Elə deyil, qurban olum?

— Elədi, elədi. Mənə nə lazımdı? Mənə gözəl gün-güzəran lazımdı, varımdı. Mənə kişi lazımdı, varımdı.

— Kimdi o kişi?

— Sən!

— Bəs o? — deyə Əbdül ağayi Nəcməddinin divardan asılmış və onlara baxan iri şəklinə işarə eləmişdi— Bəs o?

— Eh, o elə-belə... Rəsmiyyət üçün... O kişi deyil ki... Onun adı kişidi, onun adı lazımdı bizə.

— Onu çox istəyirsən, məni?

— Səni. Üzdə onu, ürəyimdə səni... O qonaqdı bu evdə...

— Niyə? Kişi öz evində qonaqdı?

— Hə, qoca kişidi, bir il, iki il, uzaq başı beş il ömrü qalıb... Sonra... sonra, ölüb gedəcək... Qalacağıq biz üçümüz...

— Üçümüz?

— Hə də... Sən, mən, bir də o...

— O kimdi?

— Körpəmiz... Qorxusuz-ürküsüz yaşayacağıq...

Körpə sözünü eşidəndə Əbdül o qədər sevinmişdi ki, gözləri yaşarmışdı... Təzədən onun boyun-boğazını öpüşlərə qərq eləmişdi...

Vaxt keçib dolanmışdı, körpə «gəlmişdi», «qonaq» isə hələ getməmişdi. Üstəlik körpə dünyaya gələndən sonra, Dünya xanım dönüb dəyişmişdi, Əbdülə kəmiltifat olmuşdu. Bunun səbəbi, Əbdülün, fikrincə ancaq o kürən idi. İlk vaxtlar Əbdülün bu qısqanc fikirlər beyninə batanda neçə dəfə Dünyaya işarə eləmək istəmişdi, bu fikirdən daşındırmaq istəmişdi, ancaq ehtiyat eləmişdi, susmuşdu. Hətta bir dəfə... «Beynində ilan-qurbağa dolaşır!» — deyə işarə etmişdisə də, Dünya xanım heç nə başa düşməmişdi... Və ümumiyyətlə Dünya onun sözlərini dinləmək istəmirdi son vaxtlar, zəhərləyirdi onu..

İndisə belə bir gərgin vəziyyət yaranmışdı. Bunun axırı necə olacaqdı, hələ təyin eləmək çətindi.

Lakin bu içki məclisi kələfin ucunu bu günə qədər şad-xürrəm yaşayan, heç nədən şübhələnməyən, qocalıq məhəbbətinin şirin nemətləri ilə nəfəs alan Nəcməddinin əlinə verdi və o ayıldı... Ağlına gələn dəhşətli fikir onu silkələdi, titrətdi; o, bircə anın içində deyəsən qəflət yuxusunda olduğunu anlayıb ürəyində inildədi, məst-məst dönüb Dünyaya baxdı, üzündən-gözündən bir şey oxumağa çalışdı, ancaq görünür, Dünya daha usta tərpəndi, özünü tox tutdu, daha doğrusu, bu iki kişinin ürəyindən xəbəri olmayan Dünya adi vəziyyətində idi.

Sonuncu badəni Nəcməddin qaldırdı:

— Bunu da içək bizim Dünyamızın sağlığına, Əbdül. Əbdülün əli badəyə uzanmadı.

— Götür, içək, Əbdül.

Əbdül götürdü və ağasının piyaləsinə vurmadan başına çəkdi. Heç nə demədi. Yenə də...

Nəcməddin tədbirli adam idi, səbirli idi. «Olan olub, keçən keçib. Asta tərpənib usta iş görmək lazımdı...» — deyə qərara aldı və ayağa durdu. Əbdül də qalxanda səndirlədi, az qaldı yıxılsın, ancaq əlini atıb stolun qırağına söykəndi.

Dünya qəzəbli halda dedi:

—Sənə demədim bu qədər içmə?! Canın çıxar, indi bu süfrəni beləcə yıxıla-yıxıla yığışdırarsan... Bir dənə qabı sındırsan, başını sındıracağam — fırlanıb içəri keçdi.

Əbdül valaylaya-valaylaya süfrəyə baxdı, ağzını marçıldatdı, nə isə donquldandı. Nəcməddin:

— Əşi, qoy qalsın, səhər yığışdırarsan... İt yox, pişik yox. Get yat... Gedə biləcəksən?..

— Hara?

— Yatmağa...

— Elə burda yataram.

— Yox, dur səni aparım...

Nəcməddin qoluna girdi, pilləkənləri ehmalca bir-birindən tuta-tuta düşdülər... hücrəyə sarı yan aldılar...

— Sənə nə olub, Əbdül?

— Mənə heç nə, ağam. Nə olub, sənə olub!

— Necə? — xeyli sükutdan, özünü ələ alandan sonra Nəcməddin soruşdu və zənnində yanılmadığını anladı, bunu da anladı ki, bu nökərdən nə çəkə bilsə indi çəkə biləcək, çünki özündə deyil, özünü-sözünü bilmir, ürəyindəkini deyəcək...

— Axı necə, Əbdül? — təkrar, soyuqqanlıqla soruşdu... — Açıq de, qorxma.

— Mən... heç kəsdən... qorxmuram.

— Niyə də qorxasan... Biz ağa-nökər deyilik, biz dostuq qardaşıq...

— E...lə...di... Sən... yaxşı adamsan, ağa, ancaq yazıq adamsan...

— Niyə?

— Sənin işin olmasın... Mən özüm öldürəcəyəm...

— Kimi, Əbdül?..

— Kürəni də... Dünyanı da...

Nəcməddin susdu... Aydındı... hər şey aydındı... «Bəs bu kürən kimdi?» — beynində dolanan bu sual cavabsız qaldığından soruşdu:

— Kürən kimdi?

— O da, o köpək oğlu, — əlini qonşu tərəfə uzatdı... « — Əvvəl telefonu öldürəcəyəm, ağa... Çünki birinci telefon günahkardır...

Əbdülün elə bil ürəyi boşaldı, dərdini deyib yüngülləşdi və yerdə uzanmaq istəyəndə Nəcməddin onu tutub hücrəsinə sürüdü, leş kimi taxtın üstünə atdı...

Çıxıb bayırda heykəl kimi dayandı... Beynində hər şey qarışmış, dünyası alt-üst olmuşdu...

DÖRDÜNCÜ HİSSƏ

BİRİNCİ FƏSİL

Gecəyarıdan keçmişdi, günortadan sonra lapar-lapar yağmağa başlayan qar hələ də kəsməmişdi, həyət-bacalara, küçələrə, damların üstünə bir qarışdan çox yumşaq qar örtüyü çəkilmişdi, şəhəri hündür hasar kimi dövrəyə almış dağlar göydə uçuşan qar ləçəklərinin arxasında görünməz olmuş, bəyaz göylərə qarışmışdı. Külək yox idi, sakit, mülayim, qarlı qış gecəsi idi, şəhər axşamdan ölü sükutuna qərq olmuşdu və bu sükut getdikcə dərinləşir, vahiməli olurdu.

Məhəmməd Şəfinin, pəncərəsi gündoğana baxan iş otağından işıq gəlirdi. Bu evin təmtərağını görən, Şəfili günlərinin şahidi olan adamlar ilk baxışda belə güman edə bilərdi ki, şair yenə arvad-uşağı, yatandan sonra öz otğına çəkilib yazıb-yaradır. Ancaq təəssüf ki, bu belə deyildi, Şəfi evdə yox idi, Şəfi o gedən getmişdi, haçan qayıdacaqdı və ümumiyyətlə qayıdacaqdımı — kimsəyə məlum deyildə. İndi qar naxışlı pəncərədən içəri boylanan olsaydı, Şəfinin stolunu Şəfisiz görərdi, ancaq bunu da görərdi ki, onun vəfalı ömür-gün yoldaşı Məleykə xanım əllərini qoynuna qoyaraq məlul-məlul oturub divanın üstündə, kədər dolu gözlərini Şəfinin sahibsiz stoluna zilləyərək qəm dəryasına qərq olub. Otağı Şəfi necə qoyub getmişdisə, eləcə idi. Polisin murdar nəfəsi dəyəndən sonra Məleykə otağı ağlaya-ağlaya yenə əvvəlki səliqə-sahmana salmış, silib təmizləmiş, onların eşib alt-üst elədiyi kağız-kuğuzu, kitabları yerbəyer eləmişdi. Neçə gün özünə gələ bilməyən Məleykə bu otağa ayaq basmağa cürət eləməmişdi, uşaqları da ora girməyə qoymamışdı. Ancaq özü neçə dəfə çaşmış, qeyri-iradi olaraq Şəfinin içməyə adət etdiyi kəkotu çayı dəmləmiş, çayniki, piyaləni, şəkəri güllü siniyə qoyaraq ərinin otağına gətirmiş, yalnız qapı ağzında onun yoxluğunu xatırlayıb ah çəkərək geri qayıtmışdı. Və bu hadisədən sonra saatlarla özünə gəlməmişdi, ürəyi hövl eləmiş, ancaq uşaqların yanında ağlayıb onların ürəyini qana döndərməkdən özünü saxlamış, içində sızlamışdı.

Şəfini aparandan sonra bu ev, bu həyət suyu sovulmuş dəyirmana bənzəməyə başlamışdı: gələn-gedənin sayı çox azalmışdı, şer məclisləri susmuşdu, bəzən səhərə qədər davam eləyən gizli yığın-

caqlar qapanmışdı. Sən demə, Şəfinin başına yığışırmış hamı, sən demə, Şəfi imiş onları bura çəkib gətirən. Şəfi yox idi, gəlib-gedən də yox idi. Həmişə qonaq-qaraya qulluq eləməyə adət etmiş və bundan xüsusi bir zövq duyan Məleykə özü də o məclislər, o yığıncaqlar üçün darıxmışdı. Lakin bu ötəri bir dərd idi; onun əsl dərdi, ürəyini köz kimi yandıran böyük dərdi Şəfinin dərdi idi. Onun indi həbsxanalar küncündə, sement döşəmələr üstündə yatan vaxtı deyildi. Həm səhhəti beş il, on il bundan qabaqkı deyildi, həm də indi onun ən yaxşı işləyən, yazıb-yaradan vaxtı idi. Şəfi son vaxtlar ömrün kənclik illərinin ötüb-keçdiyini hiss edərək daha çox və daha böyük həvəslə yazıb-yaradırdı; şöhrətinin zirvəsində idi və camaat, oxucular tərəfindən daha böyük məhəbbətlə sevildiyini, şairlər şairi adlandığını görüb daim bir qürur hissilə gülümsünür və yerə-göyə sığışmırdı. Məleykə həssas bir qadın ürəyi ilə bu sevinci duyur və qeyri-iradi olaraq fərəh dənizində üzürdü. Şəfinin el-oba arasında nüfuzu çoxaldıqca o, ərinin qüdrətinə, ölümsüzlüyünə, əzəmətinə qəlbən inanır və onu, ilk gənclik çağlarında olan kimi, isti, ilıq bir məhəbbətlə sevir, uşaq kimi qulluğunda durur, yeməyinə-içməyinə, yatıb-durmağına, istirahətinə fikir verirdi. Şəfi isə Məleykənin bu fədakarlığını çox qiymətləndirirdi, onu evin böyüyü — anası sanır, bəzən uşaq təki arvadının nazı ilə oynayırdı. Təmiz, ülvi bir məhəbbət, qarşılıqlı anlaşma əsasında qurulmuş bu ailənin səadətini kimsə pozmağa qadir görünmürdü bu hadisəyəcən. Şəfi də, Məleykə də o günə qədər belə düşünmüşdü. Bəli, heç kəsin qüdrəti çatmaz ki, Şəfi kimi sevimli bir sənətkarın, Məleykə kimi təmiz bir qadının ailə xoşbəxtliyini poza bilsin, alt-üst eləsin... Ancaq hadisələr göstərirdi ki, hər ikisi yanılırmış, varmış belə bir qüvvə. Sən demə, polis libası geymiş, bəlkə heç düz-ağıllı savadı da olmayan, öz xalqını, torpağını tanıyıb sevməyən iki-üç nizami libaslı adam Şəfinin qüdrətindən də, şöhrətindən də güclü imiş, ixtiyar sahibi imiş. Gördünmü o adamlar Şəfinin qollarına necə də qandal salıb bağlı maşına mindirdilər, apardılar? Bəli, apardılar... Demək, sən o boyda şöhrətinlə, əzəmətinlə, kiminsə qabağında aciz imişsən, zəif imişsən, Şəfi! Bax bunu görməmişdi, duymamışdı Şəfi. Bax bunu hiss eləməmişdi Məleykə. Məleykə indi, gecəyarıdan keçəndən sonra divanda dizlərini qucaqlayıb bu məsələləri düşünürdü və bu qarlı qış gecəsində Şəfinin vəziyyətini təsəvvür etməyə çalışırdı. Şəfi yəqin indi yatmayıb. Belə qarlı qış gecələrində o, adətən çox kec yatardı. Ya işlərdi, ya da bax bu pəncərənin qabağında dayanıb bəyaz don geymiş həyət-bacaya, ağaclara tamaşa eləyərdi. Məleykə

fikir vermişdi; o, bir yazda — çöl-çəmən, təbiət oyanan vaxt, bir də qışda — təbiət yaşıl libasını ağ libasla əzəz eləyəndə daha çox şairləşirdi, uşaqlaşırdı. Məleykə bunun belə hallarını çox görmüşdü.

İki aydı aparmışdılar. Görüş verməmişdilər. Deyəsən, hələ belə fikirləri də yox idi. Məleykə daxili işlər nazirliyinə müraciət etmişdisə də, bir nəticə hasil olmamışdı. Sonra isə iki-üç dəfə Ziyaülhəqq onlara gəlmiş, Şəfinin sağ-salamat olduğunu, tezliklə görüş alacaqlarını demiş, ailənin nəyə ehtiyacı olub-olmadığını soruşmuşdu, beş min pul qoyub getmişdi. «Şəfidən sarı heç nigaran olmayın, Məleykə bacı!».. — Ziyaülhəqqin bu son sözləri Məleykənin qəlbini ümidlə doldurmuşdu, arvadın qəmli gözləri təbəssümlə işıqlanmışdı.

İndi də, hardansa Ziyaülhəqqin bu sözləri gəlib yadına düşdü və yenə qəlbində ümid çırağı yandı...

Elə bu vaxt yataq otağından ağlamaq səsi gəldi. Uşaqlardan kimsə ağlayırdı. Məleykənin fikirləri pərən-pərən oldu və o, tələsik yan otağa qaçdı. İşığı yandıranda kiçik qızı Jalənin yerinin içində oturub əlinin arxası ilə gözünü ovuşdura-ovuşdura ağladığını gördü, özünü onun üstünə atdı...

— Niyə ağlayırsan, başına dönüm?

— İhi, ihi...

— Nə olub sənə, axı...

— Qibləgahımı istəyirəm... İhi, ihi... Qibləgahımı... Məleykə alt paltarda olan qızını bağrına basıb ovundurmağa çalışdı.

— Ağlama, qızım, qibləgahın... qar əriyən kimi gələcək, qurban olum, ağlama.

Jalə hıçqıra-hıçqıra:

— Qar haçan əriyəcək bəs? — deyə soruşdu.

— Hələ bu gün yağmağa başlayıb, can bala. Gün çıxan kimi əriyəcək, quzum.

— Denən gün tez çıxsın, qar tez ərisin...

— Yaxşı, yaxşı, can bala, deyərəm. Sən yat... Jalə azca kiriyib gözlərini ovuşdurdu:

— Axı qibləgahımın burnu qanamışdı... Dərman qoydun?

— Qibləgahının burnu qanamışdı?..

— Hə.

— Sən yəqin yuxu görübsən, qızım. Qan görübsən yuxuda, hə?

— Hə.

— Yaxşı yuxudu, can bala. Qan qovuşuqdu — deyirlər. Qibləgahın tez gələcək. Sən yat, yuxun şirin olsun, qurban olum,

Ana uşağı elə qucağında yırğalamağa başladı. Jalə uzunkirpikli gözlərini yumdu. Məleykə onun qırmızı yanaqlarında qurumuş yaşı əlinin içi ilə sildi. Jaləni təzədən yuxu apardı. Ancaq durub öz yerində uzanan Məleykənin gözlərinə yuxu getmədi. Qan... Şəfini qan içində gördü nə isə... canında bir üşütmə gəzdi. «Yəqin kişinin başında bir iş var. Yəqin döyürlər onu, incidirlər onu. Aman allah, özün onu bu cəlladların əlindən, zülmündən hifz elə!,.» — deyə düşündü Məleykə və yorğan-döşəyin içində qar altında qalmış adam kimi büzüşüb üşüdü.

İKİNCİ FƏSİL

Yaxşılıq itmirmiş — düz imiş. Elməddinin öz sürücüsü Əhədulla ilə xoş, mehriban münasibəti səkkiz-doqquz uşaq atası olan, kasıb güzəran keçirən, balalarını pendir-çörəklə güclə dolandıran Əhədullanın ürəyində, taleyində silinməz iz buraxmışdı və ona elə gəlmişdi ki, heç bir qohum-əqrəbası, yaxını-simsarı olmayan bu qatmaqarışıq şəhərdə özünə bir qardaş tapıb, arxa tapıb. Həyatda o qədər çətinliklər və pis adamlar görmüşdü ki, Elməddinə rast gələndə, onun insani rəftarını görəndə əvvəl inanmaq istəməmişdi, «yəqin bu da bir kələkdi» — deyə düşünmüşdü, çünki iyirmi il yaşadığı, dolaşdığı bir mühitdə böyükdən-kiçiyə hamının bir-birini aldatmaq, pulunu, son tikəsini əlindən almaq istədiyinin dəfələrlə şahidi olmuşdu. Varlı da, yoxsul da gözdən tük qapmağa, yumurtadan yun qırxmağa çalışırdı — varlı daha dövlətli olmaq üçün, yoxsul azca da olsa güzəranını yaxşılaşdırmaq üçün... Ancaq Elməddin belə deyildi: Əhədulla onun rəftarına, işinə, ürəyinə baxanda sanırdı ki, o bu şəhərə ya göydən gəlib, ya tamam başqa bir aləmdən. O, Əhədulla ilə bir insan kimi davranır, dərdləşir, məsləhətləşirdi, yeri gələndə öz sürücüsünün həyatı ilə maraqlanır, lazım olanda ona əl də tuturdu. Bu, Əhədullanın o qədər xoşuna gəlmişdi ki, indi özünü bu böyük şəhərdə tək, kimsəsiz hesab eləmirdi, arxalı sayırdı. Evdə arvadının, uşaqlarının yanında o qədər Elməddindən danışmışdı ki, hamısı onu əziz adamları sayırdı. Üzünü görmədikləri adamın adını «əmi» deyə yad edirdilər. Arvadı isə Elməddinin adını çəkəndə yanına bir «qardaş» kəlməsi də əlavə eləyirdi. O, demək olar ki, qiyabi surətdə hələ bircə dəfə də ayaq basmadığı bu evin, bu ailənin hörmətli bir üzvü olmuşdu. Qızlar Elməddinin alıb göndərdiyi parçadan paltar tikdirib geyəndə «Bunu mənə Elməddin əmi alıb!» — deyə öyünürdülər və Əhədulla

uşaqlarının — indiyə qədər təzə parçadan paltar geyməmiş qızlarının sevincini görüb qəlbində ona dua eləyir, «dünyada yaxşı adamlar da varmış, —deyirdi. — Mən ömrüm boyu, son nəfəsimə qədər sənin bu yaxşılığını yadımdan çıxartmaram, ağa!».

Ancaq Əhədullanın xoş günləri uzun sürmədi: Elməddini həbs elədilər. Bu xəbəri eşidəndə o, yamanca sarsıldı. Qulaqlarına inanmaq istəmədi, «ola bilməz!» — dedi. Həmin sözü Elməddinin arvadı — Zərrintac da söyləyəndə onun inanmaqdan özgə çarəsi qalmadı. Uşaqları, arvadı isə bu xəbəri lap matəm kimi qarşıladılar. Üstlərinə su çilənmiş kimi boyda-boyda bir-birinin yanına düzülüb məyus halda başlarını aşağı saldılar.

Bax, bu zaman Əhədulla özünü bu böyük və qatmaqarışıq şəhərdə yenə kimsəsiz hesab elədi və dərd onun belini bükdü. Səbəbini anlaya bilmirdi. Bilmirdi ki, Elməddini nəyin üstündə həbs ediblər. Ancaq idarədə xidmətçilərdən biri onu başa saldı: «Baş vəzirin karikaturasını çəkib ruznamədə. Ona görə...» Əhədulla üzdə bir söz deməsə də, ürəyində «əcəb eləyib?» — dedi və Elməddinə bəslədiyi rəğbət hissi daha da artdı.

Lakin Əhədulla Zərrintac xanımla bu barədə söhbət eləyəndə xeyli məyus oldu. Kişi gördü ki, Zərrintac xanım bu xəbərdən o qədər də pərişan deyil, üz-közündə də elə bir dəyişiklik filan yoxdu. Ağlamırdı, sıtqamırdı. Elə bil heç onun ərini həbs eləməmişdilər — o, harasa getmişdi, bir azdan yenə sağ-salamat qayıdıb gələcəkdi. Bu, Əhədullanı çox təəccübləndirdi. Gərək indi o — Zərrintac xanım saçbirçəyini yolaydı, şivən qoparaydı, özünün də əlindən bir iş gəlməsəydi, atası ağayi Nəcməddini məcbur edəydi ki, nə olur-olsun, nəyin bahasına olur-olsun, Elməddini buraxdırsın. Axı onlar təzə evləniblər, yenicə ailə qurublar! Yox, bunların heç birinin əsər-əlamətini görmürdü Əhədulla Zərrintacda! Və öz aləmində düşünürdü ki, heyf o oğlandan ki, düşüb bu qızın əlinə. Qədrini bilmir deyəsən. Gül kimi insandı Elməddin. Çıraqla axtarsan tapmazsan. Eh, bir də bu zənginlər kimin, nəyin qədrini bilirlər ki, Elməddinin də qədrini bilsinlər?! Onlar hər şeyi pulla, var-dövlətlə ölçürlər — varın-dövlətin var, insansan. Yoxdu, heç!!!

Əhədullanın əvvəllər də Zərrintacdan xoşu gəlməzdi. Açıq-saçıq, maşına minib belədən-belə gəzən, ancaq özünü düşünən bir qız kimi tanımışdı onu. «Beləsindən ev arvadı olmaz» — demişdi özözünə. Ağasının Zərrintacla evlənmək xəbərini eşidəndə və nəhayət, bu işin baş tutduğunu görəndə qəlbində heyfsilənmişdi, ancaq heç

kəsə açıb-ağartmamışdı. «Mən kiməm ki?» — deyə susub durmuşdu. İndi, Elməddin həbsxanaya düşəndən sonra, o yanılmadığını aydın görürdü. Bütün bunlara baxmayaraq, Əhədulla bu ailəyə can-dildən qulluq eləyirdi, Elməddinin xətrinə!

Elə o ağır xəbəri eşitdiyi günün səhərisi Əhədulla öz evində böyük qızı Siminbərə üz tutub demişdi:

— Dur geyin, hazırlaş gedək, qızım?

— Hara, ay kişi? — deyə qızdan əvvəl arvadı Fatimə dillənmişdi.

— Elməddin əmisigilə. Kişini aparıblar, gəlin tək qalıb. Yenə qulaq yoldaşı olar, evdə-eşikdə əl tutar. Yazıqdı. — Fatimə azca fikirləşib:

— Hə, yaxşı məsləhətdi, kişi. Qız, hazırlaş... — söyləmişdi.

Siminbər bu təklifi çox böyük sevinclə qəbul etmişdi. Balaca deyildi, artıq on altı yaşın içində idi. İndiyə qədər dağın ətəyində yerləşmiş palçıq daxmadan — qonum-qonşunu çıxmaq şərtilə, heç yana ayaq basmamışdı, şəhəri görməmişdi. Artıq həddi-büluğa çatmaq üzrə olan bu ağıllı və işgüzar qız üçün dünya indiyə qədər palçıq evdən ibarət olmuşdu. Halbuki, yoxsullar, tavansızlar yaşayan bu kiçik məhəllədən də başqa gözəl, işıqlı, maşınlı, çilçıraqlı, müzəyyən evlər, yaxşı bəzənib-düzənmiş, geyinib-kecinmiş insanlarla dolu başqa bir dünya da vardı və bu dünya nağıl kimi maraqlı, tamaşalı idi yəqin. Hələ milyoner qızı Zərrintacın ev-eşiyi, həyət-bacası...

Siminbər yeganə təmiz paltarını geyinmiş, əvvəlcə anasının, sonra bir-birindən balaca bacılarının, nəhayət körpə qardaşı Vətənyarın üzündən öpmüş və atasının dalınca həyətdən çıxanda bacılarının ağladığını görüb ayaq saxlamışdı.

— Həmişəlik ketmirəm ki... Elməddin əmi gələn kimi qayıdacağam, — demişdi.

Bağçada nar ağacının altında dayanmış Zərrintac Əhədullanın yanında solğunbənizli, ancaq irisümüklü qızı görəndə maraqla baxmışdı: qız başını endirməklə ipək xalat geyinmiş xanıma salam vermiş və sonra gözlərini ondan çəkmək istəmişdisə də, bacarmamışdı. Zərrintac xanım qızı təpədən dırnağa süzərək:

— Bu qız kimdi, Əhədulla? Nə qəşəng qızdı? — deyə xəbər alanda Əhədulla bir addım da irəli yeriyib demişdi;

— Sizin nökərinizdi, xanım. Bəndənin böyük qızıdı — Siminbərdi.

— Nədi adı?

— Siminbər.

— Yaxşı addı — və sonra ürəyindən kinayə ilə keçirmişdi: «Kasıb itinin adını gümüş qoyar — buna deyiblər! Ancaq yaraşır bu ad ölmüşə!»

— Xanım, uşağı gətirdim ki, sizə qulaq yoldaşı olsun. Tək darıxmayasınız. Elməddin ağa gələnəcən, əgər icazə versəniz, yanınızda qalar, sizə ev işlərində kömək eləyər!..

Zərrintac xanım ani fikrə getdi. Nə isə düşündü və sonra razılıq hissilə dilləndi:

— Əcəb eləmisiniz, nə olar, qoy qalsın...

Xanımın razılıq verməsi hər ikisinin — atanın da, balasının da sevincinə səbəb oldu. Çünki Əhədulla ehtiyat edirdi ki, Zərrintac xanım uzun müddət atasının evində tək yaşayıb və təkliyə öyrəşib. Ola bilərdi ki, desin — lazım deyil. Bir insan kimi Əhədulla düşünürdü ki, bununla ilk növbədə Elməddinin qarşısında öz borcunu yerinə yetirmiş olar, həm də qızı — gözünün ilk ovu, ilk ciyərparası Siminbər beş-on gün, bəlkə də bir-iki ay öz balaca, məhdud dünyasından çıxıb, işıqlı aləmə baxar, bir şey görüb-götürər.

Zərrintac xanım, Əhədulla çıxıb gedəndən sonra Siminbərin əlindən tutdu, əvvəlcə həyət-bacanı gəzdirdi, bağ-bağçada dolaşdırdı. Siminbər elə bil behiştə düşmüşdü. Onların evinin həyəti qayalıq olduğundan bircə dənə də nəinki ağac, heç kol da bitmirdi. İndi birdənbirə gül kolları, nar ağacları, söyüd, çinar əkilmiş bağça qızın gözlərini qamaşdırdı. Hər koldan, hər ağacdan bir cür ətir gəlirdi. hər ağacın bir cür meyvəsi vardı. Siminbər heyran-heyran gəzir, tamaşa eləyirdi.

— Hə, necədi, bağçamız xoşuna gəlir, Siminbər xanım?

Siminbər qulaqlarına inanmadı. Ona Zərrintac xanım, milyoner Nəcməddinin qızı, Elməddin əminin arvadı «xanım!» — deyirdi. Ona heç kəs indiyəcən xanım deyə müraciət eləməmişdi. Atası, anası onu bir kimsəyə təqdim eləyəndə «nökərinizdi» — demişdi. İndi birdənbirə «xanım»... O, bu sözü eşitdiyinə görə birinci növbədə atasına, sonra isə Zərrintac xanıma qarşı ürəyində minnətdarlıq hissi duydu və fərəh içində:

— Bəli, xanım, çox gözəldi bağçanız, —dedi. —Lap cənnətdi.

Zərrintac qayğısız-qayğısız güldü:

— Cənnət? Elə danışırsan ki, guya cənnəti görübsən? Cənnət də, cəhənnəm də bu dünyadadı, Siminbər xanım. Yalan şeydi ki, o dünyada da cənnət var, nə bilim nə var. Bu, avam, aciz adamların

uydurmasıdı. Yadında birdəfəlik saxla, cənnət də, cəhənnəm də bu dünyadadı.

Siminbər əvvəl elə başa düşdü ki, Zərrintac xanım özünün həyatını nəzərdə tutur belə deməklə. Güzəranı doğrudan da cənnətdi onun. Əri tutulduğuna görə yəqin əzab çəkir — onun üçün də cəhənnəmi də bu dünyada hesab eləyir... Ancaq çox keçməmiş, Zərrintacı deyib-gülən görüb bu fikrində yanıldığını anladı. Yox, Zərrintac Elməddin əmisinin tutulmasının fikrini çəkən qadına oxşamırdı. Buna görə də qəlbində onu yüngülcə, öz uşaq ağlınca, məzəmmət elədi.

— Nə bilim, anam nağıl danışanda deyir ki, o dünyada bir cənnət var, bir də cəhənnəm. Mən də onun üçün...

— Yalan şeydi. İnsan cənnətini də, cəhənnəmini də bu dünyada görür. Hə, indi çıxaq yuxarı.

Onlar evə keçdilər. Otaqları bir-bir gəzdilər və bağ-bağça Siminbərin yadından silinib getdi. Qız gəbələri, par-par parıldayan mebeli, pianonu, divarlardan asılmış bahalı şəkilləri görüb hayıl-mayıl olmuşdu. Sanki yuxudaydı və ayılmağa qorxurdu. Gözlərini açarsa, göz-könül oxşayan bu cah-calalın harasa qeyb olacağından ehtiyat eləyirdi qızcığaz. Bütün otaqları gəzib-dolaşandan sonra Siminbər Zərrintac xanımın sözlərindəki həqiqəti tamam çılpaqlığı ilə dərk etdi, öz yoxsul hücrələrini gözünün önünə gətirib bu imarətlə fikrən müqayisə eləyəndən sonra öz-özünə pıçıldadı ki, xanım doğru deyir, cənnət-cəhənnəm elə bu dünyadadı. Cənnət Zərrintac xanımın evieşiyi, bağ-bağçası, güzəranıdı, cəhənnəm isə —onun yaşadığı hücrədədi, ehtiyacdadı, yavan pendir-çörəkdədi. Bəli, burdadı, bu dünyadadı cənnət-cəhənnəm, onları başqa yerdə axtarmaq lazım deyil.

Siminbər iş-kücü, səliqəsi, bacarığı, ən ümdəsi isə başa düşən olması ilə ilk gündən Zərrintacın xoşuna gəldi, onu qız bütün ev qayğılarından azad elədi. Aralarında tez bir zamanda mehriban bir ünsiyyət yarandı. Yeddi-səkkiz yaş böyük olan Zərrintac xanım Siminbəri heç də uşaq hesab eləmirdi, çünki qız özü diribaş, çoxbilmiş və «şeytan» idi, hər şeylə maraqlanır, xanımına cürbəcür suallar verir, cavabları ilə təzə gəlini heyran qoyurdu. Vaxtlı-vaxtında yaxşı, dadlı xörəklər (bazarlığı Əhədulla eləyirdi) yediyi üçün tez bir zamanda kökəlmiş, bəyaz yanağına bir qızartı çökmüş, qıvraqlaşmışdı. Atası onun burada gününün xoş keçdiyini görüb sevinirdi.

Günlər keçdikcə Siminbər Zərrintaca daha çox isinişirdi, xanım da heç nədə onun xətrinə dəymirdi. Ancaq qız qiyabən çox istədiyi, hələ üzünü görmədiyi Elməddindən bu evdə heç söz-söhbət düşmə-

diyini görüb ürəyində heyfsilənir, ərlə-arvadın münasibəti onu maraqlandırırdı:

— Yəqin Elməddin ağadan ötrü darıxırsınız, xanım, hə?—deyə bir dəfə Zərrintac xanımı tutqun görüb marağını boğa bilməyərək soruşanda Zərrintac xanım kinayəli bir təbəssümlə cavab verdi:

— Yox! Heç darıxmıram.

— Heç elə şey olar, xanım? Təzə evlənibsiz... Qibləgahım həmişə deyir ki, ağayi Elməddin çox yaxşı adamdı. Elə adamdan ötrü siz darıxmırsınız?!

— Sənə qəribə görünür? — O, ani fikrə gedib davam etdi. — Doğrusu, bu mənim özümə də qəribə görünur, Simin.

— Niyə ki, xanım?

— Bilmirəm. Əvvəllər, hələ evlənməmiş, o bizə gəlib-gedərdi. Vurulmuşdum ona, heç özünün də xəbəri olmadan vurulmuşdum. Bizə gec gələndə darıxırdım, dayana bilmirdim, onu görmək istəyirdim. Sən görməmisən ki, onu?

— Yox.

— Bilirsən, boylu-buxunlu, qədd-qamətli oğlandı. Sir-sifətdən də qəşəngdi. Qibləgahım deyir ki, yaxşı da şairdi — mən onun şairliyindən bir şey qanmıram, doğrusu. Hə. Ancaq...

— O da səni istəyirdimi?

— Hə, mənə elə gəlirdi ki, istəyir. Ancaq görünür, mən aldanmışam, Simin. Siminbər təəccüblə:

— Niyə, xanım? — deyə xəbər aldı tələsik,

— O başqasını sevir... — Zərrintac ah çəkdi.

— Başqasını sevir?

— Hə. Hələ kənddə olanda başqasını sevirmiş, o qızı qardaşı alıb, buna qismət olmayıb, sonra qardaşı ölüb, həmin qızı buna veriblər, lakin «qardaşımın arvadıdı» — deyib yaşamayıb onunla. O da evdən çıxıb gedib...

— Hara?

— Bilən yoxdu. Bəlkə də özünü öldürüb?

— Vay, vay! Yazıq! — Tanımadığı, görmədiyi o nakam qızın taleyi təmizürəkli, hələ zamanın qara ləkə vurub yaralamadığı ürəyində dərin bir təəssüf hissi oyatdı və o az qaldı ağlasın. Ancaq bunun xanımının acığına kələcəyini düşünüb özünü ələ aldı, köks ötürüb söylədi:

— Bu səndən qabaq olmuş əhvalatdı, xanım. Onun sizin məhəbbətə nə dəxli var ki...

— Eh, hələ sən uşaqsan, Simin... Məhəbbətin nə demək olduğunu bilmirsən, ona görə belə deyirsən. Bu hadisənin mənim məhəbbətimə dəxli olmazdı, əgər Elməddinin məhəbbətinə dəxli olmasaydı...

Siminbər bu sözlərdən bir şey başa düşmədiyinə görə mat-mat Zərrintac xanımın üzünə baxıb susdu, o isə izah elədi:

— İş burasındadır ki, üstündən neçə il keçməsinə baxmayaraq Elməddin yenə o qızı sevir, Simin.

— Yenə sevir?

— Hə, sevir.

— Özü deyir?

— Yox, — o gülümsündü. — Belə şeyləri dillə demirlər, Simin.

— Bəs necə deyirlər?

Zərrintac yenə fikrə getdi. Ürəyini haçandan bəri didib parçalayan, atasına, Dünya xanıma demədiyi sirrini — bilirdi ki, Dünyaya desə, o da məsələni açıb atasına söyləyəcəkdi, — indi Siminbərə açmaq fikrindən vaz keçmək istədi, lakin fikirləşdi ki, bəlkə qəlbi bir az yüngülləşər. Ona görə danışdı:

— Elə zifaf gecəsi... Bilirsən zifaf gecəsi nədi?

— Yox, xanım, nədi ki?

— Zifaf gecəsi... ərlə-arvadın ilk dəfə bar yastığa baş qoyduğu gecəyə deyirlər.

— Hə, bildim.

— Bəli, elə həmin gecə Elməddin yamanca çaşdı... Məni bağrına basıb özündə olmadığı halda «sənə qurban olum, Əfsanə!» — dedi... Düzü, mən onda ona heç nə demədim, ancaq o gecə mənim bütün qürurumu qırdı, ona bəslədiyim bütün hisslərimi öldürdü, — heç özü də bilmədən öldürdü, məni məhv elədi.

— Demək, onun əvvəlki sevgilisinin adı Əfsanə imiş!..

— Hə.

— Bədbəxtin yaxşı adı varmış, Əfsanə... Sonralar yenə çaşıb sənə Əfsanə deyirdi?..

— Hərdən-birdən... Yuxuda. Məni qucaqlayıb onun adını çağırardı. Bundan başqa, tez-tez o qızın şəklini də çəkərdi. İşlədiyi vərəqlərin üstünə çəkərdi. Mənə şerlər yazırdı, ancaq bilirdim ki, o şerləri mənə yox, Əfsanəyə yazır... — O yenə dərindən ah çəkdi, gözlərini bir nöqtəyə zilləyib xeyli susdu. Həyatında ilk dəfə belə söhbətə düşən Siminbər, Zərrintacın bir qadın kimi dərdinin böyük olduğunu anlasa da, təsəlli verə biləcək sözlər tapıb deməkdə acizlik çəkdi.

Beləcə xeyli sükut hökm sürdü arada. Sonra, Zərrintac dərdli-dərdli dedi:

— Məhəbbət gərək bütöv olsun, Simin. Sənin həyatın hələ qabaqdadı, sən də kimisə sevə bilərsən, kiminsə arvadı ola bilərsən. Çalış sevəcəyin adamın ürəyi tək sənin olsun, ürəyində tək sən olasan. Belə olmasa, ləl-cavahirat içində yaşasan da, səadətin olmayacaq. Məhəbbət və ürək parçalanmağı sevmir. Parçalandımı — dalınca çox fəlakətlər gətirir, Simin. Xəyanət də, etibarsızlıq da.

ÜÇÜNCÜ FƏSİL

Buxarı gurhagur yanırdı. Üst-üstə qalanmış daş kömür parçaları nazik, şəffaf alov dilləri altında qızıl külçəsi kimi par-par parıldayıb qızarırdı. Buxarının yanları da qızarmışdı. Əziz xan sol tərəfdə, Bəbir sağ tərəfdə yumşaq kresloda əyləşmişdi. Bayaqdan heç biri danışmırdı. Əziz xanın sur təsbehinin aramsız şıqqıltısından başqa otağın sakitliyini heç nə xələldar eləmirdi. Bəbir əlində tutduğu güllü piyalədən qurtum-qurtum çay içir, iri gözlərini qızarmış buxarıya zilləyib düşünürdü. Aradakı darıxdırıcı sükutu Əziz xan pozdu:

— Nə yaman fikirlisən, oğul? Nə olub belə? Bəbir boş piyaləni böyründəki kətilin üstündə olan siniyə qoyub:

— Heç! — dedi.

— Yox, oğul, görürəm, vəziyyətin neçə vaxtdan bəri yaxşı deyil. Ordusu əsir düşmüş sərkərdəyə oxşayırsan.

Bəbir təəccüblə atasının üzünə baxdı: o, Bəbirin düşdüyü vəziyyəti qocaman bir hərbçi kimi necə də dəqiq ifadə elədi bir cümlə ilə. Doğrudan da Bəbirin indiki halı eynilə belə idi, atasının dediyi kimi. Onun ən yaxşı, bacarıqlı, iş görən «əskərləri» düşmən əlində idi: Məhəmməd Şəfi Rəhgüzər, Elməddin, Şeyx Əhməd indi artıq neçə müddətdi ki, həbsxanada idi. Təşkilatın danışan dili olan qəzet susmuşdu. Bəbirin səsi heç kimə çatmırdı. Halbuki indi daha cəsarətlə, daha qətiyyətlə iş görmək — hücum etmək, kütlələri silahlandırmaq lazım idi. Düşmən onu, belə bir məsul və həlledici vaxtda susmağa vadar etmişdi. Nə vaxtdı ki, yaranmış bu gərgin vəziyyətdən çıxış yolu axtarır, ancaq bir yana çıxara bilmirdi. Doğrudur, şəhərdə, yerlərdə iş dayanmamışdı, azadlıqda qalan, gizli fəaliyyət göstərən yoldaşlar boş-bikar dayanmamışdılar, gecə-gündüz çalışırdılar, təşki-

latın əsas məramını camaat arasında yayır vz izah edirdilər. Ancaq bu çox az idi, çox az...

Bəbirin bir də əsas nigarançılığı həbs olunmuş yoldaşlardan sarı idi. Onlar siyasi işdə çox gərəkli, nüfuzlu adamlar idi, onların yoxluğu o saat hiss olunurdu. Onların taleyi Bəbiri bir an da rahat buraxmırdı. Necə olur olsun, bir tədbir görmək, onları dörd divar arasından xilas etmək gərək idi. Lakin necə?

Bəbir atasının üzünə baxıb qəmli-qəmln gülümsündü:

— Bunu yaman dedin, qibləgahım, həqiqətən də belədir.

— Mən bilirəm ki, Rəhgüzər və Elməddin sənin dəstənin ən ləyaqətli üzvləridir, oğul. Onların həbsxanaya düşməsi, ruznamənin bağlanması sizin işə çox böyük ziyan vurub. İş bununla bitmir hələ. Məni qorxudan bir də budur ki, həbs olunan yoldaşlarınızdan, allah eləməmiş, zəiflik göstərsə, satılsa, təşkilatınızın varlığı, umumən yaşaması təhlükə altına düşəcəkdir. Onda sən də kedəcəksən, oğul.

— Sən mənim üçün qorxursan, qibləgahım?

— Niyə də qorxmayım, bala? Mənim səndən başqa kimim var ki?

— Qorxma məndən, qibləgahım! Lap elə tutulub öldürülsəm də, bu sənə başalçaqlığı gətirməz, əksinə, sən başıuca gəzə bilərsən. Sənin oğlun bu xalqın azadlığı uğrunda ölə bilsə, bu sənin üçün ancaq şərəf olar, qibləgahım. Amma belə olmaz, biz yaşamalı və mübarizə aparmalıyıq, qibləgahım. Sən mənim yoldaşlarımdan qorxma — onlar ölərlər, ancaq satılmazlar. Şəfi, Elməddin, Şeyx Əhməd son dərəcə etibarlı və iradəli adamlardı, qibləgahım.

— Eh, ay oğul. Sən cavansan, sən hələ çox şeyləri bilmirsən, Bilmirsən ki, bu istexbarat necə fitnə-fəsad ocağıdır, qan çanağıdır. Bu taxt-tac onların üstündə bərqərar olub, bala. Onlar ölünü də danışdırırlar, dəmiri də dilə gətirirlər, oğul. İyirmiici əsrin əsrarlı texnikası tək yer üzündə, fəzada yox, zirzəmilərdə də çox dəhşətli işlər görməyə qadirdir. İnsan ağlının kəşf edib yaratdığı növbənöv əsləhədən, cihazlardan həmişə insanın xeyrinə istifadə olunmur, oğul, bəzən onlardan insanı diz çökdürmək, məhv etmək üçün də istifadə eləyirlər.

— Tamamilə doğru buyurursan, qibləgahım. Ancaq bunların hamısından küclü bir silah da var insanın əlində. O da onun məsləki, iradəsidir.

Məsləki yolunda ölənlər çox olub, bilirəm. Lakin can da şirin şeydi. Deyirlər su meymunun boğazına çatanda, balalarını ayağının altına qoyur.

— Hələ ki bizim yoldaşlar möhkəm dayanıblar, hələ ki heç kəsi ayaqlar altına qoymayıblar, qibləgahım.

— Təki elə olsun, oğul. Əgər sənin yoldaşların da sənin kimi dönməzdirlərsə, onda qorxusu yoxdur. Mən səni yolundan döndərə bilmədim, ancaq sən məni bu qoca vaxtımda öz yolumdan döndərdin, oğul. — Bunu deyib qoca general məmnun halda gülümsündü.

— İndi ağıllı və qeyrətli adamların yolu ancaq budur, qibləgahım. — Susdular. Bəbir durub əlini belinə qoyaraq gəzinməyə başladı. Əziz xan onun boy-buxununa, enli kürəyinə, qara, cod saçlarına arxadan tamaşa eləyib fərəhləndi. eynən özü idi, öz gəncliyi idi; öz yerişi, duruşu idi. Qoca general düşündü: «İnsan öz övladının simasında yenidən dünyaya gəlir. Budur, bax, qurban olduğum lap mən özüməm. Ancaq gör nə böyük fərqimiz var. Mən bu yaşda olanda nə düşünürdüm, bu nə düşünür. Bir zamanlar mənim həvəslə qurub-yaratdığım, müdafiə elədiyim, keşiyində durduğum həyatı indi bu uçurmağa, dağıtmağa, onun xərabələri üzərində təzə dünya qurmağa çalışır. Görünür, hər dövrün, hər nəslin öz tələbi, öz vəzifəsi var. Dünən biz məmləkətin qanını soran, var-yoxunu talan eləyən xaricləri qovmalı idik, xalqı onların zülmündən, həqarətindən xilas etməli idik; bu, bizim nəslin qarşısında duran ən müqəddəs vəzifə idi və biz bunu canla-başla yerinə yetirirdik, öz əlimiz, öz başımız olsun — deyirdik. Onda qabağa düşüb bizi mübarizəyə aparanlara inanırdıq, etibar edirdik, onları bu xalqın, bu torpağın əsl rəhbəri, sahibi hesab eləyirdik. İndi isə... vəziyyət, görünür, tamam dəyişib. İndi həmin adamlar, həmin xanədan, həmin quruluş bu millətin düşməninə çevrilib. Soyub-talayır. Zülm ərşə dayanıb. İndi bizim övladlarımız bu xanədanı, bu quruluşu uçurub dağıtmaq istəyir. Həyat nə qəribədir! Görünür, belə çıxır ki, biz aldanmışıq? Ya kim bilir, bəlkə bunlar — Bəbirgil aldanır? Yəqin hər nəslin öz vəzifəsi və eyni zamanda, öz faciəsi var ki, illər, uzun illər keçəndən sonra öz ağrılarını-əzablarını göstərir».

Qoca general çaydandan piyaləsinə çay süzdü. Hələ də otağın enini-uzununu ölçən oğluna müraciətlə:

— Gəl otur, sənə bir-iki sözüm var! — dedi...

Bəbir otağın başında ayaq saxladı, atasına diqqətlə baxdı, heç nə demədən gəlib kresloda əyləşdi və sual dolu nəzərlərini kişinin qayğılı sifətinə zilləyib durdu.

Əziz xan artıq soyumuş çaydan bir qurtum içib dodaqlarını yaşlayandan sonra:

— Mən sizin proqramınıza-filana yaxşı bələd deyiləm, oğul. Sən bir çox şeyləri məndən pünhan saxlayırsan. Görünür, hələ etibar eləmirsən. Bu, sənin yaxşı cəhətindir, mən bunu təqdir edirəm. Ancaq mən hiss edirəm ki, sizin işiniz deyəsən, birtərəfli gedir.

— Nə mənada, qibləgahım? — deyə Bəbir maraqla soruşdu və hiss elədi ki, dünyagörmüş atası indi nə isə faydalı bir şey deyəcək. «Öyrənmək heç vaxt kec deyil» — deyə ürəyindən keçirtdi.

—O mənada ki, siz fəaliyyətinizi, deyəsən, hərtərəfli ölçüb-biçməmisiniz. Mən görürəm ki, siz ancaq qara camaata, az-maz əmələyə istinad edirsiniz, halbuki onların əlində heç nə yoxdur. Təkcə iki əllərinə çatır onların kücü — yabasına, dəryazına, çəkicinə. Daha böyük bir qüvvə var ki, siz ondan yapışmağı unutmamalısınız.

— Hansıdı o qüvvə?

— Ordudu, oğul. Ordu — bu quruluşun, bu səltənətin ən böyük istinad nöqtəsidir. Və yuxarıda oturanlar ancaq və ancaq ona arxalanırlar. Əbəs deyil ki, sənin cəmiyyətində ordu zabitləri ən yüksək maaş alırlar, ən yaxşı yaşayan zümrədirlər. Silah onlarda, top-tüfəng onlarda. Unutma ki, bunlar sənin əlahəzrətinə təkcə xarici basqınlardan qorunmaq üçün lazım deyil, onlar eyni zamanda daxildən baş qaldıranları əzmək, yerlə yeksan eləmək üçün də lazımdır. Və ən çox bunun üçün lazımdır, oğul. O biri yandan da siz bir şeyə də diqqət yetirin; şərq məmləkətlərində, xüsusən ərəb dünyasında çevriliş edənlər kimlərdi? Hərbçilər. Çünki onlar həmin ölkələrin ən qadir qüvvələridir və onlara istinad edənlər həmişə qalib gəliblər. Bu təcrübədən siz nahaq istifadə etmək istəmirsiniz, oğul.

— Ağıllı və faydalı məsləhətlərin üçün çox sağ ol, qibləgahım. Sənin bu sözlərin məni çox sevindirdi. Sən əməlli-başlı siyasət adamı imişsən, qibləgahım.

— Bir elə də yox, — Əziz xan güldü, — ancaq azdan-çoxdan başım çıxır.

— Biz sən deyən nöqtəni unutmamışıq. Biz ordunun kücünü və imkanlarını yaxşı bilirik. Əlbəttə, sənin bildiyin qədər yox, — lakin bilirik. Ordu daxilində, əskəri hissələrdə iş gedir, yaxşı adamlarımız var zabitlər arasında. Ancaq biz bu işi çox ehtiyatla görürük, kiçicik bir səhv hər şeyi alt-üst eləyə bilər.

— Düzdür. Əgər belədirsə, siz nə isə edə biləcəksiniz, buna inanmaq olar.

Bəbir başını tərpətməklə «hə!» — dedi. Bu vaxt Hikmətəli içəri girdi və üzünü Bəbirə tutub söylədi:

— Ağa, sizi bir nəfər istəyir!..

Bəbir qalxıb çölə çıxdı. Həyətdə, qarın içində şaxtababaya oxşayan adamı əvvəl tanıya bilmədi. Gələn adam qaragül papağını çıxarıb qarını çırpanda Bəbir onu tanıdı. Bu, Ziyaülhəqq idi. Başını tərpətməklə salam verdi:

— Gəl yuxarı, gəl.

…Onlar ikisi oturmuşdu üz-üzə. Ziyaülhəqq əlini buxarıya tutub qızınırdı — barmaqları xoş bir gizilti ilə sızıldayırdı. Hikmətəli təzə çay gətirmişdi. Bəbir nigaran-nigaran ona baxırdı, nə deyəcəyini gözləyirdi. Nəhayət, o, ağır-ağır dilləndi...

— Şeyx Əhməd...

Bəbirin ürəyi ayaqlar altına düşdü:

— Satdı?

— Yox... Öldü...

— Necə??

— Hə! Öldü...

— Öldü, ya öldürdülər?..

— Yox, özünü öldürdü.

— Nə danışırsan?

— Bəli... tiryək atıb özünü öldürdü. Dünən axşam... Çox işkəncə verirmişlər. Görünür, dözməyib...

Bəbirin iri gözləri qıyıldı, bəbəklərindən qığılcım kimi od parladı az qala. Əlləri düyüldü... Lakin susdu...

Bu dəfəki sükut uzun çəkdi, çox uzun. Nəhayət, Bəbir titrək səslə:

— Qəbri nurla dolsun!—dedi. Bəs Şəfinin, Elməddinin halı necədi?

— Elməddin yaxşıdı. Ancaq Şəfinin hücrəsinə casus salıblar. Söz çəkmək üçün... Yenə araya ağır sükut çökdü.

DÖRDÜNCÜ FƏSİL

...Dünya xanım səhər tezdən yuxudan ayılanda Nəcməddini yanında görməyib heyrətləndi. Şirin-şirin gərnəşib əsnəyərək, ətrafına baxındı və ərini çarpayıda yox, otağın o başında qoyulmuş yumşaq divanda pallı-paltarlı yatmış görəndə təəccübü daha da artdı. «Bu orda niyə yatıb?» — Varlığında dolaşan ilk sual bu oldu, sonra yenə səssizcə ürəyində: «Özü də paltarlı» — dedi. Dünya xanım başını

silkələyib tam ayılmağa çalışdı və keçən axşamkı xudmani məclisi xatırladı: «Hə, içmişdi axşam. Lap çox içmişdi. Yəqin bərk sərxoş olub, ya soyuna bilməyib, ya da yadından çıxarıb soyunmağı?!»

Neçə il birgə yaşadıqları muddətdə belə şey olmamışdı. Əvvələn, Nəcməddin heç vaxt bu qədər içməmişdi, dünən nə isə dəmi gəlmişdi, ya çərxi dönmüş o Əbdülün həvəsinə düşüb içmişdi — o, bilmirdi. İkincisi, hər dəfə içəndə; Nəcməddin daha da şən, gümrah olurdu, Dünya xanımın yatağına girər, onunla mehribanlıqla, nəvazişlə rəftar edər, səhərə az qalana qədər, yorulub əldən düşənə qədər Dünyanı yatmağa qoymaz, gah zabitəli olar, gah da uşaq kimi ağlardı. Belə gecələrdə Dünya xanım özü də Nəcməddinin nazı ilə az oynamamışdı.

Lakin indi... gör kişi nə qədər içib ki, özündə-sözündə olmayıb, Dünyanın yanına gəlməyi bir yana, hətta paltarını soyunmağı belə unudub.

Dünya xanım qalxıb geyindi. Beşikdə yatan körpəsinə ötəri nəzər salıb Nəcməddinin yanına gəldi. O, üzüqoylu əllərini başının altına qoyub uzanmışdı. «Birdən kişi ölər a?» — deyə ürəyində dolandıran Dünya əyilib dinşədi. Yox nəfəs alırdı Nəcməddin. Narahat yatdığından arabir xorna da çəkirdi.

— Nəcmi, Nəcmi! — deyə onu səslədi, silkələdi. Ancaq kişi ayılmadı, yuxulu-yuxulu nə isə söylədi, Dünya başa düşmədi. Qalxıb oyanmaq fikri olmadığını duyan Dünya fırlanıb eyvana çıxdı.

Süfrə necə vardısa eləcə, yığışdırılmamış qalmışdı. Cin Dünyanın kəlləsinə vurdu, Əbdülün dalınca deyinməyə başladı:

— Görürsən, mən axşam demədim ki, a, bu zir-zibili yığışdır? Gör nə ağız bəhəm eləyib, mənim də sözümü saymır. Yaxşı, köpək oğlu. Sənə mən bir toy tutum ki, adın da yadından çıxsın. — Sonra ürəyində sözünə davam elədi: — «Mənə naz-qoz eləyir; elə bil, başımın ağasıdı. Bunun küsməyinə bax, inciməyinə bax! Mən deyirəm belədi, demək belədi, burda ayrı söz ola bilməz. Söz mənim sözümdü. Pah, inciyir, kişmiş oğlu. Acığıma içir də hələ bir! Üzümə də baxmaq istəmir... Sən öləsən...».

Süfrəyə əl vurmamış eyvanın o biri başına — Əbdülün hücrəsinə baxan tərəfinə keçdi. Hücrənin qapısı açıq idi, özü isə həyətbacada yox idi. Səslədi qəzəblə:

— Əbdül, Əbdül.

Səs-səmir gəlmədi, harayına hay verən olmadı. Yenə, bu dəfə lap ucadan qışqırdı:

— Əbdül hey... — cavab yox idi. «Yəqin o da ağası kimi köpüb. O qədər içmək olardı ki, axşam içdilər?!»

Aşağı düşdü. Hücrənin yanına gəldi, qapıdan içəri boylandı. Hücrə bomboş idi. Əbdül yox idi. «Bəlkə bazara gedib... Belə tezdən bazara getməzdi axı...» həyəti dolandı, bağa sarı boylandı. Heç yerdə gözünə dəymədi Əbdül.

Yalnız bu zaman ürəyinə gələn fikir bədənini üşütdü. «Gedib! Acıq eləyib, gedib...» Vücudu süstəldi, özündə bir halsızlıq hiss elədi, ağacın altındakı oturacaqda əyləşib nəzərlərilə hücrənin açıq qalmış qapısına baxdı, baxdı... hirsini, qəzəbini unutdu Dünya xanım. Bir anlığına atılmış, kimsəsiz buraxılmış adam kimi qəlbində yaxıcı-yandırıcı bir hiss duydu, bədbəxtləşdi. Hər şey gözündən düşdü, ölgünləşdi. Onunla — zahirən sakit, nökər, daxilən isə vulkan kimi qızğın, geyinib-kecinərsə, şahzadəyə layiq, sevməkdə, əzizləməkdə dünyanın nadir kişilərindən olan, sevdiyinin qabağında həqiqətən bir qul kimi əyilib ayaqlarına düşən, heç bir kitab oxumasa da əzizinə nağıl kimi şirin-şirin sözlər pıçıldamağı bacaran, kişi kimi azca kobud, aşiq kimi son dərəcə incə Əbdüllə keçirdiyi o xoş dəmlər, o unudulmaz saatlar, Nəcməddin səfərə, ova gedərkən isə sonsuzluq kimi görünən günlər, səadət dolu günlər, onun pıçıltıları, nəvazişləri, birər-birər gəlib yadına düşdü, könlünün xatirələr kitabı vərəqləndi və vərəqləndikcə bütün varlığı isindi Dünyanın. İndiki süst, atılmış halını unutdu, xəyalın, xatirələrin qanadında o vaxtların isti qucağına uçub sığındı. Və ani olaraq sevindi ki, nə yaxşı bu xatirələr varmış, nə yaxşı Əbdül varmış! Sonra son kəlmədən diksinən kimi oldu, qayıtdı adi halına və özündən dəhşətlə xəbər aldı: «Varmış? Necə yəni varmış? Bəs indi yoxdur? Olmayacaq?! — Soyuq payız mehimi üşütdü onu, ya bu suallar? — başa düşmədi, ancaq üşüdüyünü, çılpaq, ağ qollarının tüklərinin biz-biz olduğunu gördü və bir az üşüdü, əsdi.

Sonra özünü yamanca danladı. «Günah məndə oldu... Qədrini bilmədim. Tez-tez zəhərlədim, acıladım. Elə bil, şeytan mənə vəsvəsə verirdi. Hərdən gözümə ilan-qurbağa şəklində görünürdü. Şitliyim tuturdu, könlünə dəyirdim, incidirdim. Ha çalışırdım küssün məndən. İnciyirdi, ancaq küsmürdü. İnciyəndə çox qəribə olurdu. Gözləri kədərlə dolurdu. Bir xoş söz deyən kimi hər şeyi unudub təzədən xoşbəxtləşirdi, ayağım altına düşürdü, ayaqlarımdan öpürdü. Bu isə mənə sonsuz ləzzət verirdi. Hələ ağlamağı. Elə bil göz yaşları ovcunda idi, mənsizləyəndə, darıxanda, həsrət güc gələndə uzaqdan dayanıb mənə baxır, səssiz-səmirsiz yaş axıdırdı... Onda mən də dözməzdim, çağırıb bağrı-

ma basardım, nəvaziş göstərərdim. Vüsalımdan xoşbəxt olan dəmlərdə də ağlardı. «İndi niyə ağlayırsan, ay dəli?» — deyərdim. «Bayaq həsrətdən ağlayırdım, indi də xoşbəxtliyimdən, Dünyam mənim», — deyərdi. «Adamın gözündə nə qədər yaş olar məgər?»

«— Hər adamın gözündə belə yaş olmur, Dünyam mənim?»

«— Bəs kimin?»

«— Ancaq ürəkdən sevən adamın, mehribanım!»

«— Sevməsən, demək ağlaya bilməzsən?»

«—Yox, nə vaxt sənin üçün göz yaşları tökmədimsə, demək, sevmirəm»

«— Hə?»

«— Hə!»

«— Onda, Allah sənin göz yaşlarını qurutmasın, əzizim. Xoşdur bu göz yaşları mənim üçün... Sənin göz yaşların mənim məhəbbətimi sulayır, çiçəkləndirir, yaşadır...»

«— Bəs mən niyə ağlaya bilmirəm, Əbdül?»

«— Çünki...»

«— Nə çünki?..»

«— Qorxuram acığın gələ, Dünyam mənim».

«—Demək, məndən qorxursan, eləmi?»

«— Guya bilmirsən? Mən dünyada heç kəsdən, heç nədən, hətta ölümdən də, hətta Allahdan da qorxmuram, ancaq səndən qorxuram, Dünyam mənim».

«— Niyə axı?»

«— Heç özüm də bilmirəm, niyə? Ancaq qorxuram. Mənə elə kəlir ki, sən qəzəblənəndə daha dəhşətli olarsan, hər şeyi alt-üst eləyərsən, ağına-bozuna baxmazsan, sındırarsan ürəyimi, xal salarsan ürəyimə. Mən isə istəmirəm bu təmiz, təmənnasız məhəbbətə ləkə düşsün, solsun, saralsın. Mən onu qorumaq istəyirəm, yaşatmaq istəyirəm, çünki hiss edirəm ki, ikimizi də yaşadan odur, Dünyam mənim. Taleyim səni mənə yetirənə qədər mən yaşamamışam, sürünmüşəm. Elə sən də, özün deyən kimi, dünyanın ləzzətini, nəşəsinn mənimlə görübsən, ona görə qorumalıyıq bu məhəbbəti, onun üçün əsirəm bu məhəbbətin üstündə...»

«— Nə yaxşı sözlər deyirsən, Əbdül?! Sən bu sözləri hardan öyrənmisən?»

«—Səndən, gülüm. Sənin məhəbbətindən öyrənmişəm. Belə sözlər deyə bildiyimə sonra özüm də təəccüb eləyirəm, inan».

«— Doğru deyirlərmiş ki, sevənin ürəyi dərya olurmuş... Yaxşı, mənim sualıma cavab ver, qorxma, hirslənmərəm...» — Hə... əgər hirslənməzsənsə, deyərəm. Soruşursan ki, mən niyə ağlaya bilmirəm sənin kimi? Çünki sən mənim kimi sevmirsən, Dünya. Mən səni sevən qədər, sən məni sevmirsən, ona görə gözlərindən yaş çıxmır. Sənin ürəyin istəyən vaxt mən sənin ola bilərəm, ancaq hər mənim ürəyim istəyən an sən mənim ola bilmirsən, Dünya!»

«— Bəs məndən niyə heç vaxt küsmürsən, Əbdül?»

«— Küsə bilmirəm. Nə desən, nə eləsən də, küsə bilmirəm. Ancaq hərdən ürəyimdə səndən bərk inciyirəm. İncidirsən ürəyimi, acı sözlər deyirsən ki, birini bir batman balla da yemək olmaz».

«—Amma sən yeyirsən».

«— Hə, yeyirəm. O acı sözlərini də bağrıma basıb şirin söz kimi uduram, Dünyam mənim. Tək bircə dəfə səssiz-səmirsiz sənə qəlbimdə acıqlanmışam, demişəm ki, məni — səni dünyalar qədər istəyən biçarə qulu belə incitmə, Allah sənə qəzəb eləyər, Dünya!».

«— Demək, mən səni incitsəm, Allah mənə qəzəb eləyər, hə?»

«— İnanırsan ki, buna da qıymaram. Allahın qəzəbi məni tutsun qoy. Sənə gələn qada-bala mənə gəlsin qoy! Sənə heç nə olmasın. Başından bir tük də əskik olmasın, ay mənim, əvəzsizim».

«İlahi, mən nə xoşbəxtəm!»

Bu ara çil xoruz banladı, Əbdüllü anlar harasa uçub getdi, Dünya oturacağın üstündə tək qaldı və özünün axırıncı sözünü — «İlahi, mən nə xoşbəxtəm!» elə bil kimsə, o uzaq günlərdən təkrar etdikdə Dünya kədərlə düşündü: «Xoşbəxtəm? Hanı o xoşbəxtlik? Getdi, uçurtdum əlimdən. Bir də geri qayıdarmı görəsən? Aman Allah, mən neylədim, neylədim, sakitcə oturmuşduq, bilirdim ki, o var. Elə deyirdim — deyə o, xəyalən Əbdülü nəzərində canlandırıb müraciət elədi. — Elə deyirdin küsmərəm səndən, səndən küsə bilmərəm. Bəs niyə küsdün? Sənə deməmişdim ki, mənim sözlərimə fikir vermə! Bəs nə oldu?! Yox, sən beləcə səssiz-səmirsiz gedə bilməzsən. Hayana getsən, axırı qayıdıb gəlməlisən. Qayıt gəl, daha səni incitməyəcəyəm, heç vaxt. İnsan belədi, bir şeyi itirməmiş qədrini bilmir. Elə sanır ki, həmişə əlində, evində, yanında olacaq. İtirəndən sonra heyfsilənir, Əbdül. Daha səni itirməyəcəyəm... Əgər tapsam...»

Dünya xanım qalxdı, stolun üstünü yığışdırdı. Artıq oyanmış uşağı açıb təzədən bələdi, çarpayının qırağında oturub əmizdirdi. Nəcməddin hələ oyanmamışdı. Körpə yeyib doyandan sonra kefi kö-

kəlmişdi, balaca totuq əlini uzadıb anasının brilyant qaşlı sinəbəndini oynadırdı, anasına baxıb qımışırdı, oynamaq istəyirdi. Dünya isə ona məhəl qoymurdu, öz aləmində idi.

Saat on birə işləyəndə Nəcməddin ayıldı. Durub divandaca oturdu. Təəccüblə üst-başına baxdı, paltarlı yatdığını indi xatırladı. Dünya çarpayının qırağından tərpənmədən matdım-matdım ərinə tamaşa eləyirdi. Kişinin gözləri qan çanağına dönmüşdü, üzünün rəngi bomboz idi, ağ saçlarından azca seçilirdi. Elə bil harda olduğunu yadına salmağa çalışırdı. Evə, dər-divara diqqətlə baxırdı, sanki birinci dəfə idi bura düşmüşdü. Nəzərlərini fırlayıb divardakı şəklinin üstündə saxladı, yad adama baxırmış kimi xeyli süzdü və mənalı-mənalı başını bulayıb ürəyində pıçıldadı: «Bəli, sən də belə, ağayi Nəcməddin!»..

Dünya xanım qalxıb ehmalca uşağı beşiyinə qoydu və ərinin yanına gəldi. Sözsüz-sovsuz yanında oturdu. Əbdülün yoxa çıxmağı xəbərini ona özü deməyincə əvvəlcədən qərarlaşdırdığından kəlmə kəsmədi. Əlini ərinin saçlarına gəzdirəndə elə bil Nəcməddin ayıldı, çönüb yanakı Dünyaya baxdı. Və elə həmin anda axşam sərxoş Əbdülün dediyi sözlər beynində, qulağında səsləndi. «Mənə heç nə olmayıb, hər nə olub sənə olub... Özüm öldürəcəyəm. ...Dünyanı da, kürəni də. Əvvəl-əvvəl telefonu öldürəcəyəm. Çünkn günahkar odu». Səsləndi bu sözlər, Nəcməddinin bədənini soyutdu. «İlahi, mənə hələ səbir ver!» — dedi ürəyində dişlərini bir-birinə sıxıb xırçıldada-xırçıldada. Sonra heç bir şey olmayıbmış kimi, Dünyaya baxıb gülümsündü və peşman-peşman:

— Axşam yaman çox içdik! — dedi.

— Gör nə qədər içibsən ki, burda paltarlı yatıbsan, — dedi Dünya xanım. — Mən dedim ki, bu qədər içməyin. Dəli olarsız.

— Nə isə... Əbdülün içmək həvəsi vardı. Mən də qoşuldum ona.

— Ay Əbdülün boynu sınsın... Elə bil dünən əzizləri yadına düşmüşdü. Elə hey içirdi, su kimi içirdi.

— Hm...

— Bir də onunla içmə, Nəcmi. Axı harda görünüb nökər ağası ilə bir süfrədə oturub yeyib-içsin? Nökərin nökər yeri var, ağanın ağa. Bunu eşidən, bilən olsa, bizə gülər. Vallah gülər. Onu sən çox qudurtmusan.

Hə, düz deyirsən. — Nə fikirləşdisə üzünü Dünyaya tutdu. — Get onu çağır bura, görək ona nə olmuşdu dünən. Ona nə isə olmuşdu dünən... — Dünya durub getdi, on dəqiqə keçməmiş qayıdıb gəldi:

— Yoxdu Əbdül.

— Necə yoxdu? — Sakitcə soruşdu.

— Yoxdu da. Nə hücrəsində var, nə həyət-bacada. Nəcməddin soyuqqanlıqla:

— Yəqin harasa gedib, gələr! — dedi.

— Gəl, çay-çörəyini ye! — Dünya xanım dilləndi.

— Yemirəm hələ. İştaham yoxdu.

Qalxdı, ləngərli addımlarla eyvana çıxdı. Özü də bilmədən, qeyri-iradi qonşu həyətə, darvazaya göz gəzdirdi. Kimsə yox idi. Ev əfiləşdi nəzərində. Xəyalında ev alışıb-yandı. Nəcməddin nə isə gizli bir nəşə duydu. Sonra o kürən oğlanı, dünənəcən küçədə, yolda tumançaq gəzən o; «gədəni» xatırladı. Lap bu yaxında görmüşdü onu. Evə gələndə. O, darvaza ağzında dayanıb maşınını silirdi. Eyvandan ölçüb-biçdi — maşın bax orda, qapının qənşərində dayanmışdı. Buradan, bu eyvandan aydın görünurdü ora. «Yəqin Dünya burdan himcim eləyib. Ya da o buna. «Telefonu öldürəcəyəm!» Niyə telefonu? «Hə, o günahkardı». Demək telefonla da danışırmışlar. Yox, elə ancaq telefonla danışa bilər. Cəsarət edib bu həyətə gələ bilməz, bu da evdən çıxa bilməz. Nə bilmək olar?! Bəlkə də...» — Sonra içəri keçdi. Qırmızıdəstəkli telefonun yanında dayandı, baxdı, baxdı. «Kaş sənin yaddaşın olaydı, tedefon. Danışılanları yadında saxlaya biləydin, səni danışdıra bilərdim, telefon. Mənə də Nəcməddin deyərlər! Yox, bunların heç biri düz ola bilməz. Əbdül özündən uydurur. Dünya mənə xəyanət eləyə bilməz, heç vaxt eləməz. Burda nə isə bir sirr, bir müəmma var. Dünyadan soruşsam, boyun almaz, hələ məni borclu da çıxarar. Utanmırsan? — deyər. Yox, onu qətiyyən duyuq sala bilmərəm. Əgər varsa, kec-tez ilişəcək. Səbirli ol, Nəcməddin, səbirli ol».

O, qayıdıb beşiyin başında dayandı. Balaca Nəcməddin atasınınkı kimi uzun kirpikləri altında parıldayan xırda gözlərini ona sarı çevirdi və gülümsündü.

«Hə, belə-belə işlər, oğul... Sən nə deyirsən bu işlərə, ağayi Nəcməddin? Ya sənin hələ dünyadan xəbərin yoxdu? Olmasa yaxşıdı, oğul. Dünya murdar dünyadı. Allah əvvəl sənə rəhm eləsin, sonra mənə. Sənin taleyin deyəsən uğursuzdu, bala. Alnına nə yazılıb, bilmirəm. Ancaq ürəyim hiss eləyir ki, sən deyən yaxşı şey yazılmayıb. Gülürsən. Bilmirsən mən nə çəkirəm, ürəyim partlayır. Bilsəydin, gülməzdin, ağlardın, oğul, ağlardın. Çünki həqiqətən atanın taleyi ağlamalıdı, çox ağlamalıdı». Beşiyin yanından çəkildi.

Siqaret yandırdı. Yanğısı sönmədi. Çıxıb həyət-bacanı dolandı, yenə qayıtdı:

— Özümü pis hiss eləyirəm, yer sal, yatacağam, — dedi Dünya xanıma və soyunub yatdı...

Axşamacan gözlədilər, Əbdül gəlib çıxmadı. Dünya xanım bərk nigaran olsa da, içəridə çəkir, üzə vurmurdu nigarançılığını. Nəcməddinin isə sanki heç vecinə deyildi. Gecə saat on ikiyə işləyəndə yatmağa hazırlaşarkən Dünya kədərli-kədərli dedi:

— Gəlmədi.

Nəcməddin laqeyd halda:

— Cəhənnəmə gəlsin, gora gəlsin! — dedi. — Gəlsə də qovacağam, qoy rədd olub getsin... Dünya kəlmə də kəsmədi.

BEŞİNCİ FƏSİL

Az qala gen-bol otaqlarına, doğma şəhərinə, məmləkətinə sığışmayan şairi, balaca, sement döşəməli, adam boyundan yuxarı, göyərçin hininin qapısı boyda pəncərəsi, lay dəmir qapısı olan bir otağa salmışdılar. Gündüz o əl boyda pəncərədən gün işığı düşürdü içəri, axşamlar tavandan asılmış iyirmi şamlıq elektrik lampası solğun-solğun parıldayırdı. Divarın sol dibində qırmızı kərpicdən tikilib suvanmış daş «divan» vardı — Məhəmməd Şəfi onun üstündə oturur, onun üstündə yatırdı. Havası xəfə idi, rütubət iyi verirdi. Bu otaq uzun, alaqaranlıq dəhlizin lap axırında yerləşirdi. Dustaqlar arasında «otağı-siyasi» adı ilə məşhur idi. Buraya ancaq siyasi işlər üstündə həbs olunmuş, siyasi cəhətdən qorxulu adamlar salınırdı və onları əsl ad-familiyası ilə yox, «siyasi» kəlməsi ilə tanıyırdılar. Mühafizlər dəhlizdə gəzinir, nizam-intizama diqqət yetirir, belə «siyasi»lərin o biri dustaqlarla təmasda olmasına heç cür imkan vermirdilər.

O biri tərəfdə, həyətin o başında ümumi həbsxana yerləşirdi. Bir sözlə, bura daş hasarlı, tikanlı məftilli, dəmir qapılı, qarovulçulu balaca bir şəhər — dünya idi. Buranın da sakinləri vardı, daimi və müvəqqəti sakinləri vardı, varlısı, kasıbı vardı, oğrusu vardı, davakarı vardı, işləyəni, işləməyəni vardı, «padşahı» vardı — amiri-həbsxana idi. Casusu, xəfiyyəsi də vardı. Şairləri də vardı — Rəhgüzər idi, Elməddin idi. Elməddin «ümumilər» içərisində idi, Şəfi kimi, hamıdan ayırmamışdılar.

Şeyx Əhməd də ölənə qədər onun yanında idi, demək olar ki, gözünün qabağında xırıldaya-xırıldaya keçinmişdi. Həbsxana həkimi xilas eləyə bilməmişdi: «Həddən artıq çox tiryək atıb, özü də ilk axşamdan atıb» — demişdi. O, səhərçağı canını tapşırmışdı. Qabırğalarını sındırmışdılar — çox çətinliklə nəfəs alırdı. Dırnaqlarını çıxartmışdılar — əlləri elə sarıqlı idi, şişmiş idi. Elməddin onun «öz adamları» olduğunu bilirdi, ancaq bunu bildirməməli idi. İstintaq aparanlar Şeyx Əhmədi Şəfi ilə, Elməddinlə üzləşdirir, onları tanıdığını, əlbir olduğunu boynuna qoymaq istəyirdilər. O isə and içir, aman eləyirdi ki, bu adamları tanımır.

— Birinci dəfə görürəm bu kişini, — deyə o, ağrıdan qıvrılaqıvrıla Şəfini göstərirdi, — şair olanda nə olar, tanımıram. Mən bir şair tanıyıram, o da Allahdı, bir kitab oxumuşam ömrümdə — o da Qurani-şərifdi. Bu cavan oğlanı da burda, dustaqlar arasında birinci dəfə görmüşəm, onun da şair, rəssam olduğunu sizdən eşidirəm.

— Yalan deyirsən, kaftar! —deyib yenə döyürdülər. Şəfi, Elməddin belə məqamlarda üzlərini yana çevirirdilər.

Onun ürəkparçalayan fəryadları Şəfinin qulaqlarından çəkilib getmirdi. Deyəsən, ömrü boyu da getməyəcəkdi. Sement döşəmədə addımlarını səsləndirə-səsləndirə gəzirdi ki, bəlkə şeyx Əhmədin iniltisini eşitməsin. Ancaq bu mümkün olmurdu. Şəfi bura düşəli arıqlamışdı, iri, işıqlı gözləri çuxura düşmüş, üzünü tük basmışdı. Evdə olanda hər gün üzünü qırxdığından saqqalının saçları kimi ağardığını bilməmişdi — indi başa düşürdü ki, saqqalı da ağarıbmış.

Dustaqlar onu sevirdilər. Yanlarından keçib-gedəndə, danışığa aparılanda hamı ona ehtiramla baş əyirdi, şairə danışmağa icazə verməsələr də, onlar öz sözlərini deyirdilər: «Darıxma, yaman günün ömrü az olar!» «Möhkəm dayan!» — şair bu sözlərdən qüvvət alırdı, toxtayırdı. Bundan əlavə, dustaqlardan kimə evdən nə gəlsəydi — halva, körək, siqaret... — şairin payını ayırıb göndərərdilər. Nəzarətçilər əvvəllər aparmırdılar, onun da çarəsini, tapdılar dustaqlar. Nəzarətçiyə də bir şey verirdilər, o yumşalıb xəlvətcə pay-puşu Şəfiyə çatdırırdı. Son vaxtlar Elməddin də bu üsuldan istifadə edirdi. Nəcməddinin göndərdiyi, Əhədullanın gətirdiyi azuqədən Şəfinin payını ayırıb çatdırırdı. Şəfini sıxan ayrı şey idi. — Haqsızlıq, ədalətsizlik idi. İşindən, qəzetindən, mübarizəsindən, sevimli arvad-uşağından ayrılması idi, yazı masasından uzaq düşməsi idi. Bəli, bunlar onu çox sarsıtmışdı. Ən böyük dərd isə bu idi ki, qələm-kağızdan ayrı düşmüşdü. Bura hər şey göndərə bilirdi Elməddingil — qələm-

kağızdan başqa. Heç bir nəzarətçi bunu boynuna götürmürdü. Qələm-kağızdan silahdan qorxan kimi qorxurdular. Tutsaydılar, cəzası böyük olacaqdı — amiri-həbsxana xüsüsi olaraq bütün dustaqxana mühafizlərinə tapşırmışdı. Ona görə heç kəs başını bıçağa sürtmək istəmirdi. Şəfi isə ac-susuz qalardı, ancaq qələmsiz-kağızsız yaşaya bilməzdi. Amma çarə nə idi, yaşayırdı. Şerlər yaranırdı — yazıya köçürülmürdü. Qoşurdu, sonra tez-tez, gündə bir neçə dəfə onları əzbər deyirdi öz-özünə, yadından çıxmasın deyə. Buna baxmayaraq unutduqları çox idi. Hələ indiyə qədər Şəfini ciddi sorğu-suala tutmamışdılar. İki-üç dəfə Şeyx Əhmədi, Elməddini ona göstərib onları tanıyıb-tanımadığını soruşmuşdular. Demişdi: Tanımıram... Vəssalam. «Görünür, bezdirmək, usandırmaq istəyirlər. Yaxud da öyrənirlər!—deyə Şəfi öz-özünə düşünmüşdü — Ya da mənim çox qalmağım onlar üçün daha sərfəlidir. Artıq üç aya yaxındı buradayam». Günlər cansıxıcı, yeknəsəq keçirdi. Şəfi lap hövl eləmişdi az qala. Lakin son dərəcə darıxdığı, sıxıntı keçirdiyi günlərin birində pencəyini başının altına qoyub balaca pəncərədən görünən bir parça mavi göyə tamaşa edərkən qapının ağzında səs-küy eşitdi — kimisə dəhliz boyu döyə-döyə gətirirdilər. Danışıqları aydınca qulağına çatırdı:

— Yeri, yeri. — Bu, mühafizin, günaşırı ona yemək-içmək gətirən cavan həbsxana keşikçisinin səsi idi.

— Ölürəm, vurma, sən allah.

«Yenə görəsən hansı biçarəni əzişdirirlər!» — deyə düşünən Şəfi ayağa qalxıb qulaqlarını dəmir qapıya söykədi.

— Birinci hücrəyə, birinci hücrəyə!..

— Ağa, yox, yox, ora salma məni. Səni and verirəm allaha, ora salma. Deyirlər ora siyasilər üçündür, ora girən salamat çıxmır. Salma məni o xarabaya, yalvarıram.

— Yox, sənin yerin oradı.

— Axı mən siyasi deyiləm, başına dönüm.

— Mənə dəxli yoxdur. Siyasisən, ya nə zibilsən...

— Ey vay, evim yıxıldı! —deyə zarıldayan adam ümidsiz-ümidsiz inildədi.

Şəfinin hücrəsinin dəmir qapısının iri qıfılı səsləndi. «Bura gətirir» — düşündü Şəfi və qapı açılanacan çəkilib «öz taxtında» oturdu və maraqla qapıya baxmağa başladı. Dəmir qapı aralandı və arıq, rəngi qapqara, gözləri batmış bir adamı itələyib içəri saldılar. O, ürkə-ürkə otağa, Şəfiyə baxdı. Bu zaman onun arxasında, qapının ağzında dayanmış mühafiz üzünü Şəfiyə tutub dedi:

— Qonağını qəbul elə, a şair, tək darıxırsan. — Və yeni dustağın arxasının ona tərəf olduğundan istifadə eləyib şəhadət barmağını dodaqlarının üstünə qoydu. Bu işarəni Şəfi o dəqiqə başa düşdü, yəni danışma. Şəfi minnətdarlıq dolu nəzərlərlə adını belə bilmədiyi cavan mühafizə baxdı və gözlərini yumub açmaqla: «Anladım, arxayın ol», — dedi. Cavan mühafiz qapını çırpdı, cinkilti ilə qıfılladı və uzaqlaşdı. Nallı əskər çəkmələrinin səsi eşidilməz olunca bu balaca hücrədə heç biri danışmadı. Şəfi lal-dinməz, imtahanedici nəzərlərlə təzə qonşusuna baxırdı. Onun sağ gözünün altı şişmişdi, ağzından qan axırdı — ya dişini vurub salmışdılar, ya da dodağını partlatmışdılar. Çirkli, ağ köynəyinin yaxasına qan ləkələri düşmüşdü. O qədər cansız və çəlimsiz idi ki, deyirdin bəs indicə yıxılacaq. Salamat sol gözünü dolandırıb Şəfiyə ötəri nəzər saldı və nə isə demək istədi, ancaq susdu. Bir an keçməmiş çevrilib uzunbarmaqlı əlini yumruqlayaraq dəmir qapını döyməyə başladı:

— Açın, açın, pədər süxtələr, mən burda qalmaq istəmirəm, mən siyasi deyiləm! —deyə bağırırdı. Lakin səsinə səs verən olmadığını görüb sement döşəməyə çökdü və ağladı.

Şəfinin ona yazığı gəldi. «Kör nə hala salıblar biçarəni. Dustaq olanda nə olar? O da insandı. Başqa məmləkətlərdə belə şeylər olmur. Dustaqlarla insan kimi rəftar edirlər», — deyə ürəyində dolandırdı və birdən cavan mühafizin əlini dodaqlarının üstünə qoyub «sus» işarəsi verməsini xatırlayanda qəlbindəki rəhm hissi öldü və yerini kəskin bir nifrət doldurdu. «Satqındı. Belələrini döyüb mənim kimilərinin yanına salırlar — sirr çəkmək üçün. Bəzən illərlə səninlə bir yerdə yatır, sənin dərdini, sirrini öyrənir.

Yox, keçməz, bala».

Təzə «qonaq» köynəyinin ətəyi ilə ağzının qanını sildi və sakitləşdi. Handan-hana ilk söhbət başlandı! Təzə qonaq ehtiyatla xəbər aldı:

— Siz şairsiz, ağa?

Şair bir an fikirləşib cavab verdi:

— Xeyr.

— Hə? Bəs o köpək oğlu deyəsən məni bura salanda sizə «şair» dedi axı.

— Şair idim, indi yox. Əl çəkdim şairlikdən.

— Niyə ki?

Şəfi qeyri-iradi olaraq:

— Bir məmləkətdə ki adi, savadsız polis nəfəri şairdən qüdrətli, hörmətli oldu, orda şair olmağına dəyməz! — dedi və tezcənə də belə söyləməyinə peşman oldu. Lakin geç idi, sözünü ağzından çıxarmışdı.

— Nahaq. Görünür onda siz əsl şair deyilmişsiniz, ağa. Bağışlayın, cəsarət eləyirəm, belə deyirəm. Əsl şair güllə qabağında da, dar ağacı altında da öz sənətindən dönmür, şer deyə-deyə ölür. Mən şeri çox istəyirəm, elə şer üstündə də gəlib bu xarabaya düşmüşəm.

Şəfi maraqlandı və özlüyündə ona «əl çəkdim şairlikdən» deməkdə səhv elədiyini anladı: «Gərək belə deməyəydim».

— Sən də şairsən?

— Yox, ağa, şair deyiləm mən. Ancaq mənim çox sevdiyim bir şair var, onun şerlərini müzahirə zamanı əzbərdən deyərdim, ruznaməsini satardım küçələrdə. Başıma o qədər adam yığışardı ki... Elə ona görə də həbs elədilər...

Şəfi yerindəcə qurcalandı:

— Kimdi o şair?

— Siz yaxşı tanıyarsınız onu. Məhəmməd Şəfi Rəhgüzərdi o, ağa.

Şəfi qımışdı:

— Sən onu şəxsən tanıyırsan?

— Yox. O səadət mənə nəsib olmayıb. O, bizim məmləkətin birinci şairidi, ağa. Deyirlər şairlər bir-birlərinin paxıllığını çəkən olur, ancaq sizin xətrinizə dəyməsin, həqiqətən o, böyük şairdi. O sizin kimi belə asanlıqla şairlikdən əl çəkməzdi, çünki o, əsl şairdi, ağa. «Qırın zəncirləri, parçalayın siz!» — Bunu hər oğul deməz öz həmvətənlərinə, ağa.

Təzə qonaq çox danışdı, Şəfinin şerlərindən bir neçəsini əzbər söylədi. Bu, Şəfinin yaman xoşuna gəldi. Düşündü: «İki şeydən biridi:— ya bu həqiqətən bizim fikirli adamdı, ya da çox ustalıqla hazırlayıb mənim yanıma salıblar. Hər halda inanmaq lazım deyil».

— Sənin adın nədi, bəradər? — deyə Şəfi dəqiqləşdirmək istədi. «Bəlkə bizim yerlərdəki, vilayətlərdəki adamlarımızdandır?»

— Adım Xanəlidi, ağa. Bəs sizin adınız nədi, ağa?

Şəfi öz adını dedi. Bu adı eşidəndə Xanəlinin salamat qalan sol gözü geniş açıldı və sonsuz bir sevinc içində:

— Elə şey olmaz, ağa? Siz Məhəmməd Şəfi Rəhgüzərsiniz? Aman allah! —dedi və ayağa qalxıb irəli gəldi, onun dizinin üstünə

qoyduğu əlini tutub öpdü. — Mən xoşbəxtəm, ağa. Sizi gördüyümə, sizinlə tanış olduğuma görə çox xoşbəxtəm.

— Çox sağ ol, Xanəli.

— Mən sizi görməyi çoxdan, lap çoxdap arzulayırdım. Qismətə bax, gör gəlib sizinlə harda tanış oldum—dörd divar arasında. Ancaq eybi yoxdur, tezliklə burdan çıxarıq. Ədalət öz yerini tezliklə gəlib tutar. Həqq incəlir, amma üzülmür — deyirlər. Mən görürəm siz ruhdan düşmüsünüz, ağa. Nahaq yerə. Şair gərək dəmir iradəli olsun. Bəlkə qələm-kağızınız yoxdu, ona görə yazmırsınız? Hə? Mən sizin üçün yerin deşiyindən də olsa taparam, ağa. Təki siz yazın, yaradın. Sizin hər sözünüz qızıldan da qiymətlidir, ağa. Siz bizim bədbəxt millət üçün gərəksiz, çox gərəksiz.

Şəfi susur, şübhə ilə Xanəlinin salamat sol gözünün içinə baxır, bir şey oxumaq istəyirdi. Salamat göz isə parıltı ilə yanırdı.

ALTINCI FƏSİL

Həbsxana rəisinin kabinetinin böyründə dəmir qapılı bir otaq da vardı: qapının üstünə qara hərflərlə «istintaq otağı» sözləri yazılmışdı və Elməddin burada indiyə qədər bircə dəfə olmuşdu. Qolları qandallı gətirmişdilər, danışdırmışdılar, hədələmişdilər, sonra yenə aparmışdılar.

İndi də o qapının ağzına çatan kimi Elməddin anladı ki, yenə sorğu-sual başlanacaq, yenə o dazbaş, eynəkli müstəntiqin üzünü görəcək və nalayiq sözlərini eşidəcək. İkrah hissi duydu ürəyində. Mühafiz demək olar ki, onu itələyib saldı içəri. Otaq həmin otaq idi, müstəntiq də həmin müstəntiq. Ancaq arxası qapıya tərəf oturmuş çalsaç bir adam da vardı. Arxadan Elməddin onu tanıdı. Bu, Şəfi idi. Qəlbi çırpındı, ani olaraq özünü ustadın üstünə atmaq, qucaqlayıb əllərindən öpmək arzusu bütün vücudunu sardı, lakin dayandı: «Olmaz, olmaz!» — beynində özünə əmr elədi. Şəfi əvvəlcədən bilirdi ki, Elməddini gətirəcəklər, çünki müstəntiq yanındaca həbsxana rəisinə onu bura gətizdirməyi tapşırmışdı. Buna görə Şəfi Elməddinlə necə görüşəcəyini irəlicədən müəyyənləşdirmişdi. Şəfinin bu cavan oğlana yazığı gəlirdi, onun arzularına, ürəyinə yaxşı bələddi, onu heç nədən, yolunun lap başlanğıcında qurban vermək olmazdı. «Hər şeyə dözmək lazımdı, nəyin bahasına olursa-olsun onu xilas etmək gərəkdi. Nəcməddin də görünür, bacara bilmədi, azad elətdirə bilmədi

onu». — Şəfi belə düşünürdü və bütün fikri-zikri bunda idi ki, görüş zamanında özünü ləyaqətlə apara bilsin. O, Elməddindən qorxurdu ki, birdən dözə bilməz, hisslərini cilovlaya bilməz və onda hər şey məhv olub gedər.

— Yaxın gəl! — müstəntiqin cır səsi eşidildi və Elməddin əvvəllərdə olduğu kimi indi də təəccübləndi ki, o boyda adamın səsi görəsən niyə belə cırdı, cəhrə səsi kimi ciyildəyir? — Yaxın gəl, bax burda otur, müttəhim Elməddin! —deyə o, Şəfi ilə üzbəüzdəki stulu ona göstərdi.

Elməddin ləngərli addımlarla irəli yeridi, gəlib o deyən yerdə əyləşdi. Qabaq-qənşər oturdular və bir anlığa Şəfinin gözlərinin içinə baxa bildi. Onun iri, qonur gözləri kədərli olsa da, qorxusuz idi və bir arxayınlıq, təmkin təlqin eləyirdi. Ustad baxdı və üzünü yana çevirdi. Bununla da öz sözünü səssiz-səmirsiz demiş oldu. Elməddin düşündü ki, demək heç nə dəyişilməyib, xətti-hərəkət əvvəlcədən müəyyənləşdirilən kimi qalır. Amma bu ani baxışda da Elməddin ustadın nə qədər arıqladığını, saçlarının demək olar hamısının ağardığını görə bildi. Ancaq üzünün ifadəsi dəyişməmişdi — nuranilik yenə qalırdı, o işıq gözlərində hələ də yanırdı.

— Bəs niyə görüşmürsünüz?—deyə müstəntiqin cır səsi eşidiləndə hər ikisinin fikri qırıldı. — Dostlar beləmi görüşürlər? — Şəfi başını qaldırıb müstəntiqin çeşməyinə baxdı və təmkinli səslə soruşdu:

— Siz, ağayi müstəntiq, bizim dost olduğumuzu dəfələrlə israr etmisiniz. Ancaq mən yenə deyirəm, biz dost deyilik. O ayrı məsələ ki, bəlkə bundan sonra, siz iltifat eləyib bizi tanış eləyəndən sonra dost olaq, çox güman ki, dost da olacağıq.

— Bəs siz onun karikaturasını, şerlərini elə-belə, görməzə, bilməzə çap edirdiniz?

— Bəli, ağayi müstəntiq. Mən mühərrirəm, mənim üçün fərqi yoxdur, bu şeri kim yazıb, ya rəsmi kim çəkib, xoşuma gəlirsə dərc edirəm. Əgər siz də göndərsəydiniz, xoşum gəlsəydi, çap edərdim.

— Doğrudan? Şəxsən məni tanımasanız da?

— Bəli. İnanın ki, hə, dərc edərdim.

— Siz əməlli-başlı demokrat mühərrirsiniz ki, şair!

— Mətbuatın qanunu belədir. Biz müəllifinə görə əsərə qiymət vermirik, əsərə görə müəllifini qiymətləndiririk.

— Sizin fikrinizcə, Elməddinin əsərləri — şerləri, rəsmləri çox qiymətli əsərlərdir?..

— Bəli, ağayi müstəntiq. Karikaturaları həyatidir, mənalıdır, şerləri isə səmimidir — mən buna görə çap etmişəm onları.

— Demək siz israr edirsiniz ki, şəxsən Elməddini tanımırsınız, eləmi?

— Bəli, şəxsən tanımırdım, siz bizi bu dörd divar arasında tanış eləyənə qədər tanımırdım. Bizi tanış etdiyiniz üçün sizə təşəkkür edirəm.

Elməddin də sözə qoşuldu:

— Bəli, ağayi müstəntiq. Mən də sizə təşəkkür edirəm. Mən onu qiyabən çoxdan tanıyırdım, şerlərini sevə-sevə oxuyurdum, ancaq üzünü görməmişdim. Yazılarımı göndərirdim, çap eləyirdi. Neçə dəfə də, yanına gedib minnətdarlığımı bildirmək istəmişəm, ancaq düzü utanmışam, çəkinmişəm. Müstəntiq burnunun üstünə düşmüş çeşməyini qaldırıb:

— Bəs «Nə etmək lazımdır?» məqaləsinin müəllifini necə?.. Onu da tanımırsınız? — deyə soruşdu.

— Xeyr, tanımıram. Amma ümid eləyirəm bir gün o qeyrətli oğulla da tanış olacağam.

— Adını deyin, yarım saatdan sonra sizi burdaca görüşdürüm, — deyə müstəntiq hiyləgərcəsinə qımışdı.

— Adı sizə yaxşı məlumdu. Mən imzasız çap eləməmişəm o məqaləni.

— O da əsl adı deyil, həmin ünvanda elə adam yaşamır.

— Daha o mənim işim deyil, ağayi müstəntiq.

— Siz yaxşı mühərrirsiniz, şair, öz həmkarlarınızı ələ vermək istəmirsiniz. Ancaq səhv edirsiniz. Bizə hər şey məlumdur. Biz istəyirdik ki, sizin işiniz yüngül olsun. Necə də olsa, siz bizim məmləkətin adlı-sanlı şairisiniz, sizin kimi adamlarımız çox azdı, siz yaşamalısınız, yaratmalısınız... Amma, görünür, siz öz qədir-qiymətinizi bilən adam deyilsiniz. Qoşulubsunuz beş-üç başıpozuq adama, öz həyatınızı təhlükə altına qoyursunuz.

Elməddin ustada baxdı: o, kinayə ilə gülümsünüb heç nə demədikdə Elməddin söylədi:

— Qızıl öz qiymətini bilməz, ağa, qızılın sahibi onun qiymətini bilməlidir. Axmağın əlində qızıl da dəmir kimi bir şeydir.

Müstəntiq Elməddinə əyri-əyri baxdı, nə isə demək istədi, ancaq susdu, durub gəzinməyə başladı. Əllərini arxasında daraqlayıb dedi:

— Biz indiyə qədər sizə, şair, hörmət eləmişik. Demişik ağıllı adamsınız, öz səhvinizi başa düşərsiniz, etiraf edərsiniz. Etiraf isə sizin işinizi çox yüngülləşdirərdi. Amma gördük yox, siz özünüz haqqında əsla düşünmürsünüz... Odur ki, biz indi sizinlə başqa dildə danışmalı olacağıq. — Susub əlavə elədi. — Son dəfə deyirəm, hətta xahiş edirəm, siz hər şeyi açıq-aydın deyin.

— Axı nəyi açıq-aydın deyim, ağayi müstəntit? Müstəntiq gəlib onun qabağında dayandı:

— Məsələn, deyin görüm sizin bu gizli təşkilatın adı nədir? Nə vaxt yaranıb, başçısı kimdir, üzvləri kimdir, məqsədiniz nədir? — Bunları deyin, canınızı qurtarın, şair.

Şəfi dizlərinin üstünə qoyduğu qandallı əllərindən; gözlərini çəkib müstəntiqə baxdı:

— Mən demişəm sizə, yenə deyirəm, bizim gizli bir təşkilatımız-filanımız yoxdur. Əgər buna inanmırsınızsa, təşkilat mən özüməm, başçısı da mən özüməm, üzvü də mən özüməm. Əgər məni təşkilat hesab eləyirsinizsə, durmuşam hüzurunuzda. Bundan sarı günahsız adamları məhv etməyin. Bax, bu cavanlara yazığınız gəlsin.

— Demək, boyun olmursunuz.

— Daha mən bilmirəm boyun olmaq nə deməkdir?! Siz zorla deyirsiniz ki, təşkilatınız var. Cavab verirəm ki, yoxdur, inanmırsınız. Onda məcbur olub deyirəm ki, təşkilat mənəm. Buna da inanmırsınız.

— Demək, bu sizin son sözünüzdür?

— Bəli, son sözümdür.

— Məncə, yox. Son sözünüzü hələ deməmisiniz, ancaq indi deyəcəksiniz...

Müstəntiq bu sözləri çox sakit dedi, ancaq səsində bir qətiyyət vardı. Elməddinin ürəyi əsdi. «İşkəncə verəcəklər. Aman allah, mənim yanımda... Yox, mən bunu görmək istəmirəm, istəmirəm...» — deyə düşündü və üzünü müstəntiqə tutdu:

— Əmr eləyin gəlib məni aparsınlar... Əlbəttə, əgər mənə aid sualınız yoxsa...

— Xeyr, siz burda olmalısınız... — Rəsmi şəkildə deyilən bu sözlər Elməddini üşütdü.

Müstəntiq ətraflı öyrənmişdi ki, Şəfi ilə Elməddin yaxın dostdurlar. Dərd-sərləri birdi, məqsədləri birdi. Elməddin onu çox sevir. Amma inkar edir hər ikisi. Yeganə çarə buna qalıb ki, Şəfiyə onun yanında cəza versinlər, Şəfi sussa da, Elməddin dözməyib açıb deyəcək. Əgər bu da baş tutmasa, onda Elməddinin özünü möhkəmcə

sıxışdırmaq, əzab vermək lazımdı. Cavandı, təcrübəsizdi, özünü saxlaya bilməyəcək, sirrin üstünü — müəmmanı açacaq...

Müstəntiq qapıya sarı getdikdə Şəfi Elməddinə tərəf döndü, başını azca tərpətməklə salam verdi, gülümsündü, dodaqlarını astaca tərpətməklə: «qorxma, möhkəm ol!»—dedi. Elməddinin gözlərindəki kədəri görüb ani olaraq tutuldu və sonra ərkyana acıqlandı, yəni «bu nədir, özünü ələ al!»...

Müstəntiq qapını açıb çöldə dayanan mühafizə nə isə dedi və qayıdıb gəldi. Az sonra içəri ucaboy, sağlambədənli, qartalburunlu bir adam girdi. Qeyri-iradi olaraq Şəfi də, Elməddin də dönüb ona baxdı. Gələn adam da yoxlayıcı nəzərlərlə oturanları süzdü, hər ikisinin cüssəcə özündən zəif olduğunu görüb məmnun halda boğazını arıtladı. Müstəntiq ona baxıb göz vurdu və başı ilə Şəfini göstərərək dedi:

— Dostməmməd, bu ağa danışmır axı! Dostməmməd hırıldadı və bu hırıltıda bir qeyri-adilik olduğunu müttəhimlərin hər ikisi duydu.

— Neynək, indi bülbül kimi danışar, ağayi müstəntiq.. — O, qabağa gəldi, Şəfinin qənşərində dayandı, təpədən dırnağa onu süzüb yenə hırıldadı: — Bu danışmır? Dur ayağa. Dur ayağa bir görüm?

Şəfi başını qaldırıb nifrətlə onun xırda, ət basmış gözlərinin içinə baxdı, ancaq tərpənmədi. Bu zaman Dostməmməd əl atıb onun qolundan yapışdı və quş kimi qaldırdı. Üzbəsurət dayandılar.

— Dilin yoxdur?

— Dilini çıxart görüm?

— Sənlə deyiləm, dilini çıxart görüm? Dilin yoxdu danışmırsan, ya özünü tulkülüyə vurmusan?

— Hə, deyəsən, bunun doğrudan da dili yoxdur. Nəhayət, Şəfi özünü saxlaya bilmədi, dişlərini sıxıb qıcırdada-qıcırdada:

— Sən səhv eləyirsən, dilim də var, hələ tüpürcəyim də var! — dedi və düz Dostməmmədin gözlərinin içinə tüpürdü. Elməddinin rəngi ağappaq ağardı. «İndi öldürəcək, nahaq belə elədin, ustad»— deyə düşündü və indicə Şəfini vuracağını duyub gözlərini yumdu, görməsin deyə. Dostməmməd arxayın-arxayın sol əli ilə üzünün tüpürcəyini sildi, dönüb müstəntiqə baxdı. Neçə ildi burda işləyirdi, ancaq hələ belə şey görməmişdi Dostməmməd. Şəfinin bu hərəkəti onu elə qəzəbləndirdi ki, kücü birə-on artdı və o, gözlərini ondan çəkməyən bu cəsarətli dustaqdan ürəyindən tikan çıxara bilən bir intnqam almaq eşqilə sevindi də. Və onu da başa düşdü ki, indiyə qədər heç kəsə belə əzab verməyib ürəkdən. Çünki günahının nə olduğunu bilməyən adamları döyüb, heç kəs ona çırtma da vurmayıb.

Belə adamlara haradasa, ürəyinin dərinliklərində yazığı da gəlib. Hiss eləyib ki, zərbələri ürəkdən vurmayıb, vura bilməyib... Amma indi... İndi bu kim idi ki, belə ağız bəhəm eləmişdi, onun gözünün içinə tüpürmüşdü? «Siz nə üçün ona əzab verirsiniz, bilmirəm, ancaq mən o tüpürcək üçün onu şil-küt eləyəcəyəm» — deyə o, ürəyində müstəntiqə müraciət elədi və sağ yumruğu ilə Şəfinin bir az əvvəl üzünə tüpürdüyü ağzına taraz bir yumruq ilişdirdi. Zərbə elə küclü oldu ki, Şəfi kökündən kəsilmiş ağac kimi yerindən qopdu və arxası üstə döşəməyə yıxıldı. Dodaqları partladı. Gözləri böyüdü Şəfinin, Dostməmməd irəli cumub qəzəblə onu yerdən qaldırdı, qarşısında dayandı:

— Hə, necədi?

Şəfi bu dəfə ağzını doldurmuş qanı Dostməmmədin üzünə tupürdükdə hiss elədi ki, qan qarışıq dişlərinin neçəsi də onun sifətinə dəyib taqqıltı ilə yerə düşdü.

Quduza dönmüş Dostməmməd bu dəfə Şəfinin qarnına yumruqla elə vurdu ki, o, yenə müvazinətini saxlaya bilməyib yerə sərildi. Dostməmməd sakitləşmirdi: üzünə, başına, qarnına döyürdü — təpiklə, yumruqla. Şəfi yerində qıvrılırdı, çırpınırdı. Nəhayət, taqətdən düşdü, hərəkətsiz qaldıqda Dostməmməd tövşüyə-tövşüyə geri çəkildi. Elməddin dözə bilmirdi, içəridə inildəyirdi. Ancaq əlləri bağlı idi deyə çarəsiz susurdu. Baxmağa da ürəyi gəlmirdi. Müstəntiqə diqqət verirdi; o, sakitcə oturub bu qanlı mənzərəni seyr eləyirdi.

Dostməmməd qanlı üzünü çevirib Elməddinə nəzər saldı:

— Bunu da?

— Yox, hələ yox.

Dostməmməd cibindən əzik bir dəsmal çıxarıb sifətini sildi və gülə-gülə döşəməyə düşmüş dişləri yığıb müstəntiqin stolunun üstünə qoydu, yenə hırıldadı:

— Qarnına gedənləri deyə bilmərəm, səkkiz dişi burdadı.

— Gör özünə gəldi?

Dostməmməd əyilib Şəfiyə nəzər saldı.

— Gətir özünə, ayılt!..

Dostməmməd cibindən ağ, yaraşıqlı bir kəlbətin çıxartdı və Şəfinin üstünə əyildi. Elməddin başa düşdü ki, dırnaqlarını qopartmaqla ayıltmaq istəyir cəllad onu! Gözünü yumdu.

Bir an sonra Şəfi inilti ilə qışqırdı. Sonra iki dəfə də inildədi. Demək üç dırnağını çıxartdı.

— Deyəsən ayıldı?

— Bəs necə? Ayıldı da sözdü...

— Durğuz oturt burda.

Şəfini qaldırıb stulda oturtdu Dostməmməd. İndi Elməddin ona diqqətlə baxa bildi. Ustadın üzündə qan qalmamışdı. Ağzı, dodaqları şişmişdi. Təkcə gözləri ağarırdı və onlarda Elməddinin indiyənəcən görmədiyi bir ağrı-əzab ifadəsi vardı. Əllərinə baxırdı...

— Hə, danışırsan, ya yox? — deyə müstəntiq heç bir şey olmamış kimi arxayın-arxayın xəbər alanda Şəfi baxışlarını qaldırdı, xeyli, səssiz-səmirsiz ona qəzəb dolu nəzərlərlə tamaşa elədi və şişib partlamış dodaqlarını güclə tərpədərək:

— Dağın... donu... dəyişər, amma... yönü dəyişməz, ağayi müstəntiq! — dedi.

Müstəntiq Dostməmmədin üzünə baxıb çiyinlərini çəkdi.

YEDDİNCİ FƏSİL

Elməddini indicə buraxdılar. «Sən azadsan!» — dedi həbsxana rəisi. Əlbəttə, Elməddin bu xəbərə çox sevindi, deyəsən çoxdandı belə sevinməmişdi. Geri qayıtmağa, dustaq yoldaşları ilə görüşüb xudahafizləşməyə izacə vermədilər. Elə ordanca yola saldılar. Şəfini də görmək mümkün olmadı.

Bayırda təmiz, soyuq bir hava vardı. Göylər tutqun idi, geniş idi. Küçə də elə bil enlənmişdi, ora-bura tələsən adamlar da sanki dəyişmişdilər... Əslində, heç nə dəyişməmişdi, küçə də, adamlar da... Sadəcə, Elməddinin gözləri bu mənzərələrdən yadırğamışdı, ona hər şey başqa cür görünürdü.

Yanında pulu yox idi ki, taksiyə minsin. Evə xəbər göndərmədi ki, dalınca maşın gəlsin... «Elə-belə yaxşıdı. Qoy xəbərsiz-ətərsiz gedim — birdən. Görüm Zərrintac xanım neyləyir...» O, azad olmağına sevinsə də ürəyində ağır bir hiss vardı. Üç gün idi ki, özünə gələ bilmirdi. Şəfinin— əziz ustadının gözləri qabağında döyülməsi, o cür saf və büllur insanın şüşə kimi ayaqlar altına atılıb çilik-çilik edilməsi onu yaman yandırmışdı və qəlbində çiynipaqonlu, daşürəkli adamlara – müstəntiqə və heyvərə Dostməmmədə sonsuz, nəhayəti görünməyən bir nifrət yaranmışdı. Ona elə gəlirdi ki, bu nifrəti heç nə — hətta o murdar adamların qanı da yuyub apara bilməz... Əlində ixtiyar və imkan olsaydı, o, cəllad Dostməmmədi öz əlilə güllələyərdi, uf da deməzdi. Ancaq nə etməli? Hələ bizim bu cür imkanımız

yoxdu. Kec-tez olacaq amma. Onda o Dostməmmədi tapmaq, «xəcalətindən» çıxmaq mənə borc olsun... Şəfini öldürəcəklər onlar. Onu xilas etmək lazımdı... Nəyin bahasına olur-olsun... xilas etməliyik onu!».. Elməddin nəyə baxırdısa, hara baxırdısa, o qanlı-əzablı mənzərəni görürdü, heç cür unuda bilmirdi.

O biri yandan da, həbsxanada yatdığı aylar ərzində Zərrintac xanımın onun yanına bircə dəfə də gəlməməsi, ancaq atası və Əhədulla vasitəsi ilə soraq tutması Elməddinin qəlbində ağrılı-acılı bir hiss yaratmışdı və nə qədər çalışırdısa, bu hissi özündən uzaqlaşdıra bilmirdi. Bərk incimişdi də. Ancaq sonralar fikirləşmişdi ki, bəlkə Nəcməddin kimi nüfuzlu bir şəxsin qızı gəlib həbsxanalar qapısında boynunu burmayacaqdı ki? Bu, onun nə vəziyyətinə yaraşırdı, nə gözəlliyinə. Vaxt ötdükcə, sıxıntılı, sorğulu-suallı günlər arxada qaldıqca umu-küsü, inciklik hissi azalmış, o öz taleyi ilə barışmışdı və bunun yerini təklik hissi, duyğusu tutmuşdu. Hərdən bərk darıxıb yata bilmədiyi narahat gecələrdə, təzə ailə qursa da, Nəcməddin kimi köklü-köməcli bir kişinin qohumu olmaq şərəfinə nail olsa da, əslində o ocaqda, o evdə tək olduğunu düşünmüş, özünü kimsəsiz saymışdı və yalnız belə anlarda bu izdivacın boşluğu və mənasızlığı ona gün kimi aşkar olmuşdu. İndi şəhərin küçələri ilə fikirli-fikirli, əzik-üzük paltarda addımladıqca düşünürdü ki, Zərrintac xanım dörd aya yaxın çəkmiş bu ayrılıqdan sonra, ilk görüş dəqiqələrnndə, sevinə-sevinə, bəlkə də ağlaya-ağlaya onun qabağına çıxacaq, boynuna sarılıb hıçqıra-hıçqıra — «Xoş gəlmisən, əzizim!» — deyəcək. Bu xoş xəyallar, arzular onun nisgilli qəlbini azca da olsa isindirirdi...

Ancaq, təəssüf ki, bu da Elməddinin gözlədiyi kimi olmadı.

Darvaza qapısını Elməddinin üzünü görmədiyi Siminbər açdı. Siminbər ədəblə ondan soruşdu:

— Kimi istəyirsiniz, ağa?..

Elməddin qızı o saat tanıdı; başa düşdü ki, bu, Əhədullanın qızıdı. Əhədulla yanına gələndə demişdi ki, qızı qoymuşam gəlinbacının yanında, darıxmasın!

— Sən Əhədullanın qızısan?

— Bəli, ağa.

— Mən də Elməddinəm...

Siminbər «Elməddin» adını eşndəndə kəpənək kimi qanad açıb evə qaçdı və sevinə-sevinə:

— Xanım, muştuluğumu ver, ağam Elməddin gəldi... — dedi. — Ağam Elməddin gəldi.

Elməddin artıq həyətdə idi. Zərrintac artırmaya çıxmışdı. Hər ikisi yerində donub qalmışdı; nə kişi irəli gəlirdi, nə qadın. Eləcə bir-birlərinə baxırdılar. Elməddin gülümsünürdü, sifətini bir təbəssüm işıqlandırırdı. Zərrintac xanım isə gözlərini qıyıb onun arıqlamış, uzanmış sifətinə, əzilmiş paltarına baxır, heç nə demirdi. Neçə an beləcə keçdi. Siminbər də, maraqlı bir səhnəyə tamaşa eləyirmiş kimi, gah Elməddinə, gah da Zərrintac xanıma nəzər salırdı.

Nəhayət, Zərrintac xanımın kiçik, bir az da qəzəbli səsi eşidildi:

— Daha niyə hırıldayırsan? Çox yaxşı iş görmüsən?

Elməddinin üzündəki təbəssüm öldü, bədənini soyuq bir gizilti gəzdi, dolaşdı. «Məni də burda sındırdılar!..» — fikri damarlarındakı qanı dondurdu. Zərrintacın bu kobud sözlərini eşidəndən sonra Siminbər məyus halda ordan kölgə kimi çəkilib getdi.

Elməddin bir anlığa nə edəcəyini bilmədi. Sonra, qorxaq, qətiyyətsiz addımlarla irəli gəldi, Zərrintacın qabağında dayandı. Onun gözlərinin içinə fikir verdi. Əlini irəli uzadıb:

— Xoş gördük, Zərri!— dedi... Bir anlığa əli havada asılı qalan Elməddin hansı hissin təsiri iləsə birdən qolunu qaldırıb arvadının boynunu qucaqladı, saçlarını sığalladı, dodaqlarından öpdü. Zərrintac ani olaraq etiraz eləmək, çəkilmək istədi, ancaq süstəldi və başını onun çiyninə qoyub ağladı...

— Daha niyə ağlayırsan?... Sağ-salamat gəlib çıxmışam... Sevinmək əvəzinə ağlayırsan?..

—…

...Elməddin çimmişdi, paltarlarını dəyişmişdi. Üzünü qırxıb rahatlanmışdı. Zərrintacın qırışığı bir az açılmışdı. Divanda əyləşib söhbət eləyirdilər.

— Hə, danış görək, mənsiz necə yaşayırdın, Zərrim?!

— Yaşayırdım da. Səndən qabaq necə yaşamışdımsa, sənsiz də elə...

— Darıxmırdın mənsiz?

—…

— Demək darıxmırmışsan!.. — Elməddin incik halda köks ötürdü və bu söhbəti dəyişmək üçün soruşdu: — Qibləgahın necədi, Dünya xanım necədi?..

— Yaxşıdırlar. Yaşayırlar. Kişi ancaq xəstədi. Ürəyi yaman incidir... On gündən çoxdu... evdən çıxmır.

— ƏHədulla gəlib-gedirmi?

— Hə, sağ olsun. Qızını gətirib qoyub yanımda. Bazarlığımı eləyir.

— Bəs Şəfinin ailəsindən nə xəbər var?..

— Hərdən zəng eləyir arvadı... Onu da buraxdılar?

— Yox.

— Bəs səni niyə buraxdılar?

— Ağayi Nəcməddinin sayeyi-mərhəmətindən... buraxdılar... Bir də... mənim heç bir günahım yox idi axı?.. Zərrintac nazik qaşlarını çatdı:

— Heç bir günahın yox idi?

— Hə!

— Günahsız adamı heç vaxt tutub həbsxanaya salmazlar, Elməddin.

— Eh, Zərrim, sən bilmirsən, o qədər nahaq işlər olur, o qədər günahsız adamlar o xarabada çürüyür! Sən oturubsan burda, heç nədən xəbərin yoxdu...

— Mən heç bilmək də istəmirəm. Bütün bunların sənə də heç bir dəxli yoxdur, Elməddin. Sənin o dəstə ilə, o şərəşur dəstə ilə heç bir əlaqən olmamalıdır. Axı sənin nəyin yoxdur? Sən nə əldə etmək istəyirsən ki, o, səndə yoxdur? Maşının, evin-eşiyin, vəzifən... Yoxsa padşah olmaq fikrinə düşübsən, hə? Cavab ver, niyə dinmirsən?

—…

— Dilin yoxdur cavab verməyə...

—…

Elməddin tam aydınlığı ilə anladı ki, belə məsələlər barədə Zərrintac xanımla danışmağın qətiyyən faydası yoxdur. O, başqa bir dünyanın adamıdı — o bu dərdləri başa düşməkdən çox-çox uzaqdadı. Susdu...

SƏKKİZİNCİ FƏSİL

Məleykə Elməddini həyətdə görəndə özünü itirdi, əvvəl gözlərinə inanmadı. Sonra tanıyıb uşaq kimi qabağına qaçdı:

— Xoş gəlibsən, ay qardaş! — dedi və gözləri ilə onun dalınca gəlməli olan Şəfini axtardı; o yox idi, Elməddin tək gəlmişdi.

— Çox sağ ol, bacım.

Məleykə ağladı. Elə bil onun gəlişini gözləyirmiş, leysan kimi göz yaşı axıtdı.

— Ağlama, bacı.

— Bəs Şəfi hanı, ustadın hanı, qardaş?..

— Keçək içəri, Məleykə xanım.

Onlar evə keçdilər, elə dəhlizdə uşaqlar Elməddini görüb qabağına qaçdılar. Elməddin Bəbrəki də, Rəbiəni də, Jaləni də bağrına basıb öpdü. Onun da gözləri doldu. Uşaqlar sınıxmışdılar. Üzlərində, gözlərində bir nisgil oxunurdu — atasızlıq nisgili. Şəfi son illər heç vaxt bu qədər uzun müddətə evdən getməmişdi. İki-üç günlüyünə gedəndə də uşaqlar ondan sarı yamanca darıxardılar. Elə Şəfi özü də... İndi isə... gör yazıqlar nə qədərdi mehriban, sevimli atalarını görmürdülər?.. Əlbəttə, sınıxardılar. Solardılar...

Bəbrəkin ağlamsınan səsi eşidildi:

— Bəs qibləgahım hanı, Elməddin əmi?

— Gələcək, Bəbrək, gələcək! — deyə o, Bəbrəkin cod saçlarını tumarladı. Mən dünən görmüşəm onu, sağ-salamatdı, vallah, Məleykə bacı. — O, üzünü Məleykəyə tutdu: — Lap yaxşıdı... Ancaq bir az dişləri ağrıyır. Vəssalam.

— Əyləş, Elməddin qardaş, ayaq üstə niyə durmusan? — Kədərlə Məleykə söylədi, — otur, dincəl.

Elməddin dəhlizdəki mizin arxasında oturdu. Qıçını-qıçının üstünə aşırdı. Evə, dər-divara göz gəzdirdi. Hər şey əvvəlki qaydada qalırdı. Təkcə Şəfi yox idi,

— Necə dolanırsınız, Məleykə bacı?..

— Babat. Sağ ol. Dolanışıqdan korluğumuz yoxdu, əlhəmdüllah. Dərdimiz təkcə Şəfi dərdidi, Elməddin qardaş. Bu uşaqların ürəyi kabab-büryan olub. Gözləri yolda qalıb balalarımın səhər-axşam. Hər gün azı on dəfə soruşurlar. Məktəbdən gəlirlər, soruşurlar: qibləgahım gəlmədi? Yuxudan dururlar, soruşurlar, gəlmədi? Cavab verməkdən yorulmuşam.

— Darıxma, bacı. Lap tezliklə gələcək. Qətiyyən nigaran olmayın.

— Axı nə deyirlər?

— Heç nə! Sadəcə incitmək istəyirlər, qorxutmaq istəyirlər, vəssalam. Qorxurlar, sadəcə!.

— Nə bilim, ay qardaş. Mən qorxuram kişini tələf eləyərlər.

— Yox, onu bacara bilməzlər, Məleykə bacı. Qətiyyən bacara bilməzlər. Ustad balaca adam deyil ki, onu asanlıqla tələf eləmək mümkün olsun. Yox. Qorxularından bunu heç cür eləyə bilməzlər. Çünki o, tək deyil, onun arxasında bütün el-oba durub. Düşmən elə də ağılsız deyil.

— Təki sən deyən olsun, qardaş,

— Yoldaşlardan gəlib-gedən varmı?

— Hə, sağ olsunlar. Ziyaülhəqq tez-tez baş çəkir, təsəlli verir.

— O mənə lazımdı. Ustadı qurtarmaq üçün bəzi işlər görməliyik. Bu gün onunla görüşəcəyəm. Ustadın bir-iki sözünü ona çatdırmalıyam.

— Sağ ol, ay qardaş. Onun da sizdən başqa kimi var ki. Gərək bir-birinizin dadına çatasınız. Sən haçan gəlmisən, Elməddin?

— Bu gün səhər. Hələ heç ağayi Nəcməddini görməmişəm. Birinci bura gəlmişəm. Dedim görüm necəsiniz.

— Ömrün uzun olsun. Zərrintac xanım necədi?

— Yaxşıdı...

— Zəng eləyib gözaydınlığı verərəm.

— Dəyməz, Məleykə bacı!.. — Elməddin, köks ötürdü.

— Bıy, necə dəyməz, qardaş?

— Dəyməz, deyirəm.

Məleykə onu başa düşdü: həssas idi, bu sözün altında gizlənən bütün mənaları anladı Məleykə... Ona görə daha heç nə demədi.

Elməddin ayağa qalxdı.

— Mən gedim.

— Çaydan-çörəkdən bir şey yeyəydin də.

— Yox. Toxam, bacı, sağ ol. — Sonra o, əlini qoyun cibinə atıb on dənə göy minlik çıxartdı və stolun üstünə qoydu. — Xərclərsiniz... Uşaqlara korluq vermə, bacı.

— Pulumuz var, Elməddin qardaş. Ziya qardaş da vermişdi...

— Olsa da, olmasa da. Lazım olar, bacı...

...Ziyaülhəqq Elməddinlə söhbət eləyəndən, Şəfinin həbsxana divarları arasındakı həyatını öyrənəndən, işgəncələrini — döyülməyini, dişlərinin vurulub tökülməyini, dırnaqlarının çıxarılmasını, nəhayət, srağagündən aclıq elan etdiyini eşidəndən sonra, Elməddinin yanında çox qala bilməmişdi. Elməddin bütün bu əhvalatları ona gözləri yaşara-yaşara danışmışdı. Ziyaülhəqq — o soyuqqanlı və təmkinli adam da bu söhbətləri tam əsəbilik şəraitində dinləmiş, bütün əsas məsələləri özü üçün aydınlaşdırandan sonra onunla xudahafizləşib, demək olar ki, başılovlu getmişdi. O açıq deməsəydi də, Elməddin anlamışdı ki, Bəbirin yanına gedir...

Yalnız bundan sonra Elməddnn özündə tam bir sakitlik hiss etmişdi. Zərrintacla görüşündən aldığı ağır təəssüratı unudaraq birbaş ağayi Nəcməddinin yanına yollanmışdı. Onu həyətdə Dünya xanım

qarşıladı. Təbii ki, Dünya xanım onu görən kimi çox sevindi. Elməddin həyətə köz gəzdirib Əbdülü görməyəndə:

— Bəs Əbdül hanı ki, qapını sən açırsan? — deyə xəbər aldıqda Dünya xanım yaralı yerinə toxunulmuş adam kimi qüssəli-qüssəli cavab verdi:

— Yoxdu, harasa gedib!.. — Və bu xoşagəlməz söz-söhbətdən qaçmaq üçün dönüb dedi: — Bəs Zərrintac xanımı niyə gətirmədin?

— Nə bilim. Elə dedim bir sizə baş çəkim... Sonra bir yerdə gələrik. Kişi necədi?

— Kişidi də. Böyrünü verib yerə. Yatır.

— Axı nə olub ona?

— Bilmirəm, ağa. Deyir ürəyim ağrıyır... Darvazadan pilləkənlərə qədər olan bu qısa məsafədəki söhbət zamanı Elməddin Dünyaya gözucu olsa da diqqət yetirdi və anladı ki, deyəsən bu evdə də gözəgörünməz, tamaşaçısız bir dram cərəyan etməkdədir; kişinin — top kimi sağlam Nəcməddinin birdən-birə beləcə düşməsi, onun fikrincə, əbəs ola bilməzdi. Çünki Elməddin lap əvvəldən, bu gözəl, mələksimalı qadını görəndə başa düşmüşdü ki, Nəcməddin onun qayınatası səadətini onda tapdığı kimi, bədbəxtliyini də onda tapmalıdı. Belə qadınlar — gözəl, hal əhli olan, incə zövqə malik, şer, musiqi ölüsü olan bu cür gözəllər həyatın min cür dürlü macəralarından uzaqda dayanmağa qadir deyillər və gec-tez onlar belə macəraların əvvəl tamaşaçısı, sonra iştirakçısı, daha sonra isə qurbanı olurlar!

Dünya Elməddinin üzünə gülümsündü, hətta danışığında, rəftarında artıq, kənardan baxan adam üçüp şit və yersiz görünən çalarlar vardı. Dünyanı bəlkə də bunun üçün qınamaq olmazdı, onun təbiəti, xasiyyəti beləydi. Ancaq bütün bunlar kənar adamda onun xəmiri yumşaq, həlimxasiyyətli qadın olması barədə təsəvvür yaradırdı. Və belə təsəvvür, bu ocağın başına gələn adamda pis duyğular oyada bilərdi. Kişilər isə belə qadınlara daha çox meyl edir, onların tez yoldan çıxa biləcəyinə ümid bəsləyirlər və girişirlər. Tutar qatıq, tutmaz ayran! Dünya ilk gündən Elməddində belə təəssürat oyatmışdı. Çox təəssüf ki, bu təəssüratı o, heç cür xəyalının lövhəsindən silə bilmirdi.

«Qadınsan, özü də Nəcməddin kimi bir kişinin qadınısan. Sənə belə rəftar yaramaz, Dünya. Mən sənin qohumun da olsam, sənin belə naz-qəmzə ilə, bəzən işvə ilə danışmağın artıqdı, lap artıqdı. Ola bilsin sən heç də pis qadın deyilsən, ayağısürüşkən deyilsən, səni yüz kişinin içinə də buraxmaq olar, Dünya. Sən burdan salamat, aydan

arı, sudan duru çıxa bilərsən. Ancaq rəftarın elədi ki, kənar adamlar sənin haqqında çox tez pis fikrə düşə bilərlər. Amandı, özünü bu pis təsəvvürlərdən qoru. Özün üçün, uşağın üçün, ərin üçün!!»

Elməddin belə düşünür, hətta qəlbinin dərinliklərində qərara gəlirdi ki, bütün bu sözləri bir gün, münasib fürsət düşəndə onun özünə desin. «Hələlik qoy qalsın, sonra danışaram» — dedi ürəyində.

— Səni görməyimə çox şadam, Elməddin. O qədər darıxmışdıq ki, sənin üçün. Çox şükür olsun pərvərdigara ki, sağ-salamat qayıdıb gəlmisən, — dedi Dünya xanım.

Elməddin çox soyuq bir tərzdə:

— Sağ ol... — dedi.

Dünya ondan qabaq içəri qaçdı, çarpayıda uzanmış Nəcməddinə xəbər verdi:

— Kişi, gözün aydın, Elməddin gəldi.

Nəcməddin hələ gözünü açmamış, o, içəri girdi. Qapıpın ağzında ayaq saxlayıb Nəcməddinə baxdı. Kişi ağ yorğan-döşəkdə uzanmışdı. Neçə vaxtdı, görünür, üzünü qırxdırmamışdı — ağappaq saqqalı uzanmış, gözlərinin altı torbalanmış, qaynar gözləri çuxura düşmüşdü. Ancaq ağ qaşlarının altında gözləri qəribə bir parıltı ilə alışıb-yanırdı. Əlini yorğanın altından çıxartdı. Əli də ağarmışdı, barmaqları sanki uzanmışdı, göy damarları görünürdü.

— Gəldin, oğul?... — deyə o, qapı ağzında dayanan Elməddini seçib tanıdı və zəif səslə müraciət etdi: — Sən gəlib çıxdın?

— Gəldim, qibləgahım... —deyə o da, Nəcməddinin «oğul» sözündən kövrəlib ilk dəfə ona «qibləgahım» dedi və irəli yeridi, onun boynunu qucaqlayıb alnından öpdü.

— Xoş gəlibsən, oğul...

— Sağ ol, qibləgahım!! — Onun səsindəki səmimiyyət, mehribanlıq kişinin qəlbini lap kövrəltdi və parıldayan gözlərinin bulaqlarında yaş giləndi.

— Sənə nə olub, qibləgahım?

— Heeçç... Elə,.. belə... yəqin... qocalıqdı...

Elməddin yaranan kövrək əhvali-ruhiyyəni dağıtmaq üçün gülümsündü:

— Nə danışırsan, qibləgahım? Qocalıq nədi, zad nədi? Görünür, sadəcə yorulubsan, vəssalam.

— Yox... Məni heç nə yıxa bilməzdi... Məni... heç allah özü də yıxa bilməzdi, oğul... — dedi Nəcməddin və bu sözlərdən sonra

dikəldi, oturdu. Elməddin ona kömək elədi və anladı ki, onu nə isə başqa şey yorğan-döşəyə salıb... Ancaq özünü o yerə qoymadı...

DOQQUZUNCU FƏSİL

Bəbrək hər gün məktəbdən saat birdə gəlirdi. Ancaq bu gün nədənsə gecikirdi. Saat üç olmuşdu, lakin o, hələ gəlib çıxmamışdı. Məleykə xanım bərk nigarançılıq hissi keçirirdi: «bu uşaq harda qaldı?»—deyə həyət-bacada vurnuxur, küçəyə çıxır, yollara baxırdı. Ananın ürəyinə cürbəcür qara fikirlər gəlir, qəlbini didib-parçalayırdı. «Qaraçuxamız yatıb. Dilim-ağzım qurusun, balam maşın-zad altına düşər birdən» — deyə aram ola bilmirdi.

Nəhayət, saat beşdə Bəbrək çantasını yelləyə-yelləyə gəldi. Məleykə aynabənddən onun sağ-salamat gəldiyini göpəndə əvvəl çox sevindi: — «Şükür sənə, pərvərdigara!» — söylədi öz-özünə. Ancaq bir an sonra qəzəbi tüğyan elədi, Bəbrəkin qabağına çıxıb onu danlamaq, tənbeh eləmək istədi. Oğlan həmişəki kimi yorğun və əzgin deyildi, üzündə-gözündə işıqlı bir təbəssüm cilvələnirdi. Məleykəni bu, bir az təəccübləndirdi, arvad ani olaraq çaşıb əli ağzında qaldı. Buna baxmayaraq lap yaxın gəlmiş oğlunun yaxasından yapışıb qeyzlə silkələdi.

— Hardasan?

Bəbrək çantasını ayağının yanında yerə qoyub iri, ala gözlərini anasına zilləyərək:

— Mühaziratda[1] idim, ana! —dedi.

— Nə? Harda idin?

— Mühaziratda. — deyə Bəbrək gülümsündü.

— Sənin mühaziratda nə ölümün var, oğul. Mən səni məktəbə göndərmişəm, ya mühazirata?

Bəbrək yaxasını anasının əlindən çıxartdı və təmkinli bir səslə ona izah eləməyə başladı:

— Qulaq as, ana. Gec gəldiyim üçün məni bağışla. Ancaq mən getməyə bilməzdim.

— Borclu idin ki, mühazirata gedəsən?... — Ana qorxu içində idi. Nümayişin nə olduğunu bilirdi. Belə nümayişlərdə iştirak eləyən adamların elə orda olmasa da, sonralar başı çox ağrıyırdı. Şübhəli,

[1] Mühazirat – nümayiş.

etibarsız adamlar siyahısına düşürdü adı. Kişi həbsxanada yatır, oğul da — hələ ağzından süd iyi gələn oğul da bu yandan mühaziratda iştirak eləyir. Yox, buna qətiyyən yol vermək olmaz, — deyə Məleykə ürəyində qəti qərara gələndən sonra səsini alçaldıb pişim-pişimlə soruşdu:

— Məni başa sal görüm bu nə hoqqadı çıxardırsan, bala?!

— Heç bir hoqqa-zad çıxartmıram, ana. Məsələ belədi ki, bu mühazirat qibləgahımı azad etmək üçün təşkil olunub. Sənin şəhərdən xəbərin yoxdu. Küçələrdə adam əlindən tərpənmək olmur, ana. Uşaqlı-böyüklü nə qədər adam qibləgahımın azad olmasını tələb eləmək üçün səhər tezdən mühazirata çıxıb.

— Hə?

— Hə! — Bəbrək qürurla cavab verdi. — Qibləgahım həbsxanada aclıq elan eləyib. Çörək yemir.

— Necə çörək yemir, bala?

— Yemir də. Bununla etirazını bildirir.

— Vay, vay...

— Az qala hər adamın əlində qibləgahımın bir şəkli vardı. Şüarlar yazıblar: «Məhəmməd Şəfi Rəhgüzər azad olmalıdır!» «Şairi həbsdən buraxın!» Natiqlər— heç tanımıram kimlərdir — bir-bir çıxıb danışırlar, qibləgahımın şerlərini sinədən deyirlər. «Vəzarəti-daxiliyyənin»[1] imarəti qabağında iynə atsan yerə düşməz.

— Bəs polis yoxdu?

— Eh, polis nə eləyəcək? Əvvəl istədilər camaatı dağıdıb qovlasınlar. Sonra gördülər mümkün deyil. Özləri də kənarda durub tamaşa eləməyə başlalılar.

— Belə de!!

— İndi bildin, mən niyə gec gəlmişəm?

— Bildim, oğul, bildim.

— Camaat mənim qibləgahım üçün müzahirata çıxanda mən evdə otura bilmərəm ki?! Mən gərək lap ön cərgədə olaydım. Amma ora gedib çıxmaq mümkün deyil. Hər halda mənim orda olmağım vacibdir, ana.

— Düz deyirsən, oğul. Ancaq gərək ehtiyatlı olasan. Sən hələ uşaqsan, bala. Əl-ayaq altında qalarsan, bala.

[1] Vəzarəti-daxiliyyə — Daxili işlər nazirliyi.

— Eh, məndən də balacaları var orda. İndi sən mənə bir az yemək ver, yeyim gedim.

Məleykə oğlunun başını tumarladı:

— Bunu yəqin qibləgahının dostları düzəldib. Sağ olsunlar. Elməddin əmini görmədin ki, orda?

— Yox. Bəlkə də ordadı. Ancaq mən görmədim. — Sonra Bəbrək qətiyyətlə nigaran anasına sığınıb təsəlli verdi: — Darıxma, ana, belə getsə, qibləgahımı tez, lap tez buraxacaqlar. Qorxularından buraxacaqlar, ana...

Məleykə köks ötürdü:

— Təki sən deyən olsun, bala. Allah ağzından eşitsin, tanrının o kişiyə, bizə yazığı gəlsin...

ONUNCU FƏSİL

Ağayi Nəcməddin Elməddinlə görüşəndən sonra dirçəlmişdi. Ayağa qalxmışdı. İlk sarsıntılar sovuşub keçmişdi. Bu sarsıntılar tufan kimi gəlmişdi, dağ kimi kişini vurub ayaqdan salmışdı; indi isə ağrıları qalmışdı. O, özündə səbir, dözüm tapıb gözləməyi qərara almışdı. Burda da — namus kimi ciddi məsələdə də o, tələsməməyi, hər şeyi ölçüb-biçməyi, dönə-dönə yoxlamağı üstün tutmuşdu. Düzdü, indi artıq gəzirdi, işə çıxırdı, deyib-gülürdü də bəzən. Ancaq heç kəs bilməsə də, o özü yaxşı bilirdi ki, bütün bunlar zahiri parıltılardı. Əslində, içində nə isə qırılmışdı, səadəti harasa uçub getmişdi, qüruru sınmışdı. Kölgə kimi gəzib-dolanırdı.

Elməddin nə qədər israr eləmişdisə də, heç nə deməmişdi. «Əlahəzrətlə bir az aramız sərinləyib!» — söyləmişdi və bu sözləri Dünyanın yanında dilinə gətirmişdi. Və bununla da hər ikisinin ağzını yan salmışdı.

Dünya xanım yenə həmişəki kimi onun qulluğunda idi, məhəbbətini, nəvazişini əsirgəmirdi. Lakin bütün bunlar Nəcməddinə süni, qondarma görünürdü. «Riyakar mələk!» — deyirdi qəlbində, ancaq üzə heç nə vurmurdu. Qadın hiss edirdi ki, o dəyişib, soyuyub. Lakin səbəbini arayıb tapa bilmirdi. Əbdülün müəmmalı şəkildə yoxa çıxması onu şübhələndirirdi. «Bəlkə o pədər-lənət bir söz qaçırdıb ağzından? Sərxoş idi. Olmazmı? Yox, deməz, ömründə deməz. Heç olmasa öz qorxusundan deməz. Bir bileydim hardasan, Əbdül. Sən indi daha çox lazım idin mənə. Qoyub qaçdın... Etibarsız!! Yox, o,

kişiyə bir söz desəydi, indi məni çoxdan öldürmüşdü. Onun gözünün qanı yoxdu...».

Belə düşünə-düşünə o, dəfələrlə ərinin qılığına girmiş, onun dərdini-azarını öyrənməyə çalışmışdı. Dil tökmüş, yalvarmış, nigarançılıq əlindən lap az qala ürəyi partlamaq dərəcəsinə gələndə isə küsmüşdü:

— Demirsən, demə!.. Qoy qalsın ürəyində... Sən axır vaxtlar dəyişmisən, məni özünə yad hesab eləyirsən, sirr gizləyirsən... Sən məni daha sevmirsən! — deyib hətta ağlamışdı da. Belə hallarda Nəcməddin ancaq özünə xas ustalıqla riya pərdəsinə bürünərək donunu dəyişmiş və Dünyanın könlünü almışdı.

— Nə danışırsan? Sən mənim həyatımsan. Mən səni sevməyə bilərəm? Məni yaşadan sənsən, Dünya! — Belə deyəndə Nəcməddin özü hiss eləmişdi ki, səs onundu, söz onundu — amma ürək o ürək deyil. Bu sözləri sanki onun içində yatmış tamam ayrı bir adam söyləyir. Və o anlayırdı ki, gözlənilmədən həyatında qopmuş bu tufandan, bu burulğandan xilas ola bilməyəcək. Bu onu qəlbən ağladırdı, mənən öldürürdü. «Döz, hələ döz, qoca!» — deyə o, hər an, hər sarsıntılı dəqiqədə özünə təsəlli verir, təmkinli olmağı arzulayırdı. Unutmağa çalışırdı, ancaq bu mümkünmü idi?! Dünyanı görən kimi, qonşu binaya, o kürən oğlana, onun maşınına gözü sataşan kimi beynində, ürəyində hər şey alt-üst olurdu, nifrət üz-gözünü əyirdi, gözləri qan çanağına dönürdü. Sonra uzun müddət özünə gələ bilmirdi. Və bu hər gün beləcə davam eləyirdi, ona cəhənnəm əzabı verirdi. Ürəyində intiqam alovunu daha da şölələndirirdi; «Bu əzabları ancaq intiqam yox eləyə bilər. Başqa heç nə! Döz, qoca, döz. Görəcəkli günlərin varmış... Az qalıb, bu gün başlayıram əməliyyata. Hər şey aydın olmalıdı, əl içi kimi aydın...».

...Günorta Nəcməddin evə şad-xürrəm qayıtdı. Danışığından, hərəkətlərindən həyəcanlı olduğu aydın sezilirdi. Bir oyuna girmişdi, bu oyunu axıra qədər ləyaqətlə oynamaq istəyirdi. İndi onun vücudunda iki adam yaşayırdı. Biri əsas Nəcməddin idi — namusu, qeyrəti şübhə altında olan və buna görə də qısqanclığın dəhşətli məngənəsində çalıxıb-çapalayıb inləyən və intiqam hissilə yaşayan Nəcməddin idi. Bu, onun ürəyi, hissiyyatı, heysiyyəti idi. O, qəzəbdən və qorxudan əsim-əsim əsirdi. Və Allaha yalvarırdı ki, bütün bunlar yalan olaydı, yalan olaydı. Onu qoca vaxtı günaha batırmayaydı, əlləri qanlı etməyəydi, səadətini pozmayaydı. Yalvarırdı, yalvarırdı. Elə yalvarırdı ki, əgər allahın insafı, ürəyi olsaydı, onu sakitləşdirərdi.

Ancaq həqiqət allahdan da qüdrətlidir. İkinci adam — Nəcməddinin zahiri idi, özünə köməyə çağırmışdı, özünü xilas etmək üçün çağırmışdı. Əsl Nəcməddin ona əvvəlki səsini, şənliyini, soyuqqanlılığını vermişdi. Bü Nəcməddin həqiqəti üzə çıxarmaq üçün gəlmişdi... Bütün bu cidd-cəhdlərinə baxmayaraq, o, özündə nə isə qəribə bir qorxu hiss eləyirdi. Həqiqətlə üz-üzə gəlmək qorxusu idi bu qorxu...

Dünya onun üçün çay gətirdi. Özü də qənşərində oturdu.

— Kişi, göz dəyməsin, bu gün kefin kökdü.

Nəcməddin bayaqdan necə başlamaq barədə düşünürdü. Yaxşı oldu o, özü başladı,

— Hə, Dünya xanım. Yaxşıyam. Bir gülməli əhvalat eşitmişəm. — Dünya maraqlandı:

— Mənə də danış də. Nə olub ki?..

Nəcməddin çaydan bir qurtum içdi, bədənini saran üşütməni dəf eləməyə çalışaraq güldü:

— Əşi, bizim bu qonşu yoxdu?

— Hansı qonşu?

— Bu da. Adı nədi oğlanın? O kürənin adı nədir?

— Vəlixanı deyirsən?.

Nəcməddinin ürəyi çırpındı... «Adını da bilir. Neçə ildi mən onunla qonşuyam, adını bilmirəm, bu bilir!!!»

— Hə, hə, Vəlixan... O darülfünunda işləyir axı. Orda bu Vəlixan bir qızı — tələbəni yoldan çıxarır. Səni belə sevirəm, elə sevirəm. Ölürəm dərdindən... Qız da inanır — qızların ağlı axı topuğunda olur... Nə isə, inanır... Və bunlar bir xəlvət evdə görüşürmüşlər.

— A?.. — dedi Dünya xanım. Və rəngi dəyişdi. Nəcməddin gözlərini onun üzündə gəzdirdi, onun hər sözünü, hər ifadəsini yadda saxlamaq üçün bütün diqqətini cəmlədi. Dünya burda da uduzdu. Nəcməddin təmkinini Allah bilir nəyin bahasına pozmamağa çalışaraq davam etdi:

— Sən demə, qızın da nişanlısı varmış... Şübhələnir, güdür, nəhayət bu gün öz dostları ilə gəlib ikisini də bir yerdə tutublar...

— Vay... Öldürüblər? — həyəcanla soruşdu Dünya...

— Yox. Öldürsəydilər ondan yaxşıydı... hər ikisinin başına birbirinin gözü qabağında, olmazın oyununu açıblar... — Sonra Nəcməddin canını dişinə tutub şit-şit hırıldadı.

Dünya xanım gözləri böyümüş halda Nəcməddinə baxdı və özünü saxlaya bilməyərək:

— Niyə gülürsən? Burda gülməli nə var ki? Bu, daha çox ağlamalıdı.

— O baxır adamına, — Nəcməddin siqaret yandırdı və sümürdü, — kimin üçün ağlamalıdı, kimin üçün gülməlidi. Məsələn, mənim üçün gülməlidi.

— Onda sənin ürəyin heç yoxdu,—deyərək Dünya xanım ayağa qalxaraq fırıldayıb getdi.

Nəcməddinin başı hərləndi, gözlərinin qabağında qığılcımlar oynadı. Taqəti bütün bədənini tərk elədi. Hətta barmaqlarının arasından siqaret sürüşüb düşdü, əyilib götürməyə halı olmadı. Anlar, dəqiqələr keçdi. Handan-hana özünə gəlib ah çəkdi: «İzinə düz düşmüsən, qoca. Burda oyunu qürtarmaq olar. Hər şey aydındı. Yox, hələ tələsmə... tələsmə... O biri işi də gör, sonra, qoca... Qoy intiqam ləzzətin mükəmməl olsun. Dur gedək, ağayi Nəcməddin, axşam gələrik, oyunu qurtararıq... Mən istəməzdim bu belə olsun. Özün belə istədin. Bəlkə bu heç lazım deyildi... Yox, yox nə danışırsan, biz başımıza ləçək bağlamırıq, papaq qoyuruq, qoca. Papaq — namus, qeyrətdi. Onu başında saxlamayan ləyaqətsiz adamdı. Eh, qadın, qadın. Dünya, Dünya... Sən niyə belə elədin, nəyin yox idi, nəyin yox idi, ay...».

Nəcməddin çayını yarımçıq qoyub beli bükülmüş halda, qıçlarını küclə sürüyərək getdi...

ON BİRİNCİ FƏSİL

Darvazanın qabağında bir taksi dayandı. Arxa tərəfdən Məhəmməd Şəfi düşdü. Zəif, xırıltılı səslə sürücüyə sözləri fışıldada-fışıldada söylədi:

— Beş dəqiqə gözlə, pulunu gətirim, qardaş. Yanımda pulum yoxdu.

— Eyb etməz, ağa. Gözlərəm.

Şəfi həyətə keçdi. Dirəkdəki çıraq həyət-bacaya işıq saçırdı. Payız bura da əl gəzdirmişdi. Yer xəzəllə dolu idi. Qərib bir sükut yaşayırdı burda. Görünür hamısı evə çəkilmişdi uşaqların. Şəfi neçə ay ayrı düşdüyü doğma evinə-eşiyinə uzun illərin həsrətlisi kimi arxayın-arxayın xeyli tamaşa elədi, sinədolusu köks ötürüb pilləkənləri qalxdı.

— Ay ev yiyəsi...

Səsini eşidən olmadı deyəsən, bir də dillindi:

— Ay ev yiyəsi?..

Məleykənin doğma səsi gəldi qulağına:

— Sakit. Deyəsən gələn var... Bəbrək, oğul, gör kimdi o? Qapı açıldı və... Bəbrək atasını görəndə qışqırdı:

— Qibləgahım!.. — Özünü onun qucağına atdı.

— Oğlum!!!

Bəbrək hıçqırırdı. Atasının tüklü üzündən öpürdü, Şəfi isə onu bağrına basıb duz kimi yalayırdı: «Oğlum, oğlum!» — deyirdi. Səsküyə Məleykə, Rəbiə, Jalə də gəlmişdilər, hərəsi bir tərəfdən kişinin ayaqlarına sarmanmışdı — hamısı da ağlayırdı. Təkcə Məleykə kənarda dayanıb ağlayan-gülən gözləri ilə əzizlərinin görüşünə tamaşa eləyirdi. Nəhayət, Şəfi uşaqların əlindən xilas olub dikəldi, Məleykəyə baxdı, baxdı, nə isə demək istədi, ancaq susdu, sağ əlilə dodağının üstünü örtməyə çalışdı — dişlərinin düşdüyünü gizləmək üçün. Hələ heç nə başa düşməyən Məleykə irəli yeriyib onun boynunu qucaqladı və alnından, üzündən öpdü, pıçıltı ilə:

— Xoş gəlmisən, əzizim, — dedi, — Həmişə evində-eşiyində.

Şəfi anladı ki, danışmamaq mümkün deyil, əvvəl-axır bunu hamısı biləcək, odur ki, canını dişinə tutub uzun müddət lal olmuş adam ilk sözü deməyə necə çətinlik çəkirsə, elə bir çətinliklə:

— Şağ ol, əjijim, — dedi. — Gəlmişəm.

Sonra o, elə ordaca Məleykəni başa saldı ki, yüz rupi lazımdı, sürücünü yola salmaq üçün... Məleykə içəri qaçdı, pul gətirib Şəfiyə verdi. Şəfi həyətə çıxmaq istəyəndə Bəbrək dedi:

— Qibləgahım, ver mən aparım.

— Hə. Apar, oğul.

Bəbrəkin getməyi ilə qayıtmağı bir oldu. Pul əlində idi.

— Nə oldu, niyə vermədin, bala? — Məleykə təəccüblə xəbər alanda Bəbrək dedi:

— Taksi-zad yoxdu. Çıxıb gedib.

— Necə gedib?

— Gedib də. Yox idi.

Məleykə Şəfinin üzünə baxdı. Şəfi kədərli halda gülümsünüb söylədi:

— Yəqin tanıyıb...

Şəfini uşaqlar çəkib otağa gətirdilər. Kişi evin ortasında dayanmışdı. Elə bil, hamısı özünü itirmişdi. Şəfi balalarına, arvadına, onlar da ona baxırdılar. Şəfi arıqlamışdı, gözləri çuxura düşmüşdü, üzünü ağ tük basmışdı, alt dodağında çapıq yeri vardı. Paltarları əzik-üzük idi. Məleykə ömründə Şəfini bu kökdə görməmişdi: ürəyinin

başı sızıldadı arvadın və bayaqdan özünü saxlasa da, indi saxlaya bilmədi, təzədən onun boynunu qucaqlayıb:

— Səni nə günə salıblar, Şəfi! — deyə fəryad qopardı, — ciyərləri yansın, sənə necə qıyıblar, Şəfican?! dişlərin hanı, Şəfi?..

Şəfi onun başını sığalladı, doluxsunmuş uşaqlara baxıb təskinlik vermək üçün:

— Yaxşı, yaxşı! — dedi. — Ağlama. Uşaqların ürəyini qana döndərmə, Məleykə. Hər şey keçib gedib. Şükür elə ki, şağ-şalamat gəlib çıxmışam. O ki qaldı dişlərimə — o gülümsəməyə çalışdı — dişlərim həbşxanada yamanca ağrıdı, Məleykə. Bir-bir çəkdirdim. Orda da elə əla diş ustaları var ki, bir dəfəyə adamın şəkkij dişini çəkir, heç xəbərin də olmur. Nə işə bunlar düjələn şeydi. Mənə bir şulu xörək bişir, cana. Düj on gündü ajam, dilimə şudan başqa heç nə dəyməyib; şonra çimərəm. Şonra əməlli-başlı oturarıq, şöhbət eləyərik, görərik şijdə nə var, nə yox, bijdə nə var, nə yox?.

...Şəfinin həbsdən azad olması ailə üçün toy-bayram idi. Elə bil evə gün doğmuşdu. Uşaqların, Məleykənin eyni açılmışdı. Dostları da bir-bir gəlib dəyirdilər ona. Ziyaülhəqq, Elməddin və başqa yoldaşları onun gəlişini xüsusilə böyük sevinclə qarşılamışdılar. Onun azad edilməsi, bir tərəfdən Şəfinin öz şəxsi qələbəsi idisə, o biri tərəfdən də təşkilatın çox böyük qələbəsi idi. Birlik, həmrəylik, xalqın qəlbinə yol tapmaq, onu hərəkətə gətirmək — bax bu işi öz təcrübələrində bu təşkilat birinci dəfə idi sınayırdı və nəticəsi göz qabağında idi. Demək birlik, əqidə və dəyanət olan yerdə — ancaq bu zaman düşmənə qələbə çalmaq olar! Bəbir bu təcrübəni ümumiləşdirməyi, təhlil etməyi və yoldaşların nəzərinə çatdırmağı təşkilatın indiki fəaliyyətində əsas vəzifə hesab edirdi və bunu o eləməli idi.

Xüsusi qəzetlər, demokrat əhvali-ruhiyyəli mətbuat orqanları şair Şəfinin azad olunması barədə xəbəri, onun şəklini çap edir, şərhlər yazırdılar. Şəfi indi hamının sevimlisinə çevrilmişdi, hara getsəydi, bazarlarda, kababxanalarda, məktəblərdə, darülfünunun özündə belə hamı ondan danışırdı, kitablarını tapıb oxuyur, təzədən vurulurdular.

Şəfi özü isə bu səs-küyü, bu şöhrəti sakit bir ürəklə qarşılayırdı. Daha çox düşünür, götür-qoy edir, yeni yazılar qələmə almaq üçün şirin-şirin xəyallara dalırdı. «Hələ neynəmişəm ki, hələ əsas işlərimiz bundan sonra başlayacaq. Mən ən gözəl əsərlərimi hələ bundan sonra yazacağam. Ömür vəfa eləsə» — deyirdi. Hələlik heç yerə çıxmırdı. Zəif idi. Dişlərini düzəltdirməli idi. Diş həkimi evə gəlmişdi, ölçülərini götürüb getmişdi. Məleykə uşaq kimi gecə-gündüz onun qul-

luğunda dururdu, vaxtlı-vaxtında yeməyini-içməyini verirdi, başına pərvanə kimi dolanır, «Ay evimin çırağı!» — deyib üstündə əsirdi.

— El-oba səni çox istəyirmiş, ay ömrüm-günüm!— deyə neçə gün davam edən izdihamları, qəzetdə çıxan məqalələri, şerləri nəzərinə gətirən Məleykə iftixarla ərinin ağ saçlarını sığallayır, fərəhindən yerə-göyə sığışmırdı. — Çox istəyirmiş, lap çox!

Şəfi gülürdü:

— Məni hamıdan çox istəyən bir nəfər var, Məleykə.

— Kimdi o elə?

— Sənsən, gülüm. Mən dünyanın ən bəxtəvər kişisiyəm.

Məleykəm mənim, ən xoşbəxt şairəm ki, sənin kimi ömür yoldaşım var.

— Mən sənin adınla, şöhrətinlə fəxr eləyirəm, Şəfi, Şəfi şöhrət sözünü eşidib fikrə getdi:

— Şöhrət elə bir məleykədir ki, havayı yerə heç kəsin çiyninə qonmur, gülüm! — deyirdi.

ON İKİNCİ FƏSİL

O gün Dünya xanıma Vəlixanın başına gələn əhvalat barədə danışandan və qadının o qəribə rəftarından sonra kişi qocalmış, demək olar ki, sərxoş halda evdən çıxmış, bütün vaxtını sükan arxasında keçirmiş, maşını məqsədsiz-filansız sürmüş, heç yerdə qərar tuta bilməmişdi. Lap yaxın adamların yanına getməmişdi, çünki halında, vəziyyətində yaranan dəyişiklik o qədər çox və güclü idi ki, bunu heç cür heç kəsdən gizlətmək mümkün deyildi. O, demək olar ki, dəli vəziyyətində idi, öz-özünə danışır, bəzən hətta ağlayırdı da. Siqaret çəkməkdən ağzı siqaret dadırdı. Axşamacan belə, dəlisayağı şəhərin keçmədiyi küçəsini qoymadı, fır-fır fırlandı, yenə aram ola bilmədi. Hiss eləyirdi ki, axırı yaxınlaşıb. İndiyəcən, yetmişillik ömrünü arxayın-asudə yaşamışdı, həyatında çox hadisələrlə qarşılaşmışdı, sarsıntılar keçirdiyi anlar da az olmamışdı. Ancaq belə hala düşdüyü, belə sarsıldığı, belə əzab çəkdiyi yadına gəlmirdi. Yox, bu əzabı heç nəylə müqayisə etmək mümkün deyildi. Elə bil onu dilim-dilim alovları ərşə dayanan böyük bir tonqalın içinə atmışdılar. Yanırdı — vücudu yanırdı, yanıb qurtarmaq bilmirdi. O tonqala atılan dəmir olsaydı, polad olsaydı belə indi əriyib torpağa, külə qarışmışdı. İlahi, bu

necə atəş idi, yandırırdı, ancaq əridib məhv eləmirdi. Qəlbinə baxırdı. Dünyaya bəslədiyi o böyük, ölçüyə-biçiyə gəlməz məhəbbətdən heç nə qalmamışdı, heç nə qalmamışdı. Onun yerini qəzəb qılınclı, zəhər kəsərli bir nifrət doldurmuşdu indi. O nifrət o qədər küclü və qarşısıalınmaz idi ki, kişi özü də buna təəccüb eləyirdi. O, bir vaxtlar, Dünyanı sevəndə də təəccüb eləmişdi. Çünki ona qədər heç kəsi belə məhəbbətlə sevməmişdi. Və indi bunu da anlayırdı ki, heç kəsə də belə nifrət bəsləməmişdir, — bütün ömrü boyu müxtəlif adamlara bu və ya digər münasibətlərlə bəslədiyi nifrətlərin hamısını bir-birinin üstünə yığsan, dağ yanında balaca bir təpə kimi görünərdi.

Axşam beyninin dumanı bir az ayazıdı. Suda boğulan saman çöpündən yapışan kimi, özünə təskinlik verməyə çalışdı. Bəlkə səhv eşidib? Bəlkə Dünya heç belə demədi axı deyəsən. Lap elə Əbdül də səhv deyə bilər — sərxoş idi, çox içmişdi, elə mən özüm də çox içmişdim. Yox, hamısı düzdü. Öz qulaqlarımla eşitmişəm. Vəlixanın başına gələn müsibət Dünyanı sarsıtdı. Bunu öz gözlərimlə gördüm. Rəngi dəyişdi, gözlərini yana döndərib ani olaraq fikrə getdi, bəbəklərində qısqanclıq qığılcımları parladı. — İndi Nəcməddin bu söhbətin dalını gözləməli idi. Əgər həqiqətən onların arasında bir şey varsa, Dünya o kürən köpəkoğluna üz göstəribsə, Əbdülün öldürməyə hazırlaşdığı o telefon yenə səslənəcək; onlar danışacaqlar. Danışıqlar və səsləri maqnitofon lentinə yazılacaq. Belə olsa, hər şey bitdi. Aman allah, olmasın. Qoy Dünya danışmasın, qoy bunların hamısı yalan olsun, yalan olsun. Sonra fikirləşdi ki, bu gecə evə getməyəcək. Daha doğrusu, zəng edib Dünyaya deyəcək ki, gəlməyəcəyəm. Bu da bir sınaqdır...

Nəcməddinin fikri-zikri ancaq və ancaq bu məşum həqiqəti üzə çıxartmağa yönəlmişdi. Qətiyyətli addımlarla bu həqiqətə doğru gedirdi, eyni zamanda qorxa-qorxa gedirdi.

***

Səhər saat onda gəlib çıxdı Nəcməddin evə. Kor-peşman idi. Çox içmək ona burda baha başa gəlmişdi. Siracəddinin yanına getmişdi, yeyib-içmişdilər. Ordan-burdan söhbət eləmişdilər. Siracəddin vaxtilə ona satdığı Dünyanı soruşmuşdu. Nəcməddin ah çəkib demişdi:

— Nanəcib çıxdı. Qaçıb getdi, izi-tozu da yoxdu. İndi bir təzəsini tapmışam, məni gecə saat 3-də durğuzarsan, onun yanına gedəcəyəm...

— Yaxşı... — demişdi Siracəddin.

O, bayıra çıxanda Nəcməddin evə zəng vurmuş, bərk kefli olduğunu, bu gecə evə gəlməyəcəyini söyləmişdi... Dünya çox yalvarmışdı ki, bir ayrı maşına min gəl. Demişdi yox, heç özümdə deyiləm... Bu yandan isə... Siracəddin yatıb yuxuya qalmış, onu saat üç əvəzinə, doqquzda yuxudan oyatmışdı. Nəcməddin onu söyüb biabır etmişdi və acıqlı-acıqlı, heç xudahafiz də demədən düz birbaşa evə gəlmişdi.

Nəcməddin gözləyirdi ki, evə gəlmədiyinə görə Dünya xanım onu qaşqabaqlı qarşılayacaq, küsəcək, üzünə baxmayacaq. Ancaq belə olmadı, əksinə, Dünyanın kefi çox kök idi, ağappaq sifətində ləzzət və nəşə nişanələri var idi, gözlərinin bəbəklərində bir sərxoşluq cilvələnirdi. Bütün bunlar Nəcməddinin nəzərlərindən qaça bilməzdi, çünki, o, ancaq indi belə əlamətlər axtarırdı və tapdıqca — qəribə idi — qorxa-qorxa sevinirdi.

Nəcməddin baxışlarını onun sifətindən yayındırıb qucağındakı uşağa baxdı. Oğlu uzunkirpikli gözlərini Nəcməddinə zilləyib diqqətlə baxırdı. Kişi titrək barmağını uşağın alt dodağına vurub azca aşağı çəkdi, oğlan qımışıb güldü.

Dünya xanım əsnəyə-əsnəyə dedi:

— Hardasan, ay kişi? Sənə demişəm bu qədər içmə də. Axırı bir gün ürəyini partladacaq bu içki zəhrimar.

— Partlamaz, arvad

— Bu gecə səhərəcən yatmamışam. Yerini də demədin ki, gəlib aparım səni.

— Tapa bilməzdin. Gəlib eləyən, zəng-filan çalan olmayıb ki?

— Yoox...

Nəcməddin içəri keçdi... Dünyanın yataq otağına, evə göz gəzdirdi, nəm-nişan axtardı, ancaq heç nə yox idi...

Uşağı qoy yerə, mənim üçün bir yaxşı tünd çay dəmlə...

—Baş üstə…

Dünya uşağı xalçanın üstünə qoydu, özü mətbəxə keçdi.

O, mətbəxə keçən kimi Nəcməddin tez əyilib çarpayının altındakı maqnitofonun kasetini çıxartdı, cibinə qoydu. Əlləri əsirdi, yarpaq kimi. Allah yaponların atasına rəhmət eləsin. Əcəb düzəldiblər. Qur, get. Danışırsan yazır, danışmırsan, dayanıb gözləyir. Əsl müsəlman malıdı, idarəyə, evə qoy, işçilərinin, arvadının, uşağının, dostlarının sənin haqqında nə dediklərini bir-bir sənə söyləsin... Afərin, yaponlar!» — deyə o, iki daşın arasında fikirləşdi və bu dar gündə, bu

ağır dəqiqələrdə ona kömək etdiyi üçün, həqiqəti aşkar etdiyinə görə bu maqnitofonun incinarını da olmasa hər hansı bir yaponu bağrına basıb öpməyə hazır olduğunu anladı.

Sonra çarpayının baş ucunda, üçayaqlı stolun üstündəki telefonun məftilinə bitişik səsyazanın balaca kasetini çıxartdı; kasetlərin hər ikisi cibində idi. Ona elə gəldi ki, cibindəkilər bombadır, indncə partlayacaq, onu uşağı da, bu ev-eşiyi də yerlə yeksan edəcək bir göz qırpımında... Üşüyürdü kişi... Qorxudandımı, həyəcandandımı?! Əsim-əsim əsdiyini, uçunduğunu gizlətmək üçün xalça üstə ora-bura iməkləyən balaca Nəcməddini əyilib götürdü, başının bərabərində saxlayıb ona diqqətlə baxdı, baxdı... Uşaq güldü, əlini onun sifətində gəzdirdi, kişinin ürəyi lap kövrəldi. O, körpəni bağrına basıb hərarətlə öpdü, öpdü və gözləri yaşarmış halda:

— Mənim yazıq balam, yetim balam!..— dedi... — Sənin günahın nə idi?!

Dünya otağa girəndə ata-balanı bir yerdə görüb sevindi. — Darıxmısan, kişi, deyəsən uşaq üçün.

— Hə... şeytan olub, maşallah.

— Çay hazırdı!..

— Al bu uşağı... Başım lap çatlayır...

Nəcməddin uşağı anasına verib yemək otağına keçdi. Süfrə başında oturdu. Bir piyalə içdi, ikincisini də süzüb içdi. Dünya da uşaqla burda idi. Bir azdan başlarına gələcək fəlakətdən xəbərsiz idilər.

Bir piyalə də çay süzdü özünə Nəcməddin.

— Çörək niyə yemirsən, kişi?

— İştahım yoxdu. Ciyərim yanır... Dünya uşağı atıb tuta-tuta:

— Bir də içsən, özün bil. Sənə deyirəm... — dedi hökmlə. Nəcməddin gözlərini dolandırıb ona zillədi və bu hökmü hiss etdiyini bildirən bir tərzdə:

— Arxayın ola bilərsən, Dünya. Bir də mənim içdiyimi sən görməyəcəksən, heç vaxt görməyəcəksən... — söylədi.

Dünya xanım onun sözlərinin əsl mənasını anlamadı, sevindi və:

— Afərin, kişi! —dedi — Bax belə!!. — Sonra üzünü uşağa tutub əlavə elədi: — Qibləgahın daha içməyəcək, eşidirsən, içməyəcək.

Araya sükut çökdü. Nəcməddin arxasını stulun oturacağına söykəyib gözlərini yumdu. Ancaq bu zaman Dünya onun solğun üzünü yaxşı görə bildi. Yorğun idi, yatmamışdı — nə idi?

— Yerini düzəldim, yatırsan?

Nəcməddin Dünyanın səsinə gözünü açıb tutqun, laqeyd baxışlarla arvadını süzdü — o, kişiyə duman içində imiş kimi göründü.

— Yox. Gedəcəyəm.

— Hara?

— Əvvələn şəhərə, deyirlər, yaxşı hind, türk mahnıları gəlib, maqnitofonları aparacağam, onları seçib bir neçəsini yazdıracağam. Axşam qulaq asarıq... İkincisi, Əbdülü gedib gətirəcəyəm...

— Əbdülü?... — Dünya təəccüblə səsini uzada-uzada xəbər aldı.

— Hə.

— Məgər bilirsən Əbdül hardadı?

— Hə.

— Haradadı?

— Öz qəryələrində. Bu gün bazarda gördüm.

Dünya fikrə getdi. Əbdül!.. Dünənəcən Əbdül yadından çıxmırdı. Hər xatırlayanda ürəyinin başı göynəyirdi. Onunla keçirdiyi xoş dəqiqələr, saatlar yuxu aləmində imiş kimi birər-birər, ən incə nöqtələrinə qədər gəlib gözünün qabağından keçirdi. Əbdül həyatına — gözlənilmədən olsa da, elə daxil olmuşdu ki, əvvəllər ömrünü, günlərini onsuz təsəvvür eləyə bilmirdi. Əbdül evinin adamı idi — açanda əlində idi, yumanda ovcunda. Ancaq, ərköyünlük elədi, özünə çox qürrələndi Dünya, onu — həyatını, bütün sevgisini, ömrünü, xoşbəxtliyini həsr etdiyi Əbdülü incitdi, qəlbini qırdı və o çıxıb getdi. O gedəndən sonra Dünya peşman oldu, özünü danladı, ancaq əli heç yana çatmadı. İndi isə o, lazım idimi Dünyaya?

— Rədd elə getsin o yana! Axmağın biridi.

— Yox, Dünya, o, yaxşı insandı. Nökər olanda nə olar?! Mən də, uşaq da, elə sən özün də ona öyrənmisən. Gətirəcəyəm...

Dünya qətiyyətlə deyilmiş sonuncu sözdən sonra daha danışmadı. Ürəyi sıxılan kimi oldu Dünyanın... «Ay zalım kişi, əgər gətirəcəkdin, bir az tez gətirəydin, heç olmasa bir-iki gün tez...».

***

Ağayi Nəcməddin maşını çox böyük sürətlə sürürdü. Dal oturacaqda büzüşüb oturmuş Əbdül hələ indiyəcən ağasının belə maşın sürdüyünü görməmişdi. Heç onun özünü də belə pərişan, düşkün, qeyri-adi hərəkətlər eləyən görməmişdi. Təəccüb eləyirdi. Ağasına nə olmuşdu: ha fikirləşirdi, axırını bir yana çıxarda bilmirdi. On beş gün idi onu ağası öz isti ocağından ayırıb dostunun evinə gətirib qoymuşdu. Dostuna da tapşırmışdı ki, onu heç yana buraxmasın, özü gə-

lib aparanacan saxlasın. O, bir növ dustaq kimi qalmışdı bu həyətdə. Həmin gecə ağası ilə elə möhkəm sərxoş olmuşdu ki, Dünyanın haqqında, qonşu oğlan və telefon haqqında ağasına nə dediyi də əsla yadına gəlmirdi. Nəcməddinin gecə ikən, o müxtəsər söhbətdən sonra, onu leş kimi maşına basıb bura gətirməyindən də xəbəri olmamışdı. Səhər gözünü açıb özünü tamam başqa yerdə görmüş və buna çox təəccüb eləmişdi. Ev sahibi də ona ağıllı-başlı bir söz deməmişdi, çünki o özü də nə baş verdiyindən xəbərsiz idi. Bu on beş günü o, yeyib-içib yatmış, iş də görməmişdi; bikarçılıqdan darıxmışdı. Ən çox isə, Dünya xanım üçün, gündə üç-dörd saat balaca əl arabasında həyətdə təmiz havada gəzdirdiyi, oynatdığı, cavab verməsə də danışdırdığı balaca Nəcməddindən ötrü darıxmışdı. İndi, evə gələrkən sevinirdi: Dünya xanımı görəcək, balaca Nəcməddini görəcək!!

«Ancaq bu ağa niyə belədir: nə olub ona, heç özündə deyil» — bu sual Əbdülü yaman nigaran qoymuşdu. Yol yarı olmuşdu, lakin ağa hələ də susurdu. Axırı Əbdül dözməyib soruşdu:

— Evdə-eşikdə salamatlıqdımı, inşallah, ağam? Nəcməddin öz aləmində olduğundan səsi eşitdisə də, Əbdülün nə dediyini anlaya bilmədi və özünə yad bir səslə:

— Nə dedin? — deyə xəbər aldıqda Əbdül qorxa-qorxa sualını təkrar elədi.

— Hə, hər şey qaydasındadı.

— Ağam, deyəsən bir az nasazsınız. Nə olub sizə?! Nəcməddin siqaret yandırdı:

— Hə, Əbdül, yaman nasazam.

— Olmasın azar, ağam. Sizə gələn qada-bala mənə gəlsin... Təbibə getmək gərəkdi, ağam.

Bu sözləri Əbdül doğrudan böyük səmimiyyətlə söylədi və bunu, fikri nə qədər dağınıq olsa da, Nəcməddin hiss elədi. Maşını yolun kənarındakı qollu-budaqlı iri ağacın altında saxladı, geri çevrildi.

— Təbibə getməkdən keçib, Əbdül. Ürəyimə damıb ki, mən bu yaxın vaxtlarda öləcəyəm.

— Nə danışırsınız, ağa?!

— Hə, belədi, Əbdül. Sən mənə yaxşı-yaxşı qulaq as və dediklərimin hamısını yadında saxla.

— Eşidirəm, ağa. Sizin hər sözünüz mənim üçün qanundu. Bir olan Allah bilir ki, mən sizi nə qədər çox istəyirəm.

— Çox sağ ol, Əbdül. Mən ona görə də sənə, yaxşı insan olduğun üçün, mənə sadiq olduğun üçün öz sirrimi, dərdimi deyirəm.

Bəli, mən çox yaşamayacağam. Mən bu murdar dünyada heç kəsə etibar eləmirəm, nə oğlanlarıma, nə qızıma, nə də dostlarıma. İnsanlar hamısı əclaf olub gediblər. Üzünü o yana çevirirsən, bıçağı kürəyinə saplayırlar. Bilirsən, — o, ah çəkdi və bu sözdən Əbdül də yerində qurcalandı, ürəyində fikirləşdi ki, elə mən də əclafam, ağa! — mənim körpə balam var. Dünyada bircə ondan nigaranam, Əbdül.

— Ağam, siz onu hələ böyüdəcəksiniz, toyunu görəcəksiniz...

— Yox. Mən heç nə görməyəcəyəm, Əbdül. Mən sənlə bir nökər kimi yox, bir qardaş kimi danışıram.

— Ömrün uzun olsun, ağam.

— Mən vəsiyyətnamə yazmışam, bu ev-eşiyimi, bütün müxəlləfatımı, bankdakı pullarımın çoxunu sənlə balaca Nəcməddinə vəsiyyət eləmişəm. Onu öz oğlun kimi böyüdərsən, korluq verməzsən, ata-oğul kimi əl-ələ verib dolanarsınız, təhsil verərsən ona, həddibüluğa çatanda evləndirərsən, oğlu olsa mənim adımı qoyarsan... uşağa.

— Bəs Dünya xanım ola-ola?.

— Yox, yox, sən, ancaq sən... Ancaq sənə inanıram, Əbdül. Daha bir kəlmə danışma, heç nə də soruşma, eşidirsən?

— Eşidirəm, ağa.

— Səndən bircə xahişim var: bu qalan ömrümdə mənim qulluğumda yaxşı dayan, Əbdül. Elə et ki, bu dünyadan köçəndə ürəyimdə heç olmasa bircə nəfərə inamım qalmış olsun. Eşidirsən? Başa düşürsən, nə deyirəm?

— Bəli, ağam...

— Buyur, bu mənim vəsiyyətnaməm, iki nüsxədi. Birini gizlədərsən, elə yerdə ki, heç kəsin əlinə keçməsin. O birini lazım olanda üzə çıxardarsan. Bilirəm, mən öləndən sonra, varislərim — onları vərəsəlikdən məhrum eləmişəm — gələcəklər. Onda karına gələr.

— Ağam, siz lap gerçəkləmisiniz...

— Mən zarafat eləmirəm sənlə, Əbdül, ciddi danışıram... Anladın?

— Anladım, ağam.

— Bir də, Əbdül, bu gün-sabah görəcəyin heç bir şeyə heyrət eləmə. Başını sal aşağı, işini gör. Bir kimsəyə bir söz demə. Yaxşımı?

— Baş üstə, mənim ağam...

— Hə, indn kedə bilərik...

Əbdül kədərli-kədərli köksünü ötürüb uşaq kimi ağladı. Nəcməddin isə ona əhəmiyyət verməyərək maşını yerindən tərpətdi.

Ağayi Nəcməddin eyvanda, məhəccərin qırağında oturmuşdu. Bayaqdan dinib-danışmır, siqareti siqaretin oduna yandırırdı. Tez-tez gözucu sarı darvazalı qonşu həyətə baxır, nəyisə səbirsizliklə gözləyirdi. Hava qaralmışdı. Dünya evlərin, Əbdül isə həyətin işıqlarını yandırmışdı. Dünya içəridə idi, gah uşağa baxır, gah da narahat-narahat eyvana çıxır, ərinin yanına gəlir, lal-dinməz dayanıb təzədən qayıdırdı. Əbdülü uzaqdan görmüşdü, gözlərini qıyaraq ona qəribə bir tərzdə — o, başa düşmədi ki, qəzəblə, yoxsa sevinclə baxır Dünya — nəzər salmışdı. Görünür, sabaha qədər onlar danışa bilməyəcəkdilər, çünki Nəcməddin yerində bərk oturmuşdu və kecə bir yana kedən adama oxşamırdı. Əbdül Dünyaya uzaqdan baş endirib salam vermişdi, ancaq ondan heç bir hərəkət görməmişdi. «Qadın doğrudan qəribə məxluq imiş. Heç nə baş açmaq olmur — gah sənin qoynuna atılır, «sənənəm» deyib and-aman eləyir, gah da üzü dönür, elə bil, heç səni tanımır. Deyəsən bunlar bəzən özləri də nə elədiklərini bilmirlər» — deyə düşünə-düşünə Əbdül onun üçün darıxmış, bayaqdan şırvanan itə yal, köyərçinlərə dən-su verirdi. Sakitlik adamı lap vahimələndirirdi.

Nəhayət, səkkizin yarısında sarı darvazaya lampalarının ikisi də gur yanan abı rəngli «Mersedes» yaxınlaşdı. Nəcməddin qeyri-iradi olaraq maşın gələn səmtə boylandı. Dalınca şütüyən ikinci maşın onun sol böyründə dayandı və sağ qapıdan bir adam tələsik çıxdı, «Mersedes»ə — Vəlixanın maşınına yaxınlaşdı...Və dalbadal üç güllə açıldı... Qaranlıqda silueti güclə görünən adam tələsik ikinci maşına mindi və maşın, işıqları söndürülmüş halda, oradan tozanaq qopara-qopara uzaqlaşdı... Güllə səsi axşamın sükutunu çilik-çilik elədi. Üç şaqqıltı Nəcməddinin evində də, sarı darvazalı həyətdə də, başqa həyətlərdə də aydın eşidildi. Dünya içəridən eyvana qaçdı:

— Güllə atdılar deyəsən?!

Nəcməddin yerindən tərpənmədən, dönüb arvadına baxmadan çox sakit və aram bir səslə:

— Hə! —dedi, sonra üzünü həyətdə güllə səsi eşidib ora-bura boylanan Əbdülə tutub: — Gör o nə səs-küydü, Əbdül! — dedi.

Əbdül darvazadan çıxdı. Nəcməddin də, Dünya da gördü ki, qonşu darvaza açıldı, bir qadın, üç uşaq, bir qoca maşına sarı qaçdılar və iki-üç dəqiqə keçməmiş qadından bir dəli fəryad qopdu:

— Vay, balamı öldürdülər... Vəlixan... Vəlixan...

— Vəlixanı vurdular? — deyə Dünya həyəcanla soruşdu Nəcməddindən. Və özü də bilmədən pilləkənlərə doğru qaçarkən arxadan amiranə bir səs eşitdi:

— Hara? Geri qayıt!

Dünya yerində mıxlanmış kimi dayandı. Dönüb təəccüb dolu nəzərlərlə Nəcməddinə baxdı və... heç nə demədən, süst, ölgün addımlarla ərinin yanına gəldi. Taqətsiz halda açıq pəncərənin çərçivəsinə söykəndi və maşın olan tərəfə boylandı... Kimsə qapını açdı, Vəlixanı... ehmal bir hərəkətlə çəkib yerə saldı... Və Dünya daha heç nə görmədi. Alt dodağını dişilə möhkəm sıxmışdı və gözlərindən yaş axırdı...

Bir azdan Əbdül qayıtdı. Nəcməddin yuxarıdan xəbər aldı:

— Nə olub orda?

— Vəlixanı vurublar. Düz başına üç güllə çaxıblar!..

— Ölüüüb? — deyə Dünya özü də bilmədən səsini uzada-uzada soruşduqda Nəcməddin kinayə ilə söylədi:

— Yox, ölməyib!!

Nə dediyini, nə etdiyini bilməyən Dünya xanım, ərinin sözündəki eyhamlı kinayəni duymaqdan, seçməkdən çox uzaq olduğuna görə sevinə-seviiə:

— Şükür Allaha!—dedi. Bu sözü eşidəndə — bayaqdan arvadının üzünə zorla baxmamağa çalışır, onun Vəlixan üçün göz yaşı tökdüyünü görmək istəmirdi, bunu özü üçün ən ağır cəza hesab edirdi — Nəcməddin daha tab gətirə bilmədi, qanrılıb Dünyaya tənəli, eyni zamanda qəzəbli bir baxış fırlatdı. Onun hədəqəsindən çıxmış gözlərini görəndə Dünya sarsıldı və şaşırdı.

— Ağlayırsan?! — Qəzəbini boğub sakitcə xəbər aldı:

— Cavandı, yazıqdı...

— Qoca olsaydı, ağlamazdın, hə?

— Yox...

— Düz deyirsən, qoca üçün ağlamağa dəyməz. Mən öləndə də ağlamazsan, çünki mən də qocayam...

—…

Dünya tamam ayıldı, özünü ələ almağa çalışdı, ancaq gec idi. Hissləri ağlını oğurlamışdı, mühakiməsini əlindən almışdı.

Nəcməddinin ürəyi azca toxtamışdı. İstəyinin birinə nail olmuşdu; indi bir az rahat nəfəs almaq olardı. Onun ağır sarsıntılı günlərində itirdiyi qüdrət, qüvvət özünə qayıtmışdı — o, yenə özünə inanmağa başladı bu bir neçə dəqiqənin içində. Ayağa qalxdı. Siqare-

tin kötüyünü həyətə atıb eyvanda var-gəl elədi, sonra üzünü hələ də yerində donub qalmış Dünyaya tutub xırıltılı səslə:

—Bir yaxşı süfrə aç, arvad!—dedi. — Bu gün bayramdı.

Dünya baş örpəyinin ucu ilə gözlərinin nəmini qurutmağa çalışaraq güclə:

— Nə bayram? — dedi.

— Bu gün Əbdülün evimizə qayıtmasını bayram eləyəcəyik!

Dünya mat-mat Nəcməddinə baxıb susdu.

***

Dünya xanımın fikri nə qədər dağınıq olsa da, yaxşı bir süfrə açmışdı. Halı heç yox idi. Bu bayram söhbəti haradan kişinin ağlına gəlmişdi? Niyə əvvəlcədən demirdi? Vəlixan öldürüləndən sonra birdən-birə bayram?.. Bu suallar Dünya xanımın beynində tutqun-tutqun dolanırdı, ancaq o, elə sarsılmışdı ki, bunlara düz-ağıllı cavab tapa biləsi halda deyildi. Beş addımlıqda yas, burada bayram!! Bəli, bu hikməti Dünya heç cür dərk edə bilmirdi. Bütün şam boyu dilinə bir tikə vurmadı Dünya xanım. Əslində Nəcməddin də süfrədəki naznemətdən dadmadı. Təkcə iki qədəh viski içdi. Dünya ona demədi ki, axı sən bayaq söyləmişdin bir də dilimə içki dəydiyini görməyəcəksən? Bəs nə oldu?! «Özü bilər, cəhənnəmə içir, gora içir!»—deyə ürəyindən keçirdi. Nəcməddin üçüncü qədəhi də içəndə Dünyaya dedi:

— Məsləhət görürəm, sən də iç!

— İçmirəm.

— İçsən yaxşı olar, Dünya! Görürəm Vəlixanın ölümü səni sarsıdıb. İçsən, dərdin yüngülləşər... Həm də indi qulaq asacağımız musiqi sənə daha gözəl təsir edər, Dünya!!

— Hələ musiqiyə də qulaq asacağıq?.

— Bəs necə?! Bayram musiqisiz olar?!

— Əcəb də bayramdı. Çox böyük iş olub — nökər qayıdıb gəlib!. Yaxşı deyil, Nəcmi, — o, az qala yalvardı, — qonşuda yasdı, biz burda musiqiyə qulaq asırıq... Ayıbdır!..

— Eyb etməz... Ölüb ölüb, Vəlixan. Sənin canın sağ olsun! Atan deyil, qardaşın deyil, yasını saxlayasan.

— Əcəb daşürəkli adamsan, Nəcməddin!. — Mən belə deyildim, Dünya. Heç vaxt belə olmamışdım, ancaq indi həqiqətən daşürəkliyəm və bunu sən eləmisən. —Mən?.. Mən?.. — Dünya balaca əlini iki döşünün arasına vurdu.

— Bəli, sən!!

Dünya təəccüblə baxdı Nəcməddinə... Və rəngi dəyişdi, içəridə inlədi: «İlahi, sən özün məni bu dəlinin əlindən hifz elə!»...

— Sənə nə olub, əzizim! — O, əsə-əsə ayağa durmaq istəyəndə Nəcməddin işarə ilə əmr etdi:

— Otur yerində!..

— Boy!..

— Uşaq hanı?

— Uşaq? Beşiyindədi!

Nəcməddin qalxıb beşikdə arxası üstə uzanıb oyuncaqlarla oynayan balaca Nəcməddini götürdü... gətirib anasına verdi.

— Neynirəm bunu! Qoy süfrəni yığışdırım, sonra!

— Xeyr, süfrə elə-belə qalacaq. İndi sən oğlunu əmizdir, doyduq, indi onu yedizdir... Sal döşünə!

Dünya xanım ani tərəddüddən sonra onun səsindəki qətiyyəti görüb sözünü çevirmədən yaxasını açdı, sol döşünü uşağın dodaqları arasına qoydu. Uşaq acmış deyəsən. Marçıltı ilə acközlüklə əməyə başladı.

Nəcməddin siqaret dumanı arasından bu mənzərəni seyr edirdi. Susurdu. Sadəcə qəribə baxışlarla gah Dünyaya, gah da uşağa baxırdı. Dünya onun gözlərindən vahimələnmişdi. Daha ona baxmamağa çalışırdı.

— İndi o biri döşünü ver əmsin...

— Doyub deyəsən...

— Yox, doymayıb, ver əmsin. Qoy lap doyunca əmsin...

Dünya əri deyən kimi də elədi. Körpə ikinci döşünü də əməyə başladı. Yenə sükut... Beş-altı dəqiqə sonra yeyib doyub kefi kökəlmiş uşaq anasının döşünü ağzından buraxdı, totuq əli ilə onun boyunbağısını, sırğasını əlləşdirdi.

— Doydu deyəsən, hə?

— Hə.

— Mənə onu. — Qalxıb oğlunu anasından aldı. Ağır, ləngərli addımlarla uzaqlaşmaq istədi, nəsə fikirləşib geri qayıtdı, uşağı Dünyanın ağarmış sifətinə yaxınlaşdırıb:

— Ananı maç elə, oğul, — dedi, — Hə, yekə kişisən, maç elə ananı...

Uşaq Dünyanın sifətinə yapışmış dodaqlarını tərpətdi, bu, doğrudan da öpüşə oxşadı. — hə, indi gedək, bir az təmiz havada gəz Əbdüllə... — Qapının astanasında dayandı, Əbdülü səslədi. Əbdül o

dəqiqə qaça-qaça gəldi. — Apar bu uşağı həyətdə gəzdir... Elə elə ki, soyuq dəyməsin...

— Baş üstə, ağa!!.

Nəcməddin geri qayıtdı. Əllərinin ikisini də stulun söykənəcəyi üstünə qoyub yerində donub qalmış və nə baş verdiyini hələ də dərk etməyən Dünya xanımı diqqətlə, bir az tənə, bir az qəzəb qarışıq baxışla süzdü. Dünya daha dözməyib:

— Mən bu gün səndən heç nə baş açа bilmirəm. Bütün bunlar nə deməkdir axı? — dedi. Əsəbiliyi açıq-aşkar duyulurdu. Nəcməddin rişxəndlə qımışdı:

— Görürəm əsəbiləşirsən... Mənim rəhmətlik atam deyərdi ki, əsəbiləşəndə musiqiyə qulaq as, keçib-gedər əsəbiliyin. Hə, həm də sənə söz vermişdim axı... yaxşı musiqi yazıblar mənim üçün... Deyirəm əvvəl ona qulaq asaq. Elə yaxşı deyil?

—…

— Elə yaxşıdı...

Nəcməddin pianonun üstündəki balaca maqnitofonu gətirib jurnal stolunun üstünə qoydu, düyməsini burdu... Otağa həzin, adamın iliklərinə qədər işləyən, evdən-eşikdən, yerdən, qayğılardan azad eləyən, ruhunu göylərə, xoş günlərə, xatirələrə çəkib aparan bir musiqi axıb doldu. Elə gözəl idi, elə şirin idi bu ahəng, lap laylaya bənzəyirdi, Gitaranın simlərinin titrəyişi adamın ürəyinin tellərini də ehtizaza gətirirdi. Dünya da, Nəcməddin də qeyri-iradi gözlərini yummuşdu. Hərəsi öz dünyasına uçub getmişdi, hərəsi öz xatirələrini, xoş günlərini yad etmişdi. Bütün xoşbəxt dəqiqələr, saatlar, günlər kimi, heyf, bu musiqi də tez qurtardı. Sona çatan təki hər ikisi xəyal aləmindən ayrıldı və sanki niyə belə tez qurtardığına təəssüfləndi.

— Gözəl idi? — Nəcməddin quru səslə xəbər aldı.

— Hə! — dedi Dünya.

— İndi bundan yaxşısına qulaq asacağıq. Bu nədir onun yanında?

Nəcməddin maqnitofondakı kaseti çıxartdı, cibindəki kaseti onun yerinə saldı. Düyməni basmamışdan əvvəl dedi:

— Buna diqqətlə qulaq as, Dünya. Bu sənin öz mahnındı.

— Mənim?

— Hə... Qulaq as! — Və o, düyməni basdı. Əvvəl zəif bir xışıltı eşidildi, sonra qadın səsi otağa doldu. Bu səsi eşidən kimi Dünya — «ox!» — deyib yerindən sıçramaq istəyəndə... Nəcməddin qoltuq cibindən tapançasını çıxartdı və amiranə bir tərzdə:

— Otur, bu mahnını axıra qədər dinləyəcəyik! — dedi. — Otur!..

Dünya taqətsiz halda stula çökdü... Dünyanın səsi:

— Alo? Sənsən? Kişi səsi:

— Hə, salam, mənim əzizim. Necəsən? Dünyanın səsi:

— Zəhrimar necəsən, dərd necəsən! Hələ utanmırsan mənə bir «əzizim» də deyirsən? Sənin ciyərini çıxardacağam!! Kişi səsi:

— Əzizim, axı nə olub, belə hirslənmisən? Bir məni başa sal görüm nə olub axı? Dünyanın səsi:

— Mənə de görüm bu gün kef eləmək üçün apardığın o qız kimdi? Hə, kimdi? Kişi səsi:

— Hansı qız, nə kef? Dünyanın səsi:

— Özünü tülkülüyə vurma, mən sənin sədaqətinə elə inanırdım ki, heç ağlıma da gəlməzdi sən belə əclaflıq eləyə bilərsən?

Kişi səsi:

— Axı mən heç nə başa düşmürəm. Qız kimdi, əclaflıq nədi? Bunu sənə kim deyib axı? Dünyanın səsi:

— Heç olmasa kişiliyin çatsın, hər şeyi boynuna al. Görürəm buna da kişiliyin çatmır. Sən əclafsan, mənim gecəm-gündüzüm yoxdu, səhər sən işə gedəndə, axşam işdən qayıdanda yollarına baxmaqdan gözümün kökü saralıb. Səni uzaqdan da olsa görməyi özümə səadət bilmişəm. Bu dörd divar arasında sənin həsrətinlə yaşamışam... Sən isə...

Kişi səsi:

— Canım, ciyərim, gözlərimin işığı... Mənim səndən başqa heç kimdə gözüm yoxdu, qurban olum. Mən səni sevdiyimə görə özümü dünyanın ən xoşbəxt adamı hesab eləyirəm, ay mənim ömrüm-günüm. Vallah-billah, mən bu gün heç kəslə görüşməmişəm, nə qız, nə filan!? Dunyanın səsi:

— İnanmıram. Kişi səsi:

— Sənin əziz canına and içirəm, Dunyam, qibləgahımın gorına and içirəm, yalandı. Belə şey olmayıb, ömründə də ola bilməz!

Dünyanın səsi:

— Demək onda köpək oğlu mənə yalan deyib?! Kişi səsi:

— Hansı köpək oğlu? Nəcməddin deyib bunu sənə?!. Dunyanın səsi:

— Hə, yox. O deməyib! Kişi səsi:

— Yalan danışma mənə, Dünya. Sənə bunu Nəcməddindən başqa heç kəs deyə bilməz. Səni ondan başqa kim görə bilir ki?! O deyib. Və həqiqətən o deyibsə, onda şübhələnib...

Dünyanın səsi:

— İnanmıram, şübhələnsin. Çünki əsas verməmişəm ona. Özü də malbaşın biridi. Sən deyən elə incə nöqtələrə vaqif olan adam deyil. Pir mənimdi, kəramətinə bələdəm...

Kişi səsi:

— Yox, Dünya, şübhələnib... Ehtiyatlı ol, qurban olum. Sən bu Nəcməddini yaxşı tanımırsan, onu mən yaxşı tanıyıram. O, adamın başını pambıqla elə kəsir ki, heç xəbəri də olmur. Ondan özünü qoru, qurban olum. Yoxsa hər ikimiz məhv olarıq.

Dünyanın səsi:

— Düz deyirsən, ehtiyat igidin yaraşığıdı. Kişi səsi:

— Əzizim, bu telefon məhəbbəti bilmirəm haçanacan davam eləyəcək. Ürəyim lap bir tikə olub səndən ötrü... Belə də zülm olar?! Daha dözə bilmirəm, inan, Dünya, əzizim...

Dünyanın səsi:

— Mən də, Vəlixan! Səbrim lap tükənib, əzizim. Ancaq ümid eləyirəm bu yaxınlarda görüşəcəyik. Deyəsən hərif əlahəzrətlə ova çıxmağa hazırlaşır... Onda mən sənə xəbər eləyərəm. Gecə gələrsən...

Kişi səsi:

— Təki olsun, canım-ciyərim. Səbirsizliklə gözləyəcəyəm o günü. O gün bizim ömrümüzün bayramı olacaq... Dünyanın səsi:

— Yaxşı, hələlik. Uşaq ağlayır... Mən gedirəm... Öpürəm səni...

Kişi səsi:

— Sağ ol, əzizim. Mən də öpürəm səni...

Bir-iki saniyəlik fasilə. Boş lent xışıltısı...

Nəcməddinin səsi:

— Alo, mənəm. Dünyanın səsi:

— Hardasan bu vaxtacan? Gecə saat birdi. Nəcməddinin səsi:

— Bərk kefliyəm. Bu... axşam... evə... gəlməyəcəyəmm... Dünyanın səsi:

— Yenə içibsən? Kimnənsən? Gəl evə... Nəcməddinin səsi:

— Dedim ki, gələ bilməyəcəyəmmm. Başaa düşürsəən? Dar-vazanı, qapı-pəpcərəni bağlaa... yatt! Dünyanın səsi:

— Ayrı maşına min, gəl, Nəcməddin. Nəcməddinin səsi:

— Eh... söz deedim... (duud, duud). Yenə bir saniyəlik lent xışıltısı. Dünyanın səsi:

— Alo, salam, əzizim. Necəsən? Vəlixanın səsi:

— Ay salam, salam, mənim çiçəyim. Yaxşıyam. Sən necəsən? Deyəsən hirsin soyuyub, hə? Dünyanın səsi:

— Hə, soyuyub. Vəlixanın səsi:

— Səndən nə əcəb, ay mənim ömrüm-günüm, gecənin bu vaxtı zəng eləmisən? Səndən çıxmayan iş? Saat ikinin yarısında.

Dünyanın səsi:

— Yoxdu evdə kişi. Zəng eləmişdi, gəlməyəcək. Yenə haradasa lül-qənbər olub. Heç ağzı söz tutmurdu. Vəlixanın səsi:

— Nə yaxşı, nə yaxşı... Onda, canım-ciyərim, bu saat gəlirəm. Belə fürsət ələ düşməz... Dünyanın səsi:

— Yox, yox... Bilmək olmaz, bir də gördün qəfildən gəlib çıxdı... Yox, qorxuram. Vəlixanın səsi:

— Heç nə olmaz, cana. O, qapıdan gələndə, mən pəncərədən qaçaram, yalvarıram, qorxma, heç nə olmaz... Çox qalmaram yanında, bir saat, uzaq başı iki saat...

Dünyanın səsi:

— Mənim də ürəyim səni istəyir, lap çox, lap çox, bilirsən? Yox, bilmirsən səni necə istəyirəm... ancaq olmaz... Bu yaxında ova gedəndə lap arxayınlıqla görüşəcəyik, əzizim, bir az səbrin olsun... Onda gecə səhərəcən səni yanımdan buraxmayacağam...

Nəcməddinin — əlini geniş alnına söykəmiş, rəngi qapqara qaralmış, dodaqları əsən Nəcməddinin daha səbri çatmadı bu iyrənc söhbəti axıra qədər dinləsin. Onsuz da əvvəl bir neçə dəfə bu söhbətə axıracan qulaq asmışdı və bilirdi bu telefon danışığı da nə ilə bitir. Düyməni basıb maqnitofonu söndürdü. Sükut qılıncını çəkib hər şeyi susdurdu — evdə milçək uçsaydı, qanadlarının səsi eşidilərdi. Dünya canı çoxdan çıxmış adam kimi, əlləri qoynunda halsız-hərəkətsiz oturmuşdu. Rəngi qar kimi ağarmışdı. Elə bil, nitqi də batmışdı. Bayaq, Vəlixanın ölüm xəbərini eşidəndə yaş axıdan gözləri indi qupquru idi; ağlaya da bilmirdi deyəsən. Nəcməddin qalxdı, siqaret yandırdı təzədən, gəlib onun qənşərindəki stulda əyləşdi, balaca çib tapançasını da stolun qırağına, əlinin altına qoydu. Son on beş gündə heç kəsə açıb-ağartmadığı, az qala qəlbini partladacaq o dəhşətli əzabların intiqamını alacağı anların yaxınlaşdığını anlayıb bir az dirçəlmişdi elə bil; şübhələr, «bəlkələr» aləmində yaşamaqdansa əliqanlı qatil olmaq onun üçün min dəfə yaxşı idi, rahat idi. Özü hiss edirdi ki, ürəyində rəhm adlı şey qalmayıb. Qala da bilməzdi... Əvvəl belə qərara gəlmişdi ki, lenti dinləyib qurtarandan sonra, ondan heç nə soruşmadan,

həyatını sona çatdırsın. Hər şey göz qabağında idi. Səsini dana bilməzdi ki!! Ancaq son anda fikrinə gəldi ki, ona öz sözlərini desin, ürəyini boşaltsın. Bundan da əslində qorxurdu. Dünyada adamı yolundan, əqidəsindən, məqsədindən döndərmək qabiliyyəti vardı — qorxurdu ki, birdən dilə tutar, ağlayar, yalvarar və onun əli sustalar, ürəyinə rəhm gələr. Ancaq yox, Nəcməddin hər şeyi keçərdi onun üçün — bu evi yandırsaydı, keçərdi, bütün milyonlarını dağıtsaydı, bağışlardı, ona güldən ağır bir söz də deməzdi. Axı o bədbəxt bu etibarsızı sevirdi — dünyada hər şeydən, hər kəsdən çox sevirdi. Çünki anlayırdı ki, həyatı, ömrü onun əlindədi, onun məhəbbətindədi, nəvazişindədi, gəncliyində və gözəlliyindədi. Bu mənfur, qədirbilməz qadın onu niyə başa düşmədi, niyə qiymətləndirmədi?! Bax, buna görə o, cəzasına çatmalıdır!

Nəcməddin siqaretin tüstüsünü tavana tərəf üfürüb ah çəkdi, titrək səslə soruşdu.

— Hə, necədi, bu mahnılar da xoşuna gəldimi, Dünya xanım?

—…

— Sənin ləyəm! Xoşuna gəldimi bu mahnılar?

—…

— Danışmaq istəmirsən. Çünki daha deyiləsi bir sözün qalmayıb. İnkar etmək olmaz, altından qaçmaq olmaz.

Vəlixanı sən öldürtdün? — Dünya onun gözlərinin içinə baxdı.

— Bəli, mən öldürtdüm. Dünən elə fikrim yox idi, bu gün səhər bu mahnılara — axşam saat ikinin yarısında oxuduğunuz bu mahnılara qulaq asandan sonra hökm verdim; o ölməlidir.

— Nə qəddar adam imişsən?!

— Bunun günahkarı sənsən, Dünya!

— Sən mənə xəyanət elədin. Mənim kimi kişiyə xəyanət elədin sən.

— Mən sənə hələ xəyanət eləməmişəm!

— Hm... Gülməlidir. Xəyanətin buynuzu olur məgər?! Keçən geçə sən qorxudan onu yanına buraxmadın, amma mən ova gedəndə sən onu yanına buraxacaqdın. Özü də səhərəcən saxlayacaqdın yanında. Eləmi? Tfu, nankor qadın, namərd mələk, şəxsiyyətsiz insan! Nəyin yox idi? Mənim yerə-göyə sığışmayan məhəbbətim sənə azlıq eləyirdi? Pis kişi idim sənin üçün? Sən mənə bu gün fikrən xəyanət eləmisən, sabah əmələn xəyanət eləyəcəksən — buna mən zərrə qədər də şübhə eləmirəm, Dünya. Gərək ki, sən özün də buna şübhə eləməzsən!! Sən, heyf ki, bir şeyi unutmusan, unutmusan ki, mən

Nəcməddinəm, hər hansı bir avara kişi deyiləm ki, istədiyin vaxt məni aldada biləsən, başımın altına yastıq qoyasan. Sən bunu nahaq unutmusan. Sənin indi getməyə hazırlaşdığın yolları mən çoxdan gedib-gəlmişəm...

O danışdıqca Dünya diqqət verib görürdü ki, kişinin gözlərindən yaş axır!.. Hıçqırmırdı, hönkürmürdü, səssiz-səmirsiz ağlayırdı Nəcməddin!! Yalnız bunu görəndə bütün dəhşətilə anladı ki, onu Nəcməddin öldürəcək. Bədənini soyuq tər basdı, tükləri qabardı və bayaqdan heç gözünün ucu ilə də baxmadığı tapançaya qorxu içində nəzər saldı... Və birdən stuldan sürüşüb yerə düşdü, dizin-dnzin sürünə-sürünə Nəcməddinin qənşərinə gəldi, ayaqlarını qucaqlayıb hönkürə-hönkürə yalvardı:

— Allah məni öldürsün, Nəcmi. Mən günahkaram qabağında. Anlamamışam, bilməmişəm, qələt eləmişəm. Sənə yalvarıram, məni bağışla. Ömrüm boyu, ömrüm boyu sənə sadiq olmağa and içirəm, Nəcmi. Dünya dağılsa, milyon kişi dünyaya vəd eləsə, birinə də gözümün ucu ilə baxmaram. İnan, buna, Nəcmi, yalvarıram sənə, inan mənə...

— Çəkil, murdar, mən təmiz adamam, məni murdarlama murdar nəfəsinlə! — deyə o, soyuqqanlıqla Dünyanı ayağının ucu ilə vurub kənara atdı. — Çəkil.

Arxası üstə xalçanın üstünə düşmüş Dünya gözlərini yaş tuta-tuta tamam dönüb dəyişmiş Nəcməddinə baxdı, xeyli susduqdan sonra:

— Onda... onda... məni burax gedim! — dedi.

— Hara gedəcəksən?

— Hara gəldi, gedərəm, ağam. Uşağımı da götürüb gedərəm, ağam, tamam başqa şəhərə gedərəm...

— Yox, Dünya. Sən hara getsən, mənim adım sənin üstündədir. Bunu heç ağlına da gətirmə... Uşaqdan isə... nigaran olma, Dünya.

...Elə bu zaman Əbdül balaca Nəcməddinlə həyətdə gəzinirdi; kişi neçə vaxtdan bəri görmədiyi uşağı bağrına basıb yanaqlarından, dodaqlarından, əllərindən öpür, kimsənin eşidəcəyindən qorxurmuş kimi astaca pıçıldayırdı;

— Heç bilirsən sənin üçün necə darıxmışdım, ay oğul. Başına dönüm sənin, qurbanın olum sənin. Sən də mənim üçün darıxmışdınmı, can bala?

Balaca Nəcməddin təsadüfən başını tərpətdi və totuq əlini Əbdülün sifətində gəzdirdi.

— Ay mənim ciyərparam. Allah səni mənə çox görməsin, bala. Sən bilmirsən, mən necə bədbəxt atayam, bilmirsən bala. Mən sənə heç vaxt, heç kəsin yanında ucadan, şəstlə «oğul» deyə bilməyəcəyəm. Heç vaxt deyə bilməyəcəyəm, can bala. Sən özün də bədbəxt uşaqsan, oğul. Sən də mənə heç vaxt ata deməyəcəksən.

Bu dərd böyük dərddi, oğul...

Allah anana kömək olsun, onu xata-baladan hifz eləsin, oğul. Elə nigaranam ondan, elə nigaranam. Heç sən təsəvvür eləmirsən necə. Odla oynayır, od ona qənim olmasa yaxşıdı. O qonşu oğlanla qaş-göz eləyirdi, şükür ki, bir günaha batmamış onu öldürdülər. Mən də yaman qısqanırdım — öldürməsəydilər, o gədəni özüm öldürəcəkdim. Yaxşı oldu öldürdülər, xata-bala bizdən uzaq oldu. Eh, oğul, oğul, sənə bunları heç bilmirəm niyə deyirəm, onsuz da sən heç nə başa düşmürsən, can bala. Elə-belə, dərdimdən danışıram səninlə. Səndən başqa kimlə dərdimi bölüb ürəyimi boşalda bilərəm, can bala! Yəqin sən də bir az böyüyəndən sonra, ağlın söz kəsəndən sonra belə-belə şeyləri sənlə də danışa bilməyəcəm, oğul.

...Nəcməddin təkrar etdi:

— Uşaqdan qətiyyən nigaran olma.

— Məni o uşağa bağışla, Nəcmi. Sənə yalvarıram, o məsum körpəyə bağışla məni.

— Yox, Dünya. Bağışlamaq olmaz səni. Heç cürə bağışlaya bilmərəm. Sükut...

— Biz... belə görürəm, bundan sonra, bir yerdə yaşaya bilmərik. Buraxmırsan da çıxam gedəm...

—Bəli, düz deyirsən. — Daha bizim birgə yaşamağımızdan keçmiş ola. Buraxmağımdan da gözünü çək.

— Bəs... onda?!

— Sən... — Nəcməddin dəsmalını çıxarıb gözlərini sildi və köks ötürüb davam etdi, — sən elə bir iş tutdun ki, özünü də məhv etdin, məni də. Sən məni bu dünyada yaşada biləcək yeganə varlıq idin; sənin məhəbbətin, kəncliyin, gözəlliyin məni yer üzünün ən xoşbəxt kişisi eləmişdi. İndi isə... ən bədbəxt adamı elədin sən, Dünya. Mən də səndən sonra çox yaşaya bilmərəm, heç nə məni yaşada bilməz daha. Ürəyinə, mənliyinə belə xəyanət zərbəsi vurulmuş kişi, sən özün de, yaşaya bilərmi? Bəlkə də başqaları yaşar, ancaq mən yox, əsla yox. Mən indi, bütün bu qarmaqarışıq, çalpaşıq hisslərimin içində bircə şeylə təsəlli tapıram ki, mənə xəyanət eləyən, — ömrüm boyu belə olmuşam, — bəli, mənə xəyanət eləyən, hətta

xəyanət eləmək istəyən adamlara borclu qalmamışam. Hər kəsə öz xəyanəti müqabilində cəzasını vermişəm. İndi də belə olub. Vəlixanın cəzasını verdim. İndi qalıbsan sən...

— Yəni... sən... — deyə Dünya udquna-udquna soruşdu,— məni də öldürərsən? Mənə də qıyarsan, Nəcmi? Nəcməddin ağır-ağır başını tərpətdi:

— Hə, öldürərəm, daha doğrusu öldürəcəyəm.

— Öldürməzdim səni, buraxardım gedərdin. Ancaq ürəyimlə bacara bilmərəm. Mən səni çox, özün bilirsən necə çox sevmişəm. Mən hətta öz əcəlimlə ölməyə də qorxurdum bir vaxt — ona görə ki, sən qalardın, kiminsə arvadı, ya məşuqəsi olardın, onda mənim sümüklərim qəbir evində də sız-sız sızıldardı, Dünya. Mən səni bax belə sevirdim. İndi isə, bu dəhşətli, iyrənc əhvalat üzə çıxandan sonra, səni heç cür sağ qoya bilmərəm, Dünya. Heç olmasa ona görə ki, sən bundan sonra da çox mənim kimi oğullara dəhşətli əzab verməyəsən, verə bilməyəsən, sənə ürəyini, həyatını, hər şeyini qurban eləyən adama xəyanət eləyib onu alçaltmayasan. Kim bilir sən ömrün boyu neçə belə, mənim kimi kişiyə əzab verməyə qadirsən. Mən onları bu əzablardan qurtarıram. Çünki özüm çəkmişəm bu əzabı, çünki özüm görmüşəm bu əzabı — cəhənnəm əzabı bundan min dəfə yaxşıdı, Dünya. Ola bilər, sağ qalsan haradasa, nə zamansa, ömrünün nə çağındasa sən də belə bir əzaba düçar olasan. Ancaq mən, ürəyimi bu qədər parçalayandan sonra da, istəmirəm sən belə bir əzaba düşəsən, dirigözlü yanıb kül olasan, Dünya. Mən bunu da istəmirəm, Dünya.

...İçəridən bərk musiqi səsi gəldi. Hansı müğənnisə uca səslə elə qışqıra-qışqıra oxuyurdu... Əbdül eyvanın dibinə gəldi balaca ilə. Qulaq asmağa başladılar. Birdən... otaqdan güllə səsi eşidildi, kimsə qışqırdı. Əbdül əvvəl başa düşmədi, elə bildi bu da lentə yazılıb... Ancaq ağasının bütün günü müşahidə elədiyi qəribə söhbətlərini, hərəkətlərini göz qabağına gətirəndə, hövlnak yuxarı qaçdı və içəri girəndə... Dünyanı xalçanın üstündə, arxası üstə hərəkətsiz uzanmış görüb dəhşətlə:

— Sən neylədin, ağa? — deyə qışqırdı...

ON ÜÇÜNCÜ FƏSİL

Əbdül bu gözlənilməz mənzərədən nə qədər çaşsa da uşağı beşiyinə qoymağı unutmadı. Sonra addım-addım irəli gəldi. Dünyanın

tavana zillənmiş açıq gözlərinə heyrət içində bircə anlığına baxdı və Nəcməddinə sarı çevrildi:

— Sən neylədin, ağa?

— Öldürdüm... — dedi Nəcməddin. Süstəlmişdi, elə bil iri, az qala partlamaq dərəcəsinə gəlmiş tuluğun köpünü almışdın. İndi o, Əbdülün neçə illər boyu tanıdığı sakit, həlim, mehriban Nəcməddin olmuşdu. Birdən o, Əbdülün üstünə yeridi. — Əbdül qorxu içində azca geri çəkildi, — və onun çiynindən tutub alnından öpdü:

— Sağ ol, Əbdül. Minnətdaram sənə.

Əbdül çaşıb qalmışdı.

— Sağ ol, qardaşım, məni rüsvayçılıqdan xilas elədin, qardaşım. Sən deyənlər düz imiş. Dünya mənə xəyanət eləyirmiş... Sən məni vaxtında ayıq saldın. Bax, görürsən, o maqnitofona səslərini yazmışam... Vəlixanla onun səsini...

Əbdülün beynindəki düyün sanki indi açıldı və birdən-birə hər şeyi xatırladı — o sərxoş olan gecə dediyi sözlər gəlib yadına düşdü, on beş gün kənddə kişinin dostunun evində göz dustağı qalmağının, Nəcməddinin ev-eşiyi ona vəsiyyət eləməyinin səsəbini anladı və sarsıldı... «Sənin qatilin mən oldum, Dünya» deyib inlədi ürəyində. Ev təzədən başına fırlandı. Keçən günlər, birər-birər gəlib gözlərinin önündən keçdi... Və bu günlərin içində Dünyanın o kürənə həsrətlə, məhəbbət dolu baxışlarla baxması, gözəgörünməz gizli telefon danışıqları, son vaxtlar isə ondan tamamilə üz döndərmək dərəcəsinə gəlməsi də yadına düşdü: bu isə onu azca toxtatdı və Dünyaya daha yazığı gəlmədi.

— Sən özünü itirmə, Əbdül. Biz kişiyik, gərək, mətanətli, dəyanətli olaq. Xəyanətin cəzası budur və həmişə də, əsl kişilər belə eləyib! Kişinin papağı və təmiz adı — dünyada hər şeydən müqəddəs olmalıdır. İndi dayanmaq, ah-uf eləmək vaxtı deyil, bel götür, bağın o başında, ərik ağacının yanında, hasarın dibində onun üçün yaxşı bir qəbir qazı və Dünyanı elə bu qanlı xalçaya büküb basdır orda.. Yerini də hamarla. Qorxma, onu axtaran olmayacaq, soruşub-eləyən olsa da, «qaçıb gedib» deyəcəyik — bilmirik hara gedib... Di haydı, tərpən. Ancaq aparanda boyun-boğazının qızıllarını çıxartmağı unutma.

Nəcməddin piyaləsinə viski süzdü, içdi. Əbdül heç nə deməddən boyun-boğazının qızıllarını açmaq üçün meyidə yaxınlaşdı, əvvəlcə onun açıq gözlərini sığayıb qapadı, sonra zinət şeylərini açıb stolun üstünə atdı.

— Bura atma, onlar hamısı sənindi. Mənə onun heç nəyi lazım deyil.

— Mənə də lazım deyil, ağa.

— Sənindi dedim, vəssalam.

Əbdül xalçanın ucundan tutub qatladı, bükdü və az sonra Dünyanın bədəni xalça lüləsinin içində itib-batdı...

O, bükülünü qolları arasına alıb ehmal addımlarla həyətə düşdü və bağın o başına getdi...

...Nəcməddin eyvana çıxdı, qonşu binadan ağlaşma səsi gəlirdi. Kimsə, — yəqin anası idi, — ürəkyaxan bir səslə ağlayırdı. Nədənsə bu yanıqlı səs Nəcməddinə heç bir təsir eləmirdi. Əksinə onun ürəyinə nə isə rahatlıq, toxtaqlıq bəxş edirdi. Vəlixanın Dünyaya dediyi və lentə yazılmış sözləri qulağının dibində səslənirdi: «Sən onu yaxşı tanımırsan, mən səndən yaxşı tanıyıram. Adamın başını pambıqla elə kəsir ki, heç xəbəri də olmur... Bəli, düz deyirsən, Vəlixan... Mənim, ağayi Nəcməddinin bostanına daş atan oğulun anası belə mələr qalar. Bunu bilə-bilə, sən nahaq öz başını çobanın çomağına sürtürdün, namərd!» — Vəlixanın sözlərinə sanki cavab verirdi. İçəridə balaca Nəcməddin ağladı. Kişi özünü otağa saldı, beşikdən uşağı qucağına götürdü. Oğlan kiridi. Mat-mat atasına baxdı. Çox qəribə idi, göz qırpmadan xeyli baxdı. Və bu baxışdan Nəcməddinin ürəyi üşürgələndi.

— Niyə mənə elə baxırsan, bala? Mənə nifrət eləyirsən? Sən hələ körpəsən, oğul, belə şeyləri başa düşməzsən, oğul. O sənin anan idi — ancaq pis ana idi, oğul. Yaxşı ki, ölüb getdi. Sən sonralar böyüyüb cavan olanda — əgər o, indi ölməsəydi və yaşasaydı — el-oba içində gözükölgəli olacaqdın, oğul. Adamlar tapılacaqdı ki, səni uzaqdan barmaqla göstərib deyəcəkdilər: «mən onun anasıyla...» Düzdü, bunu heç kəs sənin üzünə deməyəcəkdi, ancaq daldada deyəcəkdilər və sən, mənim kimi bir kişinin oğlu, camaatın gözü qabağında, özünün də xəbəri olmadan şüşə kimi çilik-çilik olub tökülәcəkdin, sınacaqdın, oğul. Onda mənim gorum da od tutub yanardı. Mən tək öz adımı, namusumu xilas eləməmişəm bu bəladan, səni də xilas eləmişəm, can bala! İndi sənə çətin olacaq, düzdü. Anasız uşaq olmaq müsibətdi— bilirəm. Sən böyüdükcə onun yeri görünəcək, onun üçün ağlayacaqsan, darıxacaqsan, anasının əlindən tutub gəzməyə gedən uşaq görəndə ürəyinin başı göynəyəcək. Amma döz bunlara, oğul. Sən mənim oğlumsan, dözümlü olacaqsan, bilirəm. Əbdül — bax bu rüsvayçılıqdan bizi xilas eləyən kişi səni yaxşı saxlayacaq, anan kimi yaxşı saxlayacaq. Mən buna inanıram. Yaxşı ki, səni axırıncı dəfə

doyunca əmizdirdi. Bu sənin əmdiyin axırıncı ana südü idi, bala. O tamı, o dadı yadında saxla. Yox, saxlama, heç o da lazım deyil. O süd də haram imiş, can bala.

Nəcməddin belə danışa-danışa uşağı öpüb beşiyinə qoydu və beşiyi yırğalamağa başladı...

...Əbdül qəbir qazırdı. Kecə aydınlıqdı. Seyrək buludların arasından ay sanki düz bura — Dünyanın dəfn ediləcəyi yerə baxırdı. Əbdülün üzündən, alnından axan tər damcıları gözünün yaşına qarışırdı. «Bu da mənim cəzamdı, tanrı mənə verir. Öz əzizimi öz əlimlə basdırıram. Eh, Dünya, Dünya... Sən niyə belə elədin? Hamımızı bədbəxt elədin, Dünya. Ağamı da, məni də, oğlunu da, Vəlixandınədi — onu da. Hamıdan pis özünü bədbəxt elədin, Dünya...» — deyə-deyə Əbdül qəbir qazırdı...

Nəhayət, qəbir hazır oldu. Əbdül beli yaş torpağa sancıb bir az dincini aldıqdan sonra, evə sarı boylandı, Nəcməddinin gəlib-gəlmədiyini bilmək istədi… Bəlkə son dəfə görüşmək üçün gəldi?... «Yox, gəlməz. Nəcməddin gəlməz...» — dedi öz-özünə. Birdən qəlbində xalça bükülüsünü açmaq, axırıncı kərə Dünyaya baxmaq arzusu baş qaldırdı. Və cəld hərəkətlə xalçanın ucundan tutub qatı açdı. Ay işığında Dünyanın artıq soyuyub buza dönmüş bədəni canlı imiş kimi Əbdülün gözü önündə cilvələndi. Elə bil o, pallı-paltarlı şirin bir yuxuya getmişdi. Çağırsan, oyanacaqdı. Yox, bəs bu ləkə nədi? Hə, qan ləkəsidi. Güllə düz sol döşünün üstündən, ürəyinin başına atılmışdı. Ayrı yerindən də vura bilərdi, zalım. Ancaq görünür, qəsdən ürəyinin başından vurub... Yəqin düşünüb ki, bütün bu müsibətlərə səbəb sənin ürəyindi, Dünya. Yəqin sənə demək istəyib ki, bax xəyanətkar ürək belə parçalanmalıdı, Dünya! Sənin də qəribə ürəyin vardı, yazıq. Bəzən ipək kimi idi, bəzən daş kimi idi. Gah ağladırdın, gah güldürürdün. Gah dirildirdin, gah öldürürdün, Dünya. Eh, nə bilim, görünür, sənin də taleyin belə imiş, alnına belə yazılıbmış, Dünya...»—deyə o, birdən dizlərini yaş torpağa qoydu, əyilib onun gözlərindən, soyuq dodaqlarından öpdü, öpdü...

Sonra qəddini düzəldib meyidi yenə xalçaya səliqə ilə bükdü, ehmallıca çəkib qəbrə saldı. Üstünü torpaqlamağa əvvəlcə ürəyi gəlmədi. Ancaq sonra ağır-ağır torpağı belləyib qəbri doldurdu... «Mən səni unutmayacağam, Dünya Sənin üzün məndən dönmüşdüsə də, mən səndən ömrümün axırınacan üz döndərməyəcəyəm. Mən bu fani dünyada səadətin nə olduğunu sənin lə bildim, əzizim. Sənin qəbrinin üstünə güllər əkəcəyəm. Sən gülü çox xoşlayırdın. Oğlumuzla hər gün

gəlib sənə baş çəkəcəyik, Dünya. Balaca Nəcməddindən nigaran olma, onu göz bəbəyim kimi qoruyacağam, böyüdəcəyəm... Və öləndə də vəsiyyət eləyəcəyəm ki, məni bax burada, sənin yanında basdırsın... Sənin ölümünə mən bais oldum, Dünya. Bu günahı ömrüm boyu özümə bağışlamayacağam. Allah da bağışlamayacaq, bilirəm. Amma gərək... sən məni belə... ağlar qoymayaydın, Dünyam mənim...».

Əbdül torpağı hamarlayıb qurtardı və üzü üstə qəbrin üstünə yıxılıb hönkürdü... Elə bu zaman... qar yağmağa başladı... İri, quşbaşı qar...

ON DÖRDÜNCÜ FƏSİL

Yerin-yurdun qalın qarla örtülməsinə baxmayaraq, ertəsi günü, gözlənilmədən öldürülmüş Vəlixanın təziyə mərasiminə çox adam gəlmişdi. Mərhum atasının dostları, özünün iş yoldaşları, tay-tuşları, qohum-əqrəbası... Otaqlar adamla dolmuşdu, həyətdə dayanıb söhbət edənlər də çoxdu. Meyit iri dəhlizdə, ortalıqda qoyulmuşdu. Üzünə qara örtük çəkilmişdi. Kişilər dövrə vurub oturmuşdular. Qadınlar isə deyəsən yan otaqda idilər — çünki ordan qadın ağlaşması, «Can bala», «Dünyadan nakam gedən oğul!» — deyən ana iniltisi eşidilirdi. Ağayi Nəcməddin içəri girəndə hamı yerindən tərpəndi: hörmət, ehtiram əlaməti olaraq ona yuxarı başda, xalça üstündə yer göstərdilər. O, razılıqla başını tərpədib göstərilən yerdə bardaş qurub oturdu. Mərhumun kiçik qardaşı, boyda-buxunda, şəkildə-şəmayildə eynən Vəlixana oxşayan Əlixan meyidin sağ tərəfində əlləri qoynunda, ayaq üstə dayanmışdı. Nəcməddin sakit idi. Ürəyində zərrəcə qorxu, həyəcan hiss eləmirdi. Elə bil, bu qanlı müsibətin ona zərrəcə də dəxli yox idi. Hələ öz daxili aləminə bir az dərindən nüfuz eləyəndə, bəzən bu işindən məmnun olduğunu da duyurdu. Onun dünyasında, haqq-ədalət öz yerini tutmuşdu—namərd, namus oğrusu cəzasına çatmış, qanına qəltan olmuşdu. O, intiqamını almış, toxtamışdı. Bəlkə elə buna görə idi ki, iki cavan öldürülmüş bu ötən qanlı gecədə, on beş gündən bəri bircə an da göz qırpmayan, çimir eləməyən o, beləcə şirin-şirin, demək olar ki, ölü kimi yatmışdı və hətta yuxu da görməmişdi. Bəlkə elə buna görə idi ki, indi çox gümrahdı, arxayın və sakit idi. Nəcməddin oturanlara ötəri nəzər salıb üzünü Əlixana tutdu:

— Bu nə müsibətdi sizin başınıza gəldi, ay oğul? Əlixan ağlamaqdan qızarmış gözlərini Nəcməddinə sarı çevirdi:

— Heç özümüz də bilmirik, ağa!—dedi. — Mat-məəttəl qalmışıq...

— Necə olub axı?..

— Heç nə... İşdən gəlirmiş... Darvazanın ağzında vurublar. Biz evdə oturmuşduq. Güllə səsi eşidib qaçdıq çölə. Gördük elə yazıq sükan arxasında qan içində çırpınır... Biz ona çatanda sizin hasarın o tinini bir maşın burlub getdi. Nə maşın idi, rəngi, nömrəsi nə idi — heç nə görə bilmədik... Yazığı sükan arxasından çəkib yerə salanacan... keçindi...

— Bir söz-filan deyə bilmədi də?

— Yoox... hardan? Beynindən vurmuşdular... — Əlixan özünü saxlaya bilməyib ağladı. — Yazıq qardaşım... Nəcməddin təsəlli verdi:

— Ağlama, oğul, ağlamaqla qaytarmaq olarsa, elə biz hamımız sənə qoşulaq, ağlayaq. Qəzavu-qədərdi. Görünür, onun da qisməti belə imiş. Amma siz hər halda polisə-filana xəbər verin. Boş oturmayın...

— Xəbər vermişik, ağa!

— Eh, — deyə Nəcməddinin böyründə əyləşmiş saqqallı kişi köks ötürdü. — Polis neyləyəcək, hardan tapacaq? Yenə şahiddən-filandan olsaydı, dərd yarı idi.

— Hə, düz deyirsən. — Nəcməddin kişinin sözünü təsdiq elədi. — Bizim də polis elədi ki, heç bilmirsən hansı məssəbə qulluq eləyir.

Nəcməddin bir saatacan hüzr yerində oturdu. Stulda oturmağa adət elədiyindən qıçları ağrıdı, getmək fikri ilə ayağa qalxdı. Əlixanın yanına gəlib dedi:

— Allah rəhmət eləsin, bala, Allah səbir versin, son qəminiz olsun.

— Çox sağ olun, ağa.

— Əgər bir şeyə ehtiyacınız olsa, mənə deyin, utanmayın. Pul-filan.

— Yox, ağa, çox sağ olun, ömrünüz uzun olsun. Sizdən çox razıyıq, ağa...

Nəcməddin baş endirib çölə çıxdı...

...Evdə səssiz-küysüz, nəşəsiz, maraqsız bir həyat başlamışdı. Sən demə, bu həyəti, bu otaqları bəzəyən, isindirən, yaraşığa mindirən Dünya xanım imiş. Sən demə o, öz gözəlliyi, varlığı ilə Nəcməddinin də, Əbdülün də ürəyini günəş kimi qızdırırmış, yaşadırmış, sevindirib güldürürmüş, qısqandırırmış, əzab verirmiş — dünyanı, hə-

yatı da onların gözündə bunlarla maraqlı, şirin edirmiş. Bu həqiqəti, Dünya «evdən qaçıb gedəndən» sonra onlar çox tez dərk edib anladılar. Demək olar ki, sözsüz-söhbətsiz yaşayırdılar. Küsülü kimi. Təkcə uşaqla, yemək-içməklə əlaqədar sözlər işlənirdi indi bu evdə. Əbdülün, sən demə, təkcə ev işində yox, uşaq saxlamaq işində də səriştəsi varmış. O, balaca Nəcmədini vaxtlı-vaxtında yedizdirir, əmziklə təzə süd verir, əskisini dəyişir, çimizdirir, yatırırdı. Boş vaxtlarında əvvəlki kimi hücrəsinə çəkilib yatmır, uşağı oynadırdı. Körpə ilk günlər anasının kürlüyünü çox elədi — ağladı, süd içmədi; ancaq sonra öz taleyi ilə barışıb kiridi, yeməyini yedi. İndi Əbdül yuxarı köçmüşdü, kəllədəki balaca otaqda yaşayırdı — körpə ilə bir yerdə... Gecə ayılanda sakitləşdirirdi, həyan olurdu. Həmin dəhşətli gecə, hələ də özünə gəlməmiş Nəcməddin, Dünyanın meyiti ortalıqda ikən Əbdülə demişdi ki, səslərini yazmışam maqnitofona... Bu sözlər onun yadında qalmışdı. Nə isə qəlbində o yazını dinləmək həvəsi-marağı baş qaldırırdı hərdən — «görəsən nə danışırlarmış? Görünür, elə danışıblar ki, kişidə şəkk-şübhə qalmayıb. Yoxsa öldürməzdi. Çox istəyirdi onu» — deyə düşünürdü. Səhərisi gün fürsət tapıb Nəcməddin evdən gedəndə lentə qulaq asdı Əbdül. Çox peşman oldu. Çox sevdiyi, bir zaman öz gözəlliyi, məhəbbəti, ehtirasları, nəvazişləri ilə ona səadət bəxş etmiş, sonra birdən-birə müəmmalı şəkildə ondan üz döndərmiş Dünya xanım, həmin lent yazısını dinləyəndən sonra gözündən tamam düşdü. — «Hə... demək belə... Mən düz hiss eləmişəm. Təzə ay çıxanda köhnə ayı doğrayıb ulduz eləmək istəyibmiş. Allah var imiş, Dünya, zülm yerdə qalmırmış. Hər kəs, kec-tez öz cəzasına çatırmış». — deyə Əbdül məyus-məyus durub həyətə düşmüşdü. «Deyirdin nə var, Əbdül avamın biridi, gözlərini məhəbbət kor eləyib, heç nə görmür, qanmır. Daha sən hardan biləsən ki, Əbdülün boynunun dalında da gözləri var, ay yazıq!»

Dünya xanımın «evdən getməsi» xəbəri tez yayıldı. Zərrintac bildi əvvəlcə. Tezcənə atasının yanına gəldi, kişini halı pərişan, pəjmürdə görüb darıldı, ürəyi sıxıldı.

— Sənə dedim belə şey eləmə, qibləgahım. Sözümə baxmadın. El-oba içində onun bu evə gəlməyinə bir gülünc olduq, getməyinə də bir... Şeytana papış tikənə oxşayırdı, gözü-başı qaynayırdı o qızın.

— Olacaqmış, qızım. Olacağa isə çarə yoxdu.

— Bəs bu yazıq uşaq necə olacaq, qibləgahım?

— Uşaqdan arxayın ol, bala. Qorxma, sən saxlamayacaqsan. Bilirəm sənin uşaq saxlamağa heç hövsələn yoxdur. Onu Əbdül böyüdəcək, özüm böyüdəcəyəm.

Sonra o, vəsiyyətnamə məsələsini açıb qızına söylədi. Zərrintac dünya malında gözü olmadığına görə, bu barədə heç nə demədi. «Özün bilən məsləhətdi, qibləgahım!..».

— Mən ömrümün çoxunu yaşamışam, bala. Bu gün varam, sabah yox. İstəmirəm körpəm sonra əllərdə qalsın, onun-bunun əlinə baxan olsun. Sənin ailən var, pulun var, nəvə-nəticənə də bəs edər. Qalan varidatımı da Əbdüllə oğluma vəsiyyət eləmişəm. Əbdül təmiz adamdı, qızım. Zəmanə hələ onu poza bilməyib. Sədaqətini də sınamışam. Öz uşağı kimi baxır ona, əgər səhər mən olmasam... Ancaq səndən xahişim büdur ki, tez-tez baş çəkərsən, lazımi məsləhət verərsən, nəzarət eləyərsən, bala. Həm də uşaq böyüyəndə bilər ki tək deyil, sənin kimi bir bacısı da var. Evin nizamını dağıtmazsınız, elə beləcə də qalar, oğluma gəlini də bu evə gətirərsiniz... Burada ağayi Nəcməddin yaşayıb, qoy yenə Nəcməddin yaşasın, qızım.

Zərrintac doluxsundu:

— Sən elə danışırsan ki... guya nə olub, qibləgahım...

— Vəsiyyət deyirlər yüngüllükdür. Söhbətdi eləyirik də, balası...

Zərrintac kişinin kövrək-kövrək danışdığından, tez-tez ah çəkməyindən başa düşürdü ki, Dünyanın getməsi ona yaman pis təsir eləyib, demək olar ki, lap kəndirini kəsib, ümidsiz olub kişi. Anlayırdı ki, o, bütün var-yoxunu itirsəydi, bir quruca həsir üstündə qalsaydı, beləcə sarsılmazdı, sınmazdı, düşməzdi. Dünya onun həyatı imiş. Dünyanı çox sevirmiş.

— Bəlkə, qibləgahım, onu axtaraq, tapaq, qaytaraq?.. Görürəm, onsuz sən...

— Yox, qızım. Dünya daha mənə gərək deyil, qızıl parçası da olsa, gərək deyil, ömür də olsa, gərək deyil. Zərrintac daha sözü çevirmədi, təkcə bunu dedi:

— Arvadda ürəyə bax a! Heç olmasa uşağına yazığın gələydi...

O hadisədən sonra, Nəcməddin, demək olar ki, guşənişin olmuşdu. Evdən çox nadir hallarda çıxırdı; əksər vaxtını yatmaqla, həyət-bacada gəzməklə, oğlu ilə oynamaqla keçirirdi. Əbdül onun hərəkətlərinə fikir verir və ürək ağrısı ilə düşünürdü ki, belə getsə, kişi çox yaşamaz...

ON BEŞİNCİ FƏSİL

Elməddin ağayi Nəcməddinin çarpayısı yanında oturmuşdu. Kişi yenə yumağa dönüb balacalaşmışdı, yorğan-döşəyin içində itirdi az qala. Çox arıqlamışdı, gözləri çuxura düşmüşdü. Elməddinin bu vəziyyətdə ona yazığı gəlirdi. Nəcməddin isə bunu sanki onun üz-gözündən oxudu və incik-incik dedi:

— Görürəm mənə yazığın gəlir. Yox, oğul. Mənə yazığın gəlməsin. Mən xoşlayıram ki, başqalarına mənim ürəyim yansın, halına acıyım. Amma mənə yox. Mən onda özümü çox pis hiss edirəm, Elməddin. Mən həyatımı yaxşı yaşamışam, ürəyim necə istəyib, nə istəyib onu da eləmişəm. Bu dünyanın heç bir nemətində, ləzzətində gözüm qalmayıb. Dünyanın qanunudur: bir gün yaranan bir gün də öləcək. Mən o dəhşətli hesab edilən ölümdən də qorxmuram. Onunla görüş — çoxunun qorxduğu və dizlərini titrətdiyi görüş cəmi bircə andır. O anı ləyaqətlə qarşılamağı hər kişi bacarmır, amma sənin bu qoca Nəcməddinin ondan da qorxmur.

— Siz nə danışırsınız, ağam, ölüm nədir?

— Yox, ölüm bir həqiqətdir. Dünyada yaşamaq həqiqət olduğu kimi, ölüm də həqiqətdir. Dünyada hər şey — var-dövlət də, övlad da, dostluq da, sədaqət də əfsanədir. Onların heç birində etibar yoxdur, min bir üzü var hamısının, min bir də ürəyi. Amma ölümün bir üzü var — ölümdü o, daha başqa bir şey deyil. Bilirəm mən öləcəyəm. Təbib-filan da, dava-dərman da lazım deyil mənə. Mən hər şeyin təbiisini istəmişəm həmişə — ölümün də təbiisini istəyirəm. Daha dərmanla uzadılan ömür nəyimə gərəkdi?! Bircə şeydən əzab çəkirəm — yuxusuzluqdan. Yata bilmirəm. Bütün var-yoxumu verərdim, bir gecə rahat yata bilsəydim. Ölürəm yuxu üçün. Elə bil, beynimin içində nə isə var, yatmağa qoymur məni. Deyir səni yuxu üzünə həsrət qoyacağam, səni yuxuya həsrət öldürəcəyəm.

— Dərməltundan[1] yuxu dərmanı alıb gətirərəm, atarsan, yatarsan.

— Yuxu dərmanı?

— Bəli, ağam.

— İnanmıram. Dərman da yatıra bilməz məni, oğul.

— Yatırdar, ağam. Mən bu gün hardan olsa tapıb gətirdərəm.

—…

[1] Dərməltun — aptek.

— Darıxma, ağam, hər şey keçib-gedəcək. Sükut...

— Sən yaxşı insansan, Elməddin, təmiz insansan. Ancaq görürəm xoşbəxt deyilsən, oğul. İndiki zamanda təmiz olub, xoşbəxt olmaq mümkün deyil, heç mümkün deyil. Mən istədim, qızım da xoşbəxt olsun, sən də. Ancaq belə başa düşürəm ki, siz bir-birinizi sevmirsiniz. Sevmədən yaşamaq isə yaşamaq deyil, cəhənnəm əzabıdır, zülmdür. Mənim qızım — atayam, deməyə haqqım var — axmaq qızdır, qürurludur, həyatın, yaşayışın nə demək olduğunu anlamır, başı daşdan-daşa dəyməyincə də, güman eləmirəm ki, anlasın. O mənə arxayındı, mənə güvənir, var-dövlətə güvənir. Başa düşmür ki, səadət təkcə var-dövlətdən, qürurlu olmaqdan ibarət deyil... Sən yavaş-yavaş onu başa sal, öyrət, müəllimi ol, məndən qorxma, çəkinmə. Mən hər şeyi qanan adamam, oğul. Elə et ki, sən onu istəyən kimi, o da səni istəsin, istəmək azdır, sevsin. O səni sevə bilməsə, onda sən istədiyin kimi hərəkət edə bilərsən. Lap mən sağ qalsam da belə, məndən çəkinmədən, istədiyini edə bilərsən. Çünki mən ailənin nə olduğunu çox yaxşı bilirəm, oğul. Məhəbbətsiz, sevmədən, kiminləsə ömür sürmək dəhşətdir. Ola bilsin sən indi bunu başa düşməyəcəksən, ancaq vaxt gələr, başa düşərsən, o zaman bu səni odsuz-ocaqsız yandırar, çızdağını çıxardar və əlin də heç yerə çatmaz. İnanmırsan? Məni götür, oğul. Mən iki arvad saxlamışam Dünyaya qədər. Və onda elə bilmişəm ki, elə ailə belə olar. Sən demə, onların heç birini sevmirmişəm. Elə-belə yaşayırmışam. Onları da aldadırmışam, özümü də. Özümü aldatmağımı heç cür bağışlaya bilmirəm. O, həyat deyilmiş ki, mən yaşayırmışam. Mən yaşadım ancaq Dünya ilə. Tanrı əvvəllər qıymadığını sonralar verdi. Verdi, amma gec verdi. Tez də aldı. Uzun ömrümdə şirin, çox şirin, lakin çox qısa yuxu gördüm, heç vaxt unudulmayacaq bir yuxu idi bu, Elməddin. Ona görə, təkcə ona görə aləm gözümdə gözəl olmuşdu, bahar olmuşdu, güllər açılmışdı — qışda da, yazda da güllər mənim üçün açılırdı, bülbüllər də mənim üçün oxuyurdu. Mən heç nəyin fikrini çəkmədən, dərdsiz-qayğısız bir uşaq kimi yuxular dünyasında yaşayırdım, səadətim də, həyatım da, lap özüm də bir yuxuya dönmüşdüm, Elə bilirdim o köpək qızı mənim ürəyimdi, içimdə yaşayır, çırpınır və məni də yaşadır. Özümə çevrilmişdi, özüm olmuşdu zalım qızı. Mən ondan o qədər nəvaziş, xoş rəftar, mehribanlıq görmüşdüm, sədaqət görmüşdüm, inanmışdım, etibar eləmişdim. Düşünmüşdüm ki, dünya dağılsa, yer-göy bir-birinə qarışsa, o mənə etibarsızlıq eləməz. Ömrümdə mən heç kəsə — nə arvadıma, nə uşaqlarıma, nə dostlarıma —

heç kəsə, heç kəsə inanmamışdım. Çünki rəhmətlik qibləgahım deyərdi ki, heç kəsdən utanma, heç kəsə aldanma, heç kəsə inanma. Çünki utandın aldadacaqlar, inandın aldadacaqlar.

— Məgər Dünya xanım səni aldadıb, ağam? Etibarsızlıq edib?

— Yox. Yoxx... Hə, hə, görmürsən yarıyolda qoydu, çıxdı getdi — bu, etibarsızlıq deyil, bəs nədir? Ona görə də, heç kəsə inanma, oğul. Bax, mənim qızım sənin arvadındı — ona da inanma. Lap ürəyinin içində olsa da, inanma, bala. Arvadı gərək heç vaxt gözündən iraq qoymayasan, uzaqlaşdımı, etibarsız olur. Mən Dünyanın şəxsində bütün qadınlara inanmışdım, sevmişdim — indi də onun şəxsində hamısına nifrət edirəm. Bu nifrətim heç nəylə ölçülməz. Hətta buna da peşmanam ki, qızım varmış. Gərək o da olmayaydı, daş olaydı, ancaq qız olmayaydı. İndiki zamanda qız övladı olmayan atalar, arvadı olmayan kişilər, bacısı olmayan qardaşlar çox xoşbəxtdirlər, bala. Mən inanıram, o qız — Zərrintacım mənim hardasa, haçansa ürəyinin əsiri olub bir alçağın yanında mənim, ya sənin papağını yerə soxa bilər. Yox, eləməz mənim qızım. Tikə-tikə doğraram. Bəs... yox, kim zəmanət verə bilər axı? Heç kəs. Hətta o özü də zəmanət verə bilməz. Amma, eləsə, qanı halaldı. Onun qanını sənə halal eləyirəm, oğul, əgər o, xəyanət yoluna düşsə, eşidirsən, halal eləyirəm. — Bayaqdan birnəfəsə danışan kişi sanki yoruldu, susdu. Gözlərini yumdu. Elməddin indiyə qədər onu belə odlu-alovlu danışan, «filosofluq» eləyən görməmişdi. Dünyanın «getməsi» Nəcməddini tamam dəyişmiş, fikirlərini, hətta həyatını alt-üst eləmişdi — düşünürdü Elməddin. — İndi o, necə vardısa eləcə görünürdü — pərdəsiz, riyasız. «Sarsılıb... yaman sarsılıb. Görəsən Dünya niyə çıxıb getdi, hara getdi? Tapmağa, qaytarıb gətirməyə də qoymur. Arvad ki evdən getdi, daha o evə qayıtmamalıdır. Dünya isə heç qayıda bilməz. Axı niyə? Belə getsə bu kişi dəli ola bilər!..» — öz aləmində düşünürdü ki, birdən Nəcməddin gözlərini açdı, çarpayının yanında fikirli-fikirli oturmuş Elməddini görüb:

— Sənsən? — dedi, — Haçan gəlmisən? Zərrintac da gəlib?

Elməddinin sifətində təəssüf, heyrət dolu bir təəssüf gəzdi və qəlbindən keçirtdi: «Kişi pozulub artıq!»

— Hə, ağam, necəsən? İndicə gəlmişəm. Zərrintac da gələcək bir azdan. Mən elə işdən çıxdım, gəldim...

— O gün... — bir anlığa nə isə xatırlamaq istədi, — hə, o gün sənin başını yaman ağrıtdım, çox çərənlədim. Sən allah, bağışla. Bi-

lirsən ki, səni çox istəyirəm. Ona görə dedim o sözləri. Sən heç kəsə demə, Zərrintaca da demə...

Elməddin anladı ki, o, bir neçə dəqiqə bundan qabaqkı söhbəti nəzərdə tutur... Çünki «o gün» onlar görüşməmişdilər və belə «çərənləmə» də olmamışdı. «Demək, yazıq vaxt məfhumunu itirib — gecə-gündüz yoxdu onun üçün, o gün, bu gün yoxdu onun üçün...»

Birdən o qalxdı yerinin içində və ağzını qapıya tutub Elməddini görmürmüş kimi qışqırdı:

— Əbdül, Əbdül...

Əbdül yan otaqda imiş, tez özünü içəri saldı:

— Bəli, qurban! — deyib baş endirdi.

— O körpəni gətir bura, əmizdirim.

Əbdül mat-mat əvvəl ağasına, sonra Elməddinin üzünə baxdı, ağzını doldurub nə isə demək istəyirdi ki, Nəcməddin onu qabaqladı:

— Yox, mənim südüm quruyub — o, əlini quru, ağ tüklü sinəsində gəzdirdi — mənim südüm quruyub. Özün apar əmizdir... Eşidirsən?!

— Bəli, qurban, bu saat... — deyə Əbdül yavaşca başını tərpədərək çıxanda yenə nə isə fikirləşib onu saxladı:

— Hava şaxtadı?

— Bəli, qurban. Bərk şaxtadı. Sular buz bağlayıb...

— Can, can. O tifil biçarə dondu yəqin. Onun üstünə yorğan at, Əbdül, donar, yazıqdı. Uff, mən də yaman üşüyürəm, — deyib büzüşüb yumağa dönərək yorğanın altında gizləndi.

Elməddin ah çəkib ayağa durdu.

ON ALTINCI FƏSİL

İnsan həyatının bəzən elə günləri olur ki, bir ömrə bəs eləyə biləcək sevinci də yaşayır, kədəri də. Elə sevinir ki, özünü dünyanın ən bəxtəvər adamı hesab eləyir, yerə-göyə sığışmır, şadlığından gözləri yaşarır. Elə həmin gün də elə kədərlənir ki, özünü dünyanın ən bədbəxt adamı sayır, bir az əvvəlki xoşbəxtliyindən əsər-əlamət qalmır, unudulur, gözləri kədər yaşları ilə dolur. Bəli, insan həyatında belə təzadlı gün də ola bilər.

... Elməddinin ilk kitabı bu gün çapdan çıxıb satışa buraxılmışdı. Həcmcə çox da böyük olmayan göy cildli məcmuəyə onun şerləri və hekayələri toplanmışdı. Müəllifi də özü idi, rəssamı da. Redaktoru

Məhəmməd Şəfi Rəhgüzər — onun ustadı, böyük şair, qardaşı idi. Əslində kitabı nəşr etmək məsələsini də ustad özü ortalığa atmışdı, əsərlərini alıb saf-çürük etmiş, seçib yaxşılarını, xoşuna gələni saxlamışdı. Elməddin etiraz eləyib «hələ tezdi, ustad!» — demişdisə də, Şəfi razı olmamışdı; «Vaxtındı, Elməddin. Şairdə təvazökarlıq yaxşı şeydi, bəyənirəm, ancaq yaxşı əsərləri çap etməmək özü də bir günahdı, qardaş!» — demişdi. Elməddin naçar qalıb yazılarını vermişdi, lakin qəribə idi ki, sonra kitabının çıxmasını çox böyük bir intizarla gözləməyə başlamışdı. Bu intizar ilk körpəsinin dünyaya gəlməsini közləyən ana intizarına bənzəyirdi — həm şirin idi, həm əzablı idi, həm də... bir az qorxulu idi. O bilirdi ki, sənət yolu uzun, çətin, daşlı-kəsəkli, eyni zamanda gül-çiçəkli, şan-şöhrətli bir yoldu. Ağrısı da var, sevinci də var, qanadından vurulmuş kimi torpağa — ayaqlar altına düşməyi də var. Ucalmağın — şirinlikdi, səadətdi, şöhrətdi, ən uca zirvən — ölməzlikdi. İlhamın, qismətin olmasa, ürəklərə, beyinlərə yol tapa bilməsən, kimsənin sevimlisi ola bilməzsən. Bu isə adını şair, sənətkar qoyan adam üçün bədbəxtlikdi, ölümdü — diri ikən ölü olmaq deməkdi, demək, sənin ikinci ömrün yoxdu, öləndən sonra yaşaya bilməzsən.

Bax, bu mülahizələrə görə Elməddin kitabının çıxmasından sevindiyi kimi, bərk də həyəcan keçirirdi. İlk dəfə böyük və məsul bir imtahan verən şagird kimi. Necə qarşılayacaqlar, nə deyəcəklər, başa düşəcəklərmi? Qəbul edəcəklərmi, sevinəcəklərmi? Doğrudur, qəzetlərdə çıxan yazıları barədə dostlarından xoş sözlər eşitmişdi, Ancaq bu meydanda təkcə dost sözünə arxalanmaq, rahatlanmaq olmazdı.

Kitabdan mətbəə iyi gəlirdi və bu iydə nə isə sirli bir ləzizlik, mübhəm bir doyulmazlıq vardı. Kağız adi kağız idi, ancaq onda da nə isə bir doğmalıq, munislik duyulurdu. Bu cansız, azca sarıya çalan vərəqlərdən ibarət olan kitabça elə bil, Elməddinin ciyərparası idi, canı idi, gözü idi. Ata-ana birinci övladının kimə oxşadığını müəyyən etmək üçük necə maraqla, həvəslə, məftunluqla uşağa baxırsa, Elməddin də eyni hissiyyatla «Əfsanəli mahnılar» adlandırdığı kitabına baxır, baxır, doymaq bilmirdi. «Ah, həqiqətən sehrli və doyulmaz imişsən, ilk kitab!» — deyə düşünür, dönə-dönə səhifələri çevirir, ikinci vərəqdəki şəklinə nəzər salır, xoşbəxt-xoşbəxt gülümsünürdü.

Telefon zəngi onu xəyal aləmindən ayırdı; o, gözünü kitabdan çəkmədən dəstəyi qaldırıb:

— Bəli, eşidirəm, — dedi. Danışan ustad idi. Sonsuz bir sevinc içində dedi:

— Səni təbrik edirəm, Elməddin. İlk kitabın çıxıb. Gözün aydın, qardaş. Yaxşı çıxıb — xoşuma gəldi. Arxını çəkdim, suyu da gəlsin, qardaş. Elə sevinirəm ki, elə bil öz kitabım çıxıb.

— Çox sağ olun, ustadım. Elə həqiqətən sizin kitabdı. Sizə o qədər minnətdaram ki, heç söz tapıb ürək sözlərimi deyə də bilmirəm, ustad. Ömrüm boyu minnətdaram, ömrüm boyu.

— Dəyməz, borcumuzdu, Elmi. Səni hələ yenə sevindirmək istəyirəm.

— Yenə? Çox olar, ustad. Sevincdən də deyirlər adamın ürəyi partlaya bilər.

— Heç nə olmaz, Elməddin. Bu dünyada insan o qədər az sevinir ki, ürək susuz torpaq kimi sevinc həsrəti çəkir, çox çəkir. Ona görə belə sevinclər bizə, susuzluqdan yanan körpə fidana su gərək olan kimi gərəkdi, dostum.

— Onu düz deyirsiz, ustad. Yaxşı, deyin, nə olub ki?

— Bugünkü nömrədə «Nadanlıq» hekayən də çap olunub, Elməddin.

— «Nadanlıq?»

— Hə.

— Çox sağ olun, ustad.

— Bəli, bu gün bütün şəhər səni oxuyur — bundan böyük səadət istəməzsən məncə, elə deyilmi?

— Elədi, ustad. Hamısı üçün sizin qarşınızda baş əyirəm, ustad.

Sonra bir çox başqa yoldaşlar da zəng edib onu təbrik etdilər, cansağlığı, yeni uğurlar arzuladılar. Bu gün doğrudan da, Elməddin üçün bayram idi. Sevinc sevinc üstündən gəlirdi.

İdarədə ara sakitləşəndən, gəlib-gedən azalandan, telefon səsləri susandan sonra o, təklik hiss elədi, evə getmək, sevincini Zərrintacla bölmək kstədi — bu arzu birdən-birə onun qəlbini elə sardı ki, ayağa da qalxdı. Bəli, belə vaxtda adam istəyir ki, onun ömür-gün yoldaşı, ailəsi sevincinə şərik olsun, qucaqlayıb öpsün, başa düşsün bu əvəzolunmaz şadlığı. Ancaq çox təəssüf, bu arzu tez sönüb keçdi. Elə bil üstünə su çilədilər və o, məyus halda yenidən kreslosuna əyləşdi. Yox, Zərrintac xanım onun kitabının çıxmasına çətin sevinəcək. Hələ üstəlik, əgər «Pərçəm»də çıxan «Nadanlıq» hekayəsini oxusa, onda işi lap düzələcəkdi. «Gərək ruznaməni evə aparmayam. Oxuyacaq, başa düşəcək ki, onun başıma gətirdiyi oyunu qələmə almışam. Əsib-coşacaq, aləmi bir-birinə qarışdıracaq və hər şeyi haram eləyəcək mənə. Yox, aparmayacağam!» — dedi qətiyyətlə öz-özünə.

Və yenə yadına Əfsanə düşdü, anası, qardaşı düşdü. Onlar yanında olsaydılar, Elməddinin nə dərdi vardı. Onun bu gününü görüb necə də sevinərdilər, aman allah. Yusif, anası üzündən, alnından öpərdi, Əfsanə xəlvətdə də olsaydı, asta, məhəbbət dolu səslə «təbrik edirəm, Elmi!»— deyə pıçıldardı, kitabı sinəsinə sıxıb əzizlərdi, ordakı şerləri əzbərlərdi, yeri düşəndə ona söylərdi. Aman allah, bu nə böyük bayram olardı?

Elməddin belə düşündü, istər-istəməz gözləri yaşardı və yalnız indi böyük bir dünya itirdiyini tam çılpaqlığı, aydınlığı və ağrıları ilə dərk elədi... Amma...

O kövrək xatirələrin içindən ayrı adam sıyrılıb çıxdı, sakit, məsum baxışlarını sözsüz-sovsuz onun pərişan çöhrəsində gəzdirdi, heç nə demədi. Elməddin gözlərini yumub kreslonun söykənəcəyinə dayaqlanmışdı, hərəkətsiz idi, süst idi və bu süstlük içində, yuxu aləmində imiş kimi, güclə gələn xəyalı tanıdı: — bu, Siminbər idi. Onun utancaq, bir az da qorxaq, bir az təbii hərəkətləri, işıqlı, badamı gözlərinə yazılmış maraq və nə isə daha dərinlərdə gizlənmiş şübhəli cazibə — bütün bunlar kino lentinə çəkilib böyüdülmüş halda Elməddinin xəyalının ağ pərdəsi üzərində təzədən cilvələndi, qalan başqa mənzərələrin arasından irəli çıxdı və yenə heç nə demədən Elməddinə tamaşa elədi, sonra isə çevrilib harasa getdi. Elməddinə elə gəldi ki, onun səsini eşidir, sandı ki, utancaq, qayğıkeşliklə dolu bir səslə deyir: «Mən gedirəm evə. Sən də gəl. Burada səhərəcən qalmayacaqsan ki. Yolunu gözləyirəm, gəl. Yaxşı-ıı?» Elməddin vahiməli surətdə gözlərini açdı, otağa göz gəzdirdi. Kimsəni görməyib öz-özünə gülümsündü. Və yalnız indi başa düşdü ki, o qəribə gecədən sonra — Zərrintacın hökmünü dinlədiyi, Siminbərin buxarı qırağında oturduğu, çay gətirdiyi, Elməddinin onun şəklini çəkdiyi sehrli kecədən sonra hər gün, hər gün ancaq Siminbərə görə o evə gedirmiş, onu görmək üçün, ona baxmaq üçün gedirmiş.

Siminbərin bayaq xəyal aləmindən gələn səsini yenidən eşitdi: «Yolunu gözləyirəm, gəl. Yaxşımı?»

Artıq axşam düşmüşdü. Gömgöy göylərdə sarı işıqlı iri ulduzlar par-par parıldayırdı. Qılınc kimi kəsən, adamın iliyinə işləyən şaxta yolu-rizi dondurub şüşə kimi eləmişdi. Küçənin sağındakı-solundakı daş arxların suyu buz bağlamışdı. Gəliş-gediş azalmış, seyrəlmişdi.

Elməddin sürüşüb yıxılmağından qorxa-qorxa, ehtiyatla addımlayırdı. Evə qayıdırdı — lakin ayağının biri gedirdi, biri yox. Əhədullanı günorta bazara yollayandan sonra: «evə gec gedəcəyəm, gəzə-

gəzə gedərəm» — deyib buraxmışdı. Havanın belə şaxtalı olduğunu görəndə onu saxla-madığına peşman olmuşdu, lakin artıq gec idi, peşmançılığına dəyməzdi. Darvazanın çax-çaxını taqqıldatdı. Həyətdə qar-buz xırıltısı eşidildi. Gələn Siminbər idi. Ayağında rezin ayaqqabı, əynində qara gödəkcə, başında yun şal vardı. Anbardan daş kömür aparırmış içəri. Ləyəni cığırın üstünə qoyub qapını açmağa qaçmışdı. Qar işığında onun gözləri parıldayırdı.

Darvazadan içəri ayağını qoyan Elməddin onu görən kimi nədənsə sevindi:

— Axşamın xeyir, Simin.

Cığırdan kənara çəkilib ağaya yol verən qız:

— Axşamınız xeyir, ağa! — dedi və darvaza dalında maşın olub-olmadığını — atasının gəlib-gəlmədiyini yoxlamaq üçün çölə boylandı. Onun nəyə görə belə boylandığını başa düşən Elməddin:

— Qibləgahın gəlməyib, — dedi. — Piyada gəlmişəm, Simin. — Qız adını Elməddinin dilindən eşidəndə uçunurdu. Fikir vermişdi — əvvəllər Elməddin onun adını az-az dilinə gətirərdi, özü də bütöv — «Siminbər» deyərdi. Bu söz başqalarının — məsələn, Zərrintacın, qonşuların dediyi «Siminbərdən» heç nə ilə fərqlənməzdi. Amma son vaxtlar Elməddin ona «Simin» deyə müraciət eləyirdi və bu deyilişdə nə isə bir mehribanlıq, bir əzizlik var idi, qız bunu duyurdu, qəlbində fərəhlənir, üz-gözünü sonsuz bir sevinc işığı nurlandırırdı. O qəribə gecədən sonra isə... Siminbərin ömrü də, günləri də şirinləşmişdi elə bil. Qız evi yığışdıranda tez-tez iri, bədənnüma güzgünün qabağında dayanır, üzünə, gözlərinə, qabarmış sinəsinə, şəvə kimi qara saçlarına tamaşa eləyir, məmnun-məmnun gülümsünürdü. O vaxtdan bəri az yatırdı, çox xəyala dalırdı; Elməddin işə getməmiş çay-çörəyi hazırlayır, onu və əgər oyanmış olsa Zərrintac xanımı yedirirdi, ağanı baxışlrı ilə ötürüb sonra darvazanı bağlayır və qəribə idi ki, səhərin yenicə açıldığına baxmayaraq, axşamın düşməsini, Elməddinin qayıtmasını gözləməyə başlayırdı. Vaxt zəhrimar da gözləyəndə elə gec gəlib keçirdi ki!!

— Yeməyə nəyin var? — deyə ondan qabağa qaçıb kömür dolu ləyəni götürən Siminbərdən Elməddin xəbər aldı. — Elə acmışam ki...

— Düşbərə bişirmişəm, ağam! — dedi sevinclə. — Bilirəm siz düşbərə xoşlayansınız...

— Ay sağ ol, Simin!

Onlar yuxarı qalxdılar. Siminbər əlində ləyən mətbəxə, Elməddin isə evin qapısı ağzına getdi. Qapı bağlı idi, itələdi, açılmadı.

Taqqıldatdı şəhadət barmağının arxası ilə. İçəridə işıq yanırdı, demək, Zərrintac xanım evdə idi. «Yəqin yatıb. Zalımın qızı elə həmişə yuxudadı, doymur, yuxudan» deyə düşünərək qapını bir az da bərk döydü. İçəridən şıqqıltı, ayaq səsləri eşidildi, dalınca sual:

— Kimdi? — Zərrintacın səsi acıqlı — hökmlü idi, bunu Elməddin o dəqiqə duydu və dalağı sancdı.

— Mənəm, Elməddinəm...

Ani sükut. Zərrintac hikkə ilə söylədi:

— Haradan gəlmisən, ora da itil get, naməkbeharam. Elməddin əvvəl qulaqlarına inanmadı.

— Nə deyirsən?

— Deyirəm, hardan gəlmisən, ora da itil, get!

— Zərrintac... — dedi Elməddin və düşündü ki, «hekayəni oxuyub; şübhəsiz ki, oxuyub», Zənni düz çıxdı, çünki heç bircə dəqiqə də keçməmiş o, qəzəblə çımxırdı:

— Ondan-bundan yazdın, gözün doymadı, indi də başlayıbsan arvadından yazmağa? Elədiyim yaxşılıqlar gözündən gəlsin! Nə idin sən? Cındırından cin ürkən kəndçinin biri idin, mənim pulumnan adam olub ortalığa çıxmısan, indi də mənə şıllaq atırsan? Çörəyi dizinin üstündə olan adam. Rədd ol, gözüm səni görməsin! — Elməddinin başına elə bil qaynar su tökdülər, ürəyində, bədənində qəribə bir istilik duydu. Qışın şaxtası, qarı bu istilik müqabilində təsirini itirdi elə bil! Bir anlığa qəzəb onu boğdu, özü də bilmədən yumruğunu qapıya elə bərk çırpdı ki...

— Aç qapını sənə deyirəm!

— Açmayacağam. Evin-zadın vardı?

—…

Elməddinin sağ əli boşalıb yanına düşdü, heykəl kimi laldinməz donub qaldı. Son zərbə də vurulmuşdu. Daha bundan oyanası yox idi və ola da bilməzdi. Məyusluq onu tərki-silah elədi. Danışmağa, artıq söz deməyə belə həvəsi qalmadı. Paltosunun yaxasını açıb cibindən siqaret çıxartdı, yandırdı... hirsindən idimi, həyəcanından idimi — əli əsirdi.

Siminbər qapının döyüldüyünü, içəridən açılmadığını başa düşmüşdü. Elməddinin əsəbiliklə — «Aç qapını sənə deyirəm!» sözlərindən hər şey aydın idi. Qız düşbərə qazanını buxarının üstünə qoymuşdu isinmək üçün. Çayı dəmləmişdi. İndi birdən-birə belə vəziyyətin yaranmağı Elməddin kimi, onu da çaşdırmışdı. Mətbəxin qapısı ağzında dayanıb yerində donub qalmış Elməddinə baxır və ona

yazığı gəlirdi. Çağırsınmı mətbəxə, yedirib içirsinmi?.. Buna onun haqqı var idimi? Anladı ki, yoxdur. O kim idi ki, bu evdə?!

Elməddin çevriləndə Siminbəri qapı ağzında dayanmış görüb özünü itirdi, deyəsən, utandı. Gözlərinin içinə baxmağa cəsarət eləmədi. Qız da sanki bunu duyub başını aşağı saldı. Elməddin irəli yeridi, qızın qabağında dayandı. Nə isə demək istədi, deyəsən, söz tapmayıb susdu, günahkar adam kimi gülümsündü. Siminbər doluxsunmuşdu. Bunu görən Elməddin qoltuğunda gizlətdiyi kitabı çıxardıb Siminbərə uzatdı:

— Onun üçün gətirmişdim. Sənə verirəm. Gecə oxuyarsan, — dedi.

Siminbər heç nə anlamadan, fikri dağınıq halda, kitabı aldı, üstünə baxdı. «Elməddin. Əfsanəli mahnılar» — sözlərini oxuyub sevinc içində:

— Sizin kitabdı? — deyə xəbər aldı.

— Hm.

— Mənə verirsiz?

— Hə!

— Çox sağ olun, ağam! — Kitabı açdı, ikinci səhifədə Elməddinin başıaçıq, gülümsər şəklini görüb bir ona, bir şəklə baxdı: sifətindəki kədər, pərişanlıq silinib yox oldu, gözləri parladı.

— Mən gedirəm, Simin... — deyə Elməddin ağır-ağır dilləndikdə qız kitabı büküb döşünün üstünə qoydu və sual dolu nəzərlərlə ona baxdı.

— Hara?

—…

— Bilirəm... Başa düşürəm...

Elməddinin üzündə qəmli bir təbəssüm gəzib-dolandı:

— Sən hələ çox şeyi bilmirsən, Simin!

Siminbər təəccübləndi, ancaq heç nə soruşmağa cəsarət eləmədi. Təkcə bunu demək ağlına gəldi:

— Bəs... düşbərə... yemirsiniz?..

— Yox. Ayrı vaxt... — Sükutdan sonra əlavə elədi. — Hər gün... öz evimizdə bişirərsən, ikimiz də bir yerdə.... yeyərik. Yaxşımı?

Bu sözlərin mənasını dərk etməmiş Siminbər şadlıqla söylədi:

— Yaxşı, ağam!

— Hə, hələlik, sağ ol, Simin.

— Sağ olun, mənim ağam. Elməddin onun gözlərinin içinə diqqətlə baxdıqda qız sevinclə, kədərlə dolu baxışlarını aşağı endirdi.

ON YEDDİNCİ FƏSİL

Qışın çıxhaçıx vaxtı idi, qar çoxdan ərimişdi, yer-yurd palçıqdı, nəmdi, ayaq dəyməyən yerlərdə körpə otlar baş qaldırırdı. Havaların şaxı sınmışdı. Günortaya yaxın gün üç-dörd saatlığına üzünü göstərirdi, adamların, torpağın canını qızdırırdı. Həyətlərdə alça, ərik ağaclarının tumurcuqları çırtlamışdı. Yazın nəfəsi yavaş-yavaş duyulurdu, təbiət qış yuxusundan oyanırdı. Yaz nazla gəlirdi.

Belə xoş, ilıq nəfəsli günlərin birində, aylardan bəri rahat həyatı pozulmuş, şirin yuxusuna haram qatılmış, yeməkdən-içməkdən qalmış, dəli kimi öz-özünə danışan, ağlının-huşunun məntiqini itirən, gah qızmış aslan kimi heç nədən qəzəblənən, gah da körpə uşağa dönüb için-için ağlayan ağayi Nəcməddin Əbdül yanına gələndə zəif, taqətsiz səslə dedi:

— Mənim paltarlarımı gətir.

Nə vaxtdan bəri yerindən qalxmayan ağasının geyinmək, ayağa qalxmaq həvəsini başa düşən Əbdül sevinc içində:

— Bu dəqiqə, ağam! —deyib onun paltarlarını, ayaqqabısını, papağını gətirdi. Ağayi Nəcməddinin yorğanını üstündən kənara atdı, qıçlarını yerə salladı, köynəyini, şalvarını geyindirdi, kəmərini bağlamaq üçün qoluna girib qaldırdı. Nəcməddin əlilə Əbdülün çiyninə söykəndi. Geyindirib qurtarandan sonra ehtiyatla soruşdu:

— Ağa, inşallah, hara getmək istəyirsiz? Ağayi Nəcməddin onun sualını cavabsız qoyub çuxura düşmüş gözlərini otaqda gəzdirdi.

— Bəs uşağı neyləmisən?

— İndicə yatırmışam, ağa. Yedizdirdim, yatızdırdım.

— Hm... — O, addım atmaq istədi, səndirlədi, Əbdül tez qoluna girdi.

— Belə hara gedirsiz, ağa?

— Məni həyətə çıxart...

— Baş üstə. Ancaq soyuq olar sizə, ağa. Qoyun, balapuşunuzu[1] geydirim.

— Hə, gətir. — O, ara qapının çərçivəsinə söykəndi. Əbdül boynu çal dərili paltosunu gətirib geyindirdi, təzədən qoluna girdi, addım-addım eyvana, ordan da həyətə çıxdılar. Ağayi Nəcməddin

[1] Balapuş – palto.

pilləkənin aşağı başında dayandı, çoxdan görmədiyi həyət-bacaya baxdı. Göyərçinlər dirəyin üstündəki qutuda quğuldaşırdılar. Toyuqlar hasarın dibində eşələnirdilər...

Nəcməddin üşüdü. Geri qayıtmaq istədi — sanki nə üçün həyətə çıxdığını unutmuşdu. Sonra xatırladı.

— O biçarəni harda basdırmısan, Əbdül?

— Orda. — Əbdül kişinin niyyətini anlayıb sağ əlini bağın o başına sarı uzatdı. — Ərik ağacının dibində. Özünüz buyurduğunuz yerdə, ağa.

— Məni... ora... apar...

Əbdül ağasının qolundan tuta-tuta, addım-addım Dünya basdırılan yerə sarı üz qoydu. İyirmi-iyirmi beş addımlıq məsafə vardı, ancaq bu yol hər ikisinə nədənsə çox uzun göründü. Gedirdilər, ancaq çata bilmirdilər. Danışmırdılar. Ancaq əslində hər ikisi ürəyində danışırdı. Nə zamansa hər ikisi üçün çox əziz olan, hər ikisinə dünya sevinci bəxş edən, bəxtəvərləşdirən, sonra isə hər ikisinin ömür aşına təcrübəsizliyi, ağılsızlığı ucundan zəhər qatan, onları mənən öldürən, özü isə bu günahı üzündən məhv olub indi torpaqlar altında çürüyən Dünya xanım xəyala, yuxuya dönmüşdü. O öldürüləndən sonra «azad» olmuşdu, qara-qorxudan çıxmışdı. Daha Nəcməddindən də qorxmurdu. Onun «gözünün qabağında» heç nədən çəkinmədən Əbdülün yanına gəlirdi, xəyalına gəlirdi, hələ deyəsən ikiləşmişdi də: eyni vaxtda hər ikisinin «yanına» gedə bilirdi, danışırdı, gülürdü. Heç biri onu daha qısqanmırdı. O öldürüləndən sonra hərəsinin xatirində bir cür yaşamışdı, əvvəl gözəl, şirin, doyulmaz bir mələikə kimi hardansa, göylərin lap dərinliyindən qanad açа-açа gözlənilmədən gəlirdi, sevirdi, səadət bəxş edirdi, güldürürdü hər ikisini, beləcə uzun bir müddət keçirdi — Nəcməddin üçün daha uzun, Əbdül üçün daha qısa bir vaxtda əsrarlı dünya yaradırdı, hər şeyi unutdururdu; sonra isə... həmin dünyanı, səadəti eləcə, doyulmamış, o şərbət camını axıra qədər içməmiş vurub dağıdır, əvəzində zəhər tökülmüş cam verirdi onlara... Onlar isə, Dünyanı o qədər sevirdilər ki, o şərbətdən sonra zəhər camı verə biləcəyini ağıllarına belə gətirmirdilər, içirdilər, eyni həvəs və ləzzətlə içirdilər. Yalnız içəndən, zəhər qana işləyəndən sonra ağlayırdılar ki, ey dadi-bidad, bu zəhər imiş, xəyanət zəhəri imiş... Nəcməddin indi də bilmirdi və ömrünün axırına qədər də bilməyəcəkdi ki, onun çox sevdiyi, inandığı Dünyası ona iki dəfə zəhər içirdib. Birinci dəfə Əbdülə uyanda bu zəhəri içirtmişdi: onda Dünya xanıma Əbdül də az kömək eləməmişdi. Onda, hər şey-

dən xəbərsiz olan ağayi Nəcməddin rəhmsizcəsinə təhqir olunanda, çirkab donuna bürünəndə, namussuzluq, qeyrətsizlik paltarı geyəndə Dünya da, Əbdül də nəşənin, ləzzətin sehrli qucağında, gizli, oğrun, əlçatmaz bir aləmdə sevini-sevinə yaşamışdılar. Əbdülün o zaman ağlına da gəlməmişdi ki, Nəcməddin kimi qadir və qüdrətli bir kişiyə zəhər camı içirtməyə qabil olan Dünya xanım, gözəl günlərin birində ona da həmin camdan zəhər verə bilər. Bəli, heç ağlına gəlməzdi. Bu dəfə artıq harınlaşmış, zər-ziba içində üzüb süslənmiş və özünü hamıdan ağıllı hesab etmək dərəcəsinə qədər «yüksəlmiş» Dünya xanım ikisinə də birdən acı, öldürücü xəyanət zəhəri içirmək istəmişdi, istəmişdi, ancaq Əbdülün ayıqlığı, sayıqlığı nəticəsində məqsədinə çatmamış, yarı yolda tutulmuşdu, əlində də xəyanət camı... O camı Nəcməddin — qüruru, mənliyi, kişiliyi tapdalanan Nəcməddin eyni rəhmsizliklə onun özünə içir-mişdi — hələ o ağıya bir az da qızıl qan qatıb içirtmişdi. Əbdül mələk donlu bu qadının əllərini tutmuşdu, Nəcməddin içirtmişdi.

Hər ikisi ağacın altında dayanmışdı, düşünürdü; qəbir adlı şey yox idi, hamar torpaq idi. Dördkünc şəklində gül kolları əkilmişdi. Bunu Əbdül eləmişdi. Bir azdan bahar girəndə onlar gül açacaqdılar, bir-birinə qarışıb-sarmaşıb gül divarı əmələ gətirəcəkdilər, Dünya xanım bu gül divarının arasında «yaşayacaqdı». O, gülü çox sevirdi, onların ətrindən məst olardı, gözləri axardı, ruhu təzələnərdi. Bunu Nəcməddin də bilirdi, Əbdül də...

— Qoyma bu qəbir itsin, Əbdül... — hüzn içində Nəcməddin nəhayət dilləndi — Qoy elə-beləcə, baş daşısız, adsız-sansız yaşasın burda Dünya. Oğluna da deməzsən, səni and verirəm allaha, deməzsən. Qoy uşaq bilməsin, sınmasın.

— Baş üstə, ağam, — Əbdül də kədərli-kədərli cavab verdi, — demərəm.

— Qoy... o... beləcə yaşasın... Nə qədər ömrün var, həyətdəsən, bu qəbrə qulluq eləyərsən, qoymazsan itib-bata... Onun qəbir ömrü sənin ömrün qədər olsun, Əbdül. Sən öləndə o da ölər, təzədən ölər, tamam ölər... Məni isə... burda basdırmazsan, Əbdül. Qəbiristanlıqda basdırarsınız... Elə incimişəm, qəlbim elə sınıb ki, onunla gor qonşusu da olmaq istəmirəm. Başa düşürsən?

— Bəli, qurban...

Əbdül hansı bir sövqi-təbii iləsə hiss eləmişdi ki, kişi, son günlərini yaşayır və bura, Dünyanın qəbri üstə gəlməyi də əbəs deyil: o vidalaşmaq üçün gəlib... Bəlkə də, halallıq istəyəcək? Ancaq

Nəcməddinin son sözləri onun bu fikrinin yanlış olduğunu anlatdı. Yox, halallıq istəmək qəsdi yoxdu kişinin. Əbdül bir az cəsarətləndi və dedi:

— Bağışla onu, ağam. Ürəyin rahat olar. Onsuz da o ölüb gedib!!

— Nə? Bağışlayım?

— Bəli, ağam. Bağışla o bədbəxti...

— Yox, Əbdül. Dünya dağıla bağışlamaram, Əbdül. Hətta ölüsünü belə bağışlaya bilmərəm. Eşidirsən, bağışlaya bilmərəm.

—…

— Mən bura onu bağışlamağa gəlməmişəm, mən... elə-belə... onun yatdığı torpağa baxmaq üçün gəlmişəm. Ona şer deməyə gəlmişəm. Sən bilirsən, o necə də şer sevən idi. Çox sevirdi şeri... — Susdu, dolmuş gözlərini taxtaya dönmüş əlinin arxası ilə sildi. Neçə an hərəkətsiz dayanıb sözsüz-sovsuz Dünyanın qəbrinə tamaşa elədi. Cansıxıcı, qəlb-üzücü sükut xeyli çəkdi, Əbdül darıxdı. Bu zaman Nəcməddin sanki qəbirdən zühur etmiş Dünya xanımla danışmağa başladı:

— Mən sənə şer gətirmişəm. Haçandır şersiz qalıbsan burda.

—…

— Bu misraları özüm yazmışam. İnanmırsan? Vallah, özüm yazmışam. Sənə aid yazmışam. Deyimmi?

—…

Vəfasızdan vəfa ummaq əbəsmiş,
Hicranında oda yanmaq əbəsmiş.
Vəfalıdan zəhər al iç, bal dadar.
Vəfasıza könül vermə, aldadar...

— dedi Nəcməddin və sözlərinin yaxşımı, pismi olduğunu eşitmək üçün azca dayanıb dinşədi: cavab gəlmədiyini görüncə ah çəkib dedi: — Sən belə vəfasız imişsən, sən belə qədirbilməz imişsən!.. Tanrı məhz buna görə sənə belə dəhşətli, ağır cəza verdi. — Bu sözləri deyə-deyə ağlına gəldi ki, daha o, hər sözünün, hər cümləsinin axırında əzizləyə-əzizləyə «Dünyam mənim», «Dünyam», «Dünya xanım» demir, dili gəlmir. Halbuki, sağlığında dili bu sözlərə elə öyrəşmişdi ki, heç lazım olmayanda da tutuquşu kimi bu sözləri təkrar eləməkdən yorulmurdu. İndi isə... dili gəlmirdi. Hətta çaşıb da demirdi.

...Balaca Nəcməddin oyanmışdı. Ağanın tapşırığı ilə Əbdül uşağı geyindirib onun yanına gətirmişdi. Kişi içəridə divanda oturmuşdu. Uşaq, ögey bacısının bir dəfə zarafatla dediyi kimi, daha

adama oxşayırdı. «Atasını» tanıyırdı. Əbdülə daha çox isinişmişdi — çünki günün çoxunu onun qucağında olurdu. O da yorulmaq — usanmaq bilmədən, böyük həvəslə onu oynadır, yedirir, gəzdirirdi: totuq-motuq, qəşəng uşaq idi; qabaqdan ağ süd dişləri çıxmışdı. İpək kimi yumşaq saçları xınayı rəngə çalırdı, uzun kirpikləri vardı.

Nəcməddin onu dizinin üstə, yanında oturtmuşdu. Tez-tez arıq, şəhadət barmağını uşağın çənəsinə, yanaqlarına vurur, muşqururdu, qayğısız aləmdə yaşayan, olub-keçənlərdən, hələ bundan sonra ola biləcək hadisələrdən xəbərsiz olan balaca Nəcməddin şən-şən, qığıldaya-qığıldaya gülürdü, atasının qolundan tutub ayağa qalxır, kişinin saqqalına əl sürtür, anlaşılmaz dilində ona nə isə deyirdi.

Əbdül qapının ağzında gəlib durmuşdu. Ağayi Nəcməddin elə aludəçiliklə uşaqla oynayırdı ki, onun gəlişindən xəbəri olmamışdı. O, öskürəndə Nəcməddin də, uşaq da ona sarı baxdı. Körpə qollarını açıb Əbdülün qucağına getmək istədiyini bildirdisə də, Əbdül cəsarət eləyib irəli gəlmədi; körpə bir neçə dəfə dartındı, ancaq istəyinin cavabsız qaldığını anlayıb yenə atasına sığındı. Ağayi Nəcməddin Əbdüldən soruşdu:

— Zərriyə zəng elədin?

— Bəli, qurban.

— Dedin ki, dəllək və şəkilçəkən gətirsin?

— Bəli, qurban. Dedim. Dedi gətirərəm.

— Hm.

— Ağazadə sizi yordusa, verin mənə, ağa!

— Yoox, qoy oynadım. Sən get, işinlə məşğul ol... — Əbdül baş endirib getdi. Ağayi Nəcməddin zəif, taqətsiz əllərilə oğlunu qaldırıb dizinin üstünə qoydu. Ata-bala üz-üzə, göz-gözə dayandı. Nəcməddin astadan dedi:

— Qibləgahını çox istəyirsən? Balaca Nəcməddin başını tərpətdi.

— Onda üzümdən maç elə, oğul.

Balaca Nəcməddin, sanki kişinin sözlərini başa düşdü, onun yanağından öpdü. Bu zaman o da oğlunu var gücü ilə bağrına basdı, sıxdı, üzündən, alnından, saçlarından öpdü... Qəribə idi, hələ indiyəcən o, öz qəlbində bu uşağa qarşı belə atəşin məhəbbət, istək duymamışdı. Elə bil ata məhəbbəti bu an doğuldu onun ürəyində. Və bu elə güclü bir hiss idi ki, kişinin gözlərini parıldatdı, nurlandırdı, canına qüvvət, güc, hərarət axıb doldu. İstədi onu ürəyinin içinə qoysun. Təəssüfləndi ki, heyf, bü mümkün deyil.

Sonra o, hardansa birdən-birə ürəyinə axıb dolan bir nigarançılıqla balacanı nəzərdən keçirməyə başladı. İstər-istəməz özü ilə müqayisə elədi. Kirpikləri uzundu — anasınınkı kimi. Nəcməddnin burnu uzun və sivri idi, ucu şiş idi. Onunku isə gödəkdi, yastı idi. Nəcməddinin çənəsi enli idi, alt dodağı ilə çənəsi arasında kəsiyəbənzər üfüqi bir xətt vardı. Ancaq körpənin çənəsi uzunsov idi, o üfüqi xətt də yox idi. Atasının sifəti girdə idi, onun sifəti uzunsovdu... Bu fərqləri görəndə onun qolları süstəldi, yenə taqətsizləşdi, bədəni soyudu, gözləri sönən çıraq kimi nurdan düşdü... «Mənə oxşamır? Yox, oxşamır... Anasına oxşayır... Yox, bəlkə?..» — Şübhə yenə ürəyini zəhərlədi. Fikrən ötən günlərə qayıtdı, içərisi göynəyəgöynəyə düşündü ki, yəqin burda da xəyanət var?.. Aman allah, mən nə müsibətə düçar olmuşam! Yox, ola bilməz! Ola bilməz!.. Onda Dünya saf idi, təmiz idi, xəyanətdən, məkrdən uzaq idi! Ola bilməz» — o, uşağı divanın üstünə atdı, ayağa qalxıb ona kənardan baxdı. Sonra götürüb güzgünün qabağına gətirdi, özünə də, ona da nəzər saldı, diqqətlə, tutuşdura-tutuşdura. Əllərinə-ayaqlarına fikir verəndə... bir az toxtadı: uşağın əlləri, ayaqları onunkuna, özününkünə oxşayırdı... Bu zaman Əbdül içəri girdi. O, hərəsan, şübhəli baxışlarla Əbdülü süzdü. Onun üzü tüklü idi, çənəsinin uzunluğunu görə bilməzdi. Görmədi də. «Yox mənim başıma hava gəlir... Ola bilməz...»

Əbdül ağasının baxışlarındakı dəyişikliyi o dəqiqə hiss elədi.

— Sizə nə oldu, ağam?!

— Heeeç...— deyə Nəcməddin səsini uzada-uzada cavab verdi: — Al bu it küçüyünü,... yordu... məni.

Uşağa da sanki atasının ürəyindəki bəd və qorxulu fikirlər agah olmuşdu — quş kimi qanad açıb Əbdülün qucağına qondu, qollarını onun boynuna doladı. Nəcməddin bunu görməmək üçün üzünü yana çevirdi.

...Üz qırxma, şəkil çəkdirmə mərasimi səssiz-səmirsiz keçdi. Əvvəl dəllək ağayi Nəcməddinin üzünü təraş elədi, pulunu alıb getdi. Üzü qırxılandan sonra aydın oldu ki, Nəcməddin nə qədər arıqlayıb. Ətli sifətinin dərisi indi sümüyünə yapışmışdı. Elə arıqlamışdı ki, kişinin tanınmalısı qalmamışdı. Zərrintac da, Əbdül də onu belə görüb nigaran-nigaran bir-birinə baxmışdılar.

Sonra Nəcməddin qızı ilə, oğlu ilə bir yerdə şəkil çəkdirmişdi. Bir dənə də tək çəkdirmişdi. Əkkas[1] gedəndən sonra evə bir matəm sükutu çökmüşdü. Heç kəs dinib-danışmağa cəsarət eləməmişdi.

Nəcməddin ağır addımlarla çarpayısına yaxınlaşıb oturandan sonra demişdi:

— Yadigar qalsın... ona görə çəkdirdim...

Zərrintac xanım — bayaqdan dolub-doluxsunmuş Zərrintac xanım gəlib atasının yanında əyləşdi və danışmağı ilə ağlamağı bir oldu:

— Qibləgahım, qurban olum, niyə özünü məhv edirsən? Gəl səni aparım Amerikaya, Fransaya, Şurəviyə — hara deyirsən aparım, müalicə elətdirim. Oralarda yaxşı həkim var.

— Bilirəm var, qızım... Ancaq... lazım deyil.

— Niyə axı?

Nəcməddin ani sükutdan sonra:

— Mənim beynimi, ürəyimi dəyişmək lazımdı, qızım. Onu da onlar bacara bilməz... — dedi. — Heç kəs bacara bilməz. Heç allah özü də bacara bilməz, qızım...

...Onlar o biri otağa keçəndən iki-üç dəqiqə sovuşmamış, Nəcməddinin otağından güllə səsi eşidildi... Uşaq qorxub qışqırdı. Zərrintac və Əbdül tələsik içəri qaçdılar.

İkinci kitabın sonu.

[1] Əkkas — fotoqraf.

KİTABIN İÇİNDƏKİLƏR

ROMANLAR

İtkin gəlin 10

Əfsanəsiz illər 215

ƏLİBALA QÜDRƏT OĞLU HACIZADƏ

Ə S Ə R L Ə R İ
X CİLDDƏ

III CİLD

Bakı – 2004

Nəşriyyatın direktoru: **Hafiz Abıyev**
Nəşriyyat redaktoru: **Qabil Xeyrullaoğlu**
Korrektor: **Günel Musayeva**
Operator: **İradə Həsənli**
Cildçi: **İlyas Cəlilov**
Çapçı: **Mircəlal Kazımov**

Çapa imzalanmışdır: 02.11.2004. Sifariş № 30. Formatı 84x108$^{1/32}$.
Həcmi 35 ç.v. Tirajı 1500 nüsxə.

Azərbaycan MEA Geologiya İnstitutu «Nafta-Press» nəşriyyatının mətbəəsi,
Bakı şəh. H.Cavid pr. 29 A. Tel.: 4393972